keçirilməsi ilə ölkədə istehsalı çoxaltmaq, daxili bazarı zənginləşdirmək, məhsul ixracı üçün normal mühit yaratmaq kimi problemləri həll etmək olar. Dünya praktikasında olduğu kimi, Azərbaycanın qüvvədə olan qanunlarının tətbiq olunması vasitəsilə, gömrük siyasətindən istifadə olunaraq (tariflər və qeyri tariflər) xarici ticarət nizamlanır.

Açar sözlər: xarici siyasət, dövlətin gömrük siyasəti, gömrük xidmətləri, azad ticarət, gömrük rüsumları.

Summary: In modern times, there is probably no more urgent problem for our economy than the revival of national production, the production of modern competitive products, the introduction of products produced in the country to the world market, the creation of favorable conditions for the development of production for local producers, and the protection of products from negative foreign competition. The most important role for this - one of the important elements aimed at developing production, supporting local producers, protecting the consumer market from negative foreign products - is played by the effective foreign trade policy of the state. The reforms carried out on the development and improvement of foreign trade are among the most important directions in our republic. For this reason, the development of foreign trade policy, the analysis of principles and laws are of great importance.

Customs policy is one of the most powerful means of influence of the state in the development of foreign trade. It is possible to set limits or stimulate certain products in export and import operations, and fill the budget by bringing profit to the country. By implementing these measures, it is possible to solve problems such as increasing production in the country, enriching the domestic market, and creating a normal environment for product export. As in the world practice, foreign trade is regulated using the customs policy (tariffs and non-tariffs) through the application of the effective laws of Azerbaijan.

Keywords: foreign policy, customs policy of the state, customs services, free trade, customs duties.

Giriş

İqtisadi artım-bir ölkənin ölçüləbilən iqtisadi faktorlarının müəyyən müqayisə edilən dövrdə kəmiyyət baxımından dəyişimidir. Ölkənin ümumdaxili məhsul həcminin artması həm iqtisadi böyümə və həm də iqtisadi inkişaf kimi ələ alınır.İqtisadi inkşaf dedikdə təbikidə ancaq ümumi daxili məhsul deyildə ölkənin təhsil,səhiyyə,nəqliyyat,rabitə,turizm və.s kimi faktorlarında inkşafında bəhs olunur.Ümumi daxili məhsulun artmasının özünündə ünsürləri vardır.Beləki ümumi daxili məhsulun tərkibinə baxdığımız zaman orada biz istehlak xərcləri,investisiya,dövlət xərcləmələri və ticarət dövriyyəsi ünsürlərin görürük.Burada isə biz iqtisadi artım və davamlı inkşafı gömrüklə əlaqələndirərək ticarət dövriyyəsi,gömrük siyasəti yoluyla iqtisadiyyatın inkşaf etdirilməsini analiz edəcəyik.Bunun üçün isə biz azad iqtisadiyyat yoluyla gömrük rüsumlarının azalmasıyla ticarətin inkşaf etdirilib ticarət dövriyyəsin inkşaf etdirilməsinə baxılır[1,2].

Xarici ticarət siyasəti anlayışı altında dövlətin müxtəlif vasitələrdən istifadə etməklə digər ölkələrlə ticarət münasibətlərinə məqsədyönlü təsiri başa düşülür. Xarici ticarət siyasəti dövlətin ümumi iqtisadi siyasətinin vacib tərkib hissəsidir. Təsərrüfat inkişafının daxili aspektləri ilə sıx əlaqədə olduğundan xarici ticarət siyasətinin əsas vəzifəsi ölkənin daxili istehsalının genişləndirilməsi və milli sərvətin artırılması üçün əlverişli xarici iqtisadi şəraitin formalaşdırılmasıdır. Ölkənin xarici ticarəti tənzimləməsi baxımından isə biz azad ticarət siyasəti və proteksinonist siyasət olaraq 2 qrupa ayırırıq.

Azad ticarət siyasəti- dövlət xarici ticarətə minimum müdaxilə siyasəti yeridir və xarici ticarət azad bazar qüvvələri, tələb və təklif əsasında inkişaf edir.

Proteksionist siyasət- bu zaman isə ticarət siyasətinin tarif və qeyri-tarif vasitələrindən istifadə etməklə daxili bazarın xarici rəqabətdən müdafiəsi siyasəti həyata keçirilir[3].

Ölkənin bu və ya digər ticarət siyasəti seçməkdə müəyyən məqsədləri olur ki,onlarıda aşağıdaki kimi qeyd etmək olar.Proteksionist ticarət siyasətini seçməkdə əsas məqsədlər;

1. **Xarici rəqabətdən müdafiə**-Ölkələr xarici ticarət iştirakçılarının məhsulları ilə rəqabət apara bilməyəcək daxili istehsal məhsullarını müdafiə etməsi üçün seçə bilər.
2. **Bazar çatışmamazlıqlarının aradan qaldırılması məqsədilə**. Beləki xarici ticarət daxili bazarın strukturunun təkmilləşdirilməsi üçün geniş şəkildə istifadə edilir. Dövlət daxili istehsalın

çatışmamazlıqların ortaya çıxardığı zaman onun təkmilləşdirilməsi,inkşafı və.s ünsürlər üçün gömrük rüsumlarında tarif və qeyri-tarif rüsumlarının tətbiq edilməsilə edə bilər.

3. **Dövlət büdcəsinin gəlirlə təmin edilməsi**.Bəzən idxala və ixraca tətbiq edilən gömrük rüsumları,vergilər dövlət büdcəsində böyük paya sahib ola bilir.Bu baxımdan dövlətlər bəzi nəzarət formaları tətbiq edə bilirlər.

4. **Bəzi sosial və siyasi səbəblər**.Beləki,xarici ticarət siyasətilə ətraf mühitin qorunması,ölkə əhalisinin sağlamlığı və ümumi genefondun müdafiisi məqsədilə isdifadə edə bilər.Məsələn ölkələr GMO-lu məhsulların idxalını sıfıra endirmək və təbii məhsulların öz ölkəsində istehsalına nail olmaq üçün gömrük tənzimləmələri ilə qadağa və məhdudiyyətlər tətbiq edə bilər[4].

Azad ticarət siyasəti seçməyin müsbət yolları aşağıdakılardır;

1. **İqtisadi artımın təmin edilməsi**.Burada ölkələrin etmək istədiyi xarici ticarət iştirakçıların gömrükdən rahat keçməklə ölkə daxilində rahat bir şəkildə ticarət etməklə və ölkənin ticarət iştirakçıları rahatlıqla xaricə məhsul ixrac etməsilə iqtisadi artımın təmin edilməsidir.

2. **Daxili sabitliyin təmin edilməsilə**.Daxili sabitlik dedikdə ölkə daxilində iqtisadi ünsürlər olan inflyasiyanın işsizliyin azaldılmasıdır.Ölkələr azad ticari siyasətlə ölkədə iş yerlərinin artmasilə investisiyaların artmasilə işsizliyin azalmasını və xaricdən gələ biləcək ucuz məhsullarla rəqabətdə ölkə daxilindədə ucuz məhsulların istehsalı ilə inflyasiyanın azalmasın etmək isdəyir.

3. **Xarici bazarlarda inhisar mövqeyinin təmin edilməsilə**.Ölkə daxilində istehsalat inkşaf etdikdən sonra ölkə öz məhsullarını xaricə ixrac etdikdən sonra xarici məhsullar arasında pay sahibi olmaq isdəyir.

4. **Xarici siyasət məqsədlərilə**. Xarici ticarət siyasəti ümumilikdə xarici siyasətin tərkib hissəsi olmaqla birbaşa olaraq onun da məqsədlərinə xidmət edə bilər.Məsələn ölkələr azad ticari siyasətə keçidlə xarici diasporada demokratiklik inkşafı olaraq göstərilə bilər.

Azad ticari siyasətə keçid isə ÜTT(Ümumidünya Ticarət Təşkilatı) üzvlüklə reallaşdırılır.Azərbaycanın inkşafını isə azad ticarət siyasətinə yəni ÜTT-ə üzvlükdə görmək olar.Beləki ölkəmizdə istehsalatın inkşafı üçün yetəri qədər kapital,investisiya yoxdur.Bunun üçün isə ölkə ticarət siyasətində bu yolu seçərək,gömrük qapılarının xarici ticarət iştirakçıları üçün rahatlıqla keçilə bilən etməsi lazımdır[5].

Azərbaycanın ÜTT-ə üzv olma barədə müraciətlər etmişdir bəzi illərdə.Lakin bu danışıqlar nəticəsiz qalmış və hələdə ölkədə istehsalatın inkşaf etdirilməsi yolunda bəzi addımlar atılır.Azad ticarətin Azərbaycan üçün bəzi faydaları və zərələri var.Faydalar bundan ibarətdir.

1. **ÜDM artır**-azad ticarət uzunmüddətli dövrdə ümumi daxili məhsulu artırır.Beləki uzunmüddətdə gömrük rüsumlarının azaldılması səbəilə ölkədə istehsalatın inkşaf üçün istehsalat meyilli idxal arta və ölkənin əmtəə və xidmət ixracında artış olar.

2. **Dövlət xərcləmələri azalır**-Burada əsas diqqət çəkəcək məsələnin bu olmasıdır.Çünki artıq ölkə istehsalçılarını ixraca yönləndirməyəcəkyəni ixrac subsudiyaların azalacaqdır.Çünki azad ticarət nəticəsində ticarət iştirakçıları özləri daha çox pul qazanmaq üçün xaricə yönələcəkdir.Digər bir hal ondadırki ölkəyə olunan investisiyalar nəticəsində ölkə öz dövlət xərcləmələrini bu yöndə azaldacaqdır.

3. **Texnoloji inkşaf.** Azad ticari siyasət nəticəsində ölkəyə investisiya qoyuluşları arta idxalatın asanlaşması səbəbilə ölkəyə müasir texnologiyaların gətirilməsi səbəilə texnika və texnologiya səviyyəsində inkşaf hiss olunan olunacaqdır.

Azad ticarətin mənfi cəhətləri;

1. **Əhali kasıblaşa bilər**-Xaricdən ölkəyə gətirələcək ucuz işçi qüvvəsi ölkədə əhalinin gəlirlərin azaldacaqdır.

2. **Təbii resursların deqradasiyası**-Ölkə ixraca meyillənməsi və ölkəyə xarici ticarət iştirakçılarının axını nəticəsində ölkədə olan təbii sərvətlərin intensiv isdifadə olunması səbəbilə təbii sərvətlərin deqaradasiyası baş verəcəkdir[6].

Azərbaycanın ÜTT-ə üzvlülüyünün fayda və zərərləri olduğu kimi bu proses nəticəsində ölkənin bəzi qazancları və itkilərimiz olacaqdır.

Azərbaycanın ÜTT-ya üzvlüyü: qazanclarımız

1. Sahibkarlar üçün ÜTT-ya üzv olan bütün dövlətlərin bazarına təminatlı çıxış imkanları yaranır-Çünki ÜTT ölkələri arasında tam və gömrük rüsumları olmadan ticarət əlaqələri vardır

müqavilə əsasında.Monopoliyaya icazə yoxdur xarici ticarət iştirakçıları rahatlıqla,gömrük rüsumsuz məhsul gətirib sata bilir.

2. Milli bazarda rəqabət artır-Ölkəyə daxil olan istehsalat məhsulların gömrükdə çoxda yüksək rüsumlarla yox aşağı faizli rüsumlarla daxil olması nəticəsində istehsalat artar və xarici ticarət iştirakçılarında daxil olması ilə ölkə bazarında rəqabət artar.

3. Istehlakçılar daha ucuz va keyfiyyətli mal alırlar-Tam rəqaəbt şərtləri səbəbiylə ölkədə suni qiymət artımının qarşısı alınar və yaxud ölkəyə istehlakçılar üçün tədarükçülər daha ucuz məhsullar idxal edə bilərlər.

4. Mütərəqqi texnologiyaların əldə edilməsi imkanları genişlənir-ölkəyə olunan investisiyalar səbəbilə ölkədə texnika texnologiyanın inkşafına səbəb olar.

5. Ölkəyə inam artır, onun investisiya va kredit riskliliyi azalır-Ölkənin ÜTT-ə üzvlüyü nəticəsində ölkənin idarəetməsində demokrotiya əlamətlərinin olması səbəbilə ölkəyə güvən artır.

6. ÜTT üzvü olan bütün ölkələrin arazisindan təminatlı tranzit hüququ əldə olunur.

7. Xarici ticarət prosedurlarının sadələşdirilməsi, idxal va ixrac əməliyyatlarının uçotu va hesabatı sisteminin şəffaflaşdırılması, süni bürokratik əngəllarin aradan qaldırılması nəticəsinda gizli ticarət dövriyyəsinin va korrupsiyanın həcmi azalır.

8. Çoxtərəfli ticarət danışıqlarında tam va bərabər hüquqlu üzv dövlət olaraq iştirak edir va dünya ticarət siyasətinə təsir imkanları qazanırıq-rüsumsuz ticarət nəticəsində ölkə məhsulları xarici məhsullarla tam şəkildə rəqabət edir və xarici bazarlardada pay sahibi ola bilir[7].

Azərbaycanın ÜTT-yə üzvlüyü: itkilərimiz

1. Dövlət büdcəsinə daxilolmaların azalması baş verə bilar-beləki gömrük rüsumları vergilər böyük paya sahib ola bilir və gömrük rüsumlarınnan azadolmalarla ticarət bu gəlirlərin azalmasına səbə olur.

2. Yerli istehsalın müdafiəsi imkanları azalır-Xarici ticarət iştirakçılarının ölkəyə rahat şəkildə daxil olması nəticəsində ölkədəki istehsalçılar məhsul rəqabətinə tab gətirməyə bilər və daxili istehsal məhv ola bilər.

3. Tənzimlənən qiymətlərin dünya bazar səviyyəsinə çatdırılması istehlakçıların xərclərini artırır-ölkə daxilinə daxil olan mallar ölkədə ümumi qiymət səviyyəsində defilyasiya yoxda inflyasiyaya səbəb ola bilər buda istehlakçılara əlavə xərclər yaradar.

4. Hazır məhsulun idxalının üstün gəlirliyi baxımından idxalı əvəz edə biləcək sahələrə investisiya qoyuluşunun səmərəliliyi aşagı düşür va nəticədə milli iqtisadiyyata ümumi investisiya qoyuluşu azalır.Məsələn "X" məhsulunun idxalı nəticəsində yüksək gəlirlilik var lakin idxaldan gələn gəlir istehsalçıları qane etməsi səbəbilə idxalı daxili istehsala və ixraca çevirmək isdəmirlər[8].

Nəticə etibarilə bunu qeyd edə bilərikki iqtisadi artım ümumi daxili məhsulda artışla özünü biruzə verməsi səbəbilə biz onu gömrük qapılarının xarici ticarət iştirakçılarına açılmasilə edə bilərik.Davamlı inkşafa toxunduqda isə gömrük siyasətinin dəyişdirələrək açıq iqtisaiyyat tətbiq edərək üzünmüddətli dövrdə iqtisadi artım əldə edib davamlı inkşaf əldə edilə bilər.

Nəticə və təkliflər

Gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün dövlətin əsas vasitələrindən biridir və yalnız Azərbaycan sahibkarlarının beynəlxalq əməkdaşlığa cəlb olunmasını stimullaşdırmaq, yerli və xarici sənayeçilər arasında ədalətli rəqabətin təşviqi məqsədilə həyata keçirilən tədbirlər sayəsində iqtisadiyyatda müsbət nəticələr əldə etmək mümkündür.

Ölkədə baş verən gömrük prosesləri operativliyin keyfiyyətinin və icrasının tamlığının müəyyən göstəricilərinə malikdir – obyektivlik; məxfilik; səhvlərin mövcudluğu; xarici iqtisadi fəaliyyət iştirakçılarının şikayətlərinin olması; ixrac üçün qadağan edilən mal və texnologiyalar ixracına qarşı zəmanətli qorunma; zərərli, təhlükəli və qeyri-standart malların idxalına qadağa qoyulmasına qarşı zəmanətli qorunma. Dövlətimizin gömrük orqanları gömrük proseslərinin keyfiyyətini təmin etməkdə və eyni zamanda, Azərbaycan Respublikasının gömrük sərhədindən ticarətin sürətlənməsinə şərait yaratmaqda məsuliyyətlidirlər. Bu, ciddi yanaşma tələb edir və buna görə də gömrük işçiləri öz əməyinin yaxşılaşdırılması istiqamətində daim işləməli, eləcə də aşağıdakı sahələrdə təkmilləşməlidirlər:

- Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə ünsiyyət qurma prosedurlarını hazırlamaq, bu əlaqələri daim səmərəliləşdirmək;
- Gömrük proseslərinin texnologiyasını və onların keyfiyyəti idarəetmə sistemini təkmilləşdirmək;
- Gömrük işçilərinin kvalifikasiyalarını artırmaq;
- Gömrük orqanlarının işçiləri arasında öz əməyinin keyfiyyəti üzrə məsuliyyət yaratmaq üçün daxili motivasiya mexanizmini təkmilləşdirmək;
- Xarici iqtisadi fəaliyyətdə iştirakçılarla işləmənin prosedurlarını davamlı şəkildə təkmilləşdirmək üçün gömrük proseslərinin keyfiyyətinin daxili yoxlanılmasının sistemləşdirilməsi mexanizmini hazırlamaq;
- Dövlət tənzimlənməsinin həyata keçirilməsi və tənzimlənmə səylərinin əlaqələndirilməsi üçün mexanizm hazırlamaq;
- Digər hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilməsi üçün hüquqmühafizə tədbirlərinin taktikası və strategiyasının koordinasiyası və əlaqələndirilməsi[9,10].

Ədəbiyyat siyahısı

1. Azərbaycan-2030: sosial –iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021) AZƏRBAYCAN RESPUBLİKASI Prezidentinin sərəncamı
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. AR Prezidentinin Sərəncamı// 22 iyul 2022
3. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı.AR Prezidentinin Sərəncamı// 28 avqust 2023
4. A.Şəkərəliyev, Z.Şəkərəliyeva."Gömrük işinin təşkili və idarə edilməsi" Dərs vəsaiti."İqtisad Universiteti" nəşriyyatı. Bakı 2015 səh:168
5. Əlırzayev.Ə.Q. Sosial-mədəni iqtisadi inkişaf və tənzimləmə (2016), "İqtisad Universiteti" nəşriyyatı. Səh-458
6. Əliyev T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. Bakı, "Elm və bilik" 2019, 532 səh.
7. Rahmanov, F.P . Sosial Sfera ve Sosial Siyaset (2021)Dərs Vəsaiti, "MSV NƏŞR",səh-436
8. Rahmanov.F.P., Süleymanov.E.B. Azərbaycan iqtisadiyyatı: makroiqtisadi analiz. Dərs Vəsaiti, "MSV NƏŞR", Bakı 2021, səh-408.
9. https://customs.gov.az/
10. https://www.economy.gov.az/az

AZƏRBAYCANIN GÖMRÜK SİSTEMİ: QARŞILAŞILAN PROBLEMLƏR VƏ XİDMƏTLƏRİN PERSPEKTİV İSTİQAMƏTLƏRİ

HƏŞİMOVA ALBİNA
Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası
İqtisadiyyat
Albina-hesimova@mail.ru
AZƏRBAYCAN, BAKI

SADIQZADƏ RÜSTƏM
Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası
İqtisadiyyat
rustamsadigzada8@gmail.com
AZƏRBAYCAN, BAKI

Xülasə: Müasir zamanda hər bir ölkənin qarşısında dayanan başlıca məqsəd milli bazarın müdafiə olunması eləcə də xarici iqtisadi fəaliyyətin mütərəqqi şəkildə təkmilləşdirilməsidir. Bu kimi hədəflərin reallaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının gömrük fəaliyyətinin tam, dürüst, optimal idarəsi olduqca gərəklidir. Burada ölkələr ümumi iqtisadi siyasətinin tərkib elementi

sayılmaqda olan gömrük siyasəti tətbiq edirlər. Qeyd edək ki, gömrük işi beynəlxalq ticarətin yaranması eləcə də inkişaf etməsi sayəsində formalaşmışdır Müstəqillik illərində başqa-başqa dövlətlər ilə ticarət münasibətlərində gömrük fəaliyyətinin məqsədəuyğun şəkildə formalaşması, gömrük sərhədlərinin müdafiə olunması məsələsi respublika üzrə vacib sayılan bir hədəfdir.

Göstərilən faktor ölkənin beynəlxalq iqtisadiyyatında əlaqələrinin daha da artıb güclənməsindən asılılıq təşkil edir. Bundan başqa mallar ilə ticarət anında müyyən zamanlarda əqli mülkiyyət hüquqlarının pozuntusu halları yaranır. Ölkədə gömrük işinin bu kimi vəziyyətlərin qarşısını almaqda rolu yüksəkdir. Belə ki, gömrük sisteminin müasir və dünya təcrübəsinə əsaslanmış qaydada təşkili sayəsində ölkənin daxili bazarına qadağan edilmiş əmtəələrin gətirilməsinin qarşısıı alınır. Respublikada fəaliyyət göstərən bu sahə iqtisadi tərəqqiyə, mütəşəkkil cinayətkarlığa və digər hüquq pozulmaları əlehinə mübarizənin həyata keçirilməsinə eləcə də insanların sağlamlığı və təhlükəsizliyinin müdafiə olunmasına yardım göstərir. Ölkənin gömrük orqanları ənənəvi şəkildə ölkəyə gətirilən və aparılan əmtəələrin maliyyə aspektlərinə ayrıca formada diqqət edirlər. Burada idxal rüsumları milli bazarın müdafiə olunması üçün bir sıra məhsullara qoyulur.

Açar sözlər: gömrük xidmətləri, gömrük prosedurları, gömrük strategiyası, beynəlxalq əlaqələr, proseslərin sadələşdirilməsi.

Summary: The main goal facing every country in modern times is the protection of the national market as well as the progressive improvement of foreign economic activity. In order to achieve such goals, full, honest and optimal management of the customs activities of the Republic of Azerbaijan is very necessary. Here, the countries apply the customs policy, which is considered an integral element of the general economic policy. It should be noted that the customs work was formed thanks to the emergence and development of international trade. During the years of independence, the issue of proper formation of customs activity in trade relations with other states and protection of customs borders is an important goal for the republic.

This factor is dependent on the country's international economic relations increasing and strengthening. In addition, cases of violation of intellectual property rights sometimes arise during trade with goods. The role of customs in the country is high in preventing such situations. Thus, due to the organization of the customs system based on modern and world experience, the introduction of prohibited goods to the domestic market of the country is prevented. This field, which operates in the republic, helps to fight against organized crime and other violations of the law, as well as to protect people's health and safety. The customs authorities of the country traditionally pay special attention to the financial aspects of goods imported and exported to the country. Here, import duties are imposed on a number of products to protect the national market.

Keywords: customs services, customs procedures, customs strategy, international relations, process simplification.

Giriş

Qlobal ticarət dinamikasının tərkib hissəsi olan Azərbaycan Gömrük Xidməti mürəkkəb problemlərlə müşahidə olunan mürəkkəb mühitdə fəaliyyət göstərir. Biz bu araşdırmanı apardıqca ortaya sual çıxır: Gömrük Xidmətinin qarşısında duran spesifik problemlər hansılardır və bu problemlər həm onun bilavasitə funksionallığında, həm də işində necə özünü göstərir? Bu, hesabatların hərtərəfli nəzərdən keçirilməsini, maraqlı tərəflərlə müsahibələrə cəlb olunmasını və mövcud gömrük proseslərinin təhlilini tələb edir. Xidmətin üzləşdiyi mürəkkəblikləri və çətinlikləri işıqlandırmaq yolu ilə bu təcrübəvi yanaşma dərin perspektiv təmin etmək məqsədi daşıyır. Araşdırma davam etdikcə, inandırıcı bir nəticə ortaya çıxır - Azərbaycanın Gömrük Xidməti həlledici nöqtədə dayanır. Müəyyən edilmiş problemlər təkcə maneələr təqdim etmir, həm də müsbət transformasiya üçün bir fürsətdir. Təklif olunan həll yolları islahatları, texnoloji irəliləyişləri və özəl sektorla artan əməkdaşlığı əhatə edir. Bu tədbirlər vasitəsilə Gömrük Xidməti qlobal ticarət ssenarisində öz rolunu yenidən müəyyən etmək potensialına malikdir. Bu nəticə Azərbaycanda daha səmərəli və şəffaf beynəlxalq ticarət mühitinə və əlavə araşdırmalar üçün zəmin yaradır[1].

Gömrük malların və insanların sərhədlərdən keçirilməsini tənzimləyən və nəzarət edən dövlət orqanıdır. Əsas funksiyalara idxala rüsum və tariflərin qoyulması, qanuni ticarətin asanlaşdırılması, sərhəd təhlükəsizliyinin təmin edilməsi, ticarət qaydalarına riayət olunmasının təmin edilməsi, gəlirlərin toplanması və effektiv gömrük idarəçiliyi üçün beynəlxalq əməkdaşlıq daxildir.

Gömrük Xidmətinin Məsuliyyətləri:

- Gömrük rüsumları və rüsumları: İdxal və ixrac əməliyyatları zamanı gömrük rüsumlarının və ödənişlərinin qəbulu və idarə edilməsində alətdir.
- Sənədlərə Nəzarət və Əməliyyatlar: İdxal və ixrac əməliyyatları üçün tələb olunan sənədlərin ciddi yoxlanılması və redaktə edilməsi.
- Gömrük Prosedurlarının Tənzimlənməsi: Gömrük prosedurlarının tənzimlənməsində və nəzarətində, beynəlxalq standartlara riayət olunmasının təmin edilməsində həlledici rol oynayır.
- İdarəetmə və Audit: Kompleks yoxlamalar və yoxlamalar vasitəsilə qaçaqmalçılıqla mübarizə, gömrük prosesinin bütövlüyünün təmin edilməsi.
- Gömrük Statistikası və Hesabatları: Gömrük prosedurlarının və ticarət statistikasının həyata keçirilməsinə və hesabat verilməsinə cavabdehdir.

Azərbaycan Respublikasında Gömrük fəaliyyətini göstərən Dövlət Gömrük Komitəsi gömrük qanunlarının icrasına, idxala görə rüsumların və tariflərin yığılmasına, ticarətin asanlaşdırılmasına, sərhəd təhlükəsizliyinin təmin edilməsinə, gömrük sənədlərinin işlənməsinə, dövlət gəlirlərinin toplanmasına və digər gömrük orqanları ilə beynəlxalq səviyyədə əməkdaşlıq etməyə cavabdehdir. Strateji baxımdan Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycan regional inkişafı təşviq edən və qlobal ittifaqları möhkəmləndirən beynəlxalq iqtisadi layihələrdə əsas tərəfdaş kimi çıxış edir. Bu səylərin mərkəzində iqtisadi əməkdaşlıqları, enerji müəssisələrini və maneəsiz transsərhəd ticarəti asanlaşdıran möhkəm gömrük xidmətini əhatə edən hərtərəfli strategiya durur[2,3].

Gömrük xidmətinin aktiv iştirak etdiyi beynəlxalq layihələr:

✓ Cənub Qaz Dəhlizi (SGC): Azərbaycanın gömrük orqanları Cənub Qaz Dəhlizinin (CQD) rahat icrasının təmin edilməsində mühüm rol oynayır. Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) üçün sadələşdirilmiş gömrük prosedurları ilə bu təşəbbüs təkcə Azərbaycanın iqtisadi mənzərəsini genişləndirmir, həm də Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli dərəcədə töhfə verir. Gömrük təcrübələri beynəlxalq ticarət qaydalarına uyğunluğu təmin edərək layihə üçün həyati əhəmiyyət kəsb edən malların səmərəli daşınmasını asanlaşdırır.

✓ Bakı-Tbilisi-Ceyhan (BTC) Boru Kəməri və Bakı-Tbilisi-Qars (BTQ) Dəmir Yolu: Gömrük prosedurları xam neftin BTC boru kəməri ilə səmərəli nəqlinin ayrılmaz hissəsidir və Azərbaycanın enerji resursları üçün həyati əhəmiyyət kəsb edir. Eyni zamanda, gömrük əməliyyatları Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunu dəstəkləyir, tarixi ticarət yollarını canlandırır və Avropa ilə Asiya arasında müasir əlaqə yaradır. Bu infrastruktur təkcə Azərbaycanın iqtisadi əlaqələrini gücləndirmir, həm də malların sərhədlərdən təhlükəsiz və vaxtında keçirilməsini təmin etmək üçün gömrük protokollarına əsaslanır.

✓ Şimal-Cənub Nəqliyyat Dəhlizi: Azərbaycanın gömrük orqanları Şimal-Cənub Nəqliyyat Dəhlizinin uğuruna fəal töhfə verir, ölkənin səmərəli nəqliyyat əlaqələrinin asanlaşdırılmasına və möhkəm iqtisadi əməkdaşlığın təşviqinə sadiqliyini vurğulayır. Azərbaycanı müxtəlif regionlar arasında qarşılıqlı əlaqənin gücləndirilməsində əsas oyunçu kimi yerləşdirərək, bu əməkdaşlıq səyində malların rəvan transsərhəd daşınması üçün gömrük təcrübəsi vacibdir.

✓ Ələt Azad Ticarət Zonası: Strateji baxımdan Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər dənizinin yaxınlığında yerləşən Ələt Azad Ticarət Zonası ticarət və investisiyaların təşviqinə yönəlmiş gömrüklə inteqrasiya olunmuş layihədir. Azad ticarət zonasında gömrük prosedurları malların daşınmasını asanlaşdırmaq, xarici investisiyaları təşviq etmək və Azərbaycanın regional ticarət mərkəzi kimi mövqeyini gücləndirmək üçün nəzərdə tutulub. Beynəlxalq layihələr sferasında Gömrük Xidməti gömrük xidmətləri arasında ticarətin təhlükəsiz şəkildə aparılmasını təmin edən bir dayaq rolunu oynayır. Gömrük prosedurları Azərbaycanın iqtisadi siyasətinin dəstəklənməsi və tənzimlənməsində mühüm rol oynayır. Gömrük Xidmətinin modernləşdirmə və səmərəlilik öhdəliyi beynəlxalq ticarət üçün əlverişli mühit yaratmaqla daha geniş iqtisadi baxışa uyğun gəlir[4].

Gömrük xidməti zamanı yaranma ehtimalı olan problemlər:

➢ Gömrük Prosedurlarının Uyğunlaşdırılması: Qonşu ölkələr arasında gömrük prosedurlarının vahidliyinin və uyğunluğunun təmin edilməsi sərhədyanı ticarətin fasiləsiz aparılması üçün mühüm əhəmiyyət kəsb edir. Fərqli qaydalar fəsadlara səbəb ola bilər.

➢ İnfrastruktur fərqləri: Qonşu dövlətlər arasında infrastrukturun inkişafındakı qeyri-bərabərlik ümumi regional ticarət axınlarına təsir edərək, sərhəd keçidlərinin səmərəliliyində və gömrük emalında dəyişikliklər yarada bilər.

➢ Qaçaqmalçılıq və qanunsuz ticarət: Gömrük orqanları qaçaqmalçılıq və qeyri-qanuni ticarət təhlükəsi ilə, o cümlədən narkotik vasitələrin, silahların, saxta malların və digər qadağan olunmuş əşyaların dövriyyəsi ilə daim mübarizə aparmalıdırlar. Mürəkkəb qaçaqmalçılıq üsulları və cinayət şəbəkələri bunu davamlı problemə çevirə bilər.

➢ Səmərəli Gömrük Prosedurları:Çətin və vaxt aparan gömrük prosedurları malların rəsmiləşdirilməsində gecikmələrə səbəb ola bilər, ticarətin səmərəliliyinə təsir edə bilər. Prosedurların sadələşdirilməsi və modernləşdirilməsi bu problemi aradan qaldırmağa kömək edə bilər.

➢ Qeyri-kafi infrastruktur və texnologiya: Köhnəlmiş infrastruktur və müasir texnologiyanın olmaması gömrük əməliyyatlarına mane ola bilər. Məlumatların idarə edilməsi, risklərin qiymətləndirilməsi və elektron sənədləşdirmə üçün qabaqcıl sistemlərə sərmayə qoyuluşu səmərəlilik üçün çox vacibdir.

➢ Ticarətin asanlaşdırılması maneələri: Mürəkkəb sənədləşdirmə tələbləri, kvotalar və lisenziyalaşdırma prosedurları kimi qeyri-tarif maneələri malların sərhədlərdən rahat keçməsinə mane ola bilər və həm gömrük orqanları, həm də ticarətçilər üçün çətinliklər yarada bilər.

➢ Qeyri-adekvat Resurslar:Məhdud resurslar, o cümlədən maliyyə və işçi heyəti gömrük əməliyyatlarının effektivliyini məhdudlaşdıra bilər. İnfrastrukturun saxlanılması, texnologiyanın tətbiqi və yaxşı təlim keçmiş kadrların təmin edilməsi üçün adekvat investisiya lazımdır.

➢ Məlumat Təhlükəsizliyi və Məxfilik Narahatlıqları: Elektron məlumat mübadiləsinə artan etibar gömrük orqanlarını məlumatların təhlükəsizliyi və məxfilik problemləri ilə üz-üzə qoyur. Həssas məlumatların icazəsiz girişdən və ya kiber təhdidlərdən qorunması mühüm problemdir.

➢ Tariflərin təsnifatı və qiymətləndirilməsi ilə bağlı mübahisələr: Malların düzgün təsnifatı və qiymətləndirilməsi ilə bağlı mübahisələr yarana bilər ki, bu da gömrük orqanları ilə idxalçılar arasında fikir ayrılığına səbəb olur. Tariflərin təsnifatında və qiymətləndirməsində aydınlıq ədalətli və ardıcıl gömrük təcrübələri üçün çox vacibdir.

➢ Siyasi və geosiyasi məsələlər: Gömrük əməliyyatlarına siyasi gərginliklər və geosiyasi məsələlər təsir edə bilər ki, bu da ticarət siyasətlərində dəyişikliklərə, sərhədlərin bağlanmasına və ya ticarət axınlarının pozulmasına gətirib çıxarır.

➢ Pandemiyalar və Qlobal Böhranlar: Pandemiya və ya digər qlobal böhranlar kimi hadisələr gömrük orqanlarının üzərinə əlavə yüklər qoya bilər ki, bu da onlardan dəyişən şərtlərə tez uyğunlaşmağı, sağlamlıq protokollarını həyata keçirməyi və təchizat zəncirindəki fasilələri idarə etməyi tələb edir.

Bu regional problemlərin həlli ümumi çərçivələr yaratmaq, prosedurları sadələşdirmək və regional iqtisadi inteqrasiyanı təşviq etmək üçün tandemdə işləyən ölkələrlə əməkdaşlıq yanaşmasını tələb edir. Bu problemlərin aradan qaldırılmasında koordinasiya və əməkdaşlıq regionun ümumi inkişafına və çiçəklənməsinə mühüm töhfə verə bilər. Bu əməkdaşlıq səyləri müxtəlif maraqlı tərəfləri, o cümlədən bizneslər, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyəti cəlb etmək üçün gömrük orqanlarından kənara çıxmalıdır. Bundan əlavə, qabaqcıl texnologiyaların və məlumat mübadiləsi mexanizmlərinin tətbiqi regional gömrük proseslərinin səmərəliliyini və şəffaflığını daha da artıra, davamlı iqtisadi artım və ticarətin asanlaşdırılması üçün əlverişli mühiti gücləndirə bilər[5,6].

Gömrük xidmətlərinin perspektif istiqamətləri:

- Yaşıl Gömrük Təşəbbüsü: Ekoloji davamlılıq məqsədlərinə uyğun olaraq Azərbaycan Yaşıl Gömrük Təşəbbüsünü qəbul etmişdir. Bu layihə gömrük prosedurlarını ekoloji mülahizələrlə birləşdirir, ekoloji cəhətdən həssas malların düzgün idarə edilməsini və monitorinqini təmin edir və davamlı ticarət təcrübələrini təşviq edir.
- Sərhədlərarası Ticarətin Asanlaşdırılması Sazişləri: Azərbaycan qonşu ölkələrlə transsərhəd ticarətin asanlaşdırılması sazişlərində fəal iştirak edir. Bu sazişlər regionda iqtisadi əməkdaşlığı artırmaq üçün gömrük qaydalarının uyğunlaşdırılmasına, tranzit vaxtlarının azaldılmasına və maneəsiz transsərhəd ticarətin təşviqinə yönəlmişdir.
- Gömrük-Özəl Sektor Əməkdaşlığı: Gömrük-Özəl Sektor Əməkdaşlığının inkişafı gömrük orqanları ilə biznes ictimaiyyəti arasında birbaşa əlaqəni təşviq edir. Bu təşəbbüs rəy toplamaq,

narahatlıqları həll etmək və həm hökumətə, həm də biznesə fayda gətirərək, gömrük proseslərinin səmərəliliyini artırmaq üçün birgə həllər tapmaq məqsədi daşıyır.

- Gömrük Laboratoriyası və Yoxlama Obyektləri: Keyfiyyət və təhlükəsizlik standartlarına uyğunluğu təmin etmək üçün Azərbaycan gömrük laboratoriyasına və yoxlama obyektlərinə sərmayə qoyub. Bu obyektlər malların, xüsusən enerji və sənaye layihələri ilə bağlı olanların yoxlanılmasında mühüm rol oynayır və ticarət proseslərinin ümumi bütövlüyünə töhfə verir.
- Azərbaycan Ticarət və Nəqliyyatın Asanlaşdırılması Layihəsi: Dünya Bankının dəstəklədiyi bu layihə gömrük prosedurlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirməklə ticarət və nəqliyyatın asanlaşdırılmasının gücləndirilməsinə yönəlib. Gömrük əməliyyatlarını modernləşdirməklə layihə ticarət xərclərini azaltmaq, rəqabət qabiliyyətini artırmaq və iqtisadi inkişafı stimullaşdırmaq məqsədi daşıyır.
- Gömrükdə Elektron Hökumət: Azərbaycanın rəqəmsal transformasiyaya sadiqliyinə gömrükdə elektron hökumət təşəbbüslərinin həyata keçirilməsi daxildir. Elektron gömrük sistemlərinin tətbiqi səmərəliliyi artırır, sənədləşmə işini azaldır və müxtəlif infrastruktur layihələrini və ticarət dəhlizlərini dəstəkləməklə beynəlxalq ticarət üçün şəffaf və sadələşdirilmiş prosesi təmin edir.
- Gömrük Risklərinin İdarə Edilməsi Sistemi: Gömrük Risklərinin İdarə Edilməsi Sisteminin tətbiqi sərhəd təhlükəsizliyinin gücləndirilməsinə və qanuni ticarətin asanlaşdırılmasına yönəlib. Bu sistem potensial riskləri müəyyən etmək və həll etmək üçün qabaqcıl texnologiyadan və məlumatların təhlilindən istifadə edir, təhlükəsizlik təhdidlərini azaldarkən malların rahat hərəkətini təmin edir.
- Gömrük rəsmiləşdirilməsi üçün bir Pəncərə prinsipi: Gömrük rəsmiləşdirilməsi üzrə 1Pəncərə ticarət proseslərində iştirak edən çoxsaylı dövlət qurumlarını birləşdirən hərtərəfli layihədir. Bu təşəbbüs bütün lazımi sənədləri təqdim etmək, gecikmələri azaltmaq və ümumi ticarət səmərəliliyini artırmaq üçün vahid giriş nöqtəsini təmin etməklə gömrük rəsmiləşdirilməsini sadələşdirmək və sürətləndirmək məqsədi daşıyır.
- Regional Gömrük Əməkdaşlıq Təşəbbüsləri: Azərbaycan qonşu ölkələrlə və regional təşkilatlar çərçivəsində regional gömrük əməkdaşlığı təşəbbüslərində fəal iştirak edir. Bu əməkdaşlıqlar gömrük prosedurlarının uyğunlaşdırılmasına, ticarət maneələrinin azaldılmasına və malların sərhədlərdən daha qüsursuz daşınmasına kömək edir.
- Gömrük Təlimi və Potensialın Gücləndirilməsi: Bacarıqlı gömrük kadrlarının vacibliyini dərk edərək, Azərbaycan gömrük işçiləri üçün təlim və bacarıqların artırılması proqramlarına sərmayə qoyur. Bu təşəbbüslər gömrük işçilərinin səriştəsini artırmaq, onların beynəlxalq ticarətin mürəkkəbliklərini idarə etmək və müxtəlif layihələrə effektiv töhfə vermək üçün yaxşı təchiz olunmasını təmin etmək məqsədi daşıyır.
- Gömrük modernləşdirilməsi prosesi: Azərbaycanda gömrük proseslərinin sadələşdirilməsinə, şəffaflığın artırılmasına və ticarət maneələrinin azaldılmasına yönəlmiş Gömrük işinin müasirləşdirilməsi prosesi həyata keçirilib. Bu təşəbbüs təkcə konkret layihələr üzrə gömrük əməliyyatlarının səmərəliliyinə deyil, həm də ölkədə biznesin aparılmasının ümumi asanlığına öz töhfəsini verir[7,8].

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Hər bir ölkənin gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi məqsədilə ölkənin mühüm alətlərindən biri sayılır və ancaq yerli sahibkarların beynəlxalq əməkdaşlığa cəlbini stimullaşdırmaq, daxili və xarici sənayeçilər arasında dürüst formada rəqabətin təşviq olunması üçün reallaşdırılan tədbirlər nəticəsində iqtisadiyyatda bir sıra uğurlu nəticələr qazanmaq mümkündür. Aparılan araşdırmanın yekunlarına əsasən, xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi ancaq gömrük normalarının tamlıqla eləcə də düzgün reallaşdırılması üçün imkan olduğu zaman təqdirdə mümkün ola bilər.

Respublikanın digər dövlətlərlə eləcə də beynəlxalq səviyyəli təşkilatlarla səmərəli münasibətlərin qurulması gömrük fəaliyyətinin dəqiq və düzgün həyata keçirilməsindən birbaşa asılıdır. Həmçinin, ölkəninn reallaşdırdığı gömrük siyasəti gömrük fəaliyyətinin təşkili o cümlədən idarəsində yeni innovativ sayılan üsulların tətbiqi dərəcəsindən də asılıdır. Ölkədə gömrük fəaliyyətinin səmərəli həyata keçirilməsi və müasirləşdirilməsi elə bu cəhətdən vaciblik kəsb edir.

Azərbaycan Respublikasında əvvəlki dönəmlərdə gömrük sistemində əhəmiyyətli yeniliklər həyata keçirilmiş, gömrük orqanlarında şəffaflıq daha da yüksəldilmiş, əmtəələrin bəyan edilməsi

eləcə də rəsmiləşdirilmə işinin elektron qaydada icrası təmin edilmişdir. Yerli iqtisadiyyatımızın daha da stimullaşdırəlması, eləcə də ölkəmizin iqtisadi siyasətindən doğmuş olan başlıca vəzifələrin reallaşdırılması, ölkənin gömrük sərhədindən malların aparılaması və gətirilməsinin qanunverici akrtlara müvafiq reallaşdırılmasının təmin edilməsi, dövlətin ticarətiqtisadi əlaqələrdə gömrük tənzimlənməsi üsullarından istifadə etmək, gömrük orqanları tərəfindən toplanmış ödənişlərin ölkə büdcəsinə ötürülməsinin təmin edilməsi, bundan əlavə valyuta nəzarətinin tətbiq edilməsi, iqtisadi təhlükəsizliyin mütərəqqi qaydada təmini və milli bazarın qorunması, gömrük nəzarətinin daha da gücləndirilməsi, gömrük sferasında cinayətlərə eləcə də başqa prosessual hərəkətlərə qarşı mübarizə, narkotik həmçinin psixotrop maddələrin qeyri-qanuni keçirilməsinin qarşısı alınması, kadr siyasətinin səmərəliyinin artırılması sahəsində zəruri fəaliyyətlər aparılmışdır.

Burada qoyulan məsələlərnin həll olunması yönündə müəyyən təklif və tövsiyələr təqdim edilmişdir.

- Azərbaycan Respublikasının gömrük işinin qarşısında dayanan başlıca məsələlərdən biri sayılan daxili iqtisadiyyatın kənar rəqabətin mənfi təsirlərindən qorunması vaxtı meydana gəlməkdə olan maneələri həll etməkdir. Elə buna görə də hüquqi-normativ bazanın, qanunvericiliyin möhkəmləndirilməsi işləri davam etdirilməlidir.
- Ölkənin gömrük işinin aparılmasında başlıca hədəf xammal eləcə də investisiya istiqamətli sayılan əmtəələrə təsiredici imkanın yaradılması, həmçinin daxili istehsalçıların hüquq və mənafelərinin müdafiə edilməsi isiqamətində olmalıdır.
- Yerli istehsal sayılan malların ixrac edilməsi işinin yüksəldilməsini dəstəkləmək məqsədilə ixrac üzrə xüsusi ekspertlərin hazırlanması eləcə də gömrük fəaliyətinin təşkil edilməsi həmçinin idarəsinin dünya standartlarına müvafiqliyinin təmini, gömrük tarifinin dərəcələrini dövlətin inkişaf konsepsiyasının hədəflərinə uygunlaşdırmaq önəmli səviyyədə zəruridir.
- Gömrük orqanları tərəfindən gömrük daxilolmalarının dövlət büdcəsində çoxaldılması və ya optimalllaşdırılması məqsədilə hüquqi-normativ qanunverici baza formalaşdırılmalıdır.
- Ölkədə gömrük siyasətinin həyata keçirilməsi üçün optimal, elmi əsaslandırlmış daha çox çağdaş dəyərlərə söykənmiş gömrük sistemi formalaşdırmaq[9,10].

ƏDƏBIYYAT SIYAHISI

11. Azərbaycan-2030: sosial –iqtisadi inkişafa dair Milli Prioritetlər. (2021) AZƏRBAYCAN RESPUBLİKASI Prezidentinin sərəncamı
12. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. AR Prezidentinin Sərəncamı// 22 iyul 2022
13. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı.AR Prezidentinin Sərəncamı// 28 avqust 2023
14. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A. (2018). "Gömrük işinin təşkili və idarə edilməsi". Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 292 səh.
15. Aslanov H. "Beynəlxalq iqtisadi əlaqələrə dövlət müdaxiləsində gömrük xidmətinin rolu" Audit. (2018). № 4, Cild 22, səh. 16-26.
16. İbrahimov T. "Gömrük orqanlari sistemi: islahatlar və modernləşdirmə". Bakı. Azərbaycan universiteti. İpək yolu. (2017). No 2. Səh.54-63
17. Rzayev E. (2019). "Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində gömrük siyasətinin əhəmiyyəti". ADİU, Bakı. 91 səh.
18. S.Ağayev, S.Hüseynov. "Azərbaycanda gömrük tarif siyasətinin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi". Bakı. Azərbaycan universiteti. İpək yolu. (2021). No.1. Səh 5-24
19. https://customs.gov.az/
20. https://www.economy.gov.az/az

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA MƏDƏNİYYƏT TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Zeynallı Afaq Əbülfət qızı
UNEC tədqiqat fondu, mütəxəssis
zeynalli.afaq18@gmail.com
Ümumi iqtisadiyyat ixtisası üzrə dissertant
Azərbaycan, Bakı

XÜLASƏ

Məqalə Azərbaycanın hal-hazırda ən həssas bölgəsi hesab olunan Qarabağ və Şərqi Zəngəzurda mədəniyyət turizminin inkişaf perspektivləri ilə bağlıdır. Son illərdə ölkəmizdə baş verən mühüm tarixi hadisələr Qarabağ və Şərqi Zəngəzur bölgəsini diqqət mərkəzinə daxil etməklə yanaşı, müxtəlif sferaların inkişafında yeni yanaşmaların meydana çıxmasını da vacib etmişdir. İşin məqsədi bölgənin quruculuğunda mədəniyyəti və ondan istifadə etməklə mədəniyyət turizmini inkişaf etdirməyin əhəmiyyətini göstərməkdir. Mədəniyyət turizmi "yumşaq güc"ün vasitələrindən biri olmaqla bərabər iqtisadiyyatın inkişafına kömək edir və iqtisadi çiçəklənməni dəstəkləyir. Azərbaycanın musiqi beşiyi Qarabağın nəhəng mədəni və tarixi potensialı ilə mədəni turizmin böyüməsində əhəmiyyətli rol oynaması gözlənilir. Qarabağ və Şərqi Zəngəzurda davamlı mədəniyyət turizmi quruculuğu üçün sosial mediada reklamların istifadəsi, regionlarda turizm sektorunda işləyən insanlara təhsil verilməsi, məhz bu əraziləri ziyarət etmək istəyən turistlərə daha sərfəli şərtlərlə biletlərin satılması və əlbəttə ki, vətəndaşlarla dövlət komitələrinin birgə fəaliyyət göstərmələri vacibdir.

Açar sözlər: mədəniyyət, turizm, Qarabağ, Şərqi Zəngəzur, iqtisadi inkişaf

RESUME

The article is about the development of cultural tourism in Karabagh and Eastern Zangazur, which are currently considered the most sensitive regions of Azerbaijan. Recent years historical events which happened in our country draw attention to the Karabagh and Eastern Zangazur and beside made essential new approaches to the the development of different spheres. The purpose of research is to show the importance of culture and development of cultural tourism using it. Cultural tourism is one of the important sphere of modern economy and politics. Cultural tourism is the mean for "soft power" and also helps development of economy and supports economical prosperity. As a cradle of Azerbaijan music it is planned Karabagh to play significant role of growth cultural tourism in the future because of its huge cultural and historical potensial. For building sustainable cultural tourism at Karabagh and Eastern Zangazur it is essential to use advertisements on social media, to give education to the people who work tourism sector in this region, to sell tickets cheaper for tourists who wants to visit that area and of course, to work with citizens and state comitees togehter.

Key words: culture, tourism, Karabagh, economical development

GİRİŞ

Turizmin müasir dünyada ən çox gəlir gətirən sahələrdən birinə çevrilməsi prosesi uzun müddətdir ki, müşahidə olunur. Mədəniyyət və incəsənət turizmi ümumdünya turizminin vacib komponentlərindən biri kimi onun inkişafında xüsusi rola malikdir. Bu turizm dünyanın hər hansı bir nöqtəsində olan turistin üz tutduğu ölkənin mədəniyyətini prioritet hesab edərək səyahət etməsi ilə xarakterizə olunan turizm növlərindən biridir. Ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə gəlir gətirdiyi, əhalinin işlə təminində mühüm rol oynadığı, mədəniyyətin tanınmasında turistlər əhəmiyyətli şəxs sayıldığı üçün mədəniyyət turizmi də vacib sahələrdən birinə çevrilmişdir (A. Zeynallı, 2023). Ümumdünya Turizm Təşkilatına görə, mədəni turist səhnə sənətləri və digər mədəni turlar, festivallar və digər mədəni tədbirlər üçün səyahət edən, mədəni-tarixi məkan və abidələr, folklor və ya incəsənət, dini ayinləri öyrənmək məqsədli hərəkətləri? mədəni motivli səfərləri edən şəxsdir (H. Ahadova, 2021). Eyni təşkilatın statistikasına görə, mədəni turizm dünya turizminin təxmini olaraq 40 faizini təşkil edir (OECD, 2009).

Azərbaycanda turizmin, eləcə də mədəni turizmin inkişafını vacib edən amillərdən biri qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan məqsədlərlə bağlıdır. Uzun illər ərzində iqtisadiyyatı-

mızın neft və qaz sektorundan asılı olması, hər ikisinin isə tükənən resurslar siyahısına daxil olması Azərbaycanı vadar edir ki, qeyri-neft sektorunu inkişaf etdirmək üçün addımlar atsın. Ölkə prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Strateji yol xəritəsi"ndə turizm inkişaf etdirilməsi mühüm olan sahə kimi qiymətləndirilmişdir. (Mustafayev və Kərimov, 2022) Mədəni turizm tarixi-mədəni irsi çox zəngin olan Azərbaycanın yaxşı inkişaf vəd edən sahələrindən biri olmaqla yanaşı, müxtəlif mənbələrdən toplanan məlumatların təhlili nəticəsində inkişafının birinci mərhələsini yaşayan sahədir. Mədəni turizm həm "yumşaq güc" ünsürü olduğu üçün siyasi baxımdan əhəmiyyətli, həm ölkə iqtisadiyyatına gəlir gətirdiyi, xüsusən də işsizliyin çox olduğu əyalətlərdə əhalinin işlə təmininə təkan verdiyi üçün iqtisadi baxımdan əhəmiyyətlidir.

Keçmiş SSRİ ölkələri üçün turizm özü də xüsusən son 30 ildə inkişaf etməyə başlayan sahədir. Ona görə də təəssüf ki, bəzi hallarda iqtisadçı alimlərin özü də iqtisadiyyatla mədəniyyət turizminin əlaqəsini qəbul etməkdə çətinlik çəkirlər. Müasir dünyanın inkişaf etmiş ölkələrinin çox böyük əksəriyyəti dünyada məhz mədəniyyətləri ilə tanınır və turistlərin ölkəyə cəlb edilməsində bu mədəniyyət danılmaz rol oynayır. Azərbaycan Qarabağın öz torpağı olduğunu nə dünya ictimaiyyətinə, nə də Ermənistana diplomatik dillə başa sala bilmədi, hərbi yolla münaqişənin həllinə nail olaraq beynəlxalq hüququ bərpa etdikdən sonra mədəni restavrasiya gələcək nəsillərə düzgün məlumat ötürmək baxımından əhəmiyyət daşıyır.

Ölkəmizdə son illər yaşanan taleyüklü hadisələrdən sonra qarşıda quran əsas vəzifə və diqqət ayrılan əsas bölgə məlum səbəblərdən Qarabağ və Şərqi Zəngəzurdur. Mədəniyyət baxımından yanaşdıqda da Qarabağın bölgə olaraq əhəmiyyəti çox yüksəkdir. "Şərqin konservatoriyası" adlanan Şuşa məhz Qarabağın incisidir. Burada bir neçə mühüm məqam və problem mövcuddur: birincisi, bölgənin mədəni potensialı çox yüksəkdir: Azıx mağarası, Tağlar mağarası, Cıdır düzü, Vaqif məqbərəsi, Qarabağ xalçaları, Ağoğlan monastrı, Amaras monastr kompleksi, Gəncəsər monastrı, Xudafərin körpüsü, Şuşa şəhər Dövlət Tarixi memarlıq qoruğu və s. abidələr kifayət qədər unikal və orijinaldır. 1968-ci il Qarabağda yerləşən Azıx mağarasında qədim insanın ilk qalıqları tapılmışdır. Bu bölgənin qədim məkanlardan biri olduğunu sübut edən bir yer olmaqla yanaşı, bu həm də Qarabağ mədəniyyətinin Qafqaz regionunda nə qədər mühüm rola malik olduğunu sübut edir. Qubadlı rayonunda yerləşən Hacı Bədəl körpüsü, 1867-ci ildə Bərgüşad çayının üzərində salınmış Laləzar körpüsü, XVIII əsrə adi tarixi məscidlər, səkkiz güşəli türbələr, çox saylı mineral müalicəvi bulaqlar, VI-VII əsrlərə aid Alban kilsələri, rayonun simvolu hesab edilən qoç heykəlləri və qoç qəbir daşları, Cəbrayıl rayonundakı Xudafərin körpüsü, Şuşada Yuxarı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Vaqifin məqbərəsi kimi abidələr Qarabağın zəngin mədəni irsinin vacib tərkib hissələridir. Şuşa şəhərinin və Xudafərin körpüsünün UNESCO-nun Ümumdünya İrsi siyahısına salınması üçün fəaliyyətə başlanılıb (H.Əhədova, 2021, 61-62). İkincisi, 30 ilə yaxın erməni vandalizminə məruz qalan bölgədə düşmənlərimiz izlərimizi silmək üçün mədəniyyət abidələri, tarixi-mədəni məkanları məhv etməyə cəhd ediblər və bunların hər birinin restavrasiyası da əlavə xərc, zaman deməkdir. Üçüncüsü, bölgənin tarixi ona xüsusi həssas yanaşma tələb edir. Digər sözlə, xarici turistləri Qəbələ, Quba, Şəki kimi yerlərə cəlb etmək təhlükəsizlik baxımından daha rahat ola bilər, nəinki Qarabağ və Şərqi Zəngəzura. Hal-hazırda artıq yerli əhalinin öz torpaqlarına köçürülmə prosesi hissə-hissə davam edir, belə olduğu təqdirdə mədəniyyət turizmi sahəsində işləyən heyəti formalaşdırmaq da daha asan olacaqdır. Digər tərəfdən onsuz da bölgəyə olan marağı oranı turistlər üçün maraqlı yerə çevirmək məqsədi ilə istifadə etmək olar.

Daxili turizm nöqteyi nəzərindən bölgə hal-hazırda diqqət mərkəzindədir. Çünki 30 ilə yaxındır ki, azərbaycanlılar Qarabağ və Şərqi Zəngəzuru əhatə edən tarixi torpaqlarımıza həsrət idilər və bu gün az qala böyük bir kütlə bu bölgəyə getmək üçün yarış halındadır. Əksinə, dövlətin xüsusi nəzarəti və limitli bilet satışları ilə gedişdən narazılıq edənlər çoxdur. Hamı Qarabağı görmək niyyətindədir. Gələcəkdə də daxili mədəni turizmdə bölgədə problem yaşanacağı gözlənilmir. Çünki hələ çox uzun illər azərbaycanlılar üçün daxili turizmdə Qarabağ xüsusən də hotel şəbəkəsinin genişlənməsindən, bütün ərazilərin minadan təmizlənməsindən, bütün aeroportlarının tikintisinin başa çatmasından sonra güman edilir ki, ən çox daxili turistin axın edəcəyi bölgə olacaq, burada mədəniyyət faktoru da öz rolunu oynayacaqdır.

Xarici turistləri cəlb etmək baxımından Qarabağ və Şərqi Zəngəzur bölgəsini gələcəkdə mühüm destinasiyaya çevirmək üçün bir neçə addım atılmalıdır. Əlbəttə, hal-hazırkı şəraitdə bölgəyə kütləvi turist axını mümkün deyil. Zəngəzur dəhlizinin açılışından sonra bölgənin təhlükəsizliyi daha da yaxşı

təmin ediləcəyi üçün turistlər üçün də "təhlükəli bölgə" olmaqdan çıxacaq. Qarabağın ekologiyası da turistlər üçün maraqlı olacağından buranı rahatlıqla Azəbaycan turizminin mərkəzinə çevirmək olar.

TƏDQİQAT METODU

Tədqiqat işində humanitar və iqtisadi elmlərin ən geniş istifadə olunan metodlarından bir neçəsi istifadə olunmuşdur. Bunlardan birincisi analiz və sintez metodudur. Analiz metodundan bölgədəki vəziyyəti təhlil etmək, sintez metodundan isə digər bölgələrlə paralel aparmaq üçün istifadə edilmişdir. Müqayisəli təhlil metodu dünyanın digər ölkələrində mədəniyyət turizminin göstəricilərini nümayiş etdirmək üçün istifadə olunur. Tədqiqat işi lazımi nəticələr gəlmək üçün müxtəlif ölkələrin turizm təcrübəsi tədqiq olunmuşdur. Elşən Mustafayev və Elçin Kərimovun 2022-ci ildə çap olunmuş "Azərbaycanda mədəni irs və mədəni turizm: resurslar, məhsullar, təcrübələr" adlı 112 səhifəlik kitabı müəllif tərəfindən oxunulmuş, ümumi nəticələr materialda əks olunmuşdur. Eyni zamanda Azərbaycan Dövlət Statistika Komitəsinin statistikalarına baxılmışdır. Elə aşağıdakı cədvəl tədqiqat işində istifadə olunan statistik məlumatlardan tərtib olunmuşdur:

Azərbaycana ən çox turist gələn ölkələrə nəzər salın:

2020	2021	2022
Rusiya	Rusiya	Rusiya
Gürcüstan	Türkiyə	Türkiyə
Türkiyə	İran	İran
İran	Gürcüstan	Səudiyyə ərəbistanı
Ukrayna	BƏƏ	Gürcüstan
Hindistan	Birləşmiş Krallıq	Hindistan
Səudiyyə Ərəbistanı	Səudiyyə ərəbistanı	Pakistan
Qazaxıstan	Qazaxıstan	BƏƏ
Türkmənistan	İsrail	Qazaxıstan
BƏƏ	Almaniya	Ukrayna

Mənbə: Cədvəl ARDSK-nin illik hesabatları əsasında müəllif tərəfindən tərtib edilib.

Təəssüf ki, bu turistlərin neçə faizinin məhz mədəni turizm məqsədi ilə gəldiyinin rəsmi statistikası mövcud deyil. Ancaq ATAA-nın sədr müşaviri Müzəffər Kərimovdan müəllifin əldə etdiyi məlumata əsasən turistlərin 50%-dən çoxunu mədəni turizm məqsədli ilə gələn turist kimi qəbul etmək mümkündür. Bu turistlər üçün Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarını mədəni turizm nöqteyi nəzərindən maraqlı yerə çevirməkdən ötrü mütləq şəkildə geniş reklam aparılmalı, yəni reklama pul xərclənməlidir. Müasir rəqəmsal dünyada insanları reklam vasitəsilə cəlb etmək ən çox yayılan üsuldur, digər tərəfdən hal-hazırda Qarabağda inşa olunan aeroportlara gələcəkdə Avropa ölkələrindən birbaşa uçuşların olması da mühümdür. Çünki yuxarıdakı cədvəl göstərir ki, ölkəmizə gələnlər daha çox qonşu ölkələrdən, birbaşa reyslərlə gəlirlər. Digər tərəfdən isə Asan Viza sisteminin tətbiqindən sonra Azərbaycana gələn turist sayında da artım var. Belə olduğu təqdirdə daha çox Avropa ölkələri ilə asanlaşdırılmış viza sisteminə keçilməsi mədəni turizmin Qarabağ və Zəngəzurda inkişafı üçün təkan ola bilər. Məsələn, Qarabağ və Şərqi Zəngəzur bölgəsindəki aeroportlardan ölkəyə giriş edənlərə yerində viza verilməsi mütləq şəkildə gələcəkdə bölgəyə turist axınını artıracaq.

NƏTİCƏ

Inflation is an economic term or economic process that refers to a steady increase in the price levels of goods and services over a period of time. During this process, the purchasing power of money decreases. There is a surplus of goods in the market. The excess of money supply compared to the available goods leads to an increase in prices, and as a result, inflation. From the demand for goods and services in the market, changes in current prices, etc. according to its aspects, inflation is classified according to different types. The constant change of economic conditions, the fact that inflation is one of the main roles in the processes taking place in economic systems reflects the relevance of the topic. The main purpose of the research is to investigate the types of inflation based on various factors, to determine the effects of inflation on the economy according to these types, and to determine measures to combat these effects. During the research, the essence of the types of inflation was investigated, these types were systematically studied, the opinions of scientists about the types of inflation were determined, the differences between the types were justified, which included the scientific innovations of the research. The proposals and recommendations made as a result of the research can be used to create a clearer picture of the types of inflation, the materials and considerations used during the research in terms of macro and micro, as well as when making economic decisions in everyday life from the point of view of ordinary citizens, which show the practical importance and advantages of the research. contane. The results of the research consist of determining how different types of inflation affect different areas of the economy during changing economic conditions, giving suggestions and recommendations related to these effects.

KEY WORDS: Inflation, demand-pull, equilibrium

GIRIŞ

İnflyasiya bütün iqtisadi sistemlərdə qəbul olunan ən mühüm anlayışlardan biridir. İstər praktiki, istər nəzəri baxımından inflyasiya özlüyündə bir neçə təsnifata görə növlərə ayrılmaqdadır. Mövcud iqtisadi proseslər, tarixən yaşanmış böhran vəziyyətləri sübut edir ki, inflyasiya iqtisadiyyatda hər zaman araşdırılmalı və onunla mübarizə tədbirlərinin müəyyənləşdirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Mövzunun aktuallığı: Tarixən insanlar arasında iqtisadi münasibətlər mövcud olub. Müasir dövrdə isə bu münasibətlər daha geniş vüsət almışdır. İqtisadi münasibətlərin həyata keçirilməsi zamanı istər lokal, istərsə regional və qlobal ölkələr səviyyədə tərəflər bir-birləri ilə əmtəə, xidmət və pul mübadilələrini həyata keçirməli olurlar. Bu zaman isə inflyasiyanın həyata keçirilən iqtisadi münasibətlərə təsirinin müəyyənləşdirilməsi göz önünə gəlir. İnsanlar və ya dövlətlər bu münasibətlərdə bu gün qazandıqları qazancın dünənə nisbətdə , hazırkı pulun dəyərinin əvvəlki dövrə nisbətdə neçə faiz dəyişdiyinin şahidi ola bilirlər. Bu isə inflyasiyanın təsiri ilə baş verir. Bu müqayisə ilə hansı növ inflyasiyanın onlara təsir etdiyini də müəyyənləşdirmiş olurlar. Fikrimizcə, bu sadalananlar mövzunun aktuallığını kifayət qədər özündə əks etdirir.

Tədqiqatın məqsəd və vəzifələri: Tədqiqatın əsas məqsədi iqtisadi şəraitə əsasən inflyasiyanın müxtəlif faktorlara ilə növlərinin araşdırılması, inflyasiyanın hər bir növünün iqtisadiyyata təsirlərinin müəyyənləşdirilməsi, bu təsirlərə qarşı mübarizə tədbirlərinin müəyyənləşdirilməsindən ibarətdir. Tədqiqatın vəzifələri araşdırmalar nəticəsində inflyasiyanın növlərinin ümumən maliyyə fəaliyyətinə təsiri nəticəsində qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması yönündə təkliflərin irəli sürülməsindən ibarətdir.

Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İnflyasiyanın mikro və makroiqtisadi baxımından təsirlərinin araşdırılması, iqtisadi şəraitlərin inflyasiyanın növünə uyğun şəkildə tənzimlənməsi ilə bağlı tövsiyyələrin təqdim olunması tədqiqatın elmi yeniliyi və praktiki nəticələrini əhatə edir.

Tədqiqatın informasiya bazası: Yerli və xarici ədəbiyyatlardan, internet bazasına aid resurslardan istifadə olunmuşdur.

Tədqiqatın metodları: Məqalənin tərtibatında analiz, sintez, aksiomatik və istinadlar metodlarından istifadə edilmişdir.

Tədqiqat işinin strukturu: Tədqiqat işi 5 səhifədən ibarət olmaqla, xülasə,giriş,tədqiqat metodu, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

TƏDQİQAT METODU

İnflyasiya sözü hərfi mənada "şişmək" anlamına gəlir və ilk dövrlərdə xəstəliklərlə bağlı anlayış kimi də hesab olunurdu. Neoklassiklərin dövründə artıq inflyasiya bir iqtisadi məfhum kimi qəbul olunmağa başlanmışdır. Müasir dövrdə istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələr inflyasiyadan əziyyət çəkirlər. Qiymətlərin davamlı artması prosesi hazırda dünya iqtisadiyyatında əsas problemli məsələlərdən biridir. 1990-cı illərdən sonra inflyasiya səviyyəsi bir sıra ölkələrdə əvvəlki dövrlərə nisbətdə aşağı düşsə də, hələ də bəzi ölkələrdə inflyasiya dərəcəsi yüksək olaraq qalır (Sadıqov, Məmmədov, 2010).

Keynsin ənənəvi modeli məcmu tələb ilə məcmu təklif əyrilərindən ibarət olub, İnflyasiya iqtisadi artım münasibətini dəqiq təsvir edir. Bu modelə görə, qısa müddətli dövrdə məcmu təklif əyrisi yuxarıya doğru hərəkət edir, lakin şaquli vəziyyət almır. Əgər məcmu təklif əyrisi şaqulidirsə, iqtisadiyyatda tələbin dəyişməsi yalnız qiymətlərə təsir edir, əks halda məcmu tələbdəki dəyişiklik həm |qiymətə, həm də məhsula təsir göstərir. Fridmanın liderliyi ilə monetaristlərə görə inflyasiya hər zaman monetar anlayış olmuşdur. Monetarizmə görə pulun kəmiyyətinin əmtəə və xidmətlərin istehsalından daha sürətli artması ilə inflyasiya yarana bilər. Consona görə inflyasiya qiymətlərin davamlı yüksəlişini, Broomana görə isə ümumi qiymət səviyyəsində davamlı artımı təyin edir (Bağırov, Həsənli, 2011).

Hazırda inflyasiya təsnifatlaşdırılmasına görə 3 əsas növə ayrılır (Bryan,2023):

1. Tələb inflyasiyası
2. Xərc inflyasiyası
3. Daxili inflyasiya

Tələb inflyasiyası əmtəə və xidmətlərə olan məcmuu tələbin istehsal olunan əmtəə və xidmətlərlə müqayisədə daha sürətlə artması zamanı baş verir. Bu zaman tələbin artması qiymətlərin artımına

gətirib çıxardır. Eyni zamanda, insanlarda olan pulun miqdarının artması istehlakçıları daha çox əmtəə və xidmət almasına sövq edir ki, bu zaman da tələbin yüksəlməsi prosesi baş verir. Bazarda olan mövcud istehlak malları isə tələbin artması ilə ayaqlaşa bilmir və qiymətlər artır (Bryan, 2023).

Tələb inflyasiyasının yüksək olması xərc inflyasiyasına şərait yaradır. Müəssisələr üçün artıq xammal xərcləri artmağa başlayır.Bu zaman müəssiələr artıq mənfəət marjalarına da sabit saxlamaq üçün qiymətləri artırmaq yönündə addımlar atırlar. Xərc inflyasiyasına əsas səbəb olaraq istehsal olunan məhsulun maya dəyərinin artması hesab olunur. İstehsalda istifadə olunan xammal və materialın dəyəri arta bilər ki, bu da daha yüksək xərclərə səbəb ola bilər. Müəssisənin istehsal xərclərinin artması nəticəsində sahibkarlar qərar verərək artan əlavə xərcləri istehlakçılardan çıxartmaq üçün qiymətləri qaldırmaq yönündə addımlar atacaq. Əgər qiymətləri artırmasalar istehsal xərclərinin artması fonunda müəssiələrin mənfəət marjaları azalacaq (Bryan, 2023).

Daxili inflyasiya insanların mövcud inflyasiya dərəcələrinə əsasən qiymət gözləmələri ilə bağlıdır. Əmtəə və xidmətlərin qiymətləri artdıqca, bu artımın gələcəkdə də davam edəcəyi gözlənilir. Bu zaman isə insanlar, xüsusən müəssilərdə çalışan işçilər öz həyat rifahları üçün, daha çox xərclərinin yaranması ehtimalına qarşılıq əmək haqqı və gəlirlərində artım tələb edəcəklər. Müəssisələrin bu artıma getməsi isə təbii olaraq onların xərclərini daha da artırır. Bu isə müəssisənin mənfəətinə təsirsiz ötüşmür.Xərc inflyasiyasında olduğu kimi müəssisələr bu zaman da öz mənfəət marjalarını qorumaq üçün satdıqları mal və xidmətlərin qiymətlərində artıma getməyə məcbur olurlar (Bryan,2023).

İnflyasiya göstəricisi faizlə ifadə olunur. Müəyyən iqtisadi şəraitlərə uyğun olaraq inflyasiya sürətinə görə aşağıdakı şəkildə növlərə ayrılır (Suleymanov,Bulut,2015):

1. MÖTƏDİL İNFLYASİYA

Mötədil inflyasiya qiymətlərin yavaş-yavaş artması ilə əlaqədardır. Bu inflyasiya kəskin deyil və illik faiz dərəcəsi 10 faizi keçmir və iqtisadi tarazlığı pozmur. Mötədil inflyasiya da özlüyündə iki yerə ayrıla bilər:

Sürürnən inflyasiya – qiymətlərin çox yavaş artdığını göstərir. Faiz göstəricisi illik 4 faizədək olur. Bu artım isə iqtisadi inkişaf üçün əhəmiyyətli və təhlükəsiz hesab olunur.

Gəzinti inflyasiyası – illik səviyyəsi təkrəqəmlə ifadə olunmaqla 4-10 faiz arası dəyişir. Bu isə təhlükəli olan inflyasiya səviyyəsinə çatmazdan əvvəl xəbərdarlıq siqnalı verməklə ona nəzarət etməyə kömək edir (Bulut,Suleymanov, 2015).

2. ÇAPARAQ (SÜRƏTLI) INFLYASIYA

Bu inflyasiya atın qaçışına bənzəyir və il ərzində 10-20 faizlə ifadə olunur. Bu göstərici isə nisbətən orta və yoxsul təbəqənin nümayəndələrinə iqtisadi baxımdan çətinliklər törədə bilir. Onunla mübarizədə lazımı tədbirlərin görülməməsi hiperinflyasiyaya gətirib çıxardır (Sadıqov, Məmmədov,2010).

3. HIPERINFLYASIYA

İnflyasiyanın sürətinə görə iqtisadiyyata ən ağrıcı nəticələrə gətirib çıxaran növüdür. İllik göstəricisi 20-100 və hətta yüksək faizlərlə ifadə olunur. Bu zaman qiymətlərin artımı artıq idarəolunmaz səviyyəyə çatır. İnflyasiyanın bu şəkildə davam etməsi maliyyə və pul sistemlərinin çökməsinə səbəb ola bilər. Pulun alıcılıq qabiliyyəti isə davamlı olaraq aşağı düşür (Sadıqov, Məmmədov, 2010).

Eyni zamanda, iqtisadi durğunluqla, ən əsası da işsizliklə birləşən inflyasiya növü mövcuddur ki, bu da staqflyasiya olaraq bilinir. Staqflyasiya çox zəif iqtisadi inkişafı, yüksək işsizlik səviyyəsini özündə birləşdirən ağrılı prosesdir. Fiskal siyasətlə bağlı yaratdığı çətinliklər səbəbindən staqflyasiya mərkəzi banklar üçün xüsusi çətinlik səbəbidir. Əgər inflyasiya dövründə mərkəzi banklar faiz dərəcəsini artıraraq bu prosesi nizamlamağa çalışırdılarsa, staqflyasiya zamanı bunu etmək işsizliyi daha da artıra bilər. Faiz dərəcəsinin azalması isə inflyasiyanı artırmış olacaq. Bir sözlə, staqflyasiya idarə olunması çətin bir prosesdir (Bağırov,Həsənli, 2011).

Bundan başqa iqtisadiyyatda inflyasiyanın mənfi inflyasiya olaraq bilinən tanımı da mövcuddur ki, bu da deflyasiya adlanır. Bu zaman bazarda pul kütləsinin azlığı müşahidə olunur ki, bu da qiymətləri aşağı salır. Eyni zamanda, fikrimizcə təklifin çox, tələbin az olması da deflyasiyaya səbəb olan amillərdir. Bu səbəblər deflyasiyanı müsbət iqtisadi proses kimi göz özünə gətirə bilər, lakin uzunmüddətli perspektivdə bu iqtisadiyyata öz mənfi təsirlərini göstərmiş olur. Müəssisələr qiymətlərin azlığı zamanı daha az gəlirlər əldə etməklə xərclərini də azaltmağa, işçilərin ixtisarına getməyə məcbur ola bilirlər ki, bu da uzunmüddətli dövrdə işsizliyə gətirib çıxarır (Kantar, Öndeş, 2022).

Ölkəmizdə hazırda faiz dərəcəsinə uyğun olaraq nisbətən sürətli inflyasiya hökm sürməkdədir. Son açıqlanan rəsmi rəqəmlərə əsasən 2023-cü ilin yanvar-sentyabr ayları ərzində orta illik inflyasiya göstəricisi 10.9 faiz təşkil etmişdir. Bu göstərici keçən ilki ilə müqayisədə müsbətə doğru addımı göstərir. Belə ki, 2022-ci ildə orta illik inflyasiya 13.2 faiz təşkil etmişdir. Şəkil 1-də Azərbaycanda son illərin orta illik rəsmi inflyasiya dərəcələri göstərilmişdir.



Şəkil 1. 2014-2022-ci illər ərzində Azərbaycanda rəsmi açıqlanan orta illik inflyasiya (%)
Mənbə: Dövlət Statistika Komitəsi

Göründüyü kimi 2014-2015-ci, eyni zamanda 2018-2020-ci illərdə ölkəmizdə mötədil, yəni sürünən inflyasiya şəraiti hökm sürmüşdür. 2016-2017-ci illərdə dünya bazarında baş verən iqtisadi proseslər, neftin qiymətinin ucuzlaşması və s. təsirlər inflyasiya göstəricisini artırmışdır. Lakin hökumətin qəbul etdiyi qərarlar, antiinflyasiya tədbirləri bu prosesin uzunmüddətli olmasının qarşısını almışdır. 2021-ci ildə koronavirus epidemiyası dünya iqtisadiyyatına ciddi təsir göstərmiş, inflyasiya təbii olaraq əvvəli illərlə müqayisədə artan tendensiya göstərmiş, 6.7 faizlə gəzinti inflyasiyasına çatmışdır. 2022-ci ildə bu göstərici bir qədər də artaraq 13.2 faiz təşkil etsə də, yenə də qəbul edilən qərarlar və antiinflyasiya tədbirləri öz bəhrəsini verməkdədir.

NƏTİCƏ

Tədqiqatın nəticəsi olaraq bildirmək istərdik ki, inflyasiya qiymət səviyyəsinin davamlı artmasıdır və onun əsas səbəbi dövriyyədə olan pul kütləsinin, pul təklifinin artmasıdır. İqtisadiyyatda pul təklifi artdıqda, insanlar daha çox nağd pula sahib olurlar. Bu artan likvidlik səbəbindən daha çox mal və xidmət tələb edirlər. Amma artan tələbata uyğun olaraq hasilatı artırmaq mümkün olmadıqda satıcılar mallarını daha baha satmağa çalışırlar. Bu da inflyasiya yaranmasına gətirib çıxarır. İnflyasiyanln müxtəlif növləri haqqında danışarkən sürünən inflyasiya, yeriyən inflyasiya, çaparaq inflyasiya və hiperinflyasiyanın adlarını çəkdik. Bunlar öz-özlüyündə iqtisadiyyata pis və yaxşı təsir göstərir. Yüngül inflyasiya iqtisadi inkişaf üçün yaxşıdır, lakin yüksək inflyasiya iqtisadi artıma mənfi təsir göstərir. Hökumət və monetar orqanlar adekvat olaraq monetar və fiskal tədbirlərlə inflyasiyaya nəzarət etməyə çalışmalıdırlar.

Onu da qeyd etmək lazımdır ki, tədqiqat gələcəkdə bu mövzuda olacaq araşdırmalar üçün müəssisələrin maliyyə hesabatlarının inflyasiya şəraitinə uyğun təhlilinin aparılmasına, hesabatların qiymətləndirilməsi yönündə addımların atılmasını təklif edir.

ƏDƏBIYYAT SIYAHISI

1. C. Bulut , E. Suleymanov, (2015). Publıc Fınance, Kamu Maliyesi, Dövlət Maliyyəsi. Qafqaz Universiteti Nəşri, 35-39, 66-101.
2. Bağırov D, Həsənli M, (2011). Maliyyə-Dərs-Vəsaiti. İqtisad Universiteti, 34-52.
3. Sadıqov M.M., Məmmədov S.M, (2010). Maliyyə. ADAU Nəşriyyatı, 40-66, 135-149.
4. Michael F. Bryan, (1997). “On the Origin and Evolution of the Word Inflation”. Federal Reserve Bank of Cleveland, 1-5.
5. Kantar, M. A., & Öndeş, T. (2022). Enflasyonun İşletmelerin Finansal Faaliyetlerine Ve Finansal Oranlarına Etkisinin Teorik Çerçevesi. Global Journal of Economics and Business Studies, 11(21), 39-47.

SUBAY VƏ EVLİ QADINLARIN MƏŞĞULLUĞUNA TƏSİR EDƏN FAKTORLARIN MÜQAYİSƏLİ TƏHLİLİ

AYSEL MƏMMƏDOVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/İqtisadiyyat
aysel20memmedova@gmail.com,amammadova2@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Ölkəmizdə qadının əmək fəaliyyətilə məşğul olub-olmaması aktual problemlərdən biri olmuşdur. Məqalədə subay və evli qadınların məşğulluğuna təsir edən faktorların müqayisəli təhlili aparılmışdır. Tədqiqatda subay və evli qadınlardan ibarət ASERC sorğunun məlumatlarından istifadə olunmuşdur. Sorğuda 1197 qadın respondent iştirak etmişdir. Onların 442-si subay, 581-i evli olduğu tapılmışdır. Subay qadının işləməyinə bakalavr təhsili dərəcəsindən sonra yüksək təhsil dərəcəsi müsbət təsir etmişdir. Evli qadınlarda təhsil dərəcəsi nə qədər yüksək olsa da işləməyənlərin olduğu tapılmışdır. Onların evli olaraq digər görünməz faktorların da təsiri olduğu açıqlanmışdır. Nəzəri baxımdan qadınların işləməyinin nəticələri kimi bəzi mənfi və müsbət tərəfləri də qeyd olunmuşdur. Bundan başqa onlarının işləməyinin tək iqtisadi artıma faydalı olduğu yox, həmçinin onların özlərinə də müsbət təsir etdiyi ortaya qoyulmuşdur.

AÇAR SÖZLƏR: Qadın məşğulluğu, Qadın statusu məşğulluğu, Subay qadınlar

ABSTRACT

In our country, whether a woman is engaged in labor activity or not has become one of the actual problems. In the article, a comparative analysis of the factors affecting the employment of single and married women was carried out. Data from the ASERC survey of single and married women were used in the study. 1197 female respondents took part in the survey. 442 of them were single, 581 were found to be married. A higher education level after a bachelor's degree had a positive effect on the employment of a single woman. It was found that there are married women who do not work, no matter how high the level of education. It has been revealed that other invisible factors also influence their marriage. From a theoretical point of view, some positive and negative aspects of women's work have also been mentioned. In addition, it was revealed that their work is not only useful for economic growth, but also has a positive effect on them.

KEY WORDS: Female employment, Female status employment, Single women

GİRİŞ

Qadın məşğulluğu problemləri aktual və hər zaman araşdırma mövzusu olmuşdur. Onların statusundan aslı olmayaraq, məşğulluq onlar üçün müzakirəli məsələ olaraq qalır. Hətta azərbaycanda da qadınlar müxtəlif təsirlər nəticəsində iş tapa bilmirlər və ya işləmirlər. Hər bir şəxsiyyətin hüquqları olduğu kimi qadınların sda əmək hüququ vardır. Ümumiyyətlə qadın məşğulluğu pozitiv olaraq necə təsir edə bilər? Qadınların işçi qüvvəsinə qatılması ilə ölkəmizdə iqtisadi artımın inkişafına nail ola bilərik. Çünki hər bir qadının müəyyən peşəyə yiyələnib əmək fəaliyyətilə məşğul olması, onun iqtisadiyyata faydalı olması deməkdir. Bu məqalədə əsas məqsəd Azərbaycanda olan subay və evli qadınların məşğulluğuna təsir edən faktları müqayisəli şəkildə təhlil etməkdir. Bəzi araşdırmadan məlum olur ki, qadınların işləməyən bir hissəsi evli qadınlardan ibarət olmuşdur. Bundan başqa onların evdəki yükləri onların işləyib-işləməməyinə təsirsiz ötməmişdir.

Federal məlumatların analizinə görə subay qadınlar- iş qüvvəsində, təhsil dərəcələrindəki artımında böyük bir payını yaradan genişlənən iqtisadi gücdür. Wells Vargo iqtisadçıları tərəfindən tapıntılara görə keçən il, Amerikada subay qadınların əldə etdiyi gəlirlərinin, subay kişilərin gəlirlərinin yalnız 92%-ni əldə etdiyini və onlardan 29% az sərvətə malik olduğunu açıqladılar. Həmçinin subay qadınlar iqtisadiyyata böyük təsir etdiyini vurğulamışdılar. Əlavə olaraq subay qadınlar əmək bazarında boşluğu doldurduğunu lakin, yenə də subay kişilərdən daha az qazandığını qeyd etmişlər (The Washington Post, 2023).

Qadınlar son illərdə iqtisadiyyatın hər sahəsində böyük irəliləməyə sahib olmuşlar. Rəqəmlərə görə, univeristetə qəbul olan və məzun olan qadınların sayı, kişilərdən daha çox olmuşdur. Onların

içərisində həm öz evləri olan, həm də kirayədə qalan qadınların tək yaşamaq ehtimalları daha yüksək olmuşdur. Bundan başqa subay qadınların işləmək ehtimalı evli qadınlara nisbətdə daha yüksəkdir (The Washington Post, 2023).

TƏDQİQAT METODU

Bu tədqiqatın əsas istifadə olunmuş metodu müqayisəli təhlillərin aparılması ilə gəlinən nəticələri özülüyündə birləşdirir. Qadınların ev işləri ilə məşğul olma, uşağa baxma-bu işləri öz üstlərinə götürməsi onların evdə "idarəçi" rolunu aradan qaldırmışdır. Dünyada bəzi ölkələr üzrə qanunvericiliyə baxdığımzda Britaniya qadınların ağır və təhlükəli işlərdə işləməyinə qadağa qoymuşdular. Hətta onlar uşaq və qadınların iş yaşlarını azaltmışdılar. Kişilərin ailə saxlamaq rolunun daha da qabardılması onların maaşlarının artmasına qədər gətirib çıxardığını müəyyən etmişdir (Hannan, M.T and Kranzberg, Malvin, 2021). Bu isə qeyri-bərabər bölgülü əmək haqqının yaranmasına səbəb olurdu.

XX əsrin əvvəlində amerikada qadınlar evlərdən uzaqda yerləşən işlərdə işləmədiyini tapmışdır (Kleinberg, s. J., 1999). İşləyənlər isə cavan və subay xanımlar olmuşdur. Evli qadınların çox kiçik bir hissəsi işləyirdilər. Həmçinin buraya evli qadının uşağa baxması və ev kimi işlərin təsiri nəticəsiz deyildir.

Qadınlara iş mühitində qoyulmuş işdəki hüquqi və struktur məhdudiyyətləri evli qadınlarda işdən ayrılmaqlarına səbəb olmuşdur. Tək evli qadın yox həm də, subay qadınlarda da əmək seçimində məhdudiyyətə səbəb oldu. Araşdırmadalardan məlum olur ki, eyni peşəyə sahib olan kişi və qadınlar arasındakı müqayisədə görünən odur ki, qadınların öz peşələrinin ən yüksək pilləsinə çatması ehtimalı mənfidir. Buna səbəb uzunmüddətli(uzunsaatlı) bir iş rejimi onların iş xaricindəki olan məsuliyyətlərinə (ev işləri və s.) təsir edir. Bundan başqa araşdırmasında kişilərin ailədə iqtisadi cəhətdən daha məhsuldar olduğunu vurğulamışdır (Yellen, J.,2017). Amma bu qadınların gördüyü işlərdə qeyri məhsuldar olduğu anlamına gəlmir. Sadəcə olaraq qadınların gördüyü işlər maddi cəhətdən əvəzsiz olduğu üçün onlar, iqtisadi cəhətdən kişilərdən asılı olduğunu tədqiqatında müəyyən olunmuşdur.

Qadın işləyərsə hansı nəticələri ola bilər?

1) Biznesvomenlərin artımı. Qadın sahibkarlarının artımı yeni bir potensial işçi qüvvəsinin təklifi ilə nəticələnir. Bu da dolaysı ilə iş yerlərinin artımı deməkdir.

2) Maliyyə nəticələrində artım. Qadınlardan ibarət olan müəssisələrdə, digər müəssisələrə nisbətən daha çox maliyyə artımı göstərirlər. Qadınlar biznesdə daha az risk götürürlər. Onların sahibkarlıq fəaliyyətlərindən riskli borcalmalrınının və satınalmalarının daha az olması, risklərinin daha aşağı olmasını sübut edir. Bundan əlavə qadınlar biznesə kişilərə nisbətdə, daha çox gəlir, qazanc və fayda gətitrlər (Economist, 2009).

3) Qadınlar iş rejiminə görə uşaqlara daha az vaxt ayırması. Qadınların əməyi mənfi nəticələrə də gətirib çıxardır. Onların tam iş günü işləməsi uşaqlara az vaxtlarını ayırmasına gətirib çıxarır. Hətta amerikada bəzi məktəbli uşağı olna valıdeyinlərin üçdə biri uşaqlarını müəyyən vaxtları başqa yerə qoyurlar. Bu daha çox evli qadınlar üçün keçərlidir. Subay qadınlar buraya aid edilmir.

4) Uşaq baxımı keyfiyyətinin fərqi. Harper və Leich`inə görə işləyən qadınların artması uşaq baxımında çatışmazlıqları və bahaçılıqları yaradır. Bu maddi cəhətdən zəif ailələr üçün baha gəlir. Çünki belə olduğu halda onlar büdcələrinin böyük bir hissəsini uşaqlara xərcləməlidirlər, ya da işdən çıxmalıdırlar. Uşaqlarına özlərinin baxmağını istəyib işdən çıxarlarsa, belə bir paradoks yaranar ki, yenidən maddi sıxıntılar yaşayarlar (Economist, 2009).

5) Stressin artması. İkili gəliri olan ailələrin əsas problemi pul yox, həm də ailədə kişi və qadın rollarının tənzimlənməsidir (Economist, 2009). Qadınları həm öz karyeraları ilə məşğul olması, həm uşaq baxımı, həmdə ev işləri ilə məşğulluğu onların stress səviyyələrini artırır.

Görünən odur ki, qadınların işləməyi müsbət halı gətirməsi ilə birlikdə özü ilə mənfi nəticələri də gətirib çıxardır. Yuxarıda sadalanan nəticələrin əksəriyyəti evli qadınlara aid olsada, subay qadınlar üçün də keçərlidir.

Məşğulluqda demoqrafik artım üzrə baxdıqda, evdar və tam ştat işləyən qadınlar arasında fərq daha çox olmuşdur (Glass, J.,1992). Həmçinin hər doğulan əlavə uşaq da məşğulluğa təsiri olmuşdur. Bundan əlavə tam ştat işləyən qadınlar evdar qadınlara nisbətdə daha təhsillidirlər. Evdar qadınların daha geniş ailələri və daha aşağı gəlirləri var idi. Yarım ştat işləyən qadınlar, evdar və tam ştat işləyən qadınlara nisbətdə siyasi cəhətdən daha müstəqil idilər.

Qadınların həyat səviyyəsinin yüksəldilməsində əsas faktor onların işləməyidir (Moen P, J, 2000). Onlar işləyərsə, təhsil dərəcələri yüksəkdirsə, özlərini dah güclü hiss edər və aktiv olarlar. Qadınların evdar və ya iş qadını olmağı seçməsi onun pul qazanmağ arzusunundan və sosial statusundan aslı olduğunu ortaya qoyublar. Glass əksinə araşdırmasının əksinə olaraq, araşdırmasına görə, işləyən qadınlar evdar qadınlardan daha yaşlıdır (F.K.Saravi və başqaları, 2012). Amma təhsil səviyyəsi daha yaxşıdır və bu tapıntıda həmin araşdırmaı ilə üst üstə düşdüyünü göstərir (Glass, J, 1992). Burada evdar qadınlar üçün fiziki fəaliyyət yüksək, emosinallıq isə aşağı göstəricidədir. İşləyən qadınlarda fiziki fəaliyyətdən başqa digər təsirlər evdar qadınlardan daha yüksək olmuşdur. Tapıntılara görə buradakı fərq fiziki sağlamlıqdan çox psixoloji sağlamlıqdan irəli gəldiyini önə qoyur. Bunun isə səbəbi kimi işdəki stressdən qaynaqlandığı, bununla da onların səhhəti ilə bağlı məzuniyyət götürmələrinə səbəb olduğunu deyə bilərik.Maraqlısı budur ki, fiziki fəaliyyətdə evdar qadınlar işləyən qadınlardan daha çox olmuşlar. İşləyən qadınların stress səviyyəsi daha çox olduğunu tapmışdır (Kermane, M. M., 2016).

Müəyyən edilmişdir ki, evdar qadınların sağlamlıq cəhətdən hər zaman problemləri olmuşdur (Waldron, I., 1980). Onların sağlamlıq cəhətdən probleminin olması, həmin qadınların iş axtarmaqdan soyumasına, uzaqlaşmasına gətirib çıxardır. Evdar qadınların bəzi xroniki xəstəliklərə tutulması ehtimalı yüksəkdir. Sağlamlığın məşğulluğa təsiri kimi, məşulluğun da sağlamlığa təsiri var. Tədqiqata görə işləyən və evdar qadınlar arasında sağlamlıq cəhətdən fərqlər vardır. Qadınlar arasındakı bu fərqin təsiri bir mənalı deyil, həm məşğulluğun sağlamlığa təsiri, həm də sağlamlığın məşğulluğa təsirindən qaynaqlanır. Bəzi peşələr vardır ki, bir müddət işlədikdən sonra insan səhhətində problemlərə səbəb olur (Waldron, I., 1980).

Bundan başqa işləyən qadınların ikili məsuliyyətləri də onlarda stress yaradır. Həmçinin müşahidələr aparılmışdır ki, universitet təhsili olan işləyən qadınlar özlərini evdar qadınlardan daha xoşbəxt hesab edirlər (F.K.Saravi və başqaları, 2012). Qadınların erkən nigaha qoşulması da onların işləyib-işləməməyinə təsir edən amildir. Çünki burada 16-18 yaşlı qızların heç bir peşəyə sahib ola bilmir və ya heç bir ali təhsil alıb,oxuya bilmirlər və məcburən evdar olurlar. Buna görə də onlar evləndikləri müddətdə məcburən həyat yoldaşlarına itaət edirlər. Yoldaşları ali təhsil almaqlarına icazə verməsə də onlar həyat yoldaşları qarşısında mübarizə apar bilmirlər. Əsas səbəbi evə qazanac, gəlir gətirən şəxs ailədə kişi olduğundan irəli gələn haldır.

Azərbaycanda erkən nigahla mübarizə ilə bağlı qanunlar qəbul edilmişdir ki, "uşaq hüquqaları haqqında" adlanan konvensiya 1989-cu ildə qəbul edilmişdir. Ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinin araşdırmalarına görə azərbaycanda yaranan erkən nigahlar lənkəran, quba, ağstafa, aran iqtisadi rayonları üzrə müəyyən olunub. 2011-ci ildə erkən nigaha girənlərin sayı ölkəmizdə 5138 idisə, 2019-cu ildə bu azalaraq 366 nəfərə düşmüşdür (ARDSK, 2020). Başqa bir araşdırmaya görə evdar qadınlar artıq çəki problemi ilə üzləşirlər. İşləyən qadınlarda bu problem daha az çıxmışdır. Ümumi olaraq götürsək, evdar qadın olmaq piylənmə üçün əhəmiyyətli təsirli faktordur. Həmçinin piylənmə digər ağır xəstəlikləri, xərçəng xəstəliyini yaradır (S. Navadeh və başqaları, 2011).

Araşdırmalara görə qadınların məşğulluğuna həm qadınların, həm də kişilərin təhsil səviyyəsi müsbət təsir göstərir. Qadınların məğulluğuna qarşı təsir dini cəhətdən yox, əsas səbəb təhsilin yetərsizliyindəndir (X.Alıyev, 2020).

TƏHSİL

Subay və evli qadınların məşğulluğuna təsir edən faktorlar eynidirmi? Əks halda hansı faktor daha hansı statuslu qadınlara təsirlidir? Subay qadınlaramı, ya evli qadınlara mı? Bu sualların cavabını tapmaq üçün aşağıda etdiyimiz təhlillərə baxaq. Əvvəlcə bu təhlillər aparılmış ASERC-in sorğusu əsasında alınmış məlumatlardan ibarətdir. Sorğuda 1197 qadın iştirak etmişdir. Onlardan 442 qadın subay, 581 qadın evli olmaqla, digər statuslu qadınlarda vardır. Lakin biz təhlilləri aparmaq üçün subay və evli qadınların məşğulluğunu təhil edəcəyik.

Görəsən subay qadınların tərkibində ən çox işləyənlər hansılardı, təhsil faktoru bura nə qədər fərq yaradır? Bunun üçün aşağıda təsvir olunmuş subay və əmək fəaliyyətli qadınların tərkibinə baxaq:



Şəkil 1. Subay qadınlarda təhsil səviyyəsinə görə məşğulluğu
Məlumatlar müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 1.-də təsvir olunmuş işləyən subay qadınlardan 5.2%i doktorantura, 29.2%-i magistr, 53.6%-i bakalavr, 5.6%-i kollec və 6.4%-i isə orta məktəb təhsillidir. İşləməyənlərin isə 14.4%-i magistr, 50.7%-i bakalavr, 10%-i kollec və 24.%-i orta məktəb təhsillidir. Burada təhsilin doktorantura pilləsində oxuyan işsiz qadın yoxdur.

Bakalavr təhsilli subay qadınlar arasında işləyib-işləməyənlərarasında fərq (2.9%) azdır. Demək, bakalavr təhsilinin olması qadının işləməyinə bir o qədərdə təsir eləmir. Burada ən yüksək fərq həmçinin orta məktəb (-18.5%) və magistr təhsilli (4.8%) qadınlar arasındadır. Amma burada qadının bakalvr təhsilindən yüksək magistr təhsili olması onun işləməyinə müsbət təsir edir. Eləcə də ondanda yüksək doktorantura dərəcəsinin olmasıda qrafikdən göründüyü kimi (5.2%) qadının işləmək ehtimalını artırır Qadının orta məktəb təhsilli olması onun işləməyinə əks təsir göstərir. Bununla bərabər kollec təhsili də qadınların işləməyində mənfi əlaqə yaradır. Bəs görəsən aldığımız nəticələr evli qadınlar üçün də keçərlidirmi?



Şəkil 2. Evli qadınlarda təhsil səviyyəsinə görə məşğulluğu
Məlumatlar müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 2.-də təsvir olunmuş işləyən evli qadınlardan 8.8%-i doktorantura, 20.%-i magistratura, 54.7%-i bakalavr, 12.99%- kollec və 2.9%i isə orta məktəb təhsillidir. İşləməyənlərin isə 1.8%-i doktorantura, 11.6%-i magistr təhsilli, 39.7%-i bakalavr, 25%-i kollec və 21.99%-i isə orta məktəb təhsillidir.

Evli qadınlar konteksindən məsələyə baxdığımız zaman təhsil pillələri arasında fərqlər gözə çarpacaq qədər çoxdur. Doktorantura pilləsində təhsil alan qadınlar arasında məşulluq fərqi 7%-dir. Burada digər fərq ondan ibarətdir ki, subay qadınlar arasında doktorantura təhsilli işsiz olmadıını tapdığımız halda, burada qadınlar doktorantura dərəcəsi olsa da 1.8% işləməyənlər də vardır. Deməli məşğulluq probleminə qadının təhsilindən əlavə, onun statusu da təsir edirmiş. Yəni əgər qadın eevlidirsə, nə qədər təhsil dərəcəsi yüksək olarsa onun işləməyinə əsaslı müsbət təsir göstərmir. Görünən odur ki, qadın evlidirsə, onun işləməyinə digər bilmədiyimiz faktorlar vardır ki, onlar da (məsələn: həyat yoldaşının maaşı, yetəri qədər gəlirin olması, istəmədiyi işdə işləmə) təsir edir. Qadının magistr təhsili olması 9.2%-lik fərq yaradır. Bu da yuxarıda yazıldı kimi təhsil dərəcəsinin yüksək olmasının müsbət faktor kimi olduğundan irəli gəlir. Eyni ilə bakalavr təhsil dərəcəsi kimi (15%). Qadın əgər kollec(-21%) və yaxud orta məktəb (-19%) təhsillidirsə onun işləməyini əhəmiyyətli dərəcədə aşağı salır.

GƏLİR

Bundan başqa qadın işləməyinə ailədə gəlirlərində təsiri olduğunu açıqlamışdıq. Aşağıdakı qrafikdə evli qadınlara ailənin ümumi gəlir qane etmə indeksi də təsir edirmi, və yaxud nə qədər təsir edir? Ona baxaq:



Şəkil 3. Evli qadınlarda gəlir yetərliliyinə görə məşğulluğu
Məlumatlar müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 3.-də ailənin gəlirlərini qane etmə səviyyəsinə görə evli və işləməyən qadınların 36.9%-i tamamilə qane etmir, 27.1%-i qane etmir, 5.1%-i qismən qane etmir, 2.3%-i neytral, 24.8%-i qismən qane edir, 2.8%-i qane edir, 0.9%-i isə tamamilə qane edir olduğunu respondentlər söyləmişdirlər. İşləyən evli qadınların isə gəlirləri 17.1%-i tamamilə qane etmir, 29.1%-i qane etmir, 9.5%-i qismən qane etmir, 2.5%-i neytral, 32.8%-i qismən qane edir, 8.1%-i qane edir, 0.85-i isə tamamilə qane edir cavabını vermişdirlər. Burada qadınların işləməyi ailənin gəlirlərinə qane etməsini müsbət mənada etkilediyi halda, işləməyən qadınlar üçün ailə gəlirləri qane etmədiyini seçmişdirlər. Şəkildən də aydın olur ki, işləyən hissələrdə qane etmə işləməyənləri keçmişdir. Lakin işləməyən evli qadınlarda gəlirlərinin qane etməsi mənfi olaraq göstərilmişdir. Çox qəribə bir haldır ki, evli qadın işləsə də onun gəlirləri qane etmədiyini də seçənlər az deyil. Sadəcə işləməyənlərdən "tamamilə qane etmir" deyənlərə baxsaq, (-19.8%) fərqlə qarşılacağıq. İşləyən və işləməynlər çox az bir hissəsi "ailəmin gəlirləri tamamilə məni qane edir" olaraq cavablandırmışdırlar.

NƏTİCƏ

Subay qadının təhsil dərəcəsi nə qədər yüksək olarsa onun işləmək imkanının bir o qədər çox olduğunu statistik araşdırmamızdan tapdıq. Bundan başqa qadın əgər evlidirsə, onun təhsilin ən yüksək pilləsindən məzun olsa belə müəyyən miqdarda işləməyən olduğu müəyyən olunmuşdur. Bunun nə üçün belə olduğunu evli qadınların işləməyinə təhsildən başqa digər kontrol dəyişənin olması da təsir göstərdiyini sübut edir. Həmçinin evli olub, işləyən qadınların ailənin gəlirləri həm qane etdiyini, həm də qane etmədiyini ortaya çıxardı. Buna səbəb olaraq, ailənin artan ehtiyacları olduğunu onların ehtiyacları qarşılamaqda çətinlik çəkdiklərinə görə qane olmadığını açıqlaya bilərik. Bu araşdırmada yaranmış bəzi çatışmazlıqlar vardır ki, evli qadınlarda uşaq baxımı xərcləri gələcək tədqiqatçılar üçün elmə yeni tövhələr verməyə bir stimul yaradır.

ƏDƏBİYYAT SIYAHISI

1. Aliyev, K., Seyfullali, J., Saidova, N., Musayev, T. and Nuhiyev, F. (2020), "Factors affecting women's employment likelihood in a Muslim society: the case of Azerbaijan", International Journal of Social Economics, Vol. 47 No. 8, pp. 973-989.
2. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin “2020-ci il üzrə Gender Hesabatı”, http://scfwca.gov.az/store/media/Gender%20hesabat%202020.pdf , Bakı-2021.
3. Glass, J. (1992). Housewives and employed wives: demographic and attitudinal change, 1972-1986. Journal of marriage and the family, 559-569. https://doi.org/10.2307/353242
4. Hannan, M. T. and Kranzberg, Melvin (2021, November 1). “History of the organization of work”. Encyclopedia Britannica.
5. Kermane, Muntazir Maqbool. "A psychological study on stress among employed women and housewives and its management through progressive muscular relaxation technique (PMRT) and mindfulness breathing." J Psychol Psychother 6, no. 244 (2016): 2161-0487. https://doi.org/10.4172/2161-0487.1000244.
6. Kleinberg, S. J. (1999). Women’s Employment, 1865–1920. In Women in the United States, 1830–1945 (pp. 105-127). Palgrave, London. https://doi.org/10.1007/978-1-349-27698-1_6
7. Moen P, Yu Y: Effective wosrk/life strategies: working couples, work conditions, geneder, and life quality. Soc Probl. 2000, 47: 291-326.
8. Navadeh, S., Sajadi, L., Mirzazadeh, A., Asgari, F., & Haghazali, M. (2011). Housewives’ obesity determinant factors in iran; national survey-stepwise approach to surveillance. Iranian journal of public health, 40(2), 87.
9. Saravi, F.K., Navidian, A., Rigi, S.N. et al. Comparing health-related quality of life of employed women and housewives: a cross sectional study from southeast Iran. BMC Women's Health 12, 41 (2012). https://doi.org/10.1186/1472-6874-12-4.
10. Yellen, J. (2017). So We All Can Succeed: 125 Years of Women's Participation in the Economy: a speech at\" 125 Years of Women at Brown Conference,\" sponsored by Brown University, Providence, Rhode Island, May 5, 2017 (No. 952). Board of Governors of the Federal Reserve System (US).
11. Waldron, I. (1980). Employment and women's health: An analysis of causal relationships. International journal of health services, 10(3), 435-454.
12. “Single women take take an outsize role in the workforce — and the economy”, (March 8, 2023) https://www.washingtonpost.com/business/2023/03/08/single-women-jobs-economy/
13. “Female power”, (2009) https://www.economist.com/briefing/2009/12/30/female-power

THE BENEFITS OF LITERARY HERITAGE TO THE ECONOMY: THE CASE OF NOTTINGHAM

JAMIL TAGHIYEV
Azerbaijan State University of Economics (UNEC)
International Magistrate and Doctorate Center
cemil.tagi@mail.ru
BAKU, AZERBAİJAN

VAFA OSMANOVA
Western Caspian University
Department of Graduate Studies
0009-0004-0859-2992
vafa.osmanova93@gmail.com
BAKU, AZERBAİJAN

XÜLASƏ

Müasir dövrümüzdə elm sürətlə inkişaf edir. Bu, yeni elmi sahələrin yaradılmasına, müxtəlif elmlərin birgə inkişafına şərait yaradır. İqtisadiyyatın yeni sahəsi kimi meydana çıxan yaradıcı iqtisadiyyat müxtəlif elm sahələrindən bəhrələnir. Bu sahələrdən biri də ədəbiyyatdır. Ədəbiyyat bir millətin iqtisadi vəziyyətinin əksi kimi xidmət edir və onun iqtisadi tərəqqiyə təkan verir. Qədimdən bu günə kimi iqtisadi fikir və ədəbi fikir bir-birinə qarışmış və uyğunlaşdırılmışdır. Hind Avropasının Veda xalqının yazılarında, Yəhudi sivilizasiyasının qədim mətnlərində və Yunan tarixindən sənədlərdə bəzi faktlar var.

Ədəbiyyatın yaradıcı iqtisadiyyatda yeri getdikcə artır. Ədəbiyyat təkcə yaradıcı iqtisadiyyatın inkişafında rol oynamır. Turizmin inkişafında da müstəsna yeri var. Bu gün ədəbi turizm inkişaf etdikcə, iqtisadi səmərə yaratmaqla yaradıcı təbəqənin yaradıcılığını həvəsləndirir. Ölkələrin ədəbi irsi də ədəbi turizm üçün cəlbediciliyini qoruyub saxlayır. Ədəbiyyatın iqtisadiyyatla birgə inkişafı yaradıcı iqtisadiyyatın və turizmin inkişafına kömək edir. Qloballaşma dünyanı vahid mərkəz kimi bir araya gətirib, müxtəlif mədəniyyətləri görmək üçün turist axınına səbəb olub. Turist axını həm də ərazinin inkişafına təkan verir və iqtisadi artımda turizmin payını artırır. Ona görə də ölkələr daha çox turistin gəlməsini təşviq etmək üçün siyasət hazırlayır, mədəni irsini qorumaq və turizm üçün faydalı etmək üçün çalışırlar. Ədəbi irsinin zənginliyi və turizmə cəlbediciliyi Nottingem-in əhəmiyyətini artırır. Xüsusilə, Nottingem Universitetinin ədəbi və mədəni qeydlər kolleksiyaları zəngin və əhəmiyyətlidir. Nottingem Lord Bayron, DH Lawrence və Alan Sillitoe kimi böyük yazıçıların ölkəsidir. NottingemDƏ 2400-dən çox yaradıcı biznesdə 20.000-ə qədər işçi çalışır. Turizmin inkişafında sabitliyi qorumaq üçün ədəbi tədbirlər, festivallar təşkil olunur. Nottingem ədəbiyyat mövzusunda YUNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin üzvüdür. UNESCO-nun Ədəbiyyat Şəhəri statusu Nottingemin dünya səhnəsində nüfuzunu artırır. Məqalə Nottingem ədəbi irsinin iqtisadi faydalarını araşdırır.

AÇAR SÖZLƏR: ədəbiyyat turizmi, kreativ iqtisadiyyat, kreativ sənayelər, Nottinqem, ədəbi irs.

ABSTRACT

In our modern times, science is developing rapidly. This creates conditions for the creation of new scientific fields and the joint development of different sciences. The creative economy, emerging as a new branch of the economy, benefits from various fields of science. One of these fields is literature. Literature serves as a reflection of the economic situation of a nation, and that it drives economic progression. Since ancient till today Economic thought and Literary opinion have been intertwined and corresponded. There are some facts in the writings of the Vedic people of Indo Europe the ancient texts of the Judaic civilization, and the documents from Greek history.

The place of literature in the creative economy is increasing. Literature does not only play a role in the development of the creative economy. It also has an exceptional place in the development of tourism. Today, as literary tourism develops, it encourages the creativity of the creative class by

creating economic benefits. The literary heritage of the countries also maintains its attractiveness for literary tourism. The joint development of literature with economy contributes to the development of creative economy and tourism. Globalization has brought the world together as a single hub, leading to an influx of tourists to see different cultures. The influx of tourists also boosts the development of the area and increases the share of tourism in economic growth. Therefore, countries prepare policies to encourage more tourists to come, and work to protect their cultural heritage and make it useful for tourism. The richness of its literary heritage and its attraction to tourism add to Nottingham's importance. Especially, The University of Nottingham's collections of literary and cultural records are rich and important. Nottingham is the land of great writers such as Lord Byron, DH Lawrence and Alan Sillitoe. The interest of millions of tourists in Nottingham's literary heritage throughout the year also has a positive effect on the development of the area. Nottingham employs up to 20,000 people in over 2,400 creative business. Literary events and festivals are organized to maintain stability in the development of tourism. Nottingham is a member of UNESCO's Creative Cities Network on the theme of literature. The status of UNESCO City of Literature raises Nottingham’s profile on the world stage. The article explores the economic benefits of Nottingham's literary heritage.

KEYWORDS: literary tourism, creative economy, creative industries, Nottingham, literary heritage

GİRİŞ

İqtisadiyyatın inkişafının mərhələlərində müxtəlif elm sahələrindən də bəhrələnmişdir. Elm və texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrümüzdə iqtisadiyyatın yeni sahələri yaranmaqdadır. İnsan bilik və bacarıqlarına əsaslanaraq inkişaf edən kreativ iqtisadiyyat da bu qəbildəndir. Kreativ iqtisadiyyat yaradıcı sinfin çiyinlərində yüksəlməkdədir. Müxtəlif elm sahələrinin nümayəndələri olan yaradıcı sinif elə bir irs formalaşdırır ki, bu dünyada yeni tendensiyaların yaranmasına səbəb olur. İlk baxışda ədəbiyyat ilə iqtisadiyyat, ədəbiyyat ilə turizm bir-birindən tam uzaq elm sahələri kimi görünür. Ədəbiyyatın yaradıcı insanları öz irsləri ilə turistlər üçün maraq, iqtisadiyyat üçün iqtisadi fayda yaradırlar. Yazarın və şairin əsərləri dünyaya yayıldıqca onların irsini görmək, eləcə də yaşam tərzini öyrənmək turistlər üçün cəlbedici görünür. Getdikcə yaradıcı sənayelərin inkişafı, beynəlxalq ticarətdə kreativ əmtəə və xidmətlərin həcminin artması mövzunun nə dərəcədə önəmli olduğunu göstərməkdədir. Eləcə də ədəbi irsin aid olduğu ölkənin daha çox tanınmasına, turistlərin sayının artmasına da təsirləri böyükdür. Günümüzdə ədəbiyyat turizmi daha da inkişaf etməkdədir. Turistlərin müxtəlif zövqlərə sahib olması turizmin də müxtəlifliyini şərtləndirir. Fərqli zövqlərə malik insanların tələbinə uyğun turistik fəaliyyətlərin təklifi dayanıqlı turizmin inkişafına şərait yaradır. Ədəbi irsə sahib ölkələr ədəbiyyat turizminin inkişafı üçün ədəbi fəaliyyətlərini artırırlar. Ədəbi festivallar və tədbirlərin təşkili bu sahəyə marağı olanların axınına səbəb olur. Turistlərin axını yerli əhalinin gəlirlərini artırır və iqtisadiyyatda artıma səbəb olur. Ədəbiyyat turizminin daha da inkişaf etdirilməsi, turizmdə dayanıqlılığa nail olunması üçün ölkələrin fərqli siyasətləri var. Beynəlxalq təşkilatlar vasitəsilə də kreativ iqtisadiyyata dayanan sahələrin təşviqi məqsədilə şəbəkələşmələr yaradılır. UNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsi də bu qəbildəndir. 7 müxtəlif tematika üzrə şəhərləri birləşdirən YŞŞ şəhərlərin şəbəkələşməsi və tanınması baxımından müstəsna rol oynayır. Yaradıcı Şəhərlər Şəbəkəsinin tematikalarından biri də ədəbiyyatdır. Ədəbiyyat üzrə dünyanın fərqli regionlarından şəhərlər bu şəbəkəyə qoşulmaqla fəaliyyətlərində ədəbiyyata yer ayırırlar. YŞŞ-nin ədəbiyyat tematikası üzrə üzvlərindən biri də Nottinqem şəhəridir. Nottinqemin Nottinqemşirdə yerləşməsi, ədəbi irsinin zənginliyi turistlərin getmək istədiyi yerlərdən biri kimi cəlbediciliyini qoruyur. Ədəbi qəhrəmanlara heykəllərin qoyulması, ədəbi festivalların təşkili, ədəbi irsin muzeylər vasitəsilə sərgilənməsi turizmin dayanıqlılığını təmin edir. Məqalədə ədəbiyyatın iqtisadiyyata müsbət təsiri olduğunu tədqiq edəcək, kreativ iqtisadiyyatın getdikcə artan rolundan bəhs edəcəyik.

TƏDQİQAT METODU

Kreativ iqtisadiyyata dair tədqiqatlarda statistikadan ibarət mürəkkəb məlumatlarla deyil, əvvəlki tədqiqat və hesabatlara əsaslanaraq yumşaq məlumatların toplanması ilə təsviri xarakter daşıyır. Tədqiqatda ona görə də keyfiyyət metodlarından istifadə edilmişdir. Tədqiqat zamanı zaman sırası analizi keyfiyyətində əvvəlki tədqiqatlara baş vurulmuş, kreativ iqtisadiyyat üzrə tədqiqatçıların elmi əsərlərindən və UNESCO, UNCTAD hesabatlarından istifadə edilmişdir. Bu tədqiqatda tədqiqatçılar kreativ iqtisadiyyatın nəzəri-metodoloji əsasları, İngiltərədə kreativ iqtisadiyyatın inkişafı, Nottinqem şəhərinin ədəbi irsi və bunun iqtisadiyyata təsirlərini təqdim edirlər.

KREATİV İQTİSADİYYATA BAXIŞ

1990-cı illərdən iqtisadi ədəbiyyata "kreativ iqtisadiyyat", "yaradıcı sinif", "yaradıcı sənayelər" terminləri daxil olaraq iqtisadiyyatda çəkisini artırmağa başladı. Beynəlxalq təşkilatların proqnozlarına görə, 2030-cu ilədək kreativ iqtisadiyyatda çalışanlar ümumi çalışanların 10%-nə çatacaq. Qısa müddətdə iqtisadiyyatda kreativ iqtisadiyyatın yüksəlişi tədqiqatçıların marağına səbəb olmuşdur və kreativ iqtisadiyyat barədə çoxlu tədqiqatlar mövcuddur.

Kreativ iqtisadiyyata yanaşmalardan biri olan kreativ sənayeləşmə Con Haukins tərəfindən irəli sürülmüş, İngiltərənin Mədəniyyət, Media və İdman Departamenti (DCMS) qruplaşdırmış, UNCTAD tərəfindən inkişaf etdirilmişdir(DCMS, 2013: s-13, UNCTAD, 2008: s-13). BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı(UNCTAD) təsnifatına görə, kreativ sənayelər irs, incəsənət, media və funksional yaradıcılıqdan ibarətdir.

Riçard Florida daha sonra "yaradıcı sinif" konsepsiyasını irəli sürdü. O, peşə təhlilindən istifadə edərək işçi qüvvəsini yaradıcı sinif, işçi sinfi və xidmət sinfi kimi üç yerə ayırır. Xidmət sinfi gündəlik xidməti icra edir, işçi sinfi fiziki əməkdən istifadə edir. Yaradıcı sinif isə bilgiyə dayanan fəaliyyətdir. Yaradıcı sinfin inkişafı əmək qüvvəsində keyfiyyəti təmin etməklə bilgiyə dayanan iqtisadiyyatın yüksəlişinə xidmət edir. Bilik iqtisadiyyatının inkişafı əlavə dəyəri daha yüksək olan məhsulların istehsalı deməkdir və bu da yaradıcı sinfin daha böyük dəyər yaratdığı mənasına gəlir. Yaradıcı sinif super yaradıcı nüvə (komputer və riyaziyyat peşələri; memarlıq və mühəndislik; həyat, fiziki və sosial elm; təhsil, təlim və kitabxana vəzifələri; incəsənət və dizayn işləri; əyləncə, idman və media peşələri) və yaradıcı peşəkarlar (idarəçilik peşələri; biznes və maliyyə əməliyyatları; hüquqi vəzifələr; tibb işçiləri; texniki peşələr; yüksək səviyyəli satış və satış idarəçiliyi) kimi alt qruplara bölünür(Mellander və Floria, 2021: s-10).

Yaradıcı şəhərlərin texnoloji-innovativ şəhərlər, mədəni-intellektual şəhərlər, mədəni-texnoloji şəhərlər, texnoloji-təşkilati şəhərlər kimi tipləri var (Hospers, 2003: 147-148).

Texnoloji-innovativ şəhərlər yeni texnologiyaların yarandığı şəhərlərdir. Əksər hallarda bir nəfərin yaratdığı innovasiya şəhərin önə çıxmasına səbəb ola bilər. Getdikcə bu cür şəhərlərin sayı artmaqdadır.

Mədəni-intellektual şəhərlər elə şəhərlərdir ki, şəhərdə yaşamayanların diqqətinə səbəb olur və düşünürlər ki, öz bacarıqlarını belə şəhərlərdə göstərə biləcəklər. Mədəni-texnoloji şəhərlər mədəniyyətin texnologiya ilə birləşməsindən yaranan şəhərlərdir. Daha çox mədəni sənayelər kimi ifadə edilir. Texnoloji-təşkilati şəhərlər isə yaşayanların ənənəvi problemlərə yeni həll yolları gətirmələri ilə yaranan şəhərlərdir. Bu cür yenilənən şəhərlər günümüzdə də yaranmaqdadır(Namazova və Tağıyev, 2023: s.13).

UNESCO tərəfindən isə yaradıcı şəhərlərə dair Yaradıcı Şəhərlər Şəbəkəsi üzrə təsnifləşmə işlənmişdir. Bu şəbəkənin şəhərlərin sahib olduğu mədəni irsi qorumaq, yaradıcılığı təbliğ etmək, yaradıcı sinfin yüksəlişində rol oynamaq, şəhərlərin iqtisadi inkişafına öz töhvəsini vermək kimi məqsədləri var. Yaradıcı şəhərlər şəbəkəsinin getdikcə əhatə dairəsi genişlənməkdədir. 2023-cü ilin oktyabr ayının məlumatlarına əsasən dünyanın 100 ölkəsindən 350 şəhər Yaradıcı Şəhərlər Şəbəkəsinin üzvüdür. Yaradıcı Şəhərlər Şəbəkəsi 7 tematika üzrə qruplaşdırılır.

Cədvəl 1. UNESCO Yaradıcı Şəhərlər Şəbəkəsinin tematikaları

Sənətkarlıq və xalq sənəti	Media sənəti
Qastronomiya	Musiqi
Ədəbiyyat	Dizayn
Film	

Mənbə: en.unesco.org/creative-cities/creative-cities-map

Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq daim üzv olmaq mənasına gəlmir. Ona görə ki, hər 4 ildə bir dəfə üzvlük izləmə hesabatı hazırlanmalıdır. Fərqli tematikalar üzrə qruplaşmada məqsəd yaradıcılığı şəhərlərin davamlı inkişafı üçün strateji amil kimi müəyyən etmək və əməkdaşlığı təşviq etməkdir(Tağıyev, 2022: s.169, Tağıyev, 2023: s.60). Yaradıcı şəhərlərin şəbəkəsi genişlənməkdə və üzvlərin sayı artmaqdadır.

KREATİV İQTİSADİYYATIN YÜKSƏLİŞİ

Öncə inkişaf etmiş ölkələrdə yaranan, daha sonra qloballaşmanın təsirilə inkişaf etməkdə olan ölkələrə də yayılan kreativ iqtisadiyyat getdikcə iqtisadiyyatda öz payını artırmaqdadır. 2000-ci illərin əvvəlindən başlayaraq kreativ əmtəələrin istehsalı və ixracı artmağa başlamışdır. Kreativ və mədəni sektorda çalışanlar və istehsal ildən-ilə artmaqdadır. UNESCO-nun 2022-ci il hesabatına görə kreativ və mədəni sektorda çalışanlar dünya üzrə ümumi çalışanların 6.2%-ni, kreativ istehsal isə qlobal ÜDM-nin 3.1%-ni təşkil edir(UNESCO, s-44). İstehsalın artması və qloballaşmanın təsirilə kreativ əmtəə və xidmətlərin də ixrac həcmi artmaqdadır. 2002-ci ildə 200 milyard dollarlıq kreativ əmtəə ixrac edilirdisə, 2020-ci ildə 524 milyard dollara çatdı. Ölkələrin kreativ əmtəələrin ixrac statistikasına baxanda 2011-ci ilədək inkişaf etmiş ölkələrin ixrac həcmi daha çox idi. 2011-ci ildən etibarən inkişafda olan ölkələrin yaradıcı əmtəə ixracı inkişaf etmiş ölkələrin səviyyəsindən illər üzrə artmağa başladı. 2020-ci il üzrə ixrac edilən 524 milyard dollarlıq yaradıcı məhsulun 296 milyardlıq hissəsini inkişafda olan, 226 milyard dollarlıq hissəsini isə inkişaf etmiş ölkələr gerçəkləşdirib. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) qruplaşdırmasına görə yaradıcılıq məhsullarına sənətkarlıq, audiovizuallar, dizayn, yeni media, ifaçılıq sənətləri, nəşriyyat,vizual incəsənət və yaradıcı xidmətlərə isə tədqiqat və inkişaf lisenziyaları və xidmətləri, proqram lisenziyaları və xidmətlər, audio-vizual lisenziyalar və xidmətlər, informasiya xidmətləri, reklam, bazar tədqiqat və memarlıq, mədəni, istirahət və irs xidmətləri daxildir. 2007-ci ildən etibarən Asiya kreativ əmtəə ixracı üzrə başlıca qitəyə çevrildi. Xüsusilə də Asiya ölkəsi olan Çinin kreativ əmtəə və xidmət ixracı daha çoxdur. Bunu dünyanın top 10 ən çox kreativ əmtəə ixrac edən ölkələrin siyahısından da görmək olar.

Cədvəl 2. Kreativ əmtəə ixracatçılarının top onluğu(2020)

Ölkələr	İxrac(mlrd dollarla)
Çin	169
ABŞ	32
İtaliya	27
Almaniya	26
Honq Konq	24
Fransa	21
İngiltərə	15
Vyetnam	14
Koreya	14
Hindistan	14

Mənbə: UNCTAD creative economy report 2022

Cədvəl 2-dən də göründüyü kimi kreativ məhsulların istehsalı inkişaf etmiş ölkələrlə birlikdə inkişafda olan ölkələrdə də inkişaf mərhələsinə qədəm qoyub. Kreativ əmtəələrin istehsalı və ixracı ölkələrin ixracında ümumi ixraca görə payını artırmaqdadır. 10 inkişaf etmiş ölkənin kreativ əmtəə ixracı onların cəmi ixracının ortalama 3.08%-ni təşkil edir. 10 inkişafda olan ölkələrdə isə bu rəqəm 4.19% təşkil edir. Göründüyü kimi inkişafda olan ölkələrdə kreativ iqtisadiyyat sürətlə inkişaf etməkdədir. Daha çox gənclərin məşğulluğunun təminində rol oynayan kreativ iqtisadiyyat öz yüksəlişini yaşamaqdadır.

İNGİLTƏRƏDƏ KREATİV İQTİSADİYYAT

Kreativ iqtisadiyyatın inkişaf etdiyi başlıca ölkələrdən biri də İngiltərədir. Ölkə iqtisadiyyatında kreativ iqtisadiyyatın önəmi statistik məlumatlardan da görülməkdədir. İngiltərədə kreativ iqtisadiyyata baxanda ölkənin kreativ əmtəə və xidmətlərin ticarəti ilə bərabər yaradıcı sinfə aid mədəni irsin ölkə iqtisadiyyatına turizmin inkişafı ilə təsir etdiyi görülür.

Cədvəl 3. Kreativ əmtəə və xidmət ticarəti(2020)

Kreativ məhsulların ticarəti				Kreativ xidmətlərin ticarəti	
İxrac (mlrd US dollar)	**Cəmi ixracda payı(%)**	**İdxal (mlrd US dollar)**	**Cəmi idxalda payı(%)**	**İxrac(mlrd dollar)**	**Cəmi xidmət ixracında payı(%)**
15.3	**3.8**	**23.5**	**3.7**	**56.8**	**16.6**

Mənbə: UNCTAD Creative Economy report 2022

Yuxarıdakı cədvəldən də göründüyü kimi İngiltərənin cəmi ixracının 3.8%-i kreativ əmtəənin, cəmi xidmət ixracının isə 16.6%-i kreativ xidmətlərin payına düşür. Kreativ məhsulların nəşriyyat qrupuna aid 490199 HS kodu üzrə BMT-nin Comtrade bazasının məlumatına əsasən İngiltərənin 2022-ci ildəki ixracı 1.8 milyard dollar həcmində olub. Göründüyü kimi ədəbiyyata aid kitabların nəşri və ixracı ölkənin kreativ iqtisadiyyatında mühüm yer tutur. Kreativ iqtisadiyyata aid məhsul və xidmətlərin ticarətindən başqa ölkəyə turist axınının dayanıqlılığını təmin etmək üçün kreativ iqtisadiyyatın rolu artmaqdadır. Kreativ iqtisadiyyata aid yaradılan irsin və yaradıcı sinfin fəaliyyətinin təşkili turizmin dayanıqlılığında rol almaqdadır. Statitanın statistikasına görə 2022-ci ildə İngiltərəyə turist səfərlərinin sayı 31.2 milyon nəfər təşkil etmişdir(https://www.statista.com/statistics/287133/annual-number-of-overseas-visits-to-the-united-kingdom-uk/) İngiltərənin dünya turizmindən daha çox pay alan ölkələrdən olması onun turizmin dayanıqlılığını təmin etmək üçün müxtəlif strategiyalar hazırlamasını şərtləndirir. Bu baxımdan dayanıqlı turizmin inkişafı üçün sahib olduğu ədəbi, mədəni irsindən istifadə, yaradıcı sinfə aid yazar və şairlərin əsərlərinin nəşri və təbliği siyasəti həyata keçirilir.

NOTTİNQAM ƏDƏBİ İRSİNİN TURİZMİN İNKİŞAFINA TƏSİRİ

Folklordan modaya qədər Nottinqam maraqlı və müxtəlif keçmişə malikdir. Robin Hud şəhəri adlandırılan Nottinqam, orta əsr və müasir quruluşların bir araya gəldiyi bədii və tarixi şəhər kimi diqqəti çəkir. Məhz Şervud meşəsində məşhur qəhrəman öz şücaətlərini göstərmiş, şücaəti və cəsarəti ilə yerli sakinləri heyran etmişdir. Şəhərin küçə və meydanları qəhrəman quldurun və onun dostlarının adını daşıyır. Nottinqam hər il gözəl Robin Qud festivalı keçirir. Bu festivala dünyanın hər yerindən turistləri cəlb olunur. Festival iştirakçılarına Robin Qudun geyindiyi kimi parlaq yaşıl papaqlar və plaşlar geyinmələri tövsiyə olunur. Festivalın qonaqları çoxsaylı şou və müsabiqələrlə əylənirlər. Kostyum şouları və rəqabətli ox atışları, maraqlı yarışlar və uşaq yarışları Şervud Meşəsində səhərdən axşama qədər keçirilən əyləncəli temalı tədbirlərdən yalnız bir neçəsidir. Tədbir bir həftə davam edir. Bu, yerli əhalinin ən çox gözlədiyi bayramlardan biridir və onların milli şöhrətini taclandırır.

Şəhərin əsas görməli yerləri və turistik məkanı onun hüdudlarından kənarda da tanınır. Bu, Nottinqam qalasıdır. Yüzlərlə il yaşı olan bu nəhəng, möhkəmləndirici quruluş indi muzeyə çevrilir və qiymətsiz tarixi əsərlər kolleksiyasını saxlayır. Qalanın darvazaları qarşısında turistlər məşhur ədəbi qəhrəman Robin Qudun abidəsini kəşf edəcəklər. Robin Hud balladalarının pərəstişkarları mütləq Edvinstouv kəndi yaxınlığında şəhərətrafı ərazilərdə böyük bir park ərazisini ziyarət etməlidirlər. Bu park Robin Qud üçün komanda mərkəzi hesab olunur. Parkın ərazisində mühüm təbii abidə - təxminən min il yaşı olan palıd ağacı tapılır. Eyni mühüm əlamətdar yer Lord Bayrona məxsus Newstead Abbey adlı evdir. Turistlər üçün ev pulsuzdur. Şairin nadir canlı əşyaları və yaradıcılıq əsərləri toplusunu təqdim edir.

Avropada adambaşına ən çox idman qurğusuna malik olan Nottinqam həm də həqiqətən idman şəhəridir. Trent Bridge-də beynəlxalq kriket matçlarına, Milli Buz Mərkəzində peşəkar xokkeyə və Nottinqam Açıq Tennis Turnirinə ev sahibliyi edir.

Nottinqam şəhəri müasir incəsənətin ən qabaqcıl nöqtəsindədir. Nottingham Contemporary Böyük Britaniyanın ən böyük müasir incəsənət qalereyalarından biridir və tez-tez dünyanın aparıcı rəssamlarının sərgilərini nümayiş etdirir. Şəhər həm də əlamətdar ədəbi irsi və inkişaf edən yaradıcı yazı səhnəsinə görə YUNESKO-nun Dünya Ədəbiyyat Şəhəri adlandırılıb.

Nottinqam dünya şöhrətli ədəbiyyat xadimləri ilə sıx bağlıdır və bir çox tanınmış müəlliflər, şairlər və jurnalistlərin evi olmuşdur. Nottinqam Trent Universiteti və Nottinqam Universitetinin ədəbiyyatla bağlı proqramları və kampusları ilə birlikdə hər il 60,000-dən çox dünya üzrə tələbə əhalisini cəlb edir, yaradıcı yazı kurslarında uzun müddət davam edən ənənələri ilə tanınır. Bundan əlavə, şəhərdə 200 illik Bromley Evi Kitabxanası olan güclü kitabxana şəbəkəsi var. Ədəbi tədbirlərin

müxtəlifliyi ilə seçilən Nottinqam hər il 300 rəssam və 55000 nəfərlik tamaşaçı toplayan çoxsahəli Nottinqam Avropa İncəsənət Teatrı Festivalına ev sahibliyi edir.

Ədəbiyyatın Yaradıcı Şəhəri olaraq Nottinqamın ədəbi irsdən gözləntiləri bunlardır:

- İstəksiz oxucuları ədəbiyyata cəlb etmək və öz növbəsində ömür boyu oxumağa və öyrənməyə sövq etmək üçün mükafat qazanan "Oxunmamışların şəfəqi" layihəsi də daxil olmaqla, kütləvi təşəbbüslər vasitəsilə savadsızlıqla mübarizə;
- Kitabxanalarda, məktəblərdə və mədəniyyət mərkəzlərində, xüsusən gəncləri hədəf alaraq hekayə vərdişlərini təşviq etmək üçün seminarlar;
- Beynəlxalq və çoxdilli əsərlərin geniş çeşidini nümayiş etdirən və təcrid olunmuş və həssas qrupların və fərdlərin iştirakını təşviq edən Nottinqam Söz Festivalının təşkilini davam etdirmək;
- Ədəbi sektorda iqtisadi cəhətdən davamlı karyeraya diqqət yetirən Ağızlı Şairlər kollektivi vasitəsilə gənclər üçün iş imkanlarının genişləndirilməsi;
- Digər Yaradıcı Ədəbiyyat Şəhərləri ilə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, xüsusən də innovativ mədəniyyətlərarası təcrübələri vurğulamaq üçün layihələr həyata keçirmək.

YUNESKO-nun Ədəbiyyat Şəhəri statusu Nottinqamın dünya miqyasında profilini yüksəltməyə imkan verəcək və Nottinqamı fərqli şəhərə çevirən çoxlu müxtəlif icmaların yerli yaradıcılığını inkişaf etdirməyə kömək edəcək.

NƏTİCƏ

İngiltərədə kreativ iqtisadiyyatın inkişafı ilə iqtisadiyyatın müxtəlif sahələrində dayanıqlı inkişaf görülməyə başladı. Kreativ əmtəələrin istehsalı ixracda bu əmtəələrin həcmini artırdı. İngiltərə ixracının 3.8%-ni təşkil edən kreativ əmtəələrin istehsalının artması məşğulluğa da öz müsbət təsirini göstərməyə başladı. Milyonlarla işçinin çalışdığı kreativ iqtisadiyyatda istehsal olunan məhsul və xidmətlər ölkənin beynəlxalq ticarətində payını artırmaqdadır. Kreativ xidmətlərin ixrac statistikasında gördük ki, ölkənin xidmətlər ixracının 16.6%-i yaradıcı xidmətlərdən ibarətdir.

Kreativ iqtisadiyyatın ölkə məşğulluğunda da payı yüksəlməkdədir. 2.4 milyon işçi yaradıcı sənaye sahələrində çalışmaqdadır. Əsasən gənc nəslin məşğulluğunda kreativ iqtisadiyyatın rolu müstəsnadır. Məşğulluqda artan rolu yaradıcı sinfin böyüməsini də təşviq edir. Müasir texnologiyaların və innovasiyanın sürətli inkişafı kreativ sənayelərdə böyüməni daha da artırır. Xüsusilə də əlavə dəyəri yüksək olan məhsulların istehsalı bu sahəyə marağı daha da artırır.

Kreativ iqtisadiyyatın ölkədə dayanıqlı turizmin inkişafına da təsirləri böyükdür. Ölkənin sahib olduğu irsin qorunması və iqtisadiyyata qazandırılması turizmdən daha çox pay almaqla bərabər mədəni irsin yerləşdiyi ərazinin də inkişafına öz pozitiv təsirlərini göstərir. Nottinqemin ədəbi irsinin iqtisadiyyata qazandırılması nəticəsində kreativ sənaye daha da böyüməyə başladı və kreativ iqtisadiyyatda çalışanların sayı artmaqdadır. Eləcə də, xarici və daxili turist axınının qorunmasında Nottinqemin ədəbi irsinin rolu böyükdür.

ƏDƏBİYYAT SİYAHISI

1. DCMS(2013), Kreativ sənayeləşmənin təsnifatı və ölçülməsi. https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/203296/Classifying_and_Measuring_the_Creative_Industries_Consultation_Paper_April_2013-final.pdf
2. Hüseynov, A., Tağıyev, C. (2023). Azərbaycanın ixrac məhsul çeşitləndirilməsində qeyri-neft ixracı. Elm və İnnovativ texnologiyalar Jurnalı, 26 s.
3. Hospers, G.J. (2003). Creative cities: Breeding places in the knowledge economy. Knowledge, Technology, Policy, 16(3), pp.143-162.
4. Mellander, C., & Florida, R. (2021). The rise of skills: Human capital, the creative class, and regional development. *Handbook of regional science*, 707-719.
5. https://en.unesco.org/creative-cities/creative-cities-map
6. Namazova, Saba & Tağıyev, Cəmil. (2023). KREATİV İQTİSADİYYATA ƏDƏBİYYAT TEMATİKASI ÜZRƏ BAXIŞ.
7. Tağıyev, Cəmil. (2022). Qarabağda kreativ iqtisadiyyat və ixrac potensialı.
8. Tağıyev, Cəmil. (2023). Azərbaycanda ixracın müasir vəziyyəti və səmərəliliyinin yüksəldilməsi yolları.
9. https://www.unesco.org/creativity/sites/default/files/medias/fichiers/2023/01/380474eng.pdf
10. UNCTAD(2008), Kreativ İqtisadiyyat hesabatı, https://unctad.org/system/files/official-document/ditc20082cer_en.pdf

İSTEHLAKÇILARIN SATINALMA QƏRARLARINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

ÇİNARƏ BƏKİROVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Biznesin təşkili və idarə edilməsi
cbekirova@std.beu.edu.az
XIRDALAN / AZƏRBAYCAN

Xülasə

Hal-hazırda böyük rəqabət ortamında olan şirkətlər, müəssisələr istehlakçı davranışları və satın alma qərarlarına təsir göstərməyə çalışırlar. Müəssisələrin əsas məqsədi qazanc əldə etməkdir. Bunun üçün şirkətlər istehlakçı davranışlarının satın alma qərarlarına göstərdiyi mədəni, sosial, şəxsi və psixolojik təsirlərə xüsusi diqqət yetirirlər. Bu çalışmada müəssisələr və inkişaf edən müasir marketinqdə istehlakçıların satınalma davranışları və bu davranışlara təsir edən amillərin vacibliyi və əhəmiyyəti göstərilmişdir.

AÇAR SÖZLƏR: İstehlakçı davranışı , satınalma qərarı , mədəni , sosial, şəxsi , psixolojik faktorlar

Abstract

Currently, companies and enterprises in a highly competitive environment strive to influence consumer behaviors and purchasing decisions. The main goal of enterprises is to generate profit. For this purpose, companies pay special attention to the cultural, social, personal, and psychological impacts of consumer behaviors on purchasing decisions. This study highlights the necessity and importance of understanding consumer purchasing behaviors and the factors influencing these behaviors in both enterprises and evolving modern marketing.

KEYWORDS: Consumer behavior , purchase decision , cultural , social , personal , psychological factors

GIRIŞ

İstehlakçı ehtiyaclarını qarşılamaq və daha çox gəlir əldə etmək üçün şirkətlər bir-birləri ilə mübarizə aparırlar. İnsanlar çox vaxt ehtiyaclarını qarşılamaq üçün alış-veriş edir. Bəzi insanlar getdiyi yerdə ehtiyaclarını qarşılamaq istəyərkən, bəziləri hara daha ucuzdursa orda alış-verişini edir. Bəzi insanlar ailələri ilə alış-veriş etməyi sevməz, bəzi insanlar isə həftə sonu alış-veriş edər. Bəziləri "alış-veriş edirəm, elədisə varam" şəklində düşünərkən, bəziləri üçün alışveriş adətən zülm halını alır.[3, s.79-85]

1950-ci illərdən sonra inkişaf edən və 1980-ci illərdə daha çox yüksələn "Müasir Marketinq" anlayışı, şirkətlərin məqsədlərini reallaşdırmaq üçün istehlakçıların istək və ehtiyaclarını qarşılayaraq, mənfəət əldə etməyi ön planda tutmuşdur.[4, s.351-352]Ölkəmizdə gündən günə önəm qazana "Müasir Marketinq" anlayışındaki istehlakçı məmnuniyyəti əsasən istehlakçıları və istehlakçı davranışlarını düzgün dərk etməklə mümkün olacaq.

1. İstehlakçı davranışı

İstahlakçı davranışı dedikdə şəxslərin istək və ehtiyaclarını qarşılamaq üçün mal və xidmətləri seçmə , satınalma , istifadə etmə zamanı göstərdiyi davranışlar nəzərdə tutulur. İstehlakçı davranışları hansı mal və xidmətlərin kimdən, necə, harada, nə zaman satın alınıb alınmayacağı haqqında qərarların verildiyi bir prosesdir [1, s.116-117]

İstehlakçı davranışı tədqiqatı, fərdin mövcud resurslarından(pul, zaman) istifadə edərkən necə qərar verəcəyini araşdırır. Həmçinin bu tədqiqat insanların hansı məhsulları aldıqlarını, niyə aldıqlarını, necə aldıqlarını, nə zaman aldıqlarını, haradan aldıqlarını və nə sıxlıqda aldıqlarını təhlil edir.

İstehlakçılar satın alma zamanı məhsulu alıb-almamağı və ya məhsulu hardan, hansı satıcıdan alacaqlarına diqqət yetirirlər. Buna görə də şirkətlər istehlakçıların satın alma davranışlarına təsir etmək üçün reklam və endirimlərdən istifadə edirlər.[5, s.299] Bunlar vasitəsi ilə şirkətlər istehlakçıların satın alma qərarlarına təsir edə bilir.

2. İstehlakçıların satın alma davranışlarına təsir edən faktorlar

Əgər bir satıcı istehlakçının satın alma davranışını müəyyən edə bilərsə, bu mal və ya xidmətləri ilə əlaqəli hədəflərini reallaşdırmağa müsbət təsir göstərəcəkdir.Satın alma davranışı insanların, təşkilatların və qrupların ehtiyacları əsasında formalaşır. Satın alma davranışı dedikdə insan ehtiyacları mövzusuna da diqqət yetirilir, bu mövzunu anlamaqda xüsusi rol oynayır. Marketinqin əsas vəzifəsi, istehlakçıların istək və ehtiyaclarını dəqiqləşdirmək və buna uyğun mal və xidmətləri istehsal etməkdir. Marketinq uğur əldə etmək üçün sadəcə istehlakçıların istək və ehtiyaclarını deyil, eyni zamanda bu istək və ehtiyacların ortaya çıxma səbəblərini də öyrənməlidir. Bunun üçün böyük bir araşdırma aparılmalı və alıcıların davranışlarına diqqət yetirilməlidir. Düzgün araşdırma edildikdə bazar və istehlakçı arasında əlaqə də düzgün qurular. Beləliklə bazar istehlakçı ehtiyaclarını qarşılayacaq mal və xidmətlər istehsal etməklə sadiq bir alıcı qrupu qazanacaqdır.

İstehlakçı həm fərdi, həm sosyal aspektlərdən(ətraf, ailə, referans qrupları, rol və s.)çox saylı faktorun təsiri altındadır. Bu faktorlar istehlakçının satın alma qərarlarına müxtəlif formada təsir edir[6, s.3-4]

Istehlakçı niyə A markalı məhsul və ya xidməti B markalı məhsul və ya xidmətə görə üstün tutur? Niyə bəzi məhsul və xidmətləri həmişə müəyyən yerdən almağa çalışır? Bu sualların cavabını tapmaq olduqca çətindir. Bəzən istehlakçı özü də satınalma davranışının həqiqi səbəblərini tam olaraq başa düşmür. Amma əsas istehlakçı ehtiyaclarını və davranış formalarını anlamaq, işin marketinq səylərini doğru istiqamətləndirmək üçün böyük əhəmiyyət daşıyır.

Həqiqətən də yuxarıda verilən suallara cavab tapmaq üçün çox yönlü təsir və reaksiyaları anlamaq lazımdır.Davranışlar, bir tərəfdən istehlakçının şəxsi olaraq, ehtiyaclarının və tələbatlarının, öyrənmə prosesinin, qiymətləndirmələrinin, mövqelərinin və inanclarının təsiri ilə, digər tərəfdən şəxsin üzvü olduğu cəmiyyətdə mədəniyyət, sosyal sinif, istinad qrupları və ailə kimi faktorların təsiri ilə müşahidə olunur[2, s.79-80].

İstehlakçı davranışlarına fərdi və fərdi olmayan bəzi faktorlar təsir edir. Fərdi faktorlara ehtiyaclar, istəklər, tələblər, tutumlar, təcrübələr, dəyər anlayışları aid edilə bilər. Marketinq menecerləri istehlakçıların mal və xidmətlərə qarşı reaksiyalarını, həmçinin nəyə əsasən mal və xidmətləri aldıqlarını anlamaq və ölçmək üçün psixologiya texnikalarından istifadə edirlər. Fərdi olmayan faktorlara isə mədəniyyət, peşə, ailə, referans qrupları göstərilə bilər.

İstehlakçıların satın alma davranışlarına təsir edən faktorlar əsasən 4 qrupda toplanır: mədəni, şəxsi, psixoloji, sosial

Mədəni faktorlar

Sadalanan faktorlardan ən mühümü sayılan mədəni faktorlar istehlakçının mədəniyyəti, onun müəyyən submədəniyyətə və sosial sinfə aidliyini bildirir.

Mədəniyyət - Burada əsasən insanların aid olduğu ailə və ya cəmiyyət, bu ailə və ya cəmiyyətin onlara qazandırdıqları dəyərlər, vərdişlər nəzərdə tutulur.

Submədəniyyət – hər bir mədəniyyət submədəniyyətlərdən ibarətdir. Burada insanlar özləri ilə oxşar fərdlərlə sıx ünsiyyət qura bilir. Submədəniyyətlər milli, dini, irqi və ya regional əsaslarla formalaşır. Bir çox submədəniyyətlər bazar seqmentlərinin bünövrəsini təşkil edir ki, bu da satıcıları məhsulları və marketinq proqramlarını onların tələbatlarına uyğunlaşdırmağa məcbur hala salır.

Sosial siniflər – üzvləri müəyyən vahid dəyərlər əsasında birləşən, nisbətən eynicinsli, stabil ictimai qruplardır. Sosial siniflərin əsas fərqləri müəyyən sosial statusun olması; təhsil, gəlir, fəaliyyət növü və ən əsası bir sinifdən başqa bir sinifə keçid imkanının olmasıdır.Bu sosial siniflər vasitəsi ilə istehsalçılar müəyyən bir sinif seçib onun tələbatlarını ödəməyə fokuslana bilirlər.

Sosial faktorlar

Sosial faktorlar referans qrupları, ailə, rollar ve statuslar olmaqla üç başlıq altında qruplaşdırılır.

Referent qruplar- fərdin kiməsə(nəyəsə) qarşı münasibətinə birbaşa və ya dolayı yolla təsir göstərən qruplardır. Referent qruplar ilkin(ailə, qonşular, iş yoldaşları, münasibəti daimi və qeyri-rəsmi olan bütün qruplar) və təkrar(dini birliklər, rəsmi əsaslar üzərində qurulan və dövri xarakter olan qruplar, peşəkar kollektivlər)ola bilər. Referent qruplar bir neçə istiqamətdə fərdə təsir göstərir: onlar insanı öz davranışlarını və həyat tərzini dəyişdirməyə sövq edə bilər; fərdin həyata münasibətinə və onun özü haqqında düşüncələrinə təsir göstərə bilər; fərd tərəfindən konkret əmtəə və ticarət markalarının seçilməsinə təsir göstərə bilər.

Marketinq üzrə mütəxəssislər istehlakçıların referent qruplarını müəyyən etməli və onların bu və ya digər marka və ya məhsulu aldıqları zaman göstərilən müxtəlif təsirləri görməlidirlər.

Ailə - 20-ci əsrin əvvəllərindən geniş ailə anlayışı dəyişməyə, ancaq asas ailə üzvlərindən ibarət ailə anlayışına dönməyə başladı. Buraya valideynlər və onların kiçik uşaqları aid olunur. Ailənin ehtiyacları və xərcləmələri, onların ailədəki uşaq sayından və valideynlərdən neçəsinin işləyib büdcəyə gəlir verməsindən asılıdır. Ailə üzvləri yaşlandıqda və ya ailə üzvlərinin sayı dəyişdikdə bu ehtiyac və xərcləmələrdə də dəyişikliklərin olacağını göstərir.[7, s.71]

Rollar və statuslar - hər bir fərd ömrü boyu müxtəlif qruplarda(ailə, dostlar və s.)iştirak edir və müəyyən rola sahib olur. Hər bir rolun fərdə verdiyi bir status olur. Məsələn ABŞ-ın ali məhkəməsinin hakiminin statusu, bilinir ki, satış üzrə menecerin statusundan yüksəkdir, həmçinin satış üzrə menecerin statusu kompaniyanın adi işçisindən yüksəkdir.

Şəxsi faktorlar.

Şəxsi faktorlar yaş və həyat dövrü, məşğuliyyət və iqtisadi vəziyyət,həyat tərzi, şəxsiyyətin tipi olaraq qruplara bölünür.

Yaş və həyat dövrü – hər bir insanın fərqli yaşlarda fərqli istək və ehtiyacları olur. Uşaqlar üçün uşaq qidaları lazım olur, böyüklər müxtəlif yeməklərin dadına baxmağa çalışır, yaşlı insanlar isə artıq pəhriz tutmalı olur. 15-20 yaş arası insanlar geyimə diqqət yetirərkən, 25-30 yaş isə daha çox evlənən insanlar olduğundan ev əşyalarına diqqət yetirir.

Son dövrlərin tədqiqatları insanın həyat dövrünün psixoloji mərhələlərinin də olmasını müəyyən etmişdir. Həyatın yetkinlik mərhələsində hər bir fərd müəyyən psixoloji keçidlər yaşayır. Marketinq üzrə mütəxəssislər bu mühüm dəyişikliklərə gətirib çıxara biləcək vəziyyətlərə (boşanma, dul qalma, təkrar evlilik) və onların istehlakçıların davranışına təsirinə böyük diqqət yetirirlər.

Məşğuliyyət növü və iqtisadi vəziyyət – istehlakçının işi, onun müəyyən mal və xidmətlərə ehtiyacını formalaşdırır. Bir həkim ilə mühəndisin işləri fərqli olduğuna görə onların ehtiyacları da fərqli olacaqdır. İnsanların iqtisadi vəziyyəti onların istək və ehtiyaclarının formalaşmssında, satın alma qərarlarını verməkdə böyük rol oynayır. İstehsalçılar hər zaman satışı istehlakçıdan asılı olan məhsullar üçün əhalinin şəxsi gəlirlərini,faiz dərəcələrinin dəyişməsi tendensiyalarını nəzarətdə saxlayırlar. Əgər bir dəyişiklik olarsa, məhsulun yenə dəyərli olması üçün onun qiymət və ya mövqeləşdirilməsində fərqliliklər edə bilər.

Həyat tərzi – insanlar eyni sosial sinifə aid ola, eyni tərz məşğuliyyətlərə malik ola bilər. Ancaq bu insanlar tam fərqli həyat tərzinə sahib ola bilərlər.

Psixoqrafika istehlakçıların həyat tərzlərini öyrənən və təsnifləşdirən elmdir. Həyat tərzlərinin ən məşhur təsnifatı SRİ İnternational kompaniyası tərəfindən işlənib hazırlanan və psixoqrafik dəyişikliklərə əsaslanan VALS-2 və ya "Qiymətlilər və həyat tərzinin tipləri" (Values and Lifestyles) sxemidir. VALS-2 sxeminə əsasən ABŞ-ın bütün yaşlı əhalisi səkkiz istehlakçı qrupuna bölünmüşdür.

İstehlakçıların əsas qruplarına bunlar aiddir:

Reallaşdıranlar (aktuallaşdıranlar) - Uğur qazanmış, inkişaf etmiş və fəal olurlar. Məsuliyyəti öz üstlərinə götürmək onlar üçün qorxuducu olmur. Onların alışları, incə zövqdən və konkret istehlakçı qruplarına oriyentasiya etdirilmiş yüksək keyfiyyətli bahalı əmtəələrə meyl etməkdən ibarətdir.

Yerinə yetirənlər - təmin olunmuş və həyatlarından razı olan insanlardır. Vaxtlarını çox vaxt düşünərək və düşündüklərini müşahidə edərək keçirirlər. Əmtəədə möhkəmliyi, funksionallığı və dəyərliliyi yüksək qiymətləndirirlər;

Nail olanlar - Uğurlu olurlar, karyeraya diqqət yetirirlər və onlar üçün əsas olan işdir. Həmkarlarına nail olunmuş müvəffəqiyyətlərdən xəbər verən nüfuzlu əmtəələri seçirlər;

Eksperiment aparanlar - Gənc, enerjili və ruh yüksəkliyi ilə dolu olurlar . Üsyançıdırlar. Gəlirlərinin böyük hissəsini geyim almağa, restoranlara, kinoteatrlara xərcləməyə sərf edirlər;

Əmin olanlar - Mühafizəkar, adət və ənənələrə sadiq və heç bir fərqli mövzulara marağı olmayan insanlardır. Tanış əmtəə və məşhur markalara üstünlük verirlər;

Çalışanlar - Özlərinə inanmayan, özlərini daim etdikləri işlə bağlı təsdiqlənmə ehtiyacı duyurlar, onların imkanları məhduddur. Onlardan daha çox şeyə malik olan insanların aldıqları güclü əmtəələrə üstünlük verirlər;

-nə isə edənlər. Praktik olurlar və özlərindən razıdırlar. Təkcə parktiki və funksional dəyərə malik əmtəələri (alətlər, balıqçılıq ləvazimatları və s.) alırlar;

-müqavimət göstərənlər. Yaşca böyük, təqaüdə çıxanlar olur, passivdirlər, qayğılıdırlar və imkanları məhduddur. Çoxdan bəri tanış olan əmtəələrə üstünlük verən və ehtiyatlı davranan olurlar.

Şəxsiyyətin tipi – bir insanı digərlərindən fərqləndirən fikir, duyğu və davranışların bütününə şəxsiyyət deyilir.Hər insanın şəxsiyyəti onun satın alma davranışına təsir göstərər.Bəzi tədqiqatçılar ticarət markalarının fərdiliyə malik olduğunu bildirirlər. Buna görə də istehlakçılar ticarət markalarını öz şəxsiyyət tipinə görə seçirlər. Şəxsiyyətin tipinə olan biləvasitə münasibət özünüqavrama deməkdir. Ola bilər ki, hər hansı bir şəxsin özünüqavraması, onun kənardan görünüşü ilə üst-üstə düşməsin. Bu halda o əmtəəni alarkən əsas nəyə diqqət yetirəcək və seçim edəcək? Bu suala cavab tapmaq olduqca çətindir. Ona görə də özünüqavrama nəzəriyyəsi əmtəə haqqında münasibət reaksiyalarını proqnozlaşdıran marketoloqlar arasında elə də məşhur deyil.

Psixolojik faktorlar

Müştəri psixologiyasını yaxşı anlamaq istəyən hər kəs əvvəlcə müştəriləri sosial və mədəni faktorlar çərçivəsində təhlil etməli və sonra istehlakçı davranışlarına təsir edən psixoloji faktorlara görə hərəkət etməlidir.

Motivasiya(həvəs,istək,tələb) – müəyyən bir ehtiyac qarşılığında insanı hərəkətə gətirən, hər hansı ehtiyacı qarşılamaq üçün edilən davranışı ortaya çıxaran hissə motivasiya deyilir.İş yerində müəssisə rəhbərindən söz eşidən satın alma üçün mağazaya gedir. İnsanlar özünü daha yaraşıqlı, daha gözəl,güclü hiss etmək üçün alışveriş edirlər. Bir çox insan ehtiyacı olduğu üçün deyil, psixologiyalarını rahatlatmaq üçün alışverişə çıxırlar. Bu insanları psixologiya olaraq motivasiya etməkdə böyük rol oynayır.

Psixoloqlar tərəfindən insan motivasiyasının bir neçə əsas konsepsiyası işlənib hazırlanmışdır. Onlardan ən məşhurları – Ziqmund Freyd, Abraham Maslou və Frederik Hersberqdir.

Z.Freydin motivasiya nəzəriyyəsi - Bu nəzəriyyəyə görə istehlakçı ayrı-ayrı əmtəə markalarını incələnərkən, təkcə onların əsas xüsusiyyətlərinə yox, həm də az nəzərə çarpan cəhətlərinə də diqqət yetirir. Forma, ölçü, rəng, marka adı və material istehlakçıda müəyyən emosiyalar yaradır.

A. Maslounun motivasiya nəzəriyyəsi - niyə müxtəlif vaxtlarda fərd, müxtəlif tələbatlar hiss edir. A. Maslou bunu onunla izah edir ki, insan tələbatları sistemi ierarxik qaydada, əhəmiyyətlilik dərəcələsinə görə müvafiq olaraq düzülmüşdür: fizioloji tələbatlar, müdafiəyə olan tələbatlar, sosial tələbatlar və özünü ifadəyə olan tələabtlar. Fərd, ilk olaraq, ən əsas, ona ən vacib olan tələbatları təmin etməyə çalışır. Bunu etdikdən sonra, insan növbəti tələbatın ödənilməsinə keçir. Bu nəzəriyyə, rəngarəng məhsulların istehlakçıların plan, məqsəd və şəxsi həyatları ilə necə uyğun gəldiyini başa düşməyə kömək göstərir.

F. Hersberqin motivasiya nəzəriyyəsi - Frederik Hersberq insanın təmin olunmaması ilə məmnun olmasının prinsipial olaraq iki qrup müxtəlif amillər üzrə müəyyən olunduğunu iddia edən ikiamilli motivasiya nəzəriyyəsinin müəllifidir.Alışın baş verməsi üçün məmnunluq duyğusunun olması bəs etmir, məmnun qalma amili də mövcud olmalıdır. Məsələn, kompüter üzrə zəmanətin olmaması qeyri-məmnunluq amili olaraq görülə bilər. Əldə edilmiş texnikanın təmiri üzrə öhdəliklərin olması istehlakçını alışa sövq edəcək məmnunluq amili kimi çıxış etmir, bu zaman zəmanət məmnun qalmanın əsas mənbəyi deyil. Burada məmnunluq amili rolunda kompüterin istifadə zamanı sadəliyi çıxış edə bilər. Təcrübədə "iki amil" nəzəriyyəsi ikili formada tətbiq edilir. Bu amillər alıcı tərəfindən bu və ya başqa ticarət markasının seçilməsini müəyyən edir.

Qavrayış – insanların iç və ətraf dünyalarından xəbərdar olmasıdır. Qavrayış insanların ətrafda olan məlumatları seçməsi, qavraması, tənzimləməsi müddətidir. Qavrayış həmçinin keçmişdə baş verən hadisələr, inanclar, öyrənmə bacarığı, motivasiya ilə əlaqəlidir.[4, s.357-358]

Öyrənmə - İnsanlar məhsulu və ya xidməti qabaqcadan bilirsə satın almada daha cəld davranır. Əgər bilmirsə daha gec satın alma həyata keçirilir. Burada öyrənmə çox mühüm rol oynayır. Bir çox məhsul və ya xidmətin reklamını bir neçə dəfə gördükdə, bu məhsul və xidmət haqqında istehlakçılar öyrənirlər.

İnam və münasibətlər - İnsanın inam və münasibətləri rəftar və təlimlər əsasında formalaşır və istehlakçıların davranışına birbaşa təsir edir. İnam biliklərə, fikirlərə və ya inanclara əsaslanır. Əlbəttə ki, istehsalçılar alıcıların onların əmtəə və xidmətlərinə münasibətdə inama malik olmalarından çox maraqlıdırlar. İstehlakçılar üçün marka və əmtəələrə münasibətdə müəyyən inamları, onların hansı ölkədə istehsal edildiyindən də asılıdır. İnamdan əlavə olaraq fərdin münasibətləri də mühümdür. Münasibət – insan tərəfindən hər hansı obyekt və ya ideyanın dayanıqlı olaraq müsbət və ya mənfi

qiymətləndirilməsidir. İnsanlarda dinə və siyasətə, geyimə və musiqiyə, ərzaq məhsullarına və s. qarşı münasibət formalaşır. Hər hansı məhsula qarşı münasibət insanları həmin mahsulu sevməyə və ya ona nifrət etməyə, ona yaxınlaşmağa və ya ondan uzaqlaşmağa vadar edir. Formalaşmış dayanıqlı qiymətləndirmə vasitəsi ilə insanların oxşar məhsul və ya xidmətlərə eyni münasibətlərini təyin edərək hər bir alıcıya yeni şəkildə reaksiya verməyə ehtiyac qalmır. Yeni əmtəələrin istehsalı zamanı istehlakçıların artıq mövcud olan münasibətlərindən istifadə olunması və onların dəyişdirilməsinə çalışmamaq məqsədəuyğundur. Ancaq, istisna hallarda münasibətlərin dəyişməsi də baş verə bilir.

NƏTICƏ

İstehlakçı davranışlarının öyrənilməsi nəticəsində şirkətlər müştəri tələbatlarını başa düşərək məhsullarını və xidmətlərini daha effektiv şəkildə hazırlaya bilərlər. Bunun vasitəsi ilə şirkətlərin qiymətləndirmə, satış və reklam taktikaları daha effektiv olur. Həmçinin istehlakçı ilə daha yaxşı əlaqə qurmaq, bazar payını artırmaq və uzunmüddətli müştəri bağlılığını qurmaq üçün olduqca əhəmiyyətlidir.

İstehlakçıların satın alma qərarlarına təsiri müxtəlif amillər əsasında olur. İstehlakçıların ehtiyaclarının və arzularının başa düşülməsi, satın alma qərarlarına təsir edən sosial, şəxsi, psixoloji, mədəni faktorların düzgün analiz edilməsi nəticəsində hər bir müəssisə rəqabətdə özünü planda göstərə bilər. Nəticə olaraq istehlakçıların satın alma davranışlarına təsir edən amillər şirkətlərin anlamağa çalışdığı və araşdırdığı əsas mövzulardan biridir. Şirkətlərin daim inkişafında və gəlir əldə etməsində böyük rolu vardır.

ƏDƏBIYYAT SIYAHISI

1. DURMAZ, Y., (ORUÇ), R. B., & KURTLAR, M. (2011). KİŞİSEL FAKTÖRLERİN TÜKETİCİ SATIN ALMA DAVRANIŞLARINA ETKİSİ ÜZERİNE BİR ARAŞTIRMA. Akademik Yaklaşımlar Dergisi, 2(1), 114-133.
2. Mucuk, İ. (1999). Pazarlama İlkeleri, Türkmen Kitabevi, İstanbul.
3. DERELİ T. ve BAYKASOĞLU, A., (2002), Gaziantep Tüketicisinin Süpermarket Alışveriş Alışkanlıkları, Standard, 41 (485), 79-85.
4. DURMAZ , Y. D. D. Y. C. D. Y., CÖMERT, Y., & DURMAZ, Y. (2006). TÜKETİCİNİN TATMİNİ İLE SATIN ALMA DAVRANIŞLARINI ETKİLEYEN FAKTÖRLERE BÜTÜNLEŞİK YAKLAŞIM VE ADIYAMAN İLİNDE BİR ALAN ÇALIŞMASI. Yaşar Üniversitesi E-Dergisi, 1(4), 351-375.
5. LATTIN, J.M. Bucklin, R.E. (1989), "Reference Effects of Price and Promotion on Brand Choice Behavior", Journal of Marketing Research Volume: 26, Issue: 3, Publisher: American Marketing Association, 299.
6. ÜNLÜÖNEN, K., & TAYFUN, A. (2003). Turistlerin Yerli Halkın Tüketim Davranışlarına Etkileri Üzerine Ampirik Bir Araştırma. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi(10).
7. ÇALIK, N. Pazarlama Yönetimi, T.C. Anadolu Üniversitesi Yayını(1478), Açık Öğretim Fakültesi Yayını(791).
8. https://www.ticimax.com/blog/tuketici-davranisini-etkileyen-psikolojik-unsurlar-nelerdir
9. https://www.brandingturkiye.com/satis-ve-pazarlamadaki-psikolojik-faktorler/

AQRAR SƏNAYENİN TƏCHİZAT ZƏNCİRİNDƏ QİDA İTKİSİ VƏ TULLANTILARI PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

QOCAYEV ƏLI ƏKBƏR OĞLU
Bakı Mühəndislik Universiteti
Mühəndislik Fakültəsi/Logistika və N*T* kafedrası
aqocayev1.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

DOS. EYNALOV HƏZI ƏSKƏRAN OĞLU
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə Fakultəsi/ İqtisadiyyat kafedrası
heynalov@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Günümüzdə qida itkisi və tullantıları qlobal iqtisadiyyat baxımından əhəmiyyətli yük təşkil edir və davamlı inkişafın iqtisadi, sosial və ekoloji ölçülərinə mənfi təsir göstərir. İstehlakı üçün yararlı olan qidaların itirilməsi və israf edilməsi ərzaq təhlükəsizliyini və qidalanmanı pozur və əsas insan hüquqlarından biri olan qidaya çıxışın qarşısını alır. Kənd təsərrüfatı təchizat zəncirləri boyunca meydana gələn qida itkisi və tullantıları qlobal ərzaq təhlükəsizliyinə, iqtisadi dayanıqlığa və ətraf mühitin mühafizəsinə təsir edən əhəmiyyətli problemlərə səbəb olur. Məqalə ümumilikdə istehsal,

paylama, istehlak və istehlakdan sonrakı mərhələləri əhatə edən kənd təsərrüfatı təchizat zəncirləri boyunca qida itkisi və tullantılarının çoxşaxəli xarakterlərini araşdırır. Qida itkisi və tullantılarının səbəblərini, nəticələrini və müxtəlif təsirlərini tədqiq etməklə yanaşı bu problemləri azaltmaq üçün effektiv strategiyalar və müdaxilələr təklif edir. Məqalə akademik tədqiqatlara, beynəlxalq standartlara, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Ərzaq İtkilərinin və Tullantılarının Azaldılması üzrə Könüllü Davranış Kodeksinə uyğun olaraq hazırlanmışdır. (1), (2), (3).

ABSTRACT

Today, food loss and waste constitute a significant burden in terms of the global economy and have a negative impact on the economic, social and environmental dimensions of sustainable development. Loss and waste of edible food undermines food security and nutrition and prevents access to food, one of the basic human rights. Food loss and waste along agricultural supply chains pose significant challenges affecting global food security, economic sustainability and environmental protection. The article examines the multifaceted nature of food loss and waste along agricultural supply chains, which generally include production, distribution, consumption and post-consumer stages. It examines the causes, consequences and various impacts of food loss and waste, while proposing effective strategies and interventions to reduce these problems. The article was prepared in accordance with academic research, international standards, in particular the Food and Agriculture Organization of the United Nations (FAO) Voluntary Code of Conduct on Food Loss and Waste Reduction. (1), (2), (3).

AÇAR SÖZLƏR: *Təchizat zənciri,aqrar sənayenin təchizat zənciri, qida itkisi, qida tullantıları*

GIRIŞ

Qida tullantıları niyə baş verir?

Qida tullantılarının yaranmasında iqtisadi infrastrukturun qeyri-kafiliyi, yanlış kənd təsərrüfatı və ərzaq siyasəti kimi bir çox amillər həlledici rol oynayır. İstehsal nöqtələrindən toplanan qidaların uyğun şərtlərdə və ən qısa zamanda istehlakçıya çatdırılması hədəflənir. Məhsul yığım texnikasından tutmuş saxlama və soyutma üsullarına, daşınmadan ərzaq məhsullarının əhaliyə mütənasib paylanmasına qədər tədarük zəncirinin hər mərhələsində müəyyən itkilər baş verir.

Tədqiqatlar göstərir ki, qida itkisi və tullantılarının demək olar ki, yarısı fərdi fəaliyyətlərin nəticəsində meydana gəlir. Təsərrüfatdan süfrəyə gəlmək prosesində miqdarı getdikcə azalan qida, insanların alış və istehlak vərdişləri səbəbindən son tullantı mərhələsinə çatır. Qida tullantılarında ən həlledici amil insanların qida ehtiyaclarını səhv hesablamasıdır. Bu prosesin əsas ayrı-ayrı şəxslərin öz ehtiyaclarına uyğun alış-veriş etməmələri, artıq və istifadə olunmayan qidaların atılması və ya çürüməyə buraxılmasıdır. Belə ki, həddən artıq istehsal, təchizat zəncirinin təşkilində meydana gələ biləcək problemlər ilə yanaşı düzgün olmayan istehlakçı davranışları, qida tullantılarının ümumi miqdarının artmasına gətirib çıxardır.

Dünyada qida itkisi və israfı

Dünya əhalisinin sürətlə artması istehsal və istehlak edilən qidanın miqdarında əhəmiyyətli artıma səbəb olur. Lakin təəssüf ki, bu məhsulların hamısını istehlak etmək mümkün deyildir. Bəziləri satınalma və daşınma prosesindədir; Onun bir hissəsi istehlak fazasında müxtəlif səbəblərdən israf olunur. Qida itkisi ilə qida israfının konseptual olaraq fərqli mənalar daşıdığını nəzərə alsaq, bu cür itki və israfçılığın səbəblərinin də müxtəlif olduğunu söyləmək olar. Daha əvvəl qeyd edildiyi kimi, qida itkisi istehlakçıya çatmazdan əvvəl baş verir; Qida tullantıları istehlakçıların yaratdığı tullantıları təmsil edir.

Nəzəri olaraq, mənfəətini artırmaq istəyən təchizatçı və faydasını artırmaq istəyən istehlakçı üçün müəyyən qədər qida itkisi və israfına səbəb olması qaçınılmaz olacaqdır. Mənfəət və faydanın maksimumlaşdırılmasını nəzərə alsaq, bu vəziyyət həm istehsalçı, həm də istehlakçı üçün nəzərə alına bilər. Ona görə də qida itkisini və tullantılarını sıfıra endirmək əldə edilə bilən hədəfdən uzaqdır.

Təchizatçı və istehlakçı rasional hərəkət etmək istəsələr də, bazarda bir çox məhdudiyyətlər (bazar uğursuzluqları) qida itkisi və tullantılarının cüzi səviyyələri aşmasına və problemə çevrilməsinə səbəb olur (FAO, 2019). Problem səviyyəsinə çatan bu israfın səbəb və təsirlərinin araşdırılması problemin həllinə çatmaq üçün vacibdir. (2)

Dünya əhalisinin sayının artması bəzi ölkələrdə israfçılığa, bəzi ölkələrdə isə aclığa səbəb olur. Avstraliya, ABŞ və Türkiyə qida tullantısına görə dünyada ilk üçlükdə qərarlaşıb. BMT-nin hesabatına görə, illik olaraq 1,3 milyard ton qida tullantısı əmələ gəlir.

Bütün dünyada illik olaraq 2,6 trilyon ABŞ dolları dəyərində qida tullantısı əmələ gəlir. Hansı ki, bu vəsait və bu qədər qida tullantısı ilə 815 milyon ac insanı doyurmaq mümkündür. (3)

Bəzi ölkələrdə restoranlarda qidaların tullantısı qadağandır. Bunun üçün müştərilər cərimə olunurlar. Artıq bununla bağlı olaraq Çində müvafiq qərarlar qəbul olunub. Bəzi ölkələr isə qida tullantılarından gübrənin hazırlanması prosesində istifadə edirlər. Bu məqsədlə orqanik gübrələr də istehsal olunur.

Qida tullantılarının təkrar emalı ilə ətraf mühitin çirklənməsinin də qarşısı alınmış olur. Çünki qida tullantıları həm də gərəkli, faydalı torpaq qatının yoxa çıxması hesab edilir. Bu qida tullantılarından gübrə məqsədilə istifadə etməklə həm də torpaq qatının daha da zənginləşməsinə nail olmaq olar.

Birləşmiş Millətlər Təşkilatının hesabatına görə, tullantı qidalar bir ölkə olsaydı, istixana qazı emissiyalarına görə dünyada ABŞ və Çindən sonra üçüncü olardı. Bu problemə meydana gəlməsində əsas rol oynanayan inkişaf etmiş ölkələrdə xüsusən qida tullantılarının həcmi daha çox olur. Dünya iqtisadiyyatının aparıcı ölkəsi olan ABŞ-da qida tullantılarının həcmi yüksək səviyyəsi olduqca diqqət şəkməkdədir.

Dünyada qida tullantılarından müxtəlif məqsədlər üçün istifadə olunsa da statistik məlumatlara görə, illik olaraq 20 milyon ton qida zibil olaraq tullanır.

Azərbaycanda qida itkisi və israfı

Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) Ətraf Mühit Proqramı "Qida Tullantıları İndeksi 2021" adlı hesabatında Azərbaycanda qida tullantıları ilə bağlı vəziyyət öz əksini tapmışdır. Bələ ki, 2019-cu il ərzində Azərbaycanda adambaşına 93 kiloqram, toplam 935 min ton qida tullantısı yaranıb. Qida tullantılarının həcmi baxımından Azərbaycan bir çox ölkələri geridə qoyub və postsovet ölkələri arasında Tacikistan və Gürcüstandan sonra 3-cü yerdə qərarlaşıb. Qeyd olunduğu kimi dünyada qida tullantıları ilə bağlı vəziyyət o qədər də ürəkaçan deyil. Təkcə 2019-cu il ərzində 931 milyon ton qida məhsulu zibilə çevrilib. Bu isə o deməkdir ki, il boyu bütün qida məhsullarının 17 faizi israf edilib. Qida tullantıları ilə bağlı vəziyyəti təsəvvür etmək üçün hesabatda bildirilib ki, həmin tullantıları daşımaqdan ötrü 40 ton tutumlu 23 mindən çox yük maşını lazımdır. İsraf edilmiş qida tullantılarının 61 faizi evlərdə hazırlanmış qidaların payına düşür. İsrafın 26 faizi xidmət sektorunda, 13 faizi isə pərakəndə satış nöqtələrində baş verir. Rəsmi rəqəmlərdən məlum olur ki, Azərbaycanda əhalinin əsas xərcləri məhz ərzaq məhsullarına çıxır. Dövlət Statistika Komitəsinin məlumatı da bunu təsdiqləyir. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il pərakəndə ticarət şəbəkələrində istehlakçılara 40,2 milyard manatlıq, o cümlədən 21,7 milyard manatlıq ərzaq məhsulu, içki və tütün məmulatı, 18,5 milyard manatlıq qeyri-ərzaq malları satılıb. Sırf ərzaq məhsullarının ümumi xərclərdəki payı isə 48,6 faiz təşkil edib. (4)

QİDA TULLANTILARI VƏ İTKİSİNİN AZALDILMASI YOLLARI

Dünyada sürətlə artan ərzaq tullantıları ilə bu problemin qarşısının alınması məsələsi günümüzdə də öz aktullağını qoruyur. Qida tullantılarının azaldılmasında tədarük zəncirinin hər mərhələsində daha peşəkar tədbirlərin işlənib hazırlanması vacibdir. Problemin qarşısının almaq üçün aşağıdakılara əməl etmək mühümdür:

Həftəlik qıda alış-verişini yaxından izləmək lazımdır. Əgər evdə qida tullantıları varsa, nəyin və niyə tullantılara getdiyini müşahidə edərək real ehtiyacları müəyyənləşdirmək önəmlidir.

Ağıllı alış-veriş: Siyahı ilə ərzaq alış-verişinə getmək, ehtiyacdan çox almamaq və qida alarkən həmişə son istifadə tarixlərini yoxlamaq lazımdır. Bu proses hər bir vətnadaşda düzgün istehlak mədəniyyətinin formlaşmasına və ehtiyacdan artıq qida alanmasının qarşısnın alınmasına səbəb olacaqdır.

Qidaları düzgün saxlamaq: İstehlakçıların hansı qıda məshulunu necə saxlamağı öyərnmələri olduqca vacib məsələdir. Bu proses qidaların tez xarab olaraq itkiyə çevirlməsinin qarşısını alacaqdır ki, zəruri hallarda dərin dondurucudan istifadə etmənin vacib olduğu unudulmamalıdır.

Qalıqları qiymətləndirmək: Qalıqları soyuducuda saxlamaq və mümkün qədər tez istehlak etmək vacibdir. Boyat çörəyi və ya təzəliyini itirmiş meyvələri çölə atmaq əvəzinə, onlara yaradıcı reseptlərlə daha bir şans verməyə çalışmaq lazımdır.

Sıfır tullantı yanaşmasını araşdırmaq: Hər cür israfın qarşısını almaq üçün sıfır tullantı yanaşmasını mənimsəmək və gündəlik həyatda bu şüurla hərəkət etməyə səy göstərmək.

Qablaşdırmanın əhəmiyyəti

Qidalar uzun müddət saxlamaq, israfın qarşısını almaq və qida təhlükəsizliyini təmin etmək məqsədilə qablaşdırılır. Qidaları qablaşdırmaqdan ötrü ilk dəfə qalayla örtülmüş konserv qutular üçün patent XIX əsrin əvvəllərində Böyük Britaniyadan olan tacir Peter Durand tərəfindən alınıb. Lakin qidaların qablaşdırılması prosesinin daha əvvələ təsadüf etdiyi təxmin olunur. Belə ki, insanlar hələ qədim zamanlarda qidaların daşınması və saxlanması üçün ağacların qabığından və ya yarpaqlarından istifadə ediblər. Sonrakı dövrlərdə onlar bunun üçün heyvan dərisindən, toxunmuş otlardan, boş ağac kötüklərindən və digər vasitələrdən yararlanıblar. Metal və saxsı qabların hazırlanması isə qablaşdırmanın inkişafına təkan verib.

Müasir dövrümüzdə bəzən "işlənmiş", "hazır", "yarımfabrikat" adlandırılan qablaşdırılmış qidalar "qeyri-sağlam" kimi xarakterizə olunur. Qablaşdırma üçün istifadə edilən qabların isə tullantı kimi ətraf mühitə atıldığı və təbiəti çirkləndirdiyi bildirilir. Lakin qablaşdırmanın əsas funksiyalarına, istifadə istiqamətlərinə, müasir dövrün qidalanma vərdişlərinə və beynəlxalq hesabatlara nəzər yetirdikdə, qidaların qablaşdırılmasının zəruri olduğunu görürük. Belə ki, 2050-ci ilədək dünya əhalisinin sayının 9,8 milyarda çatacağı proqnozlaşdırılır ki, buna uyğun olaraq ərzaq istehsalı indiki dövrlə müqayisədə 60% artmalıdır. Qida itkiləri və tullantıları meyvə və tərəvəzlərdə ən yüksək nisbətə malikdir. Bu məlumatlar qida itkisi və ya israfının qarşısını almaq üçün təcili yollar tapmağa ehtiyac duyulduğunu göstərir. Bu yollardan biri də qidaların qablaşdırılmasıdır. Qidaların xarab olmasında temperatur, rütubət, istilik, işıq və mikroorqanizmlər kimi müxtəlif amillər rol oynayır. Qablaşdırma isə qidaların xarab olmadan uzun müddət saxlanmasını təmin edərək qida israfının qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Qoruma, saxlama, daşımada rahatlığın təmin edilməsi və digər amillər qablaşdırmanın əsas funksiyalarına aiddir. (5).

Təhlükəsiz qablaşdırma materialları

Texnologiyanın inkişafı ilə əlaqədar müxtəlif materiallar qablaşdırma materialı kimi istifadə oluna bilir. Bununla belə, qidaların qablaşdırılması zamanı istifadə edilən materiallar qida təhlükəsizliyinə uyğun, möhkəm, cəlbedici və qənaətcil olmalıdır. Bunlara plastik, şüşə, kağız, metal, taxta və birdən çox materialın birlikdə istifadə edildiyi kompozit tipli qablaşdırma materialları daxildir. (6)

Qablaşdırma materialları qidaların üzərində göstərilən istifadə müddəti bitənədək xarab olmasının qarşısını ala bilir. Şübhəsiz ki, qidanın xarab olmadan qalmasında emal şəraiti, düzgün saxlanma və qablaşdırma qoruma funksiyasını bərabər yerinə yetirir. Qablaşdırmanın qidanı qoruya bilməsi üçün qida mikroorqanizmlərdən təmizlənməlidir. Məsələn, vakuumda və ya modifikasiya edilmiş atmosferdə qablaşdırılan ət məhsulları qablaşdırma materialı həmin məhsulun oksigenlə təmasının qarşısını aldığına görə qorunur. Əsas qida məhsullarından biri olan çörək qablaşdırılmadan satışa çıxarılarsa, xəstəlik törədən mikroorqanizmlərin qarşısını almaq üçün təmizlənə və dezinfeksiya edilə bilən nəqliyyat vasitələrində və yeşiklərdə daşınmalıdır. Lakin bu tələblərdən asılı olmayaraq, qablaşdırma çörəyi ətraf mühitin zərərli təsirlərindən qoruyur və gigiyenik qaydada istehlakçıya çatdırılmasına şərait yaradır. Meyvə və tərəvəz kimi tez xarab olan məhsullar üçün hazırlanmış qablaşdırma materialları və texnologiyaları onları qoruyaraq itkilərin qarşısını alır. Bu tip qidalarda ətraf havanın qaz tərkibinin tənzimlənməsi idarə olunan atmosferdə depolama, aktiv və ağıllı qablaşdırma, modifikasiya edilmiş atmosferdə isə qablaşdırma və ya buxar əleyhinə qablaşdırma aparılır.

Göründüyü kimi, aktiv qablaşdırma sistemləri qidanın daha uzun müddət saxlanmasına şərait yaradaraq çürümə səbəbindən baş verən itki və tullantıları minimuma endirir. Digər innovativ ideyalar isə qablaşdırma tullantılarını azaldır və ya başqa mənbələrdən gələn tullantıları qiymətli resurslara çevirir. Bu texnoloji yeniliklər gələcəkdə qlobal qida tullantılarına qarşı mübarizədə çox önəmli vasitə olacaq.

Qida itikisi və tullantıları ilə əlaqədar əhali arasında maarifləndirici layihələrin həyata keçirilməsi, bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi bu məsələnin milli hədəflər və dövlət siyasətinə çevrilməsi, dayanıqlı qidalanmanın mənimsənilməsi problemin həllinə öz mühüm töhvələrini verə bilər.

NƏTICƏ

Qida itkisi qidanın istehlakçıya çatmazdan əvvəl istehsal prosesi zamanı baş verdiyi halda, qida tullantıları pərakəndə satışdan sonra də istehlakçı davranışlarında irəli gəlir. Bu iki anlayışın fərqli mənaları var və səbəbləri də fərqlidir. Buna görə də, qida itkisi və israfını həll etmək üçün müxtəlif yanaşmalar mövcuddur.

Qidanın tarladan süfrəyə, istehsaldan istehlaka qədər hər mərhələsində müxtəlif səbəblərdən itkisi və israfı baş verə bilər. Dünyanın üzləşdiyi bir çox amillər qida itkisi və tullantılarının miqdarına da təsir göstərir. Artan əhali, iqlim böhranları, təbii tarazlığın pozulması, epidemiyalar, təchizat zəncirinin pozulması və s. Bu kimi neqativlər qida tullantılarının artmasına səbəb olur. Onun müxtəlif səbəbləri olması da qida itkisi və israfının çoxölçülü olduğunu təsdiqləyir.

Bu gün də aclığın ölüm səbəbi olması və israf edilən qida miqdarı ilə aclığın demək olar ki, tamamilə qarşısının alına bilməsi bu israfa qarşı çarə tapmağı daha da zəruri edir. Belə bir konkret reallığın mövcud olduğu halda, qida itkisinin və israfının qarşısını almaq üçün bir qurum və ya qərar qəbul edən şəxs tərəfindən görülən tədbirlərin qeyri-kafi olması qaçılmazdır. Hökumətdən mülki, icma təşkilatlarından beynəlxalq və yerli təşkilatlara, universitetlərdən özəl sektora qədər bütün maraqlı tərəflər birlikdə hərəkət etməlidir. Mövcud təcrübələr araşdırıldığında bəzi qeyri-müəyyənliklərin lazımi tədbirlərin görülməsinə mane olduğu görünür. Qida itkisi və tullantılarının ölçülməsində pozuntular bu qeyri-müəyyənliklərin mənbəyini təşkil edir.

Problemin miqyası müəyyən edildikdən sonra həlli daha aydın olacaqdır. Ona görə də bu qeyri-müəyyənliklərin azaldılması və ya aradan qaldırılması bəlkə də atılması lazım olan ən mühüm addımdır.

ƏDƏBIYYAT SIYAHISI

1. European Union. 2022. Farm to Fork Strategy. In: Farm to Fork strategy, European Commission. Cited 11 August 2022. https://food.ec.europa.eu/horizontal-topics/farm-fork-strategy_en FAO (Food and Agriculture Organization of the United Nations). 2018. Food loss and waste and the right to adequate food: making the connection. Rome. 48 pp.
2. 2021 United Nations Environment Programme ISBN No: 978-92-807-3868-1
3. FAO. 2019. The State of Food and Agriculture 2019. Moving forward on food loss and waste reduction. Rome. 182 pp. FAO. 2020. Agriculture and climate change – Law and governance in support of climate smart agriculture and international climate change goals. FAO Legislative Study No. 115. Rome. 376 pp.
4. UNEP (United Nations Environment Programme). 2021. Food Waste Index Report 2021. Nairobi. 99 pp.Liu, Z. (2008). Foreign direct investment and technology spillovers: Theory and evidence. Journal of Development Economics, 85(1–2), 176–193.
5. https://packagingrevolution.net/5-reasons-why-right-packaging-is-important-for-food-safety/#:~:text=Packaging%20protects%20the%20food%20from,products%20as%20safe%20as%20possible.
6. https://cpdonline.co.uk/knowledge-base/food-hygiene/sustainable-food-packaging/

QİDA SƏNAYESİ MƏHSULLARININ RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI ÜZRƏ QLOBAL TƏCRÜBƏLƏR

FƏRİD BABAYEV
Bakı Dövlət Universiteti
Dünya iqtisadiyyatı kafedrası
farid.babayev.bsu@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu tədqiqat işi rəqabət qabiliyyətini formalaşdıran dinamik amilləri araşdıraraq qlobal qida sənayesinin incəliklərini araşdırır. İnkişaf edən istehlakçı tərcihləri, texnoloji irəliləyişlər və tənzimləmə mürəkkəbliyi ilə müəyyən edilən mənzərədə tədqiqat sənayenin maraqlı tərəfləri üçün dəyərli fikirlər təqdim etmək məqsədi daşıyır. Bu tədqiqatın aktuallığı qlobal qida sənayesinin çətinliklərə necə uyğunlaşdığını və rəqabət qabiliyyətini artırmaq imkanlarından necə yararlandığını araşdırmasındadır. Sənaye dəyişən istehlakçı tələbləri, texnoloji yeniliklər və tənzimləyici çərçivələrlə

In today's U.S. financial system, people access their money via banks, each of which has its own distinct system for tracking payments and deposits. As a result, transactions involving multiple banks can involve delays of one to three working days, since action is required from intermediary banks to ensure they are completed accurately.

With a digital dollar, there would most likely be a single, unified system for tracking payments and deposit, run by the Fed or another government entity. It's worth noting that the central bank has yet to commit to creating a CBDC in the first place, so the final form of a digital dollar system remains an open issue.

Presently the Fed is studying how a digital dollar could help expand consumer access to the financial system and support faster and cheaper payments.

The Fed is still evaluating the potential impact of a digital dollar. It currently has several studies, pilot tests and experiments underway to determine the technology's opportunities and limitations.

China (Digital Yuan)- The digital yuan, also known as the Digital Currency Electronic Payment (DCEP), is a Central Bank Digital Currency (CBDC) issued by the People's Bank of China (PBOC). It is a digital version of China's official currency, the yuan (CNY).

The digital yuan has been under development and testing since 2014. It has been subjected to various pilot programs in different Chinese cities to evaluate its feasibility and assess user experience. The goal of the digital yuan is to enhance financial inclusion, promote a cashless society, reduce reliance on physical cash, and combat illegal activities such as money laundering and tax evasion.

Using a combination of centralized and distributed ledger technologies, the digital yuan is based on a centrally controlled blockchain. Transaction data is recorded and managed by the PBOC. Users can access and transact with the digital yuan through designated electronic wallets or mobile applications provided by commercial banks or authorized entities. These wallets are linked to users' bank accounts and can be used for various transactions.

One notable feature of the digital yuan is its capability for offline payments, allowing users to transfer funds without internet connectivity. This can be especially useful in areas with limited connectivity.

However, the digital yuan also raises privacy and control concerns. While it provides secure and efficient transactions, it also allows the Chinese government to have greater oversight and monitoring of individuals' financial activities. Transactions made with the digital yuan can be traced and monitored by the central authorities.

Although the digital yuan is primarily intended for domestic use, there are plans for its international expansion. China has been exploring collaborations with other countries to establish cross-border digital currency transactions, potentially creating an alternative to systems like SWIFT.

It's important to note that the full implications and impact of the digital yuan's implementation are yet to be seen. As it continues to develop, its effects on China's economy, financial landscape, and global financial systems will become clearer.

South Korea- South Korea has been actively exploring the development of digital currencies, particularly a Central Bank Digital Currency (CBDC). The Bank of Korea (BOK) has conducted research and pilot programs to assess the feasibility and implications of digital currencies. South Korea also aims to establish a regulatory framework for digital currencies, striking a balance between innovation and consumer protection. The country is moving towards a cashless society, with widespread usage of mobile payment apps and digital wallets. Collaboration between traditional financial institutions and fintech companies is encouraged to enhance the digital currency ecosystem. South Korea is actively adopting blockchain technology and considering the use of digital currencies for cross-border transactions. While progress is being made, the development and implementation of digital currencies in South Korea are still ongoing as the government carefully considers security, privacy, and regulatory concerns. Recent information [2]on digital currency in South Korea was about South Korea inviting 100K citizens to test CBDC in 2024.

III. TECHNOLOGY BEHIND CBDCs

3.1 Blockchain technology- A blockchain is a network of decentralized and distributed data (ledger), meaning the users share the ownership and management of the network through computer

[2] https://cointelegraph.com/magazine/htx-hacked-again-100k-koreans-test-cbdcs-binance-asia-express/

nodes. As a database, blockchain stores information in a digital format.

Blockchain technology stores data in blocks and link them together to form a chain. The blocks have a specific capacity and, when filled, are closed and linked to the previous block. Any newly added information after the last block is compiled into a newly formed block and added to the chain once filled.

Blockchain is famous for its critical role in cryptocurrency systems like Bitcoin. It maintains a decentralized and secure record of crypto transactions. Therefore, blockchain can guarantee the fidelity and security of data records and generate the need for a third party. (Daniel, D. (2017). Blockchain Basics: A Non-Technical Introduction in 25 Steps,27-49).

3.2. Distributed Ledger Technology- Distributed ledger technology (DLT) is the technological infrastructure and protocols that allow simultaneous access, validation, and record updating across a networked database. DLT is the technology blockchains are created from, and the infrastructure allows users to view any changes and who made them, reduces the need to audit data, ensures data is reliable, and only provides access to those that need it.

DLTs allow information to be stored securely and accurately using cryptography. The data can be accessed using "keys" and cryptographic signatures. Once the information is stored, it can become an immutable database; the rules of the network, written into the coding of the database programming, govern the ledger.

3.3. Advantages Of Blockchain Over Non-Blockchain Database

• Immutability. Blockchain supports immutability, meaning it is impossible to erase or replace recorded data. Therefore, the blockchain prevents data tampering within the network.

Traditional data do not exhibit immutability. The conventional database uses CRUD (create, read, update and delete) at the primary level to ensure proper application operation, and the CRUD model enables easy erasing and replacing of data. Such data can be prone to manipulation by rogue administrators or third-party hacks. (Dr. Saifedean Ammous.(2016).Blockchain Technology: What is it Good for?).

• Transparency. Blockchain is decentralized, meaning any network member can verify data recorded into the blockchain. Therefore, the public can trust the network.

On the other hand, a traditional database is centralized and does not support transparency. Users cannot verify information whenever they want, and the administration makes a selected set of data public. Still, however, individuals cannot verify the data.

• Censorship. Blockchain technology is free from censorship since it does not have control of any single party. Therefore, no single authority (including governments) can interrupt the operation of the network.

Meanwhile, traditional databases have central authorities regulating the operation of the network, and the authority can exercise censorship. For instance, banks can suspend users' accounts.

• Traceability. Blockchain creates an irreversible audit trail, allowing easy tracing of changes on the network.

The traditional database is neither transparent nor immutable; hence, no permanent trail is guaranteed.

Disadvantages Of Blockchain

• Speed and performance. Blockchain is considerably slower than the traditional database because blockchain technology carries out more operations. First, it performs signature verification, which involves signing transactions cryptographically. Blockchain also relies on a consensus mechanism to validate transactions. Some consensus mechanisms, such as proof of work, have a low transaction throughput. Finally, there is redundancy, where the network requires each node to play a crucial role in verifying and storing each transaction.

• High implementation cost. Blockchain is costlier compared to a traditional database. Additionally, businesses need proper planning and execution to integrate blockchain into their process.

• Data modification. Blockchain technology does not allow easy modification of data once recorded, and it requires rewriting the codes in all of the blocks, which is time-consuming and expensive. The downside of this feature is that it is hard to correct a mistake or make any necessary adjustments.

IV. IMPLEMENTATION OF CENTRAL BANK DIGITAL CURRENCY IN AZERBAIJAN AND ITS POSITIVE ASPECTS

4.1 General process launching CBDC.

According to AZERNEWS [3]news published on JUNE 2022 Central Bank of Azerbaijan (CBA) is preparing the concept of a digital manat. An expert of the National Payment Systems Development Division of the Payment Systems and Settlements Department of CBA Rashad Gasimov said this during epy Fintex Summit .

According to him, advanced world experience in this sphere is being researched.

"Digital currency can significantly boost transition to a cashless payment environment," Gasimov added.

Today, many countries, including the USA, China, Japan, Sweden, Norway, C. Korea, Thailand, etc. has already passed the test phase. This process is also in Azerbaijan acceleration is very important, but also more important than the countries listed. (Saleh , M.(2022).Rəqəmsal Maliyyə, 195–214.).

Almost all of these states issue digital national currencies plan to use blockchain technologies. However, at the same time, many are conducting new technological process researches and new ones trying to identify methods. Blockchain is the most important finance of the 21st century technologies and financial engineering element.

Issuing the digital manat requires real revolutionary changes in the regulation of the country's economy and the organization of money circulation, and is very raises serious problems. All this takes a lot of time to organize. What should be done?

Creating a central bank digital currency (CBDC) involves a series of steps that a country can take. Here is a general outline of the process:

1. Research and Feasibility Study: The country's central bank needs to undertake a comprehensive study to evaluate the potential benefits, challenges, and risks associated with launching a CBDC. This research should cover technological considerations, regulatory frameworks, monetary policy implications, and potential use cases.

2. Determine Objectives and Design: Clarify the objectives that the CBDC should achieve. This includes deciding on the nature of the CBDC (e.g., retail or wholesale), the technology platform (e.g., blockchain or centralized database), the level of privacy and anonymity, and the issuance mechanism.

3. Legal and Regulatory Framework: Establish a legal and regulatory framework for the CBDC. This framework should define the central bank's authority to issue and regulate the CBDC, address issues related to consumer protection, privacy, AML, and KYC requirements, and ensure compliance with existing monetary and financial laws.

4. Technology Infrastructure: Develop the necessary technological infrastructure to support the CBDC. This involves selecting or building a secure and scalable platform, such as a distributed ledger technology (DLT) or a centralized database, to manage transactions, record-keeping, and security features.

5. Partnerships and Collaboration: Collaborate with relevant stakeholders, such as commercial banks, payment service providers, and technology companies, to ensure interoperability, integration, and effective distribution channels for the CBDC. Partnerships with academic institutions and fintech companies can also provide valuable expertise.

6. Pilot Testing: Conduct limited-scale pilot programs to test the CBDC's functionalities, security measures, and user experiences. These pilots help identify and address any technical, operational, or regulatory issues before a full-scale launch.

7. Issuance and Distribution: Determine the process for issuing and distributing the CBDC. This may involve a phased rollout, where the CBDC is initially distributed to a specific target group or geographic area. Consideration may also be given to the coexistence of the CBDC with existing forms of payment, progressively expanding its availability.

8. Education and Awareness: Launch comprehensive public education and awareness campaigns to inform the general public, businesses, and other stakeholders about the benefits, risks, and usage of the CBDC. This can help build trust and acceptance of the new digital currency.

[3] https://www.azernews.az/business/195513.html

9. Monitoring and Evaluation: Establish mechanisms to monitor the performance, adoption, and impact of the CBDC. Continuous evaluation allows for adjustments and improvements based on user feedback and changing market dynamics. (Jonas Gross, Johannes Sedlmeir, Matthias Babel, Matthias Babel, Alexander Bechtel and Benjamin Schellinge(2021).Designing a Central Bank Digital Currency with Support for Cash-Like Privacy).

4.1 Positive aspects of launching its own digital currency for Azerbaijan

It is important to note that creating a CBDC is a complex process requiring careful planning, coordination with stakeholders, and adherence to legal and regulatory requirements. The specific steps may vary depending on the country's unique circumstances and objectives.

1. Increased financial inclusion: Digital currencies can provide access to financial services to individuals who are either unbanked or underbanked. This helps promote financial inclusion and can boost economic growth.

2. Reduced transaction costs: Digital currencies eliminate the need for intermediaries in financial transactions, such as banks or payment processors. This can significantly reduce transaction costs and make cross-border payments faster and cheaper.

3. Enhanced security: Digital currencies use advanced cryptographic techniques, making them highly secure and resistant to counterfeiting. This can protect countries from financial fraud and promote trust in the financial system.

4. Improved transparency: Digital currencies operate on a decentralized ledger called blockchain, which records all transactions. This transparency can help to prevent money laundering, corruption, and other illicit activities.

5. Economic growth and innovation: Digital currencies have the potential to stimulate economic growth by supporting innovative businesses and fostering technological advancements. They can attract investment and help countries position themselves as leaders in the digital economy.

6. Efficient monetary policy: With digital currencies, central banks have more control over the money supply and can implement monetary policies more efficiently. This can help stabilize the economy, control inflation, and respond to financial crises.

7. Financial sovereignty: Digital currencies provide countries with greater control over their monetary policy and reduce dependence on other currencies. This can protect countries from external shocks and economic manipulations.

8. Increased tax revenues: Digital currencies, being transparent and traceable, can make it easier for governments to track and collect tax revenues. This can help improve public finances and fund important social programs.

However, it is important to note that the successful implementation of digital currencies requires careful regulation and cybersecurity measures to address potential risks and protect consumers and the economy.

CONCLUSION

In conclusion, the central bank of Azerbaijan should take a significant step towards modernizing the country’s financial system by initiating research on a central bank digital currency (CBDC) . The CBDC is expected to provide a more secure, efficient, and cost-effective payment system for the citizens of Azerbaijan. The implementation of CBDC will also help to reduce the country’s reliance on cash and promote financial inclusion . The central bank of Azerbaijan has not yet announced a timeline for the launch of the cbdc, but it is expected to be a gradual process . The adoption of CBDCs is a global trend, with 130 countries exploring cbdcs, representing 98 percent of global gdp. The momentum behind CBDCs has remained strong in the second half of 2023, with sixty-four countries now in the advanced phase of exploration . It is clear that cbdcs are the future of money, and embracing this new technology is right step for the future of Azerbaijan.

REFERENCES

1. Saleh, M.(2022).Rəqəmsal Maliyyə, 195–214.
2. Daniel, D. (2017). Blockchain Basics: A Non-Technical Introduction in 25 Steps,27-49.
3. Dr. Saifedean Ammous.(2016).Blockchain Technology: What is it Good for?
4. The Age of Cryptocurrency: How Bitcoin and Digital Money Are Challenging the Global Economic Order by Paul Vigna and Michael J. Casey(2015).
5. Designing a Central Bank Digital Currency with Support for Cash-Like Privacy by Jonas Gross, Johannes Sedlmeir, Matthias Babel, Matthias Babel, Alexander Bechtel and Benjamin Schellinge.(2021).

AZƏRBAYCANDA TƏTBİQ OLUNAN MƏZƏNNƏ REJİMLƏRİ VƏ ONLARIN SEÇİM MEYARLARI

ARZU QULİYEVA
Bakı Mühəndislik Universiteti
Makroiqtisadi siyasət
quliyevarzu2001@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Valyuta Məzənnəsi milli pul vahidinin xarici ölkənin pul valyutası qarşısındakı qiymətini ifadə edir. Qısa şəkildə izah etsək valyuta xarici ölkənin pul vahidinə verilən addır.Hər hansı bir valyutanın məzənnəsi həmin məzənnəyə olan tələb və təklif səviyyəsinə uyğun olaraq, sərbəst şəkildə və ya valyutanın aid olduğu ölkənin Mərkəzi Bankının bazardan valyuta alaraq, ya da bazara valyuta sataraq həyata keçirdiyi müdaxilələr çərçivəsində müəyyənləşir.

Valyuta məzənnəsi, ölkədə bir valyutanın digər valyutaya nisbətən dəyərini göstərir və onları müqayisə etmək üçün istifadə olunur.Ölkələr arasında məzənnə fərqlilikləri olur, məzənnələr valyutanın dövlət politikası və iqtisadi məsələlərə əsasən dəyişir.

Uzun illərdir ölkələr üçün uyğun olan məzənnə rejiminin seçilməsi məsələsi geniş müzakirə mövzusudur.Müxtəlif məzənnə rejimlərinin müsbət və mənfi tərəfləri, uyğun rejimin seçilməsində determinantların müəyyənləşdirilməsi kimi mürəkkəb sualların cavablandırılması dərin tədqiqatlar tələb edir.Bu tədqiqatın məqsədi ölkələrdə məzənnə rejimlərinin seçim meyarlarını müəyyənləşdirmək o cümlədən Azərbaycanın bu sahədə təcrübəsini qiymətləndirməkdən ibarətdir.İqtisadi proseslərdəki mühüm təsir roluna görə məzənnə ən çox təhlil edilən və pul siyasətində xüsusi yeri olan göstəricidir.Bu səbəbə görə uyğun məzənnə rejimin seçilməsi ən çox müzakirə edilən və haqqında dərin tədqiqatlar aparılan mövzudur.

AÇAR SÖZLƏR: MƏZƏNNƏ REJIMLƏRI, ÜZƏN MƏZƏNNƏ, VALYUTA MÜDAXILƏSI
Key words: Exchange rate regimes, Floating exchange rate, Currency intervention

GİRİŞ.

Ölkədəki makroiqtisadi sabitliyin dayanıqlığı əhəmiyyətli dərəcədə məzənnə rejiminin düzgün seçilməsindən asılıdır. Məzənnə rejiminin düzgün seçilməsi üçün isə ölkə iqtisadiyyatının səciyyəvi xüsusiyyətlərinin nəzərə alınması tələb olunur. Aparılan bütün təhlillər və tədqiqatlarda son nəticədə qeyd edilir ki, "bütün zamanlarda bütün ölkələr üçün vahid məzənnə rejimi yoxdur" (Frankel 1999). Yəni rejim ölkə xüsusiyyətlərindən və zamandan asılı olaraq dəyişə bilər.

Valyuta məzənnəsi Azərbaycanda pul siyasətinin və maliyyə sisteminin bir hissəsidir.Məzənnə rejimi seçimi Azərbaycanın iqtisasi maraqları, xarici investsiyalar, xarici ticarət, energetika sektorunun vacibliyi ilə əlaqəlidir.Dövriyyədə saxlanan valyutanın və onun məzənnəsinin qurulması və tənzimlənməsi üzrə Azərbaycan Mərkəzi Bankı əsas rol oynayır.Məzənnə rejiminin düzgün idarə olunması, inflyasiyanın nizamlanmasında kritikdir.Əgər məzənnə rejimi və isti pul siyasəti sağlam və sabitdirsə, bu inflyasiya səviyyəsini nizamlamağa kömək edir.Əks halda valyuta məzənnəsində sürətli dəyişikliklərin baş verməsi inflyasiyanın artmasına səbəb ola bilər.Yəni Valyuta məzənnəsi Azərbaycanda inflyasiya və pul siyasətində kəskin rol oynayır.Yaxşı idarə edilmiş valyuta məzənnəsi iqtisadiyyatın stabilliyini təmin etməkdə, xarici ticarətin inkişfafında və inflyasiyanın cəlb olunmasında əhəmiyyətli bir vasitədir.

4. TƏDQIQAT METODU

1946-1973-cü illərdə 1944-cü ildə formalaşdırılmış Bretton-Vuds razılaşmasına əsasən dünyada təsbit olunmuş, lakin tənzimlənən məzənnə rejimləri mövcud idi. 1973-cü ildə Bretton-Vuds sisteminin iflasından sonra isə məzənnə rejimlərinin çeşidi genişləndi.Məzənnə rejimlərini 3 əsas qrupa bölmək olar: təsbit olunmuş məzənnə rejimləri, aralıq rejimlər və üzən məzənnə rejimləri. Bunların hər biri bir sıra alt qruplara bölünürlər.BVF-nun apardığı son təsnifata görə məzənnə rejimləri aşağıdakı kimi qruplaşdırılır:(Ələsgərov, Əlirzayeva, 2015)

Cədvəl 1.Məzənnə rejimləri

Təsbit rejimlər	Aralıq rejimlər	Üzən
1.Valyuta Şurası 2.Milli ödəniş vasitəsinin olmaması	1.Ənənəvi bağlılıq 2.Sürüşkən bağlılıq 3.Sürüşən dəhliz çərçivəsində məzənnə rejimi 4.Üfüqü dəhliz üzrə bağlılıq 5.Stabilləşdirmə rejimi	1.Tənzimlənən üzən məzənnə 2.Sərbəst üzən

Mənbə: Valyuta məzənnələrinin tənzimlənməsi və valyuta məhdudiyyətləri üzrə illik hesabat 2012, BVF

Müstəqillik əldə edildikdən sonra Azərbaycanda məzənnə rejiminin müstəqil seçim imkanı əldə edildi. 1995-ci ilədək tətbiq edilən məzənnə rejimini sərbəst üzən Məzənnə rejimi kimi dəyərləndirmək olar. Belə ki, 1992-94-cü illərdə Mərkəzi Bankın kifayət qədər xarici valyuta ehtiyatları yox idi və valyuta əməliyyatları qeyri-rəsmi Valyuta bazarında aparılırdı. Belə bir şəraitdə Mərkəzi Bankın valyuta məzənnəsinə təsir imkanları çox aşağı idi və məzənnə valyuta bazarında tələb və təklifdən asılı olaraq formalaşdı.1995-ci ildə Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının formalaşması ilə xarici valyuta əməliyyatları rəsmi valyuta bazarında aparılmağa başlandı.

Üzən məzənnə milli valyutanın məzənnəsinin Mərkəzi Bankın müdaxiləsi olmadan bazarda tələb və təklif əsasında formalaşdıran valyuta rejimidir. Ölkənin maliyyə sistemini xarici şokların təsirindən yaranan volatillikdən qorumaq üçün ideal rejimdir. Lakin bir qayda olaraq bu rejimə keçid təbii resurs ölkələrində mümkün olmur. Əsas səbəb odur ki, valyuta təklifi əsasən bir mənbədən formalaşır – hökumətin neft gəlirlərindən. Ona görə də, məsələn, Rusiya son 7 ildə sərbəst üzən məzənnəyə deyil, tənzimlənən üzən məzənnə rejiminə keçə bilib. Yəni Mərkəzi Bank rublun əvvəldən hədəflənməyən məzənnəsinə müdaxilə hüququnu özündə saxlayır. Konkret dövrdə ölkənin maliyyə sistemi üçün məzənnənin ciddi risk formalaşdırdığını görürlərsə, müdaxilə edirlər. Hərçənd ki, Rusiya iqtisadiyyatı təbii resurslar üzərində qurulan keçid ölkələri içərisində ixracı və ÜDM-i ən yaxşı diversifikasiya olunmuş ölkədir. Məhz bu diversifikasiya ona tənzimlənən üzən məzənnə rejiminə keçməyə imkan verməyib". (Quliyeva 2013)

Üzən məzənnə rejimi ölkəyə kapital axını üçün əlverişli iqtisadi mühitin olduğu şəraitdə ölkə üçün uduşlu olur. Ölkəyə gələn xarici kapitalın ölkədən çıxan kapitaldan üstünlüyü yoxdursa, üzən məzənnə rejimi milli valyutanın müntəzəm ucuzlaşması, iqtisadiyyatın inflyasiya burulğanında boğulması ilə müşaiyət ediləcək. Rəsmi məlumata görə, 2015-c ilin 9 ayında Azərbaycana kapital formasında daxil olan valyuta cəmi 3.1 milyard dollar, çıxan isə 9.7 milyard dollar olub – fərq 6.6 milyard dollar (3 dəfə). Halbuki, məsələn, 2014-cü ildə həmin fərq 2 milyard dollardan da az olmuşdu. Cari əməliyyatlar hesabının müsbət saldosunun cəmi 40 dəfəyədək azaldığı şəraitdə kapital axınlarının bu cür böyük mənfi saldosu üzən rejiminin tətbiqi üçün çox riskli zamanın seçildiyini göstərir.

Təsbit edilmiş məzənnə rejimində mərkəzi bank tədiyə balansının tarazsızlığını maliyyələşdirmək üçün tələb olunan miqdarda xarici valyutanı təmin etməlidir. Çevik (üzən) məzənnə rejimində isə mərkəzi bank əksinə, xarici valyutaya olan tələb-təklifi tarazlaşdırmaq məqsədilə məzənnənin dəyişməsinə imkan verir.Çevik məzənnə və üzən məzənnə qarşılıqlı əvəz oluna bilən anlayışlar kimi istifadə olunur.Üzən məzənnə rejimi də özlüyündə iki yerə bölünür:"Təmiz" və "Çirkli"

"Təmiz" üzən məzənnə rejimində mərkəzi bank valyuta bazarında iştirak etmir və məzənnə bazar tərəfindən müəyyən olunur. Bu rejimdə mərkəzi banklar heç bir müdaxilə həyata keçirmədiklərinə görə rəsmi valyuta əməliyyatları müvafiq olaraq sıfıra bərabər olur. Bu, o deməkdir ki, "təmiz" üzən məzənnə rejimində tədiyə balansı həmişə tarazlıqda olur. Məzənnə cari hesabla kapital hesabının cəmini heç bir müdaxilə olmadan sıfıra bərabərləşdirir.

Xatırladaq ki, çevik məzənnə rejimi 1973-cü ildən etibarən tətbiq edilir. Təcrübədə çevik məzənnə rejimi, adətən, "təmiz" səciyyə daşımır. Əvəzində tənzimlənən və ya "çirkli" üzən məzənnə rejimi daha çox tətbiq olunur. Tənzimlənən-üzən məzənnə rejimində mərkəzi banklar məzənnəyə təsir göstərmək üçün xarici valyutanın alqı-satqısını həyata keçirirlər. Bu səbəbdən rəsmi valyuta ehtiyatları üzrə əməliyyatlar sıfıra bərabər olmur.

Azərbaycanda üzən məzənnəyə tam keçmək üçün ilk növbədə onun şəraitini yaratmaq lazımdır.Bunun üçün ixrac daha da şaxələndirilməli və bu əsasda şaxələnmiş valyuta bazarı mövcud olmalıdır.Son dövrlərdə ölkədə aparılan irimiqyaslı diversifikasiya işləri nəticəsində orta müddətli

dövrdə şaxələnmiş valyuta bazarı yarana bilər. Buna uyğun şəkildə paralel digər tədbirlərin reallaşdırılması üzən məzənnəyə keçidə şərait yarada bilər.

Üzən məzənnə ehtiyatların tükənməsinin qarşısını almaqla yanaşı çevik pul-kredit siyasəti üçün təminat verən rejimdi. Amma beynəlxalq ticarət və maliyyə əməliyyatları, inflyasiya üçün həmişə risk qalır – xüsusilə də azad iqtisadi münasibətlərin olmadığı şəraitdə bu risklər daha da yüksəlir.

Azərbaycan iqtisadiyyatının hazırkı strukturu və problemləri üzən məzənnə rejiminin üstünlüklərindən bəhrələnməyə imkan yaratmır. Söhbət hansı imkanların olmamasından gedir? Əvvəla, üzən məzənnə rejimi bilavasitə azad mexanizmidi və rəqabətli iqtisadiyyatın olmadığı, azad bazar institutlarının fəaliyyət göstərmədiyi şəraitdə bu rejimin tətbiqi ağır nəticələr verir. Üzən rejim şəraitində inflyasiyanın böyük sosial fəsadlarını yalnız ölkədə inhisarçılıqdan azad sahibkarlıq sektoru, sərt və korrupsiya mexanizmlərindən uzaq gömrük-vergi tənzimlənməsi təmin edir. Yaxşı futbol oynamaq üçün peşəkar hakimlər komandası, 22 futbolçu, oynamaq üçün topun olması nəyə lazımdı – əgər yaşıl meydança yoxdusa? SSRİ-dən qalma köhnə iqtisadi idarəetmə, vəhşi dövlət kapitalizminə məxsus ultra inhisarlaşmış iqtisadi mühit ilə üzən valyuta rejimi kimi xalis bazar aləti kimi görünür, ancaq bizdə eksperment edilə bilər.Üzən məzənnə rejimi iqtisadiyyatın müəyyən ixrac potensialının mövcudluğu, idxaldan asılılığın kəskin xarakter almadığı şəraitdə fayda verir. Özünü "aqrar ölkə" adlandıran ölkədə buğda və çörək məmulatlarının az qala 60, kərə və bitki yağlarının 50-80, geyim bazarının azı 70, dərman bazarının 100, məişət avadanlıqlarının azı 80-90%-i idxaldan asılı ölkədə valyutanın sərbəst buraxılması yoxsul təbəqə üçün məşəqqətli sosial şərait vəd edir.(Mərkəzi Bank, 2012)

Üzən məzənnəyə keçid üçün ölkədə maliyyə bazarları inkişaf etməlidir: "Valyutaya tələbi yalnız əmtəə və xidmətlərə tələb yox, həmçinin maliyyə bazarlarındakı əməliyyatlar da formalaşdırmalıdır. Bu baxımdan ölkədə qiymətli kağızlar və borc bazarının formalaşması çox önəmlidir. Bu bazarların formalaşması isə iqtisadiyyatda köklü institusional islahatlar tələb edir. Milli şirkətlər öz aktivlərini səhmləşdirərək fonda bazarına çıxmağa, qiymətli kağızlar bazarı vasitəsilə aktiv şəkildə borclanmağa və investisiya tələbatlarını bazarın vasitəçiliyilə "sandıq dollarları" hesabına ödəməyə hazır olmalıdırlar. Xarici kapital qiymətli kağızlar bazarı vasitəsilə Azərbaycanda valyuta təklfini formalaşdıran əsas oyunçulardan biri olmalıdır. Bunun üçün ölkədə xarici investoru qoruyan hüquq və məhkəmə sistemi olmalıdır. Hökumət valyuta bazarını liberallaşdırmağa, kapitalın sərbəst hərəkətinə hazır olmalıdır. İldə 1 vətəndaşın 11 min dollar valyuta almasına, aldığı hər 100 dollara görə şəxsiyyət vəsiqəsi tələb olunmasına, ölkədən valyuta çıxışına ən sərt bürokratik mexanizmlərin tətbiqinə yaşıl işıq yandıran hökumət heç vaxt üzən məzənnəyə keçə bilməz. Azərbaycan indiki şərtlərdə ən yaxşı halda aralıq məzənnə rejimi seçə, tənzimlənən rejimə keçə bilər. Amma bunun üçün yuxarıdakı islahatlardan savayı başqa addımlar da atılmalıdır. Mərkəzi Bank inflyasiyanın hədəflənməsi ilə yanaşı, pul kütləsinin də hədəflənməsini təmin etməlidir, həmin aralıq dövr üçün. Pul kütləsinin dinamikasına neft pulları vasitəsilə fiskal genişlənmənin təsiri minimuma endirilməlidir. Bunun üçün dövlət büdcəsinin Neft Fondundan asılılığı hazırkı 50 faizdən maksimum 20-25 faizə endirilməlidir. Mərkəzi Bank son dərəcə şəffaf idarəetmə rejiminə keçməli, tənzimlənən üzən məzənnə rejiminin şərtlərini dəqiq müəyyən etməklə yanaşı, bunu ictimaiyyət üçün açıq elan etməlidir. Türkiyədə olduğu kimi öz balansını hər ay ictimailəşdirməli, müdaxilələr və onların səbəbləri barədə ictimaiyyətə dəqiq məlumatlar açıqlamalıdır. Azərbaycandakı hazırkı idarəetmə şərtlərində belə bir Mərkəzi Bank mümkün deyil. Prezident Administarasiyasının təlimatı ilə çalışan, hər hansı müstəqillyi olmayan Mərkəzi Bank nəinki sərbəst, hətta tənzimlənən üzən məzənnə rejiminə keçə bilməz. Bir nəfərin bütün dövlət institutlarından qat-qat güclü və üstün səlahiyyətlərə malik olduğu siyasi sistemlərdə azad bazar və institutları mövcud olmur. Üzən məzənə rejimi isə azad bazarın əsas elementlərindən biridir".(Ekonomist, 2010)

Üzən məzənnə rejimi ölkənin maliyyə sistemini volatillikdən qorumaq, valyuta ehtiyatlarını əriməkdən qaçırmaq üçün ideal rejim hesab edilir: "Lakin bunun üçün ölkə iqtisadi və siyasi sistemi müəyyən şərtlər çərçivəsində hazırlıqsız olanda, əksinə, çox ciddi şoklarla üzləşir. Bu şoklar əsasən valyuta bazarındakı volatilliklə iqtisadiyyata daxil olur, inflyasiyanın, kapital qaçışının ölkənin baş bəlasına çevrilməsinə səbəb olur. Məsələn, hazırda bunun canlı nümunəsi Türkiyədir. Yüksək inflyasiya, xalis valyuta rezervlərinin mənfiyə düşməsi, investorların və ev təsərrüfatlarının güvənsizliyi".

Üzən məzənnə sisteminin əsas etibarilə 2 (iki) növü var:

- Azad Üzən Məzənnə sistemi
- İdarə olunan Üzən Məzənnə sistemi

Azad Üzən Məzənnə sistemində hökumət və mərkəzi bank xarici valyuta dəyişmə bazarında iştirak etmir. Dövlət birjaları ancaq saxtakarlığın qarşısını almaq məqsədilə nizamlaya bilər, səhm və məhsullar isə bazarda azad şəkildə "üzürlər".

İdarə olunan Üzən Məzənnə sistemində isə dövlət və mərkəzi bank tez-tez milli valyutalarını alıb satmaqla məzənnəni qaldırıb endirməyə çalışırlar. Məzənnə yenə də azad şəkildə üzür lakin dövlət qiymətlərə təsir etməyə çalışır. Bu sistemə başqa cür çirkli üzən məzənnə sistemi də deyilir.

Təbii ki, "üzən məzənnə" siyasətinə keçid bir sıra problemləri qaçılmaz hala gətirsə də, faydalı tərəfləri ilə də seçilir. Belə ki, bu prosesə start verilməsi ölkəmizdə bazar münasibətlərinin daha dinamik tənzimlənməsinə, eləcə də sahibkarlığın inkişafına və ixrac qabiliyyətinin artmasına yol açacaq. Belə demək mümkündürsə, "üzən məzənnə" siyasəti ölkəmizin daxili istehsalını daha da yüksəltmək üçün bir fürsət sayıla bilər.(M.Albino, 2013)

5. NƏTİCƏ

Valyuta siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsidir və onun çoxtərəfli məqsədlərinin yerinə yetirilməsinə, yəni güclü iqtisadi inkişafın təmin edilməsinə inflyasiya və işsizliyin artımının dayandırılmasına, tədiyyə balansı müvazinətinin dəstəklənməsinə yönəldilir.Valyuta siyasəti dövlətlər arasındakı qarşılıqlı əlaqəni əks etdirir.Makroiqtisadi sabitliyin dayanıqlığı əhəmiyyətli dərəcədə məzənnə rejiminin düzgün seçilməsindən aslıdır.Optimal məzənnə rejiminin seçilməsi hər bir ölkə iqtisadiyyatının xüsusiyyətlərinin nəzərə alınmasını zəruri edir.Məzənnə rejiminin seçilməsinin qəbul olunmuş meyarları hazırda Azərbaycanda Təsbit məzənnə rejiminin tətbiqinin məqsədəuyğun olduğunu göstərir.Strateji dövrdə real məzənnənin tarazlı səviyyəsi ilə onun faktiki səviyyəsi arasındaki uyğunsuzluğun aradan qaldırılması, inflyasiyanı effektiv idarə etmək üçün üzən məzənnə rejiminə tədrici keçidin şərtlərinin realizasiyası mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBIYYAT SIYAHISI

1. 1.Ələsgərov A., Əlirzayeva T. "Məzənnə rejimləri və onların seçilməsi Meyarları", İqtisadiyyat və Audit: N-11(65), 2015.
2.Quliyeva N. (2013), Milli valyutanın dönərliyinin təmin edilməsi yolları, Bakı, 287s.
3.Azərbaycan Respublikası Mərkəzi Bankı. İllik hesabat. Bakı. 2009-2012
4.Jurnal «Ekonomist». Bakı. 2010
5.M.Albino –War and B.Qullin, Republic of Azerbaijan: selected issues, IMF. 2013

RİFAH ANLAYIŞI VƏ ONUN ÖLÇÜLMƏSİ METODOLOGİYASININ TƏHLİLİ

İLKİN QASIMOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə Fakültəsi
ilqasimov@beu.edu.az
Bakı/Azərbaycan

XÜLASƏ

Rifah və onun təmin edilməsi ilə bağlı fəaliyyətlərin tarixi qədim olsa da bu anlayış müasir formasını XX əsrin ikinci yarısından etibarən almağa başlamışdır. Rifahla bağlı hesablamalarda ilk dövrlərdə ÜDM göstəricisindən aktiv şəkildə istifadə edilsə də, sonrakı dövrlərdə bu tendensiya getdikcə azalmış, alternativ göstəricilər və yanaşmalar meydana çıxmışdır. Bu isə öz növbəsində elmi ədəbiyyatların daha da zənginləşməsinə gətirib çıxarmışdır. Təbii ki, gələcəkdə də bu sahədə işlərin genişlənəcəyini, yeni üsul və göstəricilərin meydana gəlməsini səciyyələndirir.

Açar sözlər: Rifah anlayışı, ÜDM, ölçmə metodologiyası

GİRİŞ

Rifah sözü ingilis dilindəki "well" və "fare" sözlərindən meydana çıxaraq hərfi tərcümədə "yaxşı ərzaq təchizatı" deməkdir. Tarixi konteksdən yanaşası olsaq bu ifadə daha çox firavanlıq, bolluq, xoşbəxtlik kimi mənaları ifadə etsədə müasir anlamının formalaşması XX əsrdə yekunlaşmışdır. Müasir dövrdə rifah mikro səviyyədə fərdlərin, makro səviyyədə isə cəmiyyətlərin gündəlik həyat keyfiyyəti olaraq qəbul edilir (Greve, 2008,). Təbii ki, rifahla bağlı elmi tədqiqatların sayı artdıqca ona verilən fərqli təriflərə də rast gəlinməkdədir. Bu tərifl ərin əksəriyyətində rifah vətəndaşların həyat keyfiyyəti, eyni zamanda obyejtiv tələbatlarla təmin olunması olaraq qeyd edilmişdir.

RİFAH ANLAYIŞI

Rifahla bağlı tədqiqatlara nəzər saldıqda sosiologiya, psixologiya və s. bu kimi elmlərdə onun tədqiqinin və ölçülməsi ilə bağlı məsələlərin araşdırılma tarixinin daha əvvələ gedib çıxdığını görə bilərik. Lakin, rifahın iqtisadi konteksdə araşdırılması tarixi cəmi bir neçə onillik öncəyə təsadüf edir. (Fahey, Smith, 2004). Bunu da qeyd edək ki, rifah və həyat keyfiyyəti sosioloji aspektdən fərdlərin fiziki və mənəvi vəziyyətinə görə deyil, həmçinin onun digər şəxslərin ümumi vəziyyətindəki dəyişikliklərə olan münasibəti əsasında izah edildiyi halda iqtisadiyyatda ənənəvi yanaşmalar rifahı istehlak olunmuş əmtəə və xidmətləri məcmusu olaraq və ya son nəticə olaraq həyat məmnuniyyəti olaraq qiymətləndirir (Boalini, Kolev və MakQreqor, 2014). Yuxarıda qeyd edilənləri nəzərə alaraq rifahla bağlı ümumi məsələləri aşağıdakı formada təqdim etmək olar:

- Dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirlər, proqram və fəaliyyətlər iqtisadiyyatı yalnız bütöv olaraq ələ almır, eyni zamanda ayrı-ayrı vətəndaşların fərdi rifahının yüksəldilməsinə zəmin yaradır.
- Rifah anlayışı çoxölçülü olduğundan ona maddi amillərlə yanaşı digər faktorlar da təsir edir ki, bu da onun ölçülməsini çətinləşdirir.
- Rifah obyektiv və ölçüləbilən məsələlərlə yanaşı, həmçinin subyektiv amilləri də özündə ehtiva edir. (Boarini və Dercole, 2014).
- Rifah obyektiv məsələlərlə yanaşı, insanların həyat təcrübəsi kimi subyektiv faktorları da özündə əks etdirir. (Boalini, Kolev və MakQreqor, 2014).

Rifahla bağlı son illərdə elmi ədəbiyyatlardakı ən mühüm müzakirələrdən biri də onun ölçülməsi üçün hansı göstərici və ya göstəricilər sisteminin əsas götürülməsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, uzun illər boyunca ÜDM rifah səviyyəsinin ölçülməsi üçün əsas göstərici rolunu oynamışdır. Bunun əsas səbəblərindən biri kimi ÜDM-in davamlı (uzunömürlü) olması və bir çoxları tərəfindən aydın başa düşülməsidir. Bundan əlavə ÜDM-in rifahın əsas göstəricisi olaraq çıxış etməsi müxtəlif ölkələr arasında müqayisənin aparılmasını da asanlaşdırırdı. Bu baxımdan ÜDM-in qeyd edilən məqsədlə istifadəsi sadə və cəlbedici idi. Belə ki, bu halda "Əgər iqtisadiyyat böyüyürsə, rifah da artır" məntiqi işə düşürdü (İslam, Clarke, 2002).

RİFAHIN ÖLÇÜLMƏSİ ÜZRƏ YANAŞMALAR

Rifahla bağlı son illərdə aparılmış tədqiqatlara nəzər saldıqda burada əsas müzakirə mövzularından biri kimi rifah səviyyəsinin necə ölçülməsi ilə bağlı məsələlərin ön plana çıxdığını görə bilərik. Uzun illər ərzində rifahın qiymətləndirilməsi məsələsində Ümumi Daxili Məhsul (ÜDM) göstəricisinə əsaslanılsa da, son illərdə bu məsələdə ÜDM-in alternativlərinin təqdim edildiyini görə bilərik. Bunun əsas səbəbi kimi rifah anlayışının getdikcə daha fərqli məna kəsb etməsini və belə olan halda ÜDM göstəricisinin bu anlayışı tam ifadə etməkdə "aciz qalması"nı qeyd edə bilərik. Belə ki, bir çox tədqiqatçılar ÜDM də daxil olmaqla makro səviyyəli göstəricilərin əksəriyyətinin vətəndaşların rifah səviyyəsi ilə bağlı vəziyyəti əhatəli şəkildə təsvir edə bilmədiyini qeyd edirlər. Tənqidi bir digər məqam isə ÜDM-in rifahın gələcək səviyyəsi haqda heç bir informasiya və ya proqnoz verə bilməməsidir. Bu faktlar rifah səviyyəsinin ölçülməsi üçün alternativlərin axtarışı prosesini sürətləndirmiş və rifah səviyyəsinin ölçülməsi üçün bir sıra göstəricilərin meydana çıxmasını zəruri etmişdir (Boarini, Mira d'Ercole, 2014). Ümumiyyətləri isə xüsusilə son 20-25 ildə həyata keçirilmiş tədqiqatların nəticəsi ÜDM artımının heç də həmişə yüksək rifah səviyyəsi mənasına gəlmədiyi həqiqətini meydana çıxarmışdır. Bu nəticə aşağıdakı faktlarla izah oluna bilər:

- ÜDM-də müşahidə edilən artım heç də həmişə ev təsərrüfatlarının gəlirlərinin yüksəlməsi ilə müşayiət edilmir.
- ÜDM-də müşahidə edilən artım subyektiv rifahın yüksəlməsi ilə nəticələnmir.

➢ ÜDM-də müşahidə edilən artım fərqli xarakter və resurslara sahib ev təsərrüfatlarının imkanları ilə bağlı qeyri-bərabərlikləri ortaya çıxarmır.

➢ Dövlət qurumlarının keyfiyyətinin artması heç də həmişə bütün fərd və qruplar üçün bərabər imkanlar yaratmır (Lal və Buragohain, 2013).

II Dünya müharibəsindən sonrakı dövrdə, daha dəqiq desək 1970-ci illərdə "Davamlı inkişaf" anlayışı ətrafında başlayan müzakirə və tədqiqatlar rifah səviyyəsinin ölçülməsində modern yanaşmanın meydana çıxması prosesini sürətləndirdi. Buradakı bəzi ümumi fikir ayrılıqlarını nəzərə almasaq rifah səviyyəsinin mövcud vəziyyətini və gələcək inkişafını proqnozlaşdırmaq baxımından bir neçə qrup göstəricinin tədqiqinin vacib olması faktı diqqəti cəlb edir. Bu qrupa ekoloji, sosial, insani və iqtisadi göstəricilər daxildir (Boalini, Kolev və MakQreqor, 2014).

Rifah səviyyəsinin ölçülməsi ilə bağlı məsələlərdə xüsusilə inkişaf etmiş ölkələr və beynəlxalq qurumlar fərqlənirlər. Bu sırada ayrı-ayrı alimləri və tədqiqat mərkəzlərini də xüsusilə qeyd etmək lazımdır.

Amerika Birləşmiş Ştatlarında rifah səviyyəsinin ölçülməsi üçün vətəndaşların seçilmiş müəyyən fəaliyyətlərin görülməsi üçün istifadə etdikləri vaxt hesablanır. Bununla yanaşı 2010-cu ildə ölkə sakinləri arasında sorğu keçirilərək seçilmiş fəaliyyət istiqamətləri üzrə fəaliyyətləri ilə bağlı məlumatlar toplanmışdır. Kanada hökuməti isə rifah səviyyəsinin ölçülməsi üçün "Kanadanın performansı" adlı sənəddə vətəndaşların subyektiv rifah vəziyyəti ilə bağlı məlumatlar toplanır. Buna əlavə olaraq 1996-cı ildən başlayaraq ardıcıl olaraq beş ildən bir "Ümumi Sosial Sorğu" keçirilir ki, burada da əsas məqsəd ölkə vətəndaşlarının həyat məmnuniyyəti və rifahı sahəsindəki dəyişiklikləri tədqiq etməkdir (Tinkler və Hicks, 2011). Qeyd edilənlərə alternativ olaraq Kanadada rifah səviyyəsinin qiymətləndirilməsi üçün həmçinin "Kanada Rifah İndeksi"nin köməyindən də faydalanılır. Dövlət siyasətinə istiqamət vermək üçün hesablanan bu indeksdə demokratik iştiraklılıq, ekologiya, asudə vaxt, icma canlılığı, sağlamlıq və s. kimi faktorlar öz əksini tapmışdır. Qeyd edilən hər komponent özündə müxtəlif alt göstəriciləri əhatə edir ki, onların da ümumi sayı 64-dür. (Smale, Hilbrecht, 2017). İndeksin əsas komponentlərini aşağıdakı şəkildə izah etmək olar:

➢ Demokratik iştiraklılıq: Müxtəlif qurum və təşkilatların köməyi ilə seçkidən öncə, seçki dövründə və seçkidən sonrakı periodda vətəndaşların demokratik fəaliyyətlərdə təmsil olunmasıdır.

➢ Ekologiya: Ekoloji vəziyyət, həmçinin ətraf mühit və s. rifahın əsasını təşkil edir ki, bu da onun gələcək inkişafını səciyyələndirən əsas amillərdən biridir. Bu baxımdan ekoloji vəziyyətin pisləşməsi, resurslardan səmərəli istifadəni məhdudlaşdırır ki, bu da öz növbəsində rifah səviyyəsinin aşağıda düşməsinə gətirib çıxarır.

➢ Asudə vaxt: Asudə vaxtın səmərəli keçirilməsi, müxtəlif mədəni və sosial fəaliyyətlərdə iştirak fərdlərin və ümumilikdə cəmiyyətin rifah səviyyəsini yüksəldir.

➢ İcma canlılığı: İcma canlılığı dedikdə icmanı təmsil edən şəxslərin bir-birləri, həmçinin digər şəxslərlə, dövlət və qeyri-dövlət qurumları ilə müntəzəm və keyfiyyətli əlaqələrə əsaslanan proses nəzərdə tutulur.

➢ Sağlamlıq: Sağlam fərdlər dedikdə təkcə tibbi baxımdan sağlamlıq nəzərdə tutulmur. Burada eyni zamanda yüksək gözlənilən ömür müddətinə sahib, pulsuz və keyfiyyətli tibbi xidmətə çıxışı olan fərdlər qeyd olunur.

➢ Təhsil: Müxtəlif yaş qrupları və cinslər üzrə fərdlərin gələcək həyata hazırlıq və cəmiyyətdə gedən proseslərdə aktiv iştirak imkanı yaradan sistemli və davamlı tədris prosesi nəzərdə tutulur (Canadian Index of Wellbeing, 2012).

Böyük Britaniyada əhalinin rifah səviyyəsinin ölçülməsi üçün Milli Statistika İdarəsi tərəfindən hər il keçirilən sorğudan istifadə edilir. Belə ki, 2011-ci ildən etibarən qeyd edilən sorğuya dörd sual əlavə edilmişdir ki, bu da fərdlərin rifahla bağlı vəziyyətlərinin monitorinqini aparmağa imkan verir. Suallar aşağıdakı şəkildədir:

➢ Son dövrlərdə məmnuniyyətiniz hansı dərəcədədir?

➢ Dünən özünüzü hansı dərəcədə xoşbəxt hiss edirdiniz?

➢ Dünən özünüzü hansı dərəcədə rahat hiss edirdiniz?

➢ Həyatınız boyunca gördüyünüz işləri hansı dərəcədə qiymətli hesab edirsiniz?

Suallara cavabların veriməsi zamanı on ballıq şkaladan istifadə edilir ki, burada 0 minimal, 10 isə maksimal cavabı ifadə edir (Tinkler və Hicks, 2011).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) da rifah səviyyəsinin hesablanması üçün fərqli

yanaşma təklif edir. Qurum tərəfindən təqdim edilən "Daha Yaxşı Həyat Təşəbbüsü" təşkilata üzv ölkələrdə vətəndaşların rifahını ölçmək üçün fərqli göstəricilər sistemini irəli sürür (OECD, 2011). Bu sistemə əsasən fərdi rifah həyat keyfiyyəti və maddi keyfiyyət olmaqla iki hissəyə bölünür və onlar da öz növbəsində altbaşlıqlardan ibarətdir. Belə ki, "Həyat keyfiyyəti"nə iş-həyat balansı, sosial əlaqələr, şəxsi təhlükəsizlik, sağlamlıq statusu, subyektiv rifah, ekoloji keyfiyyət, sosial əlaqələr, həmçinin vətəndaş aktivliyi və idarəetmədə iştirak daxildir. Maddi keyfiyyət isə özündə iş və qazanc, ev, eyni zamanda gəlir və sərvəti birləşdirir. Alt göstəricilər aşağıdakı şəkildə izah edilə bilər:

- İş-həyat balansı: Burada iki əsas faktor ön plana çıxır. İlk olaraq həftəlik iş yükü 50 saat və bundan daha çox olan vətəndaşların ümumi işçilərin sayındakı payı əsas olaraq götürülür. Bundan əlavə vətəndaşların, o cümlədən tam ştatlı işdə çalışan şəxslərin şəxsi qayğı və həmçinin istirahət üçün ayırdıqları müddətə fikir verilir.
- Sosial əlaqələr: Bu bölmədə sorğu iştirakçılarına çətin vəziyyətdə və ya köməyə ehtiyac olduqda onlara kömək edə biləcək qohum-tanışların, dostların olub-olmaması ilə bağlı sual verilir.
- Şəxsi təhlükəsizlik: Burada illik 100 min nəfərə düşən qətl və bu kimi digər ağır cinayətlərin sayı hesablanır. Eyni zamanda son bir ildə vətəndaşların hər hansı hücuma məruz qalıb-qalmamaları ilə bağlı sual verilir.
- Sağlamlıq statusu: Gözlənilən ömür müddəti ilə bağlı respondentlərin fikri öyrənilir. Bununla yanaşı, 15 yaş və daha böyük əhalidən sağlamlıq statusları ilə bağlı münasibət öyrənilir.
- Subyektiv rifah: Burada vətəndaşların həyatlarını 10 ballıq şkala üzrə qiymətləndirmələri istənilir.
- Ekoloji vəziyyət: Bu bölmədə ekoloji vəziyyətlə bağlı bir neçə göstərici əsasında məlumatlar toplanır. Belə ki, ilk öncə əhalisi 100 min nəfər və daha çox olan şəhərlərdə havada zərərli maddələrin həcminin 10 mikrondan çox və ya az olması araşdırılır. Daha sonra şəhər sakinlərinin içməli suyun keyfiyyəti ilə bağlı fikirləri öyrənilir.
- Vətəndaş aktivliyi, idarəetmədə iştirak: Bu altbaşlıqda ölkə vətəndaşlarının qanunverici aktların hazırlanmasında iştirak edib-etməmələri ilə bağlı sorğu keçirilir. Buna əlavə olaraq, seçkilərdə iştirak etmiş vətəndaşların ümumi vətəndaşların sayındakı payı hesablanır.

Maddi keyfiyyət üzrə alt başlıqlar aşağıdakı şəkildə izah edilə bilər:

- İş və qazanc: Burada ilk növbədə məşğul əhalinin əmək qüvvəsindəki payı hesablanır. Daha sonra bir il və daha çox işsiz qalan əhalinin əmək qüvvəsindəki payı ölçməklə uzunmüddətli işsizlik səviyyəsi haqda məlumat toplanır. Tam ştatlı işçilərin orta illik gəlirləri ilə bağlı məlumatlar da bu bölmədə əldə edilir. Bununla yanaşı işçilərin iş yerlərində təhlükəsizlik məsələləri ilə bağlı informasiya da əldə edilərək təhlil olunur.
- Təhsil və bacarıqlar: Bu bölmədə 25 yaşdan 64 yaşa qədər olan vətəndaşların ümumi sayında ən pis halda orta təhsili olan əhalinin çəkisi hesablanır. Şagird və tələbələrin müxtəlif fənnlər üzrə ortalama balları qiymətləndirilir. Buna əlavə olaraq 39 yaşadək şəxslərin təhsilə sərf edəcəkləri gözlənilən müddət hesablanır.
- Ev şəraiti: Ailələrdə adambaşına düşən otaq sayını ölçür. Həmçinin yaşamaq üçün minimal şərtləri ödəməyən yerlərdə yaşayanların ümumi əhalinin sayındakı çəkisi hesablanır. Əlavə olaraq əhalinin kommunal xərclərə ödədikləri vəsaitin ümumi gəlirlərinə nisbəti qiymətləndirilir.
- Gəlir və sərvət: Vətəndaşların vergilər çıxıldıqdan sonra qalan gəlirləri əsas götürülür. Burada həmçinin sorğu iştirakçılarının xərcləyə biləcəkləri maksimum məbləğ müəyyənləşdirilir (OECD, 2011).

İƏİT-nin yanaşmasına əsasən rifahın davamlılığı üçün təbii və iqtisadi, həmçinin insan və sosial kapitalı vacib amillərdən hesab edilir.

İƏİT tərəfindən rifah səviyyəsinin ölçülməsi üçün təklif edilən yuxarıdakı yanaşmanın dörd əsas xüsusiyyətini aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

- Yanaşmaya nəzər saldıqda onun əsasən fərdlərə və eyni zamanda ev təsərrüfatlarına fokuslandığını görə bilərik. Bu metodda əsasən vətəndaşların həyatlarına, onların fəaliyyət göstərdikləri cəmiyyətlərdə digər fərdlərlə əlaqələrinə diqqət yetirilir. Bu isə öz növbəsində ayrı-ayrı fərd və sosial qrupların rifah vəziyyətinin monitorinqinə imkan yaradır.
- Özündən öncəki təşəbbüslərdən fərqli olaraq bu yanaşma əsas diqqəti müxtəlif rifah amilərinə deyil, son nəticəyə ayırır.

- Bu yanaşma cəmiyyətlərdəki fərdləri yaş, cins və s. kateqoriyalar üzrə də ayırır ki, bu da öz növbəsində fərqli qruplar arasındakı rifah vəziyyətini, həmçinin keçmiş və indiki rifah səviyyəsini müqayisə etmə imkanı yaradır.
- Son olaraq, qeyd edilən metod rifaha təsir edən subyektiv və obyektiv amilləri təhlil edərək rifah səviyyəsi haqda maksimum informasiyanın qiymətləndirilməsi üçün şərait yaradır (Boalini, Kolev və MakQreqor, 2014).

Çoxölçülü Yaşam Standardları (ÇYS) üsulu da rifah səviyyəsinin ölçülməsi üçün istifadə edilən alternativ metodlardan biri kimi çıxış edir. Məşhur iqtisadçılar CozefŞtiqlitz, Sen və Fitoussi tərəfindən hazırlanan bu metodda gəlir, iş, rifah və sağlamlıq kimi göstəricilər əsasında hesablamalar aparılır. ÇYS-nin əsas xüsusiyyətlərindən biri kimi burada iqtisadiyyatdakı məcmu məhsul buraxılışını yox, rifah nəticələrini hesablamasını qeyd edə bilərik (Veneri və Murtin, 2019). Rifahın ölçülməsi ilə bağlı istifadə edilən alternativ üsullardan biri də Matteo Mazziotta və Adriamo Pareto tərəfindən təqdim edilmişdir. Qısaca olaraq, "Mazziotta-Pareto İndenksi" adlanan bu yanaşmada gözlənilən ömür müddəti, məşğulluq səviyyəsi, təhsil nailiyyəti, vergidən sonrakı gəlir və s. kimi göstəricilər əsasında ölçmələr aparılır (Mazziotta-Pareto, 2018).

NƏTİCƏ

Daha öncə də qeyd edildiyi kimi rifah səviyyəsinin artırılması tarixin bütün dövrlərində dövlət və hökumətlərin prioritetlərindən biri olmuşdur. Belə olna halda, onun ölçülməsi ilə bağlı məsələləri aktuallaşdırmış, nəticədə bir sıra alternativ yanaşmalar və ölçmə metodları meydana çıxmışdır. Təbii ki, bu metodlar zaman keçdikcə təkamülə uğramış, yeni xüsusiyyətlərlə zəngilməşdirilmişdir. Bu isə öz növbəsində bu tendensiyanın gələcəkdə də davam edəcəyini, elmi ədəbiyyatın yeni tədqiqat və yanaşmalarla zənginləşəcəyini söyləməyə əsas verir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Greve, B., 2008. What is welfare?. Central European Journal of Public Policy, 2(01), pp.50-73.
2. Fahey, T. and Smyth, E., 2004. Do subjective indicators measure welfare? Evidence from 33 European societies. European Societies, 6(1), pp.5-27.
3. Boarini, R., Kolev, A. and McGregor, A., 2014. Measuring well-being and proggress in countries at different stages of development: Towards a more universal conceptual framework.
4. Boarini, R. and D'ERCOLE, M.M., 2014. GDP as a welfare metric: the'beyond GDP'agenda. Lequiller, F. and D. Blades, Understanding National Accounts: Second Edition, OECD Publishing, Paris.
5. Islam, S.M. and Clarke, M., 2002. The relationship between economic development and social welfare: A new adjusted GDP measure of welfare. Social Indicators Research, 57(2), pp.201-229.
Müasir dövrdə aqrar sektor dünya iqtisadiyyatı üçün strateji əhəmiyyətə malikdir.Çünki ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sektorun rolu böyükdür. Son illər ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində aqrar sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır. Ölkəmizdə aparılan islahatlar nəticəsində aqrar sektorda bir sıra strateji məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə,ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azalmasına nail olunmuşdur.Həmçinin dövlət tərəfindən fermerlərin subsidiyalarla təmin edilməsi nəticəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin rifah halı yüksəldilmişdir. Bir çox ölkələrdə dövlətin kənd təsərrüfatı sektoruna dəstəyi müxtəlif vaistələrlə həyata keçirilir.Buna baxmayaraq hər bir ölkədə əsas məqsəd kənd təsərrüfatının bütün sahələrində sabitliyi və rəqabətliliyini təmin etməkdən ibarətdir. Bizim tədqiqat işində Azərbaycanın regionlarında aqrar sektorun inkişafı, social – iqtisadi vəziyyətinin təhlili əks olunmuşdur.

Açar sözlər: Aqrar sektor, heyvandarlıq, əkinçilik, sosial-iqtisadi inkişaf

Abstract

In modern times, the agrarian sector has a strategic importance for the world economy, because the role of the agrarian sector in ensuring the food security of the country is great. Favorable conditions for the development of the agricultural sector have been created as a result of purposeful measures implemented in our country in recent years. As a result of the reforms carried out in our country, the demand for a number of strategic products in the agrarian sector has been met through local production, and the dependence on the foreign market has been reduced in food security. Also, as a result of providing subsidies to farmers by the state, the welfare of the population engaged in

agriculture has improved. In many countries, the state's support to the agricultural sector is implemented through various means. Nevertheless, the main goal in each country is to ensure stability and competitiveness in all areas of agriculture. In our research work, the development of the agricultural sector in the regions of Azerbaijan, the analysis of the socio-economic situation is reflected.

Keywords: Agrarian sector, animal husbandry, farming, socio-economic development

GİRİŞ

Hər hansı bir ərazinin maliyyə inkişafı yerli çərçivənin hazırkı statusunun atributlarını təşkil edən bir çox mövcud və hazırlanmış amillərlə hələ də havadadır. İstənilən halda, ərazinin praktiki olaraq maliyyə cəhətdən irəliləyişinə nail olmaq öhdəliyi bu vaxta qədər qeyri-mümkün olaraq qalır. Bir qayda olaraq, rayonun maliyyə yaxşılaşdırılması ehtiyacları nizamlı, topoqrafik, yoxlanıla bilən və pul elementləri hesabına təmin edilir, ona görə də bu şəkildə səciyyələndirilən ehtiyaclar yerlərdə mövcud problemlərin tanınması və aradan qaldırılmasında mühüm rol oynayır. Yerli mühitin maliyyə təkmilləşdirmə elementlərinin qiymətləndirilməsi cari məsələlərin və ehtiyacların hipotetik sistemli perspektivə uyğun olaraq qərəzsiz həllinə xidmət edir ki, bu da əyalət iqtisadiyyatının subyektləri tərəfindən edilən seçimlərin keyfiyyətində və həyat qabiliyyətində mühüm rol oynayır. Çoxsaylı məntiqi imtahan sənədlərinin yerli yerlərin maliyyə təkmilləşdirilməsi ehtiyaclarına dair tərtib edilməsinə baxmayaraq, hadisələrin idarə oluna bilən maliyyə dönüşünü həyata keçirmək üçün yeni ehtiyacları xarakterizə etməyə etibarlı şəkildə ehtiyac var. Bu nəticə tədqiqat üçün seçilmiş mövzunun əhəmiyyətini təsdiqləyir.

Sosial – iqtisadi inkişafın mahiyyəti və əsas aspektləri

Müasir mədəniyyətin təkmilləşdirilməsi üçün daima layiqli idarəetmə çərçivəsi tələb olunur. Belə bir çərçivənin əsas hissələrindən biri ərazi çərçivəsidir ki, əyalət çərçivələri bazarın özünüidarəsinə əsaslanaraq mütləq şəkildə inkişaf etdirə bilməz. Təcrübə göstərir ki, sahələrin abadlaşdırılmasında dövlətin vasitəçiliyi həyati əhəmiyyət kəsb edir. Buna görə də yerli təkmilləşdirmə strategiyası dövlətin əsas elementlərindən biri kimi qəbul edilir. Əyalət strategiyası hər bir dövlətin bir növ strategiyası kimi qəbul edilir. Beləliklə, müxtəlif millətlərdə əyalət təşkilinin məqsədləri və tapşırıqları unikaldır. Tədricən, bir çox ölkələrdə ümumi qəbul edilmiş məqsədlər var və bunlara müşayiət olunanları daxildir [1]:

- tək maliyyə məkanının yaradılması və onun möhkəmləndirilməsi;
- əhalinin əsas sosial normalarının təşkili və konstitusiyada səciyyələnən sakinlərin sosial imtiyazlarının yerli ərazilər arasında açıq maliyyə qapılarına əhəmiyyət verməməsi;
- yerlilər arasında ziddiyyətlərin minimuma endirilməsi;
- həlledici əhəmiyyətli sahələrin üstünlük təşkil etdiyi irəliləyiş;
- ərazilərin aktivlərinin və müntəzəm aktivlərinin ən yüksək səviyyədə istifadəsi;
- iqlimin çirklənmədən təminatı, ərazilərin kompleks ekoloji təhlükəsizliyi.

Azərbaycanda aqrar sektorun mövcud vəziyyəti və perspektivləri

Müasir dövrdə aqrar sahə dünya iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir, ona görə ki, xalqın ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar sahənin işi mükəmməldir. Son vaxtlar ölkəmizdə həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində əkinçilik sahəsinin yaxşılaşdırılması üçün böyük şərait yaradılıb. Ölkəmizdə həyata keçirilən dəyişikliklər nəticəsində aqrar sahədə müxtəlif əsas məhsullara olan maraq məhəllələrin salınması hesabına ödənilib, ərzaq təhlükəsizliyində naməlum bazardan asılılıq azalıb. Eynilə, fermerlərə ianələrin ekspress vasitəsilə verilməsi səbəbindən bağçılıqla məşğul olan əhalinin dövlət yardımı da irəli getdi. Bir çox xalqlarda dövlətin kəndə yardımı müxtəlif vasitələrlə həyata keçirilir. Tədricən, hər bir xalqın əsas məqsədi əkinçiliyin hər bir sahəsində gücü və ciddiliyi təmin etməkdir. Bir qayda olaraq, kənd təsərrüfatının dövlət dəstəyi assosiasiyası aşağıdakı standartlar əsasında qurulmalıdır [5]:

- Kənd təsərrüfatının inkişafı üçün maliyyə planından ayrılmış adekvat aktivlər.
- Aqromodern kompleksdə mövcud məsələlərin ideal şəkildə təşkili.
- Kənd təsərrüfatının inkişafı üçün nəzərdə tutulan dövlət proqramlarında yerli atributlar haqqında fikir.
- Əkinçilikdə özəl şirkətlərin irəliləyişinə dövlət yardımı.

Aqrobiznesdə dövlət strategiyasının tanış olmayan təcrübəsini nəzərə alsaq, görərik ki, bir çox xalqlarda bağçılığın yaxşılaşdırılmasında sabit, pul, qanuni və sosial şərait yaratmaq üçün dövlət fermerlərin maaşına, kənd quruculuğu quruculuğuna təsir göstərir. , əkinçilik biznesi sektoru, şəhərin sosial dizaynı və əhali üçün dəyərli ərzaq məhsullarının təşkili. daha çox, ekoloji təminat ləngidir [4].

Cədvəl 2. Bitkiçilik məhsullarının istehsalı, təsərrüfat kateqoriyaları üzrə

İllər	Dənlilər və dənli paxlalı bitkilər	Pambıq	Tütün	Şəkər çuğundur u	Dən üçün günəbaxan	Kartof	Tərəvəz	Bostan məhsulla rı
Bütün təsərrüfat kateqoriyaları								
2015	2999,4	35,2	3,5	184,3	18,4	839,8	1275,3	484,5
2016	3065,1	89,4	3,6	312,6	16,7	902,4	1270,6	464,8
2017	2928,8	207,5	5,3	410,1	29,8	913,9	1405,6	438,1
2018	3309,2	233,6	6,3	277,2	23,6	898,9	1521,9	401,9
2019	3538,5	295,3	6,0	218,5	33,7	1004,2	1714,7	447,6
2020	3257,1	336,8	6,9	233,8	23,9	1037,6	1738,9	448,1
2021	3363,0	287,0	6,4	177,3	25,2	1062,0	1815,5	459,9
2022	3161,3	322,5	5,1	210,6	28,3	1074,3	1823,3	469,3

Mənbə: Azərbaycan Respublikaası Statistika Komitəsi, https://www.stat.gov.az/source/agriculture/

Tədqiqatın bu hissəsində bitkiçilik məhsullarının statistik göstəricilərini təhlil edəcəyik. Cədvəl məlumatlarından gördüyümüz kimi, 2015 – 2022 – ci illər arasında dənli və paxlalı bitkilər ən çox istehsal göstəricisinə çatmışdır. Bu nəticələri ardınca kartof, tərəvəz və bostan məhsulları izləmişdir.

Cədvəl 3. Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat

İllər	Cəmi	o cümlədən	
		bitkiçilik məhsulları	heyvandarlıq məhsulları
Bütün təsərrüfat kateqoriyaları			
2015	5635,3	2761,1	2874,2
2016	5632,4	2577,2	3055,2
2017	6580,0	3019,0	3561,0
2018	7010,0	3186,0	3824,0
2019	7836,7	3751,2	4085,5
2020	8428,9	4028,4	4400,5
2021	9163,4	4511,0	4652,4
2022	10984,2	5538,0	5446,2

Mənbə: Azərbaycan Respublikaası Statistika Komitəsi, https://www.stat.gov.az/source/agriculture/

Ümumi kənd təsərrüfatı məhsulunun istehsalının statistik göstəriciləri 2015-2022 – ci illər üçün cədvəldə əks olunmuşdur. Ümumi cəmi məhsul həcmindən gördüyümüz kimi, son illərdə kənd təsərrüfatı məhsulunun istehsalı artmışdır. Dövlətin kənd təsərrüfatının inkişafı naminə həyata keçirdiyi dövlət proqramları öz təsirini göstərmişdir [3].

Azərbaycan bu gün inkişafının yeni mərhələsini yaşayır. Məlum olduğu kimi, ölkəmizdə uğurla reallaşdırılan Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları Azərbaycanın bütün şəhər və rayonlarının simasının əsaslı şəkildə yenilənməsini təmin edib, regionların hərtərəfli inkişafını

gücləndirib. Bu baxımdan, regionlarda aqrar sahənin inkişafı da xüsusi vurğulanmalıdır. Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən kənd təsərrüfatında müşahidə olunan inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən davamlı siyasi kurs dayanır. Bu siyasi kurs müstəqilliyimizin, təhlükəsizliyimizin, sosial-iqtisadi tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın təminatçısına çevrilib. Aqrar sektorun müxtəlif sahələrinə dair proqramların icrası davam edir. Ölkədə məqsədyönlü islahatlar həyata keçirilir, nəticədə digər sahələr kimi, aqrar sektor da öz dinamik inkişafı ilə mövcud çağırışlara cavab verir. Ərzaq təhlükəsizliyinin təminatı istiqamətində görülən işlər 2019-cu ildə də davamlı xarakter daşıyıb. Kənd təsərrüfatının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması özünü iqtisadi göstəricilərin yüksəlməsində, fermerlərin gəlirlərinin artmasında, aqrar fəaliyyətin insanlar üçün əməktutumlu və gəlirli sahəyə çevrilməsində göstərir [6].

Azərbaycanda həyata keçirilən genişmiqyaslı aqrar islahatlar nəticəsində kənd təsərrüfatında artım tempi dayanıqlı xarakter alıb, dinamik inkişaf cari ildə də davam edib. 2019-cu ilin 9 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 6,27 milyard manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,1 faiz artıqdır. Həmin dövrdə kənd təsərrüfatı, meşə və balıqçılıq sahəsində yaradılan əlavə dəyərin ÜDM-də payı 6,2 faizə çatıb [6].

Yanvar-sentyabr aylarında ölkədə 2,97 milyard manatlıq heyvandarlıq məhsulları (3,1 faiz çox), 3,3 milyard manatlıq isə bitkiçilik məhsulları (11 faiz çox) istehsal olunub. Bu il taxıl, pambıq, günəbaxan, şəkər çuğunduru, tütün, kartof, tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə, üzüm, yaşıl çay yarpağı istehsalında ötən ilə nisbətən əhəmiyyətli artım qeydə alınıb. Eyni zamanda, 2019-cu ilin 9 ayında barama, diri çəkidə ət, süd, yumurta və yun istehsalında da ötən illə müqayisədə artım olub. Əgər ötən il 513,9 ton yaş barama istehsal edilmişdisə, bu il bu rəqəm 647,5 tona çatdırılıb [6].

Aqrar sahədə inkişaf ölkədə kənd təsərrüfatı məhsullarının ixracına da əhəmiyyətli təsir göstərib. Aqrar sektorun ixrac potensialı yüksəlib, kənd təsərrüfatı məhsullarının ölkənin valyuta gəlirlərinin formalaşmasında rolu artıb. Yanvar-sentyabr aylarında Azərbaycandan müxtəlif ölkələrə 501,5 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac edilib. Kənd təsərrüfatı məhsulları ixracının həcmi ötən ilin müvafiq dövrünə nisbətən dəyər ifadəsində 16,3 faiz artıb. 2019-cu ilin 9 ayı ərzində ölkədən 187,3 milyon dollarlıq tərəvəz məhsulları (ötən illə müqayisədə 0,5 faiz çox), 202,6 milyon dollarlıq meyvə (31,2 faiz çox), 86,7 milyon dollarlıq pambıq lifi (38,3 faiz çox), 22,5 milyon dollarlıq pambıq ipliyi (25,3 faiz çox) ixrac edilib.
Bu ilin ötən dövründə kənd təsərrüfatının kreditləşdirilməsi, texnika və gübrə təminatı sahəsində də işlər görülüb. Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 57 rayonda aqrar sektorda fəaliyyət göstərən 536 hüquqi və fiziki şəxsə 16,24 milyon manat məbləğində güzəştli kreditlər verilib, nəticədə 539 daimi və müvəqqəti iş yeri açılıb. Eyni zamanda, Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 81 təchizatçı vasitəsilə 1037 hüquqi və fiziki şəxsə 2448 ədəd kənd təsərrüfatı texnikası, "Aqrolizinq" ASC-nin xətti ilə isə 225 fiziki və ya hüquqi şəxsə 483 ədəd kənd təsərrüfatı texnikası güzəştli lizinq şərti ilə satılıb. Yanvar-sentyabr aylarında kənd təsərrüfatına dövlət dəstəyi tədbirləri çərçivəsində "Aqrolizinq" ASC tərəfindən səyyar satışlar həyata keçirilib, fermerlərə 111 min ton mineral gübrə, 195,2 min litr pestisid güzəştli şərtlərlə verilib [6].

Nəticə

Hadisələrin ərazi dönüşünü həyata keçirmək üçün əsas üsullardan biri kimi yerli təkmilləşdirmə layihələrini göstərmək olar. Ərazilərin abadlaşdırılması proqramlarının hazırlanması və icrası dövlətin yerli quruluşunun əsas məqsədlərindən biri kimi qəbul edilir. Bu cür layihələrin əsas üstünlüyü ondan ibarətdir ki, təkmilləşdirməyə ehtiyac duyulan başlıqlara qərar verilərkən maliyyə atributları nəzərə alınır.

Məlumdur ki, xalqımız böyük geoloji mövqedə yerləşir və zəngin müntəzəm sərvətlərə malikdir. Buna baxmayaraq, ölkəmizin maliyyə inkişafına kömək edən yerlərdə kəskin təzadlar göz qabağındadır. Sonradan, maliyyə aktivləri bölgələr arasında qeyri-bərabər dövriyyəyə məruz qaldı və müvafiq olaraq, sahələr arasında yaxşılaşma dərəcəsində kəskin ziddiyyətlər yarandı. Xüsusilə, paytaxtdakı ilkin təməl bölgələrinin ərazisi yerlilərdən şəhərə əhali axını sürətləndirdi. Bu komponent yerlilərin maliyyə inkişafına mənfi təsir göstərdi. Belə ki, dövlət rayonların maliyyə inkişafının istiqamətlərini mühüm məqsəd kimi qarşıya qoyub.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əlirzayev Ə.Q., Əlirzayev E.Ə. (2012). "Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşma mexanizmləri Bakı.
2. Mahmudov M.M., Mahmudova İ.M., (2011). "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi", Bakı.
3. Mehdiyev X.O. (2015). "Azərbaycanin sosial-iqtisadi inkişafına retrospektiv baxış: müqayisəli təhlil", Bakı.
4. Rustamov V.A (2018). Theoretico-methodological Bases of Regional Development Planning. - Regional Development in Azerbajan, Baku, pp 48-58.
5. Эскиев М. А., Чажаева Э. М. (2015). Государственное регулирование регионального развития в социально-экономической сфере // Молодой ученый. №13. — С. 480-485
6. https://www.yeniazerbaycan.com/MEDIA_e50293_az.html

ZƏNGƏZUR DƏHLİZİNİN ZƏRURİLİYİ VƏ ŞƏRTLƏRİ

Professor, i.e.d. Məmmədov Saleh Məmmədəli oğlu
UNEC, BMDM,
samammadov@beu.edu.az
Bakı, Azərbaycan

Xülasə

Dünya miqyasında ən çox diqqət çəkən problem dünyanın iki nəhəng iqtisadi gücü ilə nəqliyyat və ticarət əlaqələrinin (Qərb-Avropa və Şərq) optimal formada təşkil olunmasıdır. Bu optimallığın təşkilində açar rol Azərbaycana məxsusdur. Materialda Şərqlə Qərbi birləşdirə bilən dümək olar ki, bütün yollar izah olunur və hər bir yolun üstünlükləri və çatışmazlıqları təhlil olunmuş, alınan nəticələrə əsasən optimallaşdırma üzrə təkliflər verilmişdir.

Açar sözlər: Zəngəzur dəhlizi, nəqliyyat, Bir kəmər-bir yol, optimal dəhliz, dəniz yolu

Son 50 il ərzində dünya ticarətində və iqtisadi inkişafında ciddi dəyişiliklər meydana çıxmışdır, yeni şərtlər formalaşmışdır. Bu kardinal dəyişikliklər təbii ki, nəqliyyat sektorunu yan keçə bilməz. Belə vəziyyət Şərq ölkələrinin dünya iqtisadi potensialında payının artması, Çen Xalq Respublikasının dünyanın alternativ gücünə çevrilməsi, həmçinin Cənubi Koreya və Yaponiyanın beynəlxalq iqtisadi potensialda payının xeyli artması, uyğun olaraq Qərb Şərq nəqliyyat koridoru ilə ticarət həcminin artması ilə əlaqədardır.

Bu artım yeni nəqliyyat formalarının yaradılmasını tələb edir. Son zamanlar isə vəziyyət daha daha da gərginləşir. Əvvəllər yüklərin böyük qismi Rusiya ərazisi vasitəsi ilə daşınırdı. Rusiyanın Ukraynaya soxulması problemi daha da ciddiləşdirdi. Rusiya üçün böyük sanksiyalar Rusiya ərazisindən daşınan malların əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxardı. Dünya qlobal və mürəkkəb dəyişikliklər ərəfəsindədir. Azərbaycanın layihəsi olan Zəngəzur dəhlizi bütün reqion dövlətlərini bu yol üzrə Azərbaycana müraciət etməyə məcbur edir. Əsas mərkəz də Azərbaycandı.

Məsələ burasındadır ki, elə bir vəziyyət yaranıb ki, 4 milyard əhalini və 100 milyonlarla ton yük daşımalarını əhatə edən yeni İpək yolu təhlükə qarşısındadır. Şərq ölkələri (Çin, Yaponiya, Koreya, həmçinin İndoneziya, Avstraliya, Hindistan və s.) ilə Avropa arasında böyük həcmdə yük axınını təmin edən yol məhduddur. Hazırkı dövrdə dünyanın ikinci böyük iqtisadi potensialına malik Çin, böyük iqtisadi güc sayılan Cənubi Koreya, Yaponiya, Hindistan və s. mallarının Avropaya daşınması və həmçinin, Avropadan Şərq ölkələrinə göndərilməsi risk altındadır.

Bu istiqamətdə Qərb-Şərq nəqliyyat dəhlizini xüsusi qeyd etmək lazımdır. Qərb-Şərq Nəqliyyat Dəhlizi Avropa və Asiyanı quru və dəniz yolu ilə birləşdirən çox sahəli marşrutlar şəbəkəsidir. Dəhliz iki qitə arasında ticarət, nəqliyyat və tranziti asanlaşdırmaq, həmçinin regional əməkdaşlıq və inteqrasiyanı gücləndirmək məqsədi daşıyır. Dəhliz bir neçə seqmentdən ibarətdir, hər birinin özünəməxsus xüsusiyyətləri və problemləri var.

Dəniz yolu

Yük daşıma üçün ən uyğun yol dəniz yoludur. Şərq ölkələrinin limanlarından Avropaya qədər bütün istiqamətlərdə yük daşımaq mümkündür. Süveyş kanalı Aralıq dənizi ilə Qırmızı dəniz

birləşdirir və dünya ticarət dövriyyəsinin 12%-ni təmin edir. Amma bu yol nə qədər uyğun olsa da çox məhduddur. Əvvəla, dəniz yolu həm çox vaxt aparır (35-60 gün), həm Süveyş kanalına görə buraxılış gücü məhduddur. Süveyş kanalının illik maksimum buraxılış gücü 22 min gəmi ətrafındadır. Bu qədər gəminin keçməsi də problemlidir. Daimi kanalda tıxaclar olur, gəmilər aylarla gözləməli olur. Digər tərəfdən, iri gəmilərin keçməsi problem yaradır. 2023- cü ilin mart ayında Ever Given gəmisi kanalda melin üstünə yatmış və 6 gün bütün kanalın işini dayandırmışdır. İki tərəfdən 4 milyon ton yüklə 422 gəmi bir həftə tıxacda dayanmışdır.[4] Həm də kanalın texniki cəhətdən müasir şərtlərdən çox uzaqdır, texnoloji infrastrukturu çox köhnədir.

Rusiya üzərindən quru yol.

Quru yolu əsasən Rusiyanın ərazisindən keçirdi. Xüsusilə Çin Xalq Respublikası tərəfindən 2013-cü ildən başladılan "Bir kəmər və bir yol" layihəsi əsasən Rusiya ərazisindən keçirdi. 2021-ci ildə bu yolla təqribən 40 milyon ton yük daşınmışdır. Rusiya üzərindən keçən yol çox səmərəli idi və Qərb-Şərq nəqliyyat koridoruna ciddi töhvə verirdi. 2022-ci ildə Rusiyanın işğal məqsədilə Ukraynaya hücumu və müharibənin başlanması vəziyyəti tamamilə dəyişdi. Bununla əlaqədar Rusiyaya tətbiq olunan sanksiyalara görə Çin və Avropa bu daşımaları dayandırdı. Yaxın gələcəkdə bu problemin həllinə ümid yoxdur. Alternativ yol kimi istifadə olunan Gürcüstan vasitəsi ilə Qara dəniz yolu yenə də problemli və təhlükəlidir.

İran üzərindən Şərq-Qərb nəqliyyat dəhlizi

İran ərazisindən keçid üzrə Şərqdən başlayaraq Avropaya çıxış da maraqlıdır və ciddi səmərə verə bilər. Amma İran vasitəsi ilə yol da İrana qoyulan sanksiyalara görə mümkün deyil. G-20 ölkələrinin Hindistanda keçirilən toplantısında bir variant kimi geniş müzakirə olunmuşdur.

G-20 Hindistan toplantısında təklif olunan variant

9 sentyabr 2023-cü ildə Hindistanın Yeni Dehli şəhərində keçirilən G20 sammitində və qlobal infrastrukturun inkişafını artırmaq üçün əlamətdar addım elan edildi (bu həm də Çinin artan rəqabət gücünü və təsirini zəiflətməyə yönəlmişdir). Hindistanın baş naziri Narendra Modi və ABŞ prezidenti Co Bayden Qlobal İnfrastruktur və İnvestisiya üzrə Tərəfdaşlıq (PGII) və Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizinə (IMEC) dair xüsusi tədbirə sədrlik ediblər. G-20 Hindistan Hindistan (Mumbay limanı)- Dubay (dəniz yolu), Səudiyyə Ərəbistanı (quru yolu)- yenidən su yolu layihəsi də baxılmış və qərar verilmişdi.

Görünən odur ki, bu layihə inkişaf etməkdə olan ölkələrdə infrastruktur boşluğunu aradan qaldırmaq və qlobal davamlı inkişaf məqsədlərinə doğru irəliləyişi sürətləndirmək üçün nəzərdə tutulmuş təşəbbüsdür. IMEC Hindistanı Ərəbistan körfəzi regionu ilə birləşdirən şərq dəhlizindən və dəmir yolu və gəmi-dəmir yolu tranzit şəbəkəsi və avtomobil nəqliyyatı marşrutları daxil olmaqla Körfəzi Avropaya birləşdirən şimal dəhlizindən ibarətdir.

Bu təşəbbüs Asiya, Yaxın Şərq və Avropada iqtisadi əlaqələri gücləndirmək və inkişafı dəstəkləmək üçün iştirakçı dövlətlərin strateji səyini ifadə edir. O, həmçinin region ölkələrinə infrastrukturun inkişafı və iqtisadi əməkdaşlıq üçün alternativ təqdim etməklə Çinin "Bir Kəmər və Yol" Təşəbbüsünə (BRI) birbaşa rəqib kimi çıxış edir.

Tərəflərin çıxışlarında fiziki, rəqəmsal və maliyyə əlaqələrin vacibliyi vurğulanaraq, IMEC-in Hindistan və Avropa arasında iqtisadi inteqrasiyanın asanlaşdırılacağı qeyd olunmuşdur.

Bu toplantıda həmçinin İran ərazisindən keçməklə Avropaya çıxış müzakirə olunmuşdur. Amma İran sanksiyaları hələ qüvvədədir, yaxın gələcəkdə də müsbət həll olunması gözlənilmir.

Bir kəmər- bir yol təşəbbüsü (The Belt and Road Initiative -BRI) layihəsi

Bir kəmər- bir yol layihəsi Qərb-Şərq dəhlizinin tərkib hissəsid[5]i. Bu layihə Asiya, Avropa, Afrika və ondan kənarda olan digər ölkələr arasında əlaqəni və əməkdaşlığı yaxşılaşdırmaq üçün 2013-cü ildə Çin Xalq Respublikası tərəfindən təklif olunan qlobal inkişaf strategiyasıdır. BRI-nin iki əsas komponenti var: İpək Yolu İqtisadi Kəməri, yollar, dəmir yolları, boru kəmərləri və digər infrastruktur layihələrinin yerüstü şəbəkəsi; və limanlar, gəmiçilik marşrutları və digər dəniz layihələrinin şəbəkəsi olan 21-ci Əsrin Dəniz İpək Yolu. BRI-nin məqsədi üzv ölkələr arasında ticarət, investisiya, mədəni mübadilə və regional inteqrasiyanı təşviq etməkdir. BRI Çinin xarici siyasətinin mərkəzi hesab olunur və onun dünyada artan gücünü və statusunu əks etdirir. Çin BRI layihələrinə

[4] . https://www.bbc.com/russian/news-56627249)
[5] http://www.beltandroadforum.org/english/

milyardlarla dollar sərmayə qoyub və 150-dən çox ölkə və beynəlxalq təşkilatlarla əməkdaşlıq müqavilələri imzalayıb. BRI həmçinin maraqlı tərəflər arasında dialoq və əməkdaşlıq platforması olan Çinin "Bir kəmər və yol" forumunun (BRF) bir hissəsidir. İlk BRF-forum 2017-ci ildə Pekində, ikincisi 2019-ci ildə keçirilib. Son forum isə bir neçə gün əvvəl 2023-cü ilin oktyabr ayının 18-də Pekində keçirilmişdir. Bu layihə də Rusiya tərəfindən Ukraynanın işğalı ilə əlaqədar heç də müsbət meylli günlərini yaşamır.

TRACECA (Transport Corridor Europe-Caucasus-Asia)

TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) kimi də tanınan TRASEKA Müstəqil Dövlətlər Birliyinə verilən texniki yardım (TACIS) çərçivəsində nəzərdə tutulan layihədir. Avropa İttifaqının dəstəyi ilə həyata keçirilir. Layihə 1993-cü ilin mayında 8 ölkənin (5 Mərkəzi Asiya respublikası, Qazaxıstan və 3 Qafqaz respublikası) iştirakı ilə Brüsseldə keçirilən konfransda qəbul edilmişdir. Avrasiya İpək Yolu ideyası Avropa-Qafqaz-Asiya-TRASEKA nəqliyyat dəhlizində təcəssüm olunub.

TRASEKA-nın məqsədi təkcə konkret iqtisadi maraqlarla məhdudlaşmır, həm də zəngin tarix və mədəniyyətin gələcək üçün qorunub saxlanmasını təmin edir. Bu, TRASEKA-nın keçdiyi ölkələrin iqtisadi inkişafının tərkib hissəsidir və qarşılıqlı inteqrasiya və səmərəli əməkdaşlıq üçün güclü vasitədir.

Avropa İttifaqı əvvəlcədən Rusiya və İranda baş verə biləcək problem görərək bütün ənənəvi marşrutlara əlavə olaraq TRACECA proqramını təklif edirdi. Tərəfdaş ölkələrin də TRASEKA marşrutunu Avropaya alternativ nəqliyyat əlaqəsi kimi strateji əhəmiyyətə malik hesab edirdilər. Hazırda bu proqnozlar doğruldu və real olaraq Qərb-Şərq daşıması və ticarətinin taleyi əsasən bu marşurutun ümidinə qalmışdır. Bu orta nəqliyyat dəhlizi tamamilə Azərbaycandan keçmək məcburiyyətindədir. Hər hansı alternativ yol problemsiz ötüşə bilməyəcək.

Orta Asiya respublikalarından gələn və Azərbaycandan keçən bu yol Avropaya iki istiqamətdə birləşir: Gürcüstan vasitəsi ilə və digər mümkün variant Ermənistan üzərindən. Gürcüstan üzərindən gedən yol ilk vaxtlardan inkişafdadır və istfadə edilir. Buradan da Avropaya çıxış həm Qara dəniz vasitəsilə, həm də Türkiyə üzərindən quru yolları və dəniz limanları ilə Avropanın bütün ölkələrinə gedə bilir. Amma Gürcüstan vasitəsilə keçid imkanları geniş deyil. Bakı Kars dəmir yolu ilə yükdaçıma illik bir milyon tonu keşmir. Azərbaycan lideri İ. Əliyev cənabları bu həcmin 5 milyon tona çatdırılmasını bəyan etmişdi. Bu da problemi həll etmir. Şərqlə Qərb arasında bu nəqliyyat dəhlizinə tələbat bir neçə on milyonluqdur. Bu tələbatı yerinə yetirmək üçün alternativ yollar müəyyən olunmalıdır. Demək olar ki, alternativlər də olduqca məhduddur. Hansı istiqamətə baxılsa yenə də son variant Zəngəzur dəhlizinə gətirib çıxarır.

Hazırda Azərbaycan Respublikasının ərazi vahidlərini bir-biri ilə birləşdirə bilən Cənubi Azərbaycan (İran) dəhlizi yalnız daxili daşımalar üçün istifadə edilə bilər. Çünki, İran sanksiyalar altında olduğuna görə Avropa ölkələri buna heç də müsbət yanaşmayacaq, digər tərəfdən hər zaman olduğu kimi İran Rusiya kimi heç vaxt etibarlı tərəfdaş kimi özünü göstərə bilməmişdir. Buna görə də iri şirkətlər və hətta əksəriyyət dövlətlər bu layihəyə isti yanaşmayacaq. Hətta Azərbaycan Respublikası üçün də bu dəhliz risksiz deyil. Bu dəhlizin Azərbaycan Respublikası üçün yalnız bir üstünlüyü var, hər istiqamətdə bu yol Azərbaycan ərazisindən keçir. Belə bir üstünlük isə yalnız Cənubi Azərbaycanın əsarətdən azad olduqdan sonra səmərəli ola bilər.

Bütün dünyanın gözləri bu dar dəhlizə dayanıb. Azərbaycan prezidenti İ. Əliyev cənabları vəziyyətin bu hala gəlməsini yaxşı bilirdi, ona görə də əsas gücü bu dəhlizin açılmasına yönəltmişdir. Qarabağda bir neçə hava limanının açılması, dəmir yolunun, geniş şosse yollarının inşaatı, rəqəmsal infrastrukturun yaradilması sürətlə həyata keçirilmiş, intensiv siyasi danışıqlar aparılmışdır. Prezidentin tapşırığı ilə respublikasının dəmir yolları uzun müddətdir ki, bu layihə üzərində işləyir, bir sıra ciddi problemlər çıxmasına baxmayaraq xeyli uğurlar əldə olunmuşdur. Son Avropa danışıqları da göstərdi ki, Avropa, həm də Azərbaycanın əlində böyük imkanlar var ki, Ermənistanı məcbur etsin, çünki ikinci variant yoxdur. Ermənistan üçün də bu marşurutun açılması çox böyük imkanlar aça bilər, investisiya axını, on minlərlə yeni işçi yeri, əlavə pul vəsaiti və s.

Amma, dəhlizə Ermənistan da razılıq versə də, başqa problem ortaya çıxacaq. Xəzər dənizindən keçid problemi həm daşımanın maya dəyəri, həm də müddət etibarı ilə əlverişsiz hal alır. Əvvəllər, Çin-Almaniya marşurutu ilə (Rusiya üzərindən) vaqon daşıması 14-15 gün çəkirdi, parom daşınmasında bu rəqəmə nail olmaq mümkün deyil. Məsrəflərə gəldikdə, bir vaqonun paromla

dənizdən keçirilməsi 1200 dollara yaxın pul tələb edir. Dəmir yolları rəhbərliyinin böyük yük daşıma üzrə rəqabətdə Rusiyaya uduzmasının da əsas səbəblərindən biri Xəzər dənizi gəmiçilik idarəsinin belə inhisarçı tarifləri idi . Həm də bu yüklərin hamısının Xəzərdən keçməsi böyük tıxac yaradacaq. Zənn edirəm, artıq indi belə tıxac var.

Bu problemlərin aradan qaldırılması üçün hələ müstəqilliyin ilk illərində hazırladığımız Xəzərin dibi ilə şosse və dəmir yolul çəkilməsi layihəsi böyük əhəmiyyət kəsb edir. O vaxt bu layihə beynəlxalq təşkilatlara qədər gedib çıxmışdı və bəyənilmişdi. Maliyyə mənbələri problemi araşdırılırdı[6]. Bu gün Çin, Yaponiya, Avropa ittifaqı, hətta, ABŞ bu layihəni maliyyələşdirməkdə çox maraqlıdı. Bunun üçün marağı olan ölkələrdən ibarət konsortsium yaratmaq olar. İndi Azərbaycanın bir böyük üstünlüyü də var. Bakı-Kars dəmir yolu hazırdı, Zəngəzur da bir neçə hava limanları var və/və ya tikilir, tıxacı aradan qaldırmaq üçün bu alternativlərdən də istifadə olunacaqdır.

Böyük qələbə, düşünülmüş taktiki gedişlər, düzgün siyasət nəticəsində bu gözəl şərait və şans yaranmışdır. İldə bu yol hesabına ölkəyə bu günkü qeyri-neft ixracından xeyli çox (xidmət ixracı ildə 10 milyardlarla dollar) daxil ola bilər. Bütün ictimaiyyətin diqqəti indi bura yönəlməlidir. Elə bir sistem qurulmalıdır ki, regionda sabitlik yaradıldıqdan sonra da bu ölkələr daha yeni alternativ axtarmasın, bu tranzit həmişəlik burada qalsın. Tarix boyu, liderlər arasında İpək yolu uğurunda mübarizə həmişə kəskin olub. Hazırda bu tranzitin, əsasən, Azərbaycanın əlinə keçməsinə heç bir maneə qalmamışdır.

The research paper discusses the global challenge of organizing transport and trade between the West and East, emphasizing Azerbaijan's crucial role. It explores various potential routes connecting these regions, analyzing their pros and cons, and offers optimization suggestions based on these findings.

Keywords: Zangezur Corridor, transport, One Belt One Road, optimal corridor, sea route

İstifadə olunan ədəbiyyat

1. İmplementatıon Of "East-West" And "North-South"Transport Corrıdors. Huseynova Aynur Kardash kızı. https://www.researchgate.net/publication/358849878_IMPLEMENTATION_OF_EAST-WEST_AND_NORTH-SOUTH_TRANSPORT_CORRIDORS
2. The Belt and Road Initiative Reshaping Economic Geography in Central Asia? By Julia Bird. Mathilde Lebrand, Anthony J. April. 2019. Venableshttps://documents1.worldbank.org/curated/en/836301554729486900/pdf/The-Belt-and-Road-Initiative-Reshaping-Economic-Geography-in-Central-Asia.pdf
3. Lall, Somik V. and Lebrand, Mathilde, (2019) "Who wins, who loses? Understanding the Spatially Differentiated Effects of Belt and Road within Central Asia".
4. Saleh Məmmədov, Azərbaycanın iqtisadi inkişaf proqramı (2000-2050-ci illər), Bakı, 2000. 142 s.
5. East-West Transport Corridor: Issues of Customs and Logistics Infrastructure Development, January 2020. DOI: 10.2991/fred-19.2020.20. Conference: Proceedings of the International Session on Factors of Regional Extensive Development (FRED 2019), LicenseCC BY-NC 4.0, by Roman V FedorenkoRoman V FedorenkoOksana PokrovskayaOksana Pokrovskaya. https://www.researchgate.net/publication/339342761_East-West_Transport_Corridor_Issues_of_Customs_and_Logistics_Infrastructure_Development
6. http://www.beltandroadforum.org/english/
7. https://www.bbc.com/russian/news-56627249)
8. http://www.traceca-org.org/en/about-traceca/

[6] Bax kitab: Saleh Məmmədov, Azərbaycanın iqtisadi inkişaf proqramı (2000-2050-ci illər), Bakı, 2000. 142 s.

AZƏRBAYCANDA REGİONLAR ÜZRƏ MƏŞĞULLUQ GÖSTƏRİCİLƏRİ VƏ ONUN İQTİSADİYYATA TƏSİRİ

SAMIR KƏRIMLI
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat / İqtisadiyyatın Tənzimlənməsi
skerimli3@std.beu.edu.az
Azərbaycan / Sumqayıt

Xülasə

İnkişaf etmiş ölkələrin də təcrübəsi göstərir ki, ölkənin sosial-iqtisadi tərəqqisi regionların iqtisadi inkişafından əhəmiyyətli dərəcədə asılıdır. Regional tərəqqi çoxcəhətli bir prosesdir. Bu sosial-iqtisadi inkişaf prosesinin müxtəlif aspektləri vardır. Bunlara cəmiyyətin müxtəlif strukturlarında dəyişikliklər, milli istehsalın və əhali gəlirlərində artım və s. aid etmək olar. Hər bir ölkədəki dinamik iqtisadi inkişaf məhsuldar qüvvələrin regionlar üzrə səmərəli yerləşdirilməsi, ölkə ərazisindəki iqtisadi və sosial resurslardan düzgün şəkildə istifadə olunması ilk növbədə burada həyata keçirilən iqtisadi siyasətdən və onun düzgün şəkildə reallaşdırılmasından ibarətdir. Əhali məşğulluğunun təmin edilməsi istər inkişaf yolunu keçmiş, istərsə də inkişaf yolunda olan ölkələrdə bir sıra amillərdən asılıdır. Bunlara misal kimi ölkə iqtisadiyyatındakı struktur dəyişiklikəri, sosial-iqtisadi siyasətin tipini, məhsuldar qüvvələrin inkişaf dərəcəsini misal göstərmək olar. Bütün bu deyilənlər, regionlardakı məşğulluq və işsizliyin həll edilməsinin bütünlükdə ölkənin iqtisadi tərəqqisində mühüm rolu olduğunu göstərir.

Açar sözlər: əmək bazarı, məşğulluq, işsizlik, iqtisadi artım, regionlar

Summary

The experience of developed countries also shows that the socio-economic progress of the country depends significantly on the economic development of the regions. Regional development is a multifaceted process. There are various aspects of this socio-economic development process. These include changes in various structures of society, increase in national production and population income, etc. can be attributed. The dynamic economic development in each country consists of the effective deployment of productive forces in the regions, the correct use of economic and social resources in the country, first of all, the economic policy implemented here and its proper implementation. Ensuring the employment of the population depends on a number of factors, both in developed and developing countries. Examples of these include structural changes in the country's economy, the type of socio-economic policy, and the degree of development of productive forces. All this shows that the solution of employment and unemployment in the regions has an important role in the economic progress of the country as a whole.

Keywords: labor market, employment, unemployment, economic growth, regions

Резюме

Опыт развитых стран также показывает, что социально-экономический прогресс страны в значительной степени зависит от экономического развития регионов. Региональное развитие – многогранный процесс. Существуют различные аспекты этого процесса социально-экономического развития. К ним относятся изменения в различных структурах общества, рост национального производства и доходов населения и т.д. можно отнести. Динамичное экономическое развитие каждой страны состоит из эффективного размещения производительных сил в регионах, правильного использования экономических и социальных ресурсов страны, прежде всего, реализуемой здесь экономической политики и ее правильной реализации. Обеспечение занятости населения зависит от ряда факторов, как в развитых, так и в развивающихся странах. К ним относятся структурные изменения в экономике страны, тип социально-экономической политики, степень развития производительных сил. Все это показывает, что решение проблемы занятости и безработицы в регионах имеет важную роль в экономическом прогрессе страны в целом.

Ключевые слова: рынок труда, занятость, безработица, экономический рост, регионы.

Giriş

Bildiyimiz kimi, insanların rifah halının yaxşılaşdırılması, əhali gəlirlərinin artırılması iqtisadi tərəqqinin əsas şərtlərindən biridir. Buna isə səmərəli məşğulluq ilə nail olmaq olar. Səmərəli məşğulluq işə tələbatla iş təklifi arasındakı tarazlığı göstərir bu isə son nəticədə sosial-iqtisadi tərəqqi üçün münbit zəmin hazırlayır. Məşğulluğun aşağı səviyyədə olması kəskin sosial-iqtisadi problemlərə səbəb olur. Burada yaranan destruktiv nəticələrin aradan qaldırılması üçün bazara qismən də olsa dövlət tənzimlənməsinin tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Burada dövlətin rolu qanunvericiliklə iqtisadi subyektlər arasındakı münasibətləri tənzimləmək, əhalinin təhsil və peşə hazırlığını təşkil etmək, sahibkarlıqla məşğul olanlara və sahibkarlıqla məşğul olmaq istəyənlər üçün güzəştlər və.s tətbiq etməkdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, işsizliyin aşağı salınmasına yönəldilmiş tədbirlər həmçinin sosial sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Məşğulluğun səviyyəsi təkcə ölkədə yaradılan təsərrüfat formalarının müxtəlifliyi və onların fəaliyyətindən asılı deyil. Burada həmçinin yeni ixtisaslı kadrların hazırlanması, onların öz ixtisaslarına uyğun iş yerləri ilə təmin edilməsi mühüm məsələlərdəndir. Bazar münasibətləri şəraitində bu sistem insanların sosial müdafiəsinə, müxtəlif təsərrüfatçılıq formalarında işçilərin zamanla ixtisasının artmasına zəmin yaradır. Bu isə müasir dövrün obyektiv tələbi kimi özünü göstərir. Bazar iqtisadiyyatı şəraitində işsizliyin normal səviyyəsi xarakterik cəhətlərdən biridir. İşsizliyə səbəb bir neçə faktor ola bilər. Bunlardan biri isə iqtisadi böhranlardır. Bazar iqtisadiyyatında iqtisadi böhranlar müxtəlif səbəblərdən baş verə bilər. Son nəticədə isə bu işsizliyin yaranmasına gətirib çıxaran ən mühüm faktorlardan biridir. Bu böhranların nəticəsi olacaq iqtisadi subyetklərin öz fəaliyyətini dayandırması və ya tam gücləri ilə işləməmələri səbəbindən aşağı səviyyədə məhsul istehsal etmək və xidmətlər göstərmək adi hala çevrilir. Bu isə əhali gəlirlərinin aşağı düşməsinə səbəb olur. Bunun nəticəsi olaraq isə əhalinin əksər hissəsi yalnız dövlət tərəfindın ödənilən müavinətlərdən asılı olaraq yaşayır [2].

Regionların inkişafın yeni mərhələyə yüksəlməsində bu qanunların mühüm rolu olmuşdur. Bu proqramların qəbulunda əsas məqsəd regionlardakı əmək ehtiyatlarından, mövcud iqtisadi və təbii resurslardan səmərəli şəkildə istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun daha da inkişafına nail olmaq, aqrar sahədə həyata keçirilən islahatları daha da təkmilləşdirmək, işsizliyi və yoxsulluğu azaltmaq, əhalini məşğulluğunu səmərəli şəkildə artırmaq, yeni iş yerləri yaratmaq olmuşdur. Əmək ehtiyatlarının məşğulluğunun təmin olunması və onun optimal strukturunun formalaşması əsas makroiqtisadi problemlərdən biridir. Məşğulluq bir tərəfdən demoqrafik amillərdən, digər tərəfdən isə makroiqtisadi amillərdən asılı olan göstəricidir. Çalışmaq istəyənlərin məşğulluq orqanlarına cəlb edilməsi bir tərəfdən sosial mənafeləri qarşılasa da digər tərəfdən iqtisadi verimliliklə təzad təşkil edir və sonda bu verimlilik məşğulluğun aşağı düşməsi ilə sonlanır. Bundan başqa əvvəlcə də qeyd edildiyi kimi, işsizliyin artması həm ölkə səviyyəsində həm də fərdi olaraq iqtisadi zərərlərə səbəb olur.

Azərbaycanın iqtisadi vəziyyətinin məşğulluğa təsiri

Əmək bazarı digər bazarlara görə müxtəliflik təşkil edir. Belə ki, digər bazarlar variativ olmaqla yanaşı balanslı tarazlığa meyl göstərirlər. Əmək bazarında isə bu tarazlı hal müvəqqətidir. Belə ki, bu tarazlıq işçi qüvvəsinin təklifinin çoxalması ilə pozulur. Bu zaman ,təklif tələbdən çox olduğu üçün işçilərin iş yerində saxlanılması üçün motiv olmur, səbəbi isə onların asan bir şəkildə başqa bir işçi ilə əvəz edilə biləcək olmasıdır. Əks halda, yəni tələb təklifdən çox olduqda işçilər avantaj əldə edirlər. Onlar əmək haqqı səviyyəsinə təsir göstərə və ya iş şərtlərinin dəyişilməsi üçün söz haqqı sahibi olurlar [1].



Diaqram 1. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi prosesinin tədbirlər bloku

İlkin olaraq dövlətin makroiqtisadi siyasətinə iqtisadi tərəqqinin və iqtisadiyyatda tarazlığın təmin edilməsi aiddir. Bunun üçün əmək bazarında pozitiv effekt yarada biləcək layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bu iqtisadi tərəqqi əldə etməyə istiqamətlənmiş investisiya, antiböhran və s. siyasətlərin həyata keçirilməsindən ibarətdir. İnvestisiya siyasəti gerçəkləşdirilən zaman dövlət inkişafı ölkə üçün vacib olan sahələrə pul yatırımları etməsi üçün sərmayəçiləri cəlb etmək məqsədilə dolayı təsir metodları tətbiq edə bilər. Antiböhran siyasəti zamanı krizislərin qabaqcadan qabağının alınmasına və ya onların təsirinin azaldılmasına, həmçinin baş verən böhrandan xilas olmaq üçün layihələrin reallaşdırılmasına istiqamətlənir. İkinci istiqamət məşğulluğun tənzimlənməsi proseslərini əhatə edir. Bu proses əmək qabiliyyətinə malik insanların məşğulluğa cəlb edilməsi, əmək məhsuldarlığının artırılması, işçi qüvvəsinin tələbi ilə təklifinin uzlaşdırılmasına səy göstərilməsini əhatə edir. Məşğulluq həm iqtisadi, həm də sosial kateqoriya olduğu üçün məşğulluğun tənzimlənməsi zamanı hər iki sahədə məqsədlərin ən yaxşı şəkildə reallaşdırılması mühümdür. Yəni ki, burada tələb olunan istehsal prosesinin və əhalinin inkişafı üçün görülən tədbirlərin uyğunlaşdırılmasıdır. Dövlət isə iqtisadi tərəqqi və əmək qabiliyyətinə malik şəxslərin maksimum dərəcədə işlə təmin edilməsinə nail olmalıdır. Məşğulluğu tənzimləmək üçün digər bir istiqamət iş qüvvəsi tələbi ilə təklifinin uzlaşdırılmasıdır. Bunun üçün işləyən əhalinin ixtisasartırma kurslarından və texnikipeşə hazırlığı keçməsi, öz ixtisasını daha da artırması vacib şərtdir [3].



Diaqram 2. Əmək bazarında tələb və təklifin uzlaşdırılması sahəsində dövlətin əsas rolu

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004 − 2008-ci, 2009 − 2013-cü və 2014 − 2018-ci illər)"-nın uğurlu şəkildə tətbiq edilməsi nəticəsində ölkədə makroiqtisadi göstəricilərdə yüksəliş olmuş, sosial-iqtisadi inkişaf üçün nəzərdə tutulan işlərin uğurla həyata keçirilməsi nəticəsində iqtisadi firavanlıq xeyli yüksəlmişdir.

Ölkəmizdə hal-hazırda həlli vacib sayılan problemlərdən biri də regionların sosial-iqtisadi cəhətdən inkişafının daha da artırılması, regionlar arasında mövcud olan və özünü kəskin şəkildə biruzə verən fərqlərin aradan qaldırılması və regionlarda səmərəli məşğulluğa nail olunmasıdır. Təcrübələrə əsasən deyə bilərik ki, regionların sosial-iqtisadi cəhətdən inkişafı hər bir ölkənin bu yöndə olan tərəqqisinin mühüm bir göstəricisidir. Bu nöqteyi-nəzərdən, regionların sosial-iqtisadi cəhətdən inkişafı dövlətin iqtisadi prioritetləri arasında mühüm yer tutur. 2023 – cü il üzrə regionların məşğulluq səviyyəsini aşağıdakı diaqramda nəzərdən keçirə bilərik.



Diaqram 3. 2023-cü ilin yanvar ayının 1- i vəziyyətinə iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə məşğul əhalinin iqtisadi fəaliyyət növləri bölgüsündə sayı, min nəfər

Mütəqillik qazandıqdan sonra ölkəmizin bazar iqtisadiyyatı yolunu seçməsilə ənənəvi təsərrüfat əlaqələrinin dağılması, dövlət tənzimlənməsinin lazımınca yerinə yetirilməməsi, investisiyaların əsasən neft sektoruna yatırılması ən əsası isə qıt maliyyə qaynaqlarının əsasən Bakı və onun ətraf ərazilərinə yönəldilməsi nəticəsində bu ərazilər inkişaf edərkən digər regionlar bu inkişafdan kənarda qalmışdı. Əldə edilən məlumatlara əsasən ölkə ərazisində istehsal olunan ÜDM-nin və milli gəlirin 80%-ə yaxını, dövlət büdcəsinə ödənilmiş məbləğlərin 85% −ə qədərini, KOS subyektlərinin isə 70%-indən çoxu Baki və Sumqayıt regionlarının payına düşmüşdür.

Sosial-iqtisadi cəhətdən bu regionun digərlərindən daha çox inkişaf etməsi, ictimai-iaşə, sənaye obyektləri, infrastrukturların bu sahədə daha çox yerləşməsi digər regionlardan əhalinin bura axınına səbəb olur. İşsizliyin yüksək səviyyəsinə görə əhalinin miqrasiyası hələ də davam edir. Təkcə ölkədaxili deyil xaricə də miqrasiya baş verir. Bu isə təbii olaraq rayonlarda əmək resurslarının azalmasına, regionun potensialından səmərəli şəkildə istifadə olunmasına əngəl törədir. Bütün bunlar regionlararası inkişaf arasında kəskin uçurumlar yaradır. Bu isə ümumilikdə ölkə iqtisadiyyatına öz mənfi təsirini göstərir.

İqtisadi sektorların məşğulluğa təsirinin empirik təhlili

Biz iqtisadi sektorların xüsusilə də ÜDM-nin məşğulluğa təsirini təhlil etmək üçün qeyd etdiyimiz göstəricilər arasında reqressiya təhlili qurmuşuq. Həmin analizdı istifadə olunacaq statistik göstəricilərlə aşağıdakı cədvəldə tanış ola bilərik.

Cədvəl 1. Təhlil üçün seçilmiş statistik məlumatlar

İllər	ÜDM	Məşğul əhalinin sayı	Işsiz əhalinin sayı
2005	12522,5	4062,3	317,8
2006	18746,2	4110,8	291,2
2007	28360,5	4162,2	281,1
2008	40137,2	4215,5	262,2
2009	35601,5	4271,7	260,2
2010	42465,0	4329,1	258,3
2011	52082,0	4375,2	250,9
2012	54743,7	4445,3	243,1
2013	58182,0	4521,2	236,6
2014	59014,1	4602,9	237,8
2015	54380,0	4671,6	243,7
2016	60425,2	4759,9	252,8
2017	70337,8	4822,1	251,7
2018	80092,0	4879,3	253,8
2019	81896,2	4785,6	252,1
2020	72578,1	4721,2	368,7
2021	93203,2	4831,1	310,5
2022*	133825,8	4901,1	293,3

Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

Reqressiya analizi — bir və ya bir neçə asılı olmayan dəyişənin digər asılı dəyişənə təsirinin statistik analiz üsulu. Məqsədi bir asılı olan, və bir və ya bir neçə asılı olmayan dəyişənlər arasındakı münasibəti araşdırmaqdır. Burada asılı dəyişənlərin sistematik təsiri nəticəsində asılı olmayan dəyişənlərin özlərini aparmasını izah etmək və onları təsadüfi təsirlərdən ayırd etmək əsas məsələlərdəndir. Asılı olmayan dəyişənlərə reqressorlar və ya prediktorlar, asılı olan dəyişənlər isə kriterial dəyişənlər adlanır. Tədqiqatda yalnız riyazi asılılıq nəzərdə tutulur.

Bizim təhlilimiz reqressiya analizidir və burada ÜDM asılı dəyişən, məşğul əhalinin sayı isə əsas dəyişəndir. Analiz nəticələrinə aşağıdakı cədvəldə nəzər sala bilərik.

Cədvəl 2. Reqressiya analizi nəticələri

	A	B	C	D	E	F	G	H	I
1	SUMMARY OUTPUT								
2									
3	*Regression Statistics*								
4	Multiple R	0,864584261							
5	R Square	0,747505944							
6	Adjusted R Squar	0,730673007							
7	Standard Error	139,4233725							
8	Observations	17							
9									
10	ANOVA								
11		*df*	*SS*	*MS*	*F*	*Significance F*			
12	Regression	1	863228,7927	863228,7927	44,40733904	7,55887E-06			
13	Residual	15	291583,152	19438,8768					
14	Total	16	1154811,945						
15									
16		*Coefficients*	*Standard Error*	*t Stat*	*P-value*	*Lower 95%*	*Upper 95%*	*Lower 95,0%*	*Upper 95,0%*
17	Intercept	4032,284589	85,18178529	47,33740406	9,52415E-18	3850,723911	4213,845267	3850,723911	4213,845267
18	12522,5	0,008548609	0,001282827	6,66388318	7,55887E-06	0,005814328	0,01128289	0,005814328	0,01128289

22	RESIDUAL OUTPUT					PROBABILITY OUTPUT	
23							
24	*Observation*	*Predicted 4062,3*	*Residuals*	*tandard Residuals*		*Percentile*	*4062,3*
25	1	4192,53853	-81,73853005	-0,605488085		2,941176471	4110,8
26	2	4274,727425	-112,5274251	-0,833560563		8,823529412	4162,2
27	3	4375,401833	-159,9018331	-1,184492242		14,70588235	4215,5
28	4	4336,627906	-64,9279056	-0,480961343		20,58823529	4271,7
29	5	4395,301286	-66,20128602	-0,490394064		26,47058824	4329,1
30	6	4477,513262	-102,3132624	-0,757897913		32,35294118	4375,2
31	7	4500,267096	-54,96709592	-0,407175436		38,23529412	4445,3
32	8	4529,65978	-8,45977952	-0,062666844		44,11764706	4521,2
33	9	4536,773077	66,12692262	0,489843208		50	4602,9
34	10	4497,157967	174,4420333	1,29220054		55,88235294	4671,6
35	11	4548,83602	211,0639799	1,563482056		61,76470588	4721,2
36	12	4633,574965	188,5250347	1,396522083		67,64705882	4759,9
37	13	4716,959811	162,3401891	1,202554661		73,52941176	4785,6
38	14	4732,383212	53,21678811	0,394209819		79,41176471	4822,1
39	15	4652,726415	68,4735851	0,507226395		85,29411765	4831,1
40	16	4829,042338	2,057661942	0,015242381		91,17647059	4879,3
41	17	5176,309077	-275,2090771	-2,038644652		97,05882353	4901,1

Cədvəl nəticələrindən gördüyümüz kimi R kvadrat dəyəri 0.74 olmuşdur, yəni 1-ə yaxın dəyərdir bu bizim analizimizin doğruluğunu sübut edir. Bundan başqa F dəyəri (44.4), anlamlı F ($7.55E^{-06}$) dəyərindən böyük olduğu üçün deyə bilərik ki həqiqətən də asılı dəyişənlər sabit dəyişənlərin dəyişməsi ilə dəyişirlər.

Cədvəldə T-testinin dəyərlərinin 0-dan böyük olması analizimizin doğruluq payını yüksəldir və seçdiyimiz illər aralığında həqiqətən də təhlilimizin mənalı olduğunu bildirir. Bildiyimiz kimi biz təhlillərimizdə P dəyərimizin 0.05-dən böyük olmağını istəyirik ki, apardığımız təhlilin mənalılığı yüksəlsin. Bizim cədvəldə də P dəyəri 0.05-dən böyükdür yəni bu bizim təhlilimizin mənalı olduğunu göstərir. Bundan başqa biz analiz nəticələrimizin təhlilinə diaqram olaraq aşağıda nəzər sala bilərik.



Diaqram 4. Reqressiya analizinin diaqramlarla təsviri

Həmçinin biz seçdiyimiz parametrlər arasında korrelyasiya asılığını da təyin edə bilərik. Bildiyimiz kimi korrelyasiya təhlili dəyişənlər arasında əlaqənin istiqamətini və ölçüsünü göstərən əmsaldır. Bu əmsal (-1) və (+1) arasında qiymət alır. Müsbət dəyərlər birbaşa xətti əlaqəni göstərir; Mənfi dəyərlər tərs xətti əlaqəni göstərir. Əgər korrelyasiya əmsalı 0 olarsa, sözügedən dəyişənlər arasında xətti əlaqə yoxdur.

Cədvəl 3. Korellasiya analizi nəticələri

	A	B	C	D
1		*ÜDM*	*Məşğul əhalinin sayı*	*Işsiz əhalinin sayı*
2	ÜDM	1		
3	Məşğul əhalinin sayı	0,886382186	1	
4	Işsiz əhalinin sayı	0,061718472	-0,049827755	1

Cədvəldən də gördüyümüz kimi bizim seçdiyimiz parametrlər arasında xətti asılılıq mövcuddur. Çünki aldığımız qiymətlər -1 və +1 arasındadır.

Nəticə

Sonda onu qeyd edə bilərik ki, məşğulluq əmək bazarının formalaşmasında mühüm rola malik olmaqla birlikdə iqtisadi sektorların tənzimlənməsində və ümumidaxili məhsulun dinamikasında da güclü təsirə malikdir. Bizim həyata keçirdiyimiz təhlildən də gördüyümüz kimi, məşğulluğun illər üzrə dəyişməsi ümumi daxili məhsulun dinamikasına təsir edir. Biz bu nəticəni statistic olaraq təhlil etdik və diaqramlarla asılılığı göstərdik.

Ədəbiyyat

1. Adams, Z., & Deakin, S. (2014). Institutional solutions to precariousness and inequality in labour markets. *British Journal of Industrial Relations*, *52*(4), 779–809.10.1111/bjir.2014.52.issue-4

2. Alberti, G., Holgate, J., & Tapia, M. (2013). Organising migrants as workers or as migrant workers? Intersectionality, trade unions and precarious work. *The International Journal of Human Resource Management*, *24*(22), 4132–4148.10.1080/09585192.2013.845429

3. Aslan, H. ve Aslan, M. (2017). "Uzun Süreli İşsizlik ve Etkileri Üzerine Karşılaştırmalı Bir Analiz", Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi, sayı: 4, s. 103-132.

4. Bacon, N., Wright, M., Ball, R., & Meuleman, M. (2013). Private equity, HRM, and employment. *The Academy of Management Perspectives*, *27*(1), 7–21.10.5465/amp.2012.0130

5. Bamber, G. J., Lansbury, R. D., Wailes, N., & Wright, C. F. (2015). *International and comparative employment relations: National regulation, global changes*. London: Sage.

6. Azərbaycan Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

MÜASİR QLOBAL İQTİSADİYYATDA BAZAR İNFRASTRUKTURUNUN HƏLLEDİCİ ROLU

SAMİRƏ MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universiteti
Marketinq kafedrası
samira.mammadova64@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu tədqiqat tədqiqatı bazar infrastrukturunun mürəkkəb sahəsini araşdırır, onun təkamülü, komponentləri və qlobal iqtisadiyyata təsiri haqqında hərtərəfli anlayışı təmin etmək məqsədi daşıyır. Maliyyə bazarlarının getdikcə bir-birinə bağlı olduğu və texnoloji tərəqqinin təsirinə məruz qaldığı bir dünyada bazar infrastrukturunun tədqiqinin aktuallığı hər şeydən üstündür. Bu tədqiqatın məqsədi bazar infrastrukturunun çoxşaxəli aspektlərini açmaq, onun tarixi təkamülünü, texnoloji uyğunlaşmaları və iqtisadi inkişafda oynadığı mühüm rolu araşdırmaqdır. Sistematik təhlil vasitəsilə tədqiqat müasir bazar strukturları ilə əlaqəli problemlər və imkanlar haqqında nüanslı perspektiv təklif edərək, mövcud biliklər toplusuna dəyərli fikirlər verməyə çalışır. Elmi yenilik blokçeyn və süni

intellekt kimi inkişaf etməkdə olan texnologiyaların tədqiqi ilə yanaşı, bazarın bütövlüyünü tənzimləyən tənzimləyici çərçivələrin araşdırılmasına da daxildir. Tədqiqat tarixi perspektivləri müasir tendensiyalarla sintez edərək, bazar infrastrukturunun dinamikasının vahid görünüşünü təmin edərək, anlaşmadakı boşluqları aradan qaldırır. Bu tədqiqatın praktiki əhəmiyyəti onun siyasətçiləri, bazar iştirakçılarını və tənzimləyiciləri bazar strukturlarının optimal dizaynı və idarə edilməsi haqqında məlumatlandırma potensialındadır. Tədqiqat bazar infrastrukturunun mürəkkəbliklərini üzə çıxarmaqla, şəffaf, səmərəli və möhkəm maliyyə bazarlarını inkişaf etdirmək üçün qərar qəbul edənlərə istiqamət vermək məqsədi daşıyır. Tədqiqatın üstünlükləri arasında mübadilələrdən tutmuş ödəniş sistemlərinə qədər bazar infrastrukturunu formalaşdıran komponentlərin strukturlaşdırılmış tədqiqi və bazarın tənzimlənməsində transsərhəd ticarət və beynəlxalq əməkdaşlığın asanlaşdırdığı qlobal qarşılıqlı əlaqənin dərin təhlili daxildir. Bu tədqiqatın nəticələrinin təkcə akademik diskursa deyil, həm də qlobal maliyyə bazarlarının dinamik mənzərəsini seyr edən maraqlı tərəflər üçün hərəkətə keçə bilən fikirlər təqdim edəcəyi gözlənilir.

AÇAR SÖZLƏR: bazar infrastrukturu, qlobal qarşılıqlı əlaqə, texnoloji irəliləyişlər

SUMMARY

This research study explores the complex field of market infrastructure, aiming to provide a comprehensive understanding of its evolution, components and impact on the global economy. In a world where financial markets are increasingly interconnected and influenced by technological progress, the relevance of market infrastructure research is paramount. The purpose of this study is to reveal the multifaceted aspects of market infrastructure, to examine its historical evolution, technological adaptations, and the important role it plays in economic development. Through systematic analysis, the study seeks to add valuable insights to the existing body of knowledge by offering a nuanced perspective on the challenges and opportunities associated with contemporary market structures. Scientific innovation includes exploring emerging technologies such as blockchain and artificial intelligence, as well as examining regulatory frameworks governing market integrity. The research bridges gaps in understanding by synthesizing historical perspectives with contemporary trends, providing a holistic view of market infrastructure dynamics. The practical importance of this research lies in its potential to inform policymakers, market participants, and regulators about the optimal design and management of market structures. The research aims to guide decision makers to develop transparent, efficient and robust financial markets by uncovering the complexities of market infrastructure. Research strengths include a structured examination of the components that make up market infrastructure, from exchanges to payment systems, and an in-depth analysis of the global interactions facilitated by cross-border trade and international cooperation in market regulation. The results of this study are expected to provide actionable insights not only to academic discourse but also to stakeholders watching the dynamic landscape of global financial markets.

KEYWORDS: market infrastructure, global interaction, technological advances

GİRİŞ

Qlobal iqtisadiyyatın daim inkişaf edən mənzərəsində bazar infrastrukturu ticarət, investisiya və maliyyə sabitliyinin dinamikasının formalaşmasında mühüm rol oynayır. Bu tədqiqat bazar infrastrukturunun çoxşaxəli aspektlərini araşdırır, onun əhəmiyyətini, təkamülünü və bugünkü bir-biri ilə əlaqəli iqtisadi sistemlərə təsirini açmaq məqsədi daşıyır. Bu giriş vasitəsilə biz oxucuya məqsəd və vəzifələr, aktuallıq, elmi yenilik, praktiki əhəmiyyət, metod və metodologiya və bu tədqiqatın mövcud elmi ədəbiyyat daxilində ümumi yerləşdirilməsi barədə fikirlər təqdim edən yol xəritəsi təqdim edirik.

1. Tədqiqatın aktuallığı və əhəmiyyəti. Maliyyə və ticarətin bir-birinə bağlı dünyasında bazar infrastrukturu müxtəlif aktiv sinifləri üzrə əməliyyatları dəstəkləyən və tənzimləyən əsas rolunu oynayır. Biz bugünkü qlobal iqtisadiyyatın mürəkkəbliklərini gəzdikcə, bazar infrastrukturunun incəliklərini dərk etmək vacib olur. Bu tədqiqat onun oynadığı kritik rola işıq salır, onun iqtisadi artımın təşviqində, bazar bütövlüyünün təmin edilməsində və resursların səmərəli bölüşdürülməsindəki aktuallığını vurğulayır.

2. Tədqiqata ehtiyac. Sürətli texnoloji irəliləyişlər və getdikcə bir-birinə bağlı olan qlobal maliyyə sistemi fonunda bazar infrastrukturunun mövcud vəziyyətini hərtərəfli təhlil etmək və anlamaq üçün aktual ehtiyac var. Bu tədqiqat, tamamlanmış işlərə əsaslanaraq və əlavə kəşfiyyat tələb edən müvafiq

məsələləri vurğulayaraq, mövcud bilik boşluqlarını aradan qaldırır. Bununla biz bazar strukturu, idarəetmə və tənzimləyici çərçivələr ətrafında davam edən müzakirələrə töhfə veririk.

3. Tədqiqatın məqsədləri. Tədqiqat bazar infrastrukturunun təkamülünü, komponentlərini, tənzimləmə mənzərəsini və texnologiyanın transformativ təsirini tədqiq etməklə onun incəliklərini başa düşməyə nail olmaq məqsədi daşıyır. Bu aspektlərin sistematik tədqiqi vasitəsilə biz təkcə mövcud biliklər toplusuna əlavə olunmayan, həm də bazar iştirakçıları, siyasətçilər və tənzimləyicilər üçün praktiki nəticələr verən anlayışları aşkar etməyə çalışırıq.

4. Tədqiqatın strukturu. Oxucuya bazar infrastrukturunun hərtərəfli tədqiqi yolu ilə rəhbərlik etmək üçün bu tədqiqat ayrı-ayrı başlıqlarda strukturlaşdırılmışdır. Hər bir başlıq əsas aspektə diqqət yetirir, tarixi perspektivlərdən tutmuş gələcək dünyagörüşünə qədər uzanan vahid struktur qurur. Sonrakı başlıqlarda bazar infrastrukturunun təkamülü, onun ayrılmaz komponentləri, tənzimləmə mexanizmləri, qlobal qarşılıqlı əlaqə, texnoloji təsirlər və onun iqtisadi inkişafda oynadığı rol araşdırılacaqdır. Bu strukturlaşdırılmış yanaşma bugünkü qlobal iqtisadiyyatda bazar infrastrukturunun incəlikləri haqqında vahid perspektiv təklif edərək, mövzunun hərtərəfli araşdırılmasını təmin edir.

TƏDQİQAT METODU

Bazar infrastrukturunun təkamülü

Bazar infrastrukturunun kökləri mütəşəkkil ticarətin ən erkən formalarına gedib çıxır, burada tacirlər və tacirlər mal və xidmətlərin mübadiləsi üçün fiziki yerlərdə toplaşırdılar. Əsrlər boyu bazarlar açıq hava bazarlarından 1602-ci ildə yaradılmış Amsterdam Fond Birjası kimi mürəkkəb ticarət məkanlarına çevrilərək maliyyə bazarlarının rəsmiləşdirilməsində mühüm mərhələni qeyd etmişdir. Sonradan London, Paris və digər iri şəhərlərdə birjaların yaranması standartlaşdırılmış ticarət təcrübələrini və tənzimləyici çərçivələri tətbiq etməklə müasir bazar infrastrukturunun əsasını qoydu.

İqtisadiyyatlar genişləndikcə və qloballaşdıqca, bazar infrastrukturu bir-biri ilə əlaqəli dünyanın tələblərinə uyğunlaşdı. 20-ci əsr fiziki ticarət mərtəbələrindən asılılığı azaldan elektron ticarət sistemlərinin yüksəlişinin şahidi oldu. Telekommunikasiya şəbəkələrinin yaranması təkamülü daha da sürətləndirdi, real vaxt rejimində məlumatın yayılmasına və böyük məsafələrdə sifarişlərin icrasına imkan verdi. Bazar infrastrukturunun tarixi trayektoriyası bazar iştirakçıları arasında etimadı gücləndirmək üçün səmərəlilik, şəffaflıq və tənzimləyici nəzarət üçün davamlı axtarışları əks etdirir (Henckel & McKibbin, 2010).

20-ci əsrin ikinci yarısında və 21-ci əsrdə texnoloji irəliləyişlər bazar infrastrukturunu yeni dövrə sürüklədi. Kompüterləşdirilmiş ticarət sistemlərinin, alqoritmik ticarətin və elektron rabitə şəbəkələrinin tətbiqi maliyyə əməliyyatlarının sürəti və səmərəliliyində inqilab etdi. Blokçeyn texnologiyası, ənənəvi klirinq və hesablaşma sistemlərinə meydan oxuyan əməliyyatlar üçün mərkəzləşdirilməmiş və təhlükəsiz kitablar təklif edən pozucu qüvvə kimi ortaya çıxdı.

Süni intellekt və maşın öyrənməsinin inteqrasiyası risklərin idarə edilməsi, fırıldaqçılığın aşkarlanması və proqnozlaşdırılan analitika üçün mürəkkəb alətlər təqdim edərək bazar infrastrukturunu daha da təkmilləşdirdi. Bulud hesablamaları miqyaslana bilən və çevik infrastruktur həllərinə imkan yaradıb, xərcləri azaldıb və əlçatanlığı artırıb. Bu gün bazar infrastrukturu dinamik və bir-biri ilə əlaqəli gələcək üçün zəmin yaradan maliyyə və texnologiyanın davamlı yaxınlaşması ilə formalaşan sürətlə inkişaf etməyə davam edir (Henckel & McKibbin, 2010).

Bazar infrastrukturunun komponentləri

1. Birjalar.

Fond birjaları maliyyə bazarlarının episentri kimi xidmət edir, burada açıq siyahıya alınmış şirkətlərin səhmlərinin alınıb-satılması həyata keçirilir. Qiymətli kağızların səmərəli mübadiləsini asanlaşdırmaq üçün yaradılan birjalar şəffaflıq və ədalətliliyi təmin etməklə tənzimlənən platforma təqdim edir. Nyu-York Fond Birjası və London Fond Birjası kimi məşhur qurumlar qlobal maliyyə bazarlarının formalaşmasında mühüm rol oynayıblar.

2. Əmtəə birjaları.

Əmtəə birjaları qiymətli metallar, kənd təsərrüfatı məhsulları və enerji resursları kimi malların ticarəti üçün ixtisaslaşmış platformalardır. Bu birjalar istehsalçıların, istehlakçıların və möhtəkirlərin qiymətlərin aşkarlanması və risklərin idarə edilməsi ilə məşğul ola biləcəyi standart bazarı təmin edir. Görkəmli nümunələr arasında fyuçerslər və mallar üzrə opsionlar üçün Çikaqo Ticarət Birjası daxildir (Du və b., 2022).

3. Kriptovalyuta birjaları.

Rəqəmsal aktivlərin artması ilə kriptovalyuta birjaları maliyyə mənzərəsinin əsas oyunçuları kimi meydana çıxdı. Bu platformalar Bitcoin və Ethereum kimi rəqəmsal valyutaların alışını, satışını və ticarətini asanlaşdırır. Kriptovalyuta birjaları mərkəzləşdirilməmiş və sürətlə inkişaf edən bazara qlobal çıxışa imkan verən 24/7 fəaliyyət göstərir.

Klirinq və hesablaşma sistemləri ticarət həyata keçirildikdən sonra aktivlərin rəvan və təhlükəsiz köçürülməsini təmin edən pərdəarxası mexanizmlərdir. Klirinq əməliyyatların təsdiqini, hesablaşmasını və təsdiqini, hesablaşma isə aktivlərin və vəsaitlərin faktiki mübadiləsini nəzərdə tutur. Mərkəzi kontragentlər qarşı tərəf riskinin azaldılmasında, maliyyə əməliyyatlarının bütövlüyünün təmin edilməsində həlledici rol oynayır.

Elektron Fond Köçürmə sistemləri maliyyə institutları arasında pulun elektron hərəkətini asanlaşdırır. Buraya pul köçürmələri, avtomatlaşdırılmış klirinq mərkəzi əməliyyatları və digər rəqəmsal ödəniş üsulları daxildir. Elektron Fond Köçürmə sistemləri əmək haqqının işlənməsindən tutmuş onlayn alış-verişə qədər müxtəlif əməliyyatları dəstəkləyərək maliyyə ekosisteminin iştirakçıları arasında vəsaitlərin problemsiz transferini dəstəkləyir (Buhr, 2009).

Rəqəmsal cüzdanlar rəqəmsal dövrdə getdikcə daha çox yayılıb, istifadəçilərə maliyyə aktivlərini saxlamaq və onlarla əməliyyatlar aparmaq üçün rahat və təhlükəsiz vasitələr təqdim edir. Bu pul kisələri ənənəvi valyutalar və ya kriptovalyutaları saxlaya bilər və onlayn alışlar, həmyaşıdlar arası köçürmələr və kontaktsız ödənişlər üçün istifadə olunur. Populyar nümunələrə PayPal, Apple Pay və Coinbase kimi kriptovalyuta cüzdanları daxildir.

Bazarın dürüstlüyünün və səmərəliliyinin təmin edilməsi

Bazarın bütövlüyü və səmərəliliyinin təməli möhkəm tənzimləyici çərçivədədir. ABŞ Qiymətli Kağızlar və Birja Komissiyası və ya Maliyyə Davranış Təşkilatı kimi tənzimləyici orqanlar bazar iştirakçılarını qorumaq və ədalətli və nizamlı bazarları qorumaq üçün qaydalar yaradır və tətbiq edirlər. Bu qaydalar bazar davranışı, açıqlama tələbləri və bazar manipulyasiyasının qarşısının alınması daxil olmaqla bir sıra sahələri əhatə edir. Yaxşı müəyyən edilmiş tənzimləyici baza investorlar arasında etimadı gücləndirmək üçün lazımi strukturu təmin edir və bazarların şəffaflıq və hesabatlılıqla işləməsini təmin edir.

Müşahidə və risklərin idarə edilməsi mexanizmləri səhvlərə və sistem risklərinə qarşı kritik müdafiə təbəqəsini təşkil edir. Bazar fəaliyyətinin real vaxt rejimində monitorinqi üçün süni intellekt və maşın öyrənmə alqoritmləri də daxil olmaqla qabaqcıl texnologiyalardan istifadə edilir. Nəzarət sistemləri qeyri-adi ticarət nümunələrini, potensial bazar sui-istifadəsini və anomaliyaları aşkar edərək tənzimləyici orqanlara dərhal müdaxilə etməyə imkan verir. Eyni zamanda, həm bazar iştirakçıları, həm də tənzimləyici orqanlar tərəfindən həyata keçirilən risklərin idarə edilməsi strategiyaları maliyyə sabitliyinə potensial təhlükələri azaldır, bazar infrastrukturunun dayanıqlığını təmin edir (Buhr, 2009).

Şəffaflıq bazar bütövlüyünün əsasını təşkil edir və məlumatların yayılması şəffaf bazarların təməl daşı kimi xidmət edir. Vaxtında və dəqiq məlumat investorlara bazarın səmərəliliyinə töhfə verərək əsaslandırılmış qərarlar qəbul etmək imkanı verir. Tənzimləyici səlahiyyətlər çox vaxt şirkətlərdən maliyyə məlumatlarını açıqlamağı tələb edir, investorların investisiya imkanlarını qiymətləndirmək üçün müvafiq məlumatlara çıxışını təmin edir. Qeyri-qanuni təcrübələr qeyri-şəffaf mühitlərdə inkişaf etdiyi üçün şəffaf bazarlar fırıldaqçı fəaliyyətlərə də mane olur. Məlumatın bazar miqyasında yayılması, real vaxt hesabatı ilə birlikdə maliyyə bazarlarının ümumi səmərəliliyini və ədalətliliyini artırır.

Qlobal qarşılıqlı əlaqə

Müasir maliyyə mənzərəsi, transsərhəd ticarətlə misal olaraq görünməmiş qlobal qarşılıqlı əlaqə səviyyəsi ilə xarakterizə olunur. Bazarlar coğrafi sərhədləri aşaraq investorlara müxtəlif yurisdiksiyalarda aktivləri problemsiz şəkildə almağa və satmağa imkan verdi. Sərhədlərarası ticarət likvidliyi, qiymət kəşfini və şaxələndirilmiş investisiya imkanlarını artırır. Bu qarşılıqlı əlaqəyə elektron ticarət platformaları, səmərəli klirinq və hesablaşma sistemləri və uyğunlaşdırılmış tənzimləmə standartları kömək edir. Bununla belə, o, həm də müxtəlif vaxt zonaları, tənzimləmə rejimləri və valyuta mübadiləsi ilə bağlı problemlər təqdim edir. Nəticə etibarı ilə, bazar iştirakçıları koordinasiya olunmuş beynəlxalq səylərin zəruriliyini vurğulayaraq, transsərhəd əməliyyatları həyata keçirmək üçün mürəkkəb amillər şəbəkəsində naviqasiya etməlidirlər.

Qlobal maliyyə bazarlarının qarşılıqlı asılılığını dərk edərək, bazarın tənzimlənməsində beynəlxalq əməkdaşlıq imperativ xarakter almışdır. Bütün dünyada tənzimləyici orqanlar ardıcıl və möhkəm tənzimləyici bazanı təmin edərək ümumi standartlar və ən yaxşı təcrübələr yaratmaq üçün əməkdaşlıq edirlər. Qiymətli Kağızlar Komissiyalarının Beynəlxalq Təşkilatı (IOSCO) kimi təşkilatlar tənzimləyici orqanlar arasında dialoqun və əməkdaşlığın asanlaşdırılmasında mühüm rol oynayır. Maliyyə Sabitliyi Şurası (FSB) kimi təşəbbüslər vasitəsilə tənzimləyicilər sistemli riskləri həll etmək, bazarın dayanıqlığını artırmaq və qlobal miqyasda investorların müdafiəsini təşviq etmək üçün birlikdə işləyirlər. Bu əməkdaşlıq yanaşması tənzimləyici tələbləri uyğunlaşdırmağa, tənzimləyici arbitraj potensialını azaltmağa və daha təhlükəsiz və şəffaf qlobal maliyyə mühitini təşviq etməyə kömək edir (Palei, 2015).

Əslində, qlobal qarşılıqlı əlaqə maliyyə bazarlarını dünyanın bir hissəsində baş verən hadisələrin bütün qitələrdə əks-səda verə biləcəyi sıx inteqrasiya olunmuş ekosistemə çevirdi. Transsərhəd ticarət və beynəlxalq tənzimləyici əməkdaşlıq təkcə bazarın səmərəliliyini artırmaqla yanaşı, həm də problemlərin həlli və getdikcə bir-birinə bağlı olan qlobal iqtisadiyyatda imkanlardan yararlanmaq üçün əlaqələndirilmiş səylərin zəruriliyini vurğulayır.

Texnologiyanın bazar infrastrukturuna təsiri

Blokçeyn və paylanmış reyestr texnologiyasının inteqrasiyası bazar infrastrukturu üçün yeni bir dövr açdı. Blokçeynin qeyri-mərkəzləşdirilmiş və şəffaf təbiəti əməliyyatları qeyd etmək, yoxlamaq və hesablaşmaq üçün təhlükəsiz və səmərəli vasitələr təklif edir. Maliyyə bazarlarında bu texnologiya klirinq və hesablaşma, qarşı tərəf riskini azaltmaq və əməliyyatların sürətini artırmaq kimi prosesləri sadələşdirmək potensialına malikdir. Blockchain tərəfindən dəstəklənən ağıllı müqavilələr vasitəçilərə ehtiyac olmadan öz-özünə icra olunan müqavilələri təmin edir. Blockchain artan səmərəlilik vəd etsə də, bu transformativ texnologiyanın diqqətli naviqasiyasını tələb edən miqyaslılıq, qarşılıqlı fəaliyyət və tənzimləmə mülahizələri ilə bağlı problemlər yaradır.

Süni intellekt (AI) və maşın öyrənməsi (ML) bazar infrastrukturunun optimallaşdırılmasında əvəzsiz vasitələrə çevrilib. Bu texnologiyalar qərar qəbuletmə proseslərini təkmilləşdirən proqnozlaşdırıcı analitika, alqoritmik ticarət və risklərin idarə edilməsi strategiyalarına imkan verir. AI və ML alqoritmləri ticarət strategiyalarını və risk qiymətləndirmələrini məlumatlandırmaq üçün nümunələri və tendensiyaları müəyyən edərək geniş məlumat dəstlərini təhlil edir. Süni intellektlə təchiz edilmiş avtomatlaşdırılmış ticarət sistemləri əməliyyatları insan treyderlər tərəfindən əlçatmaz sürətlə həyata keçirir. Bu irəliləyişlər bazarın səmərəliliyini artırsa da, eyni zamanda alqoritmik qərəzlər, sistem riskləri və ədalətli və etik bazar təcrübələrini təmin etmək üçün güclü nəzarət ehtiyacı ilə bağlı narahatlıqları artırır (Palei, 2015).

Bazar infrastrukturunda texnologiyaya artan etibar, kibertəhlükəsizlik təhdidlərinə qarşı həssaslığın artmasına səbəb olur. Maliyyə sistemləri bir-birinə daha çox bağlı olduqda, kiberhücumlar bazarın bütövlüyü və investorların inamı üçün əhəmiyyətli risk yaradır. Məlumatların pozulmasından, ransomware hücumlarından və digər zərərli fəaliyyətlərdən qorunmaq kibertəhlükəsizlik tədbirlərində davamlı irəliləyişlər tələb edir. Bazar iştirakçıları həssas maliyyə məlumatlarını qorumaq və bazar infrastrukturunun davamlılığını təmin etmək üçün güclü kibertəhlükəsizlik protokollarına, şifrələmə texnologiyalarına və insidentlərə cavab planlarına investisiya qoymalıdırlar. Kibertəhlükələrin inkişaf edən təbiəti potensial risklərdən qabaq qalmaq üçün sənayenin maraqlı tərəfləri və tənzimləyici orqanlar arasında fəal və əməkdaşlıq yanaşmasını tələb edir.

Əslində, texnologiyanın bazar infrastrukturuna təsiri transformativ xarakter daşıyır, səmərəlilik qazanmaları və yeni imkanlar təklif edir, eyni zamanda potensial çağırışların və risklərin diqqətlə nəzərdən keçirilməsini tələb edir. Maliyyə bazarlarında texnoloji irəliləyişlərin tam potensialından istifadə etmək üçün təhlükəsizliklə innovasiyaların tarazlaşdırılması vacibdir.

İqtisadi inkişafda bazar infrastrukturunun rolu

Bazar infrastrukturu kapitalın formalaşmasının asanlaşdırılmasında təməl daşı, iqtisadi inkişafın əsas sürücüsü kimi xidmət edir. Səhm və istiqraz bazarları da daxil olmaqla kapital bazarları şirkətlərə investorlara qiymətli kağızlar buraxaraq vəsait cəlb etməyə imkan verir. Bu kapital axını müəssisələrə əməliyyatları genişləndirməyə, tədqiqat və inkişafa sərmayə qoymağa və strateji təşəbbüslər həyata keçirməyə imkan verir. Şirkətlər kapitala ilkin kütləvi təkliflər (IPO) və borc emissiyası vasitəsilə çıxış əldə etdikcə, bazar infrastrukturu kapitalın bölüşdürülməsi üçün şəffaf və səmərəli mexanizmləri təmin edir. Bu proses təkcə iqtisadi artımı stimullaşdırmır, həm də sahibkarlığı, iş yerlərinin yaradılmasını və

möhkəm və dinamik iqtisadiyyatların ümumi inkişafına təkan verir.

Bazar infrastrukturu maliyyə bazarlarının likvidliyinin təmin edilməsində həlledici rol oynayır. Likvid bazarlar investorlara aktivləri asanlıqla almağa və satmağa imkan verir, qiymət kəşfini artırır və əməliyyat xərclərini azaldır. Likvidlik investorların maliyyə sabitliyinə və risklərin azaldılmasına töhfə verərək investisiyalarını tez pula çevirə bilməsini təmin edir. Bazar infrastrukturu birjalar və ticarət platformaları vasitəsilə müxtəlif iştirakçıların alqı-satqı fəaliyyətləri ilə məşğul ola biləcəyi, davamlı bazar likvidliyini təşviq edə biləcəyi mühit yaradır. Bu likvidlik təkcə investorları cəlb etmir, həm də kapitalın səmərəli bölüşdürülməsinə imkan verir, resursların ən çox ehtiyac duyulan yerdə yerləşdirilməsini təmin etməklə iqtisadi inkişafı dəstəkləyir (Araujo & Mason, 2021).

Bazar infrastrukturu innovativ aktivlərin ticarəti və maliyyələşdirilməsi üçün platforma təmin etməklə innovasiyalar üçün katalizator rolunu oynayır. Ənənəvi qiymətli kağızlardan tutmuş inkişaf etməkdə olan rəqəmsal aktivlərə qədər bazarlar yeni ideya və texnologiyaların qiymətləndirilməsi və mübadiləsi üçün imkanlar təklif edir. Yeni maliyyə alətləri və ticarət metodologiyalarının tətbiqi vasitəsilə innovasiya daha da təşviq edilir. Texnologiya inkişaf etdikcə bazar infrastrukturu yaşıl istiqrazlar, fintech startapları və digər davamlı investisiya imkanları kimi yenilikləri dəstəkləmək üçün uyğunlaşır. Bu, təkcə investisiya variantlarını diversifikasiya etmir, həm də texnoloji tərəqqi və iqtisadi tərəqqi üçün əlverişli mühiti gücləndirir.

Xülasə, iqtisadi inkişafda bazar infrastrukturunun rolu çoxşaxəlidir. Kapitalın formalaşmasını asanlaşdırmaq, likvidliyi təmin etmək və innovasiyaları dəstəkləməklə, bazar infrastrukturu ümumi rifah və tərəqqiyə töhfə verməklə iqtisadiyyatların böyüməsi və dayanıqlığının arxasında hərəkətverici qüvvəyə çevrilir (Araujo & Mason, 2021).

NƏTİCƏ

Yekun olaraq, bazar infrastrukturunun tədqiqi onun qlobal iqtisadi sistemlərin onurğa sütunu kimi mühüm rolunu vurğulayır. Tarixi perspektivlərdən texnoloji irəliləyişlərə qədər bazar infrastrukturu iqtisadi inkişafı asanlaşdırmaq, bazar bütövlüyünü təmin etmək və kapitalın səmərəli bölüşdürülməsini təşviq etmək üçün təkamül yoluna çevrilmişdir. Onun komponentləri, o cümlədən birjalar, klirinq sistemləri və ödəniş mexanizmləri birlikdə maliyyə bazarlarının fasiləsiz fəaliyyətinə töhfə verir.

Bazar infrastrukturu bizneslərə vəsait əldə etmək üçün imkanlar təqdim etməklə, şəffaf və səmərəli ticarət platformaları vasitəsilə likvidliyi təşviq etməklə və yeni aktiv siniflərinə və texnologiyalarına uyğunlaşma yolu ilə innovasiyaları dəstəkləməklə kapitalın formalaşmasının asanlaşdırılmasında mühüm rol oynayır. Onun təsiri çox genişdir, iqtisadi artıma, iş yerlərinin yaradılmasına və maliyyə sistemlərinin ümumi sabitliyinə təsir göstərir. Tənzimləyici baza, nəzarət sistemləri və şəffaf məlumatların yayılması mexanizmləri bazarların bütövlüyünü və səmərəliliyini daha da artırır.

İrəliyə baxdığımız zaman qlobal bazarların gələcəyi bazar infrastrukturunun davam edən təkamülü ilə mürəkkəb şəkildə bağlıdır. Blokçeyn, süni intellekt və kibertəhlükəsizlik tədbirləri də daxil olmaqla texnologiyanın amansız gedişi yeni imkanlar və çağırışlar təqdim edərək mənzərəni yenidən formalaşdırmaqda davam edəcək. Sərhədlərarası bazarların artan qarşılıqlı əlaqəsi ardıcıllıq və dayanıqlığı təmin etmək üçün tənzimləyici çərçivələrdə və standartları müəyyən edən orqanlarda genişləndirilmiş beynəlxalq əməkdaşlığı tələb edir.

Qlobal bazarların gələcəyini idarə etmək innovasiya və risklərin idarə edilməsi arasında incə balans tələb edir. Potensial tələlərdən qorunarkən, yaranan texnologiyaların bütün potensialından istifadə etmək üçün bu tarazlığın qorunması vacib olacaqdır. Bazar infrastrukturunun dəyişən iqtisadi mənzərələrə, geosiyasi dəyişikliklərə və sosial meyllərə uyğunlaşması maliyyə bazarlarının trayektoriyasının formalaşmasında həlledici rol oynayacaqdır.

Əslində, bazar infrastrukturu daim dəyişən qlobal iqtisadiyyatın tələblərinə cavab vermək üçün davamlı olaraq inkişaf edən dinamik qüvvə olaraq qalır. Onun əsas rolunu dərk etmək və üfüqdəki çətinlikləri və imkanları gözləmək siyasətçilər, bazar iştirakçıları və maraqlı tərəflər üçün qlobal bazarların gələcəyini birlikdə idarə edərkən əsas olacaq.

ƏDƏBİYYAT SİYAHISI

1. Timo Henckel, Warwick McKibbin (2010). The Economics of Infrastructure in a Globalized World: Issues, Lessons and Future Challenges. Brookings. 1775 Massachusetts Avenue, NW, Washington, DC 20036.
2. Du, X.; Zhang, H.; Han, Y (2022). How Does New Infrastructure Investment Affect Economic Growth Quality? Empirical Evidence from China. Sustainability 2022, 14, 3511. https://doi.org/10.3390/su14063511.
3. Buhr, Walter. (2009). Infrastructure of the market economy. D-57068 Siegen Germany.
4. Tatyana Palei, (2015). Assessing the Impact of Infrastructure on Economic Growth and Global Competitiveness, Procedia Economics and Finance, Volume 23, 2015, Pages 168-175.
5. Araujo, L., Mason, K. (2021). Markets, infrastructures and infrastructuring markets. AMS Rev 11, 240–251. https://doi.org/10.1007/s13162-021-00212-0.

AZƏRBAYCANIN BEYNƏLXALQ NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNDƏ YERİ VƏ ZƏNGƏZUR DƏHLİZİNİN ƏHƏMİYYƏTİ

Bağırov Seymur Şərif
Bakı Slavyan Universiteti
Ölkəşünaslıq - Azərbaycan üzrə
E-poçt: seymurbagirov96@gmail.com
BAKI AZƏRBAYCAN

Xülasə

İnkişaf etmiş nəqliyyat infrastrukturunun yaradıldığı və nəqliyyat kompleksi xidmətlərinin keyfiyyətinin yüksək olduğu ölkələrin nəqliyyat, logistika və tranzit potensialının inkişafı prioritet istiqamətlərdən hesab olunur. Bu sahədə əlverişli infrastruktura və müsbət təcrübəyə malik olan Azərbaycan da regional nəqliyyat-logistika mərkəzlərinin yaradılması üzrə beynəlxalq layihələrin işlənib hazırlanmasında fəal iştirak edir, qlobal nəqliyyat-logistika sisteminə inteqrasiyaya yönəlmiş bir sıra dövlət proqramları və layihələri həyata keçirilir.

44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra Zəngəzur dəhlizi məsələsinin meydana çıxması da bir sıra sahələrdə, o cümlədən, nəqliyyat-logistika sahəsində Azərbaycan üçün inkişaf imkanları yaratdı.

Göstərilənləri nəzərə alaraq, məqalədə Azərbaycanın beynəlxalq nəqliyyat-logistika sistemində yeri, bu sistemə qoşulmasının ölkə üçün əhəmiyyəti, eyni zamanda, 44 günlük müharibədən sonra yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizinin göstərilən sahədə inkişaf perspektivlərindən danışılır.

Açar sözlər: Zəngəzur dəhlizi, nəqliyyat-logistika sistemi, Azərbaycan

Giriş. Mövzunun aktuallığı: Qloballaşan dünyada nəqliyyat-logistika sisteminin inkişafı dövlətlərin qlobal iqtisadi və informasiya məkanına inteqrasiyasında mühüm rol oynayan amillərdən hesab olunur. İnkişaf etmiş nəqliyyat infrastrukturunun yaradıldığı və nəqliyyat kompleksi xidmətlərinin keyfiyyətinin yüksək olduğu ölkələrin nəqliyyat, logistika və tranzit potensialının inkişafı prioritet istiqamətlərindən hesab olunur. Bu sahədə əlverişli infrastruktura və müsbət təcrübəyə malik olan Azərbaycan da regional nəqliyyat-logistika mərkəzlərinin yaradılması üzrə beynəlxalq layihələrin işlənib hazırlanmasında fəal iştirak edir, qlobal nəqliyyat-logistika sisteminə inteqrasiyaya yönəlmiş bir sıra dövlət proqramları və layihələri həyata keçirilir.

Tədqiqatın obyekti və predmeti: Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır və onu mühüm nəqliyyat-logistika mərkəzinə çevrilir.

Tədqiqatın məqsəd və vəzifələri: Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasətini kompleks şəkildə araşdırmaq, bu siyasətin tarixi şərtlərini, Azərbaycan üçün əhəmiyyətini və ümumilikdə, Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafının

Azərbaycanın nəqliyyat-kommunikasiya sistemindəki yerini müəyyən etməkdir. Nəqliyyat qlobal iqtisadi inteqrasiyanın ən mühüm istiqaməti və hərəkətverici qüvvəsi olmaqla, həmçinin, iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində strateji kurs Azərbaycan hakimiyyətinin diqqətini nəqliyyat dəhlizlərinə və tranzit məsələlərinə yönəlməsini diktə edir.

Tədqiqatın metodları: Tədqiqat işində təhlil, müqayisə, ümumiləşdirmə, statistik təhlil metodlarından istifadə edilmişdir.

Bu metodlardan birincisi təhlil metodudur. Təhlil tədqiqat işlərində geniş formada istifadə olunan metodlardandır.

İstifadə edilmiş digər metod isə müqayisə metodudur.

Mövzunun araşdırılmasında müxtəlif yerli və xarici məqalə və ədəbiyyatlardan istifadə olunmuşdur.

44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizi məsələsinin meydana çıxması Azərbaycanın göstərilən sahədə inkişaf perspektivlərini artırır və ölkəni xarici investorlar üçün daha maraqlı partnyora çevirir.

Bu səbəbdən Azərbaycanın beynəlxalq nəqliyyat-logistika sistemində yerinin, bu sistemə qoşulmanın ölkə üçün əhəmiyyətinin, eyni zamanda, 44 günlük vətən müharibəsindən sonra yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizinin göstərilən sahədə inkişaf perspektivlərinin araşdırılması aktuallıq kəsb edir.

İstifadə olunan materiallar: İstifadə edilən mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar. Tədqiqat zamanı Azərbaycan Respublikasının rəsmi dövlət sənədləri, prezidentin sərəncamlarından, dövlət proqramlarından, müxtəlif ədəbiyyatlardan və Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının İşlər İdarəsinin Prezident Kitabxanası materiallarından, AMEA-nın kitabxana fondu, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Sosial Tədqiqatlar Mərkəzi, Cənubi Qafqaz Araşdırmalar mərkəzi, Qafqaz Beynəxlaq Münasibətlər və Strateji Araşdırmalar mərkəzi, yerli və xarici mətbuat səhifələrində və internet saytlarında yerləşdirilən resurslarından istifadə edilmişdir.

Azərbaycanın beynəlxaq nəqliyyat və logistika sistemində rolu: Avropa və Asiyanın, Şimal və Cənubun kəsişməsində yerləşən Azərbaycan regionda enerji və yük axınları üçün qovşaq rolunu oynamaq üçün unikal imkanlara malikdir. Azərbaycanın əlverişli coğrafi-iqtisadi mövqeyə malik olması onun Şimal-Cənub əlaqələrinə xüsusi əhəmiyyət verməsini şərtləndirmiş, ölkənin bu əlverişli geoiqtisadi məkanda ticarət dəhlizi rolunu gücləndirmişdir.

"Böyük İpək Yolu" bu gün də çox aktual olan məsələlərdəndir. "Böyük İpək Yolu"nun bərpasına dair ilk addımlar hələ 1991-ci ildə atılmış, 1993-cü ildən etibarən isə bu sahədə əməli işlər görülməyə başlanmışdır. 1993-cü ilin mayında qəbul olunmuş "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" proqramının davamı olaraq 1994-cü ilin sentyabrında Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrdə inkişafının əsasını qoyan "Əsrin müqaviləsi" nin imzalandı. Bununla ölkənin iqtisadi və tranzit-kommunikasiya əhəmiyyətini xeyli dərəcədə inkişaf etməyə başladı. Sonrakı mərhələdə Bakı-Novorossiysk, Bakı-Supsa, daha sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərlərinin işə salınması, habelə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisini təkcə Azərbaycan regionu üçün deyil, bütövlükdə regionun tranzit əhəmiyyətini artırdı.

1998-ci il sentyabrın 7-8-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "Böyük İpək Yolu" beynəlxalq konfransı keçirilmişdir. Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdır. Bu Sammitin ən mühüm hadisəsi Azərbaycan, Bolqarıstan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumınya, Tacikistan, Türkiyə, Özbəkistan və Ukrayna arasında "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına dair Əsas Çoxtərəfli Saziş"in imzalanmasıdır. 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilən konfransda Aİ-nın TRACECA proqramı əsasında "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında "Çoxtərəfli Əsas Saziş və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələri haqqında" sənəd, həmçinin, "Bakı Bəyannaməsi" qəbul edilmişdir.(63-77)

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqında Razılaşma" Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanılmışdır. Razılaşmanın əsas məqsədi yük və sərnişin daşımalarının təşkilində nəqliyyat əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, üzv-ölkələrin dəmir yolu, avtomobil, dəniz, çay və hava

nəqliyyatı xidmətləri beynəlxalq bazarına girişi üçün şəraitin yaradılması, beynəlxalq daşımaların həcminin artırılmasına yardım göstərilməsi, nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin olunması, razılaşdırılmış nəqliyyat siyasətinin həyata keçirilməsidir. Razılaşma bütün nəqliyyat növlərinə: dəmir yolu, dəniz, avtomobil yolları, çay və hava nəqliyyatı ilə daşımaları təmin edən nəqliyyat infrastrukturuna və nəqliyyat vasitələrinə aiddir. 2005-ci il sentyabrın 20-də imzalanmış 984-IIQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə respublikamız "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi haqqında" Sazişə qoşulmuşdur. Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan üzərindən yüklərin böyük əksəriyyətinin daşınmasında dəmir yolunun iştirakı nəzərdə tutulur ki, burada əsas amil kimi, yüklərin bir nəqliyyat növü ilə böyük həcmdə, tez bir zamanda, daha uzaq məsafəyə daşınması götürülür. Dəhliz vasitəsilə yük daşımalarına Azərbaycan Respublikasının yol-nəqliyyat kompleksinin daha geniş cəlb edilməsi, xüsusən avtomobil nəqliyyatının və Xəzər Dəniz Gəmiçiliyinin imkanlarından tam istifadə olunması üçün geniş imkanlar yaradılmalıdır.

Azərbaycan ərazisi beynəlxalq layihələr üçün regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevrilib. Bu baxımdan 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra aktuallaşan Zəngəzur dəhlizi Azərbaycanı bir neçə istiqamətdə Asiya və Avropa ilə birləşdirən strateji nəqliyyat dəhlizinə çevrilə bilər.

Zəngəzur dəhlizi məsələsinin aktuallaşması və əhəmiyyəti: 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərdən sonra Cənubi Qafqaz regionunun iqtisadi-siyasi və strateji mənzərəsində ciddi dəyişiklikər möcvud olmuşdur. Azərbaycan Respublikasının vətən müharibəsində inamlı qələbəsi, öz tarixi torpaqlarını işğaldan azad etməsi regionda qarşılıqlı əməkdaşlıq, Cənubi Qafqazın strateji əhəmiyyətinin artması üçün geniş imkanlar yaratmışdır. 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyannamənin 9-cu maddəsi Azərbaycan ərazisinin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılmasına yeni imkanlar yaradacaq (6).

Zəngəzur dəhlizi, ilk növbədə, Orta Asiya, Azərbaycan və Ermənistanı Sakit Okeandan Türkiyəyə birləşdirən mühüm sosial-iqtisadi, siyasi və geostrateji əhəmiyyətə malik bir dəhlizdir. Zəngəzur Rusiya, Azərbaycan, Türkiyə və Ermənistan arasında dəmir yolu şəbəkəsini genişləndirmək imkanı yaradaraq və regionun ticarət fəaliyyətinə, regionda ticarət dövriyyəsinin artımına, region ölkələri arasında, eləcə də bu ölkələrin digər dövlətlər ilə qarşılıqlı əməkdaşlığının inkişafına ciddi təkan verəcəkdir. [2]

2021-ci il noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı Soçi Bəyannaməsi Zəngəzur dəhlizini reallığa çevirdi. Bəyanatda deyilir ki, tərəflər Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin səviyyəsinin yüksəldilməsi istiqamətində müəyyən addımlar atacaqlar. Soçidə imzalanan bəyanatda iqtisadi əlaqələrin inkişaf etdirilməsi və nəqliyyat dəhlizlərinin açılması tələb olunur. Bu həm dəmir yollarına, həm də avtomobil yollarına aiddir. Belə bir şəraitdə Zəngəzur dəhlizinin reallaşması məsələsi Qafqazda geosiyasi rəqabətin transformasiyasını şərtləndirir. Zəngəzur dəhlizinin regional əməkdaşlıq, geoiqtisadiyyat, nəqliyyat-logistika və coğrafi aspektlər baxımından təhlili də onun strateji əhəmiyyətini ortaya qoyur.

11 yanvar 2021-ci il tarixli Bəyanata uyğun olaraq, sənəddə Azərbaycan Respublikası, Ermənistan Respublikası Baş nazirlərinin müavinləri və Ermənistan Respublikası Hökuməti sədrinin müavininin birgə sədrliyi ilə yaradılmış Üçtərəfli İşçi Qrupun fəaliyyəti yüksək qiymətləndirilir. Rusiya Federasiyası regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında. Rayonun iqtisadi potensialının üzə çıxarılması üçün qısa zamanda konkret layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulanır. [3]

Zəngəzur dəhlizinin regional iqtisadi və strateji əhəmiyyəti: Zəngəzur Azərbaycan üçün təkcə Naxçıvanın qapısı deyil, onun Azərbaycanın tarixində və milli kimliyində xüsusi yeri var. İlk öncə qeyd edək ki, hələ də Ermənistanın sərhədləri daxilində olan Zəngəzur bir vaxtlar müsəlman türk əhalisinin yaşadığı tarixi Azərbaycan torpağıdır. Zəngəzurun taleyi 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən və Sovet hakimiyyəti qurulandan sonra dəyişməyə başladı. SSRİ rəhbərliyi əvvəlcə bütün Zəngəzur rayonunun Ermənistana verilməsini qarşısına məqsəd qoysa da, sonradan ərazini iki yerə böldü. Qərbi Zəngəzur Ermənistana verildi, Şərqi Zəngəzur isə Azərbaycanın tərkibində qaldı. O vaxtdan Azərbaycan öz ərazisinin ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini itirmişdir. 1933-cü ildən Zəngəzurun adı rəsmən xəritələrdən çıxarılaraq unudulmağa çalışılıb. Tarixən ticarət-iqtisadi və mədəni kommunikasiya yollarından biri olan Zəngəzur ötən əsrin 20-ci illərindən

başlayaraq, azərbaycanlıları bir-birindən təcrid edən, türk dünyasını ayıran, iqtisadi-ticarət əlaqələrini pozan bir məkana çevrilib. Bu baxımdan İkinci Qarabağ müharibəsinin Zəngəzur məsələsində açdığı yeni imkanlar təkcə Azərbaycan, region, türk dünyası üçün deyil, həm də "Bir kəmər"in daxil olduğu dünya ölkələri üçün müstəsna əhəmiyyət kəsb edəcək.

Dünyanın əsas yük axınları və Zəngəzur nəqliyyat dəhlizinin əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uzaqgörən və müasir dünya reallıqlarını dəqiqliklə qiymətləndirməyi bacaran lider olmaqla, Asiya və Avropanı birləşdirən Şərq-Qərb dəhlizinin–Böyük İpək Yolunun tərkib hissəsi kimi Zəngəzur dəhlizinin də strateji əhəmiyyətini yüksək olduğunu qeyd edib. Təbii ki, yeni dəhliz nəqliyyat-tranzit qovşağı kimi Azərbaycanın əhəmiyyətini daha da artıracaq, Avrasiyanın nəqliyyat və logistika qovşağı kimi ölkəmizin mövqeyini daha da möhkəmləndirməyə imkan verəcək. Əvvəldə də qeyd edildiyi kimi, Zəngəzur dəhlizi yalnız Azərbaycan üçün deyil, ümumilikdə region dövlətləri, Avropa üçün mühüm əhmiyyət kəsb edir. Xüsusilə, Rusiya və Çin üçün strateji əhəmiyyətə malik olan, Avropa və Asiyanı birləşdirən nəqliyyat əlaqələrinin intensivləşməsinə imkan verir, dəhlizlərdən daha səmərəli istifadəni təmin etməklə regionun bütün ölkələri üçün potensial iqtisadi səmərəyə fayda verəcək.

Dəhliz Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan və İran arasında dəmir yolu şəbəkəsinin genişləndirilməsinə imkan yaradacaq və Asiya-Sakit okean hövzəsindən Türkiyəyə Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı birləşdirən bir çox ticarət marşrutları açacaq. Bu, "Şərq-Qərb" dəhlizini, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizini və Xəzər Nəqliyyat Şəbəkəsini daha da gücləndirəcək. O, həmçinin Xəzərdən Avropaya Neft və Qaz Boru Kəməri Sisteminin istismarını asanlaşdıracaq. Dəhlizin açılması Avropa İttifaqı, ABŞ, Rusiya və Çinin enerji təchizatı xətləri üçün mühüm rol oynayan regionun tranzit imkanlarını artıracaq. (62-69)

Beləliklə, Zəngəzur dəhlizi reallaşarsa, Cənubi Qafqaz ölkələrinin inkişafını istiqamətləndirə və regionun siyasi-strateji mənzərəsini dəyişə bilər. Ən əsası isə türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizində birləşəcək. Zəngəzur dəhlizinin açılması türkdilli ölkələrin iqtisadiyyatına böyük təsir göstərəcək. "Tarixi İpək Yolu" üzərində yerləşən Zəngəzur dəhlizi Azərbaycanı Avropa ilə Asiya arasında logistika mərkəzinə çevirəcək, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində ölkəmizin mövqeyi xeyli möhkəmlənir. [5]

Dünyanın böyük dövlətləri də Zəngəzur dəhlizinin bu funksiyasını qəbul edir və dəstəklədiklərini bildirirlər. Digər tərəfdən, "Bir Kəmər-Yol" layihəsi çərçivəsində Azərbaycanın Türkiyə ilə Çin arasında mövqeləri möhkəmlənəcək. Azərbaycan Orta Dəhlizdə keçəcəyi tranzit marşrutları ilə mühüm aktyora çevriləcək. Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirəcək. Bu, Orta Dəhlizdəki layihələr üçün böyük qələbə olacaq. Tranzit müddətini azaldan bu yol Türkiyə ilə Azərbaycan arasında ticarət fəaliyyətini də yaxşılaşdıracaq. Bu kontekstdə Bakı-Tbilisi-Qars dəmir yolu (BTQ) və Gürcüstan ərazisindən keçən avtomobil yolları artıq Azərbaycanı Türkiyə ilə birləşdirib. Bununla belə, daha qısa marşrut strateji və iqtisadi əlaqələri inkişaf etdirmək üçün daha çox potensiala malikdir. [6, s.112]

"Bir Kəmər-Yol" layihəsi başlayandan Azərbaycan Çinin Cənubi Qafqaza investisiyalarını alqışlayır və dəstəkləyir. Cənubi Qafqazda nəqliyyat maneələrinin aradan qaldırılması təkcə Azərbaycanın logistika mərkəzi olması ilə bağlı deyil, həm də Çinin öz mallarını ən qısa yolla Avropaya daşıması üçün faydalı olacaq.

Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İrandan başqa, bu dəhliz Asiya-Sakit okean regionu ölkələrinə böyük fayda verə bilər. Təbii ki, burada Çinin qazanacağı daha çox şey var. Çin-Rusiya-İran-Azərbaycan xəttində mühüm nöqtə olan Zəngəzur dəhlizi Pekinin Türkiyə vasitəsilə Avropa və Körfəz ölkələri və Afrikaya çıxışı üçün yeni imkan deməkdir. Bu marşrut digərlərindən daha ucuz və qısadır. "Açıq dənizə çıxışın olmamasına baxmayaraq, biz Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən Azərbaycanı mühüm nəqliyyat mərkəzinə çevirmişik. Coğrafi mövqenin üstünlüklərindən çıxış edərək, bütün nəqliyyat zəncirini şəbəkə şaxələndirilib: dəniz limanı, dəmir yolu bağlantısı, bir neçə beynəlxalq hava limanı, magistral yollar", - deyə Prezident İlham Əliyev 22 iyun 2023 cü ildə keçirilən Azərbaycan-Litva biznes forumunda çıxışı zamanı bildirib. Azərbaycanın nəqliyyat infrastrukturundan istifadə ilə bağlı bir sıra dövlətlərə çoxlu yeni təkliflər daxil olur. Dövlət başçısının da dediyi kimi, bu gün respublika Cənubi Qafqaz, Mərkəzi Asiya, bütövlükdə Xəzər regionu üçün tranzit qovşağıdır. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən perspektiv tranzit marşrutlarının inkişafında xüsusi rolu var ki, bu da Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar

Respublikası ilə birləşdirəcək, eyni zamanda, nəqliyyatın genişləndirilməsi və şaxələndirilməsi üçün yeni nəqliyyat alternativi yaradacaqdır.

Nəticə. Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İrandan başqa, Zəngəzur dəhlizi Asiya-Sakit okean regionu ölkələrinə böyük fayda verəcəkdir. Şimal -Cənub dəhlizi ilə Zəngəzur dəhlizi arasında ziddiyyətlərin və yazışmaların mövcudluğunu qeyd etmək lazımdır. Hər halda, bir sıra aşılmaz güc şəraitinə görə bu dəhlizlər bu və ya digər şəkildə Zəngəzurdan keçməlidir. Dəhliz geosiyasəti, təqdim olunduğu kimi, regional səviyyədə təkcə benefisiar ölkələrin maraqlarına deyil, həm də dünya siyasəti səviyyəsində geosiyasi maraqlara və layihələrə toxunur. Çin-Rusiya-İran-Azərbaycan xəttində mühüm nöqtə olan Zəngəzur dəhlizi Pekinin Türkiyə vasitəsilə Avropa, Körfəz ölkələri və Afrikaya çıxışı üçün yeni imkan deməkdir.

Bu gün "Turan"ın maraqları Rusiyanın, Çinin, Hindistanın, Avropa İttifaqının, Böyük Britaniyanın, ABŞ-ın maraqlarının təmsil olunduğu Zəngəzur bölgəsi ətrafında kəsişir. Beləliklə, Zəngəzurun beynəlxalq geoiqtisadi və geosiyasi əhəmiyyəti onun ərazisindən kimin istifadə etməsi ilə bağlıdır. Digər tərəfdən, "Bir Kəmər-Yol" layihəsi çərçivəsində Azərbaycanın Türkiyə ilə Çin arasında mövqeləri möhkəmlənəcək. Azərbaycan Orta Dəhlizdə keçəcəyi tranzit marşrutları ilə mühüm aktyora çevriləcək. Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirə bilər.

TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasında körpü rolunu oynayan "Böyük İpək Yolu" nun bərpası ölkəmiz qarşısında yeni inkişaf istiqamətləri olmuşdur. Bu yolun bərpası, həmçinin, Avropa, Qara dəniz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadəyə və qarşılıqlı faydalı əməkdaşlığa hər zaman kömək etməkdədir. Ümumiyyətlə, "Böyük İpək Yolu"nun bərpası və Şərq-Qərb enerji dəhlizinin yaranması XXI yüzilliyin qlobal tarixi hadisələrindəndir. Avropa-Asiyanın mərkəz hissəsində yerləşən və 34-dən artıq dövlətin ərazisindən keçərək onları birləşdirən bu yolun əhəmiyyəti ölçüyə gəlməzdir.

Ədəbiyyat siyahısı

1. Behbudov K. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində mövcud status-kvo tezliklə dəyişməlidir // Xalq qəzeti.-2020.-4 aprel.-№67.-s.6.
2. Bayramov V. (2021), Zəngəzur dəhlizinin açılması yeni geosiyasi vəziyyətin nəticəsidir. Xalqqəzeti, 19 iyun.
3. Ə. Nəsirov: Zəngəzur nəqliyyat dəhlizinin regional və qlobal əhəmiyyəti, s. 62-69.
4. Ə. Mais . Böyük İpək Yolu. Dərs vəsaiti. – Bakı : 2011. S 63-77 .
5. Schmidt H.-J. Dörd Günlük Müharibə Dağlıq Qarabağda sülhün əldə olunması şanslarını azaldıb // In: IFSH (red.), OSCE Yearbook 2016 , Baden-Baden 2021, s. 111-123.
6. Bayramov A. Dağlıq Qarabağ münaqişəsinin susdurulması və dördgünlük müharibənin çağırışları // Təhlükəsizlik və insan hüquqları. Cild 27: Buraxılış 1-2, 2021 s. 116–127
7. Ermənistan-Azərbaycan Böhranı – Vestminster İnstitutunda Svante Kornell. 13 noyabr 2020.
8. Walter M. Beynəlxalq Ssenari daxilində Dağlıq Qarabağda Münaqişə // Qlobal Siyasət və İdarəçilik jurnalı: cild 6, №2. (2017).
9. https://president .az/az/articles/view\46989
10. https://president.az/az/pages/view/azerbaijan/silkroad
11. https://iqtisadiyyat.com/az/pages/5/news/1529

YUNANISTAN İQTİSADİYYATININ PROBLEMLƏRİ

Sariyeva Şölə Həsənəli qızı
Bakı Slavyan Universiteti
Magistratura-Ölkəşünaslıq (Yunanıstan üzrə)
Email:sole1989umudova@gmail.com

Xülasə

İnflyasiya ABŞ-dan başlayıb Avropaya yayılaraq, qlobal böhrana gətirib çıxarmışdır. Böhranla mübarizə apara bilmeyen olkeler daha cox təsirə məruz qaldilar. Bele dövlətlərdən biri də Yunanıstan idi. Yunanıstan böhranı özü ilə bərabər yüksək borclar,issizlik,büdcə kəsirləri yaratdı.

Bu problemi hell etmək üçün Avropa İttifaqı və Beynəlxalq Valyuta Fondu birlikdə qrup yaratdı və xilasetme paketleri işlənib hazırlandı.

Yunanıstan iqtisadi islahatlar həyata keçirdi və məlum oldu ki, ölkədə maliyyə strukturunun düzgün qurulmaması onu böhrana sürükləyən əsas səbəbdir.

Bu araşdırmada Yunanıstan da daxil olmaqla,ölkələrdə iqtisadi böhranının yaranma səbəbi, ölkəyə göstərdiyi təsirlər, görülən tədbirlər,ölkənin maliyyə qurumlarına necə təsir etdiyi və onunla mübarizə yolları arasdırılır.

Açar sözlər: inflyasiya, dövlət borcları, işsizlik, xərclər

Giriş.

Mövzunun aktuallığı. 2008-ci ilin sonundan başlayaraq ABŞ-ın mənzil sektorunda ən böyük investisiya şirkətinin inflyasiyası qısa müddət ərzində bütün dünya dövlətlərinin iqtisadiyyatına təsirsiz ötüşmədi. İnflyasiya öz təsirini daha çox Avropa ölkərində göstərdi. Avropa ölkələri içində ilk əvvəl Yunanıstan böhranla üzləşdi,daha sonra digər ətraf ölkələrdə də böhran yarandı.(Portuqaliya, İtaliya, İspaniya) Böhrana hazır olmayan Avropa ölkələrində inflyasiya bankların iflasına və yüksək dövlət borclarına səbəb oldu. Büdcə kəsirləri və borclar Yunanıstanda ən yüksək həddə çatdı. Böhranla mübarizədə AI bütün ölkələri çıxış yolları üçün ortaq çalışırdılar. Bu müddət ərzində dövlətlər bir-birindən fərqli siyasətlər yürüdürdülər və bu fərqliliklərin nəticəsi,qarışıqlıqlara səbəb olmuşdur.

Böhranın daha çox Avropa ölkələrinə təsir etməsinin aşağıdakı səbəbləri vardır:

Aİ ölkələri arasında iqtisadi fərqliliklərin olması

Sərmayə qoyuluşlarının düzgün qiymətləndirilməməsi

İstehsal sektorunun kiçik olması

Maastrix sazişinə bağlı uyğunsuzluq

Büdcə strukturunun olmaması

Büdcə və cari hesablamalarda problemlər

Avro zonada tələb balanssızlığı

Mövzunun obyekti və predmeti.

Tədqiqatın obyekti Yunanıstan iqtisadiyyatının inkişaf yolları və ya üsulları, predmeti isə bu yollar və üsullar vasitəsilə iqtisadiyyatın inkişafını yüksələn və davamlı etməkdir

Tədqiqatın məqsəd və vəzifələri.

Tədqiqatın məqsədi Yunanıstan iqtisadiyyatında böhranın yaratdığı vəziyyətdən çıxış yollarını tapmaq, Avropa Ittifaqından əvvəl və sonra Yunanıstan iqtisadiyyatının inkişaf tendensiyası.

Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün təcrubi aspektdə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

-maliyyə sabitliyi və bu dayanıqlığın bərpası,o cümlədən bazardakı ehtiyacları maliyyələşdirmək qabiliyyəti

-islahatlar vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi

Elmi-nəzəri metodoji əsasları:

Tədqiqatın elmi-nəzəri metodoloji əsasını qəbul edilən qanun və islahatların Yunanıstan iqtisadiyyatına dair elmi-nəzəri fikirlərini təşkil edir.

Tədqiqatın praktik və nəzəri əhəmiyyəti

Tədqiqatın elmi araşdırmalar və ümumiləşdirmələrin məcmusu olan nəzəri müddəalardan və nəticələrdən Yunanıstan iqtisadiyyatının tarixi və inkişaf yolu haqqında müvafiq iqtisadiyyat dərsliklərinin müvafiq hissələrində istifadə oluna bilər.

Tədqiqatın strukturu tədqiqat girişdən, iki yarım fəsildən ibarət olan iki fəsil, nəticədən və ədəbiyyat siyahısından ibarətdir.

Tədqiqatın araşdırılmasında müqayisə, təsvir, funksional metodlardan istifadə olunmuşdur.

Fəsil I. Yunanıstan iqtisadiyyatının problemləri

1.1Yunanıstan böhranı

1.2Yunanıstanda işsizlik

1.1 Yunanıstan böhranı. 2009-cu ildən Yunanıstan böhranla mübarizə aparır. Avropa ölkəri arasında daha çox böhrana məruz qalmış ölkələr sırasında Yunanıstan ikinci sırada dayanır. Yunanıstan böhranının səbəbləri:-xərclərin yüksək olması, gəlirlərin az olması, turizm,gəmi və inşaat sahələrində kiçilmələr, təhsil, səhiyyə, sosial xərcləmələrin yüksək olması və işsizlik.

Yunanıstan hökumətinin borc böhranı 2008-2012-ci illər Qlobal İqtisadi Böhranının nəticələri ilə baş verib lakin əsas səbəb Yunanıstan iqtisadiyyatındakı struktur zəifliklər və nəticədə davam edən yüksək struktur borc kəsirləri olub.

Dövlət sektorunda sinifləndirmə hər bir ölkədə, dövlətdə müxtəlif üsul və prinsiplərə əsasən aparılır. Hər bir dövlətin idarəetmə yanaşmasında sosial və iqtisadi strukturundakı fərqliliklər sinifləndirmənin müxtəlif formalarını ortaya çıxarır. Lakin bu müxtəlif sinifləndirmə formalarını ümumi prinsiplər baxımından iki əsas qrupa bölmək mümkündür. Bu qruplaşma "heyət" və "rütbə" əsasına görə aparılır. Heyət sinifləndirməsi vacib və önəmli olan bir işdir. Heyət – dövlət xidmətlərinin daimi və müntəzəm bir şəkildə həyata keçirilməsini təmin etmək üçün formalaşdırılan və bu xidmətləri yerinə yetirəcək işçilərin sayı, ixtisası, dərəcəsi, vəzifə, səlahiyyət və öhdəliklər baxımından

bir qrafiki göstərir (Denhardt, Robert, 2009).

Rütbə sinifləndirilməsinin başlanğıc nöqtəsində vəzifələr, işlər, məsuliyyətlər deyil, bu vəzifələri və səlahiyyətləri yerinə yetirəcək insanların malik olduqları fərdi keyfiyyətlərdir. Bu keyfiyyətlərdən ən mühümü insanın təhsilli və peşəkar formalaşmasıdır. Rütbə sinifləndirilməsində dövlət xidmətləri şaquli və üfüqi miqyasda qruplaşdırılır.

Performans planlaşdırılmış fəaliyyət nəticəsində əldə edilən nəticəni müəyyən edən və ya təsvir edən anlayışdır. Performans bir proqram çərçivəsində ölçülməyə və qiymətləndirilməyə çalışılır. Performans proqramı korporativ performans proqramı və fərdi performans proqramı olaraq iki hissəyə ayrılır. Performans dəyərləndirilməsi müxtəlif məqsədlər üçün həyata keçirilir ki, bunlara daxildir:

- ✓ İş həyatında mənfi davranışların dəyişdirilməsi;
- ✓ Kadrların keyfiyyət və kəmiyyət baxımdan uğurlarının artırılması;
- ✓ Personalın gələcək potensialını özünü təkmilləşdirmə və ya müvafiq təlim ehtiyacları baxımından qiymətləndirmək;
- ✓ Kadrların cari vəzifələrini nə dərəcədə yerinə yetirdiyini müəyyən etmək;
- ✓ İşçilərin intizam və işə son vermə prosedurları ilə bağlı qeydlər və məlumat faylları yaratmaq.

Qərəzsizlik – dövlət qulluqçuları öz vəzifələrini yerinə yetirərkən dili, dini, siyasi düşüncə, irqə, cinsə və bu kimi səbəblərə görə heç bir ayrı – seçkiliyə yol verməməlidirlər və qərəzsiz davranmalıdırlar. Dövlət kadrlardan qanuna, ictimai mənafeyə və xidmət tələblərinə uyğun olaraq işlərini görmələri, hər cür özbaşınalıqdan uzaq durmaları gözlənilir. Bütün kadr rejimlərində qərəzsizlik prinsipinə xüsusi diqqət yetirilir və bu önəmli bir amildir.

NƏTICƏ

Tədqiqat işində bütün bu qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, insan resurslarının idarə edilməsi müasir dövrdə ən önəmli bir ünsürə çevrilmiş və dinamik bir xüsusiyyətə malik olmuşdur. İnsan resursları müəssisənin ən vacib elementi sayılır. İşçilərin düzgün seçilməsi, onların motivasiyası, performans dəyərləndirilməsi, ixtisası, peşə bilik və bacarıqları və bu kimi bir çox funksiyalarla artıq insan resurslarının idarə edilməsi kompleks şəkildə məşğul olur. Dünyanın hər bir ölkəsində bu sahəyə xüsusi və müxtəlif diqqət göstərilir. Qeyd etmək lazımdır ki, insan resurslarının idarə edilməsi səmərəli və məhsuldar nəticələr əldə olunmasına imkan verir. Özəl sahədə insan resurslarının idarə edilməsinə olan xüsusi və əhəmiyyətli yanaşmalar, artıq dövlət sektorunada keçmişdir. Onu da vurğulamaq lazımdır ki, dövlət və özəl sektorda insan resurslarının idarə edilməsinin oxşar cəhətləri artmaqda davam edir. Bununla belə, bəzi fərqlər də mövcuddur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, hər bir müəssisə, təşkilat və ya dövlət orqanı insan resurslarına önəmli diqqət yetirməlidirlər. Çünki, insan resursları müəssisənin daxili elementi sayılır və bir çox prosesi hərəkətə gətirən güc insan faktorudur ki, bu da ən önəmli məsələdir.

ƏDƏBİYYAT SİYAHISI

40. Denhardt, Robert B. ve Janet V. Denhardt. (2009). Public Administration: An Action Orientation. Sixth edition, Belmont: Thomson Wadsworth, 295
41. Shafritz, Jay M, E.W. Russell ve Christopher P. Borick (2021). Introducing Public Administration. New York: Pearson International Edition, 18-37, 418
42. Eryılmaz, Bilal. (2010). Kamu Yönetimi. 3. baskı, Ankara: Okutman Yayıncılık, 260-274
43. Fındıkçı, İlhami. (2001). İnsan Kaynakları Yönetimi. 3. baskı, İstanbul: ALFA, 13-18
44. Düren, Zeynep. (2000). 2000'li Yıllarda Yönetim. İstanbul: ALFA, 17-19

SÜNİ İNTELLEKTİN NƏQLİYYAT SFERASI MÜƏSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ ROLU

Fərid Təbrizli
Azərbaycan Texnologiya Universiteti
Biznesin idarə edilməsi(Mühasibat uçotu üzrə)MBA
feridtebrizli07@gmail.com
ORCID : 0009-0008-2057-2512

Xülasə: Məqalədə Süni intelektin nəqliyyat sektoru müəssisələrinin idarə edilməsində çoxşaxəli rolu haqqında ümumi məlumat verilib. Məlumdur ki,əhali artımı məntiqi olaraq nəqliyyat vasitələrinin sayının və hərəkət intensivliyin artmasını doğurur. Bu artım iqtisadi tərəqqinin nəticəsi olsa da, problemsiz ötüşmür. Yolların ifrat yüklənməsi, ekoloji çirklənmə, qəza və digər problemlər də paralel surətdə artır. Nəqliyyat vasitələrinin artması sürücülərə və ümumiyyətlə nəqliyyat sferası müəsiələrinin idarə olunmasını çətinləşdirir. Bəzən də vəziyyət xaotik hal alır. Digər tərəfdən, insan yönümlü şəhərlərin yaradılması və ekoloji çirklənmənin minimuma endirilməsi üçün beynəlxalq təşkilatlar ölkələrə təzyiqi artırır. Bu yerdə dövlət qurumlarının köməyinə süni intellekt gəlir.

Xarici təcrübədən görürük ki, süni intellektin nəqliyyat sferası müəsisələrində tətbiqi müsbət nəticə verir. Müxtəlif ölkələrdə süni intellektin nəqliyyatın idarə edilməsinə tətbiqində başlıca məqsəd insan amilinin aradan qaldırılması, bu mümkün olmadıqda isə minimuma endirilməsidir.

Süni intelekt əməliyyatın səmərəliliyini, təhlükəsizliyini, müştəri xidmətlərini və davamlılığı yaxşılaşdırır, eyni zamanda təşkilatlara dəqiq məlumatlara əsaslanan düzgün qərarlar qəbul etməyə kömək edir. Süni intellekt texnologiyaları inkişaf etməyə davam etdikcə, onların nəqliyyat sferası müəsisələrinin idarə edilməsinə təsiri daha da əhəmiyyətli olacaq.

Açar sözlər **:** İnformasiya təminatı, İdarəetme uçotu, Süni intelekt, Nəqliyyat sferası, Effektivlik, İnovasiya

The Role of Artificial Intelligence in the Management of Transportation Sector Enterprises

Summary: The article provides general information about the multifaceted role of Artificial Intelligence in the management of transport sector enterprises. It is known that population growth logically leads to an increase in the number of vehicles and traffic intensity. Although this growth is the result of economic progress, it is not without problems. Overloading of roads, environmental pollution, accidents and other problems are also increasing in parallel. The increase in the number of vehicles makes it difficult for drivers and the management of transport enterprises in general. Sometimes the situation becomes chaotic. On the other hand, international organizations increase pressure on countries to create human-oriented cities and minimize environmental pollution. This is where artificial intelligence comes to the aid of state institutions.

From foreign experience, we see that the application of artificial intelligence in the transport sector brings positive results. The main goal of applying artificial intelligence to traffic management in different countries is to eliminate the human factor, and if this is not possible, to minimize it.

Artificial intelligence improves operational efficiency, security, customer service and sustainability while helping organizations make the right decisions based on accurate data. As artificial intelligence technologies continue to develop, their impact on the management of transportation enterprises will become even more significant.

Keywords: Information provision, Management accounting, Artificial intelligence, Transport sphere, Efficiency, Innovation

Роль искусственного интеллекта в управлении предприятиями транспортной отрасли

Реферат: В статье приведены общие сведения о многогранной роли искусственного интеллекта в управлении предприятиями транспортной отрасли. Известно, что рост населения логично приводит к увеличению количества транспортных средств и интенсивности движения. И хотя этот рост является следствием экономического прогресса, он не обходится без проблем. Параллельно растут перегрузка дорог, загрязнение окружающей среды, аварийность и другие проблемы. Увеличение количества транспортных средств усложняет работу водителей и

руководства транспортных предприятий в целом. Иногда ситуация становится хаотичной. С другой стороны, международные организации усиливают давление на страны с целью создания городов, ориентированных на человека, и минимизации загрязнения окружающей среды. Именно здесь на помощь государственным институтам приходит искусственный интеллект.

Из зарубежного опыта мы видим, что применение искусственного интеллекта в транспортной сфере приносит положительные результаты. Основная цель применения искусственного интеллекта для управления дорожным движением в разных странах - исключить человеческий фактор, а если это невозможно, то свести его к минимуму.

Искусственный интеллект повышает операционную эффективность, безопасность, качество обслуживания клиентов и устойчивость развития, помогая организациям принимать правильные решения на основе точных данных. По мере дальнейшего развития технологий искусственного интеллекта их влияние на управление транспортными предприятиями будет становиться все более значительным.

Ключевые слова: Информационное обеспечение, Управленческий учет, Искусственный интеллект, Транспортная сфера, Эффективность, Инновации.

Giriş

Süni intellektin nəqliyyat sektorundakı rolu müxtəlif ölkələrdə diqqətlə araşdırılır. Nəqliyyatın intensivləşməsi, artan sürücülük və nəqliyyat sənayesindəki artım iqtisadi inkişafı təmin edir, amma bu da yolların yüklənməsi, çevrəyə zərər, qəzalar və idarənin müəyyən olunmasında çətinliklər kimi problemləri də artırır.

Süni intellektin tətbiqi bir çox ölkədə nəqliyyat idarəetməsində müsbət nəticələr verir. İnsan amilinin sərfələrinin azaldılması və ya minimuma endirilməsi, bu mümkün olmadıqda isə, ən azı səmərəlilik və effektivlikdə artımı təmin edir. Bu texnologiyalar, təhlükəsizliyi, müştəri xidmətlərini və işin davamlılığını artıraraq, qərarların düzgün qəbul edilməsində təşkilatlara kömək edir.

Süni intellektin nəqliyyat sektorunda daha da irəliləməsi ilə birlikdə, idarəetməyə olan təsiri də daha da əhəmiyyətli olacaq. Dövlət qurumlarına bu texnologiyaların dəstəyi, insan yaradıcı fəaliyyətlərini daha yaxşılaşdırmaq və çevərə minimal zərər verməyə kömək edir.

Giriş yazısında məqalənin mühüm mövzularını vurğulamaq və oxucuların marağına cavab vermək əhəmiyyətli olacaq. Süni intellektin nəqliyyatın idarə olunmasında tətbiqi mövzusunda olan dəyişikliklər və faydalar barədə daha ətraflı məlumatlar da qeyd edilə bilər.

Tədqiqat metodu

Nəqliyyat müəsisələrinin illik hesabatı

2023-cü ilin yanvar-iyul ayları ərzində yük və sərnişin daşımaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 6,5 faiz və 16,3 faiz artmışdır.

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 128,3 milyon ton yük daşınmışdır. Yüklərin 4,2 faizi dəniz, 8,3 faizi dəmir yolu, 0,1 faizi hava, 56,0 faizi avtomobil nəqliyyatı, 31,4 faizi isə boru kəməri ilə daşınmışdır.

Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, faizlə Qrafik 11



Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 5,2 faiz artmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 76,8 faiz təşkil etmişdir. 2023-cü ilin

yanvar-iyul aylarında nəqliyyatçılar 1041,1 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87,5 faizi avtomobil nəqliyyatı, 11,9 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır

Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 5,2 faiz artmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 76,8 faiz təşkil etmişdir.

2023-cü ilin yanvar-iyul aylarında nəqliyyatçılar 1041,1 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87,5 faizi avtomobil nəqliyyatı, 11,9 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır

Dəmir yolu nəqliyyatı ilə 2023-cü ilin yanvar-iyul aylarında 10,6 milyon ton yük, 3753,9 min sərnişin daşınmış, 2022-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 4,6 faiz, sərnişin daşınmasında isə 50,8 faiz artım müşahidə olunmuşdur.

Orta hesabla sutkada yüklənmiş və boşaldılmış vaqonların hər birinin sayı 415-ə bərabər olmuşdur.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 21,0 min ton, Qərb istiqaməti üzrə 2,8 min ton, Cənub istiqaməti üzrə isə 0,8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

Dəniz nəqliyyatı ilə 2023-cü ilin yanvar-iyul aylarında daşınmış yüklərin həcmi 5341,5 min ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 24,8 faiz artmışdır. Yüklərin 56,9 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 7445,8 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 6111,9 min tonunu və ya 82,1 faizini tranzit yüklər təşkil etmişdir.

2023-cü il avqust ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 285,7 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2022-ci ilin müvafiq dövrünə nisbətən 5,8 faiz artaraq 12,7 min nəfər olmuşdur

Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton (Qrafik 12)

Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi, min ton



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 71,8 milyon ton yük, 911,5 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,1 faiz və 17,3 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 95,0 faizi avtobus, 5,0 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 4,7 faiz, sərnişin dövriyyəsi isə 17,0 faiz artmışdır.

Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 8,8 faiz artaraq 124,3 milyon nəfər olmuşdur.

Hava nəqliyyatı ilə 1568,3 min və ya 37,8 faiz çox sərnişin daşınmış, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 38,1 faiz azalaraq 168,5 min ton olmuşdur.

Magistral neft kəmərləri ilə 23076,5 min ton neft nəql edilmişdir. Nəqletmənin 76,3 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-iyul ayları ərzində bu kəmər vasitəsilə 17615,0 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 83,5 faizini və ya 14706,3 min tonunu Azərbaycanda hasil edilən neft, 16,5 faizini və ya 2908,7 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil etmişdir.

Magistral qaz kəmərləri ilə 23978,5 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artım müşahidə olunmuşdur. Qazın nəqlinin 53,1 faizi BakıTbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 12737,9 milyon kub-metr qaz ötürülmüşdür

Süni intellekt (SI) nədir və necə işləyir??

Süni intellekt insan zəka proseslərinin maşınlar, xüsusən də kompüter sistemləri tərəfindən simulyasiyasıdır. Süni intellektin xüsusi tətbiqlərinə ekspert sistemləri , təbii dil emalı , nitqin tanınması və maşın görmə daxildir.Süni intellekt ətrafında şırınga artdıqca, satıcılar məhsul və xidmətlərinin ondan necə istifadə etdiyini təbliğ etməyə çalışırlar. Çox vaxt SI adlandırdıqları şey maşın öyrənməsi kimi texnologiyanın sadəcə bir komponentidir . Süni intellekt maşın öyrənmə alqoritmlərinin yazılması və öyrədilməsi üçün xüsusi aparat və proqram təminatının təməlini tələb edir. Heç bir proqramlaşdırma dilinin süni intellektlə sinonimi yoxdur, lakin Python, R, Java, C++ və Julia süni intellekt tərtibatçıları arasında populyar xüsusiyyətlərə malikdir.

SI proqramlaşdırması aşağıdakıları əhatə edən xüsusi bacarıqlara diqqət yetirir:

- **Öyrənmək**. Süni intellekt proqramlaşdırmasının bu aspekti məlumatların əldə edilməsinə və onların hərəkətə keçə bilən məlumata çevrilməsinə dair qaydaların yaradılmasına diqqət yetirir. Alqoritmlər adlanan qaydalar hesablama cihazlarına konkret tapşırığı necə yerinə yetirmək üçün addım-addım təlimatlar verir.
- **Əsaslandırma**. Süni intellekt proqramlaşdırmasının bu aspekti istənilən nəticəyə çatmaq üçün düzgün alqoritmin seçilməsinə diqqət yetirir.
- **Öz-özünə düzəliş.** Süni intellekt proqramlaşdırmasının bu aspekti alqoritmləri daim dəqiqləşdirmək və onların mümkün olan ən dəqiq nəticələri təmin etmək üçün nəzərdə tutulub.
- **Yaradıcılıq**. Süni intellektin bu aspekti yeni şəkillər, yeni mətn, yeni musiqi və yeni ideyalar yaratmaq üçün neyron şəbəkələrdən, qaydalara əsaslanan sistemlərdən, statistik metodlardan və digər süni intellekt üsullarından istifadə edir.

Nəqliyyat bazarında qlobal süni intellekt 19,4% mürəkkəb illik artım tempi (CAGR) ilə 2022-ci ildəki 2,6 milyard dollardan 2023-cü ildə 3,1 milyard dollara yüksəldi. Nəqliyyat bazarında süni intellektin 2027-ci ildə 19,4% CAGR ilə 6,3 milyard dollara qədər artacağı gözlənilir.

Nəqliyyatda süni intellekt yol hərəkəti qaydalarını toplayır, yol sıxlığını minimuma endirir və ictimai nəqliyyat cədvəllərini yaxşılaşdırır. Bu proses logistikanı optimallaşdırmağa kömək edir və əməliyyat müddətini azaldır.

Fərqli texnologiyalara dərin öyrənmə, kompüter görmə, kontekstdə məlumatlılıq və siqnalın tanınması, obyektin tanınması və məlumatların çıxarılması kimi müxtəlif prosesləri əhatə edən təbii dil emalı daxildir. O, yarı avtonom yük maşınlarında, yük maşınlarında, proqnozlaşdırıcı texniki xidmətdə, dəqiqlik və xəritəçəkmədə, avtonom yük maşını və digər tətbiqlərdə istifadə olunur.

Avtonom nəqliyyat vasitələrinə artan tələbatın gələcəkdə nəqliyyat bazarında süni intellektin böyüməsinə təkan verəcəyi gözlənilir. Avtonom nəqliyyat vasitəsi adaptiv İdarəetmə, aktiv sükan, bloklanmaya qarşı əyləc sistemləri, GPS naviqasiyası kimi müxtəlif avtomobildaxili texnologiya və sensorlardan istifadə edərək başlanğıc nöqtədən müəyyən təyinat yerinə "avtopilot" rejimində özünü idarə edə bilən nəqliyyat vasitəsidir. texnologiya, lazer və radar. Avtonom avtomobillər avtomobili idarə etmək və hər hansı qəza və ya maneələri hiss etmək üçün süni intellektdən istifadə edir.

Nəqliyyat bazarında süni intellektə qurumların yol hərəkətinin idarə edilməsi sistemləri, pilotsuz təyyarə sistemləri, qatarların istismarının avtomatlaşdırılması (ATO), gəmiçilik üçün avtomatik identifikasiya sistemləri (AIS) və avtonom naviqasiyadan əldə etdiyi gəlirlər daxildir. Bazar dəyərinə xidmət təminatçısı tərəfindən satılan və ya xidmət təklifinə daxil edilən müvafiq malların dəyəri daxildir. Yalnız müəssisələr arasında ticarət edilən və ya son istehlakçılara satılan mal və xidmətlər daxildir.

Nəqliyyat bazarında süni intellektin əsas oyunçularıdır

- Volvo Avtomobilləri
- Mercedes-Benz Group AG
- Scania AB
- Peloton Interactive, Inc.
- Valeo
- Xevo Inc
- NVIDIA Korporasiyası

- Intel Korporasiyası
- Robert Bosch GmbH
- Continental AG
- Microsoft korporasiyası
- IBM Korporasiyası
- Magna International Inc.
- ZF Friedrichshafen AG.



Nəqliyyat və əlaqəli sahələrdə Big Data Analitikası (Böyük həcmli verilənlərin emalı)

Big data analitikası süni intellekt texnologiyasının nəqliyyatda tətbiqinin başqa bir nümunəsidir. O, şirkətlərə paketin ölçüsü, çəkisi, təyinatı və s. haqqında məlumat toplamaqla dəqiq proqnozlar qurmağa imkan verir. Bir çox şirkətlər bu məlumatı necə faydalı və müvafiq şəkildə tətbiq edəcəyini bilməsələr də, Big data analitikası bu problemi həll edir.Bütün prosesi asanlaşdırır, beləliklə də onu daha aydın,daha asan və səhvsiz idarə etmiş oluruq . Satınalma nümunələrini təhlil edərək, böyük məlumat alətləri gələcək bazar tendensiyalarını proqnozlaşdıra və sizin üçün qərar qəbul etmə prosedurunu sadələşdirə bilər.

Logistikada Big datadan istifadənin gözəl nümunəsi onun natamam sifarişi tarixi məlumatlardan əldə edilən məlumatlarla doldurmaq qabiliyyətidir. Bu xüsusi funksiya təchizat idarəetmə prosesini sürətləndirir və müştəri təcrübəsini artırır

Əməliyyat xərclərinin azaldılması

Nəqliyyat sənayesində Süni İntellektin tətbiqi əməliyyat xərclərini də azaldır. Yuxarıda qeyd edildiyi kimi, tıxacın yaratdığı əməliyyat xərcləri 2016-cı ildə 74,5 milyard dollara qədər olub.Bu, 2015-ci illə müqayisədə faktiki olaraq 0,5% artıb. Nə gözlədiyini bilmək və ən yaxşı marşrutu tapmaqla şirkətlər daha az avtomobil işə götürə bilər və beləliklə, əmək haqqı, texniki xidmət xərcləri, marketinq xərcləri və istehsal xərcləri də daxil olmaqla əməliyyat xərclərinin böyük bir hissəsinə qənaət edə bilər. Biznesinizin növündən asılı olaraq, siyahınız digər ödənişlərlə genişləndirilə bilər.

Aydındır ki, qeyd olunan xərclərin bəzilərini nəqliyyatda Süni İntellektin tətbiqi ilə azaltmaq olmaz, məsələn, bank haqları və ya digər dolayı xərclər. Lakin şirkətlər bəzi işçiləri maşınlarla əvəz etməklə əməliyyat xərclərinə qənaət edə, bununla da onların vəzifələrini avtomatlaşdıra bilərlər. Bundan əlavə, süni intelektlə əməliiyat xərclərinin idarə olunması işin surətlənməsi həmçinin xərclərin azalmasında böyük rol oynuyur.

İnventar İdarəetmə

Süni intellekt texnologiyası ilə idarə olunan avtomatlaşdırma inventar və anbar idarəçiliyində həqiqətən inqilab etdi. Logistika və nəqliyyat sektoru üçün süni intellektlə inteqrasiya olunmuş anbar robotları gündəlik tapşırıqları daha səmərəli və səhvsiz yerinə yetirməyə qadirdir.

İstehlakçı davranışını təhlil edərək, süni intellekt anbar ehtiyatlarını minimum səviyyədə saxlaya bilir, beləliklə texniki xidmət və icarə xərclərini əhəmiyyətli dərəcədə azaldır. Nəqliyyat sənayesində süni intellekt həm qısamüddətli, həm də uzunmüddətli proqnozlar verə bilər. Qısa müddətdə o, təklifi tələblə müqayisə edə bilər və anbarınızda yalnız əsasları saxlamağınızdan əmin ola bilər, uzunmüddətli proqnozlar isə tendensiyaların qurulmasına və mövsümi tələblərin müəyyən edilməsinə istinad edir.

Nəticə

Günümüzdə Süni intelektin nəqliyyat sferası müəsisələrinin idarə olunmasında tətbiqi mövzusu aktual hesab edilir.Bu istiqamət üzrə dünyada bir çox yenilikçi işlər görülür.Düşünürəm ki,ölkəmizdədə Nəqliyyat sferası müəsisələrinin az xərclə və daha dəqiq idarə olunması üçün süni intelektin tətbiqi vacibdir.

Ədəbiyyat Reference Литература

1. S.Q. Kərimov "İdarəetmənin infasiya texnologiyaları və korporativ informasiya sistemləri". Bakı, 2010, 426 s.
2. M.Ə.Əhmədov "İdarəetmə uçotu və informasiya texnologiyaları" 124 səh
3. https://avtosfer.az/az/yazarlar/suni-intellekt-neqliyyat-probleminin-hell-yolu-kimi-xarici-tecrube-193030
4. https://integrio.net/blog/benefits-of-artificial-intelligence
5. https://www.businesswire.com/news/home/20230801549200/en/Global-Artificial-Intelligence-in-Transportation-Research-Report-2023-2032-Optimizing-Logistics-with-Reduced-Turnaround-Times-and-Enhancing-Public-Transportation-Schedules-and-Traffic-Patterns---ResearchAndMarkets.com
6.Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi " Sosial iqtisadi inkşaf "
7. https://www.brookings.edu/articles/how-artificial-intelligence-is-transforming-the-world/

BİZNESLƏR ÜÇÜN MÜŞTƏRİ TÖVSİYƏSİ İNDEKSİNİN (NPS) ƏHƏMİYYƏTİ

FƏRZANƏ SƏMƏDZADƏ
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə fakültəsi
fsamadzade@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müştəri tövsiyəsi indeksi müştəri loyallığını və məmnuniyyətini ölçmək üçün biznes dünyasında geniş istifadə olunan ölçüdür. Müştəri tövsiyəsi indeksi yanaşmasına əsasən müştərilərə ünvanlanan bir sualla onların bizneslə bağlı təcrübələrini və nə dərəcədə loyal müştəri olduqları müəyyən edilir. Müştəri tövsiyəsi indeksi populyar bir göstərici olaraq bir çox şirkətlər tərəfindən geniş istifadə edilsə də, müştəri loyallığının ölçüsü kimi onun effektivliyinə dair tənqidlər və məhdudiyyətlər var. Bu araşdırmada müştəri tövsiyəsi indeksinin mahiyyəti, hesablanması və onun əsas məhdud tərəfləri ilə bağlı məsələlər araşdırılmışdır. Müştəri tövsiyəsi indeksinin bizneslər üçün əhəmiyyətinin araşdırılması zamanı sistemli və fenomenoloji yanaşma metodlarından istifadə edilmişdir.

AÇAR SÖZLƏR: müştəri loyallığı, bizneslərdə böyümə, müştəri tövsiyəsi indeksi, NPS.

ABSTRACT

In the business world, the net promoter score is a common metric for measuring customer loyalty and satisfaction. The net promoter score approach involves asking one question to customers to determine their experience with the business and how loyal they are. While the net promoter score is widely used as a popular indicator by many companies, it has been criticised and limited as a measure of customer loyalty. The purpose of this study was to investigate the nature, calculation, and main limitations of the net promoter score. The net promoter score's importance for businesses was investigated using systematic and phenomenological approaches.

KEY WORDS: customer loyalty, business growth, net promoter score, NPS.

GİRİŞ

Bizneslər üçün əsas məqsədlər dedikdə, mənfəətlilik, böyümə və davamlılığı qoruyub saxlaya bilmək maddələri ilk sıralarda gəlir. Bütün sadalanan məqsədlər bizneslər üçün rifah və uğurun mühərrikidir. Bu məqsədlərə yönəlik fəaliyyət göstərən bizneslər inkişaf edir, lakin bu məqsədlərdən hər hansı birinə etinasız yanaşan şirkətlər isə məhv olur.

Böyüməyə aparan yol təkcə yeni müştəriləri cəlb etmək deyil, həm də təşkilatların hal-hazırda sahib olduğu müştəriləri saxlamaq və onları daha çox xərcləməyə həvəsləndirməkdən keçir. Əksər şirkətlərin bu baxımdan əsas problemi müştərilər ilə münasibətləri doğru idarə edilə bilinməməsi. Bunun səbəbi, doğru hərəkətləri edə biləcəkləri ətraflı məlumatların olmaması və bunun ölçülməsi problemləridir.

Məlumdur ki, müştərilər və onların aktivliyi gəlirli böyümənin aparıcı qüvvəsidir. Bunu qəbul etmək asan olsa da, müştəri münasibətlərini effektiv şəkildə ölçmək və idarə etmək tamamilə fərqlidir. Buna görə də, bizneslər üçün müştəri münasibətlərini izləmək və müştərilərin qarşılanmamış ehtiyaclarını müəyyən etmək vacibdir. Bizneslər müştərilərin həqiqətən necə hiss etdiyini və nə edə biləcəyini ölçməlidirlər. Həmçinin, şirkətlər bu məlumatın biznesə təsirini başa düşməlidirlər.

Rəqabətin artması səbəbindən müştərilərin çoxlu seçimləri var, bu da bizneslərə müştərini müəssisəyə sadiq edənin nə olduğunu tapmaq üçün çətinlik yaradır. Rahatlıqla qeyd edə bilərik ki, müştərinin öz yaxın ətrafına şirkət və ya brend tövsiyə etməsi sadiqliyin ən yaxşı göstəricilərindən biridir. Buna görə də, sadiq müştəri ən yaxşı satış təmsilçisidir. O cümlədən, sadiq müştəri təkrar alış-veriş edir və başqalarının alış-verişinə təsir edir, bu da şirkətin müştəri əldəetmə xərclərini azaltmağa kömək edir.

Beləliklə, müştəri məmnuniyyəti və müştəri loyallığı müasir idarəetmədə çox vacib anlayışlara çevrilmişdir. Bununla əlaqədar olaraq, 2003-cü ildə nüfuzlu Harvard Biznes Revyu jurnalında Frederik Rayxeld "net promoter score" (NPS) - müştəri tövsiyəsi indeksini açıqlayır. O qeyd edirdi ki, müştəri sorğusundan alınan bu vahid indeks müştəri loyallığını sərfəli şəkildə ölçmək və idarə etmək üçün yetərli bir əsasdır.

Müştəri tövsiyəsi indeksi anlayışının mahiyyəti

Müştəri tövsiyəsi indeksi müştəri məmnuniyyəti və loyallıq sahəsində geniş istifadə olunan bir ölçüdür. Müştəri məmnuniyyətini və sədaqətini ölçmək üçün bir ölçü olaraq müştəri tövsiyəsi indeksinin effektivliyini və uyğunluğunu dəstəkləyən artan tədqiqatlar qrupu mövcuddur. 2003-cü ildə Frederik Rayxeld və Bain & Company tərəfindən hazırlanmış bu ölçü, müştərinin başqalarına məhsul və ya xidməti tövsiyə etmə ehtimalını qiymətləndirmək məqsədi daşıyır. Bu ölçü tək bir suala əsaslanır: "Şirkətimizi/məhsulumuzu/xidmətimizi dostunuza və ya həmkarınıza tövsiyə etmək ehtimalınız nə qədərdir?"

F.Rayxeld iddia edir ki, geniş sorğular aparmağa, ətraflı statistik təhlillər aparmağa ehtiyac yoxdur. Yalnız "Şirkətimizi dostunuza və ya həmkarınıza tövsiyə etməyiniz nə dərəcədə mümkündür?" sualı müştəri loyallığını və şirkətin gəlirliyini müəyyən edə bilər (Reichheld, 2003). Şirkətin böyüməsi yuxarıda qeyd olunan suala əsaslanaraq şirkətin "təşviq edənlərin" sayı ilə mütənasib olacaq. Rayxeldə görə təşviq etmək istəyi sədaqət və nəticədə şirkətin böyüməsinin güclü göstəricisidir, çünki müştərilər tövsiyə edərkən öz reputasiyalarını təhlükə altına qoyurlar və onlar bunu yalnız güclü loyal müştəri olduqları zaman edəcəklər.

Müştəri tövsiyəsi indeksinin istifadəsi qeyri-hökumət və hökumət təşkilatlarında da tətbiq olunduğu üçün özəl sektorla məhdudlaşmır. Səhiyyə sahəsində də xəstələrin iş mühitindən məmnunluğunu ölçmək üçün müştəri tövsiyəsi indeksindən istifadə edilmişdir. Son illərdə müştəri tövsiyəsi indeksi müxtəlif kontekstlərdə əhəmiyyətli diqqət və populyarlıq qazanmışdır.

Bundan əlavə, NPS (müştəri tövsiyəsi indeksi) qısaltmasının iki mənası var: müştəri tövsiyəsi indeksi (net promoter score) və müştəri tövsiyəsi sistemi (net promoter system). Bu yeni əlavəyə görə sadəcə bir sual və onun cavabının rəqəmlə ifadə edilməsi bizə sona qədər faydalı ola bilməz, müştəriyə alınan cavabdan sonra niyə sualının verilməsi və alınan cavablarla sonrakı fəaliyyətlərin planlaşdırılması artıq bir sistem yanaşmasıdır.

Digər tərəfdən, müştəri tövsiyəsi indeksi müştəri məmnuniyyətini və loyallığını qiymətləndirmək üçün qeyri-qənaətbəxş bir ölçü olaraq tənqid edilmişdir (Fisher və Kordupleski, 2019). Bununla belə, bu tənqidə baxmayaraq, müştəri tövsiyəsi indeksi müştəri məmnuniyyəti və sadiqlik ölçüsü kimi Fortune 1000 şirkətləri tərəfindən geniş şəkildə qəbul edilməyə və istifadə olunmağa davam edir.

Müştəri tövsiyəsi indeksi, ilkin olaraq müştəri sədaqətini ölçmək üçün işlənib hazırlanmış, lakin o vaxtdan maraqlı tərəflərin məmnunluğunu qiymətləndirmək və maliyyə fəaliyyətini proqnozlaşdırmaq üçün müxtəlif sənaye sahələrində geniş tətbiq olunan ölçüdür. Bundan əlavə, müştəri tövsiyəsi indeksi yalnız müştəri məmnuniyyətini və sədaqətini ölçmür, həm də şirkətlərin, məhsulların və ya iş mühitinin ümumi sağlamlığı və keyfiyyəti haqqında dəyərli fikirlər təqdim edir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, müştəri tövsiyəsi indeksi və müştəri loyallığı arasındakı əlaqəni, həmçinin şirkətin böyüməsi üçün proqnozlaşdırıcı olaraq qiymətləndirmək olar. Bir çox araşdırmaçılar müştərilərin sədaqətinə və əminliyinə diqqət yetirməyin şirkətlərə daha yüksək mənfəət və loyallıq qazandıracağı qənaətinə gəlmişdilər. Lakin bəzi tədqiqatlar göstərdi ki, müştəri tövsiyəsi indeksi müştəri sədaqəti ilə bağlı bəzi fikirlər verə bilsə də, şirkətin böyüməsini dəqiq proqnozlaşdırmaqda zəifdir.

Müştəri tövsiyəsi indeksinin hesablanması metodologiyası

İlk öncə "Şirkətimizi (məhsulumuzu, xidmətimizi) dostunuza və ya yaxınlarınıza tövsiyə etməyiniz nə dərəcədə mümkündür?" sualını ünvanlayaraq, müştəridən 0-dan 10-a qədər olan şkala ilə qiymətləndirməyi istənilir. 0-dan 10-a qədər olan şkala əsasında suala cavab verən müştərilər arasında 0-dan 6-a qədər qiymət verən hər kəs "imtina edənlər", 7 və ya 8 cavabını verənlər "passivlər və ya neytrallar", 9 və ya 10 cavabını verənlər isə "təşviq edənlər" kimi etiketlənirlər. Sonra 9 və 10 cavabı verən şəxslərin (təşviq edənlər) ümumi respondent sayına nisbətindən 0-6 cavabı verən şəxslərin (imtina edənlər) ümumi respondent sayında olan nisbəti çıxılır, nəticə faizlə ifadə olunur və müştəri tövsiyəsi indeksi hesab edilir.

$$\%NPS = \left[\frac{P}{T}x100\right] - \left[\frac{D}{T}x100\right]$$

P- təşviq edənlər

D- imtina edənlər

T- ümumi respondentlərin sayı

Bu yanaşmaya əsasən suala 9-10 bal olaraq cavab verən "təşviq edənlər"- bizneslə bağlı yaxşı təcrübələri olan, ətrafına rahatlıqla tövsiyə edə bilən, hətta sizin müdafiəçiniz kimi çıxış edən müştərilər qrupudur, cavab olaraq 7-8 bal verən "passivlər" - məhsulunuzdan razıdırlar, lakin onu tanıtmaq üçün kifayət qədər həvəsli deyillər və başqa şirkətlə sizi əvəz edə bilərlər, son olaraq sualınızı 0-6 arası balla qiymətləndirənlər yəni "imtina edənlər" - bizneslə pis təcrübə yaşamış müştərilərdir ki, onların yenidən satınalma etmə ehtimalları azdır, hətta başqalarını məhsulunuzdan çəkindirə bilərlər və narazılıqları ilə markanıza zərər verə bilərlər.

Əldə olunan nəticəyə əsasən -100-dən 0-a qədər olan nəticə qeyri-məqbul, -100-dən -50-yə qədər yetərsiz, -49-dan 0-a isə qeyri-kafi olacaq. Yetərsizlik dedikdə, xidmətin keyfiyyətinin müştəri tərəfindən əhəmiyyətli dərəcədə mənfi şəkildə qəbul edilməsi deməkdir. Qeyri-kafi xidmətin keyfiyyətinin müştəri tərəfindən mənfi qəbul edilməsi deməkdir. 0-dan 100-ə qədər olan nəticə qənaətbəxşdir, 0-dan 49-a qədər məqbuldur və 50-dən 100-ə qədər əladır. Məqbul dedikdə, xidmətin keyfiyyətinin müştəri tərəfindən müsbət qəbul edilməsi, əla dedikdə isə, xidmətin keyfiyyətinin müştəri tərəfindən əhəmiyyətli dərəcədə müsbət şəkildə qəbul edilməsi başa düşülür (Reichheld və Markey, 2011).

Müştəri tövsiyəsi indeksi ilə bağlı məhdudiyyətlər və tənqidlər

Müştəri tövsiyəsi indeksi (NPS) müştəri məmnuniyyətini və sədaqətini ölçmək üçün bir ölçü kimi geniş istifadə edilsə də, mükəmməl deyil. Təbii ki, müştəri tövsiyəsi indeksi ilə əlaqəli bəzi çatışmazlıqlar mövcuddur.

Əvvəla onu qeyd etmək lazımdır ki, sadəcə müştəri tövsiyəsi indeksindən istifadə məsələyə bir ölçülü baxmaq deməkdir. Problemi təhlil edərkən və problemin arxasında duran səbəbləri tapmağa çalışarkən problemi bütün mümkün aspektlərdən təhlil etmək lazımdır. Problem yalnız bir bucaqdan təhlil edilərsə, müxtəlif digər bucaqlar və əslində problemə səbəb ola biləcək müxtəlif digər mühüm amillərin kənarda qalması ehtimalı yarana bilər. Yüksək və ya daha aşağı müştəri tövsiyəsi indeksi, özlüyündə yalnız bir rəqəmdir və şirkətin buna necə nail olduğu və ya müəyyən müştəri tövsiyəsi indeksini aldıqdan sonra şirkətin qəbul etməli olduğu tədbirlər toplusu haqqında heç bir məlumat vermir.

Müştəri tövsiyəsi indeksi sadə bir ölçüdür, bu da onun güclü tərəflərindən biridir. Bununla belə, onun sadəliyi də bir məhdudiyyət ola bilər, çünki müştəri əhval-ruhiyyəsini tək bir rəqəmə endirmək müştəri məmnuniyyəti və sədaqətinin mürəkkəb təbiətini çox sadələşdirə bilər.

Bundan əlavə, bizneslər üçün sadiq müştərilərin saxlanılmasının vacibliyi danılmaz bir faktdır, ancaq yeni müştərilər qazanmadan biznes inkişaf edə bilməz. Nə olursa olsun, bizneslər həmişə müştərilərin müəyyən faizini itirəcəklər, ona görə də, yeni müştəriləri qazanmaq da vacibdir. Müştəri tövsiyəsi indeksi mövcud müştərilərin sədaqət göstəricilərindən biri olsa da, lakin biznes uğuru üçün kifayət qədər yaxşı deyil, çünki bizə yeni müştərilərin qazanılması ilə bağlı konkret bir məlumat vermir.

Onu da qeyd etmək lazımdır ki, müxtəlif sənaye sahələrində müştəri tövsiyəsi indeksi sahənin, bazarın, məhsulların və başqa amillərin təsirindən dəyişə bilər. Bu da fərqli sənayelər üzrə və hətta eyni sənaye daxilində müştəri tövsiyəsi indeksi xallarını müqayisə etməkdə çətinlik yarada bilər. Sənaye normaları və müştərilərin gözləntiləri dəyişdiyi üçün birbaşa müqayisələr məqsədəuyğun olmaya bilər.

Bildiyimiz kimi, müştəri tövsiyəsi indeksi yanaşması müştəriləri təşviq edənlər, passiv və imtina edənlər olaraq üç kateqoriyaya ayırır. Müştəri tövsiyəsi indeksi göstəricisi üzərində müştəri loyallığına yanaşma biznesi rahatlıqla tövsiyə edənlər və ya bundan imtina edənləri dəqiq ayırsa da, passiv müştərilərin əhəmiyyəti haqqında yetərli məlumat vermir. Buna görə də, müştəri tövsiyəsi indeksinin "passiv müştərilər" kateqoriyası əslində mahiyyət etibarilə əhəmiyyətsizdir, çünki bu müştərilər müsbət və ya mənfi danışmaqda passiv, yəni neytral ola bilər, lakin onlar daha başqa fürsətləri dəyərləndirmək üçün rəqiblərdən alış-veriş etməyə çox hazırdırlar. Qısacası, passiv müştəri deyə bir şey yoxdur (Fisher və Kordupleski, 2019).

Müştəri tövsiyəsi indeksi göstəricilərinin təfsiri mədəniyyətlər və regionlar üzrə dəyişə bilər. "Yaxşı" və ya "pis" deyə adlandırdığımız göstəricilər bölgələr üzrə fərqli ola bilər ki, bu da müştəri tövsiyəsi indeksini qlobal arenada bizneslərin performansını müqayisə etmək üçün istifadəsini çətinləşdirə bilər.

Əlavə olaraq bir də onu qeyd etmək olar ki, müştəri tövsiyəsi indeksi müştərilərin bir suala verdiyi subyektiv cavablara əsaslanır ki, bu da qərəzli yanaşma və subyektivlik ehtimalını yaradır. Şəxsi, mövcud şəraitlə bağlı əhval-ruhiyyə və ya son yaşanılan təcrübələr kimi amillər cavablara təsir edə bilər ki, bu da müştərinin biznesə qarşı real münasibətini dəqiq əks etdirməyə bilər.

Bu məhdudiyyətlərin bəzilərini aradan qaldırmaq üçün təşkilatlar çox vaxt müştəri tövsiyəsi indeksini əlavə müştəri rəy mexanizmləri, ümumi keyfiyyət təhlili və başdan sona müştəri təcrübəsini analiz etmək kimi bir çox yanaşmaları ilə tamamlayırlar.

NƏTİCƏ

Beləliklə, müştəri tövsiyəsi indeksi biznesdəki müştəri sədaqətinin və məmnuniyyətinin ümumi mənzərəsini müəyyən etmək üçün kompas rolunu oynayır. Bu göstərici sayəsində toplanan fikirlər müştərilərin bizneslə bağlı təəssüratlarının anlıq görüntüsünü təqdim edərək, biznesin güclü tərəflərinə və təkmilləşdirilə biləcək sahələrə istinad yaradır.

Bizneslərin müştəri tövsiyəsi indeksi göstəricilərini yüksəltməyə doğrultusunda hərəkət etmək-ləri sadəcə bir rəqəmin artırılması demək deyil, bu həm də müştərilərin paylaşdığı rəy və fikirləri detallı araşdırmağı ehtiva etməlidir. Mövcud müştəri tövsiyəsi indeksi biznesin müştərilər ilə münasibətlərdə müsbət rezonans doğuran aspektlərini işıqlandırır ki, bunu məhsul və xidmətlərimizi dəstəkləyən "təşviq edən" müştərilər qrupu sübut edir. Eyni zamanda, "imtina edən" müştəri qrupu biznesdə diqqət və strateji müdaxilə tələb edən sahələri dəqiq müəyyənləşdirməyə kömək edə bilərlər. Çox vaxt diqqətdən kənarda qalan "passiv" müştərilər isə əslində "təşviq edənlər"-ə çevrilmək üçün gizli bir fürsətdir.

Digər tərəfdən isə müştəri tövsiyəsi indeksi sorğusu vasitəsilə toplanmış rəyləri nəzərə alaraq, müştəri tövsiyəsi indeksinin müştəri loyallığı və tövsiyələri ilə bağlı dəyərli fikirlər təqdim etdiyini, lakin bunun ən etibarlı və dəqiq ölçü olmadığını da deyə bilərik. Bu göstəricinin müəyyən məhdudiyyətləri var ki, onlar müştərinin bizneslə bağlı real fikirlərini təhrif edə bilər.

Araşdırmadan da aydın olur ki, müştərinin sizi müdafiə etməsi çox yönlü bir işdir. Riyazi hesablamadan əlavə, açıq suallara alınan cavablar müştərinin bizneslə bağlı təcrübələrinin incəliklərinə dair daha çox fikirlər təklif edir. Konstruktiv tənqidləri qəbul etmək və müsbət rəylərdən istifadə etmək, biznesin irəliyə doğru addımlarının formalaşmasında mühüm rol oynayacaq.

Təbii ki, bizneslərin məqsədlərinə çatmaq yolları sadəcə bir göstərici ilə bitmir və davamlı təkmilləşmə tələb edir. Bizneslər məqsədlərinə doğru irəliləyərkən, bu təhlildən əldə edilən və icra edilə bilən tövsiyələr strategiyalar dəqiqləşdirmək, müştəri məmnuniyyətini artırmaq və nəhayət, müştəri tövsiyəsi indeksini yüksəltmək üçün yol xəritəsi rolunu oynaya bilər. Müştəriləri dinləmək, öyrənmək və uyğunlaşmaq öhdəliyi müştəri gözləntilərinin inkişaf etdiyi dinamik bazarda çox vacibdir.

Əslində, müştəri tövsiyəsi indeksi sadəcə bir ölçü deyil, təşkilati inkişaf və müştəri mərkəzliliyi üçün katalizatordur. Müştəriləri başa düşmək və onların fikirlərini real hərəkətlərə çevirmək öhdəliyi sayəsində bizneslər nəinki onların gözləntilərini qarşılamaq, həm də üstələmək üçün mövqelənirlər.

Tədqiqata əsaslanan ümumi nəticə ondan ibarətdir ki, bizneslər yalnız müştəri tövsiyəsi indeksinə güvənmək əvəzinə, müxtəlif müştəri loyallığı ölçü və sorğularından istifadə etmək ləri daha yaxşıdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Baquero, A. (2022). Net Promoter Score (NPS) and Customer Satisfaction: Relationship and Efficient Management. Sustainability, 14(4):1-16. https://doi.org/10.3390/su14042011

2. Fisher, Nicholas & Kordupleski, Raymond. (2019). Good and Bad Market Research: A Critical Review of Net Promoter Score. Applied Stochastic Models in Business and Industry. 35(1): 33. https://doi.org/10.1002/asmb.2417

3. Kristensen, K. and Eskildsen, J. (2014), "Is the NPS a trustworthy performance measure?", The TQM Journal, Vol. 26 No. 2, pp. 202-214.https://doi.org/10.1108/tqm-03-2011-0021

4. Reichheld F.F. The one number you need to grow. Harv Bus Rev. 2003;81(12):46-55. https://hbr.org/2003/12/the-one-number-you-need-to-grow

5. Reichheld F.F., & Markey R. (2011). The ultimate question 2.0: How net promoter companies thrive in a customer-driven world. Harvard Business Press.

QLOBAL TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ OLUNMASINDA WALMART MODELİ

Seymur İlyasov, Xəzər Nəcimbəyli, Nigar Zeynalova, Şəlalə Abdullayeva, Gülçin İsayeva

Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat
seymur.ilyasov@gmail.com, xanacimbayli@beu.edu.az, nzeynalova2@std.beu.edu.az, sabdullayeva5@std.beu.edu.az, gisayeva@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Bu məqalədə bildirilir ki, Walmart dünya miqyasında böyük pərakəndə satış şirkətidir və tədarük zənciri davamlı çatdırılmadan, paylanışa qədər olan mərhələləri əhatə edir. Walmart təchizat sistemində şirkətin böyüməsi, dəyişən təchizat prosesləri, texnologiyanın inkişafı, onlaynın olmaması, nəqliyyatın sürətlənməsi, qlobal bazarlara çıxış aktual problemlərdir. Məqalədə bir sıra texnoloji problemlər və onların həlləri öz əksini tapmışdır. Təchizat zəncirini effektiv şəkildə idarə edərək, Walmart, müştərilərinə sərfəli qiymətlərlə geniş çeşiddə məhsullar təqdim edə bilmişdir. Buna görə də təchizat zənciri Walmart üçün çox vacibdir.

1. AÇAR SÖZLƏR: Walmartın təchizat zənciri, əməliyyat strategiyası, stok, satınalma, paylama, çarpaz yükləmə, pərakəndə satış.

KEY WORDS: Walmart's supply chain, operational strategy, stock, purchase, distribution, cross loading, retail.

GİRİŞ

Məqsədi:

Walmartın bu sistemi qurmaqda məqsədi aşağı qiymətlərlə geniş çeşiddə məhsullar təklif edərək hər kəsin alış-veriş edə bilməsini təmin etməkdir. Walmart böyüyürdü və böyümək istəyirdi, o, bunun üçün bir əngəl idi. O, belə bir sistem, belə bir şirkət qurmağa məcbur idi. Çünki məcbur qalıb etməsə çökürdü.

Bundan əlavə, müştəri bazasını genişləndirərək, müştəri diqqəti və davamlı iş yolu ilə sadiq müştəri bazası yaratmağı hədəfləyir. Beləliklə, Walmart dünya miqyasında rəqabət qabiliyyətli qiymətləri və müştəri tədarüklərini uğurla qarşılaya bildi.

Walmart bu sistemi necə qurdu?

Walmart, mərkəzləşdirilmiş satınalma və təchizat sisteminə əsaslanan biznes modeli ilə yaradılmışdır. Şirkət məhsullarını böyük marja ilə almaqla topdansatış qiymətlərindən yararlanır və bu endirimləri cəmində əks etdirən qiymətlər təklif edir. Bundan əlavə, güclü logistika şəbəkəsi sayəsində məhsullar tez və effektiv şəkildə mağazalara çatdırılır. Müştəri diqqəti də mühüm rol oynayır, müştəri ehtiyaclarını görmək və ən yaxşı alış-veriş təcrübəsini təklif etmək üçün daim araşdırma və təkmilləşdirmə aparılır. Müştəri rəyi vacibdir və məhsul çeşidi və xidmət keyfiyyəti daim təkmilləşdirilir. Bu strategiyalar Walmart-a aşağı qiymətlərlə geniş çeşiddə məhsullar təklif etməyə imkan verir.

Walmart-ın bu biznes formasını yaratmaqda məqsədi müəyyən keyfiyyətli məhsulların münasib qiymətləri təklif edərək hər kəsə alış-veriş etmək imkanı yaratmaqdır.

Aktual problemlər: şirkətin böyüməsi, dəyişən təchizat prosesləri, texnologiyanın inkişafı, online sistemin olmaması, nəqliyyatın sürətlənməsi, qlobal bazarlara çıxış.

Təchizat sisteminin qurulması

Elə ən maraqlı sual da burada ortaya çıxır. Walmart bu sistemi necə qurdu və necə inkişaf etdirdi? Bunu tədqiqat və inkişafla, yoxsa innovasiya ilə etdi? Xüsusilə də pərakəndə satış fəaliyyəti ilə məşğul olan şirkətlər təchizatçılarından aldıqları malları müştərilərə sataraq, gəlir əldə edirlər. Bu proses şirkət yeni və kiçik olduqda daha asan başa gəlir. Amma şirkətlər böyüdükcə təchizatçıları, müştəriləri, imkanları və s. artdıqda daha böyük təchizat zənciri sisteminə keçməyə məcbur olurlar. Çünki həcm artır, sistemin iştirakçılarının sayı da buna bağlı olaraq artır. Bu isə mərhələlərin bir-birindən asılılığına və risklərinin çoxalmasına təsir göstərir.

Walmartın təchizat zənciri sistemi çoxeşelonlu bir sistem olub altı fərqli mərhələdən ibarətdir. İlk mərhələnin iştirakçıları yerli və beynəlxalq təchizatçılardır və onların işi sırf istehsalatla bağlıdır. Walmart yerli və xarici təchizatçılarla birlikdə işləyir və bu sayın təxminən 60000 yerli və 90000-dən artığı beynəlxalq təchizatçısının olduğu ehtimal edilir. İkinci mərhələdə xarici istehsalçılar istehsal etdikləri məhsulları beynəlxalq mal qəbul anbarlarına göndərir və bağlamalar Walmarta yola düşənədək orada gözləyir. Üçüncü mərhələ yerli və beynəlxalq daşımaları əhatə edir. Xaricdən gələn mallar dəniz yolu vasitəsilə, daxili daşımalar isə adətən istehsalçı şirkətin nəqliyyat vasitələri ilə daşınaraq paylama mərkəzlərinə çatdırılır. Bu mərkəzlərə gətirilən məhsullar mağazaların tələblərinə uyğun olaraq bağlamalar halına salındıqdan sonra Walmartın öz nəqliyyat vasitələrinə yüklənərək mağazalara doğru yola düşür. Walmartda satılan məhsulların təxminən 80%-i paylama mərkəzlərinə gələrək, burada tələbə uyğun olaraq bağlamalara ayrılır və göndərilir. Kiçik bir həcmi isə paylama mərkəzlərinə daxil olmadan birbaşa istehsalçı şirkətlərin nəqliyyat vasitələri ilə mağazalara çatdırılır. Sistemin sonuncu mərhələsində isə müştərilər yer alır və onlar bu sistemin əsas mexanizmasını təşkil edirlər.

Walmartın əməliyyat strategiyası üzərində qurduğu infrastuktur 3 əsas komponentdən ibarətdir: Mağazalar, məlumat mərkəzi və paylama mərkəzi. Mağazalar bu sistemin əsas hərəkət mənbəyi olsalar da, idarəetmə baxımdan məlumat mərkəzi həm onları, həm də paylama mərkəzlərini və ümumilikdə bütün sistemi idarə etməkdə ən əhəmiyyətli vasitə hesab olunur.

Walmartın əməliyyatdakı rəqabət üstünlüyünün bir neçə fərqli, vacib istiqaməti mövcuddur. Bunların ən əhəmiyyətlilərindən biri məhsul təmini məqsədi ilə satıcılarla olan müttəfiqliyidir. Walmartın distribütorlar, topdansatış şirkətləri və ya istehsalçının nümayəndələri ilə işləyə bilməməsinin səbəblərindən biri də budur. Pərakəndə satış şirkətlərinin stoksuz (ehtiyatsız) qalmaq risklərini aradan qaldırmaq üçün tələb olunan zamanda logistika dəstəyini təmin etmək kritik əməmiyyətə malikdir. Walmartın 6000-dən çox traktor 60000-dən çox qoşqulardan ibarət öz donanmasına sahib olması da bu təminatı mümkün edir.

Şirkətin ABŞ daxilində 150-dən artıq paylama mərkəzi xidmət göstərir və hər bir paylama mərkəzi 200 km radiusla (avtomobil ilə ən uzağı bir günlük məsafədə olmaq şərtilə) 90-100 mağazanı təmin edir.



Şəkil 1. Walmartın təczihat zənciri

Standart bir paylama mərkəzində insanlar avadanlıqlarla mütəmadi məlumat əldə edərək birbaşa və davamlı işləyirlər. Bütün paylama mərkəzlərində rəhbərlər gün ərzində gedən prosesləri kompüter ekranlarından izləyərək işlərin necə getdiyini və hər hansı bir yerdə darboğazın (bottleneck) olub-olmadığını yoxlayırlar. Kompüterlərə bəzən düşünən insan "beyni" üçün çalışan "bədən" kimi yanaşırlar amma əslində bu fikrin tam tərsi özünü sübut edir. Kompüterlərin edə bilməyəcəyi tək iş, məhsulları fiziki olaraq idarə edə bilməkdir. Məhsulun yerini, hara getməli olduğunu müəyyənləşdirə bilər, amma onları seçmək, istənilən yerə daşımaq kimi təkrarlanan və əmək tələb edən işləri yerinə yetirə bilmədikləri üçün insan əməyinə ehtiyac var. Ölçüləri 92900 kvadrat metrdən artıq olan bu binalarda gündə 200-dən çox qoşqunu boşaltmaq və göndərmək üçün 600-dən çox işçi işləyir. "Təbii fəlakət zamanı mübarizə aparan icmalara çevik reaksiya vermək üçün" ölkə daxilində strateji cəhətdən yerləşmiş 6 paylama mərkəzi fəaliyyət göstərir.

Walmartın uğurlu olmasında paylama sisteminin əhəmiyyəti haqqında danışarkən Sam Walton bunları deyirdi: "İnformasiya və paylama sisteminin idarə olunmasında indiki dövrün tələblərinə uyğun olaraq öndə getməyə məcbur idik. Mağazalarımız kiçik qəsəbələrdə yerləşirdi və onlarla daim kontaktda olmalı idik. Mayer çatdırılma ilə bağlı prosesləri öz üzərinə götürərək daha sürətli böyüməni və qazancı təmin edən sistem qurdu. Bu sistemdən sonra biz artıq məhsulları birbaşa təchizatçıdan mağazalara qəbul etmədik və sifarişlər paylama mərkəzində toplanaraq oradan idarə olunurdu".

Şirkət aşağı gəlir marjaları ilə pul qazandığına görə əməliyyatın bütün səviyyələrində məhsuldarlığı artırmağa çalışır. Fəaliyyətlər rəqabət üstünlüyünün əsas vahidləri olsa da, ümumi üstünlük və ya zəiflik bir şirkətin bir neçə deyil bütün fəaliyyət sahələrində ortaya çıxa bilir. Bu qarışıq koordinasiyanı təmin etmək üçün Walmart tərəfindən mühüm mənbələr bir-birindən ayrılaraq, böyük miqdarda istehlakçı məlumatlarının işlənməsi ilə paylama və məlumat şəbəkələrinin inkişaf etdirilməsi, təmir-sazlama və sinxronizasiyasını həyata keçirir. Walmart bu məlumatlardan alış-veriş edənlərin davranışlarını izləmək üçün istifadə edir. Hətta bu məlumatlarla təxminə əsaslanan satınalma və paylama modellərini də inkişaf etdirmək mümkün olur. Walmartın belə sistemi qurmaqda və istifadə etməkdə ən böyük üstünlüyü onun keçmişdən indiyədək mütəmadi innovasiya etməsidir. Bir

çoxları onun tədqiqat və inkişaf üsulu ilə böyüdüyünü irəli sürsə də, innovasiya daha geniş bir yanaşmadır. Tədqiqat və inkişaf spesifik olaraq hər bir sahə üçün (məsələn: satış) çox əhəmiyyətli olsa da, bir məhsulun hazırlanmasının ilk mərhələsindən sonuncu addımda istehlakçıya çatdırılmasına qədərki bütün prosesləri əhatə etdiyini nəzərə aldıqda Walmartın gördüyü işin birbaşa innovasiya olduğunu aydınlaşdırırıq.

Operativ nəqliyyat metodu: Çarpaz Yükləmə (Cross Docking)



Şəkil 2. Çarpaz yükləmə

Böyük pərakəndə satış müəssisələri bir çox təchizatçı ilə işlədiyi və eyni zamanda mağaza sayı çox olduğu üçün mərkəzləşdirilmiş anbar və ya paylama mərkəzi tipli dəstək binalardan istifadə etməli olur. Bu binaların əhəmiyyəti işin həcmi artdıqca daha çox ortaya çıxır. Çünki həcmin artması gəlirlərlə birlikdə xərcləri və riskləri də özü ilə gətirir və artıq müəyyən bir səviyyədən sonra ənənəvi idarəetmə çətinləşir. Ənənəvi paylama sistemində təchizatçılar tərəfindən anbara çatdırılan məhsullar altı fərqli mərhələdən keçir. Əvvəlcə gətirilən məhsullar qəbul edilir, daha sonra çeşidlərə ayrılır təyinatı üzrə rəflərə yerləşdirilir. Növbəti addımlarda isə həmin məhsullara nə vaxt və nə qədər ehtiyac olursa, ona uyğun göndəriləcək bağlamaya əlavələr edilir və paketlənən mallar mağazaya və ya birbaşa sifariş edən müştərilərə göndərilir.

Çarpaz çatdırılma adlanan digər üsulda isə tələb əvvəldən müəyyən edildiyi üçün paylama mərkəzinə gələn mallar qəbul edildikdən sonra konveyer xətləri vasitəsilə birbaşa bağlamaların hazırlandığı hissəsəyə yönləndirilir və oradan eyni ünvana çatdırılacaq müxtəlif növlü bağlamalarla birlikdə qablaşdırılır. Ardınca isə həmin mağazaya gedəcək nəqliyyat vasitəsinə yüklənirlər. Burada proses ənənəvi paylama üsuluna nisbətlə ən az 50% daha effektivdir. Əvvəla ona görə ki, bu proses operativ təşkil edildiyi üçün anbara gələn heç bir məhsul 24 saatdan artıq orada qala bilmir və buna görə də anbarlama xərci yüksək olmur. Digər bir üstün cəhəti isə ondan ibarət idi ki, anbarlama müddəti qısa olduğu üçün məhsulun orda qalıb keyfiyyətinin itirilməsi təhlükəsindən xilas olur. Bu üsuldan istifadə etdikdə bəzən yükləri paylama mərkəzinin ərazisinə boşaltmağa belə ehtiyac qalmır.

Bəzən "P&G" şirkətinin etdiyi kimi Walmartın paylama mərkəzlərinə çatdıqda yükləri birbaşa şirkətin mağazalara gedən nəqliyyat vasitələrinə nəql edirlər. Heç bir yük anbara və ya paylama mərkəzinə daxil olub orda bir saat belə vaxt itirmir. Çünki VMI sistemi vasitəsilə təchizatçılar özləri mağazaların ehtiyac həcmini müəyyən edə bilir və bağlamaları birbaşa mağazaların tələblərinə uyğun şəkildə hazırlayıb göndərirlər. Walmart paylama mərkəzi üzərinə düşən üç prosesdən birindən azad olur və onun bağlama hazırlamağa ehtiyacı olmadığı üçün proses daha da sürətlənir.

Walmartın istifadə etdiyi "RFID" etiket texnologiyası bir neçə müxtəlif fəaliyyətləri əhatə edir. Buraya istehsal və anbarlama proseslərində olan bağlama və palet şəklində mal qəbulunun avtomatlaşdırılması, qəbul edilən məhsulların avtomatik yerləşdirməsi, istehsal və anbarlama prosesləri zamanı dövr sayı, eyni zamanda müxtəlif məhsullardan qrup formalaşdırması və s. daxildir. Bu etiketlər nəyinki marketlərdən bazarlıq edən müştərilərin, hətta müxtəlif xidmətlərdən istifadə edənlərin də vərdiş və davranışlarını izləməyə şərait yaradır.

"RFID" Walmart və digər pərakəndə satış şirkətlərinin fəaliyyətində inqilabi təsirlərə malikdir. Burada iki fəaliyyəti xüsusilə vurğulamaq lazımdır. Ehtiyatlar haqqında məlumatların əlçatanlığı: Walmart bu texnologiyanın tətbiqi nəticəsində ehtiyatlar haqqında məlumatları digital hala gətirərək

onları əlçatan etdi.

Digəri mühim xidmət isə müştərilərin rahatlığını təmin etmək üçündür. Bu texnologiya həm onlayn, həm də fiziki olaraq alışı təmin edə bilir. Həm mağazalar, həm də satılan məhsulların mövcudluğu ilə bağlı ətraflı məlumatların olması şübhəsiz ki, müştəri məmnuniyyətində önəmli faktorlardan biridir.

Əməliyyatlarını bu şəkildə sistemləşdirərək şirkət anbarlama, paylama və logistika üçün səmərəliliyi ən üst səviyyəyə çatdırmağı və satış xərclərini aşağı salmağı bacardı. Mağaza daxilində anbarlama üçün nə qədər çox yer ayrılarsa, satış üçün nəzərdə tutulan yer o qədər kiçilməyə məcbur olar. Paylama mərkəzlərinin və çarpaz yükləmənin strateji dəstəyi sayəsində şirkət mağazalarda anbar üçün nəzərdə tutduğu ərazini rəqiblərinə nisbətlə 10% azaltmağı bacarıb. Rəqiblərdə isə bu hissə ümumi ərazinin 25%-i dir. Walmart qənaət etdiyi həmin yeri də satış üçün istifadə edərək həm daha çox qazanc əldə edir, həm də anbarlama xərclərini azalda bilir. Şirkət təchizat zəncirinin idarə olunmasında müxtəlif anbar növlərindən istifadə etsə də, əsas funksionallıq 4 növ üzərində qurulub.

Birinci növ hazır məhsul anbarıdır. Buradakı məhsullar mağazalara birbaşa çatdırılır, müştərilərin satın alması üçün hər zaman gözlərinin qarşısında nümayiş etdirilir və bu da Walmartın müvəffəq olmasında ən önəmli paya sahibdirlər.

Tranzit məhsul anbarı: Bunlar artıq satılmış məhsulların yerlərini doldurmaq üçün daha əvvəldən sifarişi nəzərdə tutulan və çarpaz paylama metodu ilə hərəkətdə olan ehtiyatlardır.

Aralıq anbarı: İstənilən mağaza, restoran, xəstəxana və s. daxilində qısamüddətli ehtiyacları qarşılamaq üçün aralıq anbarları mövcuddur. Əslində bu anbarların məqsədi ani tələb dalğalanmalarına çevik şəkildə cavab verməkdir. Amma bu həcm sadəcə müəyyən çərçivədə nəzərdə tutulur. Xüsusilə də, Walmart kimi operativ şəkildə ehtiyatlarını idarə etməyi bacaran şirkətlərə bu tip anbarlar o qədər də çox lazım olmur. Yuxarıda qeyd edildiyi kimi mağazalardakı daxili anbar, rəqiblərinə nisbətdə 15%-ə yaxın kiçildilərək həmin ərazi satış üçün əlavə istifadə yerinə çevrilib.

Proqnozlaşdırılmış anbar: Walmart tərəfindən istifadə edilən sonuncu anbarlama tipidir. Bir növ aralıq anbarına oxşasa da, funksionallığı və istifadə edilməsi baxımından fərqlidir. Bu tip anbarlama hər gün və ya hər ay nəzərdə tutulmur. Sadəcə olaraq xüsusi bayram və ya kampaniya keçirildikdə mütləq şəkildə belə bir anbarlama üsulundan istifadə edilir. Məsələn: Hər ilin noyabr ayında nəzərdə tutulan endirim müddəti əvvəlcədən təyin edildiyi üçün ona uyğun müvəqqəti stoklama aparılır. Eyni yanaşma il ərzindəki bayramlar, önəmli günlər və bəzi mövsümi faktorlar üçün də nəzərdə tutula bilər. Ümumiyyətlə, həddindən artıq anbarlama heç bir müəssisə üçün qazanclı addım sayılmır. Nə qədər çox həcmdə və nə qədər uzun müddətdə anbarlama davam edərsə, şirkət hər gün yığılan anbarlamada pul və zaman dəyəri baxımından qazanc itirməyə məcbur olar. Bu baxımdan Walmart anbara xüsusi diqqət edir və onun biznesini sürətləndirən ən önəmli faktorlardan biri olaraq görür.

Walmartın sabiq vitse-prezidenti Jay Fitzsimmons öz nitqində "Pərakəndə satış işində olduğumuza dair yanlış fərziyələr var. Biz əslində çatdırılma işindəyik və məhsulu limandan müştəriyə ən qısa müddətdə - 72 saat ərzində çatdırmaq Walmartın işidir" demişdi.

Ölkə daxilində bir əyalətdən digərinə gedərkən hər 15 dəqiqədən bir Walmart yük maşınına rast gəlməmək mümkün deyil. Şirkətə məxsus nəqliyyat vasitələri mağazaların tələblərini qarşılamaq üçün malları 24-48 saat arasında təhvil verir. Şirkət üçün çatdırılma, tədarükçülərdən bağlamanı almaqla başlayıb müştərinin avtomobilinin baqajına çatdırılmasına qədər olan bütün prosesləri əhatə edir.

Eyni zamanda hərəkət edən və mağazalara məhsul təslim edən çoxlu yük maşınlarına da rast gəlmək mümkündür. Bu maşınları paylama mərkəzlərinə yüksüz geri qayıtması əlbəttə ki, məntiqli olmazdı. Məhz buna görə də, bir çox təchizatçılar istehsal müəssisələrinin qarşısından keçən yük maşınlarını dayandırıb öz mallarını gətirmələri haqqında onlara tapşırıq verir. Bu da öz növbəsində daşıma xərclərinə önəmli dərəcədə qənaət etməyə səbəb oldu. Walmart geri daşımalarda 60% uğurlu oldu və bu nəticə nəqliyyat xərlcərini əhəmiyyətli dərəcədə azalda və effektivliyi artıra bildi.

Təchizatçılarla münasibətlər

Walmartın prestijiyalnız "hər zaman ucuz qiymət" təqdim etməkdən ibarət deyil. Həmçinin bu ucuz qiymətləri necə təmin etməsi, bunun rəflərə və insanların büdcəsinə təsiri də diqqətə alınır.

Walmart gücünü məqsədinə yönəldərək müştərilərinə mümkün olan ən aşağı qiyməti təqdim etməyi hədəfləsə də, hər il dəyişən qeyri-sabit qiymətlər bunu reallaşdıra bilməməyin əyani göstəricisidir.

Şirkət üçün ondan məhsul alan pərakəndə satış hər il müəyyən faiz endirim etməyə davam edərsə, müəyyən müddətdən sonra istehsalçı şirkətin endirim etmək imkanı qalmaz və vəziyyət son dərəcə gərginləşər. Çünki biznesin əsas prinsipləri olan qiymət, müddət, miqdar və keyfiyyət kimi bir-biri ilə sıx əlaqəli olan göstəricilərdən hər hansı birini azaltdıqda proses elə həmin anda mənfi yöndə dəyişir.



Nəticə:

Nəzərə alsaq ki, paylama mərkəzlərinə yüksüz geri qaytarılma məntiqsizdir. Bu səbəblə, bir çox təchizatçılar istehsal müəssisələrinin qarşısında keçən yük maşınlarını dayandırıb öz mallarını gətirmələri haqqında onlara tapşırıq verir. Nəticədə xərclərdə azalma, 60% geri daşımalarda uğurluğu və effektivliyi artırmağa gətirib çıxardır. Walmartın keçmişdən indiyədək mütəmadi innovasiya etməsi nəticəsində, anbarlamada müddət qısa olduğu üçün məhsulun orada qalıb, keyfiyyətinin itirilməsi təhlükəsindən xilas olur.

Ədəbiyyat:

1. https://magnetjambil.wordpress.com/2017/02/18/wal-mart-supply-chain-management/
2. Jesse Lecavalier, The Rule of Logistics: Walmart and the Architecture of Fulfillment
3. Michael Bergdahl, What I Learned from Sam Walton
4. https://corporate.walmart.com/our-story/our-business
5. Harvard Business Review, Strateji
6. https://www.skubana.com/blog/walmart-leading-way
7. https://www.huayuansh.com/walmart-and-rfid-rfid-technology-for-retailer/
8. Seymur Ilyasov, Biznes proseslərini Walmart idarə edərsə

ÇÖRƏKBİŞİRMƏ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT ÜSTÜNLÜKLƏRİNİN ARTIRILMASI

NƏSRULLAYEVA GÜNƏŞ
Azərbaycan Dövlət İqtisad Universiteti
"Mühəndsilik və tətbiqi elmlər" kafedrası
Gunash_Nasrullayeva@unec.edu.az
Bakı, Azərbaycan

XÜLASƏ

Mövzunun aktuallığı çörəkbişirməmüəssisələri arasında rəqabətin artırılması üsullarının araşdırılması ilə əlaqəlidir. Bu rəqabətin artmasına səbəb çoxdur: iqtisadiyyatın qloballaşması; məhsulun keyfiyyətinə və rəqabətqabilliyətinə elmi-texniki və marketinqin təsirinin sürətlənməsi; alıcının düşüncəsinə və istehlakına marketinq texnologiyalarının təsiri kimi faktorlarıdır. Müasir şəraitdə qida müəssisələrinin əkəriyyətində, əsasəndə çörək bişirmə sənayesi müəssisələrində olan material-texniki bazası ilə müasir iqtisadi bazarda rəqabət xeyli artmışdır.

Qida sənayesi ilə bağlı problemlər həm istehsalçılarda həm də istehlakçılarda var. Belə ki,adambaşına düşən ət və ət məhsulları, süd və süd məhsulları, yumurta və yumurta məhsulları, balıq və balıq məhsulları, meyvə və tərəvəz məhsulları istifadəsi hələ də tibbi normalardan aşağı olaraq qalır. Bununla belə, adambaşına düşən ucuz məhsullar kartof və çörək qoyulan normanı aşır.

Maliyyə böhranı şəraitində sənaye müəssisələri rəqabət qabiliyyətini artırmaq üçün dayanmadan mübarizə aparırlar. Bir tərəfdən bazarın qorunmasının, digər tərəfdən bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi olan istehlakçı uğrunda mübarizə, nəticədə rəqabəti daha da sərt edir. Bu baxımdan müəssisənin davamlı rəqabət üstünlüklərinin formalaşması üçün zəruri olan idarəetmə qərarlarının rolu artır. Çörək bazarı ilə bağlı çoxsaylı tədqiqatların nəticələri, yeni məhsulların tətbiqi müəssisənin bazarda uğur qazanmasının əsasşərtlərindən biri olduğu qənaətinə gəlməyə imkan verir. Müəssisə yeniliyi olan bir məhsulun köməkliyi ilə yeni bir bazar yarada, rəqibləri qabaqlaya və gəlirlərini artırmağa nail olar.

Təqdim olunan məqalədə bu şərtlər daxilində, istehsal olunan məhsul texnologiyasının daha təkmilləşdirilməsinə yardımçı olan xammal və əsas materiallara olan ehtiyac, habelə onların dəyəri, təsdiq edilmiş resept standartlarına və bazarda olan qiymətlərə görə hesablanmışdır.

AÇAR SÖLƏR: qida sənayesi, rəqabət, artım

GİRİŞ

Qida məhsulları istehsalçıları üçün iqtisadi artım məhdudur. Qida sənayesində rəqabətin səviyyəsi xammalın, məhsulun və məmulatın uyğun keyfiyyətinin təmin olunması, istehlakçının strukturunun dəyişilməsi effektivliyin artırılması üçün daima istehsalın modernləşdirilməsi ilə təmin olunur. İstehsalın stabil artımı innavasion texnologiyaların tətbiqi, yeni növ məhsulların yaradılması, yeni istehlakçı xüsisiyyətli əmtəənin yaradılması və yüksək rəqabətqabiliyyəti ilə mümkündür.

Hazırlanmış dənli çörək məhsullarının istehlakçı üçün faydalılığı baxımından qiymətləndirilməsində onların əsas xüsusiyyətləri müqayisə olunur. Bu xüsusiyyətlərə görə istehlakçının tələblərinə cavab verən məhsullar ən böyük rəqabət üstünlükləri olan çörək məhsullarını müəyyənləşdirmək üçün bir-biri ilə müqayisə olunmuşdur (Nəsrullayeva G.M. 2016). Çörək məhsulları istehlak malları istehsal edən digər sahələrin məhsulları ilə müqayisədə çeşidin yenilənməsi mənasında daha mühafizəkardır. İstehlakçı seçimlərini və onların kəmiyyət uçotunu aydınlaşdırmaq üçün ekspert sorğusu keçirilib yüksək nəticələr əldə edilmişdir. İstehsalçının işləməyi nəzərdə tutduğu hədəf seqmentini seçərkən, onun üzərində hansı payı tutacağına qərar verməlidir. Bunun üçün onlar eyni nisbi ölçü vahidlərində xarakterizə olunmalı, eyni zamanda dənli çörək məhsullarının istehlakçısı üçün zəruri xüsusiyyətlərinin bütün kompleksi,həm maya dəyəri, həm fiziki-kimyəvi, həm də orqanoleptik göstəriciləri nəzərə alınmalıdır.

Müəssisə, digərlərindən fərq yarada bilər, bu şərtlə ki, daha az xərclə istehlakçılar üçün rəqib ilə müqayisə olunan bir dəyər yaratsın. Aparılan tədqiqat işində GOST 25832-89 uyğun olaraq hazırlanmış buğda çörək məhsullarının istehsal xərcləri və qiyməti hesablanmışdır. Dənli çörək məhsullarının hazırlanmasına sərf olunan xammal və əsas materialların, dəyəri verilmiş reseptə uyğun və bazarda olan qiymətlərə görə hesablanmışdır(Е.А. Кузнецова, Л.В.Шаяпова,НасруллаеваГ.М. Я. Бриндза. 2018).

TƏDQİQAT METODU

Çörək bişirmənin inkişafı və bazarda vəziyyəti müəyyən dərəcə də çörəkbişirmə müəssisələrinin işinin digər sahələr ilə əlaqəsindən asılıdır. Çörək məhsullarının qiymətinin dəyişkən olması digər sənaye sahələr ilə əlaqəlidir ki, qiymət yalnız çörək bişirmədə xammalın bazarda sabitliyi ilə əlaqəlidir. Bundan başqa çörək istehsalı unun bazarda qiymətindən, beləki müxtəif çörək növlərinin qiyməti 50-60% undan asılıdır(Nəsrullayeva G.M.,2016).

İstehsal xərcləri müəyyən bir mal istehsal etmək və ya xidmət göstərmək üçün çəkiləcək xərclərin cəmidir. Onların düzgün hesablanması uğurlu iş idarəçiliyi üçün vacib bir cəhətdir. İstehsal xərclərini müəyyənləşdirməyin müxtəlif yolları var, bunlardan əsasları birbaşa və dolayı xərclərdir. Birbaşa xərclərə birbaşa mal və ya xidmət istehsalına aid olan bütün xərclər daxildir. Bunlara materiallar, işçilərin maaşları, avadanlıqların amortizasiyası və digər birbaşa xərclər daxildir. Birbaşa xərclərin hesablanması malların birbaşa istehsalı ilə əlaqəli bütün xərcləri nəzərə alaraq aparılır. Tədqiatımızda birbaşa xərclərin hesablanması aparılmışdır.

100 kq dən üçün xərcləri hesablamaq üçün hazır məhsulun maya dəyəri mövcud olan xərclərə görə hesablanmışdır:

Xammal, əsas və köməkçi materiallar üçün xərclər;

Əmək xərcləri.

Məhsul istehsalı və satışının ümumi xərcləri cədvəl 1-də təqdim olunmuşdur.

Cədvəl 1. İstehsalın maya dəyəri (100 kq dən üçün)

Xərclər	Dənli çörək bulka məmulatlarının adı					
	Nümunə	«zövqlü»	«Kəklikotu»	«Tamlı»	«Sünbül»	«Pərinc»
1.Xammal və materialların qiyməti	33.08	18.33	29.98	24.74	18.47	29.10
2. İstehsal işçilərinin əmək xərcləri, o cümlədən:	8.93	9.99	9.95	10.03	12.93	10.36
2.1 əsas	8.12	9.08	9.05	9.12	11.75	9.42
2.2 əlavə	0.81	0.91	0.90	0.91	1.18	0.94
3.Əmək haqqı hesablamaları	2.32	2.60	2.59	2.61	3.36	2.69
4 Nəzərdə tutulan xərclər	1.20	1.82	1.81	1.82	2.35	1.88
5 Universitet xərcləri	14.62	16.35	16.29	16.41	21.16	16.96
Ümumi: maya dəyəri (istehsal xərcləri)	60.58	49.58	60.62	55.61	58.27	61.00
Çıxış, ədəd	456	510	508	512	660	529
0,3 kq-lıqməhsulun dəyəri,	74.6	54.6	67.0	61.0	49.6	64.7

Cədvəl 1 dən göründüyü kimi ,çəkisi 0,3 kq olan məhsulun maya dəyərində əhəmiyyətli görülən azalma xammal və materiallara qənaət nəticəsində, həmçinin hazırlanmış dənli çörək məhsullarının məhsuldarlığının artması səbəbindən baş vermişdir.

Müəyyən bir məhsulun istehlakçısı üçün faydalılığı nə qədər böyükdürsə, onun real xüsusiyyətləri istehlakçı tərəfindən arzu olunandır. Bu məhsul vahidinin alınmasından yaranan faydalılıq düsturla müəyyən edilir:

$$U = d_1 \cdot S + d_2 \cdot J, \quad (1)$$

harada u-malların alınmasından yararlılıq;

S-qiymətləndirilən məhsulun dəyər xüsusiyyətlərinin istehlakçının tələblərinə uyğunluq dərəcəsini xarakterizə edən göstərici;

J-qiymətləndirilən məhsulun keyfiyyət xüsusiyyətlərinin istehlakçının tələblərinə uyğunluq dərəcəsini xarakterizə edən göstərici;

d- S və J göstəricisinin ağırlığını göstərən əmsal.

Cədvəl 2. Dənli çörək məhsulları üçün ilkin şərtlər

Göstəricilər	Vahid.	Lazım olan göstəricilər	
		Istehlakçı üçün	Istehsalçı üçün
1 Qiymət, man. 0,300 kq üçün	Man.	0,17	0,11
2 Keyfiyyət			
2.1 Əsas Xüsusiyyətlər			
2.1.1 Mineral maddələrin miqdarı	mq/100q çörəyə	221,19	148,89
2.1.2 Vitaminlərin cəmi	mq/100q çörəyə	7,372	4,806

2.1.3 Əvəzolunmayan amin turşularının cəmi	q/100q zülala	31,50	23,81
2.1.4 Zülallar	q/100 q	10,4	7,2
2.1.5 Lif	q/100 q	2,1	1,2
2.1.6 Lizin	q/100 q	4,06	2,43
2.2 İkincil xüsusiyyətlər			
2.2.1 Lazımi xüsusiyyətlər			
2.2.1.1 Toksiki elementlərin cəmi		0,084	0,270
2.2.2 Əlavə xüsusiyyətlər			
2.2.2.1 Xüsusi həcm	sm^3/100q	198	182
2.2.2.2 Məsaməlilik	%	62,8	58,5

D_1 və d_2 əmsalları sıfırdan birə qədər olmalıdır.

Qiymətləndirilən məhsulun dəyər xüsusiyyətlərinin istehlakçı tələblərinə uyğunluq dərəcəsini xarakterizə edən göstərici düsturla müəyyən edilir:

$$S = c \cdot g_{\text{gös.}}, \quad (2)$$

C- "alış qiyməti" xüsusiyyətləri ağırlıq

$g_{gös}$ - malların alış qiymətinin istehlakçının istədiyi dəyərə yaxınlığını xarakterizə edən vahid parametrik göstərici.

$g_{gös}$Göstərici aşağıdakı düsturla hesablanır:

$$g_{\text{gös.}} = \frac{C^{max}_{\text{gös.}} - C_{\text{gös.}}}{C^{max}_{\text{gös.}} - C^{ar.}_{\text{gös.}}}, \quad (3)$$

$C^{max}_{\text{gös.}}$ - alış qiymətinin eyni dəyəri;

$C^{ar.}_{\text{gös.}}$ - istehlakçı üçün malın arzu olunan qiyməti;

$C_{\text{gös.}}$ - sözügedən məhsulun alış qiyməti.

Qiymətin həddən artıq olması sözügedən bazar seqmentində malların istehlakını istisna edir. Malların bazara giriş şərti

$$Cgös_{.} \le C^{max}_{\text{gös}}. \quad (4)$$

Məhsulun keyfiyyət parametrlərinin istehlakçı tələblərinə yaxınlığını xarakterizə edən göstərici düsturla müəyyən edilir:

$$J = \sum_{l \in L} a_l \sum_{i \in I_l} a_i \cdot g_i, \quad (5)$$

L- istehlakçı tərəfindən qiymətləndirilən əmtəə göstəricilərinin çoxluğu;

l- əmtəə göstəricisinin indeksi;

$İ_1$ atributu təşkil edən çoxsaylı xüsusiyyətlər;

i- əmtəə xüsusiyyətləri indeksi;

a_l göstəricinin Çəkisi;

a_i xüsusiyyətin Çəkisi;

g_i - *i* parametr üçün istehlakçının istəyinə yaxın qiymətləndirən vahid parametrik göstərici.

Vahid parametrik keyfiyyət göstəriciləri məhsulun göstəricilərini xarakterizə edərkən əvvəllər təklif olunduğu kimi beş qrupa bölünə bilər.

Birinci qrupa dəyər artımı istehlakçı üçün arzuolunanlar daxildir. Bu parametrlər qrupu üçün göstərici düsturla müəyyən edilir:

$$g_i = \frac{p_i - p_i^{min}}{p_i^{ar.} - p_i^{min}}, \quad (6)$$

p_i- sözügedən məhsulun i- göstəricisinin dəyəri;
p_i^{min}- i- göstəricinin malların bazara buraxılmasına icazə verilən minimum dəyəri;
p_i^{ar}-istehlakçının ehtiyacını tam ödədiyi i- göstəricinin dəyəri.
Birinci qrupun göstəriciləri üçün malların bazara daxil olması şərti:

$$p_i \geq p_i^{min} \cdot \quad (7)$$

İkinci qrupa istehlakçı üçün arzu olunan dəyərin azalması göstəricisi daxildir. Bu parametrlər qrupu üçün g_i göstəricisi düsturla müəyyən edilir:

$$g_i = \frac{p_i^{max} - p_i}{p_i^{max.} - p_i^{ar.}}, \quad (8)$$

p_i^{max} −malların bazara buraxıldığı i -göstəricinin mümkün olan maksimum dəyəri.
Belək ki, biz yalnız ilk iki qrupun dənli çörək məhsullarının xüsusiyyətlərini nəzərdən keçirmişik.
Dənli çörək məhsullarının vahid faydalılığını qiymətləndirmək üçün altı nümunənin dəyərini hesabladıq. Birinci mərhələdə dənli çörək məhsullarının göstəricilərinin istehlakçıların tələblərinə yaxınlığının parametrik göstəricilərinin dəyəri müəyyən edilmişdir. Hesablama cədvəl 3-də təqdim olunur.

Cədvəl 3. Dənli çörək məhsullarının göstəricilərinin istehlakçıların tələblərinə yaxınlığının parametrik göstəricilərinin dəyəri

Göstəricilər	Dənli çörək bulka məmulatlarını növü					
	Nümunə	«zövqlü »	«Kəklikotu»	«Tamlı»	«Sünbül»	«Pərinc»
0,300 kq görə qiymət	0,000	80,0	30,4	54,4	1,0	39,4
Mineral maddələrin miqdarı, mq/100q çörək	0,000	0,098	0,131	0,010	0,230	1,000
Vitaminlərin miqdarı, mq/100q çörək	0,000	0,520	0,530	0,470	1,000	0,811
Əvəzolunmayan amin turşularının miqdarı, q/100q zülal	0,109	0,551	0,524	0,805	0,000	1,000
zülallar, q/100 q	0,000	1,000	0,969	0,781	0,281	0,719
Lif, q/100 q	0,000	0,778	0,778	1,000	0,333	0,778
Lizin, q/100q	0,000	0,699	0,730	0,877	0,135	1,000
Toksiki elementlər	0,000	0,806	0,871	0,522	0,849	1,000
Xüsusi həcm, sm^3/100q	0,000	0,500	0,500	0,000	0,813	1,000
Məsaməlilik, %	0,070	0,465	0,419	0,000	0,884	1,000

Növbəti mərhələdə, hər növ dənli çörək məhsullarının vahidinin əldə edilməsindən yaranan faydalılıq, eləcə də tam vahid faydalılıq cədvəl 4-də müəyyən edilmişdir.

Cədvəl 4.Dənli çörək məhsullarının vahid faydalılığının dəyəri

Göstəricilər	Çörək məmulatlarının növləri					
	«zövqlü »	«Kəklikotu»	«Tamlı»	«Sünbül»	«Pərinc»	Nümunə
2 Keyfiyyət	0,896	0,627	0,499	0,637	0,550	0,011
2.1 Baza xüsusiyyətləri	0,862	0,604	0,382	0,607	0,620	0,011
2.2 İkinci dərəcəli xüsusiyyətlər	1,000	0,694	0,848	0,728	0,339	0,011
2.2.1 əsas	1,000	0,806	0,849	0,871	0,522	0,000
2.2.2 əlavə	1,000	0,484	0,845	0,463	0,000	0,032
Tam vahid faydalılıq	0,766	0,672	0,629	0,551	0,549	0,008

Məhsulun vahid faydalılığı,onun mövqeyinin ilk xüsusiyyətlərini müəyyənləşdirir. Dənli çörək məhsullarının vahid faydalılıq dəyəri azaldıqca sıralanması, hər birinin ümumi kütlədəki mövqeyini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Vahid faydalılığın dəyəri nə qədər yüksəkdirsə, məhsul daha çox rəqabət üstünlüyünə malikdir.
Malların yaxınlıq dərəcəsi,istehlakçınınistəyi nöqteyi nəzərindən ikinci xüsusiyyətilidir. İstənilən məhsulu qiymətləndirərkən bütün vahid parametrik yaxınlıq göstəricilərinin dəyəri g_i^o= 1-dir.

Tədqiq olunan məhsuldan istənilənə qədər olan aralıq düsturla müəyyən edilə bilər:

$$l_i = \sqrt{\sum_{i=1}^{n} (g_i^o - g_i)^2}, \quad (9)$$

burada *n -i*-məhsulu xarakterizə edən parametrlərin sayıdır.

Xüsusiyyətlərin hesablanması, istiqamət keyfiyyətinin mövqeləşdirilməsi kimi istifadə edilir. (Cədvəl 5).

Birinci istiqamət məhsulun vahid faydalılığını U_i, ikincisi L_i– tədqiq olunan məhsuldan istədiyinə qədər olan aralığıxarakterizə edir .

Cədvəl 5.Bazarda dənli çörək məhsullarının yerləşmə mövqeləri

Dənli çörək bulka məmulatlarının növü	Dənli çörək məhsullarının vahid faydalılığı	Tədqiq olunan məhsuldan istehlakçının istədiyinə qədər olan aralıq
Pərinc buğda növündən çörək «Pərinc»	0,766	0,729
Dənli buğda çörəyi «zövqlü»	0,672	1,413
Cücrəmiş buğda dənindən çörək «Sünbül»	0,629	1,837
Buğda çörəyi «Kəklkotu»	0,551	1,554
Sarımsaqlı-buğda çörəyi «Tamlı»	0,549	1,949
Nümunə	0,008	3,108

Cədvəldən görünür ki, lider mövqeyi pərinc dənindən hazırlanan "Pərinc" çörəyi tutur.

Lider mövqe tutan ikinci qrupa diğər hazırlanmış dənli çörək məhsulları daxildir.

Bu zaman müəyyən qədər geridəolanGOST 25832-89 uyğun olaraq hazırlanmış dənli çörək nümunəsidir. Həm vahid faydalılığı, həm də arzu olunan xüsusiyyətləri baxımından lider qrupdan geri qalır.

Beləliklə, emal edilmiş dənli çörək məhsullarının mövqeni müəyyənləşdirə bildik.

Məhsulun rəqabət üstünlüyü müxtəlif amillərə görə ola bilər. Ümumiyyətlə, bu amillər daxili və xarici ola biləcək üstünlüklərinə görə iki geniş kateqoriyaya qruplaşdırıla bilər.

Dənli çörək məhsullarının xarici rəqabət üstünlüyü alıcı üçün dəyər yaradan "keyfiyyət" göstəricisinə əsaslanır.Bazarda rəqib müəssisələrin daha ucuz qiymət təklif etmələrinə baxmayaraq bazarda liderliyi daha keyfiyyətli məhsul təqdim edən rəqib müəssisə qazanır.

Daxili rəqabət üstünlüyü istehsal xərcləri və malların alış qiymətini idarə etmək qabiliyyəti baxımından müəssisənin üstünlüyünə əsaslanır. Bu üstünlük istehsalçı üçün dəyər və rəqibdən daha az xərc yaradır. Bənzər bir üstünlük təşkilati yeniliklərin tətbiqi ilə xərclərə üstünlük siyasətinin aparılması ilə yaradılır.

Daxili (U_1) və xarici (U_2) malların rəqabət üstünlükləri (mütləq dəyərlər) aşağıdakı nisbətlərdən istifadə etməklə müəyyən edilir:

$$U^1 = d_1 c_1 \frac{C_{gös.}^{max} - C_{gös.}}{C_{gös}^{max} - C_{gös.}^{ar.}}. \quad (10)$$

$$U^2 = d_1 c_2 \frac{C_{iq.}^{max} - C_{iq.}}{C_{iq}^{max} - C_{iq.}^{жел.}} + d_2 J. \quad (11)$$

$$U^1 + U^2 = U. \quad (12)$$

Bir məhsulun daxili və xarici üstünlüyünün nisbi dəyəri mütləq dəyərin faizlə ifadə olunan məhsulun tam vahid faydalılığının nisbətinə bərabərdir.

Malların bazar gücü rəqabət mövqeyini itirmədən malların alış qiymətinin artması ehtimalından asılıdır. Alış qiymətində mümkün olan maksimum artım məhsulun bazar gücünü müəyyənləşdirir.

I-ci rəqabət mövqeyini tutan bir məhsulun bazar gücü nisbətdən müəyyən edilə bilər:

$$U_{i+1} = d_1 c_1 \frac{C_{gös}^{max} - C_{gös.i}^{max}}{C_{gös}^{max} - C_{gös.}^{ar.}} + U_i^2. \quad (13)$$

Qərar (12) $C_{göz.i}^{max}$ rəqabət mövqeyini tutan malların alış qiymətində (bazar gücü) mümkün olan maksimum artımı müəyyənləşdirir:

$$C_{göz.i}^{max} = C_{göz.}^{max} + \frac{C_{göz.}^{max} - C_{göz.}^{ar}}{d_1 c_1}(U_i^2 - U_{i+1}). \quad (14)$$

Dənli çörək məhsullarının rəqabət üstünlüyünün quruluşu və bazar gücü cədvəl 6-da təqdim olunur.

Cədvəl 6. Rəqabət üstünlüyünün strukturu və dənli çörək məhsullarının bazar gücü

Dənli çörək məhsullarının növləri	Dənli çörək məhsullarının vahid faydalılığı	Rəqabət üstünlüyü				Bazar gücü	
		Daxili		Xarici			
		Mütləq	%	Mütləq	%	Mütləq	%
«Pərinc»	0,766	0,103	13,4	0,663	86,6	9,34	114,0
«zövqlü»	0,672	0,208	31,0	0,464	69,0	7,42	107,4
«Sünbül»	0,629	0,260	41,3	0,369	58,7	7,23	115,2
«Kəklikotu»	0,551	0,079	14,4	0,472	85,6	8,50	100,2
«Tamlı »	0,549	0,142	25,8	0,407	74,2	7,71	100,1
Nümunə	0,008	0,000	0,0	0,008	100,0	3,45	36,6

Nəzarət çörək nümunəsinin bazar gücünü hesablayarkən $U_{i+1} = 0{,}91U_i$. qəbul edilir.Cədvələdən nəticələr çıxarmaq olar ki, təhlil olunan məhsul qrupunda şübhəsiz lider pərinc dəni çörəyi "Pərincdir"dır. Rəqabət mövqeyini itirmədən malların alış qiymətinin artması və ya alış qiymətinin mümkün qədər artması ehtimalından asılı olan malların bazar gücü 114% təşkil etmişdir.

İstehsalçı bazarı malın qiymətini qəbul etməyə məcbur etmək imkanına malikdir. Bu, məhsulun fərqli keyfiyyətinə - unikallığına, xüsusi qablaşdırma dizaynına və s.əsaslanan səlahiyyətli yerləşdirmə ilə təmin edilə bilər.

NƏTİCƏ

1. Aparılan araşdırmadan aydın oldu ki, məhsulun maya dəyərində əhəmiyyətli görülən azalma xammal və materiallara qənaət nəticəsində, həmçinin hazırlanmış dənli çörək məhsullarının məhsuldarlığının artması səbəbindən baş vermişdir.

2.Müəssisənin xarici rəqabətqabiliyyəti daha çox malın keyfiyyət göstəricisinə əsaslanır(yüksək keyfiyyətliliyə).

3. Müəyyən olunmuşdur ki, məhsulun vahid faydalılığı mövqenin ilk xüsusiyyətini müəyyənləşdirir. Dənli çörək məhsullarının vahid faydalılıq dəyəri azaldıqca sıralanması, hər birinin ümumi kütlədəki mövqeyini böyük ölçüdə müəyyənləşdirir. Vahid faydalılığın dəyəri nə qədər yüksəkdirsə, məhsul daha çox rəqabət üstünlüyünə malikdir.

4. Tədqiq olunan məhsullardan istənilənə qədər olan mövqe müəyyən olundu.Lider mövqeyi pərinc dənindən hazırlanan "Pərinc" çörəyi, lider mövqe tutan ikinci qrupa diğər hazırlanmış dənli çörək məhsulları daxildir.

5.İstehsal xərclərinin, qiymətlərin və hazırlanmış dənli çörək məhsullarının rəqabətlilik mövqeyinin hesablanması onların iqtisadi səmərəliliyini göstərmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Nəsrullayeva G.M. Çörəkbişirmə müəssisələrinin elmi-texniki və innovasiyalı inkişaf strategiyasının seçilməsi məsələləri. Kənd Təsərrüfatının İtisadiyyatı Elmi-tədqiqat İnstitutunun ELMİ ƏSƏRLƏRİ 3. Bakı -2016. Səh.44-46
2. Nəsrullayeva G.M. Çörəkbişirmə məhsulları bazarında rəqabətin xarakterik xüsusiyyətləri və onların araşdırılması. Azərbaycan Aqrar Elmi “ elmi nəzəri jurnalı Bakı- 2016 № 4 , səh.80-83
3. Е.А. Кузнецова, Л.В.шаяпова,Насруллаев Г.М. Я. Бриндза Технология хлеба из зерна triticumdicoccon (schrank) с повышенной антиоксидантной активностью. Технология и товароведение инновационных пищевых продуктов. Научно-практический журнал .ст. 18-25.№ 5(52) 2018 Сентябрь-октябрь
4. Е. Л. Дугина, И.П.Протасова, Е.В.Доржиева. Усиление конкурентных преимуществ предприятий хлебопекарной промышленности.Модернизации экономики региона. 2012 Извести ИГРЭ.№3 (83)ст 52-59
5. Управление конкурентоспособность промышленного предприятия: аспекты качества / А.Л.Денисовой Тамбов 2006

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA KLASTERLƏRİN ROLU

İLAHƏ ƏLİBƏYLİ
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi/ Ümumi iqtisadiyyat
elibeylii@mail.ru
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qloballaşan dünyamızda sürətlə inkişaf edən texnika və texnologiya sahibkarlıq subyektləri arasındsa rəqabətin artmasına şərait yaratmışdır. Belə gərgin rəqabət şəraitində daha az xərclə daha yaxşı məhsul istehsal edən, dəyişikliklərlə daha tez ayaqlaşa bilən və dövrün nəbzini daha tez tutan firmalar öz bazar paylarını artırarkən kiçik və orta sahibkarlar bazardan çıxmağa yaxud az mənfəət qazanaraq fəaliyyətinə davam etməyə məcbur qalırlar. Ümumi daxili məhsul (ÜDM) içərisindəki payı get-gedə artan və çətin rəqabət şəraitinə tab gətirə bilməyən kiçik və orta sahibkarların qorunması və inkişafının təmin edilməsi üçün klasterlər yaradılır.

Rəqabət üstünlüyünün əldə olunması,ixrac potensialının artırılması,firmaların öz imkanlarını genişləndirilməsi, bölgədə sosial-iqtisadi dəyişiklikləri əldə olunması üçün ən optimal yol klasterlərin yaradılmasıdır. Ərazi bütövlüyünü yeni təmin etmiş ölkəmizdə heç bir klaster nümunəsinin olmaması və son dövrlərdə ölkə başçısının klasterləşmə fəaliyyətinə olan marağı bu anlayışın tədqiq edilməsinin zərurətini və aktuallığını ortaya çıxarır. Tədqiqatda statistik göstəricilərdən istifadə edərək kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı yeri müəyyənləşdirilməyə çalışılmış, eləcə də, bu gün bu sahədə klaster şəbəkələrinin formalaşmasının gətirdiyi müsbət səmərə öz əksini tapıb. Tədqiqatın üstünlüyü klasterləşmənin kiçik və orta sahibkarlığa verəcəyi faydanın konkret nədən ibarət olduğunu ortaya çıxarmağındadır. Tədqiqatın nəticəsi kiçik və orta sahibkarlığın inkişafı və kiçik və orta sahibkarlıqda (KOS) klasterlərin formalaşdırılması üzrə konkret tövsiyyələrin hazırlanmasında istifadə edilə bilər.

AÇAR SÖZLƏR: Kiçik və orta sahibkarlıq, klaster, rəqabətqabiliyyətlilik.

SUMMARY

In our globalized world, rapidly developing techniques and technology have created conditions for increased competition among business entities. Under such intense competition, small and medium-sized entrepreneurs are forced to leave the market or continue their activities with less profit, while companies that produce better products at lower costs, can keep up with changes faster, and catch the pulse of the times more quickly increase their market shares. Clusters are created to ensure the protection and development of small and medium-sized entrepreneurs, whose share in the gross domestic product (GDP) is gradually increasing and cannot withstand difficult competitive conditions.

The most optimal way to achieve competitive advantage, increase the export potential, expand the capabilities of companies, and achieve socio-economic changes in the region is the creation of clusters. The fact that there is no example of a cluster in our country, which has just secured territorial integrity, and the interest of the head of the country in the activity of clustering in recent times reveals the necessity and relevance of researching this concept. The study tried to determine the place of small and medium entrepreneurship in the economy using statistical indicators, as well as the positive effect brought by the formation of cluster networks in this field today. The advantage of the research is to find out the specific benefits of clustering to small and medium enterprises. The results of the research can be used in the development of small and medium enterprises and the development of clusters in small and medium enterprises (SMEs).

KEY WORDS: Small and medium entrepreneurship, cluster, competitiveness.

GIRIŞ

Müasir dünyamızda qloballaşma nəticəsində firmalar yalnız ölkədaxili deyil, eyni zamanda beynəlxalq firmalarla da, rəqabət aparmaq məcburiyyətində qalırlar. Belə gərgin rəqabət mühiti xüsusi ilə kiçik və orta sahibkarlar üçün olduqca çətin olur. KOS-lar öz güclərini birləşdirərək, bilik və təcrübələrini paylaşaraq rəqabətə tab gətirməyə çalışırlar. Beləliklə, firmaların birləşərək müştərək

fəaliyyət göstərməsi nəticəsində klasterlər yaranır. Klaster dedikdə- müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də, bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsi başa düşülür (M.Porter, 2003). Ölkəmizdə heç bir klaster nümunəsinin olmaması, klasterlərin yaradılması və inkişafı məsələlərinə dövlətin xüsusi dəstəyinin olması bu mövzunun aktual və tədqiqatı zəruri mövzu olduğunu göstərir.

İqtisadiyyatın ən çevik və dəyişikliyə ən tez ayaq uydura bilən parçası hesab edilən KOS-ların iqtisadiyyatdakı yerinin və rolunun nədən ibarət olduğunu aşkara çıxarmaq ölkənin inkişaf potensialının müəyyənləşdirilməsində əhəmiyyətlidir. Azərbaycan üçün də, KOS-ların inkişaf səviyyəsinin müəyyənləşdirilməsi, inkişaf istiqamətlərindən biri kimi çıxış edən klasterlərin iqtisadi mexanizmlərinin araşdırılmasına böyük ehtiyac vardır.

Tədqiqatda araşdırılan mövzuya kompleks və sistemli yanaşma, kəmiyyət tədqiqat, ümumiləşdirmə və qiymətləndirmə metodlarından istifadə edilmişdir. Klasterlərin KOS-ların inkişafındakı əhəmiyyətliliyini aşkara çıxarmaq üçün "Azərbaycan Dövlət Statistika Komitəsi"nin cəmiyyətə açıqladığı statistik göstəricilərdən, müxtəlif xarici mənbələrdən, klasterləşmə fəaliyyəti ilə bağlı dövlət başçısının verdiyi müvafiq sərəncam və fərmanlardan istifadə edilmişdir.

Kiçik və orta sahibkarlıqda yaradılan klasterlərin əhəmiyyətliliyi bu tədqiqat işində araşdırılmışdır; əvvəlcə KOS-ların iqtisadiyyatdakı rolu və yeri müvafiq statistik göstəricilərdən istifadə edilərək aşkara çıxarılmışdır. Digər başlıqda isə dünyada geniş şəkildə istifadə edilən klaster konsepsiyasının KOS-ların inkişafındakı əhəmiyyətliliyi aşkara çıxarılmışdır.

KOS-LARIN İQTİSADİYYATDA YERİ VƏ ROLU

İqtisadiyyatın dinamik və çevik amillərindən biri kimi çıxış edən kiçik və orta sahibkarlığı ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının açarı hesab etmək mümkündür. Belə ki, KOS-ların inkişafı ilə iqtisadi artıma, məşğulluğun artırılmasına, rəqabətin yüksəldilməsinə, əhali tələbatını yüksək səviyyədə ödənilərək iqtisadiyyatın idxaldan asılılığının azaldılmasına və s. nail olmaq mümkündür.

Xüsusilə, inkişaf etmiş ölkələrin iqtisadiyyatında KOS-ların olduqca əhəmiyyətli olduğunu statistik göstəricilərə nəzər yetirdikdə görmək mümkündür. Dünya Bankında aparılmış hesablamalar göstərir ki, KOS-ların 2030-cu ilə qədər 600 milyon yeni iş yeri tələbini qarşılayacaq. Aşağıdakı şəkildə bir neçə İEÖ-lərdə fəaliyyət göstərən KOS-ların ÜDM və məşğulluqdakı payı göstərilmişdir.



Şəkil 1. İEÖ-də KOS subyektlərinin ÜDM-ə və məşğulluğa təsiri (faizlə)
Mənbə: World Bank, World Development Indicators 2020

Yuxarıdakı şəkildəki məlumatlara nəzər yetirsək, İEÖ-lərin iqtisadiyyatında KOS-ların ÜDM-dəki payının 40%-dən çox, məşğulluqdakı payının isə 55%-dən çox olduğunu görmək mümkündür.

KOS-lar inkişaf etmiş ölkələrin iqtisadiyyatındakı oynadığı əhəmiyyətli rolunu inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı üçün də, qoruyub saxlaya bilir. KOS-ların İEOÖ-lər üçün əhəmiyyətliliyini izah etmək üçün bəzi İEOÖ-lərdə fəaliyyət göstərən KOS-ların həmin ölkələrin ÜDM və məşğulluqdakı payını nəzərdən keçirə bilərik. Şəlkil2-də Dünya Bankının paylaşdığı statistik göstəricilər əks etdirilmişdir.



Şəkil 2. İEEÖ-də KOS subyektlərinin ÜDM-ə və məşğulluğa təsiri, faizlə
Mənbə: *World Bank, World Development Indicators 2020*

Şəkil 2-də KOS-ların sürətlə inkişaf edən ölkələrin iqtisadiyyatında rolunun daha çox olduğunu görmək mümkündür. İnkişaf tempi daha yüksək olan ölkələrdə KOS-ların ÜDM-dəki payının 40%-dən, məşğulluqdakı payının isə 60%-dən çox olduğunu söyləmək mümkündür. İnkişafı daha zəif sürətlə davam edən öğlkələrdə isə göstəricilərin olduqca aşağı olduğunu statistik göstəricilərə baxdıqda görmək olar. Belə ölkələrdə KOS-ların ÜDM içərisindəki payı 30-20%, məşğulluqdakı payı isə 25-35%-dir.

İEÖ və İEOÖ-lərin statiatik göatəriciləri nəzərdən keçirdikdən sonra həmin göstəricilərin Azərbaycan iqtisadiyyatında fəaliyyətl göstərən KOS-ların iqtisadiyyata təsirini müqayisəli şəkildə aydınlaşdırmaq mümkündür. Aşağıdakı şəkildə KOS-ların ÜDM və məşğulluqdakı payı əks etdirilmişdir.



Şəkil 3. Azərbaycanda KOS subyektlərinin ÜDM və məşğulluğa təsiri, faizlə
Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsi*

Yuxarıdakı şəkili nəzərdən keçirsək KOS-ların ÜDM içərisindəki payı qeyri-neft sektorunda 15%-dək (neft sektoru üzrə isə 8%-dək), məşğulluqdakı payının isə 30-40% olduğunu görərik. Azərbaycana aid rəsmi göstəriciləri digər ölkələrlə müqayisə etdiyimiz zaman Azərbaycan iqtisadiyyatında KOS-ların ÜDM və məşğulluqdakı payının olduqca aşağı olduğunu görmək mümkündür.

Dünya üzrə mövcud olan müəssisələrin təxminən 90%-ni və məşğulluğun 50%-ni təşkil edən KOS-ları qlobal iqtisadi inkişafa töhvə verən amillərdən hesab etmək mümkündür. Dünya Bankının proqnozlarına görə 2030-cu ilə qədər artan qlobal işçi qüvvəsini işlə təmin etmək üçün 600 milyon yeni iş yeri tələb olunacaq ki, bu da KOS-ların inkişafının dünyanın bir çox ölkələri üçün əhəmiyyətliliyini ortaya çıxarır. Yuxarıdakı statistik məlumatlar Azərbaycanda fəaliyyət göstərən KOS-ların vəziyyətinin heç də ürəkaçan olmadığını göstərir. Bütün bu məlumatlar KOS-ların iqtisadiyyata müsbət istiqamətli təsirini artırmaq üçün dövlətin müəyyən köklü dəyişikliklərin aparılmasının əhəmiyyətliliyini ortaya çıxarır.

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA KLASTERLƏRİN YARADILMASININ ƏHƏMİYYƏTİ

Dünya təcrübəsi göstərir ki, KOS-ların ölkə iqtisadiyyatında effektivliyininin artırılması, məşğulluğun artırılması, bazarda rəqabətqabiliyyətliliyin artırılması, əhali tələbatının ən yüksək səviyyədə ödənilməsi, artan rəqabət şəraitində mal və xidmətlıərin keyfiyyət göstəricisinin yüksəldilməsində KOS klasterlərininin yaradılmasının böyük rolu vardır (Alsaç, 2012). Klaster dedikdə, bənzər məhsul və xidmət istehsalı ilə məşğul olan və eyni məqsədə istiqamətlənmiş firmaların eyni bir coğrafi ərazidə yerləşməsi və birlikdə fəaliyyətlərinə davam etməsi kimi başa düşülə bilər (Alsaç, 2012). Klasterlərlə bağlı elmi ədəbiyyatda müxtəlif təriflər mövcuddur. Bu müxtəliflik hər bir alimin bu konsepsiyaya yanaşma tərzinin müxtəlifliyindən ortaya çıxır. Lakin, klaster konsepsiyasının yaradıcısı hesab olunan M.Porterin tərifi daha çox istifadə edilənlərdəndir. M.Porterə görə klaster- müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşdırılmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də, bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsidir. (M.Porter, 1990).

Məhdud maliyyə resurslarına malik olmaq KOS-ların böyüməsi və fəaliyyətini davam etdirməsinin- qarşısında duran ən böyük amillərdəndir. Eləcə də, KOS-ların bank kreditləri əldə etməsi iri firmalara nəzərən daha çətindir və əsasən KOS-lar öz daxili vəsaitlərinə,dostlardan vı ya ailədən gələn nağd ödənişlərə güvənərək fəaliyyətə başlayır və davam etdirir. Beynəlxalq maliyyə korporasiyasının hesablamalarına görə, inkişaf etməkdə olan ölkələrdə 65 milyon KOS-ların 40%-i 5.2 trilyon ABŞ dolları məbləğində madii vəasitə ehtiyac duyur (‘’Dünya Bankı’’ rəsmi saytı) Dünya Bankınln rəsmi statistik məlumatlarına görə ümumi maliyyə çatışmazlığının 46%-i Mərkəzi Asiyanın, 15%-i isə Şərqi Asiya və Avropanın payına düşür. Rəsmi KOS-ların yarısının rəsmi kreditə çıxışının olmaması da, dünya bankı tərəfindən verilən məlumatlar arasındadır. Azərbaycanda da, KOS-ların zəif maliyyə çıxışlarına malikdir. Asiya İnkişaf Bankının (ADB) hesablamalarına görə, Azərbaycanda KOS-ların maliyyə ehtiyacları 6,8 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilir. Maliyyə ehtiyaclarını qarşılamaqda çətinlik çəkən KOS-lar üçün ən optimal yollardan biri kimi klasterləşməni misal göstərmək olar. İri sahibkarların və KOS-ların qarşılıqlı fəaliyyət göstərərək yaratdıqları klaster şəbəkəsi sahibkarlar üçün maliyyə ehtiyaclarının qarşılanmasını, kreditlərin əlçatanlığını təmin edir. Klasterin tərkib hissəsi olduğu zaman KOS-ların dövlət tərəfindən verilən subsidiyaları əldə etməsi təkbaşına fəaliyyət göstərdiyi dövrlə müqayisədə daha əlverişlidir. Məsələn, Avropa Klaster Əməkdaşlıq Təşkilatı tərəfindən üzv ölkələrdə fəaliyyət göstərən klasterlərə pandemiyanın mənfi nəticələrini yumşaltmaq üçün təxminən 95 milyard avro maliyyə yardımı göstərilmişdir. Beləliklə də, KOS-ların maliyyə ehtiyaclarını təmin edə bilməsi üçün onların klasterlərin tərkib hissəsi olmağı zəruridir.

2021-ci ilə dair statistik məlumatlar nəzərdən keçirildikdə 12011 mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ləğv edildiyini görə bilərik. Müsbət hal isə ondan ibarətdir ki, 2020-ci illə müqayisədə bu rəqəmin 55% azalmışdır. Fəaliyyətlərini davam etdirə bilmək üçün dövlət dəstəyinə ehtiyac duyan firmaların belə dəstəklə təminat məsələlərində klasterlərin böyük faydası vardır. Klasterin tərkib hissəsi olmaqla KOS-lar elmi-tədqiqat mərkəzlərinin və dövlət tərəfindən maliyyələşən universitetlərin elmi araşdırmalarınının nəticələrinə, dövlət tərəfindən göstərilən subsidiyalara və müxtəlif digər məqsədli dövlət quruluşlarının xidmətlərindən ödənişsiz və asanlıqla yararlana bilərlər. Belə üstünlüklər əldə edən KOS-lar isə öz fəaliyyətini dayandırmaz, əksinə fəaliyyət istiqamətlərini genişləndirə bilər. Beləliklə, Azərbaycanda klasterlərin yaranması ilə KOS sahibkarların fəaliyyətini dayandırmasının qarşısını almaq mümkündür.

Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da, klasterlərə xüsusi güzəştlər təyin edilir. KOS-lar fəaliyyət göstərdikləri zaman öz dövriyyə məbləğinə görə sadələşdirilmiş, gəlir və ƏDV vergisi ödəyiciləri kimi çıxış edirlər. Klasterlərin tərkib hissəsi olduqları zaman 7 il müddətində bu vergilərdən azaddırlar. Təbii ki, vergi yükünün azaldılaması və ya aradan qaldırılması sahibkarların gəlirini və istehsalatının artımına gətirib çıxaran vacib amillərdəndir. Yalnız klasterin tərkib hissəsi olmaqla belə güzəştlərə malik olan KOS-lar öz gələcək fəaliyyətlərini genişləndirə bilər. Bu baxımdan da, klasterin tərkib hissəsində fəaliyyət göstərmək KOS-lara böyük fayda verəcəkdir.

Texnologiyadakı, insanların zövq və düşüncələrindəki, ətraf aləmdə baş verən dəyişikliyi izləyərək ona uyğun biznes strategiyası formalaşdırmaq və dəyişiklikləri mənimsəyərək öz məhsul və

xidmətlərinə tədbiq etmək KOS-lar üçün olduqca çətindir. Beləliklə, KOS-lar dünya bazarındakı mövcud rəqabətə tab gətirə bilmədiyinə görə yeni bazarlara çıxış əldə edə bilmirlər. Eyni zamanda, dünya bazarına çıxmaq və fəaliyyətini davam etdirə bilmək istəyən KOS-lar ilk öncə yerli bazardakı iri firmalara qarşı rəqabətqabiliyyətli olmağı bacarmalıdır. Belə gərgin rəqabət mühitinə çox vaxt Kos-lar tab gətirməyə bilir. Lakin, klasterin tərkib hissəsi olmaqla KOS-lar iri firmalarla rəqabət mühitindən çıxaraq ortaq fəaliyyətə keçid edirlər. İri firmalarla əməkdaşlığı nəticəsində yeni satış bazarlarına daha rahat çıxa bilməsi, texnologiyadakı dəyişikliyə və yeni ortaya çıxan biliklərə asan əlçatanlıq və s. bu kimi məsələlərdə üstünlüyə malik olurlar. Digər firmalar qarşısında rəqabət üstünlüyünə malik olan KOS-lar isə yaradılışlarının ali məqsədi hesab edilən mənfəəti maksimumlaşdırmağa nail ola bilirlər.

Firmaların öz istəklərilə birləşərək müştərək fəaliyyət göstərməsi və ya dövlətin birbaşa müdaxilə etməsi nəticəsində klasterlər yarana bilir. Klasterləşmə təcrübəsinə malik olmayan respublikamız üçün klasterlərin yaradılması yalnızca dövlətin dəstəyi ilə mövcud ola bilər. Dövlətin stimullaşdırıcı tədbirlər və müxtəlif sosial layihələr çərçivəsində yarada biləcəyi klasterlər müəyyən prinsiplər üzərində qurulmalıdır. Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə birbaşa təsir edən prinsipləri aşağıdakı şəkildə sıralamaq mümkündür

- Klasterin tərkib hissəsi olan KOS-lar öz müstəqilliyini qoruyub saxlamalıdır. Belə ki, KOS-ların firmadaxili qərarlarına heç bir klaster iştirakçısı müdaxilə etməməlidir.
- KOS-lar şəxsi iradələri ilə klasterləşmənin iştirakçısı olmalı və ya iştirakçı olmaqdan imtina etməlidir. Dövlətin və ya hər hansı başqa sahibkarlıq subyektlərinin məcburiyyəti əsasında klasterlər yaradılmamhalıdır. Burada dövlət yalnızca firmaları stimullaşdırmaqla klaster iştirakçısı olmağa sövq etməlidir. Digər tərəfdən, digər firmanın təhdidləri və ya haqsız rəqabət formasına əl ataraq KOS-ların klasterdaxili fəaliyyətinə maneə olan hər bir firma qanun qarşısında cəzalandırılmalıdır.
- Klaster iştirakçısı olan hər bir sahibkarın müəyyən öhdəliyi olmalıdır. KOS subyekti və digər firmalar qarşılıqlı fəaliyyəti üzrə öhdəçilik götürməlidir. Məsələn, klaster iştirakçılıqdan imtina etmək istəyən sahibkarlıq subyekti KOS-ların fəaliyyətinə xələl gətirməmək üçün öz öhdəliyini yerinə yetirməyə məcburdur. Bu prinsip KOS-ların hüquqlarının qorunmasına kömək edir.
- Klasterin hər bir iştirakçısı əldə etdiyi elmi yenilik barəsində digər firmaları məlumatlandırmalıdır. Texnologiyadakı yenilikləri izləmək imkanına malik olan iri firmalar klasterin ümumi inkişafına nail olmaq üçün digər KOS-ları bu barədə məlumatlandırmalıdır. Dəyişiklikləri təqib etməkdə çətinlik çəkən KOS-lar bu prinsip əsasında klasterin iştirakçısı olmaqla yeni məlumatları daha rahat əldə edə bilər.
- Klaster iştirakçılarının hər biri bərabər hüquqa malik olmalıdır. Firmalar ölçülərinə, tutduqları mövqeyə görə fərqləndirilməməli, iş bölgüsü ədalətli şəkildə aparılmalı, şəffav şəkildə dəyər zənciri yaradılmalıdır.

NƏTİCƏ

Qloballaşan dünyamızda bütün ölkələr KOS-ların iqtisadi böyüməyə, məşğulluğa, rifah səviyyəsinin artmasına, regional inkişafın təmin olunmasına, iqtisadiyyatın şaxələndirilməsinə verdiyi töhfələri bilir. İqtisadiyyatın modernləşdirilməsi və diversifikasiyası siyasətini hədəf olaraq qoyan Azərbaycan iqtisadiyyatında regional inkişafın və qeyri-neft sektor sahələrinin inkişafının təmin edilməsi məsələlərində KOS-ların böyük rolu olduğunu söyləmək mümkündür.

KOS-ların ÜDM və məşğulluqdakı əhəmiyyətli rolu olduğunu statistik məlumatlara baxdıqda görmək mümkündür. Dünya Bankının vermiş olduğu rəsmi məlumatlara görə inkişaf etmiş ölkələrdə KOS-ların ÜDM-dəki payının 40%-dən çox, məşğulluqdakı payının isə 55%-dən çox, inkişaf tempi daha yüksək olan ölkələrdə KOS-ların ÜDM-dəki payının 40%-dən, məşğulluqdakı payının isə 60%-dən çox olduğunu, inkişafı daha zəif sürətlə davam edən ölkələrdə isə göstəricilərin olduqca aşağı olduğunu statistik göstəricilərə baxdıqda görmək olar. Belə ölkələrdə KOS-ların ÜDM içərisindəki payı 30-20%, məşğulluqdakı payı isə 25-35%-dir. Azərbaycanda isə bu döstəricilər olduqca aşağıdır, belə ki, KOS-ların ÜDM içərisindəki payı qeyri-neft sektorunda 15%-dək (neft sektoru üzrə isə 8%-dək), məşğulluqdakı payının isə 30-40% -dir. Dünya ölkələri ilə müqayisədə Azərbaycanda KOS-ların inkişafının necə zəif olduğunu əldə edilən statistik məlumatlarda görürük.

Ölkəmizdə KOS-ların zəif inkişafı və iqtisadiyyata verdiyi xeyirin potensialından aşağı olması bu sahənin inkişafını zəruri hala gətirir. Dövlət başçısı KOS-ların inkişafı üçün bir çox sərəncam, dövlət proqramı imzalamışdır. Belə layihələrin hər birində klasterli inkişafa keçidin vacibliyi

vurğulanır.

Bu çalışmada, müxtəlif statistik göstəricilərdən istifadə edərək KOS-ların ölkə iqtisadiyyatında rolu, klasterli modelə keçidin KOS-ların inkişafına təsiri aşkarlanmağa çalışılmışdır. Tədqiqat zamanı klaster modeli ilə bağlı məlumatlar əks edilən yerli və xarici ədəbiyyatlardan istifadə edilmişdir.

Tədqiqat zamanı aşkara çıxarılan klasterləşmənin KOS-ların inkişafına göstərdiyi müsbətyönümlü təsirləri aşağıdakı kimi sadalamaq mümkündür

- Dövlətin güzəştlərinə, maliyyə vasitələrinə əlçatanlığın təmin edilməsi
- Texnologiyadakı, istehsalatdakı və tələbatdakı dəyişikliklərdən daha tez xəbərdar olmaqlar rəqabətüstünlüyü əldə edilməsi
- Yeni bazarlara çıxmaq imkanı qazanmaqla karını artırmaq imkanı əldə etməsi
- İnnovasiya əlçatanlığının təmin edilməsi ilə rəqibləri ilə müqayisədə daha yüksək iqtisadi artıma nail olması
- İqtisadi məhsuldarlığın artırılması
- Rəqabət gücü hesabına əldə edilən üstünlük hesabına şirkətlər regional səviyyədən ümumimilli səviyyəyə, ümummilli səviyyədən beynəlxalq səviyyəyə yüksələr. Sektorun bu şəkildə böyüməsi, inkişafının davamlılığı istehsal olunan məhsulların və şirkətlərin iqtisadi cəhətdən ömrünü uzadar.

ƏDƏBİYYAT SİYAHISI

1. Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. Bakı, 2002. 78 səh..
2. Tərbiz Əliyev, klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Azərbaycan Milli Elmlər Akademiyası, 2019.
3. Alsaç, F. Bölgesel Gelişme Aracı Olarak Kümelenme Yaklaşımı Ve Türkiye İçin Kümelenme Bölgeler Bazında Bir Uygulama. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü nəşriyyatı, 2012, 18 (2): 281-298.
4. Porter, M., .The Economic Performance of Regions, Regional Studies, 2003, 37 (6-7): 549-578.
5. www.stat.gov.az

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TURİZMİN İNKİŞAF TƏMAYÜLLƏRİ

Əmirov İmran Balamirzə oğlu
Mirzəbəyov Araz Əliosman oğlu
Sumqayıt Dövlət Universiteti
İqtisadiyyat və idarəetmə/Biznesin idarə edilməsi
imran_amirov@mail.ru
araz.mirze@gmail.com
Sumqayıt şəhəri, Azərbaycan

XÜLASƏ

Məqalədə ölkəmizin iqtisadiyyatında strateji əhəmiyyət kəsb edən sahələrdən biri olan turizm biznesinin inkişaf təmayüllərinin işıqlandırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsinə prioritet verilməsi turizm sənayesinin daha da genişləndirilməsi istiqamətində fəaliyyətlərin gücləndirilməsini ön plana çəkir. Bu baxımdan da işğaldan azad edilmiş ərazilərdə turizm sferasının inkişafının genişləndirilməsi və mövcud imkanlardan səmərəli istifadə olunması məsələləri günümüzün tələblərindən irəli gəlir.

Milli iqtisadiyyatımıza gəlir gətirən turizm sənayesinin davamlı artımı baxımından Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında görülən işlərin xüsusi əhəmiyyəti vurğulanmışdır. Burada strateji sahələrdən biri kimi turizm biznesinin inkişaf etdirilməsi, bu sferada görüləcək tədbirlər və həyata keçirilən dövlət proqramları nəticəsində ölkəyə gələn turist axınının yaxın gələcəkdə çoxalması proqnoz edilmişdir. Turizm biznesinin gücləndirilməsində nəqliyyat kommunikasiya əlaqələrinin

qurulması, otellərin tikilməsi, ziyarətgah yerlərinin və tarixi abidələrin bərpası, beynəlxalq standartlara cavab verən infrastrukturun yaradılması və xidmətlərin təşkili, sanator-kurort müəssisələrinin, istirahət mərkəzlərinin, parkların istismara verilməsi milli iqtisadiyyatımızın inkişafına yeni dividentlər gətirə biləcəyi vurğulanmışdır.

İşğaldan azad edilən bölgələrin bioloji resursları, burada olan meşə fondunun, flora və faunanın bərpa edilməsi, müalicəvi əhəmiyyət kəsb edən mineral suları, əsrarəngiz təbiəti, tarixi abidələri və s. turizm sənayesinin inkişafında yeni fürsətlərin yaranmasına zəmin yaradacaqdır. Yekunda dövlət əhəmiyyətli proqramların və layihələrin həyata keçirdilməsi nəticəsində başa çatdırılması turizm sənayesinin Azərbaycanın iqtisadi rayonları üzrə daha da sürətli inkişaf edəcəyi əsaslandırılmışdır.

AÇAR SÖZLƏR*: Açar söz-iqtisadiyyat, açar söz-biznes, açar söz-turizm*

Summary

The main goal of the prepared article is to explain the development trends of the tourism business, which is one of the strategically important areas in the economy of our country. Giving priority to the development of the non-oil sector in Azerbaijan highlights the strengthening of activities towards further expansion of the tourism industry. From this point of view, the issues of expanding the development of the tourism sector in the territories liberated from occupation and the effective use of existing opportunities arise from the requirements of today.

In the context of the continuous growth of the tourism industry, which generates income for our national economy, the special importance of the work carried out in the economic regions of Karabakh and Eastern Zangezur was emphasized. It is predicted that the development of the tourism business as one of the strategic directions as a result of measures taken in this area and implemented government programs will lead to an increase in the flow of tourists to the country in the near future. The article emphasized that, in strengthening the tourism business, the establishment of transport and communication links, the construction of hotels, the restoration of places of pilgrimage and historical monuments, the creation of infrastructure that meets international standards and the organization of services, the commissioning of sanatorium-resort institutions, recreation centers and parks can bring new dividends for the development of our national economy.

Biological resources of regions liberated from occupation, restoration of forests, flora and fauna, mineral waters of medicinal value, mysterious nature, historical monuments, etc. will create the basis for creating new opportunities in the development of the tourism industry. In conclusion, as a result of the implementation of nationally important programs and projects, it is justified that the tourism industry in the economic regions of Azerbaijan will develop even faster.

Keywords: keyword-economy, keyword-business, keyword-tourism

Резюме

Основная цель подготовленной статьи разъяснение тенденции развития туристического бизнеса, который является одним из стратегически важных направлений в экономике нашей страны. Придание приоритета развитию ненефтяного сектора в Азербайджане выдвигает на первый план усиление деятельности в направлении дальнейшего расширения туристической отрасли. С этой точки зрения вопросы расширения развития туристической сферы на освобожденных от оккупации территориях и эффективного использования имеющихся возможностей вытекают из требований сегодняшнего дня.

В условиях непрерывного роста туристической отрасли, приносящей доходы нашей национальной экономике, была подчеркнута особая важность работ, проводимых в экономических районах Карабаха и Восточного Зангезура. Прогнозируется, что развитие туристического бизнеса как одного из стратегических направлений в результате принимаемых в этой сфере мер и реализуемых государственных программ приведет к увеличению потока туристов в страну в ближайшем будущем. В статье было подчеркнуто что, в укреплении туристического бизнеса налаживание транспортно-коммуникационных связей, строительство гостиниц, восстановление мест паломничества и исторических памятников, создание инфраструктуры, соответствующей международным стандартам и организации услуг, ввод в эксплуатацию санаторно-курортных учреждений, базы отдыха и парки могут принести новые дивиденды развитию нашей национальной экономики.

Биологические ресурсы освобожденных от оккупации регионов, восстановление лесного фонда, флоры и фауны, минеральные воды лечебного значения, загадочная природа,

исторические памятники и т.д. создаст основу для создания новых возможностей в развитии туристической отрасли. В заключение, в результате реализации общенационально важных программ и проектов оправдано, что туристическая отрасль в экономических регионах Азербайджана будет развиваться еще быстрее.

Ключевые слова: ключевое слова-экономика, ключевое слова-бизнес, ключевое слова-туризм

GİRİŞ

Müzəffər ordumuzun şanlı qələbəsi nəticəsində ərazisinin təhlükəsizliyini təmin edən Azərbaycan Respublikası (AR) özünün sosial-iqtisadi inkişafını qətiyyətlə artırmaqda davam edir. Dövlət başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasəti nəticəsində milli iqtisadiyyatımız günü-gündən daha da güclənməkdədir. Ölkə iqtisadiyyatında strateji əhəmiyyət kəsb edən və onun dünyaya inteqrasiyasını gücləndirən sahələrdən biri də turizm sənayesidir. Təsərrüfatçılığın daha gəlirli sahələrindən biri olan turizm biznesində də ölkəmizin reytinqi yüksələrək özünün mövqeyini yaxşılaşdırmışdır.

Dünya turizm biznesinin bir hissəsi olan Azərbaycan Respublikası təbii və coğrafi mövqeyi cəhətdən əlverişliliyi ilə seçilərək böyük potensiala malikdir. Ölkə ərazisində olan iqlim şəraiti, onun florası, faunası, mineral su mənbələri, qədim tarixi məbədləri və yerləri, ziyarətgahları, zəngin mədəniyyət abidələri, parkları, sanatoriya-kurort müəssisələri, istirahət məkanları və s. turistlərin davamlı olaraq marağını artırır.

AR-da cari ilin ilk 10 aylarında (yanvar-oktyabr) iqtisadi fəaliyyət sferalarında 100,9 milyar (mlrd) manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Hasil edilən bu göstəricinin ötən dövrün müvafiq göstəriciləri ilə tutuşdurulması ÜDM üzrə 0,5%-dən artıq olması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Ölkəmizin Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına istinadən təsərrüfatçılığın neft-qaz sferasında əldə edilən əlavə dəyərin 2,3 % azalmasına rəğmən, qeyri-neft-qaz sahəsində bu göstəricinin 3,1% artması təsdiqlənmişdir. Göstərmək lazımdır ki, ÜDM istehsalının xüsusi çəkisində turistlərin yerləşdirilməsi və ictimai iaşənin payının 2,3% təşkil etməsinə baxmayaraq onun artırılması imkanların olduqca böyükdür. Bu makroiqtisadi göstəricinin formalaşmasında 41,3%-i sənayenin, 9,9%-i ticarətin, 6,2%-i aqrar sahənin, meşə təsərrüfatı və balıqçılığın, 6,2%-i nəqliyyat və anbar təsərrüfatının, 5%-i tikintinin, 1,7%-i informasiya və rabitə sferalarının, 18%-i digər sahələrin payına düşmüşdür. ÜDM-in yaranmasında onun 9,4%-i məhsula və idxala xalis vergilər təşkil edir.

Azərbaycanda cari ilin turizm göstəricilərinə nəzər salsaq ölkəmizə gələn turistlərin sırasında Rusiya Federasiyası (375158), Türkiyə (207739) və Yaxın Şərq (126708) ölkələrinin ilk üçlükdə yer aldığını müşahidə etmiş olarıq (cədvəl 1). Milli turizmin 2023-cü ilin 8 ayına görə statistik məlumatlarının araşdırılması cəmi ölkəmizə gələnlərin sayının 1143605 nəfərə çatması qənaətinə gətirir. Buna baxmayaraq mövcud imkanlardan istifadə etmək və turizm sənayesində kompleks tədbirlərin görülməsi nəticəsində növbəti ildə gələn turistlərin sayının 20% artırlması proqnoz edilir.

Turizm biznesi üzrə aparılan təhlillərin nəticəsində ötən hesabat ilində Azərbaycana 178 ölkədən 1602,6 min nəfər xarici vətəndaşın gəldiyi təsdiqlənmişdir. Bu da 2021-ci ilin məlumatları ilə müqayisədə gələn turistlərin sayının 2 dəfə çoxaldığını göstərir (Əmirov, 2023). Azərbaycana gələn turistlərin sayının artmasının dövlət büdcəsinə daxilolmaların çoxalmasına və gəlirlərimizin yüksəlməsinə səbəb olması xalqımızın da milli maraqlarına tamamilə uyğundur.

Qeyd etmək vacibdir ki, respublikamıza gələn turistlərin əksəriyyəti Abşeronun, xüsusilə Bakı şəhərinin (80 %-i) payına düşür. Burada olan tarixi memarlıq abidələr, palçıq vulkanları, ziyarətgahlar, müasir istirahət mərkəzləri, dəniz ətrafı çimərliklər və s. turistləri davamlı olaraq maraqlandırmışdır. Lakin ölkə ərazisində, xüsusi ilə də işğaldan azad edilmiş torpaqlarda turizm baxımından olduqca zəngin imkanlar vardır. Digər bölgələrlə yanaşı Qarabağ iqtisadi rayonundan (7.07.21) turizmin gücləndirilməsi baxımından istifadə edilməsinin gələcəkdə yeni dividentlər gətirməsi dövlətimizin də maraqlarına tamamilə uyğun gəlir (2).

"AR-nın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində görülən işlər əminliklə deməyə əsas verir ki, bu iqtisadi rayonda layihələrin tamamlanması turizm biznesinin gücləndirilməsinə yeni təkanlar verəcəkdir. Adı çəkilən ərazilərin bioloji resursları, burada olan meşə fondunun, flora və faunanın bərpa edilməsi, müalicəvi əhəmiyyət kəsb edən mineral suları, əsrarəngiz təbiəti, tarixi abidələri və s. turizm sənayesinin inkişafına yeni fürsətlərin verməsini

proqnoz etməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, işğaldan azad edilən Qarabağ ərazisinin 1150 hektar sahəsində meşələrin bərpa olunması və artırılması məqsədilə ağac əkilməsi tədbirlərinin görülməsi planlaşdırılır (3).

İndiki gündə Qarabağa əhalinin qayıdışı prosesi davamlı olaraq həyata keçirilməkdədir. Bu ərazilərdə infrastruktur obyektlərinin yaradılması, yaşayış komplekslərinin tikilməsi, parkların, istirahət yerlərinin və s. təşkil edilməsi istiqamətində mühüm tədbirlərin gerçəkləşdirilməsi davam etdirilməkdədir. Bütün bunlar xarici turistlərin marağına səbəb olmaqla onların axının çoxalmasını bir daha şərtləndirir.

Turizm biznesinin gücləndirilməsi ölkəmizdə nəqliyyat kommunikasiya əlaqələrinin qurulması amili ilə sız əlaqədardır. Bu baxımdan işğaldan azad edilən ərazilərimizdə inşa edilmiş nəqliyyat xətlərini istismara verilməsinin önəmi böyükdür. Qarabağda və Şərqi Zəngəzurda beynəlxalq standartlara cavab verən və inşası başa çatdırılan Zəfər yolu (101 km), Əhmədbəyli-Füzuli-Şuşa (81,8 km), Toğanalı-Kəlbəcər-İstisu (80,7 km), Kəlbəcər-Laçın (72,3 km), Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd (123,8 km), Talış-Topqaraqoyunlu-Qaşaltı (22 km), Xudafərin-Qubadlı-Laçın (83 km), Şükürbəyli-Cəbrayıl-Hadrut (43 km), Füzuli-Hadrut (13 km), Bərdə-Ağdam (45 km) və digər yollar turizm biznesinin inkişafına geniş imkanlar açır. Ümumilikdə, adı çəkilən ərazilərimizdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəsmi məlumatına istinadən 665,4 km-dən çox yol çəkilmişdir (5).

Cədvəl 1. Azərbaycana cari ildə müxtəlif ölkələrdən gələn turistlərin ilk onluğu (min nəfərlə)

Ölkələr	Yanvar	Fevral	Mart	Aprel	May	İyun	İyul	Cəmi
Rusiya	40,2	35,1	44	47,1	64,8	71,7	72,7	375
Türkiyə	25,1	23,7	30,4	30,2	33	34	31,3	208
Yaxın Şərq	11,7	10,7	8,3	9,9	17,7	24,9	43,4	127
Cənubi Asiya	7,9	9	9	13,3	13,4	18,3	14,5	86,4
İran	11,1	10,2	12,1	10,7	13,9	12,7	14,5	85,2
Mərkəzi Asiya	5,3	5,5	8,8	9,3	12,5	11,7	13,3	66,5
Gürcüstan	6,6	6,6	7,5	8,1	8,5	7,7	8,7	53,7
Şərqi Avropa	4,5	5,1	7,02	8,5	9,6	8,4	8,02	51,2
Şim.şərqi Asiya	0,6	0,6	0,8	1,8	3,6	3,8	4,3	15,5
Amerika	1,1	1,1	1,4	2,6	2,5	2,6	2,7	13,8
Cən.şərqi Asiya	0,7	0,8	0,8	1,1	1,1	1,2	0,9	6,7

Mənbə: (Miqrasiya, 2023).

Xüsusi vurğulanmalıdır ki, ekspetlər azad olunmuş torpaqlarımızda mövcud olan turizm potensialını çox yüksək qiymətləndirirlər. Ona görə də gələcəkdə həm iqtisadiyyatımızın, həm də turizm sənayesinin inkişafı üçün bu ərazilərdə hava limanlarının tikilməsi olduqca əhəmiyyətlidir. Yol-nəqliyyat strategiyasının bir elementi olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərinə daxil olan Füzuli (26.10.21) və Zəngilan (20.10.22) beynəlxalq aeropotrlarının tikilməsi bu regionlara gələnlərin təhlükəsizliyini və rahatlığını təmin edəcəkdir. Təməli 16.08.21 tarixində ölkə prezidenti İ.H.Əliyev tərəfindən qoyulan və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan Laçın beynəlxalq hava limanın tikintisinin isə 2024-cü ildə başa çatdırılması nəzərdə tutulmuşdur. Bu hava limanının Laçın və Şuşa şəhərlərindan 30 km, Kəlbəcərdən isə 60 km aralıqda yerləşməsi ölkəmizin turizm biznesinə yeni töhfələr verəcəyindən xəbər verir. Belə ki, həm ölkə vətəndaşları xüsusilə Abşeronda yaşayanlar, həm də xarici turistlər Şuşaya getmək üçün uzaq məsafə qət etməyəcəklər. Bakıdan və xaricdən gələn qonaqlar birbaşa olaraq hava nəqliyyatından istifadə edərək Laçın beynəlxalq hava limanı uçmaqla rahatlıqla Şuşaya gedə biləcəklər (Mehman, 2019).

Artıq göstərildiyi kimi, milli turizmin inkişafının gücləndirilməsində nəqliyyat-kommunikasiya əlaqələrinin qurulması, xüsusilə dəmir yolu xətlərinin çəkilməsi də əhəmiyyətlidir. Bu əlaqələrin yaradılması maliyyə tutumlu olsa da uzunluğu müvafiq olaraq 47,1 və 110,4 km olan Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu çəkilişi üzrə işlər davam etdirilməkdədir. Qarabağ iqtisadi rayonda Füzuli ilə Şuşa arasında 83,4 km məsafəyə də dəmir yolu xəttinin quraşdırılması əlaqələrimizin daha da effekli olmasına zəmin yaradacaqdır.

Ölkəmizə gələ bilən turistlərin sayının yüksəlməsinə Azərbaycanda mövcud pasport rejiminə və qaydalarına riayət edilməsi amilləri də təsir göstərir. AR-nın dünyanın pasport reytinqi sıralarında da mövqeyinin yaxşılaşdırlması rəsmiləşmişdir. Belə ki, ölkəmiz "Henley & Partners Visa Restrictions Index" şirkətinin hesabatında cari ilin 3-cü rübünə istinadən yanvar reytinqi ilə müqayisədə 4 mövqe yüksələrək Uqanda ilə 72-ci yeri bölüşüb. Qeyd edək ki, adı çəkilən şirkət dünyada 200-dən çox ölkələrin və ərazilərin viza rejimlərini araşdırmqla dövlərləri vizadan azad olmaq üzrə sıralayır. 2023-cü ilin yanvarda Azərbaycan Dominikan Respublikası və Tunislə 76-cı yeri bölüşmüşdür. Bu reytinq sırasında Cənubi Qafqazın digər dövlətləri kimi Gürcüstan 48 (117 vizasız iqtiqamət) və Ermənistan isə 74-cü mövqelərdə (Filippin və Kabo-Verde ilə, 66 vizasız istiqamət) dayanmışlar.

TƏDQİQATIN METODU

Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişaf təmayüllərinə aydınlıqlıq gətirilməsi üçün analitik təhlil metodundan və rəsmi mənbələrdən əldə olunan məlumatlardan istifadə edilmişdir. Aparılan tədqiqatın nəticəsində cədvəl göstəricilərinə istinadən Rusiya, Türkiyə və Yaxın Şərqdən ölkəmizə gələn turistlərin üstünlük təşkil etməsi diqqəti çəkir.

NƏTİCƏ

Beləliklə, özünün unikallığı ilə fərqlənən Qarabağ iqtisadi rayonunun və ətraf bölgələrin ərazisi turizm biznesinin daha da inkişaf etdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu iqtisadi rayonda, eləcə də onun ətraf ərazilərində otellərin çoxaldılması, ziyarətgah yerlərinin və tarixi abidələrin bərpa olunması, beynəlxalq standartlara cavab verən infrastrukturun yaradılması və xidmətlərin təşkili, sanator-kurort müəssisələrinin, istirahət mərkəzlərinin, parkların yaradılması və s. milli turizmin inkişaf perspektivlərini daha da artıracaqdır. Ölkəmizdə gerçəkləşdirilən "Böyük qayıdış" proqramı çərçivəsində tədbirlərə dövlətimiz tərəfindən prioritetliyin verilməsi və Qarabağ ərazisində həyata keçirdilən layihələrə 7 milyard manata yaxın sərmayə qoyuluşu yaxın gələcəkdə burada iqtisadi potensialımızın daha da artırılmasını təmin edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Амиров, И.Б., Гасымова, З.Г. Тенденция развития индустрии туризма в Азербайджане // Материалы Всероссийской научно-технической конференции посвященной 75-летию ООО "Газпром нефтехим Салават" "Наука. Технология. Производство – 2023" Часть 2, - Уфа: УНПЦ "Издательство УГНТУ", 24-28 апрель, - 2023, – с. 288-290
2. https://president.az/az/articles/view/52389 [Elektron rusurs] – müraciət tarixi 19.10.23
3. https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_iqtisadi_rayonu#cite_note-3 [Elektron rusurs] – müraciət tarixi 18.10.23
4. AR Dövlət Miqrasiya Xidmətinin məlumatları
5. https://fed.az/az/qarabag/qarabag-ve-serqi-zengezurda-tikilen-avtomobil-yollarinin-umumi-uzunlugu-melum-olub-xerite-113906 [Elektron rusurs] – müraciət tarixi 17.10.23
6. Asif Mehman, Qarabağda tikilən hava limanları Azərbaycana nə verəcək? // İki sahil. – 2019, 19 oktyabr.- s. 2

QARABAĞ İQTİSADİ RAYONUNUN TURİZM SAHƏSİNİN İNKİŞAFININ İNNOVATİV İDARƏ EDİLMƏSİ

KÖNÜL VƏLİYEVA MÜBARİZ QIZI
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı
Bölmə adı - İqtisadiyyat
email: Konul-Valiyeva@unec.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

XXI əsrdə iqtisadi proseslərdə dəyişiklik xammal yönümlü iqtisadiyyata meyli artmışdır. Dünyada gedən iqtisadi-siyasi proseslərin mürəkkəbliyi Azərbaycanın xarici iqtisadi konyunkturundan asılılığın azaldılması, sabit iqtisadi artımın təmin edilməsi üçün milli iqtisadi prioritetdə qeyri-xammal sektorlarının inkişafı ilə bağlı problemlər özünü göstərir. Buna görə də Qarabağ iqtisadi rayonunda

turizmin inkişafı zəruridir. Bu baxımdan da turizm sahəsinin məhz işğaldan azad edilmiş ərazilərdə inkişafının innovativ idarə edilməsi işin aktuallığını kəsb edir.

İşğaldan azad edilmiş torpaqlarda qeyri-neft sektorunun əsasını təşkil edən turizmin inkişafı mühüm addım kimi qiymətləndirilir. Dövlət tərəfindən bu sahəyə ayrılmış diqqət, maliyyə məsələlərinin araşdırılması işin məqsədini təşkil edir.

Qarabağ iqtisadi rayonunda turizmin inkişaf etdirilməsi və prosesin innovativ idarə edilməsi məsələləri bir çox tədqiqatçı-alimlər tərəfindən araşdırılmışdır. Məsələn, Təranə Qurbanovanın, Neron Babaxovun, Əliqismət Bədəlovun, Fəxriyyə Abdullayevanın və başqalarının araşdırmalarında məhz Qarabağ iqtisadi rayonunun turizm potensialı və onun inkişafının innovativ idarə edilməsi məsələləri qeyd edilmişdir. Bu da məqalənin elmi yeniliyini təşkil edir.

Qarabağ iqtisadi rayonunun turizm sahəsinin inkişafının innovativ idarə edilməsinin praktiki əhəmiyyətini başlıca nəzəri müddəalar əsasında formalaşan nəticə və təkliflərin turizmə verdiyi töhfələr təşkil edir. İqtisadiyyat, menecment kimi sahələrdə innovasiyaların, beynəlxalq təcrübənin praktiki əhəmiyyəti böyükdür.

Qarabağ iqtisadi rayonunun turizmin inkişafı yeni imkanlara yol açır. Bu baxımdan işin üstünlüklərinə beynəlxalq təcrübənin tətbiqi, regional inkişaf səviyyəsinin artırılması aiddir.

Nəticə etibarilə Qarabağ iqtisadi rayonunda turizmin inkişafı innovativ idarəetmədə əsas rol oynayır. Buna görə də innovativ xidmət sahələrində imkanların reallaşdırılması indiki dövrdə turizmi iqtisadiyyatın intensiv surətdə artan sektoruna çevirir. Dünya iqtisadiyyatının zəruri elementini, hərəkətverici qüvvəsini təşkil etməklə, sosial-iqtisadi inkişafın strukturlaşdırılması üçün imkanları artırmaqla turizm iqtisadiyyatın güclü inkişaf edən sahələrindən birinə çevrilmişdir.

AÇAR SÖZLƏR: inkişaf, innovativ idarəetmə, turizm
KEY WORDS: Development, innovative management, tourism

GİRİŞ

İşin aktuallığı və əhəmiyyəti. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun əldə etdiyi Zəfərlə tarixi ədalət bərpa olunub, torpaqlarımız işğaldan azad edilib, nəticədə ölkəmizin dayanıqlı inkişafı üçün yeni reallıq və imkanlar yaranıb. Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesinə başlanılıb.

İşğaldan azad edilmiş bu ərazilərdə turizm sahəsinin inkişafı üçün mühüm aspektlərdən biri də bu ərazilərdə nəqliyyat sektorunun inkişaf etdirilməsidir. Nəqliyyat sektoru inkişaf etməmiş hər hansı bir regionda turizm sahəsinin inkişafından danışmaq qeyri-mümkündür.

Nəqliyyat sektorunun inkişafı üçün dövlət tərəfindən lazımi qaydada iqtisadi dəstək tədbirləri görülmüşdür. Bundan əlavə olaraq da nəqliyyat sektorunun inkişaf etməsi, rəqəmsallaşdırılması təkcə turizm sahəsinin inkişafına yox, ümumiyyətlə, ölkəmizin iqtisadiyyatının daha da formalaşmasına müsbət təsir göstərəcəkdir. Çünki, nəqliyyat sektorunun inkişaf etməsi nəticəsində respublikamızda idxal-ixrac potensialı artır, ölkəmizin digər xarici ölkələr ilə inkişafı daha da sürətlənir və idxal-ixrac potensialının artırılması sahəsində ölkəmizdə bank sektoru daha da inkişaf edir.

Turizm struktur əmələ gətirən sahədir. Belə ki, turizm yeni fəaliyyət sahələrinin yaranmasına, istifadə edilməyən rekreasiya potensialının təsərrüfatçılıq dövriyyəsinə daxil edilməsinə, məşğulluq probleminin həllində, ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradır. Beynəlxalq turizmin inkişaf etməsi və bu prosesə Azərbaycanın da qoşulması üçün işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı başlıca məsələ kimi diqqəti cəlb edir (Əlirzayev, 2010).

Dayanıqlı inkişaf, sosial və iqtisadi inkişaf Qarabağ iqtisadi rayonunda turizmin inkişafı ilə mümkündür. Turizm sahəsi nəqliyyat sisteminin inkişafı ilə birbaşa əlaqəli olduğundan işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir. Turizmin inkişafı turizm sektorunu ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevirir.

Son illərdə ölkəmiz inkişaf tempini sürətləndirmişdir. Dünyanın aparıcı ölkələri arasında Azərbaycan öz mövqeyini tutmuş və mövcud regional iqtisadi potensialı ilə seçilməkdədir. Uzun tarixi inkişaf yolu keçən Azərbaycan Respublikası hazırda çox qısa zaman ərzində nailiyyət əldə etmişdir. Bu nailiyyətlərin başında Qarabağ iqtisadi regionunda təmir-bərpa işlərinə başlanılması olmuşdur. Belə ki, neft sektoru kimi qeyri-neft sektorunun da inkişafı prioritet məsələ kimi qarşıda durmuşdur. Respublikamızın yerüstü və yeraltı sərvətləri olduqca zəngindir. Mövcud iqlim resursunun olması Qarabağ iqtisadi regionunda turizmin inkişafı üçün lazımi şərait yaradır. Qeyri-neft sektorunun hər bir

sahəsinin, xüsusilə isə turizmin inkişafının təmin edilməsi ölkəyə investisiya axını deməkdir. Hal-hazırda turizm planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumi milli məhsulun 10%-i ixracatın, 8%-i beynəlxalq turizmin payına düşür (Bilalov, 2015).

Azərbaycan Respublikası sosial-iqtisadi baxımından inkişaf etmiş ölkələrdən biri hesab olunur. Qarabağ iqtisadi regionu destinasiyalı rayonlardan biridir. Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafı milli inkişaf prioritetini təşkil edir. Elə buna görə də xidmət sahəsinin inkişafı ilə bağlı bir çox işlər görülmüşdür. Turizm xidmət sahəsinin önəmli hissəsini təşkil edir. Bu baxımdan da həm gəlirli, həm dinamik, həm də inteqrasiya prosesini qlobal səviyyədə sürətləndirən sektordur.

Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafının innovativ idarə edilməsi üçün sektorun inkişafı, inkişaf üçün lazım olan infrastruktur, maddi-texniki baza, kadr potensialı və s. bu kimi məsələlər həll edilməlidir. Məhz bu fəaliyyətin innovativ idarə edilməsi zəruri məsələ kimi qarşıda dayanmışdır. İdarəetmə prosesi bir sıra funksiyaları yerinə yetirir. Belə ki, iqtisadi proses və müəyyən plan və tədbirlər kompleksinin işlənib hazırlanması ilə bağlı məsələlərin məcmusunu təşkil edir.

Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafının innovativ idarə edilməsi strateji idarəetmənin əsasını təşkil edir. Bu gün xidmət sahələrinin rəqabət üstünlükləri və yüksək effektivliyi innovativ potensiala əsaslanır. İdarəetmə qarşıya müəyyən bir məqsədlərin qoyulması ilə başlayır və praktiki nəticə əldə olunması ilə başa çatır. Bir məqsədə nail olduqdan sonra yeni məqsədlər meydana çıxır. Bu proses idarəedilən sistemin vəziyyəti ilə sistemlər arasında qarşılıqlı münasibətlərdən doğan imkan, arzu, zərurət icra və nəticənin əldə edilməsini əhatə edir. Bütün bu qeyd edilən məsələlər işin aktuallığı və əhəmiyyətini təşkil edir.

Məqsəd və vəzifələri. İşğaldan azad edilmiş torpaqlarda qeyri-neft sektorunun əsasını təşkil edən turizmin inkişafı mühüm addım kimi qiymətləndirilir. Dövlət tərəfindən bu sahəyə ayrılmış diqqət, maliyyə məsələlərinin araşdırılması işin məqsədini təşkil edir.

Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafının innovativ idarə edilməsi təşkil etmək, nəzarət etmək, rəhbərlik etmək, təşkilati resursları planlaşdırmaq yolu ilə səmərəli və effektiv şəkildə təşkilati məqsədlərə nail olmağın əsasıdır.

İnnovativ inkişaf prosesi təkrarolunmazlığı ilə, nəticə və effektin alınması müddətlərinin müəyyən edilməsinin mümkünsüzlüyü ilə və xərclərin dəqiq qiymətləndirilməsi ilə xarakterizə olunur. Bu zaman eyni məqsədlər müxtəlif üsul və formalarla əldə olunur.

Vəzifələrə aşağıdakılar aid edilir:

- Qarabağ iqtisadi regionunun təbii resurslarını araşdırmaq;
- Qarabağ iqtisadi regionunun turizm potensialını təhlil etmək;
- Qarabağ iqtisadi regionunun turizm sahəsinin inkişafını təmin edəcək tövsiyyələr işləyib hazırlamaq;
- Turizm sahəsinin innovativ əsaslı inkişafını təhlil etmək və innovativ idarəetmə metodlarını müəyyən etmək.

Elmi yeniliyi. İqtisadi qeyri-sabitlik şəraitində xidmət sektorunun innovativ inkişafında strateji idarəetmənin təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Elmi yeniliyə aşağıdakılar aiddir:

- innovativ idarəetmənin iqtisadi mahiyyəti barədə nəzəri mülahizələri sistemləşdirilmişdir;
- xidmət sahələrinin innovativ inkişaf amillərini sistemli təhlil edilmişdir;
- Qarabağ iqtisadi rayonunda turizmin inkişaf etdirilməsi məsələlərini araşdırılmışdır.

Qarabağ iqtisadi rayonunda turizmin inkişaf etdirilməsi və prosesin innovativ idarə edilməsi məsələləri bir çox tədqiqatçı-alimlər tərəfindən araşdırılmışdır. Məsələn, Təranə Qurbanovanın, Neron Babaxovun, Əliqismət Bədəlovun, Fəxriyyə Abdullayevanın və başqalarının araşdırmalarında məhz Qarabağ iqtisadi rayonunun turizm potensialı və onun inkişafının innovativ idarə edilməsi məsələləri qeyd edilmişdir. Bu da məqalənin elmi yeniliyini təşkil edir.

Praktiki əhəmiyyəti. Qarabağ iqtisadi rayonunun turizm sahəsinin inkişafının innovativ idarə edilməsinin praktiki əhəmiyyətini başlıca nəzəri müddəalar əsasında formalaşan nəticə və təkliflərin turizmə verdiyi töhfələr təşkil edir. İqtisadiyyat, menecment kimi sahələrdə innovasiyaların, beynəlxalq təcrübənin praktiki əhəmiyyəti böyükdür.

Metod və metodologiyası. İşin əsas müddəalarını əsaslandırmaq üçün ümumi elmi-tədqiqat metodları ilə yanaşı, həmçinin müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, riyazi və statistik təhlil, sistemlər nəzəriyyəsi, idarəetmə nəzəriyyəsi, idarəetmə qərarları, modelləşdirmə, proqnozlaşdırma, planlaşdırma, optimallaşdırma və s. kimi xüsusi metodlardan istifadə edilmişdir.

Elmi ədəbiyyatda qoyuluşu. Qarabağ iqtisadi rayonunda turizmin inkişaf etdirilməsi və prosesin innovativ idarə edilməsi məsələləri bir çox elmi ədəbiyyatlarda araşdırılmış və problem şəklində qoyulmuşdur. P.Doylun, R.Consonun, D.A.Novikovanın, E.Stalkerin, P.Lemerlin, O.Vodaçkovanın, Y.Şumpeterin, T.Qurbanovanın, Ə.Bədəlovun, N.Babaxovun, F.Abdullayevanın və başqalarının tədqiqatlarında problem dolğun şəkildə təhlil olunmuş və tövsiyələr verilmişdir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün yerinə yetirilmiş tədqiqat işi bir sıra məsələ və problemlərin təhlili və həlli yolunu özündə əks etdirir. Bununla yanaşı, tədqiqat işi bir neçə strukturda yerinə yetirilmişdir. İşin strukturu belədir: Xülasə, Açar sözlər, Giriş, Fəsillər, Tədqiqat metodu, Nəticə və Ədəbiyyat siyahısı

Bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın inkişafında bir sıra amillər qeyd edilə bilər. bunlardan birini də turizm və istirahət təşkil edir. Son illərdə dünyada iqtisadi artım tempinə görə Azərbaycan ön sıralarda qərarlaşmışdır. Neft və qeyri-neft sektorlarının inkişafı sosial rifahı da yaxşılaşdırmışdır. Milli iqtisadiyyatın inkişafında turizm və istirahətin rolu və yeri xüsusi olaraq qeyd edilməlidir. Belə ki, bunun üçün də dörd strateji hədəfə xüsusilə diqqət etmək lazımdır. Bunlara aiddir:

1.fiskal və monetar siyasətlərin uzlaşdırılması,

2.hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin etmək,

3.insan kapitalının inkişafı,

4.biznes mühitinin yaxşılaşdırılması yolu ilə turizm xidmətlərinin təkmilləşdirilməsi.

Azərbaycan Respublikasının şəhər və rayonlarının balanslaşdırılmış şəkildə davamlı olaraq inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları qəbul edilmişdir. Bu dövlət proqramlarının uğurlu şəkildə icrası nəticəsində regionların sahibkarlıq mühiti xeyli yaxşılaşmış, əhalisinin rifah halı yüksəlmiş, iqtisadi potensialı artmış, infrastruktur təminatı möhkəmlənmişdir.

Hal-hazırda işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Zəruri infrastrukturun yaradılması ilə inkişafın təmin edilməsi əsas prioriteti təşkil edir. İşğaldan azad edilmiş ərazilər zəngin iqtisadi potensiala malikdir. Geniş turizm potensialı və təbii sərvətlərin zənginliyi bu ərazilərin yenidən qurulması məsələsinin ön plana çəkilməsini şərtləndirir.

Regionların inkişafı onun təbii resurslarından səmərəli bazar seqmentlərinə uyğun istehsal və istehlak məqsədi ilə istifadə edilməsindən asılıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 7 iyul 2021-ci ildə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanmışdır.

Fərman Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini əsas götürür. Fərmanda Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü belədir (Şəkil 1.):

1.Bakı iqtisadi rayonu (Bakı şəhəri);

2.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

3.Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

5.Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

7.Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

8.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

9.Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

10.Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

11.Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

12.Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

14.Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

Qarabağ iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonlarından biridir. Deməli, yuxarıdakı bölgüyə əsasən Qarabağ iqtisadi rayonunun tərkibinə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər inzibati rayonları daxildir. Bu ərazilər zəngin tarixi-mədəni irsə və füsunkar təbiətə malikdir. Ümumi sahəsi 7330 km²-dir. 1991-ci ildən 2021-ci ilə kimi olan dövr ərzində Yuxarı Qarabağ iqtisadi rayonu adlandırılmışdır. Yuxarıda qeyd edilmiş fərman ilə Qarabağ iqtisadi regionu qurulmuşdur.

Şəkil 1. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü

Qarabağ iqtisadi rayonunun iqtisadi potensialı regionun inkişaf perspektivini müəyyən etməyə imkan yaradır. Qarabağda aparılan quruculuq işləri ölkənin hər bir sahəsinin inkişafına müsbət təsir göstərəcəkdir. Cənnət məkan olan Qarabağ hərbi və diplomatik sahədəki inkişafımızda iqtisadi baxımdan əsas körpü rolunu oynamışdır.

Qarabağ böyük turizm və istirahət ehtiyatına sahib regiondur. Azərbaycanın mineral su ehtiyatlarının 40%-ə yaxını işğal altındakı torpaqlarda olmuşdur. Bunların arasında Şuşa rayonunda Turşsu, Şirlan və digər mineral sular nəzərə çarpır. Bu suların qablaşdırılaraq satılması, həmçinin bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması əlverişlidir. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının turizm imkanları çox genişdir (Xudiyev, 2021).

Bazar iqtisadiyyatı şəraitində Qarabağ iqtisadi regionunda milli iqtisadiyyatın inkişaf etdirilməsi üçün ərazinin iqtisadi potensialı ölkənin ümumi iqtisadiyyatına reinteqrasiya edilməlidir. Regionun iqtisadi potensialını dəyərləndirən zaman müəyyən olunmuşdur ki, Qarabağda hasilat (əsas təbii resurslar) bunlardır: neft, təbii qaz, polimetal filizləri, müxtəlif tikinti materialları (mərmər, sement xammalı, tikinti daşı). Sənaye üzrə iqtisadi potensial yerli kənd təsərrüfatı xammalının emalına əsaslanır. Şərabçılıq və konserv məhsulların istehsalı burada qida sənayesinin başlıca qollarını təşkil edir. Kənd təsərrüfatı sahələrinə isə taxılçılıq, üzümçülük, meyvəçilik, tütünçülük və pambıqçılıq daxildir. Bundan əlavə regionda bağçılıq bitkiləri, kartof və meyvə də yetişdirilir. Ərazidə tut bağlarının olması ipəkçiliyin inkişafına təkan verir. Südlük və ətlik heyvandarlıq, dağlıq ərazilərdə isə ət və yun heyvandarlığı inkişaf etməkdədir. Turizm baxımından isə meşələr, təbii balneoloji ehtiyatlar, mineral bulaqlar (Turşsu, Şirlan) istirahət və müalicə üçün olduqca əlverişlidir.

Azərbaycanın ən gözəl və ən qədim tarixi regionu Qarabağdır. Füsunkar mənzərəsi, təbiəti, zəngin mədəni və mənəvi ənənələri olan Qarabağ bir çox görkəmli azərbaycanlı yazıçıları, şairləri, sənətkarları, alimləri, xanəndələri və musiqiçiləri bizə bəxş etmişdir. Qarabağ Azərbaycan musiqisinin beşiyidir.

Qarabağ iqtisadi rayonunun iqlimi 1000-2000 metr yüksəklikdə mülayim soyuq, alçaq və düzənlik, dağətəyi sahələrdə isə nisbətən isti və qurudur. Relyefdən asılı olaraq yağıntılar 400-900 mm-dir. Belə bir iqlim şəraiti iqtisadi rayonun kurort-turizm təsərrüfatının və başqa sahələrin inkişafına xüsusi imkan verir.

Qarabağ iqtisadi rayonun başlıca təbii sərvətləri mərmər, polimetal filizləri, tikinti daşı, sement kimi tikinti materialları, təbii qaz olsa da, təbii balneoloji ehtiyatları, meşələri, Turşsu, Şırlan kimi mineral bulaqları istirahət, həm də müalicə baxımından rayonun əsas turizm sərvətləri hesab olunur.

Qarabağ münaqişəsinə kimi olan dövrdə bu ərazinin meşə örtüyü olduqca zəngin olmuşdur. Bu 36%-ini təşkil etmişdir. 160 min hektar meşənin olması füsunkar təbiətin gözəlliklərindən olmuşdur. Azərbaycanın Qarabağ iqtisadi rayonu Kiçik Qafqaz dağlarında ölkənin ümumi ərazisinin 1/6 hissəsini (dağlar, düzənliklər, yüksək dağlıq ərazilər) tutur (Xudiyev, 2021).

Ölkəmizin şəhər və rayonlarının tarazlı və davamlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, infrastruktur təminatı, investisiya və biznes mühiti yaxşılaşmış, əhalinin rifahı yüksəlmişdir.

Hazırda işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının təmin olunması və bərpası, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı yönündə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ərazilərin təbii sərvətlərindən və zəngin iqtisadi potensialından səmərəli istifadə etmək məqsədi ilə turizm imkanları genişləndirilir.

Qarabağ iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonlarından biridir. Tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhəri daxildir. Qarabağ iqtisadi rayonunun iqtisadiyyatına təbii sərvətlər (hasilat), sənaye, turizm aid edilir.

2025-ci ilədək "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin region ölkələri arasında və həmçinin bir çox dünya ölkələri arasında əsas turizm ölkələrindən birinə çevrilməyi hədəf qoymuşdur. Qarabağ iqtisadi rayonunun iqtisadi, təbii və coğrafi imkanları genişdir. Bu baxımdan turizm, məşğulluq, sənaye və bir çox sahələrin inkişafı mümkündür. Bunun üçün də öncəliklə ekoloji zərər qarşılanmalı, ermənilər tərəfindən məhv edilmiş hər bir şey bərpa edilməli, daha sonra isə yaradılmış infrastruktur inkişaf etdirilməli və turist cəlbi üçün siyasət mexanizmi işlənilməlidir.

Turizmin inkişafı 52 sektora güclü təsir göstərir. Buna görə də turizm iqtisadiyyatda sahələrarası katalizator roluna malik sektor kimi qiymətləndirilir. Regionların, həmçinin böyük şəhərlərin, paytaxtların inkişafında bu sahənin rolu danılmaz və əvəzsizdir. Əgər hansısa bir regionu canlandırmaq, rəqabət qabiliyyətini artırmaq və iqtisadiyyatın sahələrini inkişaf etdirmək lazımdırsa, burada mütləq şəkildə turizm sektoruna nəzər yetirilməlidir.

Bu gün dünyada çox az ölkə vardır ki, regionları turizm olmadan inkişaf etmiş olsun. Azərbaycanda bir neçə region üzrə bu sahədə çox sürətli inkişaf gedir. Turizmin inkişafı büdcə gəlirlərinin artmasına, yoxsulluğun və işsizliyin azalmasına səbəb olur.

Qloballaşma proseslərinin sürətlənməsi nəticəsində turizm daha da inkişafa yönəlmişdir. Bu zaman inteqrativ əlaqələr inkişaf edir. Bunun da nəticəsində dünyada əhali hərəkətliliyi baş verir. İnkişaf etmiş elə ölkələr var ki, hər il bu sahələrdən milyardlarla dollar sərmayə qazanır. Bu sahə məhz turizmdir, mühüm iqtisadi amil kimi turizm sənayesi dünyada sürətlə inkişaf edən xidmət sahələrindən biridir.

Turizmin davamlı inkişafı turizmin planlaması və təşkilindən, turizm məhsulunun keyfiyyətindən və s. asılıdır. Turizm məhsulunun keyfiyyəti və qiyməti turizm daxilində bütün xidmət növlərinin iqtisadi faydalılıq effekti ilə ölçülür. Turizmin inkişafına təsir edən amillər sosial-iqtisadi normativlər, turizm qanunları, dövlət mexanizmləri və sahibkarlıq qanunları ilə tənzimlənir.

Neftdən gələn gəlirlərin səmərəli istifadəsi gələcəkdə Azərbaycanı çox qüdrətli bir ölkəyə çevirə bilər. Əlbəttə ki, buna nail olmaq üçün qeyri-neft sektorunun inkişafı zəruri məsələ kimi qarşıda durur. Məlum olduğu kimi, artıq dünyada çox maraqlı bir tendensiya mövcuddur. Belə ki, qeyri-neft sektorunda turizm özünün xüsusi çəkisini artırmaqdadır. Hətta bəzi ölkələrdə turizm təkcə qeyri-neft sektorunda lider göstəriciyə malik deyildir. Turizm gəlirli sahədir. Bu sadə cümlənin reallıqda mürəkkəb şərh etməyə ehtiyac vardır. Belə ki, hansısa bir regionun (məsələn, Qarabağ) resurs imkanları varsa, oraya ayrılacaq investisiya gəlir gətirəcəkdir. Burada əlbəttə ki, təkcə təbii sərvət

resurs təminatı nəzərdə tutulmur. Turizmdə savadlı kadrların çox sayda olması və kapital axının təmin olunması iqtisadiyyatın digər sahələrində də olduğu kimi mühümdür (Xudiyev, 2021).

Hazırda ölkəmizdə qeyri-neft sektorunda turizmi aparıcı sahələrdən birinə çevirmək olduqca zəruri bir prioritetdir. Buna nail olduqdan sonra isə başlıca məsələ turizmin davamlı inkişafını tənzimləməkdir.Bu aspektdə turizm məhsulunun formalaşması və ona düzgün qiymətin təyin edilməsi inkişafı təmin edəcəkdir. Ona görə ki, məhsul bazara çıxarılanda onun qiyməti keyfiyyətinə uyğun olmalıdır. Əgər ölkəmizdə turizm məhsulunun keyfiyyəti artarsa, bu zaman qiymətlərin dinamikasında dəyişikliklərin olması proqnozlaşdırılır.

Şəksiz ki, modern dünyada xidmət sahələrinin inkişafı mühüm yerə malikdir. Dünya ölkələrinin iqtisadi inkişafı da məhz bununla ölçülür. İqtisadi inkişaf baxımından turizm ən gəlirli sahələrdən hesab edilir. Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd edə bilərik ki, iqtisadiyyata təsir göstərən turizm güclü qüvvə kimi çıxış edir. O, dövlət büdcəsinin formalaşması ilə ticarət balansının sabitləşməsində zəruri rola malikdir. Ancaq turizmin rolu bununla da bitmir, tükənmir. Çünki turizm ölkə iqtisadiyyatının hər bir sahəsinə təsir göstərir.

Qarabağ iqtisadi regionunun turizm potensialı olduqca zəngindir. Bu ərazidə turizmin bir çox növləri – qış turizmi, dağ turizmi, ov turizmi, ekoturizm, ekstremal turizm, aqroturizm, yaşıl turizm, sağlamlıq turizminin inkişafı üçün hər bir imkanlar mövcuddur. İşğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası Dövlət Turizm Agentliyi tərəfindən hazırlanmışdır.

Qarabağ iqtisadi regionu tarixi mədəni-dini abidələri, mətbəxi, flora və faunası, körpüləri, qədim qalaları, görməli məkanları, bulaqları, meşələri və s. ilə turistləri cəlb edə bilər. Qarabağda ekoturizm sürətlə inkişaf edə bilər. O halda ki, bütün plan və tədbirlər uğurla həyata keçirilməlidir. Zənnimcə, ekoturizm bu ərazilərin gələcəyi hesab edilə bilər. Qarabağ iqtisadi regionu təbii ehtiyatlarla zəngin olduğundan aqroturizm, müxtəlif növ ekstremal turizm, yaşıl turizm üçün olduqca əlverişlidir.

Qarabağ iqtisadi regionunun turizm potensialının öyrənilməsi məqsədilə aparılan araşdırmalar bir daha sübut edir ki, xarici turistlər daha çox passiv deyil, aktiv turizmə meyillidir. Onlar ekskursiya etdikləri ərazilərdəki yerli əhali ilə ünsiyyətə daha çox önəm verirlər. Belə ki, turistlər dağda-düzdə gəzməyi, kənd adamları ilə görüşməyi, ərazinin əhalisi ilə ünsiyyət yaratmağı, onların məişət şəraitləri ilə tanış olmağı, ov etməyi daha üstün tuturlar. Bu baxımdan da Qarabağ iqtisadi regionunun özünəməxsusluğu nəzərə alınaraq ekoturizm inkişaf etdirilməlidir. Bu milli iqtisadiyyatın inkişafı üçün başlıca prioritetlərdən biridir. Mütəxəssislər zənn edirlər ki, ekoturizm, yəni kənd turizmi milli iqtisadiyyatın gələcəyi üçün ən mühüm istiqamətlərdəndir. Ancaq bunun üçün hələ çox işlər görülməlidir.

Turizm sahəsində çox böyük təcrübəyə malik olan elə ölkələr vardır ki, burada mövsüm anlayışı aradan qalxmışdır. Mədəni turizm üçün heç bir fəsli gözləmək gərək deyildir. Qış turizmi məhz belə ölkələrdə hər zaman turist bolluğu yaradır. Turizm sahəsi üzrə beynəlxalq mütəxəssislər bu sferada daha çox Türkiyəni nümunə kimi göstərirlər. Qarabağ iqtisadi rayonunda da qış turizmi üçün iqlim və coğrafi infrastruktur potensialı mövcuddur. Çox təəssüflər olsun ki, Azərbaycanın ən gözəl turizm infrastrukturu olan əraziləri uzun illər düşmən tapdağı altında olmuşdur. Şuşa, Ağdam və digər ərazilərin işğalı turizmin inkişafına maneələr törətmiş, ölkə iqtisadiyyatının inkişafına zərbələr vurmuşdur. Bu ərazilərin müalicəvi havası, yerdən qaynayıb çıxan mineral (müalicəvi) suları, möcüzəli bitkiləri, başıqarlı dağları turizmin hər bir növü üçün əvəzedilməz hesab edilir (Əlirzayev, 2010).

Qarabağ iqtisadi regionunun mövcud iqlim şəraiti, geoloji mövqeyi və potensial resursları təhlil edildikdə turizm sektorunun prioritet olduğunu müəyyən etmək olur. Lakin turizm sektorunun inkişafı aqrar sektorun, mədən sənayesinin, enerji istehsalının, mineral su sektorunun, baramaçılıq, şərabçılıq, xalçaçılıq, logistika sektorunun və s. inkişafına da imkan yaradacaqdır.

Qarabağ iqtisadi regionu Kiçik Qafqaz dağlarında yerləşir. Regionun xüsusi potensial coğrafi mövqeyə sahib olması turizm potensialının son dərəcə sürətli inkişafına təkan verir. Reallıqda Qarabağın turizm potensialından əldə olunmuş ümumi gəlir bütün ölkə turizm potensialından əldə olunmuş gəlirdən daha çox ola bilər. Bunun üçün də tarixi və mədəni abidələr bərpa olunmalı, ekoloji potensial qiymətləndirilməli və modern turizm şəraiti yaradılmalıdır. Tibbi turizmin inkişafı üçün isə regionda müalicə əhəmiyyətli resursların inkişafına diqqət yetirmək lazımdır.

Qarabağ iqtisadi regionunun iqtisadiyyatının inkişaf etdirilməsi ilə yaxın zaman ərzində bu ərazinin yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və turizm mərkəzlərindən olacağı

istisna edilmir. Qarabağın işğaldan azad edilməsi turizm potensialını artırmaq üçün zəruri addım hesab edilə bilər. Qarabağın zəngin təbii ehtiyatlara, əlverişli iqtisadi-coğrafi mövqeyə, nadir iqlim xüsusiyyətlərinə malik olması, flora və faunası, münbit torpağı regionun turizm sənayesinin inkişafı üçün yeni üfüqlərə yol açmışdır. Qarabağ regionu mədəni baxımdan zəngin olduğu qədər, iqtisadi baxımdan da zəngindir. Burada olan təbii resurslardan bəhrələnərək turizm potensialı proqnozlaşdırılır. Bundan sonra isə turizm potensialının inkişafına nail olmaq üçün addımlar atılır.

XIX əsrin ortalarından başlayaraq turizm sosial-iqtisadi sahə kimi inkişaf etməyə başlamışdır. Bu dövrə kimi turizm fərdi gəzinti və səyahət xarakteri daşımış, qeydiyyata düşmədən müxtəlif ölkələrə səyahət edən insanları "turist" adlandırmışdır. BMT-nin 1954-cü ildə keçirilmiş iclasında "turizm" sözü müzakirə olunmuşdur.Burada turizm anlayışının beynəlxalq mahiyyəti, kulturoloji və sosial-iqtisadi önəmi qeyd edilmişdir.

Turizm anlayışı insanların idrak, ləzzət, istirahət, sağlamlığın yaxşılaşdırılması və s. tələbatlarını ödəmək məqsədilə bir sıra yerlərə müvəqqəti getməsini ifadə edir. Fransız sözü olan "turizm" sözünün mənası səfər, gəzinti deməkdir. Fəal istirahətin ən kütləvi və geniş yayılmış növüdür. Son illərdə turizm insanların vərdişi, həyati tələbatı halına çevrilmişdir. Turistik məhsulların yaranması, turizm xidmətlərinin geniş vüsət alması turizm sənayesini yaradır. Buraya iaşə obyektləri, mehmanxanalar və otellər, sənaye və ekskursiya büroları daxildir.

B.Ə.Bilalov "turizm" sözünün mənasını belə şərh etmişdir: "Turizm sözü fransız sözüdür, mənası fiziki şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, tanış olma, sağlamlaşdırma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və s.), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (səyahətləridir)" (Bilalov, 2015).

Qeyd edək ki, kütləvi elmi ədəbiyyatlarda turizmin ilk təşkilatçısı ingilis əsilli Tomas Kuk adlı şəxs hesab edilir. O, 1841-ci ildə Lankasterdən Dolnqboruqa qədər dəmir yolu ilə 570 nəfərin kütləvi gəzintisini təşkil etmişdir. Bu hadisə ilə Tomas Kuk müasir turizmin əsasını qoymuşdur. O həmçinin 1847-ci ildə səyahət və ekskursiyalar cəmiyyəti yaratmış, bir qrup zəngin ingilis vətəndaşının Aralıq dənizində səyahətini təşkil etmişdir. XIX əsrin sonunda Tomas Kuk tərəfindən yaradılmış bu cəmiyyət 53 ölkədə fəaliyyət göstərən və 324 şöbəsi olan möhtəşəm bir konsernə çevrilmişdir. Bu konsernin 12 min əməkdaşı olmuşdur.

Amerikanlar da ingilislərdən geri qalmamışdır, "Amekso" adlı turizm şirkəti yaratmışlar. 1918-ci ildə bu şirkətin firmaları bütün qitələri əhatə etmişdir.

1869-cu ildə Avropada Beynəlxalq Mehmanxana İşçiləri Assosiasiyasının (BMİA) əsası qoyulmuşdur. 1921-ci ildə BMİA Beynəlxalq Mehmanxana İttifaqı ilə birləşdirilmişdir. Təbii ki, bu ənənə get-gedə inkişaf edərək bütün dünyaya yayılmışdır.

Ümumiyyətlə, turizm sahələrinin inkişafı aşağıda qeyd edilmiş istiqamətlərdə sosial, iqtisadi və texnoloji önəm daşıyır:

1.Turizmin təşkili əsasında yeni iş yerləri açılır və müəssisələr yaradılır.

2.Yerli əhalinin əlavə qazanc və gəlir əldə etmək imkanları formalaşır.

3.Yerli mallara daha çox istehsal tələbatı yaranır.

4.Ölkədə turizmin inkişafının yeni infrastrukturu formalaşır. Eyni zamanda, kommunal sahələr, bir sözlə, bütün xidmət obyektləri modernləşdirilir.

5.Turizmin inkişafı ilə əlaqədar olan yeni ixtisaslar və texnologiyalar meydana gəlir.

6.Ətraf mühitin qorunmasının önəmi daha da yaxşı dərk olunur və bu yöndə cəmiyyət tərəfindən əsaslı addımlar atılır.

7.Torpağa münasibət (müsbət mənada) köklü şəkildə dəyişir, ona qayğı artır.

8.Dövlət səviyyəsində səhiyyə xidməti də yeni keyfiyyət zəminində inkişaf etdirilir və dünya standartlarına uyğunlaşdırılır.

Qarabağ iqtisadi rayonunun iqlim şəraiti, mövcud geoloji mövqeyi və potensial resursları bir çox turizm sahələrinin prioritet imkanlarına yol açır. Bunlara aiddir: aqrar sektor, logistika, mədən sənayesi, enerji istehsalı, mineral sular, baramaçılıq, şərabçılıq, xalçaçılıq.

Qarabağ iqtisadi rayonunun dayanıqlı sosial-iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası işlərinin icra edilməsi, investisiyaların səmərəliliyinin artırılması məqsədilə kommunal, yol-nəqliyyat infrastrukturu, meliorasiya və miqrasiya sisteminin çəkilməsi, alternativ və ənənəvi enerji istehsalı, iqtisadi aktivliyin təşviq edilməsi mühüm əhəmiyyət kəsb edir.

Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafı və onun innovativ idarə edilməsi üçün "Ağıllı kənd" konsepsiyası yaradılacaqdır. "Ağıllı kənd" birinci pilot layihə kimi icra ediləcəkdir.

Azad edilmiş torpaqlar gələcəkdə "Yaşıl enerji" zonası olacaqdır. Bu əraziləri dayanıqlı, uzunmüddətli, ekoloji cəhətdən təmiz və ucuz enerji növləri ilə təmin etmək əsas məqsədi təşkil edir. Füzuli, Şuşa, Ağdam rayonlarında, ümumilikdə 308 kilometr elektrik xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovotluq şəbəkənin yaradılacağı nəzərdə tutulmuşdur.

Bu sistemin başlıca məqsədi resurs-xammal sektorunun payını və əmyəə və xidmətlər istehslının resurs tutumluğunu azltmaqla iqtisadiyyatın intensivləşdirilməsi əsasında həyatın və ətraf mühitin keyfiyyətinin artırılması istiqamətində ölkə iqtisadiyyatının inkişafının təmin edilməsindən ibarətdir.

İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və başqa zəruri logistika potensialının mövcudluğu nəzərə alınaraq 2021-ci il 28 may tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Ağdam Sənaye Parkı yaradılmışdır.

Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, həmçinin tikinti materialları istehsalı müəssisələrinin yaradılması imkanları nəzərə alınaraq 2021-ci il 4 oktyabr tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır.

Təbii ehtiyatların iqtisadi dövriyyəyə cəlb olunması da turizm sahələrindən biri kimi diqqəti cəlb edir. Bunun üçün də Azərbaycan Respublikasının Qaşqaçay, Ağduzdağ və Elbəydaş filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə bağlı işlərin təşkili məqsədilə 2021-ci il 29 may tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Qaşqaçay filiz yatağı "Eti Bakır A.Ş." şirkətinə, Ağduzdağ və Elbəydaş filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə tədqiq, öyrənilmə, kəşfiyyat, istismar və işlənmə məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilmişdir.

Regionun zəruri infrastruktur üçün tələb olunan tikinti materiallarının təchizatı məqsədilə Ağdam rayonunda yerləşən "Şahbulaq" əhəng daşı yatağının dövlət-özəl tərəfdaşlığı çərçivəsində istifadəyə verilməsi üzrə müvafiq tədbirlər həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının yaradılması çərçivəsində enerji təchizatı infrastrukturunun qurulması, bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisinin istehsalı, yaşıl texnologiyaların tətbiqi, enerji səmərəliliyinin təmin edilməsi, bu sahədə dövlət-özəl sektor tərəfdaşlığının təşviqi kimi tədbirlər nəzərdə tutulmuşdur.

Həkəri çayı, Tərtərçay və bu çayların qollarında hidroenerji potensialı mövcuddur. İşğaldan azad edilmiş ərazilərdə yerləşən su elektrik stansiyaların bərpası və yenidən qurulması çərçivəsində müvafiq tədbirlər həyata keçirilməkdədir.

İşğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması, dayanıqlı inkişafının və əhalinin yüksək səviyyəli həyat səviyyəsinin təmin olunması üçün mühüm infrastrukturun yaradılması çərçivəsində hava limanlarının, dəmir və avtomobil yollarının tikintisi işləri davam etdirilir, müxtəlif yaşayış məntəqələri arasında, həmçinin bu məntəqələri ölkənin başqa şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılır.

Əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə yaşıllaşdırma, abadlaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyəti təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsləri yaradılmışdır.

1. TƏDQIQAT METODU

Qarşıya qoyulmuş məsələni həll etmək üçün istifadə edilmiş metod müqayisəli təhlil, ümumiləşdirmədən istifadə edilmişdir.

Ölkənin xarici ticarət balansının aktivləşməsində və ÜDM-nin formalaşmasında turizm böyük rola malikdir. Ancaq turizm ölkə iqtisadiyyatının hakim mövqelərində duran tikinti, nəqliyyat, rabitə və informasiya, əhaliyə istehlak mallarının istehsalı, kənd təsərrüfatı, sənaye, sosial xidmətlər, ticarət və s. sahələrə güclü təsir edir, sosial-iqtisadi inkişafın spesifik katalizatoru kimi çıxış edə bilir. Bunu aşağıda verilmilş şəkildə aydın görmək mümkündür (Şəkil 2.).



Şəkil 2. Turizm sektorunun ölkə iqtisadiyyatının hakim mövqelərində duran sahələrə təsiri

Burada göstərilmiş diaqram aparılmış elmi-tədqiqat nəticəsində qurulmuşdur. Təcrübə və nəticələr aparılmış tədqiqatdan müəyyən olur ki, Qarabağ regionunda turizm sahəsinin inkişafı və onun innovativ idarə edilməsi beynəlxalq təcrübə əsasında həyata keçirilir. Bir çox pilot layihələrin və yeni infrastrukturun yaradılması məhz innovativ idarəetməyə əsaslanır. Bu idarəetmə biznes fəaliyyəti kimi dəyərləndirilir.

NƏTICƏ

Nəticə etibarilə, Qarabağ iqtisadi rayonunda turizmin inkişafı innovativ idarəetmədə əsas rol oynayır. Buna görə də innovativ xidmət sahələrində imkanların reallaşdırılması indiki dövrdə turizmi iqtisadiyyatın intensiv surətdə artan sektoruna çevirir.

Dünya iqtisadiyyatının zəruri elementini, hərəkətverici qüvvəsini təşkil etməklə, sosial-iqtisadi inkişafın strukturlaşdırılması üçün imkanları artırmaqla turizm iqtisadiyyatın güclü inkişaf edən sahələrindən birinə çevrilmişdir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, turizm məhsulu Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinin əsası sayılır. Sahədə innovativ fəaliyyətin inkişafı yeni strukturlu inkişafa gətirib çıxarır. Buna görə də Qarabağ iqtisadi regionunda turizm sahəsinin inkişafı səmərəli turizm ehtiyatına və üstün rəqabətə gətirib çıxaracaqdır.

ƏDƏBIYYAT SIYAHISI

1. Bilalov B.Ə., Gülalıyev Ç.G. (2015). Turizmin əsasları. Bakı, Elm, 400.
2. Əlirzayev Ə. (2010). Turizmin iqtisadiyyatı və idarə edilməsi, Bakı, İqtisad universiteti nəşriyyatı, 158.
3. Hüseynov İ.A, Əfəndiyeva N. N. (2007). Turizmin əsasları. Bakı, Elm, 344.
4. Xudiyev N. (2021). Qarabağ iqtisadi rayonunun maliyyə potensialı onun iqtisadi artım və inkişaf strategiyasının əsasıdır. 4.
5. Морозов М. А., Морозова Н. С., Карпова Г. А. (2014). Экономика туризма. Москва, 123.

PERSONALIN İDARƏ OLUNMASINDA RİYAZİYYATDAN ISTIFADƏ VƏ PROSESIN AVTOMATLAŞDIRILMASI

Nailə Cəbiyeva-Əliyeva Rauf Qizi
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)
"Tətbiqi İqtisadiyyat" kafedrası
BAKI, AZƏRBAYCAN RESPUBLİKASI

XÜLASƏ

Məqalədə insan resurslarının idarə olunmasında riyaziyyatın rolu nəzərdən keçirilib, personalın idarə olunmasında istifadə olunan riyazi metodlardan nümunələr verilib, həmçinin HR mütəxəssisləri üçün riyaziyyatın üstünlükləri və istifadəsində yarana biləcək problemlər öz əksini tapmışdır.

AÇAR SÖZLƏR: personalın idarə olunması (personnel management), riyaziyyatdan istifadə (using mathematics), riyazi üsullar (mathematical methods), HR mütəxəssisləri (HR specialists), avtomatlaşdırma (automation)

GIRIŞ

Müasir şəraitdə personalın idarə olunması aktual məsələlərdən bir olmaqda davam edir. «Personalın idarə olunması» anlayışının müxtəlif təfsirlərini ümumiləşdirərək sadə bir tərifə gəldik. Personalın idarə olunması - təşkilatın əmək ehtiyatlarından səmərəli istifadə etmək məqsədi daşıyan praktiki fəaliyyət növüdür. Həmçinin bu termin insanın fəaliyyətindən gözlənilən nəticəni almaq məqsədilə əmək qabiliyyətinin daşıyıcısı kimi məqsədyönlü təsir kimi şərh olunur (Адамова, 2017).

Personalın idarə olunması menecmentin ayrıca bir növü kimi XX əsrin ikinci yarısında yaranmışdır ki, buna da səbəb kimi idarəetmə proseslərinin mürəkkəbləşməsini, menecmentin peşəkarlaşmasını, həmçinin insan amilinin rolunun artmasını, eləcə də rəqabətin artmasını qeyd etmək olar. Müasir şəraitdə insana cəmiyyətin ən vacib itqisadi resursu kimi yanaşmaq lazımdır və yalnız onun motivləri və tələbləri mövcud qabiliyyəti ilə uyğun gəldikdə onun imkanları daha da biruzə verə bilər. Beləliklə, personalın idarə olunması nəzəriyyəsinin hazırlanmasında insana iqtisadi resurs kimi vurğu ona ən vacib intellektual resurs kimi yanaşma ilə balanslaşdırılmalıdır. Bax elə burdan da, menecmentin nəzəriyyəsi, əməyin iqtisadiyyatı, psixologiya, tətbiqi sosiologiya, istehsal sosiologiyası, etika, müəssisələrin iqtisadiyyatı, hüquq, siyasət, konfliktologiya və digər elmlərin birləşməsində "personalın idarə olunması", "HR" və sair adlı elmi istiqamət formalaşır.

Son onilliklər ərzində ABŞ-da və Qərbi Avropanın bir çox digər ölkələrində olduğu kimi, Yaponiyada da personalın idarə olunması köklü dəyişikliklərə məruz qalmışdır. Istehsalatda insan amilinin rolunun artmasını, istehsalın bütövlükdə işçi qüvvəsinin və hər bir işçinin keyfiyyətindən, motivasiyasından və istifadəsinin xarakterindən asılılığının gücləndirilməsini əks etdirən iqtisadiyyatın əsas resurslarından biri kimi işçi qüvvəsinə yeni baxış təsdiq edilmişdir. Bu, ABŞ iqtisadiyyatında bir tərəfdən işçi qüvvəsinə tələblərin artırılmasında, digər tərəfdən isə dövlət tərəfindən insan resurslarının və xüsusilə özəl biznesin inkişafına xərclərin artırılmasında ifadə olunur.

Personalın rolunun yüksəlməsi, eləcə də sahibkarların və menecerlərin personala olan münasibətlərinin dəyişməsi, ilk növbədə, istehsaldakı dərin dəyişikliklərlə əlaqədardır. Son onilliklərdə elmi-texniki tərəqqi əmək fəaliyyətində böyük dəyişikliklərə səbəb olmuşdur. Mütəxəssislərin fikrincə, yaxın onillikdə bir çox iş yerləri, əmək üsulları və müəssisələrin özləri indiki iş yerlərinə az bənzəyəcəklər. Ənənəvi texnologiya tədricən çevik istehsal komplekslərinə, robot texnikasına, kompüter texnikasına və müasir rabitə vasitələrinə, bio və lazer texnologiyasına əsaslanan elm tələb edən istehsalata çevriləcəkdir. Onların tətbiqi nəticəsində işçilərin sayı azalacaq, mütəxəssislərin, rəhbərlərin, yüksək ixtisaslı işçilərin nisbi çəkisi artacaqdır.

Müasir istehsalat axım-kütləvi istehsal şəraitində formalaşmamış və hətta qəsdən minimuma endirilmiş iş keyfiyyətlərini, yəni yüksək peşəkar bacarığını, müstəqil qərar qəbul etmək qabiliyyətini, kollektiv qarşılıqlı əlaqə bacarığını, hazır məhsulun keyfiyyətinə görə məsuliyyəti, texnika və istehsalın təşkilini, yaradıcılıq bacarığını tələb edir. Müasir istehsalatın fərqləndirici xüsusiyyətlərindən biri onun işçi qüvvəsinin keyfiyyətindən, istifadəsinin formalarından, firmanın işlərinə cəlb olunma dərəcəsindən güclü asılılığıdır. Işçilərin idarə olunması uzunmüddətli inkişaf

prosesində müəssisənin rəqabət qabiliyyətinin artırılması amili kimi getdikcə mühüm əhəmiyyət kəsb edir.

Personalın səmərəli idarə olunması yalnız personalın əsas resurs kimi, rəqabət mübarizəsində şirkət tərəfindən əldə edilmiş varlıq kimi nəzərdən keçirildikdə mümkün ola bilər və bunu da öz növbəsində digər resurslarla bərabər motivləşdirmək və inkişaf etdirmək lazımdır. Bu, bir tərəfdən işçilərin, digər tərəfdən isə işəgötürənlərin maraqlarının və ehtiyaclarının öyrənilməsinin zəruriliyini nəzərdə tutur ki, bu da əlavə resurs xərclərinin və tətbiq olunan idarəetmə texnologiyalarının dəyişdirilməsini (çox vaxt radikal) tələb edə bilər.

Müasir şəraitdə HR menecerlərinin qarşısında duran vəzifələr böyük variativliyi ilə fərqlənir. Bu baxımdan rasional və optimal həll yolunun tapılması çox böyük səylər tələb edir, riyazi üsul və metodlardan istifadə isə bu həllləri ən qısa və asan yolla tapmağa imkan verir. Buna görə də riyaziyyat elmi və bunun davamı olaraq prosesin avtomatlaşdırılması kadrların idarə olunmasında əhəmiyyətli rol oynayır, çünki geniş həcmli problemlərin həlli üçün tətbiq olunur və müxtəlif HR proseslərin: işə götürülməkdən işçilərin inkişafına və səmərəliliyin qiymətləndirilməsinə qədər optimallaşdırılmasına və təkmilləşdirilməsinə kömək edir. Müasir şəraitdə bacarıqlı menecer riyazi düşüncə üslubuna malik olmalıdır və məlumatlarla işləməyi bacarmalıdır. Təşkilatlar öz əməliyyatlarını optimallaşdırmağa və ümumi məhsuldarlığı artırmağa çalışdıqlarından, insan resurslarının idarə olunmasında riyazi konsepsiyaların və metodların tətbiqi son illərdə getdikcə daha vacib olmuşdur.

TƏDQIQAT METODU VƏ MODELLƏRİ

Personalın idarə olunması sisrtemlərinin tədqiqi tətbiqi tədqiqatlara aiddir və nəzəri-empirik xarakter daşıyır. Personalın idarə olunması sisteminin tədqiqi elmi nəzəri müddəalara və praktiki təcrübəyə əsaslanan lazımi nəticə əldə etməyə imkan verən prinsiplərə və qaydalara söykənməlidir.

Təşkilatın alt sistemlərinin və elementlərinin tədqiqatını ilk öncə elmi-nəzəri yanaşma ilə və ya bir neçə yanaşma ilə müəyyənləşdirmək lazımdır.Bir çox tətqiqatçıların və mütəxəssislərin səhvlərini təkrarlamamaq üçün empirik metodların istifadə olunması son dərəcədə vacibdir.

Personal idarəetmə sistemi ikili mahiyyətə malikdir, bir tərəfdən stabil və davamlı fəaliyyət göstərməlidir, digər tərəfdən müəssisələrin müasir inkişaf meyyarlarına uyğun gəlməli və xarici mühitin bütün çağırışlarına dərhal cavab verməlidir.

Müəssisənin personal idarəetmə sistemlərinin tədqiqi çox vaxt müəssisənin bütün strukturunun dəyişdirilməsi yolu ilə aparılır və bu dəyişikliklərin də əksəriyyət halda birmənalı səbəbləri olur. Bu baxımdan da tədqiqatçı müasir elmi prinsiplərə arxalanaraq, düzgün yanaşma və model seçməklə öz fəaliyyətini həyata keçirməlidir.

Belə modellərdən biri kimi riyazi modeli qeyd etmək olar.

Riyazi model - personalın idarə olunmasına kompleks yanaşmanın bir çox vasitələrindən biridir. Personalın idarə olunmasında riyaziyyatın ən geniş yayılmış tətbiq sahələrini nəzərdən keçirək:

- Işçi qüvvəsinin planlaşdırılması. Riyazi üsulların tətbiqi ixtisas səviyyəsi, əlçatanlıq və məhsuldarlıq kimi amilləri nəzərə alaraq tələbatın ödənilməsi üçün lazım olan işçilərin optimal sayının müəyyənləşdirilməsinə kömək edir. Məsələn, xətti proqramlaşdırma modeli iş gücü və avadanlıq kimi resursların bölüşdürülməsini optimallaşdırmaq üçün tətbiq olunur. Modelin bu növü təşkilatlara məhsuldarlığı maksimum dərəcədə artırmaqla və işçilərin çatışmazlığı və ya həddindən artıq olması riskini azaltmaqla öz işçi qüvvələrindən ən səmərəli istifadəni müəyyənləşdirməyə kömək edə bilər.
- Işçi qüvvəsinin tələb və təklifinin proqnozlaşdırılması. Bu sahədə riyazi modellər bazar tendensiyaları, təşkilati artım və texnoloji nailiyyətlər kimi amillər əsasında müxtəlif işçi tiplərinə gələcək tələbatın qiymətləndirilməsi, həmçinin demoqrafik tendensiyalar və işsizlik səviyyəsi kimi amillər əsasında işçilərin gələcək təklifinin proqnozlaşdırılması üçün tətbiq olunur. Tələb və təklif proqnozlarını birləşdirərək təşkilatlar işçi qüvvəsinin planlaşdırılması və kadr ehtiyacları barədə qərarlar qəbul edə bilərlər.
- Kadrların axınının proqnozlaşdırılması. Bu, bir çox təşkilatlar üçün kritik bir problemdir, çünki yüksək səviyyədə kadr axınının xeyli maliyyə və əməliyyat nəticələri ola bilər. Riyazi modellərdən istifadə edərək əməkdaşların davranış və xarakteristikaları haqqında məlumatları təhlil etmək mümkün ola bilər. Bundan sonra bu məlumatlar əsasında əməkdaşların saxlaması üçün səmərəli strategiyalarının hazırlanmasında istifadə etmək olar, məsələn, işçilərin təhsili və inkişafı üçün əlavə imkanların yaradılması və ya əmək şəraitinin yaxşılaşdırılması.

- Rekrutinq və seçmə. Riyaziyyattın tətbqi HR mütəxəssislərinə rekrutinq və işçilərin seçilməsi ilə bağlı qərarların qəbul edilməsində, yəni şirkətin problemlərini həll etməyə kömək edəcək işçilərin tapılması və işə götürülməsində kömək edir. Məsələn, regressiya təhlili əsasında əmək məhsuldarlığı ilə ən sıx əlaqəli olan xüsusiyyətlər və ixtisaslar müəyyən edilir. Sonra bu məlumat qərəzlilik riskinin azaltmaqla və işə götürülmə keyfiyyəti artırmaqla vakansiyaların daha dəqiq təsvirlərinin yaradılmasına, namizədlərin potensialının qiymətləndirilməsinə və daha səmərəli qərarların qəbul edilməsinə kömək edəcəkdir.
- Səmərəliliyin qiymətləndirilməsi. Işçilərin məhsuldarlığının qiymətləndirilməsi və yaxşılaşdırılması tələb olunan sahələrin müəyənləşdirilməsi üçün istifadə olunur. Əmək məhsuldarlığının təlim, təcrübə və motivasiya kimi müxtəlif amillərlə necə əlaqəli olduğunu müəyyənləşdirmək üçün statistik üsullardan, yəni standart kənarlaşma, korrelyasiya və regressiya analizindən istifadə etmək olar. Bundan sonra bu məlumat inkişaf planlarının və səmərəliliyin artırılması proqramlarının yaradılması üçün tətbiq olunur.
- Işçilərin inkişafı. Bu məsələni də tədris və inkişaf proqramının optimallaşdırılması yolu ilə riyaziyyat vasitəsilə həll etmək olar. Məsələn, xətti proqramlaşdırma vasitəsilə ən sərfəli təlim proqramlarını müəyyənləşdirmək olar, qərarların təhlili isə resursların ən yaxşı paylanması üçün istifadə edilə bilər. Həmçinin şirkətlər öz işlərini səmərəli yerinə yetirmək üçün işçilərə lazım olan optimal tədris həcmlərini müəyyənləşdirmək imkanına malikdirlər. Bu, işçilərin təhsili ilə bağlı xərcləri azaltmağa kömək edir.
- Ştat cədvəlinin optimallaşdırılması. Şirkətlər iş yükünü və ixtisas tələblərini nəzərə alaraq şirkətə lazım olan işçilərin sayını müəyyənləşdirmək üçün riyazi modellərdən istifadə edə bilərlər. Bu, müəssisələrə öz ehtiyaclarını ödəmək üçün lazımi sayda işçini təmin etməyə imkan verir.
- Işçilərin optimal əmək haqqının müəyyənləşdirilməsi. Peşəkar bacarıqlar, təcrübə və məhsuldarlıq kimi amilləri nəzərə alsaq, riyazi modellər şirkətlərə iş üçün ədalətli mükafat zəmanəti verməyə, həmçinin ən yaxşı işçiləri cəlb etməyə və saxlamağa kömək edir.

Riyazi üsullar son bir neçə onillikdə personalın idarə edilməsində getdikcə daha çox əhəmiyyət kəsb edir. Onlar təşkilatlara işçilərin təchizatı, səmərəliliyin qiymətləndirilməsi və mükafat barədə qərar qəbul etməyə imkan verir. Əsas metodlardan biri resursların və işçilərin paylanmasını optimallaşdırmaq, həmçinin büdcə, iş yükü və bacarıq tələbləri nəzərə alınmaqla işə götürülən işçilərin optimal sayını müəyyənləşdirmək üçün istifadə olunan xətti proqramlaşdırmadır ki, bu da resurslardan daha ağlabatan istifadə etməyə və əmək haqqı xərclərini azaltmağa imkan verir (Горбунов, 2018).

Qərarların təhlili - mürəkkəb qərarların təhlili və ən yaxşı fəaliyyət planının müəyyənləşdirilməsi üçün istifadə olunan metod. Personalın idarə olunmasında xidmət üzrə ən yaxşı irəliləmə namizədlərinin müəyyənləşdirilməsi və ya müxtəlif mükafat strategiyalarının təsirinin qiymətləndirilməsi üçün tətbiq olunur. Bu yanaşma xüsusilə qeyri-müəyyənlik və risk hallarında faydalı ola bilər.

Şirkətlər işçi idarəetmə prosesinə əmək mübahisələri haqqında məlumatların təhlili və ya işçilərin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün statistik metodları tətbiq edə bilərlər.

Qərarların qəbul olunması üçün "Markov prosesləri" daha bir riyazi metoddur. Bu, qərarların qəbulu proseslərini modelləşdirmək və gələcək nəticələri proqnozlaşdırmaq üçün lazımdır. Məsələn, işə götürmə, təlim və saxlama kimi müxtəlif kadr strategiyalarının təsirini qiymətləndirmək üçün lazımdır. Bu, təşkilatların kadrlarla təchiz olunması barədə daha əsaslı qərarlar qəbul etməsinə və kadr axınının azaldılmasına kömək edir (Савиных, 2018).

Riyaziyyatın tətbiqi mütəxəssislərə çoxsaylı üstünlüklər təklif edir:

● Müxtəlif HR proseslərinin səmərəliliyinin artırılması: mütəxəssislər daha rasional qərarlar verə bilərlər.

● Dəqiqliyin artırılması: riyazi alətlər obyektiv məlumatlara əsaslanan qərarların qəbul edilməsinə kömək edir.

● Xərclərin azaldılması: riyazi model xərclərin səviyyəsini minimuma endirməklə real sistemi idarə etməyə kömək edir.

● Problemlərin sistemli şəkildə anlaşılmasını təmin etmək və onlara təsir edən bütün amillərin eyni vaxtda nəzərə alınması.

Üstünlüklərdən səvayi riyaziyyatın tətbiqi bir sıra problemlərə də səbəb ola bilər. Belə ki,

● Məlumatların əlçatanlığı və keyfiyyəti: qərar vermək üçün təşkilatlara öz işçi qüvvələri və HR prosesləri haqqında dəqiq və etibarlı məlumatlar lazımdır. Lakin bir çox təşkilatlarda məlumatlar yarımçıq, qeyri-səlis və ya aşağı keyfiyyətli ola bilər ki, bu da riyazi modellərin səmərəliliyini məhdudlaşdıra bilər.

● Xüsusi biliklərin mürəkkəbliyi və zərurəti: riyazi modellər qiymətli məlumat verə bilər, eləcə də qərarların qəbul edilməsinə köməklik edə bilər, lakin onlar da mürəkkəb ola bilər və hazırlanması və şərh olunması üçün xüsusi bilik tələb oluna bilər. Nəticədə təşkilatların kadr idarəetməsində riyaziyyatdan səmərəli istifadə üçün lazım olan bacarıqları əldə etmək üçün təlim və inkişaf proqramlarına investisiya qoymaları tələb oluna bilər.

● Məlumatların tam olmaması: keyfiyyətli məlumatları nəzərə almadan yalnız kəmiyyət təhlilinin nəticələri strateji idarəetmə qərarlarının qəbul edilməsi üçün kifayət qədər əsas ola bilməz.

Hal-hazırda, personalın idarə olunması ilə bağlı təkmilləşmələrin əsas istiqamətlərindən biri kimi müxtəlif elektron platformaların məhsulu olan “Personal”, “HR” və sair adlı avtomatlaşdırılmış alt sistemlərinin tətbiqini qeyd etmək olar. Bu cür alt sistemlər şirkətlərə rutin kadr əməliyyatlarını avtomatlaşdırmağa kömək edir. Onlardan bəziləri:

- Kompleks kadr idarəetmə sistemləri (HRMS) - işçilərin məşğulluğunu, ödənişli iş saatlarını, bayram və xəstəxana günlərini, habelə digər göstəriciləri izləyərək idarə etməyə imkan verən informasiya platformalarıdır. HRMS kadrların və məlumatların idarə edilməsi imkanlarını özündə birləşdirir.
- HRIS (Human Resource Information System) - bütün kadr əməliyyatlarını idarə etməyə imkan verən kompleks sistemdir. HRIS işçilərin sayı, kadrların davamlılığı və digər mühüm göstəricilər haqqında məlumat verməklə iş gücünü planlaşdırmağınıza kömək edə bilər.
- TS (Applicant Tracking System) - işçilərin seçilməsinin avtomatlaşdırılmasına cavabdeh olan sistemdir.
- Təlimin idarəetmə sistemləri (LMS və ya Learning Management Systems)
- Iş vaxtının uçotu sistemləri (TMS və ya Time and Attendance Management Systems) - işçilərin məhsuldar və məhsuldar olmayan iş vaxtlarını izləməyə, həmçinin iş cədvəllərini idarə etməyə kömək edir.
- Geri əlaqə sistemləri (Feedback Systems) - şirkətin və rəhbərliyin işi ilə bağlı rəylər və şərhlər toplamağa imkan verir. Onlar iş mühitini yaxşılaşdırmağa və insanların motivasiyasını artırmağa kömək edir
- Elektron sənəd dövriyyəsi sistemləri (EDMS) - təşkilatda sənədlərin, habelə digər məlumatların yaradılmasını, emalını, saxlanılmasını, axtarışını və ötürülməsini avtomatlaşdıra bilən proqram məhsulları
- HR-botlar - namizədlərin seçilməsinə, müsahibələrin keçirilməsinə və uyğunlaşdırılmasına kömək edir
- Karyeranın idarə olunması sistemləri (Career Management Systems) - işçilərə və şirkətlərə karyera planlaşdırmağa və inkişaf etdirməyə kömək edir
- Personal xərclərinin idarə edilməsi sistemləri (Personnel Cost Management Systems) - xərclərin optimallaşdırılması və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuşdur
- Istedadın idarəetmə sistemləri (Talent Management Systems) - şirkətlərə insanları səmərəli idarə etməyə və istedad-pullarını inkişaf etdirməyə kömək edir.

Gördüyü kimi, kadr proseslərinin avtomatlaşdırılması üçün bir çox vasitələr mövcuddur. Bəziləri konkret problemləri həll edirlər, digərləri isə məsələnin həllinə kompleks yanaşır. Əlbəttə ki, onların hamısını təcrübədə tətbiq etmək olar. Lakin öz aralarında inteqrasiya olunmayan müxtəlif proqramların və tətbiqlərin çoxlu sayı həddən artıq böyük problemlərə səbəb olar. Belə ki, prosesləri sadələşdirmək əvəzinə, əksinə, HR əməkdaşları üçün əlavə çətinliklər yarada bilər.

Bundan əlavə, orta və kiçik şirkətlər üçün xeyli sayda alt sistemlərin saxlanılmasının dəyəri yolverilməz dərəcədə yüksək ola bilər. Alətlər nə qədər az olarsa, onları dəstəkləmək və yeniləmək də o qədər asan ola bilər.

NƏTICƏ

Riyazi metodların tətbiqi personalın idarə olunmasında istifadəsi ilə bağlı problemlərə baxmayaraq, onu təşkilatlar üçün şübhəsiz ki qiymətli vasitə edən üstünlükləri çoxdur. Riyaziyyatın rolu insan resurslarının idarə edilməsində və ümumi məhsuldarlığın artırılmasında ən yüksək dəyər daşıyır. Təşkilatların iş proseslərinin mürəkkəbliyi artmaqda davam edir, çünki şirkətlər məlumat və süni intellekt əsasında qərar qəbul texnologiyalarını tətbiq edirlər. Deməli, riyaziyyatdan və bunun nəticəsi kimi proseslərin avtomatlaşdırılmasından istifadə gələcəkdə daha vacib və əhəmiyyətli olacaqdır, çünki təşkilatlar öz fəaliyyətlərini yaxşılaşdırmağa və biznes məqsədlərinə nail olmağa çalışırlar.

ƏDƏBİYYAT SIYAHISI

1. Адамова Э.С. Управление персоналом. Методы // Академическая публицистика. 2017. № 12. S. 38-43.
2. Горбунов, В.К. Математическое моделирование рыночного спроса: Учебное пособие/В.К. Горбунов. СПб.: Лань, 2018. S. 212.
3. ***Савиных, В.Н. Математическое моделирование производственного и финансового ме- неджмента / В.Н. Савиных. М.: КноРус, 2018. S. 256***
4. ***Семакин, И.Г. Программирование, численные методы и математическое моделирование (для бакалавров) / И.Г. Семакин, О.Л. Русакова, Е.Л. Тарунин. - М.: КноРус, 2018.***

S E K S İ Y A – 2

BİZNESİN İDARƏ EDİLMƏSİ

-B-

İNSAN RESURSLARI ƏLDƏ EDİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

NURAY MURADXANLI
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/ İstehsal və xidmət sahələrinin iqtisadiyyatı (sənaye üzrə)
nmuradxanli@std.beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə insan resurslarının əldə edilməsindən bəhs edilir. İnsan resuslarından istifadə olunmasının işsizliyə,iqtisadiyyata təsiri haqqında ümumi məlumat verilir. İnsan resurslarının seçilməsində üstünlük verilən üsullardan, metodlar barəsində danışılır.Məqalədə insan resuslarının formalaşdırılması, hazırlanması,peşəkarlığının artırılması nəzərdən keçirilmişdir.

Hal-hazırki dövrdə avadanlıqların, komputerlərin işlərindən , avtomatlaşdırılmış sistemdən nə qədər çox istifadə olunsa da insan amilinə diqqət hələdə öz yerində qalır. Bu səbəbdən dövlətlər, iri şirkətlər insan amilinin seçilməsinə ondan istifadəyə böyük diqqət ayırırlar.

Müəssisələrdə mövcud olan gərgin rəqabət şəraiti daha yüksək performanslı işçiləri müəssisələrə cəlb etməyin əsas şərtidir. Fəaliyyət qurmaq və onu qoruyub saxlamaq zəruri maliyyə resurslarının tapılması və istifadəsi, gələcək üçün yeni məhsulların hazırlanması, dizaynların yaradılması, yeni texnologiyaya ehtiyacın müəyyən edilməsi və həyata keçirilməsi; məhsulların marketinqinin üsullarının tapılması kimi bütün funksiyalar insan resurları tərəfindən həyata keçirilir.

Müəssisələrdə ən aşaıı vəzifələrdən ən yuxarı vəzifələrə qədər hamı iş fəaliyyətini yerinə yetirir.İnsan resurslarının əsas məqsədi məhsul istehsalında, xammaddənin əldə edilməsindən vəs. İbarətdir. Bütün bunlarda insan amili əsas faktor sayılır.

Müəssisələr fəaliyyət sahələrindən və ölçülərindən asılı olaraq müxtəlif və çoxlu vəzifələrə malik insanlar işləyir. Səviyyə və vəzifədən asılı olmayaraq insan resurslarının idarə edilməsi bütün işçilər üçün onların işə qəbulundan təqaüdə çıxmasına qədər hər mərhələnin əhatə edir. Onların effektiv və səmərəli işləməsi üçün təlimat və metodlar təqdim edir.

Bu iki əsas məqsədə nail olmaq üçün insan resurslarının idarə edilməsi resursların axtarışı, işə götürülməsi, təlimi, qiymətləndirilməsi, təşviqi,vəzifə və vəzifə yerinin dəyişdirilməsi, iş arasında uyğunsuzluqlar aradan qaldırılması, pul və qeyri-pul imtiyazlarının verilməsi, məşğulluq şəraitin yaxşılaşdırılması və əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı qaydaların hazırlanması kimi bir çox fəaliyyətləri həyata keçirir.

AÇAR SÖZLƏR:

İnsan resusrlarının idarə olunması, tənzimlənmə, işə qəbul prosesi, insan resurslarının tarixi, insan resurslarımım əldə edilməsi, seçilməsi, problemlər.

GIRIŞ

Ən sadə şəkildə deyə bilərik ki, insan resurlarının idarə edilməsi əməkdaşlıqda ümumi məqsədlərə nail olmaq istəyən bir qrup insanın müntəzəm və şüurlu fəaliyyətini nəzərdə tutur.Başqa bir tərifə görə isə idarəetmə; o, təşkilati məqsədlərə iqtisadi və səmərəli nail olmaq üçün fəaliyyətlərin planlaşdırılması, təşkili, icrası, nəzarəti və nəzarəti prosesini əhatə edir .Bu funksiyaların yerinə yetirilməsi və saxlanılması üçün müəssisədə işçi kollektivinin fəaliyyət göstərməsi məcburidir.

Demək olar ki, istənilən təşkilatda əsas element insanlardır. Biznesin qurulması və inkişafı, onun sosial vəzifələrini yerinə yetirməsi və ümumi məqsədlərinə çatması onun səmərəli kadr potensialına malik olmasından asılıdır. İşçi qüvvəsini inkişaf etdirən və motivasiya edən təşkilatlar məqsədlərinə daha asan çatarkən; buna nail ola bilməyən təşkilatlar fiziki imkanları və imkanları nə qədər mükəmməl olsalar da, fəaliyyətlərini davam etdirə bilməzlər (BİNGÖL, 2003.)

Hər bir müəssisədə bir çox insanlar təsisatın məqsədindən asılı olaraq müxtəlif səviyyələrdə, müxtəlif vəzifələrdə və müxtəlif təhsil səviyyələrində çalışırlar. İnsan resursları, işçilərin iş daxilində işlədikləri müddətdə, səviyyəsindən və vəzifələrindən asılı olmayaraq, iş məqsədlərinə uyğun olaraq effektiv və səmərəli işləmələrini təmin etmək əsas mısuliyyətləridir. Bunları edərkən İnsan resursları eksperti iki əsas məqsədə çatmaq prinsipini qəbul edir. Bu məqsədlər (SABUNCUOĞLU, 2000.)

• Təşkilatda çalışan insanların bilik, istedad və bacarıqlarından biznesin məqsədinə uyğun olaraq ən səmərəli şəkildə istifadə etmək,

• Biznesdə çalışan bütün işçilərin işindən razı qalmalarını və inkişaf etmələrini təmin etmək.

HRM yalnız birinci məqsədə çatmağa çalışırsa, biznesdə çalışan insanlar istehsal vasitələrindən heç bir fərqi olmayacaqdır. Bununla belə, ikinci məqsəd işçiləri istehsal aləti olmaqdan uzaqlaşdırır və müəssisələrin insanlarla və insanlar üçün mövcud olduğunu ortaya qoyur.

İnsan resurslarının tarixi

Müəssisə və ya təşkilatda maaşla işləyənlər tarix boyu müxtəlif cür müəyyən edilmişdir. İstifadə olunan tərifler və seçilən sözlər təbii olaraq dövrdə yaşanan hadisələrdən və dünyanı qavrama yollarından təsirlənmişdir. Bir işdə çalışanlar üçün əvvəlcə işçi qüvvəsi daha sonra isə kadr sözlərindən istifadə olunur. Əmək haqqı üçün işləyən insanları təsvir etmək 1980-ci illərdən sonra insan resursları, 1990-cı illərdən sonra isə strateji resurslar, intellektual kapital və insan kapitalı sözlərinə üstünlük verilməyə başlandı. Son illərdə biznes təşkilatları öz işçilərindən resurs kimi deyil, insanları cəlb etmək, inkişaf etdirmək istedadları müəssisədə saxlamaq kimi görməyə başlamışdır

İnsan resursları elminin menecmentin banisi hesab edilən Frederick Taylor, 1900-cü illərin əvvəllərində kadrların funksiyasının inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışdır. Özünün "Ticarət menecmenti" kitabında Taylor işçilərin seçimi və təlimləndirilməsinə "elmi" cəhətdən yanaşmanın təbliği ilə bərabər, o, həmçinin qoyulan hədəfləri keçən işçilərin mükafat- landırılmasını da təşviq etdirmişdir. Baxmayaraq ki, Taylorun əsas məqsədi istehsal sahəsində səmərəliliyin artmasına yönəlmişdir, bu öz növbəsində İRM-in inkişafına səbəb olmuşdur

İnsan resurslarının tarixi inkişafını aşağıdakı formada göstərmək olar :

1910-1930: Bir çox təşkilatlar işçilərin rifah halının yüksəlməsini təmin etmək üçün şöbələr formalaşdırır. Sənaye psixologiyası fənni inkişaf etməyə başlayır. Sənaye psixo- logiyası, 1-ci dünya müharibəsinin də səbəb olması ilə test və seçimlərin həyata keçirilməsinə təkan verir.

1930-1945: Hawthorne araşdırmalarının menecment düşüncələri və praktikaları üzərində təsiri formalaşır. İşçilərin səmərəliliyinə təsir edən iş yerlərinin sosial və qeyri-formal as- pektlərinə daha çox fikir verilməyə başlayır. İşçilərin məmnun- luğunun artırılmasının onların səmərəliliyinə təsir etməsi anlayışı formalaşır.

1945-1965: 1935-50-ci illərdə həmkarlar ittifaqlarına sürətli şəkildə qoşulmalar kollektiv şikayət və işçilərlə əlaqələrin formalaşmasına səbəb olmuşdur. Həmkarlar ittifaqları işçilərin tətil, bayram, sığorta, kompensasiya və digər imtiyazları əldə etmələri üçün hərəkət edirdilər.

1965-1985: ABŞ-da vətəndaş hüquqları uğrunda hərəkat 1964-cü ildə vətəndaş hüquqları aktının formalaşması ilə nəticələndi. Bu da öz növbəsində irq, cins, din və milli etniklərin diskriminasiyasının qarşısını almaq üçün nəzərdə tutulurdu. Növbəti illərdə bərabər iş imkanları İRM-in əsas vəzifə və öhdəlikləri sırasına keçdi.

1985-indiki dövr: Üç əsas trend, İRM-ə kəskin şəkildə təsir etdi. İlk növbədə işçi qüvvəsinin formalaşmasında müxtəliflik amilinin yüksəlməsi oldu. Müxtəliflik amilinə diqqət yetirilməsi yaş, cins, irq və etnik qruplar arasında fərq qoymamaq idi. Bununla da müxtəlifliyin idarəedilməsi anlayışı

formalaşdı. İkinci trend biznesin, işin qloballaşması və texnoloji inqilabın yaranmasıdır. Bu faktorlar nəqliyyat, kommunikasiya və əmək bazarında kəskin dəyişiklərə səbəb oldu. Üçüncü trend ilk iki trend ilə əlaqəli olmaqla, strateji funksiya olaraq İRM-ə fokus olur. Sürətli dəyişikliklər, intensiv rəqabət və artan məhsuldarlıqla rəqabət aparmaq üçün İRM konseptinin ümumi strateji planlaşdırılma ilə inteqrasiyası həyata keçirilir. (İ.İsgəndərov, M.Əsgər, N.Şıxəliyev,2017)

İnsan resurlarının əldə edilməsi

Bugünkü biznes güclü rəqabət mühitində fəaliyyət göstərir. Onların bu rəqabət mühitində üstün mövqeyə çıxmasına imkan yaradacaq əsas element insan resurslarıdır.

Şəkil 1.1. İnsan resurlarının funksiyaları (Azərbaycan İnsan Resursları Peşəkarları səhifəsi elektron yazısı)

Buna görə də biznes menecerləri özləri üçün ən uyğun variantı seçirlər.Onlar yüksək ixtisaslı kadrları tapmaq və onlarla işləmək istəyirlər. Lakin buna nail olmaq çox asan deyil. Doğru insanları tapmaq və işə götürmək üçün HR menecmenti bəzi funksiyaları yerinə yetirməlidir. HR menecmenti biznesin uzun, orta və qısamüddətli planlarına uyğun olaraq ilk növbədə harada, nə vaxt, necə və hansı keyfiyyətlərə malik insan resurslarına ehtiyac olduğunu təxmin edir bu insan resursları planlaması adlanır. Sonra vakant vəzifələri müəyyən edir, onları təhlil edərək müəyyən edir və bu işi yerinə yetirmək üçün şəxsin tələb olunan keyfiyyətləri müəyyən edir.Bu ilkin tədqiqatlara uyğun olaraq insan resurslarının əldə edilməsi üçün kadrların tapılması, seçilməsi və yerləşdirilməsi funksiyaları həyata keçirilir:

• Kadrların tapılması: İstənilən keyfiyyətlərə malik namizədləri hansı mənbələrdən (daxili) tapmaq olar? Sualının cavabı araşdırılır. Bu namizədlərə elanlar vasitəsilə çatdrılır və müəssisəyə müraciət etmələrinə icazə verilərək namizəd hovuzu yaradılır.

Daxili mənbələrdən kadrların tapılması; mövcud işçilərə və müəssisəyə əvvəlcədən iş üçün müraciət etmək, lakin işlə təmin olunmayanlara diqqətin yönəldilməsi prinsipinə əsaslanır.

• Hazırkı işçilər,
• əvvəlki işçilər və
• yeni namizədlər

bu növ işə qəbulun mənbəyini təşkil edə bilər. Promosyonlar və transferlər bütün təşkilata təsir göstərir.Mövcud olmasa da, təşkilati bölmələrə əlavə işçi qüvvəsi təmin edir. (Mathis ve Jacksor, 1999).

• İşə yerləşdirmə və oriyentasiya: Seçilmiş namizədə iş təklifi verilir,lazım olan sənədlər tamamlanır, müqavilələr bağlanır, işə yerləşdirilir, işə və iş mühitinə öyrəşdirilir.

• Kadr seçimi: Yaradılmış namizəd fondundan müxtəlif üsullardan istifadə etməklə işə və təşkilata ən uyğun namizəd seçilir.

Şəkil 2.1. Kadırların seçilməsi (Azərbaycan İnsan Resursları Peşəkarları səhifəsi elektron yazısı)

Seçim, namizəd hovuzundan işi yerinə yetirəcək xüsusiyyətlərə sahib insanların təyin edilməsi prosesidir. Seçim ən yaxşı insanı seçməkdən daha çox şey ifadə edir. Ən vacibi isə odurki, məsələ işin tələblərinə "uyğun" olan namizədin seçilməsindən gedir, ən yaxşısını yox. Namizədin həqiqətən nə edə biləcəyini və etmək istədiyini dəqiq söyləmək həmişə tamamilə mümkün olmur. Namizəd və biznes arasında uyğunluq,həm biznesin iş təklifi vermək istəyi, həm də ərizəçinin işi qəbul etmək istəyi arasında müəyyən dərəcədə düz mütənasiblik olmalıdır. İnsan resurslarında seçimə uyğunlaşma prosesi kimi baxmaq olar. Şəxsin bacarıqları şirkətin şərtləri ilə biznes arasındakı fərq işçinin işi rədd edilməsinə səbəb olacaq.İşçi işə, yəni vəzifənin tələblərinə nə qədər uyğundursa, bu, işin keyfiyyətini biləcək və keyfiyyətini artıracaq.Bu harmoniya birbaşa təlim və əməliyyat xərclərini də əhatə edir. İşçilər gözlənilən iş keyfiyyətinə nail ola bilmirlər və gözlənilən miqdarda iş istehsal etmirlər.Əgər istehsal edə bilmirsə, bu, biznesə böyük pul və vaxt itkisinə səbəb olacaq. Uyğun olmayan namizədlərin seçilməsi xərcləri artıracaq.

Düzgün işçinin seçilməsi insan resurslarının əsas fəaliyyətini əks etdirir. İnsan resurslarının idarə edilməsi baxımından effektiv seçimin vacibliyini aydın şəkildə müəyyən edən iki təklif var. Bunlar (Mathis və Cekson, 1999):

1. "Yaxşı təhsil pis seçimləri kompensasiya etməyəcək." Vurğu buradadırki, müvafiq bilik, bacarıq və səriştəyə malik olan şəxs işə götürülməyib.Müəyyən bir şəkildə, lazımi səriştəsi olmayan namizədlər işə qəbul olunmuşdurki, həmin insanlar sonradan istənilən səviyyəyə gətirib çatdırmaq çox çətin işdir.

2. "Əgər siz düzgün insanı işə götürməsəniz, rəqibiniz işə götürəcək".Əgər iş təhlili düzgün aparılarsa, iş tələbləri düzgün müəyyən ediləcəkdir. Bu bilik, bacarıq və qabiliyyətlərinə uyğun müraciət edən namizədlər arasında ən uyğun olan birini seçməklə vakant yerə yerləşdirilə bilər.

İxtisaslı insan resurslarının əldə edilməsi kifayət deyil. Əsl önəmli olan əmək, vaxt və pul xərcləməklə əldə edilən bu resurs müəssisədə saxlamaqdır. İşə olan həvəs və bağlılığın davam etməsini təmin edərək, insanların rəqib bizneslərə getməsinin qarşısını almaqdır. Bunu təmin etmək üçün aşağıdakı funksiyalar yerinə yetirmək lazimdir:

• Mükafat: İnsanın işlədiyi şirkətdən məmnunluğunu artırmaq. İlk növbədə o, ədalətli əmək haqqı aldığını düşünməlidir. Sahib olunan ixtisaslara, yerinə yetirilən işin dəyərinə, nümayiş etdirilən

performansa və bazar əmək haqqı dərəcələrinə əsasən əmək haqqı aldığına əmin olmalıdır.Əgər maaşlar buna uyğun ödənilirsə, ədalətli əmək haqqı sisteminin mövcud olduğunu söyləmək olar. Bunun üçün işin qiymətləndirilməsi və performansın qiymətləndirilməsi sistemləri qurulmalı və əmək haqqı bazarı araşdırması aparılmalıdır. Bundan əlavə, əmək fəaliyyəti ilə bağlı həvəsləndirici əmək haqqı proqramları həyata keçirilməli və pul və ya qeyri-pul şəklində müxtəlif əlavə imkanlar təmin edilməlidir.

• Təşkilati bağlılığın artırılması: Təşkilati bağlılıq təşkilatın üzvü olaraq qalmaq deməkdir və bu, təşkilat üçün səy göstərmək istəyini hiss etmək və təşkilatın məqsəd və dəyərlərinə inanmaqdan başlayaraq bir bütövdür. Strateji HR menecmenti və yüksək intensivlikli təcrübələr, seçmə heyəti, işə qəbul, performansın qiymətləndirilməsi, ədalətli əmək haqqı, mükafatlar və əlavə imkanlar, təlim, karyera təmin etmək İnkişaf, personalın səlahiyyətləndirilməsi, effektiv ünsiyyət və sosiallaşma kimi təcrübələr işçilərin təşkilata bağlılığını artıracaq.

• İş sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi: İşçilərin fiziki, əqli və sosial rifahının təmin edilməsi onların rifahını maksimum dərəcədə artırmaq və bu səviyyəni saxlamaq; pis ekoloji şərait səbəbindən işçilərin sağlamlığının pisləşməsi qarşısının alınması; iş zamanı sağlamlığına zərər verə biləcək və həyatlarına təhlükə yarada biləcək təhlükələrdən qorunmaq; onların fizioloji və psixoloji vəziyyətləri üçün ən uyğun peşəkar mühitlərə yerləşdirilməli və vəziyyətləri qorunmalıdır.

• Sənaye əlaqələrinin saxlanması: Bütün sektorlarda maaşlı işçilər əmək münasibətlərindən irəli gələn bütün növ "fərdi" və "kollektiv" münasibətlər və bu əlaqələr çərçivəsində iş şəraitinin araşdırılması daxildir. Bu Konsepsiya muzdlu işçilərin əmək münasibətlərindən irəli gələn iş həyatının bilavasitə aspektlərinə aiddir.

• Mədəni və sosial tədbirlərin təşkili: Bundan əlavə, işçilər və müəssisənin yerləşdiyi kampusun ətraf mühiti və rəhbərliyi ilə sosial əlaqələr qurulmalıdır. Bu, ümumiyyətlə, HR departamentinin məsuliyyət sahəsinə daxildir. Misal üçün, qrup kinoteatrı, slayd və teatr tamaşaları, kitabxana işləri, fotoqrafiya klubunun fəaliyyəti, ətraf mühitə səyahətlər, pikniklər və s. kimi sosial və mədəni tədbirlər; basketbol, voleybol, tennis, futbol, şahmat turnirləri və idman festivalları kimi idman tədbirləri; Qida və xidmət xidmətləri və restoranlar, yeməkxanalar və istirahət obyektləri kimi sosial obyektlərin idarə edilməsi ümumiyyətlə kadrlar şöbəsinə aiddir. Bu cür xidmətləri göstərməklə işçilərin məmnunluğu və məmnunluğu. Onların həyat keyfiyyəti yaxşılaşır və onların saxlanmasına kömək edir. (Mustafa Öcal İnsan kaynakları yönetimi ve örgütlənməsi)

İnsan resurslarının idarə edilməsindəki problemlər

İnsan resurlarında işçilərin işə cəlb olunması, seçilməsi, yerləşdirilməsi ən mühum məsələlərdəndir. Lakin işə qəbul zamanı ekspertlər müəyyən problemlərlə qarşılaşırlarki bu poblemlər həm işçilərlə bağlı, həm mühitlə, həmdə işə qəbulun çətinliyi ilə bağlı ola bilər. İdarəetmədə qarşımıza çıxacaq problemlərin bir neçəsini sizə təqdim edim :

Əmək haqqının düzgün təyin edilməməsi – Bu işçilərlə müəssisə arasında yaranmış ən başlıca problemdir. Hər bir işçi öz əməyinin qarşılığını tam olaraq almağı gözləyir, hər bir müəssisə rəhbəri isə işçidən daha uğurlu işləməyini, şirkətə yeniliklər gətirməsini gözləyir. Buna görə də bəzən müəssisə gözləntiləri ilə işçi üst-üstə düşmədiyindən əmək haqqı işçini qane etmir. Bu günümüzdə ən çox qarşılaşılan problemdirki, insan resursları menecerinin aradan qaldırmalı olduğu ən əsas problemlərdəndir.

Performansın qiymətləndirilməsi - Şirkətdə kimin nə üçün işlədiyini və onların işinə nə qədər töhfə verdiyini bilirsinizmi? Tutaq ki, bilirsiniz, amma siz bunu düzgün bildiyinizə əminsiniz və ya bütün işçiləriniz haqqında tam məlumatınız var? Sizin resurslarınız hansılardır? Ədalətli sistem yaradın, performans qiymətləndirmə sisteminizi yaradın. Əgər şirkətinizdə mövcud İnsan Resursları departamenti varsa, şirkətinizə xas bir sistem yaratmaq üçün birlikdə çalışın və ya məsləhət alın.Hər kəs səylərinin diqqətə çatdırılmasını və qiymətləndiriləcəyini gözləyir. Belə olduğu halda performans düzgün qiymətləndirilmiş olur.

İşə Qəbul Prosesləri – İşə qəbulun aparılmasında bəzi problemlər ortaya çıxa bilərki, bu zamanın düzgün idarə olunmaması, namizədə qarşı davranış formaları, iş haqqında yalnış məlumat verməs və. göstərə bilərik.

İş şəraiti - Şirkətdə qaydaların, standartların və prosedurların müəyyən edilməsi və hər kəsin bu qaydalara əməl etməsinin təmin edilməsi təbii ki, həmin şirkət daxilində işi asanlaşdıran və münaqişələri azaldan amildir. Bununla belə, həddən artıq göstəriş vermək xüsusilə yeni nəsil işçiləri

bədbəxt edir. Doğrudur, giriş və çıxış vaxtlarına riayət etmək vacib ola bilər. Ancaq unutmayın ki, iş vaxtından nə qədər səmərəli istifadə etmək işə beş dəqiqə gecikməkdən daha vacibdir (https://www.parasut.com/blog/insan-kaynaklari-yonetiminde-problem-cozumu)

TƏDQIQAT METODU

Bu məqalədə xarici və yerli ədəbiyyatdan istifadə edilərək insan resurlarının idarə edilməsi tarixi və inkişaf mərhələləri müəyyən edilmişdir. Məqalədə insan resurlsarının idarə olunarkən qarşılaşdığımız bir çox problemlər , həmin problemlərin nələrə səbəb olduğunu qeyd etmişəm. Tədqiqat zamanı resursların seçilməsi, əldə olunması , seçilən insan resurslarını qoruyub saxlamaq metodlarının nəzəri aspektləri göstərilmişdir.

3. NƏTICƏ

İnsan Konsepsiyasının əhəmiyyəti gündən-günə artdıqca, düzgün işə düzgün insanın seçilməsi İnsan Resursları departamentinin prioritet vəzifələrindən birinə çevrilmişdir. Şirkət daxilində işçilərə investisiya qoyuluşunun əslində şirkətin məhsuldarlığını və məqsədlərinə çatmaqda effektivliyini artırdığını dərk edən müəssisələr təlimlərə diqqət yetirməyə başladılar. Ümumi qəbul edilmiş fikrə görə, İnsan Resurslarının İdarəedilməsinin əsas məqsədi həm biznesin səmərəliliyini artırmaq, həm də işçilərin ehtiyaclarını qarşılayaraq işlərindən razı qalmalarını təmin etməkdir.

Bu gün HR idarəçiliyində uğurlu olmaq üçün ilk növbədə,daxili və xarici ətraf mühit elementlərinin yaxından monitorinqi və bunlarda baş verən hadisələrə cavab olaraq müvafiq tədbirlərin görülməsi nəzərə alınmalıdır. Həm də gündəlik və qısamüddətli düşünmək əvəzinə, uzunmüddətli ,strateji yanaşma qəbul edilməli, etik siyasət və davranışlar qorunmalıdır.Bundan əlavə, HR idarəetmə funksiyası biznesin məqsədlərinə çatmasına kömək etmək üçün vacibdir.Onun ölçülə bilən və hesablana bilən şəkildə yerinə yetirilməsi təmin edilməlidir.

HRM təcrübələrinin biznesin məqsədlərinə çatmaqda nə dərəcədə uğurlu olması məsələsi mühüm məsələdir. Bununla belə, bunun hesablanması və ya ölçülməsi çox asan deyil. HRM funksiyasının fəaliyyətinin ölçülməsi zamanı; HR təcrübələrinin digər təşkilatların HR təcrübələri ilə müqayisəsi müqayisədə necə göründüyü bilinməlidir.

Ümumi şəkildə belə nəticəyə gələ bilərik ki, insan resursları menecerinin fəaliyyətinə təsir edə biləcək bəzi siyasətlər aşağıdakı kimi sadalamaq olar:

•Heyyət üçün təhlükəsiz iş mühitinin təmin edilməsi,

•İşçiləri həvəsləndirmək üçün sistemlərin inkişafı,

• Vakant vəzifələrin ilk növbədə daxili mənbələrdən doldurulması,

•Bütün kadrların vaxtaşırı təlimləndirilməsi və s.

Bu mənada vizyon və missiyanın müəyyən edilməsi son dərəcə vacibdir; çünki irəli gedir. Bütün strateji hədəflər və qurulacaq planlar bunlara uyğun olaraq irəli sürüləcək.

Dünənki kadrlar Şöbəsi yalnız təyinatlar, yüksəlmələr, məzuniyyətlər, xəstəliklər və davamiyyətlər kimi kadr uçotunu aparır, hesablamalar aparır və əmək haqqı cədvəlini hazırlayırdı. Bugünkü İnsan Resursları idarəçiliyi, mövcud funksiyalarına əlavə olaraq; işçilərin qətiyyətindən təşkilati mədəniyyətin mənimsənilməsinə qədər; İşçilərin peşəkar və şəxsi inkişafından tutmuş korporativ dəyişiklik və inkişafa qədər geniş spektrli siyasətlər hazırlamalı və onları işçilərlə paylaşmalıdır.

Qloballaşma, texnoloji irəliləyişlər, dövlət nəzarətinin azalması, işçi qüvvəsinin müxtəlifliyi, İnsan Resurslarının İdarə edilməsinə təsir edən hüquqi tənzimləmələr, iqtisadi və sosial şərait, məhsuldarlığın artan əhəmiyyəti, iş dünyasında rəqabətin güclənməsi kimi amillər davam etdikcə, İnsan Resurslarının İdarə Edilməsi yanaşması tədricən artacaq.

İnsan Resurslarının İdarə Edilməsinin effektivliyi böyüyən və inkişaf edən təşkilatlarla durğunlaşan və ya hətta tənəzzülə uğrayan təşkilatlar arasındakı fərqi müəyyən edəcək.

ƏDƏBIYYAT SIYAHISI
45. BİNGÖL, Dursun, İnsan Kaynakları Yönetimi, Beta Basım Yayım Dağıtım, İstanbul, 2003.
46. https://www.parasut.com/blog/insan-kaynaklari-yonetiminde-problem-cozumu / 17.11.2023
47. SABUNCUOĞLU, Zeyyat, İnsan Kaynakları Yönetimi, Ezgi Kitabevi, Bursa, 2000.
48. İ.İsgəndərov, M.Əsgər, N.Şıxəliyev İnsan resurslarının menecmenti, Bakı,2017.
49. Mustafa Öcal İnsan kaynakları yönetimi ve örgütlənməsi
50. https://idenfit.com/blog/insan-kaynaklari-yonetimi-sorunu/ / 17.11.2023
51. T.Y.Bazarov, B.L.Yerem, Heyyətin idarə edilməsi,Bakı,2012
52. Mathis, R. L ve Jackson, J. H. ,Human Resorce Management, 1999.

STRATEJİ QƏRARLARIN VERİLMƏSİNDƏ İNSAN RESURSLARI DEPARTAMETININ ROLU

Dosent, i.ü.f.d. Abutalıbov Rasim
Bakı Mühəndislik Universiteti
Biznesin təşkili və idarə edilməsi kafedrası baş müəllimi
rabutalibov@ beu.edu.az

RƏNA SƏFƏROVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Biznesin təşkili və idarə edilməsi
rseferova1@std.beu.edu.az
Xırdalan, Azərbaycan

Xülasə: Qlobal rəqabət şəraitində müəssisələrin ayaqda qalması üçün müəssisə rəhbərləri düzgün uzunmüddətli strateji qərarlar qəbul etməsi vacibdir. Strateji qərarlar şirkətin uzun müddətli vizyonuna və missiyasına uyğun təşkil olunması və şirkətin bugün və gələcək vəziyyəti hərtərəfli nəzərə alınmalıdır. Strateji qərarlar verərkən müəssisə funksiyalarını icra edən departamentlər arası əlaqələrin düzgün təşkili vacib məsələlərdən biridir. Bu departamentlərin içərisində insan resursları departamentinin rolu danılmazdır. Belə ki, şirkətin uzunmüddətli məqsədlərinə çatması üçün gələcəyə istiqamətli korporativ mədəniyyətə uyğun ixtisaslı kadrların aşkarlanması və işə cəlb edilməsi ən vacib məsələlərdən biridir. Bundan əlavə,strateji qərarların verilməsidə innovativ təcrübələr işçiləri öz ideyalarını bölüşməyə və layihələrdə əməkdaşlıq etməyə təşviq etməklə təşkilatlara yenilik mədəniyyəti yaratmağa kömək edə bilər. Bu, təşkilatlara yeni məhsul və xidmətlər inkişaf etdirməyə, mövcud prosesləri təkmilləşdirmə məsələlərini həyata keçirə bilər. Son olaraq innovativ təcrübələr gələcək işçi qüvvəsi ehtiyaclarını proqnozlaşdırmaq və bacarıq boşluqlarını müəyyən etmək üçün məlumat analitikası və maşın öyrənmə alqoritmlərindən istifadə etməklə təşkilatlara düzgün istedadı müəyyən etməyə və inkişaf etdirməyə kömək edə bilər. Bu, təşkilatlara daha müxtəlif və əhatəli işçi qüvvəsi yaratmağa kömək edə bilər ki, bu da daha yaxşı qərarların qəbul edilməsinə, yaradıcılığın artmasına və problemlərin həllinin təkmilləşdirilməsinə kömək ola bilər. Daxili və xarici çağırışların öhdəsindən gələ bilən balanslaşdırılmış və dəyişməyə hazır iş yerinin qurulmasına kömək edir. Təşkilatda müxtəlif vəzifələr üçün ixtisaslı namizədlərin adekvat təchizatını təmin etməklə strateji HRM ehtiyac yarandıqda bacarıq boşluqlarını tez bir zamanda doldurmağa kömək edə bilər.

Abstract

The role of Human Resources (HR) in strategic planning is critical to the success of an organization. HR is responsible for ensuring that the organization's workforce is aligned with its strategic goals and objectives. This involves the development and implementation of policies,

procedures, and programs that support the organization's mission and vision. One of the key roles of HR in strategic planning is workforce planning. This includes analyzing data on employee engagement, turnover, and performance to identify areas for improvement and ensure that the organization has the right number of employees with the right skills in the right roles to support the strategic goals of the organization. This can involve creating job descriptions, identifying critical skills and competencies, forecasting workforce needs, and developing plans to address any gaps.Another important aspect of HR's role in strategic planning is talent management. This includes recruiting, hiring, and developing the best talent for the organization. HR also plays a key role in creating a culture that supports the organization's goals and values, and in fostering a positive and engaged workforce. This can involve designing and implementing programs such as employee training and development, mentoring, and performance management.

Açar sözlər: Strateji idarəetmə, qərarvermə, insan resursları, planlaşdırma və s.

Bu məqalədə mən H_2SO_4 yaradılması prosesi vasitəsilə semantikanın məlumat axını diaqramlarına necə qoşula biləcəyinin yollarını göstərəcəyəm. Məlumat axını diaqramları əsasən sistemin dizaynında mühüm rol oynayır. Onların əsas məqsədi informasiya sisteminin proses elementlərini formalaşdırmaqdır. Məlumat axış diaqramları çox vaxt sistemin qlobal modelini saxlamaq üçün informasiya təhlilinin ilkin mərhələləri üçün yaradılır. Lazım gələrsə, bu sistemlər sonradan tənzimlənə bilər. Daha çox sistemin dinamik davranışını təsvir etmək üçün istifadə olunur, daha sonra proseslərə və onların əlaqələrinə diqqət yetirmək üçün istifadə edilə bilər. Məlumat axını diaqramları müştəri ilə sistemdəki prosesin diaqrammatik təsvirini müzakirə etməyə və Məlumat axını diaqramının cari versiyasında nə olduğunu göstərməyə kömək edir, yeni sistemin nə edə biləcəyini göstərir və prosesin hər bir fərqli addımı üçün tələbləri təsvir edirç sistemin gedişatını asanlıqla müəyyən etməyə kömək edir və təcrübəli və təcrübəsiz işçilər arasında asan pəncərə təqdim edir. İnformasiya sistemlərinin yaradılması zamanı çox dəqiq olmaq çox vacibdir. Dəqiqlik olmadan müştəri spesifikasiya haqqında aydın məlumata malik ola bilməz. Məlumat axını diaqramı mühəndislər üçün daha etibarlı platforma yaradır. Məlumat axını diaqramı sistem vasitəsilə məlumat

axınının qrafik təsviridir. Məlumat axını diaqramlarından proseslərin vizuallaşdırılması üçün də istifadə oluna bilər. Məlumat axını diaqramında elementlər prosesdən prosesə axır.

AÇAR SÖZLƏR: Məlumat Axış Diaqramı(MAD), istifadə halları, proses kartı

INTRODUCTION

Data Flow Diagram assist to discuss with the customer a diagrammatic illustration of the process in the system and show what is in the current version of Data Flow Diagram, indicate what the new system will be able to do and depict requirements for each different step of process, helps to identify progress of the system easily and provides easy diagram between experienced and unexperienced staff.

Majority of business processes are often too complicated to illustrate in just one Data Flow Diagram. Mostly they are illustrated as sets of Data Flow Diagrams. Initial Data Flow Diagram gives brief information about whole system, other Data Flow Diagrams provides more detailed information about each aspect of the business process. Each level of the Data Flow Diagram depicts more detailed view with less opportunity. So, one of the crucial principles of Data Flow Diagram is, decomposing the business process to a set of Data Flow Diagrams.

Data flow diagrams are primarily utilized for specify large complicated systems. A Data Flow Diagram's layout is visually informally easy to understand and learn, but its informality makes it hard to verify information of the completeness and consistency of a Data Flow Diagram. According to R. Ganesh Data Flow Diagram does not provide any information about the time consumption, or order of process. The main purpose of this Data Flow Diagram tools is to provide an understandable diagram for the Data Flow Diagrams. A Data Flow Diagram is connected with a binary relation, which is called the precedence relation. The precedence relation for a Data Flow Diagram is a preview of the whole system and defines the what is used for creating next step between data flows. The child Data Flow Diagram, which is the result of decomposition is constant with the parent process if the child DFD stays same and parent process does not connect with additional precedence relationship.

Attributes of Data Flow Diagram

According to Victor Dolares there are four attributes of Data Flow Diagram: processes, data flows, data stores, external entities. each of these attributes has its own graphical symbol.

Process A process is a function or an activity, which is created for specific reasons. Figure of process is illustrated in figure 1. Process can be manual or automated. Every process name should be commenced with a verb and ending with a noun. For instance, check product quality. Names must be brief, while providing sufficient amount of information about process, so engineers can understand exactly purpose of process. Generally, processes should do only one activity. Each of the processes has a unique name, a description, and a number. All these variables should be written in the case repository. Descriptions should illustrate precise and clear description for the steps of the processes. Processes mainly used for guiding the engineers, who wants to computerize the processes or for policy manuals for noncomputerized processes. The process identification becomes more detailed, when information is acquired about the process. Most of the process descriptions are written as simple document statements about system. More complicated processes utilize more formal ways such as decision trees, structured English, decision tables.

The main objective of the process descriptions is to give more information about what the process makes and give more information about process, which is not given in Data Flow Diagram. When Data Flow Diagram gets more complex, it will slowly change from the general written descriptions of requirements to more and more complex and accurate descriptions. Most of the time, a process should provide sufficient amount of data about requirements, additionally a use case, and a Data Flow Diagram with a simple description together should be sufficient in the design phase. However, sometimes the process becomes complicated and it will be better to provide more detailed process description, which explains the aim of process. There are three commonly used techniques to determine more complicated processes. These are: structured English, decision tables, decision trees. In some cases, complex processes can utilize all three of these techniques.

Figure 1. Illustration of process

Data Flow A data flow is one piece of information, such as availability of quantity or a combination of several pieces of data. The element of data flow is illustrated in figure 2. For instance, new physical request. It is also called a data element. Each of the data flow's name should noun. The name of data flow is directly connected with what data elements the flow has. For instance, for creating chemical element data flow can contain chemical's name, needed quantity as its data elements. Data flows serve as a glue to hold the processes whole. One of the crucial rules of data flow is, data flow should always come from or go to a process, arrows illustrate the direction of the processes. Data flows illustrate what are the inputs of each process and what are the outputs of each process. Every process must have at least one output of data flow, due to without output, the process does not affect the system and do nothing. Moreover, each process should has at least one input data flow, because it is impossible to create something without input.

Figure 2. Illustration of data flow

Data Store A data store is a complex of information or object, which is stored for further usage. It is illustrated in figure 3. Each of the data stores' name contains a noun and should give brief information about its description and identification number. Data stores makes the initial step for the data model and they are the principal connection between the data model and the process model. Unless they are connected with another Data Flow Diagram, each of the data stores must contain at least one input data flow, otherwise they will not contain any information. Nevertheless, they should have at least one output data flow too. Due to storing data without usage is meaningless. In some cases, it is required that, same process both stores data and receive information from a data store, in this case, drawing one data flow with an arrow on both ends is more preferable. However, this practice is wrong. The data flow that receives data and the data that stores data should be illustrated as two separate data flows.

Figure 3. Illustration of data store

External Entity An external entity can be a person, an organization unit, an organization, or a system that is not part of the system, but interacts with system. It is illustrated in figure 4. For instance, clearinghouse, customer, accounting system, government organization. The external entity normally connected with the primary actor in the most use cases. External entities give information about the system or retrieve system's information, and used for declare system boundaries. Each of the external entity should has a description and a name. The main object is to remember about external entity can be part of external system, also can be part of the organization. People who utilize the data from the system in order to do the other tasks or people who decide what data goes directly to the system are mentioned as external entities.

Figure 4. Illustration of external entity

The Data Flow Diagrams typically are built by the project team members and utilized by the users. Overall, the attributes of Data Flow Diagrams which creates the process model uses the individual use cases. Most of the time, the project team uses the use cases and recreates these use cases as Data Flow Diagrams, however, due to Data Flow Diagrams have strict rules about symbols and syntaxes which use cases do not have, the project team mostly has to adjust some of the data in the use cases to make them relevant to the Data Flow Diagram's rules. The most well-known types of changings are renaming and changing elements of the use cases to the elements of Data Flow Diagram. Another common kind of changing is combining small inputs and outputs of the use cases into one data flow in the Data Flow Diagram. For instance, combination of three different inputs "name of product," "quantity of product," and "quality of product," into one whole data flow, like "Information about product"

Errors of Data Flow Diagram

When a set of Data Flow Diagrams are created, it is crucial to check their quality. The most common errors will be illustrated. Two types of problems that can be faced while creatin Data Flow Diagram. These are called semantic errors and syntax errors. "Syntax error" error means the structure of the Data Flow Diagram is invalid and do not apply the Data Flow Diagram language rules. Syntax errors can occur as analyst's grammatical errors. "Semantics error" means whether system accurately describe as the business process model or not. Semantics errors can happen while analyst's collecting, analysing, and reporting information about the system phase. Generally, syntax errors are easy to find and fix than are semantics errors, because rules are vivid. Most CASE tools have automated syntax checkers which will detect errors automatically.

Rules of Data Flow Diagram

Each process must have at least one data flow comes into it and one data flow should leave. Each data store must have minimum one data flow comes into it and one data flow leave. At least one data flow should flow into a process. Stored data should go through a process. Data stores cannot connect with each other. All processes should connect to either another process or a data store. Data Flow Diagrams can be utilized to model physical logical, new or current systems. Data Flow Diagram should not depict procedural and time-related processes.

RESEARCH

The qualitative method was chosen as the research method. During the research, H2SO4 production of "Valco Group LLC" was sampled. Data Flow Diagram was used while conducting this study. Production begins with Sulphur and ends with H_2SO_4. Process card is used to explain this process more clearly. System values was used to define the inputs and outputs of the process while indicating system performance and values.

Input	Output	System performance	System value
Sulphur	H_2SO_4	We can produce H_2SO_4 from sulphur in 10 days.	Right now, we sell our product to Gold and methanol companies.
H2SO4(94.5%)	Na2SO3	1 ton of H2SO4 can be sold for 250-300$	We can produce 93-98% H_2SO_4
H2SO4(98.5%)	Na2SO4	Maximum capacity of sulphur storage is 2500 ton.	Our future aim is selling our product to fertilizer, pigment, dye, drug, explosive, and detergent companies.
NaOH		SSO_2 and SSO_3 can be naturalized instantly	
		There isn't any harmful output	
		H_2SO_4can be stored without soil for 2 years.	


Turkmenistan
Kazakhstan
S
Carrying
S moved external entities to storges.
S
1
Storage
S
Melting
Sulfur is melting in furnace between 135-145 C and transforms to liquid sulfur.
Liquid sulfur
Filtering
Stone, sand and dirt are removed from liquid sulfur.
Liquid sulfur clean
2
Liquid sulfur tank
Liquid sulfur clean
Sulfur furnace
$S + O_2 = SO_2$
Temperature can reach to up to 1050 C.
1050C SO_2
Cooling
Hot SO_2 cools down to 450 C for next phase.
450C SO_2
Transforming
$2SO_2 + O_2 = 2SO_3$
This process happens 5 times in converter with V_2O_5
Pressured air
Air blowing
Pumps sucks the air, pressurize it and transfers to next phase
Pressured air
Useless SO_2
SO_2
NaOH
NaOH
Neutralizing
SO_2 + NaOH = $Na_2SO_3 + H_2O$
SO3 + NaOH = $Na_2SO_4 + H_2O$
Useless SO_3
Carrying
H_2SO_4moved Iran to storage 4
H2SO4
4
98.5% H_2SO_4storage
H_2SO_4
H_2SO_4
Absorbing
$SO_3 + H_2O = H_2SO_4$
Temperature is between 55-60C
93-98% H_2SO_4
H_2SO_4
Iran
3
H_2SO_4storage

Process step ID	Name	Next step	Transmitted data flow	Process type	Broadly explanation
P1	Forming a production order	P2	Production order	Start	General production process starting
P2	Melting and mixing sulphur	P3	Liquid Sulphur	Process	There are 2 tanks. At the first tank sulphur is melting and mixing constantly and mixing with agigator. Agigator moves sulphur which stays at the corner and raises speed of sulphur. After agigator sulphur moves to second tank and mixing again. Cause of that sulphur releases his bubbles. Furnace's temperature always stays between 135-145 C.
P3	Filtering	P4, P4	Pure Sulphur, Mixed sulphur	Process	Liquid sulphur moving to filter with the pump. There are 5 filters and their function is separating sulphur from stones, sand and litters.
P4	Checking	P2, P5	Mixed sulphur, pure sulphur	Decision	We check if sulphur is pure or mixed with litters. If it is pure, we moved sulphur to storing, if not we send it back to melting process.
P5	Storing	P6	Pure Sulphur	Process	Storing the liquid sulphur for next step
P6	Sulphur furnace	P7	SO_2 (1050C)	Process	This process is endothermic. That means, sulphur burns by itself. We use air to control speed of reaction. O2 from air is reacts with sulphur. The reaction is S+O_2 =SO_2. The production is 1050C SO_2.
P7	Cooling	P8	SO_2 (450C)	Process	We used heat exchanger for cooling 1050C SO_2 to 450C. SO_2 cooling by converting its heat to heat exchanger's liquid.
P8	Converter	P9, P9	SO_3, SO_2	Process	Converter has 5 floors and each floor has V_2O_5catalysator. Reaction happens with the help of V2O5 and repeats at each floor. O_2 is comes from blower's air. $2SO_2+O_2=2SO_3$ (cat: V_2O_5)
P9	Checking	P10, P17	SO_3, SO_2	Decision	We are checking if all the SO_2 transform to SO_3. If it is SO_3 it will go to Absorbing phase if it is still SO_2 it will go to neutralization phase.
P10	Absorbing	P11	H_2SO_4	Process	The reaction is $SO_3+H_2O=H_2SO_4$(Cat: H_2SO_4) This reaction happens at 55C-60C. SO_3 comes from bottom with 8.5KPa of absorbing tower and H_2SO_4pours with 270Kpa with the sprinkle on top of the SO_3.
P11	Checking	P12, P13, P17	H_2SO_4, H_2SO_4, SO_3	Decision	We are checking if all the SO_3 transform to H_2SO_4. If it is H_2SO_4it will go to selling if it is still SO_3 it will go to neutralization zone.
P12	Storing	-	H_2SO_4 (93-98%)	End	It will sold $H_2SO_4$to companies.
P13	Buying and storing	P10	H_2SO_4 (98.5%)	External Data	Buying of 98.5% $H_2SO_4$from Iran and store
P14	Buying and storing	P15	H_2SO_4 (94.5%)	External Data	Buying of 94.5% $H_2SO_4$from Iran and store
P15	Blower	P6, P8	Pressured air, Pressured air	Process	Blower vacuums dry air and send with pressure to the next step.
P16	Wasted product	-	-	Process	SO_2 and SO_3 come from bottom of absorbing tower and NaOH pours with the sprinkle on top of the $SO_2$and SO_3. And they neutralize. At the end they pour to sewage. The reactions are SO_2+2NaOH=Na_2SO_3 +H_2O SO_3+2NaOH=Na_2SO_4+H_2O
P17	Buying and storing	P16	NaOH	External Data	Buying of NaOH and storing. NaOH is mixing constantly with agitator for not blocking pipes.

CONCLUSION

Overall, the implementation of DFDs for the sulfuric acid (H_2SO_4) production emerges as a pivotal strategy for improving efficiency and decision-making processes. The complex analysis of data flow for the production system gives a visual representation of data exchange, enabling a more nuanced understanding of the complicated interactions between various steps of the production. By choosing inputs, outputs and processes, Data Flow Diagrams provides a structured window that gives opportunity for communication among stakeholders, identifies possible streamlines and bottlenecks situations. The application of Data Flow Diagrams in H_2SO_4 production serves as a valuable asset for optimization process, risk management, and defining resource. Defining key information and data flow throughout the Data Flow Diagram makes stakeholders to make important decisions, improve system viability, and ultimately increase productivity overall of the sulfuric acid production.

REFERENCES

1. Li, Q., & Chen, Y.-L. (1970, January 1). *Data Flow Diagram*. SpringerLink. https://link.springer.com/chapter/10.1007/978-3-540-89556-5_4

2. https://www.valcogroup-valves.com/faq-2/sulfuric-acid-manufacturing-process-of-sulfuric-acid/

3. Author links open overlay panelFeng-Yang Kuo a b, a, b, AbstractThis article descirbes an object-oriented methodology for deriving an entity-relationship (ER) model from requirements specified in a data flow diagram (DFD). The methodolgy is top down. It begins with an analysis of the objects described in the D, McMenamin, S. M., Yourdon, E., McFadden, F., Kroenke, D., Coad, P., Gane, C., DeMarco, T., Martin, J., Chen, P., Teorey, T., & Mantha, R. (2003, June 26). *A Methodolgy for deriving an entity-relationship model based on a data flow diagram*. Journal of Systems and Software. https://www.sciencedirect.com/science/article/abs/pii/0164121294900760

4. Author links open overlay panelFeng-Yang Kuo a b, a, b, AbstractThis article descirbes an object-oriented methodology for deriving an entity-relationship (ER) model from requirements specified in a data flow diagram (DFD). The methodolgy is top down. It begins with an analysis of the objects described in the D, McMenamin, S. M., Yourdon, E., McFadden, F., Kroenke, D., Coad, P., Gane, C., DeMarco, T., Martin, J., Chen, P., Teorey, T., & Mantha, R. (2003, June 26). *A Methodolgy for deriving an entity-relationship model based on a data flow diagram*. Journal of Systems and Software. https://www.sciencedirect.com/science/article/abs/pii/0164121294900760

5. Berger, B. J., Sohr, K., & Koschke, R. (1970, January 1). *Automatically extracting threats from extended data flow diagrams*. SpringerLink. https://link.springer.com/chapter/10.1007/978-3-319-30806-7_4

S E K S İ Y A – 3

MALİYYƏ VƏ MÜHASİBAT

-A-

MÜHASİBAT UÇOTUNUN AVTOMATLAŞDIRILMASININ EFFEKTİVLİYİ

Ph.D., Dos. **AĞAMİR ƏSGƏROV**
Bakı Mühəndislik Universiteti, Bakı,Azərbaycan
aesgerov@beu.edu.az

SƏNAN MƏMMƏDOV
Bakı Mühəndislik Universiteti, İqtisadiyyat və İdarəetmə
smemmedov27@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müəssənin mənfəətinin, işçi personalın işinin səməriliyinin artırılması, idaretmənin optimal strukturunun yaradılması hər bir rəhbəri narahat edir. Müəssisə rəhbəri risk və qeyri-müəyyənlik şəraitində qərar qəbul etmək məcburiyyətində olduğu üçün müxtəlif maliyyə-təssərufat sahələrinin fəaliyyətini daim nəzarətdə saxlamalıdır. Bu fəaliyyət böyük miqdarda məlumat olan sənədlərdə öz əksini tapır. Savadlı hazırlanmış və sistemləşdirilmiş sənədlər, müəssisənin müəyyən dərəcədə səmərəli idarəedilməsinə təminatı olur. Əksinə, operativ etibarlı məlumatların olmaması düzgün olmayan idarəçilik qərarlarına gətirib çıxara bilər və nəticədə müəssisə ciddi itkilərlə qarşılaşa bilər.

Mühasibat uçotunda proqram paketlərinin tətbiqi təkcə mühasibat uçotunun avtomatlaşdırılmasına deyil, həmçinin anbar uçotunun aparılmasına, işçilərin əmək haqqının vaxtında hesablanıb-ödənilməsinə, məhsulların təchizatı, istehsalı və realizasyasının idarə olunmasında, müqavilələrin yerinə yetirilməsinin izlənməsinə, müxtəlif səpkidə hesabatlaın vaxtında verilməsinə və s. imkan verir.

Açar sözlər: mühasibatlıq, informasiya sistemi, elektron idarəetmə, avtomatlaşdırma.

GİRİŞ

Mexanikləşmə mühasibat uçotunun aparılmasına müəyyən qədər kömək edir, ancaq onun tam şəkildə operativliyinə nail olmur və nəticədə digər hesabatların hazırlanmasının az vaxt qalmasına səbəb olur. Bu məqsədlə mühasibat uçotunun avtomatlaşdırılmasının bütün tipik məsələlərin həlli üçün tətbiqi proqramlar paketinin hazırlanmağına xüsusi əhəmiyyət verilir.

Kompüterdən istifadə mühasibat uçotu sahəsində işçilərin yükünu bölüşdürmək , onları vaxtaparan kağız sənədləşdirmədən azad edir, təşkilatın maliyyə vəziyyətini yaxşılaşdırılması üzrə analitik işlər üçün vaxtı artırır. Hazırda uçot proseslərinin avtomatlaşdırılması və müasir texniki vasitələri bazasında daha da təkminləşdirilməsi obyektiv zərurətdir.

Mühasibin peşəkar fəaliyyətinin əsas vəsaitlərdən biri informasiya kommunikasiya texnologiyaları olub müəssisədə mühasibat uçotunun avtomatlaşdırılması hesabına uçot-maliyyə fəaliyyətinin aparılmasının səmərəliliyini artırır.

Mühasibat uçotunun avtomatlaşdırılması sistemini, müəssisənin maksimum tələbatını ödəyən, müəssisədə mühasibat uçotu sisteminin aparılmasına uyğun, təklif olunan proqram məhsulları bazarından düzgün seçmək məqsədəuyğundur.

Beləliklə, İnformasiya Kommunikasiya Texnologiyasından istifadə, mühasibin peşə fəaliyyətində onun operativliyi və işinin səmərəliliyini ciddi şəkildə artırır ki, buda müəssisənin fəaliyyətinə yüksək müsbət təsir göstərir.

Mühasibat İnformasiya Sistemi –nin texnoloji emalı ayrı-ayrı texniki və proqram kompleksindən istifadə edilməklə yerinə yetirilir. Proqram təminatı , baza və tətbiqi proqram təminatına bölünür. Texniki vasitələr aşağıdakı siniflərə bölünür:

- Verilənlərin yığılması və registrasiyası,
- Verilənlərin ötürülməsi üçün kompleks vasitələr – kompüter şəbəkələrinin texniki və proqram vasitələri,
- Verilələrin saxlanması vasitələri,
- Verilələrin emalı vasitələri,
- İnformasiyanın çıxışa verilməsi vasitələri.

Mühasibat uçotu İS –nin funksional alt sistemlərindən biri olaraq əsas sahələri aşağıdakılardır:

- Baş kitabın aparılması,
- Pul vəsaitlərinin uçotu,
- Əsas vəsaitlərin uşotu,
- Mal-material qiymətlilərinin uçotu,
- Əmək haqqının uçotu,
- Kontragenylərlə hesablaşmanın mühasibat uçotu,
- Maliyyə hesabatı.

İS –nin arxitekturalarından, verilənlərin mərkəzləşdirilmiş emalı, “fayl-server”, ikisəviyyəli “kliyent-server”, çoxsəviyyəli “fayl-server”i göstərmək olar.

Mühasibat uçotu verilənlərin kompüter emalının xüsiyyətlərini araşdıraq. Müəssisənin istehsal və təsərrüfat fəaliyyətini idarə idarə etmək üçün lazım olan informasiya təminatını, müasir informasiya texnologiyaları bazasında uçot informasiyasının avtomatlaşdırılmış sistemi vasitəsi ilə əldə edilir.Mühasibat informasiya sistemi rəhbərliyə qərar qəbul etməkdə, müəssisənin idarə edilməsi, planlaşdırma, uçot, nəzarət və maliyyə nəticələrinin analizində istifadə imkanı verir. Müəssisənin mühasibat uçotunnu aparılarkən təsərrüfat əməliyyatlarının emalı prosesi onun təşkilati strukturuna, o cümlədən daxili nəzarət metodları və prosedurlarına mühüm təsir göstərir. Kompüter texnologiyası şəraitinin və nəzarət prosedurlarının qiymətləndirilməsində nəzərə alınmalı olan bir sıra xüsusiyyətlərlə səciyyələnir.

Məlumatların kompüter emalı ilə avtomatlaşdırılmamış emalı arasında aşağıdakı fərqləri mövcuddur:

- Eynitipli əməliyyatlarının icrası. Məlumatların avtomatlaşdırılmamış emalından fərqli olaraq kompüter emalı mühasibat uçotunun oxşar əməliyyatları yerinə yetirərkən proqramın eyni bir qrup əmrindən istifadəni nəzərdə tutur ki, buda təsadüfi səhvlər yaranmasını praktiki olaraq istisna edir. Digər tərəfdən, bu tip proqram səhvləri, eyni şərtlər, eyni əməliyyatlar emalını yalnışlığa gətirib çıxarır. - Funksiyaların bölünməsi. Kompüter sistemi daxili nəzarət üçün bir çox prosedurlarlı həyata keçirə bilər, avtomatlaşdırılmamış sistemlərdə bu işi müxtəlif mütəxəssislər yerinə yetirir. Belə vəziyyət mütəxəssislərə kompüterə giriş imkanı olan, digər funksiyalara müdaxilə imkanı saxıayır. Bu hərəkətlərin qarşısını almaq üçün parollar sistemindən istifadə olunur. Parollar işçinin müəssisədə statusundan asılı olaraq sistemdən istifadə (redaktə etmə statusu, ancaq baxış, müəyyən hesabatlarn alınması və s.) imkanı verir.

- Səhvlərin və qeyri-dəqiqliyin aşkarlanması. Avtomatlaşdırılmamış mühasibat uçotu sistemləri ilə müqayisədə kompyuter sistemləri, o cümlədən nəzarəti həyata keçirən şəxslərin icazəsiz istifadəsi üçün daha açıqdır. Nə qədər az insan kompüter əməliyyatlarının uçotuna müdaxilə edir, o qədər bu yanlışlıqları və səhvləri üzə çıxarmaq imkanı az olur. Ümumiyyətlə, tətbiqi proqram paketlərinin hazırlanmasında və ya düzəlişində buraxılan səhvlər, nəzərə çarpmadan uzun müddət qala bilər. -

Administrasiya tərəfindən nəzarətin gücləndiriməsi imkanları. Kompüter sistemləri, rəhbərliyə mühasibat uçotunun əməliyyatlarına nəzarət etmək üçün statistik uçot aparan tətbiqi proqramlar paketlərindən istifadə imkanı verir.

Mühasibat uçotunun avtomatlaşdırılmasının effektivliyi aşağıdakı hallarda nəzərdə tutulur:

- Mühasibat uçotunu "qaydaya salır". Əgər kağız mühasibatlığında hər hansı informasiyanı almaq üçün müəyyən vaxt tələb olunurdusa, kompüterdə demək olar ki, vaxt tələb olunmur,
- Mühasibat uçotundan daha çox infomasiya almaq imkanı yaranır,
- Mühsibatlıqda səhvlərə yol verilməsi azalır,
- Mühasibat uçotunun operativliyi yüksəlir,
- Konkret müəssisənin spesifikasiyasından asılı olaraq digər faktorlar.

Əgər bu hallardan biri baş vermirsə, onda avtomatlaşma mənasızdır – o son nəticə vermədi. Demək olar ki, mühasibat uçotunun avtomatlaşdırılması bir proses olaraq mühasibatlığı kompüterlə idarə edərək müəssisədə mühasibatlığın aparılmasında effektivlik, uçotun keyfiyyatı yüksəlir. Ona görə də, mühasibat uçotunun avtomatlaşdırılması qərarını qəbul etməzdən əvvəl, müəssisədə nəyi və necə, hansı məqsədlə avtomatlaşdırmanı düşünmək lazımdır. Bu məqsədlə müəssisədə mühasibat uçotunun analizi aparılır:

- İstifadə olunan hesablar planı, istifadə olunan konkret hesablar,
- Müxtəlif hesablar üzrə istifadə olunan analitika,
- Tipik təsərrüfat əməliyyatlarını əks etdirmək üçün istifadə olunan tipik müxabirləşmələr,
- İlkin sənədlərin forma və məzmunu,
- Uçot registrlərin forması.

Aydındır ki, analiz yüksək kvalifikasiyalı, mühasibat uçotu və vergilər üzrə təcrübəli mütəxəssis tərəfindən aparıla bilər.

Müəssisənin avtomatlaşdırma miqyasının təyin olunması əsas məsələlərindən biridir. Müəssisənin avtomatlaşdırılma miqyasının təyin olunması dedikdə, mühasibatlığın hansı həcmdə və hansı bölmələrinin avtomatlaşdırmasının başa düşülür. Avtomatlaşdırma miqyasını təyin edərkən nəzərə almaq lazımdır ki, mühasibatlıqdan alınan informasiya müəssisənin digər bölmələrində də istifadə oluna bilsin.

Məsələn, satış şöbəsində:

- alıcılarla hesablaşmaların, məhsulun yüklənib - boşaldılmasının vəziyyəti, Təchizat şöbəsində:
- anbarda qalıq,

Analitik təchizat şöbəsində

- anbarda qalıq və analitikası və s.

Yaxşı avtomatlaşdırılmış mühsibatlıq bütün bu suallara cavab verməlidir, ona görə də, proqramı elə sazlamaq lazımdır ki, müəssisə daxili lazım olan bütün informasiyaları almaq mümkün olsun. Mühasibatlığın avtomatlaşdırılmasında məsələ belə qoyulur: yazılı surətdə mühasibatlığın avtomatlaşdırılması nəticəsində alınacaq sənədlər, registrlər və onlara qoyulan tələblər müəssisənin təsərrüfat xüsusiyyətlərini nəzərə alaraq qeydiyyata götürülür. Məsələnin qoyuluşu çox vacibdir, belə ki, hansı şərtlər əsasında hansı nəticələrin alındığını bilmədən elə sazlanar ki, tələb olunan registrlər və ilkin sənədlər alınmaya bilər.

Proqram seçimində aşağıdakı prinsipləri əsas götürmək məqsədə uyğundur:

- Proqramın imkanları.

Proqram seçilərkən ilk növbədə mühasibatlığın informasiya tutumu nəzərə alınmalıdır. İnformasiya tutumu dedikdə mühasibat əməliyyatlarının, istifadə olunan verilənlər bazasının həcmi nəzərdə tutulur.

- Proqramın verə biləcək faydası və ona çəkilən xərclər.

Proqramın istifadəsindən alınan effekt, bu proqram əldə olunması tamamlanması, uyğunlaşması, personalın öyrədilməsinə çəkilən xərclərdən üstün olmalıdır

- Verilənlərə nəzarət və təhlükəsizliyin təminatı.

Proqramda istifadə olunan verlənləriə icazəsiz daxil olmaların, təsadüfi olaraq verilənlərin pozulması hallarının olmaması, mühasibat verilənləri saxlayan fayllarının arxiv surətləri yaratması və daxil olan verilənlərə nəzarət edilməsi.

- Uyğunluq.

Alınan proqram konkret müəssisənin təşkilati strukturu ilə uyğun olmalı və ya proqramın həmin müəssisə üçün sazlanma imkanı olmalıdır.

- Çeviklik.

Proqram seçimi zamanı nəzərdə tutmaq lazımdır ki, o, standart müxabirləşmələri və əməliyyatların hesablar planının nizamlanmasına, yeni və artıq mövcud olan hesabat formalarını redaktə etməyə imkan verir.

- Vergi qanunvericiliyində dəyişikliyin operativ olaraq nəzərə alınması.
- Böyük ölçülü massivlərin sürətli email.
- Real vaxt rejimində iş.
- Proqramçı ilə əlaqə, sənədləşdirilməsi.

Proqram sənədləri ətraflı və istifadədəçi üçün tam anlaşıqlı olmalıdır. Personalın proqramdan istifadəi vaxtı qarşıya çıxan suallarla əlaqədar müraciət etmək imkanı və lazımi məlumat alınması.

Mühasibat uçotunun İS -nin metodologiyası aşağıdakılardan ibarətdir:

- respublikada mühasibat uçotunun İS -nin metodik həyata keçirilməsinin təmin edilməsi və normativlərlə tənzimlənməsi sistemi;
- mühasibat uçotu informasiya sisteminin normativlərinin həyata keçirilməsi və uçotu qaydalarının metodiki təminatı; - müəssisənin uçot siyasətinin seçilməsi;
- işçi hesablar planının formalaşdırılması;
- mühasibat uçotu formalarının seçilməsi;
- əsas vəsaitlər və qeyri-maddi aktivlərin amortizasiyası üzrə köhnəlmə hesablanması metodlarının seçilməsi;
- İstehsal ehtiyatlarının uçot metodlarının seçimi
- faktiki maya dəyəri ilə, hesabaalma qiymətləri üzrə; İstehsal üçün xərclərin silinməsi üsulu;
- İstifadə olunmuş istehsal ehtiyatları, bitməmiş istehsal, hazır məhsulların qiymətləndirilməsi metodlarının seçilməsi;
- analitik uçotun informasiya-məlumat sisteminin sazlanması;
- tipik əməliyyatların və mühasibat müxabirləşmələrinin sazlanması;
- ilkin uçot sənədlərinin tipik formalarının sazlanması;
- standart hesabatların (xarici və daxili) sazlanması;
- mühasibat uçotunun beynəlxalq standartların tələblərinin həyata keçirilməsi. Mühasibat uçotunun informasiya texnologiyaları:
- mühasibat uçotunun İS-nin aparat və proqram təminatı;
- proqram kompleksinin informasiya-texnoloji arxitekturası;
- proqram kompleksinin modul arxitekturası;
- proqram modullarının avtonom olaraq istifadə imkanı;
- digər İS ilə ilə qarşılıqlı əlaqələrin yaradılması;
- personalın İS ilə işləmə səviyyəsinə tələbat;

Aparılan qeyri-rəsmi sorğu əsasında Respublikada mühasibat uçotunun aparılmasında kompüter texnologiyasından istifadəyə görə vergi ödəyicilərini dörd qrupa bölmək olar:

Birinci qrupa vergi ödəyiciləri əsasən kiçik və bir sıra orta müəssisələrdə, xüsusilədə, əmək haqqı və anbarın uçotu "Excel" cədvəl prosessorundan istifadə olunmaqla aparılır. Adətən bu müəssisələrdə mühasibatlığın informasiya tutumu böyük olmur. Bu tip təşkilatlara mağazaları, ictimayi iaşə obyektlərini, müxtəlif xidmət sahələrini göstərmək olar.

İkinci qrupa müəyyən təşkilatın iş spesifikasiyasına uyğun sifariş olunan proqramlar əsasında işləyən və ya müəyyən sahə üçün hazırlanmış mövcud proqramlardan istifadə edənlər aiddir. Bu proqramlara restoranlar, müxtəlif ticarət və iaşə obyektləri üçün hazırlanmış proqramları göstərmək olar.

Üçüncü qrupa xüsusilədə korporativ şəbəkələrdə istifadə olunan proqram paketlərini qeyd etmək olar. Bu proqramlardan SAP (məsələn, Azərbaycan Dövlət Neft Şirkətində), SUN (məsələn, Azpetrol şirkətində).

Dördüncü qrupa respublikada ən çox istifadə olunan "1C", "AzMühasib", "Günəş" proqramlarını aid etmək olar. Bu proqramlar üzərində bir qədər dayanaq.

"AzMuhasib" mühasibat uçotu proqramı "Araz Computer" firmasının məhsuludur. Azərbaycan dilində hazırlanmış "AzMuhasib" proqramları paketi Azərbaycanda ilk sistemli mühasibat uçotu proqramlarandan biridir desək yanılmarıq.

"AzMuhasib " proqramı fəaliyyət sahəsindən asılı olmayaraq hüquqi fiziki şəxslərin büdcə, qeyri-hökümət qurumlarının mühasibat uçotunun avtomatlaşdırılması üçün hazırlanmışdır. Proqram vasitəsi ilə bütün növ təşkilatların hesablar planı əsasında Milli Mühasibat Uçotu Standartlarına (MMUS) və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standatlarına əsaslanan uçotu təşkil etmək mümkündür. Digər sistemlərlə informasiya mübadiləsi yaratmaq üçün cədvəllərin və hesabatların formalarının Excel cədvəl prossesoruna eksportu mümkündür.

Proqram kompleksi "AzMuhasib", "Anbar", "AzMuhasib-Ticarət", "Əsas vəsaitlər" və başqa proqram paketləridir ki, bunların hərəsi ayrı-ayrılıqda mühasibatlığın konkret bir sahəsinin avtomatlaşdırılmasını yerinə yetirir.

“Günəş” proqramı müəssisədə mühasibatlğı iki istiqamətdə, sintetik və analitik uçot istigamətində aparır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün qəbul olunmuş formada balansı tərtib edir. Balans onun elementləri analitik ucotdan istifadə edilməklə Baş kitabın əsasında hazırlanır. Obyektin strukturu, onun xüsusi eleməntləri əsasında analitik uçot, daha sonra sintetik uçot qurulur. Mühasibat uçotunda daxili informasiyalar bir-birindən fərqlənən sahələrə bölündüyü üçün “Günəş” sistemində həmin modullar günəş sisteminin planetlərinin adları ilə adlandırılıb. Başqa sözlə Günəşin elementləri, mühasibatlığın konkret məsələsi üçün nəzərdə tutulmuşdur. Buna işçilərin əmək haqqı, materialların uçotu, əsas vəsaitlər və onların amortizasiyasını misal göstərmək olar.

Rusiyanin 1C şirkəti tərəfindən hazırlanmış, Azərbaycanda ən çox istifadə olunan mühasibat proqramlardan biridir. "1C:Предприятие" proqramı mühasibat, əmək haqqı, kadrlar, ticarət, anbar və istehsalat uçotunun təşkil edir. "1C:Бухгалтерия 8" proqram sistemi texnoloji platforma olan "1C:Предприятие 8" və "Бухгалтерия предприятия" konfiqurasiyasından ibarətdir. "1C:Предприятие 8" proqram sistemi təşkilatların və ayrı-ayrı şəxslərin fəaliyyətinin avtomatlaşdırılması üçün müxtəlif sahələrdə istifadə olunur: - Istehsalat və ticarət müəssisələrinin, büdcə-maliyyə təşkilatlarının, xidmət sahələrinin və s. avtomatlaşdırılmasında , - Müəssisənin operativ idarə olunmasını təmin edir, - Ixtiyari uçot hesablar planında mühasibat uçotunun avtomatlaşmasını təmin edir, - İdarəetmə, analitik və çoxvalyutalı uçotun aparılmasında, - Planlaşdırma və maliyyə analizinin aparılmasında, - Əmək haqqının hesablamaı və personalın idarə olunmasında və s.

Kompüter təcrübəli və savadlı mühasibi əvəz edə bilməz, lakin mühasibat uçotunu qaydaya salmağa imkan verir, mühasibat uçotunun operativliyini artırır, hesablamada buraxılan səhvlərin sayını azaldır, müəssənin cari maliyyə vəziyyətini və onun perspektivliyini qiymətləndirir.

TƏDQİQAT METODU

Bu məqalədə, mühasibat uçotunun avtomatlaşdırılmasının effektivliyini dəyərləndirmək üçün kitablardan, elmi əsərlərdən və tanınmış jurnallardan götürülmüş məlumatlar təqdim olunur.

NƏTİCƏ

Nəticə olaraq aşağıdakıları qeyd edək :

- Mühasibat uçotunun avtomatlaşdırılmış sisteminin tətbiqi hüquqi və fiziki şəxslərin vergi, maliyyə, digər hesabatlarının aparılmasında mühüm rol oynayır. Bu proqramlar lazımi məlumatların tez zamanda ümumiləşdirməyə və fəaliyyət göstəriciləri barədə operativ olaraq hesabatlar əldə etməyə imkan verir ki, buda mühasahibin əməyini xeyli yüngülləşdirmişdir,
- Uçotun avtomatlaşdırılması üçün hazırlanan proqram təminatının sayəsində mühasibatlıq üzrə işçilər ştatına edilən məsrəfləri əhəmiyyətli dərəcədə azaltmaq olur. Artıq kağız, jurnal və cədvəl doldurmaq zərurəti bu gün daha yoxdur. Indi əsas çətinlik mühasibin müvafiq proqramı bilmək, proqramın bütün imkanlarından istifadə etmək bacarığından ibarətdir. Mühasibatlıq işinin avtomatlaşdırılmanın əsas vəzifələri ilkin uçot sənədlərinin işlənməsi və yekun hesabatın formalaşmasından ibarətdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov Q.Ə. , Səbzəliyev S.M., Daşdəmirov A.İ., Quliyev V.M., Sadıqov Ə.A. «Mühasibat (maliyyə) uçotu» , Dərslik, Bakı, 2003.
2. Rzayev Z.H.,Hüseynov O. S. Real vaxt rejimində audit və onun Azərbaycanda tətbiqi imkanları , Vergi jurnalı 4(124)/2015.
3. www.farabi.az "Büdcə Təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış sistemi
4. The invisible accounting side of ERP systems
5. https://ideas.repec.org/a/kab/journl/y2017i6p6-13.html

YAPONIYA VƏ AZƏRBAYCANIN VERGI SISTEMININ MÜQAYISƏLI TƏHLILI

AZAD VƏLIYEV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə fakultəsi
MBA,Mühasibat uçotu və Audit
azadvaliyev.m@gmail.com
Elmi rəhbər: Iqtisad elmləri doktoru, Professor Saleh Məmmədov
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Dünyanın demək olar ki, hər bir ölkəsində olduğu kimi vergilər dövlətin və hakimiyyətin maliyyə gəlirləri üçün əsas mənbə olmaqla iqtisadi siyasəti və sosial bərabərliyi tənzimləmək üçün vasitədir. Vergilər ölkələr arasında müxtəlif ola bilər.Vergi sistemi vergi növlərini, vergi dərəcələrini, vergi məsuliyyətlərini, vergi məsələlərinin həlli və vergi müqavilələrini əhatə edir və ölkənin iqtisadi inkişafına, sosial rifahına, müdafiyəyə və beynəlxalq əməkdaşlığa təsir edir. Bu tədqiqat, dünyanın ən güclü və inkişaf etmiş sistemlərindən biri olan Yaponiya vergi sisteminin müasir iqtisadi və siyasi mühitindəki rolu və təsirini təhlil etməyə, həmçinin tətbiq olunan vergi dərəcələri timsalında Azərbaycan vergi sistemi ilə müqayisəli analizinə həsr olunmuşdur. Yapon vergi sistemi, dünya iqtisadiyyatında özünü təqdim etmiş və diqqət çəkmış bir modeldir. Tədqiqatın əsas məqsədi, Yaponiya vergi sisteminin əsas xüsusiyyətlərini və inkişaf perspektivlərini qiymətləndirmək, Azərbaycanın vergi sistemi ilə müqayisədə fərqlilikləri qeyd etmək mövcud yenilikləri müzakirə etməkdir.Tədqiqat, Yapon vergi sisteminin strukturunu, tətbiq olunan vergilərin nümunəsində ölkənin müasir vəziyyətini və iqtisadi siyasəti haqqında təsəvvür yaratmağa və anlamağa kömək edə bilər.

Praktiki əhəmiyyəti, tədqiqatın Yaponiya vergi sistemi haqqında əldə edilmiş nəticələrin, ölkənin vergi siyasətini, strukturunu formalaşdırmağa və təkmilləşdirməyə nail olmağa yardımçı ola bilər. Bu tədqiqatın nəticələri, iqtisadi mütəxəssislər, qərar qəbul edənlər və ümumiyyətlə Yaponiyada biznes fəaliyyəti qurmağı planlaşdıran və maraqlı tərəflər üçün də faydalı ola bilər.

AÇAR SÖZLƏR: YAPONIYA, vergi sistemi, Azərbaycan

COMPORATIVE ANALYSIS OF THE TAX SYSTEM OF JAPAN AND AZERBAIJAN

ABSTRACT

As in almost all countries of the world, taxes are the main source of financial revenue for the state and government, as well as a means of regulating economic policy and social equality. Taxes may vary by country. The tax system includes types of taxes, tax rates, tax liabilities, tax calculations and tax treaties and affects a country's economic development, social security, defense and international cooperation. This study is devoted to the analysis of the role and influence of the Japanese tax system, which is one of the most powerful and developed systems in the world, in the modern economic and political environment, as well as a comparative analysis with the tax system of Azerbaijan in terms of tax rates. The Japanese tax system is a model that has proven itself and attracted attention in the global

economy. The main purpose of the study is to assess the main characteristics and development prospects of the Japanese tax system, note the differences in comparison with the Azerbaijani tax system, and also discuss current innovations.

The practical significance of the results of the study of the Japanese tax system can be useful in the formation and improvement of the country's tax policy and structure. The results of this study may also be useful to economic experts, decision makers and stakeholders who plan to do business in Japan in general.

KEYWORDS: JAPAN, tax system, Azerbaijan

GIRIŞ

Tədqiqat işində Yaponiya vergi sistemi haqqında qisa məlumat verilir və Azərbaycanın vergi sistemi ilə əsasən vergi dərəcələrinin müqayisəli təhlili göstərilir. Təhlil ümumi olaraq əsas vergilərin, yəni fiziki şəxslərin gəlir vergisi, korporativ vergi, ƏDV, miras vergisi, əmlak, ödəmə mənbəyində tutulan vergilərin müqayisəsinə həsr olunub.

Yaponiyanın vergi sistemi vergi ödəyicisinin gəlir səviyyəsindən, mənbəyindən və yaşayış yerindən asılı olaraq dəyişən çoxlu müxtəlif vergi növləri və dərəcələri ilə dünyanın ən mürəkkəb sistemlərindən biridir. Yaponiyanın vergi sistemini vergi yükü, vergi strukturu, vergi rəqabət qabiliyyəti və vergi səmərəliliyi baxımından digər ölkələrin sistemləri ilə müqayisə etmək olar. Vergilər Yaponiyada ən çox müzakirə olunan mövzulardandır. Burada çoxlu sayda kitablar, jurnallar dərc edilir. Əhali vergilərin hara yönəldiyi haqda çox geniş şəkildə məlumatladırılır. Paralell olaraq vergi ödəmələrinin vacibliyi barədə məlumat verilir. Vergi yığımında əsas problem – onun mürəkkəbliyidir. Burada 30 növ yerli və 25 dövlət vergisi mövcuddur. Hər bir bölgə öz vergi növünü və dərəcəsini təyin edə bilər. Avropa ölkələrindən fərqli olaraq Yaponiyada dövlət gəlirlərinin əsas hissəsini gəlirlərdən tutulan vergilər-korporasiyaların mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisi təşkil edir. Bütün vergi daxilolmalarının 64%-i milli vergilərinin, 36%-i isə yerli vergilərin payına düşür. Yaponiya vergi sistemi ölkənin Maliyyə Naziriliyi tərəfindən idarə edilir. Burada iki bölmə - Milli Vergi Agentliyi ilə Gömrük və digər dövlət rüsumlarının yığımı ilə məşğul olan büro fəaliyyət göstərir. Onlar təqdiqat və planlaşdırma prosesinə cəvabdehlik daşıyırlar (o cümlədən vergi qanunlarının hazırlanması). Bura həm də vergi cinayətlərinin araşdırılması, müfəttişlərin sertifikatlandırılması və s. aiddir. Yaponiyada vergi siyasətinin tətbiqi, vergi yığımı ilə bilavasitə Milli Vergi Agentliyi məşğuldur. O, 1949 ildə amerikan nümunəsi əsasında yaradılıb və mərkəzi aparatdan (1464 işçi), 12 regional büro və 524 yerli şöbədən ibarətdir (55 644 işçi). Yaponiya vergi sistemi proqressiv vergi dərəcələrinə əsaslanır. O, aşağı gəlirlər üçün daha aşağı vergi dərəcəsi, yüksək gəliri olanlara isə yüksək vergi dərəcəsini tətbiq edir.

Proqressiv vergilər, xüsusən də birbaşa gəlir vergiləri hökumətlər üçün qısa müddətdə bərabərsizliyi azaltmaq üçün əsas kanaldır. Bu, vergilərin, transfertlərin və subsidiyaların ölkələr üzrə bərabərsizliyə necə təsir etdiyinə dair ətraflı müzakirəni özündə əks etdirən Dünya Bankının son Yoxsulluq və Ortaq Rifah Hesabatında vurğulanıb (Hoy & Bronchi, 2022).Vergi sisteminin strukturu milli və yerli vergilərdən ibarətdir. Yerli vergilər də Bələdiyyə və Prefektur vergilərə ayrılır. Yapon vergilərinin klassifikasiyasına görə əsas olmaqla korporativ vergilər, fiziki şəxslərin gəlir vergisi, vərəsəlik, hədiyyə, əmlak vergiləri və s., dolayi olaraq, istehlak vergisi, gömrük vergisi, qeydiyyat və lisenziya vergiləri və s. milli vergilərə aiddir. Yerli vergilərə yaşayış, əmlak, sahibkarlıq və s. həmçinin dolayı vergi kimi istehlak vergisi daxildir.

TƏDQIQAT METODU

Tədqiqat işində statistik təhlil, qruplaşma və müqayisə metodlarından istifadə edilmişdir.

Fiziki şəxslərin gəlir vergisi

Yaponiyada 5%-dən (¥1,000 - ¥1,949,000) 45%-ə (¥40,000,000 çox – çıxılma ¥4,796,000) qədər olan proqressiv vergi dərəcələri tətbiq olunur. Yaponiyada daimi rezident vergi ödəyiciləri dünya üzrə gəlirlərinə görə vergiyə cəlb olunurlar. Qeyri-rezident vergi ödəyiciləri yalnız Yaponiyadan əldə etdikləri gəlirlərə görə vergiyə cəlb olunurlar. Əlavə vergi 1 yanvar 2013-cü il tarixində qüvvəyə minmişdir və fiziki şəxsin milli gəlir vergisi üzrə hesablanan 2,1% vergidən ibarətdir.

Yerli gəlir vergiləri

Ümumiyyətlə, Yaponiyada yerli sakin vergisi 10% sabit dərəcə ilə tətbiq edilir. Yapon yerli hökumətləri (prefektura və bələdiyyə) vergi ödəyicisinin əvvəlki il gəlirindən yerli sakinlərdən vergi alır. Bu, vergi ödəyicisi cari ilin 1 yanvar tarixinə Yaponiyanın rezidenti olduqda tətbiq edilir. Yerli sakinlərin vergi məqsədləri üçün adambaşına bərabər vergi də hesablanır. Standart illik məbləğ 5,000 JPY-dir, baxmayaraq ki, bu, vergi ödəyicisinin yaşadığı prefektura və bələdiyyədən asılı olaraq dəyişə bilər. Yerli sakinlərin vergisi çıxılmır.

Qeyri-rezidentlər

Qeyri-rezident vergi ödəyicisinin Yaponiya mənbəyindən əldə etdiyi kompensasiya (məşğulluq gəliri) heç bir ayırma olmadan ümumi kompensasiya üzrə 20,42% milli gəlir vergisinə tabedir. Bu dərəcəyə yuxarıda təsvir edilən əlavə verginin 2,1%-i daxildir (20% × 102,1% = 20,42%). Qeyri-rezident vergi ödəyicisi növbəti il yanvarın 1-dən yerli bələdiyyənin uçot kitabında rezident kimi qeydiyyata alındıqda, 10% dərəcəsi ilə yerli sakin vergisinə cəlb edilə bilər.Azərbaycanda fiziki şəxslərin gəlir vergisi muzdlu işlə əlaqədar gəlirlərə və müzdlu işə aid olmayan gəlirlərə (faiz gəliri, dividend, əmlakın icarəyə verilməsindən gəlir, royalti və s.) bölünür. Muzdlu işin aylıq gəlirləri 2,500 manata qədər 14%, 2,500 manatdan artıq olduqda 350 man.+2,500 manatdan artıq məbləğin 25%-i miqdarında vergi tutulur. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 2019-cu il yanvarın 1-dən 7 il müddətində gəlir 8,000 man. qədər olduqda 0%, 8,000 manatdan çox olduqda isə 8,000 manatdan çox olan məbləğin 25%-i vergiyə cəlb olunur. Muzdlu işə aid olmayan gəlirlərə qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən 14 faiz dərəcə ilə vergi tutulur. Vergi Məcəlləsinin 102-ci maddəsinə əsasən gəlir vergisindən azadolmalar və güzəştlər mövcuddur.

Aşağıda göstərilən şəkildə hər iki ölkədə fiziki şəxslərin gəlir vergisində tətbiq olunan vergi dərəcələri qeyd olunan zaman kəsiyində müqayisə olunmuşdur.Azərbaycanda fiziki şəxslərin gəlir vergisi maksimum 25%-dir və uzun müddətdir dəyişməz qalır, Yaponiyada isə vergi dərəcələrində artım qeyd olunur və trend analizi də bu tendensiyanı göstərir.



Şəkil 1. Yaponiya və Azərbaycanda fiziki şəxslərin gəlir vergisi müqayisəli tendensiyaları
Mənbə: *Tradingeconomics.com*

Korporativ vergilər

Yaponiyada korporativ vergilər aşağıda göstərilən şəkildə hesablanır. Xüsusi korporativ biznes vergisi milli vergi olmağına baxmayaraq müəssisə vergisi ilə birlikdə yerli hökümətə bəyan edilir və ödənilir.Effektiv vergi dərəcəsi müəssisə vergisi və xüsusi korporativ biznes vergisi çıxıldıqdan sonra hesablanır.

	100 milyon JPY və ya daha az ödənilmiş kapital Paid-in capital of JPY 100 million or less	100 milyon JPY-dən çox ödənilmiş kapital Paid-in capital in excess of JPY 100 million
Korporativ vergi (milli vergi) Corporate tax	23.20%	23.20%
Yerli korporativ vergi (milli vergi) Local corporate tax	2.390% (23.2%x10.3%)	2.390% (23.2%x10.3%)
Müəssisə vergisi (yerli vergi) Enterprise tax	7.48%	1.18%
Xüsusi korporativ biznes vergisi (milli vergi) Special corporate business tax	2.59% (7.0%x37)	2.600% (1.0%x260%)
Əhali vergisi (yerli vergi) Inhabitants' tax	2.413% (23.2%x10.3%)	2.413% (23.2%x10.3%)
Cəmi Total	38.07%	31.78%
Effektiv qanunla müəyyən edilmiş vergi dərəcəsi Effective Statutory tax rate	34.59%	30.62%

Şəkil 2. Yaponiya korporativ vergilərin strukturunun tərkibi
Mənbə: *Taxsummariespwc.com*

Azərbaycanda Korporativ vergi Hüquqi şəxslərin mənfəət vergisi adlanır və vergi dərəcəsi sabit olaraq 20 faiz təyin olunmuşdur. Vergi Məcəlləsinin 106-cı maddəsinə əsasən mənfəət vergisindən azadolmalar və güzəştlər mövcuddur. Şəkil.2-də hər iki ölkədə korporativ mənfəət vergisində tətbiq olunan vergi dərəcələri qeyd olunan zaman kəsiyində müqayisə olunmuşdur.Azərbaycanda hüquqi şəxslərin mənfəət vergisi sabitdir və dəyişməz qalır, Yaponiyada isə korporativ vergi daha mürəkkəb olaraq müxtəlif vergilərin cəmindən (bəzi vergilər çıxılmaqla) formalaşır. Korporativ vergilərin effektiv vergi dərəcəsi həmçinin korporasiyanın kapital strukturundan və fəaliyyət göstərdiyi ərazidən də asılı olaraq dəyişə bilər, həmçinin müxtəlif göstəricilərə görə güzəştlər və çıxılmalar mümkündür. Qrafikdə Yapon korporativ vergi dərəcələrinin əvvəl daha yüksək olduğu və illər üzrə bir qədər azalmasını qeyd edə bilərik.



Şəkil 3. Yaponiya və Azərbaycanda korporativ vergilərin müqayisəsi
Mənbə: *Tradingeconomics.com*

İstehlak vergisi (ƏDV)

Yaponiyanın istehlak vergisi (əlavə dəyər vergisi və ya ƏDV) biznes müəssisəsi Yaponiyaya xidmətlər göstərdikdə və ya mal idxal etdikdə və ölkə daxilində xidmətlər və mal satıçı ilə məşğul olan müəssisələrdən tutulur. Vergi dərəcəsi 10% təşkil edir, lakin 8% -lik daha aşağı nisbət qida və içkilərə

(restoranlarda və spirtli içkilər alındıqda istisna olmaqla) və müəyyən meyarlara cavab verən qəzet abunələrinə aiddir. İxrac və qeyri-rezidentlərə müəyyən xidmətlər sıfır dərəcə ilə vergiyə cəlb edilir. Torpağın alqı-satqısı və ya icarəsi, qiymətli kağızların satışı və dövlət xidmətlərinin göstərilməsi kimi konkret əməliyyatlar vergiyə cəlb edilmir.

ƏDV-nin Geri qaytarılması sxeminə əsasən, müvafiq hüquqi və fiziki şəxslər uyğun biznes xərcləri və investisiyalar üzrə çəkilmiş ƏDV-nin geri qaytarılmasını tələb edə bilərlər. Bu sxemin məqsədi müəyyən sektorlar üzrə ƏDV yükünü yüngülləşdirmək və BƏƏ-də iqtisadi artımı təşviq etməkdir.

ƏDV kompensasiyasına uyğun olmaq üçün müəssisələr və fiziki şəxslər Federal Vergi İdarəsi (FTA) tərəfindən müəyyən edilmiş müəyyən meyarlara cavab verməlidirlər. Bu meyarlar ərizəçinin konkret vəziyyətindən və sektorundan asılı olaraq dəyişə bilər.

ƏDV kompensasiyası üçün bəzi ümumi meyarlara aşağıdakılar daxildir:

1. Minimum xərcləmə həddi: Genəl olaraq hüquqi və ya fiziki şəxslərin ƏDV kompensasiyası almaq hüququna malik olması üçün minimum xərc həddi vardır.
2. Uyğun xərclər: Yalnız uyğun biznes məqsədləri üçün çəkilmiş xüsusi xərclər ƏDV kompensasiyası üçün uyğundur. Buraya işgüzar səfərlər, ticarət sərgisində iştirak və müəyyən investisiyalar kimi xərclər daxil ola bilər.
3. Vaxt çərçivəsi: ƏDV kompensasiyası adətən müəyyən müddət ərzində mövcuddur. Müraciət edənlər iddialarını müəyyən edilmiş müddətdə təqdim etməli və bütün tələb olunan sənədləri təqdim etməlidirlər.

Turistlər, əcnəbilər və sakinlər satış nöqtəsində ƏDV ödəyirlər. 2018-ci ilin noyabr ayından etibarən uyğun səyahətçilər ƏDV ilə alınmış əşyaların geri qaytarılmasını tələb edə bilərlər. Turistlər hava limanlarında, dəniz və sərhəd limanlarında quraşdırılmış xüsusi cihazdan istifadə edərək pullarını geri ala bilərlər. Cihazlar istehlakçılara geri qaytarma proqramında iştirak edən müəssisələrdən aldıqları alışlar üçün vergi hesab-fakturalarını, pasport və kredit kartının surətlərini elektron şəkildə təqdim etməyə imkan verir.

BƏƏ-də istehlak vergisi

Əmirlik 2017-ci ildən etibarən istehlak vergisini tətbiq edib. Bu, dövlətin insan sağlamlığına və ya ətraf mühitə zərərli hesab etdiyi mallardan alınan dolayı vergidir. Bu verginin tətbiq olunduğu mallar:

- Qazlı içkilər üçün (ətirsiz mineral sudan başqa) 50%. Bu vergi qazlı içkinin əsasını təşkil edə biləcək maddələrdən də alına bilər.
- Kofein, taurin, jenşen və quarana kimi stimulyatorları ehtiva edən enerji içkilərinə 100 %. Bu, enerji içkisinin əsasını təşkil edə biləcək qidalara da aid edilir.
- Tütün və tütün məmulatları üzrə 100%.

Əcnəbilər üçün BƏƏ vergi sistemi

Yaşayış statusundan asılı olmayaraq BƏƏ-də işləyənlərdən gəlir vergisi tutulmur. Bununla belə, vergi rezidenti olmayan vergi ödəyiciləri öz vergi qanunlarından asılı olaraq, yaşadıqları ölkədə gəlir vergisini ödəməyə davam edə bilərlər.

BƏƏ-nin təxminən 137 ölkə ilə ikiqat vergitutma müqavilələri var, o cümlədən: Əlcəzair, Ermənistan, Avstriya, Azərbaycan, Belarus, Belçika, Bosniya və Herseqovina, Bolqarıstan, Kanada, Çin, Çexiya, Misir, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Almaniya, Hindistan, İndoneziya, İrlandiya, İtaliya, Qazaxıstan, Koreya Respublikası , Latviya, Livan, Lüksemburq, Malayziya, Malta, Mavrikiy, Monteneqro, Mərakeş, Mozambik, Hollandiya, Yeni Zelandiya, Pakistan, Panama, Filippin, Polşa, Portuqaliya, Rumıniya, Serbiya, Seyşel adaları, Sinqapur, İspaniya, Şri-Lanka, Sudan, Sudan, Suriya, Tacikistan, Tailand, Tunis, Türkiyə, Türkmənistan, Ukrayna, Özbəkistan, Venesuela, Vyetnam və Yəmən.

BƏƏ sakinləri beynəlxalq pensiya planlarına görə vergiyə cəlb edilmir.

BƏƏ Avtomatik Məlumat Mübadiləsi (AEOI) üçün qlobal standart olan Ümumi Hesabat Standartını (CRS) imzalayıb. CRS mahiyyətcə ölkələrə vergi məlumatlarını üzvlər arasında paylaşmağa imkan verən hüquqi standartdır. Bu, vergidən yayınma araşdırmaları kimi şeylər üçün faydalı ola bilər.

BƏƏ-də əmlak və sərvət vergisi

BƏƏ-nin kapital mənfəət vergisi

Bir qayda olaraq, gəlir və ya bank vergisinə tabe olan bir şirkət tərəfindən satışdan əldə edilmədikdə, BƏƏ-də kapital artımı vergisi yoxdur.

BƏƏ-də əmlak transferi vergisi

BƏƏ-də mülkiyyətin ötürülməsi üçün rüsum alınır. Bu rüsumun dərəcəsi əmirlikdən asılıdır (məsələn, Dubayda 4%). Alıcı və satıcı yükü bölüşsələr də, adətən köçürmə haqqını alıcı ödəyir.

BƏƏ-də bələdiyyə/icarə vergisi

BƏƏ-də bələdiyyələr yerli idarəetmənin müxtəlif aspektlərinə, o cümlədən bələdiyyə öhdəliklərinin toplanmasına nəzarət etmək və tənzimləməkdə mühüm rol oynayırlar. Bələdiyyələr öz yurisdiksiyaları daxilində infrastrukturun, ictimai xidmətlərin və kommunal xidmətlərin təmin edilməsinə və saxlanmasına cavabdehdirlər.

Bələdiyyə rüsumları və ya vergiləri kimi tanınan bələdiyyə öhdəlikləri bələdiyyələr tərəfindən tutulur və əmirlikdən və konkret bölgədən asılı olaraq dəyişə bilər. Bu ödənişlər adətən bələdiyyə daxilində fəaliyyət göstərən mülkiyyət sahibləri, kirayəçilər və ya müəssisələrə tətbiq edilir. BƏƏ-də ümumi bələdiyyə öhdəlikləri aşağıdakıları əhatə edə bilər:

1. Əmlak Vergiləri: BƏƏ-də əmlak sahiblərindən əmlakın yerləşdiyi bələdiyyəyə illik əmlak vergisi ödəmələri tələb oluna bilər. Vergi məbləği ümumiyyətlə əmlakın dəyərinin faizidir və əmlak sahibi tərəfindən ödənilir.
2. Ticarət Lisenziyası Haqqları: BƏƏ-də fəaliyyət göstərən müəssisələrdən ticarət lisenziyası alması tələb olunur və bələdiyyələr bu lisenziyaların verilməsi və yenilənməsi üçün rüsumlar qoyurlar. Ödənişlər biznesin növünə və ölçüsünə görə dəyişə bilər.
3. Bələdiyyə xidmətlərinin haqları: Bələdiyyələr tullantıların idarə edilməsi, küçələrin təmizlənməsi, abadlıq və digər bələdiyyə xidmətləri kimi xidmətlərə görə ödənişlər ala bilər. Bu ödənişlər çox vaxt əmlakın və ya biznesin növünə və ölçüsünə əsasən təyin olunur.

İcarə öhdəlikləri ilə əlaqədar olaraq, ev sahibləri və kirayəçilər BƏƏ qanunlarına əsasən müəyyən hüquq və vəzifələrə malikdirlər. İcarə müqavilələrində icarə məbləği, şərtləri və bununla bağlı hər hansı öhdəliklər aydın şəkildə göstərilməlidir. İcarə müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, adətən, kirayəçilər icarə haqqını, kommunal ödənişləri və bələdiyyə haqlarını ödəmək üçün məsuliyyət daşıyırlar.

Daha əvvəl qeyd edildiyi kimi, Əmirliklərdə kirayə əmlak vergiləri dəyişir. Dubayda yaşayan kirayəçilər illik kirayə haqqının 5%-ni icarə vergisi kimi ödəyirlər, kommersiya kirayəçiləri isə 10%

əmlak vergisinə tabedirlər. Bu arada, BƏƏ vətəndaşları Əbu-Dabidəki mülklərinə görə heç bir vergi ödəmirlər, xarici həmkarları isə 3% vergi ödəyirlər. Eynilə, Şarjadakı bütün kirayəçilər 2% icarə vergisi ödəyirlər.

BƏƏ idxal və ixrac vergiləri

BƏƏ-də məcburidir: Əksər məhsullardan dəyərinin 5%-i həcmində gömrük rüsumları, sığorta və yük haqqları (CIF) tutulur. Bəzi kateqoriyalar vergidən azad edilsə də, spirtli içkilər 50%, tütün məmulatları isə 100% vergiyə cəlb edilir. Bundan əlavə, benzin 5% ƏDV-yə tabedir.

Ölkədə gəlir vergisi olmadığı üçün bir çox insanın mühasib kimi işə götürülməsinə ehtiyac yoxdur – gəlir vergisi formaları yoxdur. Bununla belə, böyük biznesə sahib olanlar üçün biznesin vergi öhdəliyi ilə bağlı müstəqil maliyyə məsləhəti axtarmaq hələ də vacibdir.

Nəticə:

Birləşmiş Ərəb Əmirliklərində tətbiq olunan vergi sistemi, ölkədə biznes əməliyyatları üçün müsbət bir mühit yaranmasına səbəb olmuşdur. Azad iqtisadi zonalar və mənfəət vergisi tətbiqatları, özəlliklə xarici investorları cəlb etmək və yerli sahibkarlığı dəstəkləmək məqsədilə tətbiq olunmuş effektiv vergi tədbirləridir. Gəlir və əmlak vergiləri minimal səviyyədədir və müstəqil iş fəaliyyəti üçün əhəmiyyətli bir fərqlilik təşkil edir. Turizm vergisi və əlavə dəyər vergisi kimi sahələrdəki vergilər, ölkənin turizm və xidmət sektorlarının inkişafını dəstəkləmək məqsədilə tətbiq olunmuş strateji vergilələrdi. Bu cür müsbət tədbirlər ölkədə iqtisadiyyatın diversifikasiyasını və xarici investisiyaların cəlb edilməsini təmin etməyə nail olur. Nəticə olaraq, Birləşmiş Ərəb Əmirliklərindəki vergi siyasəti, özü ilə uyğunlaşmağa nail olmaq, ölkənin iqtisadiyyatını gücləndirmək və regional liderliyini möhkəmlətmək üçün bir strategiya olaraq qiymətləndirilir.

Birləşmiş Ərəb Əmirliklərində tətbiq olunan vergi sistemi iqtisadiyyatını qeyri-neft sektorunda inkişaf etdirmək istəyən ölkələr üçün çox böyük praktiki əhəmiyyətə malikdir. O cümlədən, Azərbaycan Respublikasında dövlətin vergi siyasətinin aparılmasında və qanunverici orqanlar tərəfindən vergi qanunlarının tənzimlənməsində bu modellərdən yararlanmaq faydalı ola bilər.

Result:

The tax system in place in the United Arab Emirates has succeeded in creating a high environment for high business transactions. Free economic zones and government tax applications are particularly aimed at increasing foreign investors and creating local entrepreneurship. Income and property taxes are minimal and make an important independent change for self-employment. Additional taxes such as tourism tax and value added tax, service acquisition strategy to achieve the development of tourism and sectors of the country.

Such economic gain and diversification of the economy and attraction of foreign investments are ensured. In conclusion, the tax policy in the United Arab Emirates is to be evaluated as a strategy to achieve self-alignment, strengthen the economy of the economy and strengthen its regional leadership.

The tax system applied in the United Arab Emirates has great practical importance for countries that want to develop their economy in the non-oil sector. In particular, it can be useful to use these models in the implementation of the tax policy of the state in the Republic of Azerbaijan and in the regulation of tax laws by the legislative bodies.

Результат:

Налоговая система, действующая в Объединенных Арабских Эмиратах, сумела создать благоприятные условия для крупных бизнес операций. Свободные экономические зоны и государственные налоговые заявки особенно направлены на привлечение иностранных инвесторов и создание местного предпринимательства. Налоги на прибыль и имущество минимальны и вносят важный независимый вклад в самовыражения. Дополнительные налоги, такие как налог на туризм и налог на добавленную стоимость, стратегия приобретения услуг для достижения развития туризма в сферах страны.

Обеспечивается такая экономическая выгода, диверсификация экономики и привлечение иностранной инвестиций. В заключение, налоговую политику в Объединенных Арабских Эмиратах следует оценивать как стратегию достижения самовыражения, развития экономики и укрепления ее регионального лидерства.

Применяемая в Объединенных Арабских Эмиратах налоговая система имеет большое практическое значение для стран, желающих развивать свою экономику в ненефтяном секторе.

В частности, данные модели могут быть полезны при реализации налоговой политики государства в Азербайджанской Республике и при регулировании налогового законодательства законодательными органами.

Ədəbiyyat Siyahısı:
1. Saleh Məmmədov, "Rəqəmsal Maliyyə", Bakı, 2022
2. Alastair McIntyre, "The United Arab Emirates: A Modern History" .
3. Bashir Ahmed, "Doing Business in the United Arab Emirates"
4. "United Arab Emirates Taxation Laws and Regulations Handbook" ,IBP USA
5. Ministry of Finance, UAE. "Introduction to Value Added Tax (VAT) in the UAE."
6. World Bank Group. "Doing Business 2023: United Arab Emirates."
7. United Arab Emirates Government Portal. "Economy and Business."
8. World Bank. "Doing Business 2022 - United Arab Emirates."
9. UAE Federal Tax Authority.
10. UAE Ministry of Economy.
11. UAE National Bureau of Statistics.
12. UAE Central Bank.
13. https://www.politikyol.com/vergisizlik-cenneti-birlesik-arap-emirlikleri/
14. https://www.expatica.com/ae/finance/taxes/the-tax-system-in-the-united-arab-emirates-71746/

MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİNDƏ SÜNİ İNTELLEKTİN ROLU

Hilal Məmmədli
ORCİD: 0000-0002-3871-5875
hilal.memmedli98@gmail.com
hilal.memmedli.98@mail.ru
Bakı Mühəndislik Universiteti
Azərbaycan

Xülasə

Son zamanlarda həyatın hər sahəsində öz vacibliyini göstərən Süni İntellekt, Data Sayəns kimi sözlərə demək olar ki, artıq hər yerdə rast gəlirik. Texnologiyanın sürətlə inkişaf etməsi, günü gündən əlaqələrin qloballıq baxımından daha da genişlənməsi ixtisaslı və təcrübəli kadırlara olan tələbatı artırmaqdadır. 4-cü sənaye inqilabı, texnoloji inkişaflar, maşınların dillərinin öyrənilməsi, insanların görə bildiklərindən daha çox işi bir arada görə bilən texnologiyaların inkişaf etməsi bütün bunlar son 100 illikdə durmadan baş verən proseslərdir. Artıq dünyanı və biznesi düşündürən bir problem var ki, hər kəs necə edək ki, maya dəyərini minimal həddə tuta bilək deyə çalışır. Əlbətdə ki, burada əsas və önəmli yük mühasiblərin üzərinə düşməkdədir. Günümüzdə mühasibatlıq işinin elektronlaşması, texnoloji mühasibatlığa keçilməsinə səbəb olmuşdur. 21-ci yüz illikdə yer alan süni intellekt (artificial intelligence) mühasibatlığa da müsbət və mənfi təsirləri əlbətdə olmaqdadır. Bu məqalədə də bunlar qələmə alınmış və həm də APPLE firmasının maliyyə vəziyyəti haqqında, başqa dillə desək balans hesabatı analitika baxımından süni intellekt vasitəsi ilə təhlili yer almışdır.

Açar Sözlər: Süni İntellekt, Sənaye İnqilabı, Mühasib Programları, Data Sayəns, Mühasibatlıq

Summary

Recently, words such as Artificial Intelligence and Data Science, which show their importance in every field of life, are almost everywhere. The rapid development of technology and the ever-increasing global expansion of relations are increasing the demand for qualified and experienced personnel. The 4th industrial revolution, technological developments, machine language learning, the development of technologies that can do more things simultaneously than humans can do, these are all processes that have been happening continuously for the last 100 years. There is already a problem

that worries the world and business, that everyone is trying to figure out how to keep the cost to a minimum. Of course, the main and important burden here falls on accountants. Today, the electronicization of accounting has led to the transition to technological accounting. Artificial intelligence in the 21st century has positive and negative effects on accounting. In this article, these are written and also the financial situation of APPLE company, in other words, the analysis of the balance sheet from the point of view of analytics, with the help of artificial intelligence.

Keywords: Artificial Intelligence, Industrial Revolution, Accounting Software, Data Science, Accounting

Giriş

Günümüzdə mühasibatlıq sahəsi və texnoloji sahələr durmadan irəliləməkdədir. İnsanların durmadan artan tələbatları, elmi texnoloji yeniliklər və hər ötən gün artan istəklərin ödənilməsi zəruriliyini ortaya qoymaqdadır. Əlbətdə ki, mikro və makroiqtisadi tərəfdən bu proseslərə baxsaq bir də dünyanın resurslarının qeyri bərabər və məhdud olaraq paylanıldığını nəzərə almaq lazımdır. Bütün bunlar öz lazımi konyukturasını ortaya qoymuşdur.

Zaman var idi ki, dənizə çıxışı olan ölkələr güclü ölkələr hesab edilirdi. Sonra geniş əraziləri olan, daha sonra neft-qaz kimi yataqlara sahib olanlar, hərbi gücü çox olan, nüvə silahı çox olanlar. İndi isə getdikcə elmi texnoloji qabiliyyəti çox olan və informasiya sahibləri ən güclü dövlətlərdir. Bugünkü gündə dövlətlər arasında informasiya rəqabəti getməkdədir. Bütün bunlar Data Sayəns və Süni İntellekt kimi sahələrin meydana gəlməsinə səbəb olmuşdur. İnformasiya kimin əlindədirsə, qüdrət də onunladır. Dünyanın ən zəngin qrupları, firmaları və müəssisələrin başlıca devizləri "Məlumata sahib olan dünyaya sahib olmaq"dır (Məmmədov, S. 2021, s.155).

Bütün bunları nəzərə alaraq bu məqalənin aktuallığı göz önündə olmaqdadır. Günümüzdə elmi texnoloji tərəqqi ilə ayaqlaşmaq və nəinki istehsalat və idarəetmədə hətta gündəlik həyatında da süni intellektin tətbiq olunması kimi faktor məqalənin zəruriliyini göz önünə qoymuşdur.

Məqalə yazılarkən məlumatın toplanılması, birləşdirilməsi və analiz kimi metodlardan istifadə edilmişdir. əsas məqsəd burada günümüzdə aktual olan ChatGPT və BİNG vasitəsi ilə analizin necə aparılmasını nümunə üzərində göstərməkdir.

Məqalə 6 başlıqdan ibarətdir. 1-ci başlıqda "Süni İntellekt Anlayışı"na toxunulmuş və tətbiq sahələrindən bəhsedilmişdir.

2-ci başlıqda "Süni intellektin tarixi inkişafından onun inkişaf mərhələlərindən bəhs edildi.

3-cü başlıqda süni intellektin növləri qələmə alınmışdır.

4-cü başlıqda süni intellekt ilə mühasibatlıq arasındakı əlaqədən yazılmış və günümüzdə süni intellekti istifadə edən audit firmalarını qələmə alınmışdır.

5-ci başlıqda süni intellektin Azərbaycan iqtisadiyyatında mühasibatlıq sahəsi baxımından gətirəcəyi avantajlar və dezavantajlar qələmə alınmışdır.

6-cı başlıq olaraq süni intellektin işləməsi nümunə üzərində göstərilmişdir. Burada ChatGPT və BİNG vasitəsi ilə APPLE şirkətinin 2020-2021-2022 illərinə aid mühasibatlıq balansı və ya bugünkü dillə desək maliyyə vəziyyəti haqqında hesabatı əmsallara uyğun olaraq analiz edilmişdir və ən sonda nəticələr yazılmışdır. Ən son olaraq məqalə nəticə və təkliflər başlığı ilə yekunlaşdırılmışdır.

Qısaltmalar:

Aİ - Artificial Intelligence
PwC - PricewaterhouseCoopers
KPMG – Klynveld Peat Marwick Goerdele
EY - Ernst and Young
İBM - International Business Machines
PM – Peşəkar Mühasib
ABŞ – Amerika Birləşmiş Ştatları

1. Süni intellekt anlayışı

Süni intellekt (AI-Artifical İntelligence) kompüter sistemlərinin insana bənzər düşüncə qabiliyyətlərini simulyasiya etməsi və ya insana bənzər davranış nümayiş etdirməsi üçün nəzərdə tutulmuş texnologiyadır. Süni intellekt mürəkkəb alqoritmlər, nümunələrin tanınması, maşın öyrənməsi, təbii dilin işlənməsi və oxşar üsullardan istifadə etməklə hazırlanır. Bu texnologiya bir çox fərqli tətbiq sahələrində istifadə edilə bilər. Süni intellekt həmçinin məlumatları təhlil etmək,

öyrənmək, qərar qəbul etmək və yaradıcı olmaq kimi müxtəlif vəzifələri yerinə yetirə bilər (https://www.techtarget.com/searchenterpriseai/definition/AI-Artificial-Intelligence; 20.09.2023).

Süni intellektin daha çox istifadə edildiyi tətbiq sahələrini aşağıdakı kimi göstərə bilərik:

1. "Avtomatlaşdırma:" Süni intellekt müəyyən tapşırıqları və prosesləri avtomatlaşdırmaq üçün istifadə edilə bilər. Bu, məlumatların daxil edilməsi, müştəri xidməti, istehsal və logistika kimi sahələrdə istifadə olunur (https://www.oracle.com/bh/cloud/intelligent-automation/; 15.10.2023).

2. "Maşın Öyrənilməsi:" Maşın öyrənməsi süni intellektin alt kateqoriyalarından biridir və kompüter sistemlərinə verilənlərdən öyrənməyə imkan verir. Bu, tövsiyə sistemləri, spam filtrləri, səs köməkçiləri və s. kimi bir çox tətbiqlərdə istifadə olunur. Maşın öyrənməsi modelləri verilənlərə uyğunlaşdırmaq və modelləri məlumatlarla "öyrənmək" üçün statistik bir texnikadır. Maşın öyrənməsi süni intellektin ən geniş yayılmış formalarından biridir; 2018-ci ildə Deloitte-in təşkilatları artıq süni intellektlə məşğul olan 1.100 ABŞ menecerinin sorğusunda iştirak edən şirkətlərin 63%-i öz bizneslərində maşınların dilindən istifadə etdiklərini söyləmişlər. Bu, süni intellektə bir çox yanaşmanın əsasını təşkil edən geniş texnikadır[2].

3. "Təbii Dil Emalı:" Bu texnologiya insan dilini anlamaq, şərh etmək və yaratmaq üçün istifadə olunur. Bu, mətn təhlili, dil tərcüməsi, nitqin tanınması və yazılı mətnə əsaslanan müştəri xidməti kimi sahələrdə istifadə olunur.

4. "Şəkillərin işlənməsi:" Süni intellekt şəkillərdən məlumat çıxarmaq qabiliyyəti ilə istifadə olunur. Tibbi görüntü analizi, üz tanıma, avtomatik avtomobil tanıma və təhlükəsizlik kameralarının təhlili kimi sahələrdə istifadə olunur.

5. "Uzaqdan Qavrama:" Uzaqdan qavrama üsulları uzaqdan sensorlar tərəfindən toplanmış məlumatları təhlil edərək ətraf mühitdəki dəyişiklikləri izləyir. Bu, kənd təsərrüfatı, ətraf mühitin monitorinqi, fəlakətlərin idarə edilməsi və təbii ehtiyatların idarə edilməsi kimi sahələrdə istifadə olunur.

6. "Oyunlar və Əyləncə:" Süni intellekt oyun sənayesində geniş şəkildə istifadə olunur, video oyunlarda süni intellekt personajları yaratmaqdan tutmuş strategiya oyunlarında rəqiblərə qarşı oynayan botlara qədər işlər göstərməkdədir... Süni intellekt yeni məzmun yaratmaq, istifadəçi təcrübəsini təkmilləşdirmək və oyunlar, musiqi, filmlər və incəsənət kimi sahələrdə yaradıcılığı təşviq etmək üçün istifadə edilə bilər.

7. "Maliyyə Xidmətləri:" Süni intellekt bu sektorda maliyyə əməliyyatlarını sürətləndirmək, fırıldaqçılığın aşkar edilməsi, saxtakarlığın qarşısını almaq, risklərin idarə edilməsi, ticarətin təhlili və müştəri xidmətlərində və investisiya qərarları vermək üçün istifadə olunur (Marcello M., Machado, İ., Nambisan, S., 2023, s.9).

8. "Səhiyyə:" Süni intellekt xəstəliklərə diaqnoz qoymaq, müalicə planları yaratmaq, dərmanlar hazırlamaq və əməliyyatlarda kömək etmək üçün, tibbi şəkilləri təhlil etmək üçün istifadə edilə bilər və xəstələrin sağlamlıq vəziyyətinə nəzarət etmək üçün istifadə edilə bilər.

9. "Təhsil": Süni intellekt tələbələrin öyrənmə üslublarına və ehtiyaclarına uyğunlaşdırılmış fərdi təhsil vermək, müəllimlərə rəy bildirmək və təhsilin keyfiyyətini artırmaq üçün istifadə edilə bilər.

Süni intellekt həyatımızı asanlaşdıran və yaxşılaşdıran bir texnologiyadır. Bununla belə, süni intellektin etik, təhlükəsizlik və sosial problemləri də var. Ona görə də süni intellektdən məsuliyyətlə istifadə etmək və insani dəyərlərə hörmətlə yanaşmaq vacibdir.

Gələcəkdə və bundan sonra da süni intellektin tətbiqlərinin artacağı gözlənilir (Moudud Ul Huq, 2014:7). Ekspertlər 2030-cu ilə qədər 800 işin yerini süni intellektin alacağı və təxmini 800 milyon insanın işsiz qalacağını proqnozlaşdırırlar. Bu o deməkdir ki, insanlar məqsədlərinə çatmaq üçün müxtəlif çıxış yolları axtarmalı olacaqlar. Əvvəlcə, süni intellekt texnologiyası və iş yerlərində avtomatlaşdırma sadəcə usta və fəhlələrin yerini alacaq idi isə indi oturaq işləyən işçilərə də öz təsirini göstərəcəkdir (finance.toolbox.com; 19.10.2023). Palmer Group, CNBC jurnalının redaktörü bir çox xüsusi biznes və sənayelər üçün süni intellekt və maşın öyrənmə alqoritmlərinin hesabatında ən yüksək risk qrupunda bunun açıq bir risk meydana gətirdiyini ifadə edir (Sheedy, 2017) . Onların peşələri bunlardır: orta menecer; satıcılar, yazıçılar; jurnalistlər, diktorlar; mühasiblər və mühasib köməkçiləri və həkimlər kimi bildirildi (Sarıçiçek, R., 2019, s. 1093).

[2] https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC6616181/; 18.10.2023

2. Süni intellektin tarixi inkişafı.

Süni intellekt termini və bu sahədə araşdırmalar rəsmi olaraq 20-ci əsrin ortalarına təsadüf edir. Bununla belə, süni intellektlə bağlı ideyalar və anlayışlar daha qədim dövrlərə gedib çıxır. Burada süni intellekt tarixində bəzi mühüm mərhələlər var[3].

1. "1930-cu və 1940-cı illər: Nəzəri əsasların qoyulması"-Alan Turing (1936), Turing Machine konsepsiyasını inkişaf etdirdi. Bu nəzəri model problemləri hesablamaq və həll etmək qabiliyyətinə malik maşın üzərində qurulmuş və süni intellekt sahəsində düşüncəyə təsir etmişdir (Jonathan, P. 2017, s. 2-4).

- "McCulloch & Pitts (1943):" Warren McCulloch və Walter Pitts neyron şəbəkələrinin əsas anlayışlarını əhatə edən bir məqalə dərc etdilər. Bu, süni intellektin modelləşdirilməsində neyron şəbəkələrdən istifadə istiqamətində ilk addım idi.

2. "1950-ci illər: Süni intellekt sahəsinin başlanğıcı" - Dartmut Konfransı (1956), süni intellekt termini ilk dəfə bu konfransda istifadə edilmişdir. John McCarthy, Marvin Minsky, Nathaniel Rochester və Claude Shannon kimi əhəmiyyətli elm adamları bu konfransda süni intellekt araşdırmalarını formalaşdırmaq üçün planlar qurdular[4].

3. "1960 və 1970-ci illər: İlk Süni İntellekt Proqramları" - ELIZA (1966) Joseph Weizenbaum tərəfindən hazırlanmış ELIZA təbii dilin işlənməsi sahəsində mühüm başlanğıc idi. ELIZA insana bənzər cavablar verməklə terapevt rolunu simulyasiya edə bilər[5].

- "Dendral (1965)", Edvard Feyqenbaum və Coşua Lederberq tərəfindən hazırlanmış Dendral, kimya sahəsində ekspert sistemi kimi istifadə edilən ilk süni intellekt proqramlarından biri idi.

4. "1980 və 1990-cı illər: Süni İntellekt Tətbiqlərində Artım" - "Uzaqdan Qavrama və Görüntü Emalı:" Bu dövrdə süni intellektin praktik tətbiqi kimi uzaqdan qavrama və görüntü emal kimi tətbiqlər inkişaf etdirilməyə başlandı.

- "Ekspert Sistemləri:" Ekspert sistemləri müəyyən bir sahədə təcrübəni təqlid edə bilən süni intellekt sistemləri idi. Bu dövrdə ticarət və sənaye sahələrində bir çox ekspert sistemlərindən istifadə edilmişdir.

Süni intellekt sahəsi daim inkişaf edir və bu gün daha mürəkkəb və təkmil süni intellekt sistemləri hazırlanır. Bu sistemlərə maşın öyrənməsi, dərin öyrənmə və təbii dil emalı kimi texnologiyalar daxildir.

3. Süni intellektin növləri:

Süni intellekt bir çox müxtəlif növlərə bölünə bilər, lakin əsasən üç əsas kateqoriyaya bölünə bilər:

1. Zəif AI - Zəif AI müəyyən bir işi yerinə yetirə bilən AI sistemlərinə aiddir. Bu sistemlər müəyyən bir sahədə insana bənzər davranış nümayiş etdirir, lakin ümumilikdə insan düşüncəsini və ya şüurunu simulyasiya etmir. Məsələn, əksər səs köməkçiləri (məsələn, Siri, Alexa), spam filtrləri və oyun AI (məsələn, şahmat oyunları) zəif AI nümunələridir[6] (Sneha, K., 2023).

2. Güclü Süni İntellekt (Güclü Süni İntellekt) - Güclü AI ümumiyyətlə insan intellektini və düşüncə qabiliyyətini tam şəkildə simulyasiya edə bilən AI səviyyəsinə aiddir. Bu o deməkdir ki, AI sistemi insan kimi istənilən zehni işi başa düşə, öyrənə və həll edə bilər. Bununla belə, güclü süni intellekt hal-hazırda hələ də nəzəri bir konsepsiyadır və hələ reallaşdırılmayıb.

3. Süni İntellektin Tətbiq Sahələri üzrə Kateqoriyalar[7] (Sneha, K., 2023):

Süni intellekt tətbiq sahələrinə görə də müxtəlif növlərə bölünə bilər:

a. Maşın Öyrənmə - Maşın öyrənməsi alqoritmlərə verilənlərlə əlaqə quraraq müəyyən tapşırığı öyrənməyə və təkmilləşdirməyə imkan verir. Dərin öyrənmə bu kateqoriyanın alt bölməsidir və böyük məlumat dəstlərində mürəkkəb nümunələri tanımaq qabiliyyətinə diqqət yetirir.

b. Təbii Dil Emalı (NLP) - Təbii dil emalı kompüterlərə insan dili mətni ilə qarşılıqlı əlaqədə olmağa və onu başa düşməyə imkan verir. Səs köməkçiləri, mətnin öyrənilməsi və dil tərcüməsi kimi proqramlar təbii dil emalına misaldır.

c. Şəkil Emalı (Kompüter Görmə) - Şəkil emalı kompüterlərə və süni intellekt sistemlərinə vizual

[3] https://www.coe.int/en/web/artificial-intelligence/history-of-ai; 12.10.2023
[4] https://medium.com/@nickyverd/the-first-ever-ai-conference-tracing-the-evolution-and-the-history-of-ai-82347f93a89f; 03.10.2023
[5] https://web.njit.edu/~ronkowit/eliza.html; 01.10.2023
[6] https://www.simplilearn.com/tutorials/artificial-intelligence-tutorial/top-ai-techniques; 20.10.2023
[7] https://www.simplilearn.com/tutorials/artificial-intelligence-tutorial/top-ai-techniques; 20.10.2023

məlumatları anlamağa imkan verir. Məsələn, üz tanıma, obyekt aşkarlama və tibbi görüntü analizi kimi sahələrdə istifadə olunur.

d. Uzaqdan Qavrama - Uzaqdan zondlama uzaqdan sensorlar vasitəsilə toplanan məlumatları təhlil edir. Belə sistemlər tez-tez təbii ehtiyatların idarə edilməsi, kənd təsərrüfatı, iqlim monitorinqi və fəlakətlərin idarə edilməsi kimi sahələrdə istifadə olunur. Süni intellekt texnologiyası daim inkişaf edir, ona görə də gələcəkdə daha spesifik və ixtisaslaşmış süni intellekt növləri yarana bilər.

4. Süni İntellekt Və Mühasibatlıq Arasındakı Əlaqə

"Böyük məlumat" və "süni intellekt" anlayışları son dövrlərdə gündəlik həyatın ayrılmaz hissəsinə çevriliblər. Məsələn məşhur Amazon şirkəti süni intellekt vasitələri ilə kassirsiz marketlər, satış məsləhətçiləri, hüquqşünaslar, hakimlər, cərrahlar, teleaparıcılar və nəhayət digər iş üzvləri ilə və nümunələrlə qarşılaşılmağa başlanmışdır (Yücel və Adiloğlu, 2019: s. 49). Buna görə də insanların mövcud olduğu bir çox yerlərdə süni intellekt insanları əvəz edir və mühasibatlıq peşəsi də bu təsirdən öz payını almaqdadır.

Mühasibat uçotu sahəsində süni intellektin istifadəsi ilə bağlı araşdırmalar 30 il əvvələ gedib çıxır (Serçemeli, 2018: 371). Manpower Group tərəfindən (2016) aparılan araşdırmada, süni intellekt tətbiqlərindən ən çox təsirlənən, yəni məşğulluğun ən az olacağı sahələr arasında mühasibat uçotu və maliyyə də vardır. Bu məlumatlara görə, bu sahələrdə daha çox insanları əvəz edəcək süni intellekt texnologiyalarından istifadə olunacaqdır.

Mühasibat uçotu sahəsində audit firmaları da süni intellektdən istifadə etmə tətbiqlərinə böyük sərmayə qoyurlar (Yücel və Adiloğlu, 2019: 54). Dünyanın dörd ən böyük audit şirkəti PwC, Earnst&Young, KPMG və Deloitte kimi şirkətlər Onlar süni intellektlə bağlı araşdırmalar aparıblar. Bunların nümunələri aşağıda təqdim olunur (Yaninen, 2008: s.10):

(i) PwC: Qlobal AI tədqiqatının təşkilini həyata keçirmişdir. Bu günə olan məlumata görə araşdırma nəticəsində məlum olub ki, 2030-cu ilə qədər, gəlirin 45%-i süni intellekt proqramlarından olacaqdır. İstehlakçı tələbatının diversifikasiyası ilə yanaşı bunun baş verəcəyi bildirilir (Gacar, 2019: s.391).

(ii) Earnst&Young: Audit firmasının bir çox fərqli xüsusiyyətləri var. Bunlardan biri də audit sahəsində mütəxəssisləri bir araya gətirərək Hindistanda ilk süni intellekt mərkəzini qurdu.

(iii) KPMG: KPMG firması, 2015-ci ildən, audit proseslərində süni intellektdi istifadə edərək çoxlu sayda faydalar əldə etmişdir. KPMG, həmçinin IBM koqnitiv kompüterlərdən istifadə edir.

(iv) Deloitte: Öz təhlükəsizlik fəaliyyətlərini təkmilləşdirmək üçün "Kira Systems" adlı süni intellekt proqramdan istifadə edir. Mühasibat Uçotu Auditi baxımından; Deloitte (2018) Argus adlı süni intellekt tətbiqi ilə müəssisələrin banklarla bağladığı kredit müqavilələri, yoxlanılan şirkətlərin müştəriləri ilə imzaladıqları satış müqavilələri və satın aldıqları şirkətlərlə bağladıqları alış müqavilələri skan edilir, təhlil edilir və auditora hesabat verilir (Tas, Mert, 2019: s. 66).

HSBC bank bankçılıqda, fırıldaqçılığın qarşısının alınması məqsədi ilə süni intellektdən istifadə edir. Morgan Stanley də real bazar məlumatlarını süni intellektlə müştərilərinə çatdırmaqla yanaşı birmənalı olaraq investisiya təklifləri də təklif edir (Wilson və Daugherty, 2018). Qonşu və qardaş ölkəmiz olan Türkiyənin İş Bankının və Anadolu Hayat Emeklilik şirkətinin ortaq proqramlaşdırıb və istifadə etdiyi FonMatik mobil telefon programı bankçılıq sistemində hazırlanmış Türkiyədə yeni ortaya çıxan süni intellekt tətbiqləri arasındadır. Azərbaycan və Türkiyə hələ də 2-ci (elektrik enerjisi əsasında istehsal) və 3-cü (İstehsalda informasiya və texnologiyadan istifadə) sənaye dövrünə aid müəssisələr var ki, bu da bu 2 ölkəninn hələ də 4-cü sənaye inqilabına tam keçmədiklərini göstərir (Aytulun, 2017). Buna görə də istehsalda müəssisələr tərəfindən mühasibat uçotu sistemlərində rəqəmsallaşmadan tam istifadə edilmir. Ancaq Türkiyə və Azərbaycanda mühasiblərin rəqəmsal transformasiyanın istifadə etdiklərini də vurğulamalıyıq ki, bu ölkələrdə 1C, AzMühasib, Zirvə, Logo və s. kimi mühasibat programlarından geniş miqyasda istifadə edilir.

5. Süni intellektin Azərbaycan iqtisadiyyatında mühasibatlıq sahəsi baxımından gətirdiyi avantaj və dezavantajlar.

Süni İntellekt elmi başqa dillə desək Süni İntellekt 4-cü sənaye inqilabının əsas aparıcı qüvvəsidir. Dünyanın başlıca universitetlərində artıq uzun müddətdir ki, bu ixtisas üzrə kadr hazırlanılır və tədrisi həyata keçirilir. Data Sayəns dörd əsas elmin birləşməsindən ibarətdir. Tətbiqi statistika, riyaziyyat, infrmatika və texnologiya elimləri.Bu elm həm də Machine learning, Dip learning, Cognitive Science, Neyrobiologiya, Big Data texnologiyaları ilə sıx əlaqədədir. Data Sayəns

təhlili böyük məlumatlar əsasında həyata keçirilir.işlənilən mlumat kütləsi – Big Data (böyük məlumat) adlanır. O qədər böyük məlumatlar burada təhlil edilib saxlanılır ki, bunlar insan gücü tərəfindən edilməsi üçün çox zaman və maliyyət tələb edir, hətta imkansız görünür (Məmmədov, S. 2021, s. 157).

Mühasibat uçotu sahəsində süni intellekt texnologiyası geniş istifadəsi üçün bir çox insan tərəfindən hazırlanmışdır ki, işlərin insanlar kimi düşünən maşınların görəcəyinə gətirib çıxarmaqdadır. Xüsusilə peşəkar mühasiblər (PM) hazırlayan təhsil qurumlar öz tədris planlarını texnoloji inkişaflara uyğunlaşdırmalıdırlar. Azərbaycan kimi inkişafda olan dövlətə süni intellektin gətirilməsi qaçınılmaz olacaqdır. Ama bu bir çox sahədə təhlükələrə səbəb ola bilər. Ama Azərbaycanda dövlət tərəfindən dəstəkli atılacaq addımlar mühasibatlıq peşəsi üçün bir fürsətdir və bu fürsəti həm dövlət həm də təşkilatlar müsbət qiymətləndirməlidirlər.

Azərbaycanın süni intellekt sahəsində mühasibatlıq peşəsi üçün əldə edə biləcəyi imkanlar aşağıdakılar kimi sadalana bilər:

- Limitsiz hesablama qabiliyyəti sayəsində ilk növbədə istehsal, nəqliyyat, rabitə və səhiyyə kimi sektorlarda və daha sonra bir çox peşədə (mühasibatlıq daxil olmaqla) istifadə ediləcək. Azərbaycandakı müəssisələrin səmərəli bir quruluşa sahib olmasını təmin etmək üçün insan səhvi marjasını minimuma endiriləcəkdir.
- Azərbaycanın daha çox vergi gəliri əldə etməyə imkan verəcək. Çünki müəssisələrdə xərclər minimilizasiya ediləcəkdir.
- Süni intellektlə biznesə nəzarət daha asan olacaq.
- Azərbaycanda mühasibatlıq təhsili verən təhsil müəssisələrinə öz tədris proqramlarını cari şəraitə uyğunlaşdırmağa böyük tövhələr veriləcək.

Ancaq bununla yanaşı süni intellekt texnologiyalarının özəl sektor müəssisələrində istifadəsinin bəzi dezavantajları olacağını da nəzərdən qaçırmamaq lazımdır. Bu dezavantajları aşağıdaki kimi göstərə bilərik:

- Tez-tez dəyişən mühasibat qanunvericiliyinə görə, “maşın "öyrənmə", süni intellekt təhsili, proqram təminatı yenilənmə tələbatı üçün çox təfərrüatlı və xərcli prosesdir. Azərbaycan dünya bazarına son 50 illikdə atıldığını nəzərə almış olarsaq, istər sosial istərsə də digər qanunvericiliklərdə tez-tez başverən dəyişikliklər süni intelektin müəssisələrdə işini çətinləşdirə bilər,
- Müəssisələr və təşkilatlar arasında sıx əlaqənin olmaması səbəbindən ictimaiyyətə edilməli olan bildirişlər və bəyannamələr onların müxtəlifliyi ilə yanaşı, bu bəyannamələr və bildirişlərdə olan dəyişikliklərin analizi çətinliklər çıxara bilər,
- Yeni bildirişlər və bəyannamələrə daim əlavə olunan öhdəliklər,
- Ölkələrin strukturuna uyğun olan maliyyə hadisələrindəki fərqliliklər, onların analizlərindəki dataların bir birləri ilə uyuşmamazlıqları,
- Ölkədə və müəssisələrdə baş verən ani qərarlar, sərəncamlar və dıyişikliklər.
- Süni intellektin bulud sistemi ilə çalışması və müəssisələrin və dövlət məlumatlarının kiber hücumlardan qorunmasına gətirəcək problemlər.

Süni intellektin müəssisələr baxımından fayda və risklərini aşağıdakı qrafikdəki kimi də göstərmək olar.

Grafik 1: Süni intellektin Tətbiqində Gözlənilən faydalar və mümkün risklər:

Gözlənilən Fayda	**Mümkün Risklər**
Xərclərə Qənaət Və Səmərəlilik	Təşkilat AI Tərəfindən Getdikcə Daha Çox İzlənilməsi Nəticəsində Kənar Auditor Tərəfindən Maraqların Toqquşması və Müstəqillik Təhlükəsi)
Təkmilləşdirilmiş Səmərəlilik	Ənənəvi İşlərin/Tapşırıqların Yox Olması.
Daha Çox Dəqiqlik	Artan Gəlir və Kapital Bərabərsizliyinin Artması
Çevik İş Stili	Süni İntellekt Tətbiqlərində Mövcud Zəka Səviyyəsində Qanunlar, Qaydalar və Siyasətlərdəki Dəyişikliklərə Cavab Olaraq Süni İntellekt Sisteminin Özünü Yeniləməsi Mümkün Deyil. Buna Görə də Tez-Tez Başverən Dəyişikliklər Prosesə Mane Ola Bilər
Proseslərin İdarə Edilməsi	Daha Çox Xərc Öhdəliyi

İşçi Qüvvəsinə Qənaət	Mühasiblərin Süni İntellekt Sahəsində Lazımi Təcrübələrinin Olmaması.
Risklərin İdarə Edilməsi	Mövcud İşçi Qüvvəsindən Yaranan Çətinliklər
Metadata Təhlili	
Diqqətli Təkrarlamalar, Vaxt Aparan və Qaydalara Əsaslanan Vəzifələrdən Uzaqlaşdırmaq	
Qənaət Edilmiş Vaxtın Və Daha Mürəkkəb və Əlavə Dəyərli Tapşırıqların Yenidən Bölüşdürülməsi	

Mənbə: (Şahin, D., Mehmet G., "İşletmelerin Muhasebe Süreçlerinde Yapay Zeka Uygulamaları", s.150, Muhasebe ve Finans alanında Güncel Konular 2022, Ankara, Gazi kitabevi).

6. Süni intellektin işləməsinin nümunə üzərində göstərilməsi (İstifadə olunan baza CHATGPT və BİNG)

Biz aşağıda APPLE firmasının 2020,2021,2023 cü il tarixinə olan mühasibat balansını görürük. Bildiyimiz kimi mühasibatlığın ən vacib mərhələlrindən birisi də analiz mərhələsidir. Getdikcə artıq kitab tutmaq (Debit və Kredit qeydiyatı) tarixə qovuşur və qrərarların qəbul edilməsində analiz mərhələsinə qədəm qoyulur. Bu nümunədə Süni İntellektin koməkliyi ilə APPLE firmasının məhsuldarlıq analizlərindən bir neçəsini – Likvidlik əmsalları, Mənfəətlilik əmsalları, Borc əmsalı, Səmərəlilik əmsalları, Bazar (Marketinq) əmsallarını analiz edəcəyik.

Süni intellektin analiz etdiyi heç bir şeyə toxunulmamışdır.

Əlbəttə! Şirkətin maliyyə sağlamlığını və fəaliyyətini başa düşmək üçün üç il (2022, 2021 və 2020) üçün təqdim edilmiş mühasibat uçotu məlumatlarını əsas maliyyə əmsalları və tendensiyalar baxımından təhlil edək. Aşağıdakı düsturlar İngilis və Azərbaycan dillərində verilmişdir.

Grafik 2: APPLE Şirkətinin 2020, 2021, 2022-ci İllər Üzrə Maliyyəvəziyyəti (Balans) Haqqında Hesabatları

Breakdown	**9/29/2022**	**9/29/2021**	**9/29/2020**
Total Assets (Ümumi aktivlər)	352,755,000	351,002,000	323,888,000
Current Assets (Cari aktivlər)	135,405000,	134836000,00	143,713,000
Cash, Cash Equivalents & Short Term Investments (Pul, Pul Ekvivalentləri və Qısamüddətli İnvestisiyalar)	48,304,000	62,639,000	90,943,000
Cash And Cash Equivalents (Pul Vəsaitləri və Pul Ekvivalentləri)	23,646,000	34,940,000	38,016,000
Cash (Nağd pul)	18,546,000	17,305,000	17,773,000
Cash Equivalents (Pul Ekvivalentləri)	5,100,000	17,635,000	20,243,000
Other Short Term Investments (Digər Qısamüddətli İnvestisiyalar)	24,658,000	27,699,000	52,927,000
Receivables (Debitor borçları)	60,932,000	51,506,000	37,445,000
Accounts receivable (Debitor borçları)	28,184,000	26,278,000	16,120,000
Other Receivables (Digər debitor borçları)	32,748,000	25,228,000	21,325,000
İnventory (İnventar)	4,946,000	6,580,000	4,061,000
Other Current Assets (Digər Dövriyyə Aktivləri)	21,223,000	14,111,000	11,264,000
Total non-current assets (Cəmi uzunmüddətli aktivlər)	217,350,000	216,166,000	180,175,000
Net PPE (Net TTA)	42,117,000	39,440,000	36,766,000
Gross PPE (Gross TTA)	114,457,000	109,723,000	103,526,000
Properties (Xüsusiyyətlər)	0,00	0,00	0,00
Land And Improvements (Torpaq Və Təkmilləşdirmələr)	22,126,000	20,041,000	17,952,000
Machinery Furniture Equipment (Maşın Avadanlıqları)	81,060,000	78,659,000	75,291,000
Leases (İcarə vermələr)	11,271,000	11,023,000	10,283,000
Accumulated Depreciation (Yığılmış amortizasiya)	-72,340,000	-70,283,000	-66,760,000
Investments And Advances (İnvestisiyalar və Avanslar)	120,805,000	127,877,000	100,887,000
Investment in Financial Assets (Maliyyə Aktivlərinə İnvestisiya)	120,805,000	127,877,000	100,887,000

Available for Sale Securities (Satılmış Qiymətli Kağızlar)	120,805,000	127,877,000	100,887,000
Other Investments (Digər İnvestisiyalar)	120,805,000	127,877,000	100,887,000
Other Non Current Assets (Digər Qeyri-dövriyyə Aktivləri)	54,428,000	48,849,000	42,522,000
Total Liabilities Net Minority İnterest (Ümumi Öhdəliklər)	302,083,000	287,912,000	258,549,000
Current Liabilities (Cari öhdəliklər)	153,982,000	125,481,000	105,392,000
Payables And Accrued Expenses (Kreditor borcları və hesablanmış xərclər)	64,115,000	54,763,000	42,296,000
Payables (Kreditor borçları)	64,115,000	54,763,000	42,296,000
Accounts Payable (Kreditor borçları)	64,115,000	54,763,000	42,296,000
Current Debt And Capital Lease Obligation (Cari Borc Və Kapital İcarəsi Öhdəliyi)	21,110,000	15,613,000	13,769,000
Current Debt (Cari borç)	21,110,000	15,613,000	13,769,000
Commercial Paper (Kommersiya kağızı)	9,982,000	6,000,000	4,996,000
Other Current Borrowings (Digər Cari Borclar)	11,128,000	9,613,000	8,773,000
Current Deferred Liabilities (Cari Təxirə salınmış öhdəliklər)	7,912,000	7,612,000	6,643,000
Current Deferred Revenue (Cari Təxirə salınmış Gəlir)	7,912,000	7,612,000	6,643,000
Other Current Liabilities (Digər qısamüddətli öhdəliklər)	60,845,000	47,493,000	42,684,000
Total Non Current Liabilities Net Minority Interest (Cəmi Xalis qısa müddətli Öhdəliklərin Azlıq Payı)	148,101,000	162,431,000	153,157,000
Long Term Debt And Capital Lease Obligation (Uzunmüddətli Borc və Kapital İcarəsi Öhdəliyi)	98,959,000	109,106,000	98,667,000
Long Term Debt (Uzun müddətli borç)	98,959,000	109,106,000	98,667,000
Tradeand Other Payables Non Current (Ticarət və digər kreditor borçları)	16,657,000	24,689,000	28,170,000
Other Non Current Liabilities (Digər Qısamüddətli Öhdəliklər)	49,142,000	53,325,000	54,490,000
Total Equity Gross Minority İnterest (Ümumi Kapital)	50,672,000	63,090,000	65,339,000
Stockholders' Equity (Səhmdarların Kapitalı)	50,672,000	63,090,000	65,339,000
Capital Stock (Kapital fondu)	64,849,000	57,365,000	50,779,000
Common Stock (Adi səhm)	64,849,000	57,365,000	50,779,000
Retained Earnings (Bölüşdürülməmiş mənfəət)	-3,068,000	5,562,000	14,966,000
Gains Losses Not Affecting Retained Earnings (Bölüşdürülməmiş mənfəətə təsir etməyən qazanc itkiləri)	-11,109,000	163,00	-406,00
Total Capitalization (Ümumi kapitallaşma)	149,631,000	172,196,000	164,006,000
Common Stock Equity (Adi səhm kapitalı)	50,672,000	63,090,000	65,339,000
Net Tangible Assets (Xalis Maddi Aktivlər)	50,672,000	63,090,000	65,339,000
Working Capital (Dövriyyə kapitalı)	-18,577,000	9,355,000	38,321,000
İnvested Capital (İnvestisiya edilmiş Kapital)	170,741,000	187,809,000	177,775,000
Tangible Book Value (Maddi Kitab Dəyəri)	50,672,000	63,090,000	65,339,000
Total Debt (Ümumi borç)	120,069,000	124,719,000	112,436,000
Net Debt (Xalis borç)	96,423,000	89,779,000	74,420,000
Share İssued (Paylaşılanlar)	15,943,425	16,426,786	16,976,763
Ordinary Shares Number (Adi Səhmlərin hissəsi)	15,943,425	16,426,786	16,976,763

Mənbə: https://finance.yahoo.com/quote/AAPL/balance-sheet/; 12.09.2023

Bildiyimiz kimi mühasibatlığın ən vacib mərhələlrindən birisi də analiz mərhələsidir. Getdikcə artıq kitab tutmaq tarixə qovuşur və qrərarların qəbul edilməsində analiz mərhələsinə qədəm qoyulur. Bu nümunədə Süni İntellektin koməkliyi ilə APPLE firmasının məhsuldarlıq analizlərindən bir neçəsini edəcəyik.

Süni intellektin analiz etdiyi heç bir şeyə toxunulmamışdır.

Əlbəttə! Şirkətin maliyyə sağlamlığını və fəaliyyətini başa düşmək üçün üç il (2022, 2021 və 2020) üçün təqdim edilmiş mühasibat uçotu məlumatlarını əsas maliyyə əmsalları və tendensiyalar baxımından təhlil edək. Aşağıdakı düsturlar İngilis və Azərbaycan dillərində verilmişdir.

1. Likvidlik əmsalı (Liquidity Ratios):

$$Cari\ nisbət = \frac{Qısamüddətli\ Aktivlər}{Qısamüddətli\ öhdəliklər} \quad (1)$$

$$Current\ Ratio = \frac{Current\ Assets}{Current\ liabilities} \quad (2)$$

2022: 0,88 (İdeal deyil, qısamüddətli likvidlik problemlərini vardır).

2021: 1.08 (Bir qədər təkmilləşdirilmiş).

2020: 1.36 (Üç il arasında ən yaxşısı).

$$Sürətli\ Nisbət = \frac{(Cari\ Aktivlər - İnventar)}{Qısamüddətli\ Öhdəliklər} \quad (3)$$

$$Quick\ Ratio = \frac{Current\ Assets - İnventory}{Current\ Liabilities} \quad (4)$$

2022: 0,66 (İnventar satışına əsaslanmadan qısamüddətli öhdəliklərin yerinə yetirilməsi ilə bağlı potensial çətinliyi təklif edir)

2021: 0,90 (Təkmilləşdirilmiş, lakin hələ də aiddir)

2020: 1.14 (Daha yaxşı likvidlik mövqeyi)

2. Mənfəətlilik əmsalı (Profitability Ratios):

$$Xalis\ Mənfəət\ Marjası = \frac{XalisGəlir}{Ümumi\ Gəlir} \quad (5)$$

$$Net\ Profit\ Margin = \frac{Net\ İncome}{Total\ Revenue} \quad (6)$$

2022: Xalis gəlir haqqında məlumat verilmir.

2021: Xalis gəlir haqqında məlumat verilmir.

2020: Xalis gəlir haqqında məlumat verilmir.

(Təəssüf ki, xalis gəlir rəqəmləri olmadan gəlirlilik əmsallarını hesablamaq mümkün deyil.)

3. Borc əmsalı (Debt Managmet Ratios):

$$\text{Borcun Kapitala Nisbəti} = \frac{\text{Ümumi Borc}}{\text{Səhmdarların Kapitalı}} \quad (7)$$

$$\text{Debt to Equity Ratio} = \frac{\text{Total Debt}}{\text{Stockholders' Equity}} \quad (8)$$

2022: 2.37 (Kapitala nisbətən yüksək borc)

2021: 1,98 (Hələ nisbətən yüksək)

2020: 1.72 (Həmçinin yüksək)

$$\text{Borc Ödəmə Faizi} = \frac{\text{Əməliyyat Gəlirləri}}{\text{Faiz Xərcləri}} \quad (9)$$

$$\text{İnventory Turnover} = \frac{\text{Cost of Goods Sold}}{\text{Average İnventory}} \quad (10)$$

2022: Əməliyyat gəlirləri və faiz xərclərinə dair məlumatlar təqdim edilmir.

2021: Əməliyyat gəlirləri və faiz xərclərinə dair məlumatlar təqdim edilmir.

2020: Əməliyyat gəlirləri və faiz xərclərinə dair məlumatlar təqdim edilmir.

4. Səmərəlilik əmsalları (Efficienty Ratios):

$$\text{Ehtiyyatların Dövriyyəsi} = \frac{\text{Satılan Malların Dəyəri}}{\text{İnventarların Ortalama Dəyəri}} \quad (11)$$

$$\text{İnventory Turnover} = \frac{\text{Cost of Goods Sold}}{\text{Average İnventory}} \quad (12)$$

2022: Satılan malların dəyəri ilə bağlı məlumat verilmir.

2021: Satılan malların dəyəri ilə bağlı məlumat verilmir.

2020: Satılan malların dəyəri barədə məlumat verilmir.

$$\text{Debitor Borclarının Dövriyyəsi} = \frac{\text{Xalis Satışlar}}{\text{Ortalama Debitor Borcları}} \quad (13)$$

$$\text{Receivable Turnover} = \frac{\text{Net Sales}}{\text{Average Accounts Receivable}} \quad (14)$$

2022: Xalis satış məlumatları təqdim edilmir.

2021: Xalis satış məlumatları təqdim edilmir.

2020: Xalis satış məlumatları təqdim edilmir.

5. Bazar nisbətləri (Market Ratios):

$$\text{Səhm Üzrə Mənfəət} = \frac{\text{Xalis Gəlir}}{\text{Səhmlərin Ümumi Sayı}} \quad (15)$$

$$Earnings\ Per\ Share = \frac{\text{Net İncome}}{\text{Number of Shares}} \quad (16)$$

2022: Xalis gəlir haqqında məlumat verilmir.
2021: Xalis gəlir haqqında məlumat verilmir.
2020: Xalis gəlir haqqında məlumat verilmir.

$$\text{Qiymətə Mənfəət Nibəti} = \frac{\text{Səhm Üzrə Qiymət}}{\text{Səhm Üzrə Mənfəət}} \quad (17)$$

$$\text{Price to Earnings Ratio} = \frac{\text{PRice per Share}}{\text{Earnings per Share}} \quad (18)$$

2022: Səhm üzrə mənfəət və səhm üzrə qiymət haqqında məlumat verilmir.
2021: Səhm üzrə qazanc və səhm üzrə qiymət haqqında məlumat verilmir.
2020: Səhm üzrə qazanc və səhm üzrə qiymət haqqında məlumat verilmir.

6. Digər Mülahizələr:

- Dövriyyə kapitalı meylləri: Dövriyyə kapitalı illər ərzində azalır, bu, xüsusilə 2022-ci ildə mənfi dövriyyə kapitalı ilə potensial maliyyə stressini göstərir.
- Borc tendensiyaları: Ümumi borc artmaqdadır və bu, şirkətin borc öhdəliklərini idarə etmək qabiliyyəti ilə bağlı narahatlıqları artırır.
- Kapital və Səhm Emissiyası: Səhmdarların kapitalı nisbətən sabit qalmışdır, lakin buraxılmış səhmlərin sayında artım olmuşdur. Bu, mövcud səhmdarların dəyərini azalda bilər.

Nəticə:

Xalis gəlir, satış və məsrəflər üçün konkret rəqəmlər olmadan rentabelliyin, səmərəliliyin və bazar fəaliyyətinin hərtərəfli təhlili mümkün deyil. Bununla belə, likvidlik və borc tendensiyaları narahatlıq doğurur və şirkət üçün potensial maliyyə problemlərini göstərir. Şirkət üçün likvidlik mövqeyini yaxından izləmək, borcları effektiv idarə etmək və gəlirliliyi və əməliyyat səmərəliliyini artırmaq üçün strategiyaları nəzərdən keçirmək çox vacibdir.

Nəticə və Tövsiyələr

Süni intellekt texnologiyasının yayılması bir çox sektorlarda durmadan artır. O, tətbiq edildiyi sektorlarda qısa, orta və ya uzun müddətli əhəmiyyətli dəyişikliklər yarada bilməkdədir. Bu dəyişikliklərlə birlikdə peşələrini davam etdirən insanlar texnologiyanı da yaxşı bilməlidirlər. Artıq dünyada mühasibat uçotunda bir çox təşkilat mühasibatlıq proseslərində süni intellektdən istifadə etməyə başlamışlar. Bu vəziyyətdə mühasibat peşəsi üzrə işçi qüvvəsinə ehtiyac azala bilər. Çünki insanların həyata keçirə biləcəyi əməliyyatlar artıq maşınlar tərəfindən daha qısa müddətdə və daha az səhvlə tərtib və tətbiq edilə bilər.

Süni intellektin mühasibatlığa təsiri də çox böyük olacaqdır. Mövzu ilə bağlı əvvəlki araşdırmalarda, mühasibat uçotu proseslərində süni intellekt anlayışı istifadə diləcəkdir. Cəlb edilmiş insanlardan gözlənilən peşəkar keyfiyyətlər texnologiyaların da sürətli inkişafı süni intellektlərdən gözləniləcəkdir. Texnologiyanın sürətlə artan istifadəsi ilə mühasibatlıq peşəsi üzvlərindən texnoloji düşüncə və bacarıqlar haqqında məlumat əldə etmək kifayət qədər əhəmiyyətli hala gəlir. Xüsusilə Azərbaycanda vergi yığımı sahəsində rəqəmsallaşma prosesindən bəhs etmək mümkündür. Vergilər daha çox onlayn hala gətirilir və qısa müddətdə toplanıla bilir. Bununla belə, mühasibat uçotu qeyd etmək, təsnif etmək, ümumiləşdirmək, təhlil etmək və hesabat vermək funksiyaları baxımından da yaxşılaşdırılır və bunlar süni intellektlə təkmilləşdirilməlidir. Bunun səbəbləri arasında Azərbaycanda vergiyə dayanıq mühasibatlıq sisteminin olması və bu sahədə texnologiyanın istifadəsi çox baha başa gəlir və biznes, firmalar üçün xaricdən gətirilən programlar Azərbaycan qaydalarına tam uyğun gəlmir, mühasibat uçotu qanunvericiliyinin tez-tez dəyişdirilməsi və s. artıq 2018-ci ildən etibarən yavaş-yavaş Beynəlxalq Standartlara keçirilmə süni intellektin tətbiqini çətinləşdirir. Beləliklə, süni intellekt texnologiyası ölkəmizdə mühasibatlıq peşəsinə əhəmiyyətli dərəcədə təsir edir. Onu hələ də məhdud hesab etmək olar. Sonrakı dövrlərdə mütəxəsislərimiz mühasibatlıq peşəsində ətraflı araşdırmalar apararaq peşənin texnologiyaya uyğunlaşma səviyyəsi və süni intellekt kimi araşdırmalar vasitəsilə kəşfiyyat proqramlarına ehtiva edən mühasibat və audit firmalarının nümunələri Keys tədqiqatlarının aparılmasına tövsiyə olunacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Aytulun, A. (2017). Yapay Zekâ, Endüstri ve Denetim, https//istanbulymmo.org.tr; 11.10.2023
2. Gacar, A. (2019). Yapay zekâ ve yapay zekânın muhasebe mesleğine olan etkileri: Türkiye'ye yönelik fırsat ve tehditler. Balkan Sosyal Bilimler Dergisi, 8, 389–394.
3. Jonathan, P., Bowen, Alan Turing: Founder of Computer Science, Engineering Trustworthy Software Systems, Borough Road, London SE1 0AA, 2017, UK.
Bu tədqiqat işinin məqsəd və vəzifələri hazirda mövcud olan mühasibat balans cədvəlinin təkmilləşdirilməsi, onun iqtisadi əhəmiyyətinin yüksəldilməsindən ibarətdir. Məlum olduğu kimi, balans bir-birinə bərabər olan, pul vahidilə ifadə olunan aktiv və passiv hissələrdən ibarətdir. Balans cədvəlində çoxlu ədədlərin mövcudluğu onun təhlilini çətinləşdirdiyi üçün bu tədqiqat işinə ehtiyac yarandi. Çünki balans hesabatinda qeyd olunan ədədi göstəricilərin müqayisə olunmasi əlavə problemlərin yaranmasina, səhvlərin buraxilmasina gətirib çixarir. Tədqiqat nəticəsində belə qənaətə gəlindi ki, mövcud balans formasina "xüsusi çəki" adlanan faiz göstəriciləri də əlavə olunsun. Bu göstəricələrin yiğcamliği onlarin başa düşülməsini asanlaşdirir, yorğunluq yaratmir və təhlil zamani səhvləri minimuma endirir. Bu tədqiqat işinin strukturu mühasibat balansi haqda anlayiş, balansin məzmunu və quruluşu kimi bölmələrdən ibarətdir.

Tədqiqat metodu

qarşiya qoyulmuş məsələnin həll olunmasi üçün bu tədqiqat işində riyazi hesablamalardan, ekzel kompüter proqramindan istifadə edilmişdir. Nəticədə balans cədvəlinin təkmilləşdirilmiş formasi və diaqramlar bu işə əlavə olunmuşdur. Balansin əvvəlki formasini cədvəl 1, "xüsusi çəki" adlanan göstəricinin əlavə edilmiş təkmilləşmiş formasini isə cədvəl 2 şəklində təqdim edirəm. Burada diaqram 1 cədvəl 2-nin aktivindəki, diaqram 2 isə passivindəki göstəricilərə əsasən kompüter tərəfindən avtomatik tərtib olunmuşdur.

Balans haqda anlayiş

Balans dedikdə müəssisənin maliyyə vəziyyətini ifadə edən hesabat başa düşülür. Bu hesabatda müəssisənin əmlaki və öhdəlikləri haqda məlumatlar ümumiləşdirilir.

Balans latin sözü olub "bislanx" sözündən götürülmüşdür. Burada bis-iki, lanx isə tərəzinin bir-birinə bərabər olan 2 hissəsi mənasini verir. Bu bərabərliyin simvolu mühasiblərin 1946-ci ildə keçirilmiş beynəlxalq konqresində qəbul edilmiş gerbdə əks olunmuşdur.

Təcrübədə müxtəlif formali balanslardan istifadə olunur. Bunlara nümunə olaraq aşağidakilari göstərmək olar:

- mühasibat balansi
- müəssisənin mənfəət və zərər balansi
- əsas vəsaitlər (fondlar) balansi
- material balansi
- əmək ehtiyati balansi

Mühasibat balansi aliyyə hesabatlarinin tərkibinə daxildir. Maliyyə-mühasibat hesabatlarinin nümunəvi formalari, o cümlədən mühasibat balansi, onlarin doldurulmasi qaydalari, azərbaycan respublikasinin maliyyə nazirliyi tərəfindən müəyyən olunur.

Maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə əsasən müəssisə mənfəət, yaxud zərər əldə etdikdə mənfəət və zərər balansi tərtib olunur.

Əsas vəsaitlər (fondlar) balansinda müəssisənin əsas vəsaitləri haqda məlumatlar əks olunur.

Material balansinda müəssisənin material ehtiyatlarinin vəziyyəti haqda məlumatlar ümumiləşdirilir.

Əmək ehtiyatlari balansi əmək ehtiyatlari ilə bağli mövcud vəziyyətin öyrənilməsi üçün tərtib edilir.

Hər hansi balansin tərtibi üçün onun aktivinə və passivinə mühasibat hesablarindaki debet, yaxud kredit qaliqlarini köçürmək lazimdir. Debet qaliqlari aktiv, kredit qaliqlati isə passiv hesablarda alinir.

Tərtib olunma prinsiplərinə görə aşağidaki dövrləri əhatə etməklə bir neçə formada balans hazirlanir:

- Giriş balansi
- Cari balans
- Ləğv olunma balansi
- Bölüşdürmə balansi
- Birləşmə balansi

Giriş balansi müəssisənin yaradilma tarixinə nizamnamə fondu əsas götürülməklə tərtib olunur. Hər bir mühasibat subyekti fəaliyyətə başlayarkən giriş balansi tərtib edir. Giriş balansinda müəssisənin əsas əmlak növləri, həmçinin təsisçilər tərəfindən nizamnamə kapitalina qoyulan əmlak,

pul vəsaiti, öhdəliklər əks olunur. Müəssisə yaradilarkən onun mütləq qanunla müəyyən olunmuş nizamnamə kapitali olmalidir.

Cari balans müəssisənin fəaliyyətdə olduğu müddətdə uçot siyasətinə, həmçinin hesabat dövrlərinə uyğun olaraq tərtib olunur və 3 dövrü əhatə edir. Onlardan birincisi başlanğicda, yəni, hesabat dövrünün aylarinda, rüblərində, üçüncüsü isə yekun balansi şəklində tərtib olunur. Başlanğic balans ilin əvvəlində, yekun balans isə sonunda hazirlanir. Birinci və üçüncü balanslarin tərtib olunduğu dövr araliğinda ikinci dövrə aid olan balans tərtib edilir.

Müəssisənin iqtisadi fəaliyyəti dayanacaği təqdirdə ləğv olunma balansi tərtib olunur.

Bir neçə müəssisənin ayrilacaği təqdirdə bölüşdürülmə balansinin tərtibi vacibdir. Bölüşdürülmə balansi bir neçə müəssisənin bir müəssisənin tabeçiliyindən çixaraq başqa müəssisənin tabeçiliyinə keçməsi zamani hazirlanir.

Birləşmə balansi bir neçə müəssisənin birləşərək bir müəssisənin tabeliyinə keçməsilə əlaqədar tərtib olunur.

Balansin düzgün tərtib olunmasi üçün hər bir müəssisənin uçot siyasəti dəqiq hazirlanmalidir. Uçot siyasətində müəssisənin "mühasibat uçotu haqqinda" azərbaycan respublikasinin qanunundan, ar vergi məcəlləsindən və digər normativ-hüquqi tələblərdən irəli gələn vəzifələr öz əksini tapmalidir.

Balansin məzmunu və quruluşu

Iqtisadiyyatin müxtəlif sahələrində qarşiya qoyulan vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsi, buraxilmiş səhvlərin vaxtinda aşkarlanmasi, iqtisadi proqnozlarin hazirlanmasi üçün müəyyən məlumatlarin əldə edilməsi vacibdir. Bu zaman mövcud əsas vəsaitlər, onlarin yaranma mənbələri haqda dəqiq məlumatlara malik olmaq, vəsaitlərin tərkibini, təyinatini öyrənmək üçün onlari iqtisadi cəhətdən qruplaşdirmaq lazimdir. Bu cür qruplaşma mühasibat balansi vasitəsilə aparilir. Bu fakti nəzərə alaraq, təsərrüfat vəsaitlərinin və onlarin yaranma mənbələrinin pul ilə ümumiləşdirilməsinə, eyni zamanda, iqtisadi cəhətdən qruplaşdirilmasina balans demək olar.

Təcrübədə təsərrüfat vəsaitlərinin tərkibini, yerləşməsini və onlarin əmələ gəlmə mənbələrini ayriliqda əks etdirmək lazim gəlir. Buna görə də balans 2 hissədən ibarət cədvəl formasinda tərtib olunur. Bu cədvəlin sol tərəfi aktiv, sağ tərəfi isə passiv adlanir. Aktivdə mövcud vəsaitlərin tərkibi və yerləşməsi, passivdə isə onlarin yaranma mənbələri göstərilir.

Daha dəqiq desək, balansin aktivində müəssisəyə məxsus əmlak qruplari üzrə əsas vəsaitlər, qeyri-maddi aktivlər, uzun müddətli maliyyə qoyuluşlari, təsisçilərlə hesablaşmalar, ehtiyatlar və məsrəflər (istehsal ehtiyatlari, azqiymətli və tezköhnələn əşyalar, hazir məhsul, mallar və s.), sair aktivlər (yüklənmiş mallar, debitorlarla hesablaşmalar, pul vəsaitləri, xəzinə, bank hesablaşma hesabi, valyuta hesabi, zərər) və sair vəsaitlər əks olunur.

Balansin passivində xüsusi vəsait mənbələri (nizamnamə kapitali, ehtiyat kapitali, istehlak fondlari, mənfəət, sair passivlər (uzun müddətli kreditlər, qisa müddətli bank kreditləri, digər müəssisələrə olan borclar, təsisçilərlə hesablaşmalar) və sair qeyd olunur.

Qeyd olunan maddələr balansin aktivində və passivində müəyyən ardicilliqla qruplaşdirilir. Bu cür qruplaşma müəssisənin maliyyə vəziyyətinə nəzarət etməyə imkan verir. Balansin aktivi 3, passivi isə 2 bölmədən ibarətdir. Hər bölməyə bir neçə maddə daxildir. Balansin hər bir bölməsinə daxil olan maddələrdə qeyd olunmuş məbləğlər toplanmaqla bölmə üzrə yekunlar müəyyən olunur. Sonra ayriliqda aktivin və passivin bütün bölmələrinin cəmi toplanir. Nəticədə ayriliqda həm aktiv, həm də passiv hissələrin cəmi tapilir və balans cədvəlində qeyd edilir. Bu zaman balansin aktiv üzrə yekununun passiv üzrə yekununa bərabər olmasina diqqət yetirmək lazimdir. Əgər bu yekunlar bərabər olmazsa, deməli, balans səhv tərtib olunub. Bu zaman həmin səhv mütləq şəkildə tapilib aradan qaldirilmalidir.

Balans milli valyuta ilə tərtib olunmalidir.

Balans kompüter texnologiyalarindan istifadə edilməklə tərtib olunduqda hesabi səhvlərin yaranma ehtimali azalir. Ekzel və 1 c kompüter mühasibat proqramlarinda balansin hazirlanmasi prosesi sürətlənir. Xüsusilə böyük müəssisələrdə balansin tərtibi üçün ikt-dən istifadə olunmasi vacibdir.

Balansda qeyd olunmuş kapitalin düzgünlüyünə də diqqətlə yanaşmaq lazimdir. Kapitalin müəyyən olunmasi üçün müəssisənin mövcud aktivlərindən onun bütün öhdəliklərini çixmaq lazimdir. Kapitala daxildir: nizamnamə kapitali, ehtiyat kapitali, xəzinə səhmləri, bölüşdürülməmiş mənfəət.

Müəssisə mənfəət əldə edərsə kapital artacaq, fəaliyyətini zərərlə başa vurduqda isə azalacaq.

mühasibat balansinin təkmilləşdirilməsi nəticəsində balans cədvəlinə yeni bir sütun əlavə olundu. Bu sütun "xüsusi çəki" adlanmaqla balansin həm aktiv, həm də passiv bölmələrini əhatə edir. Təkmilləşdirilmiş balans cədvəl 2-də verilmişdir. Burada xüsusi çəki faizlə ifadə olunmuşdur. Xüsusi çəki balansdaki göstəricələr barədə qisa vaxt ərzində tam təsəvvürə malik olmağa, onlari müqayisəli şəkildə təhlil etməyə imkan verir. Aktivdə xüsusi çəki göstəricisinin böyük olmasi müəssisənin dayaniqli iqtisadi-maliyyə nəticəsinə malik olduğunu göstərir. Xüsusi çəki göstəricisinin passiv hissədə böyük olmasi müəssisənin borc və öhdəliklərinin çoxluğunu ifadə edir ki, bu da yaxşi hal hesab edilmir. Burada yalniz mənfəət istisnaliq təşkil edir. Çünki hər bir iqtisadi subyektin, o cümlədən müəssisənin məqsədi daha çox mənfəət əldə etməkdir.

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr müzakirə edilir. Əldə edilmiş nailiyyətlər, üstünlüklər və işin səmərəliliyi qeyd edilir.

4. Ədəbiyyat siyahisi

Tədqiqat işində istinadlar apa stilinə uyğun olaraq qeyd olunur. Yəni istinad cümlənin sonunda mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilir. Nümunə üçün: (qasımov, 2023). İstinaddan sonra nöqtə qoyulur. Ən çox istifadə edilmiş 5 ədəbiyyat göstərilməli və aşağıdakı nümunəyə uyğun olmalıdır:

1. Abbasov q. Ə. B. Mühasibat uçotu (dərslik) (2015), 85-96
2. Səbzəliyev s. M. B. Mühasibat uçotu (2008), 5-8
1. Терентьева т. В. М. (2011), вузовский учебник, 12-39
2. Церпенто с. И. М. (2011), учет на предпричтиях малго и среднего бизнеса, 43-70
3. Попенова с. Н. М. (2010), теория бухгалтерского учета, 15-84

Əlavə

Fəsillərin və mətnlərin formati

Məqaləni tərtib etmək üçün hər bir bölməyə (ana başlıq, alt başlıq, mətn, siyahı, və s.) Uyğun olan format (şriftin adı, ölçüsü, kənar məsafələri və s.) Şablonda verilmişdir. Məruzəni şablonun üzərində işləyərkən lazım olan format qorunacaqdır. Bu formatı dəyişdirməyə icazə verilmir.

Məqalənin mətni 2000 – 8000 söz arası olmalıdır.

Şəkillər və cədvəllər

Cədvəl 1.Müəssisə balansı
Ölçü vahidi min manat

Aktiv	Sətir kodu	İlin sonuna	Passiv	Sətir kodu	İlin sonuna
I. Əsas vəsaitlər və sair dövriyyədən kənar aktivlər.			I. Xüsusi vəsaitlərin mənbəələri		
Əsas vəsaitlər	010	30	Nizamnamə kapitalı	400	20
Qeyri–maddi aktivlər	011	10	Əlavə kapital	401	10
Uzunmüddətli maliyyə qoyuluşları	050		Ehtiyat kapitalı	402	0
Təsiriçilərlə hesablaşmalar	060	20	İstehlak fondları	420	0
			Məqsədli maliyyələşmə	450	0
			Mənfəət	470	20
I. Bölmə üzrə cəmi	080	60	I. Bölmə üzrə cəmi	480	50
Ii. Ehtiyatlar və məsrəflər			Ii. Hesablaşmalar və sair passivlər		0
İstehsal ehtiyatları	100	70	Uzunmüddətli bank kreditləri	500	60
Azqiymətli və tezköhnələn əşyalar	120	10	Uzunmüddətli borclar	510	10
Bitməmiş istehsalat	130	0	Qısamüddətli bank kreditləri	600	30

			Qısamüddətli borclar	620	0
Hazır məhsul	150	20	Kreditorlarla hesablaşmalar	630	200
Mallar (satış qiyməti)	160	40	Alıcılar və sifarişçilərdən alınmış avanslar	720	20
Əlavə dəyər vergisi (ədv)	175	5	Təsisçilərlə hesablaşmalar	725	0
Sair ehtiyatlar və məsrəflər	176	5	Gələcək dövrün gəlirləri	730	0
Ii. Bölmə üzrə cəmi	180	150	Ii. Bölmə üzrə cəmi	770	320
Iii. Pul vəsaitləri, hesablaşmalar və sair aktivlər					
Yüklənmiş mallar	199	10			
Debitorlarla hesablaşmalar	200	30			
Malsatan və podratçılara verilmiş avanslar	260	10			
Qısamüddətli maliyyə qoyuluşu	270	0			
Pul vəsaitləri:					
Kassa	280	20			
Hesablaşma hesabı	290	80			
Valyuta hesabı	300	0			
Sair dövriyyə aktivləri	320	10			
Iii. Bölmə üzrə cəmi	330	160			
Zərərlər:					
Keçmiş illər	340	0			
Hesabat ilində	350	0			
Balans (080, 180,330,340		370	Balans (480 və 770-ci		370
Rəhbər			Baş mühasib		

Cədvəl 2. Müəssisə balansı
Ölçü vahidi min manat

Aktiv	Sətir kodu	İlin sonuna	Xüsusi Çəki (%)	Passiv	Sətir kodu	İlin sonuna	Xüsusi çəki (%)
I. Əsas vəsaitlər və sair dövriyyədən kənar aktivlər.				I. Xüsusi vəsaitlərin mənbəələri			
Əsas vəsaitlər	010	30	8	Nizamnamə kapitalı	400	20	5
Qeyri–maddi aktivlər	011	10	3	Əlavə kapital	401	10	3
Uzunmüddətli maliyyə qoyuluşları	050			Ehtiyat kapitalı	402	0	
Təsiriçilərlə hesablaşmalar	060	20	5	İstehlak fondları	420	0	
				Məqsədli maliyyələşmə	450	0	
				Mənfəət	470	20	5
I. Bölmə üzrə cəmi	080	60	16	I. Bölmə üzrə cəmi	480	50	13
Ii. Ehtiyatlar və məsrəflər				Ii. Hesablaşmalar və sair passivlər		0	
İstehsal ehtiyatları	100	70	19	Uzunmüddətli bank kreditləri	500	60	16
Azqiymətli və tezköhnələn əşyalar	120	10	3	Uzunmüddətli borclar	510	10	3
Bitməmiş istehsalat	130	0		Qısamüddətli bank kreditləri	600	30	8
				Qısamüddətli borclar	620	0	
Hazır məhsul	150	20	5	Kreditorlarla hesablaşmalar	630	200	54
Mallar (satış qiyməti)	160	40	11	Alıcılar və sifarişçilərdən alınmış avanslar	720	20	5
Əlavə dəyər vergisi (ədv)	175	5	1	Təsisçilərlə hesablaşmalar	725	0	
Sair ehtiyatlar və məsrəflər	176	5	1	Gələcək dövrün gəlirləri	730	0	
Ii. Bölmə üzrə cəmi	180	150	41	Ii. Bölmə üzrə cəmi	770	320	86
Iii. Pul vəsaitləri, hesablaşmalar və sair aktivlər							
Yüklənmiş mallar	199	10	3				
Debitorlarla hesablaşmalar	200	30	8				
Malsatan və podratçılara verilmiş avanslar	260	10	3				
Qısamüddətli maliyyə qoyuluşu	270	0					
Pul vəsaitləri:							
Kassa	280	20	5				
Hesablaşma hesabı	290	80	22				
Valyuta hesabı	300	0					
Sair dövriyyə aktivləri	320	10	3				
Iii. Bölmə üzrə cəmi	330	160	44				
Zərərlər:							
Keçmiş illər	340	0					
Hesabat ilində	350	0					
Balans (080, 180,330,340		370		Balans (480 və 770-ci		370	
Rəhbər				Baş mühasib			

Diaqram 1 (aktivlər)



Diaqram 2 (passivlər)



Tənliklər

a= k+ö (1)

Burada a-balansin aktivini, k-kapitali, ö-öhdəliyi göstərir. Tənliklərdə məchulun tapilmasi qaydasindan istifadə edərək, tənlik (1)-dən kapitali tapa bilərik:

k=a-ö (2)

Digər göstəricilər də bu qayda ilə tapilir.

BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLARIN BÖHRANDAN ZƏRƏR ÇƏKMİŞ ÖLKƏLƏR ÜÇÜN TƏKLİF ETDİYİ MALİYYƏ YARDIMI PROQRAMLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

ÜMMÜHƏBİBƏ QƏLƏNDƏROVA
Bakı Dövlət Universiteti
Dünya İqtisadiyyatı Kafedrası
ummuhabibagalandarova@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Qlobal iqtisadi böhranların artan tezliyinə cavab olaraq, tədqiqatın məqsədi əsas beynəlxalq iqtisadi təşkilatlar tərəfindən həyata keçirilən maliyyə yardımı proqramlarının effektivliyinin hərtərəfli araşdırılmasını təmin etməkdir. Tədqiqat bütün dünyada dövlətlərin üzləşdiyi davamlı iqtisadi qeyri-müəyyənliklər kontekstində çox aktualdır. Onun məqsədi Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı və regional inkişaf bankları kimi qurumlar tərəfindən təşkil edilən maliyyə yardımı proqramlarını tənqidi qiymətləndirmək və müqayisə etməkdir. Tədqiqat fərdi proqramların ənənəvi tədqiqindən kənara çıxan müqayisəli yanaşmadan istifadə etməklə elmi yenilik təqdim edir. Müxtəlif təşəbbüsləri qarşı-qarşıya qoyaraq, tədqiqat beynəlxalq iqtisadi yardımın dinamikasının daha dərindən dərk edilməsinə töhfə verən yeni perspektiv təklif edərək, nümunələri, uğurları və çətinlikləri üzə çıxarmaq məqsədi daşıyır. Tədqiqat nəzəriyyə və tətbiq arasında körpü yaratmaqla praktik əhəmiyyət kəsb edir. Nümunəvi təcrübələri tədqiq etməklə və proqramın effektivliyi meyarlarını qiymətləndirməklə, o, siyasətçilər, praktiklər və beynəlxalq təşkilatlar üçün təsirli fikirlər təqdim etmək məqsədi daşıyır. Tədqiqatın müqayisəli xarakteri, maliyyə yardımı proqramlarının vahid görünüşünü təklif edərək, fərqli üstünlük təmin edir. Bu, onların rollarını, güclü və zəif tərəflərini hərtərəfli başa düşməyə imkan verir, ən yaxşı təcrübələri və təkmilləşdirmə üçün potensial sahələri müəyyən etməyə imkan verir. Gözlənilən nəticələrə maliyyə yardımı proqramlarının böhrandan əziyyət çəkən ölkələrə təsirinin nüanslı anlayışı, beynəlxalq iqtisadi təşkilatlar tərəfindən tətbiq edilən effektiv strategiyaların müəyyən edilməsi və bu proqramların optimallaşdırılması üçün praktiki tövsiyələr daxildir.

AÇAR SÖZLƏR: maliyyə yardımı proqramları, beynəlxalq iqtisadi təşkilatlar, böhranın idarə edilməsi

SUMMARY

In response to the increasing frequency of global economic crises, the research aims to provide a comprehensive examination of the effectiveness of financial assistance programs implemented by major international economic organizations. The study is highly relevant in the context of continuing economic uncertainties faced by nations around the world. Its purpose is to critically evaluate and compare financial assistance programs organized by institutions such as the International Monetary Fund (IMF), the World Bank, and regional development banks. The study provides scientific innovation by using a comparative approach that goes beyond the traditional study of individual programs. By juxtaposing different initiatives, the study aims to uncover patterns, successes and challenges, offering a new perspective that contributes to a deeper understanding of the dynamics of international economic aid. Research is of practical importance by bridging the gap between theory and practice. By examining best practices and assessing criteria for program effectiveness, it aims to provide actionable insights for policymakers, practitioners, and international organizations. The comparative nature of the study provides a distinct advantage by offering a holistic view of financial aid programs. This enables a thorough understanding of their roles, strengths and weaknesses, identifying best practices and potential areas for improvement. Expected outcomes include a nuanced understanding of the impact of financial aid programs on crisis-stricken countries, identification of effective strategies implemented by international economic organizations, and practical recommendations for optimizing these programs.

KEYWORDS: financial aid programs, international economic organizations, crisis management

GİRİŞ

Bir-biri ilə əlaqəli qlobal iqtisadiyyatımızın mürəkkəb qobelenində xalqların dayanıqlığı və sabitliyi çox vaxt gözlənilməz böhranlarla daha da kəskinləşən çoxillik çətinliklərlə üzləşir. Bu tədqiqat beynəlxalq iqtisadi təşkilatlar tərəfindən iqtisadi tənəzzül və böhranlarla mübarizə aparan ölkələrə maliyyə yardımı proqramları ilə bağlı incəlikləri üzə çıxarmağa çalışır.

1. Tədqiqatın aktuallığı və əhəmiyyəti. İqtisadi qarşılıqlı asılılığın hökm sürdüyü dünyada bir millətin maliyyə rifahı digərlərinin sabitliyinə təsir edən dalğalı təsirlərə malikdir. Son qlobal hadisələr beynəlxalq iqtisadi təşkilatlar tərəfindən təşkil edilən maliyyə yardımı proqramlarının dinamikasını dərk etməyin kritik əhəmiyyətini vurğulayır.

2. Tədqiqata ehtiyac. Qlobal mənzərə daimi transformasiyaya məruz qaldıqca, dövlətlər valyuta dəyişmələrindən tutmuş suveren borc böhranlarına qədər bir sıra iqtisadi problemlərlə mübarizə aparırlar. Əvvəllər tamamlanmış tədqiqatları araşdıraraq və mövcud boşluqları müəyyən etməklə, bu iş səmərəli iqtisadi bərpa mexanizmləri haqqında diskursa töhfə vermək məqsədi daşıyır.

3. Tədqiqatın məqsədləri və metodologiyası. Bu tədqiqatın əsas məqsədi beynəlxalq iqtisadi təşkilatlar tərəfindən təklif olunan maliyyə yardımı proqramlarının dəqiq müqayisəli təhlilini aparmaqdır. Metodologiya dərin nəticələr əldə etmək üçün mövcud ədəbiyyatın hərtərəfli nəzərdən keçirilməsini, nümunə araşdırmalarını və müqayisəli qiymətləndirmə çərçivəsini birləşdirir.

4. Tədqiqat işinin strukturu. Tədqiqat hər biri müəyyən bir məqsədə xidmət edən ayrı-ayrı başlıqlarla strukturlaşdırılmışdır. Sonrakı başlıqalar əsas beynəlxalq iqtisadi təşkilatların rollarını, onların təklif etdiyi maliyyə yardımlarının növlərini, böhrandan əziyyət çəkən dövlətlərin nümunələrini və hərtərəfli müqayisəli təhlili araşdıracaqdır.

TƏDQİQAT METODU

Beynəlxalq İqtisadi Təşkilatlar

Beynəlxalq münasibətlərin və qlobal iqtisadiyyatın mürəkkəb şəbəkəsində bir neçə əsas təşkilat siyasətlərin formalaşdırılmasında, maliyyə yardımının təmin edilməsində və xalqlar arasında əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayır. Böyük beynəlxalq iqtisadi təşkilatlar iqtisadi qeyri-müəyyənlik və böhranlar zamanı dəstək sütunları kimi dayanaraq milli sərhədləri aşan problemləri həll etmək üçün kollektiv şəkildə çalışırlar.

Qlobal iqtisadi idarəetmənin önündə Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı və Asiya İnkişaf Bankı və Afrika İnkişaf Bankı kimi regional inkişaf bankları kimi qurumlar dayanır. Bu qurumlar müxtəlif üzvlükləri ilə əməkdaşlığı inkişaf etdirmək, maliyyə resursları təmin etmək və iqtisadi çətinliklərlə üzləşən ölkələrə təcrübə təklif etmək məqsədi daşıyır.

Beynəlxalq iqtisadi təşkilatlar qlobal iqtisadi sabitlik üçün mühüm kanal rolunu oynayır. Böhran zamanlarında onlar ehtiyacı olan ölkələrə maliyyə yardımı, siyasi məsləhətlər və texniki ekspertizalar təklif edərək ilk müdaxilə kimi çıxış edirlər. Onların kollektiv səyləri iqtisadi infeksiyanın yayılmasının qarşısını almaq, daha möhkəm və bir-biri ilə əlaqəli qlobal iqtisadi sistemi təmin etmək məqsədi daşıyır (ECA, 2015).

Beynəlxalq iqtisadi təşkilatların əsas məqsədlərindən biri müxtəlif problemlərlə üzləşən iqtisadiyyatları sabitləşdirməkdir. Maliyyə yardımı paketləri və siyasət tövsiyələri kimi mexanizmlər vasitəsilə bu təşkilatlar maliyyə bazarlarına inamı bərpa etmək, inflyasiyanın qarşısını almaq və fiskal məsuliyyəti təşviq etmək üçün çalışırlar.

Dərhal böhranın idarə edilməsindən əlavə, beynəlxalq iqtisadi təşkilatlar davamlı inkişafı dəstəkləməyə sadiqdirlər. Onlar resursları infrastrukturun inkişafı, yoxsulluğun azaldılması və ekoloji davamlılıq kimi uzunmüddətli iqtisadi və sosial problemləri həll edən layihələrə yönəldirlər.

Beynəlxalq iqtisadi təşkilatlar böhranlar zamanı xalqların qarşılıqlı əlaqəsini və paylaşılan zəifliklərini tanıyırlar. Vaxtında dəstək göstərməklə bu təşkilatlar iqtisadi tənəzzüllərin mənfi təsirlərini yumşaltmağa, həssas əhaliyə təsirləri azaltmağa və daha ədalətli qlobal iqtisadi mənzərəni təşviq etməyə kömək edir.

Maliyyə yardımı proqramları

Maliyyə yardımı proqramları müxtəlif ehtiyacları qarşılamaq üçün müxtəlif resursları təmin edərək, iqtisadi çətinliklərlə mübarizə aparan dövlətlərə dəstəyin əsasını təşkil edir. Bu proqramlar adətən üç əsas kateqoriyaya bölünür (ECA, 2015):

● Kreditlər maliyyə yardımının ümumi formasını təmsil edir, burada dövlətlər təcili maliyyə ehtiyaclarını ödəmək və ya uzunmüddətli inkişaf layihələrini həyata keçirmək üçün borc götürə

bilərlər. Kreditlər mühüm likvidlik təmin etsə də, onlar tez-tez ödənişlərin təmin edilməsinə və maliyyə sabitliyinin gücləndirilməsinə yönəlmiş iqtisadi islahatlar, qənaət tədbirləri və siyasətə düzəlişlər kimi şərtlərlə gəlir.

● Qrantlar, kreditlərdən fərqli olaraq, geri ödəmə öhdəliyi olmadan maliyyə yardımı təklif edir. Onlar tez-tez davamlı inkişafa, yoxsulluğun azaldılmasına və ya humanitar səylərə töhfə verən layihələri dəstəkləmək üçün yerləşdirilir. Qrantlar kəskin böhranlarla üzləşən ölkələrə yardımın təmin edilməsində və ənənəvi borclanma vasitəsilə maliyyə cəhətdən mümkün olmayan təşəbbüslərin təşviqində mühüm rol oynayır.

● Texniki yardım səmərəli iqtisadi siyasət və islahatların həyata keçirilməsində xalqlara kömək etmək üçün təcrübə, bilik və bacarıqların təmin edilməsini nəzərdə tutur. Bu dəstək forması potensialın artırılması, institusional gücləndirilməsi və maliyyə yardımı proqramlarının uğurla həyata keçirilməsinə kömək etmək üçün xüsusilə dəyərlidir.

Xüsusi nümunə tədqiqatlarının araşdırılması maliyyə yardımı proqramlarının necə fəaliyyət göstərməsi və müxtəlif kontekstlərdə ölkələrə təsir göstərməsi ilə bağlı nüanslı bir anlayış təklif edir. Əsas beynəlxalq iqtisadi təşkilatların təcrübələrini araşdırarkən biz müxtəlif maliyyə yardımı mexanizmlərinin effektivliyi və nəticələri haqqında dəyərli fikirlər əldə edirik (Gurtner, 2010).

1. BVF (Beynəlxalq Valyuta Fondu):

Struktur Tənzimləmə Proqramları ölkənin iqtisadi balanssızlıqlarını aradan qaldırmaq üçün BVF tərəfindən təyin olunan hərtərəfli siyasət tədbirləri paketidir. Bu tədbirlərə tez-tez makroiqtisadi sabitliyi bərpa etmək və davamlı artımı təşviq etmək məqsədi daşıyan fiskal islahatlar, valyuta devalvasiyası və özəlləşdirmə daxildir.

Sürətli Maliyyələşdirmə Aləti təcili ödəniş balansı ehtiyacları ilə üzləşən üzv ölkələrə təcili maliyyə yardımı göstərmək üçün BVF tərəfindən istifadə edilən mexanizmdir. O, BVF-nin ənənəvi proqramları ilə bağlı sərt siyasət şərtləri olmadan vəsaitlərin tez bir zamanda yeridilməsini təklif edir.

2. Dünya Bankı

İnkişaf Siyasəti Kreditləri borc alan ölkələrdə hərtərəfli siyasət islahatlarını dəstəkləmək üçün Dünya Bankı tərəfindən təmin edilən maliyyə alətləridir. Bu kreditlər sistemli problemləri həll etmək və davamlı inkişaf üçün əlverişli mühit yaratmaq məqsədi daşıyır.

İnvestisiya Layihəsinin Maliyyələşdirilməsi yardım forması ölkənin uzunmüddətli iqtisadi tərəqqisinə töhfə verən infrastrukturun inkişafı və ya sosial proqramlar kimi xüsusi layihələrin maliyyələşdirilməsini nəzərdə tutur (Gurtner, 2010).

3. Regional İnkişaf Bankları

Asiya İnkişaf Bankı inklüziv iqtisadi artımı və regional əməkdaşlığı təşviq etmək üçün kreditlər və qrantlar da daxil olmaqla müxtəlif maliyyə alətləri vasitəsilə Asiya və Sakit Okean regionunda üzv dövlətləri dəstəkləyir.

Afrika İnkişaf Bankı infrastruktur, təhsil və səhiyyə layihələri üçün maliyyə dəstəyi vasitəsilə Afrika ölkələrində iqtisadi inkişafın təşviqinə və yoxsulluğun azaldılmasına diqqət yetirir.

Əslində, maliyyə yardımı proqramlarının müxtəlifliyi iqtisadi problemlərlə üzləşən dövlətlərin nüanslı ehtiyaclarını əks etdirir. Nümunə tədqiqatları vasitəsilə biz beynəlxalq maliyyə institutlarının müxtəlif yanaşmaları və onların alıcı dövlətlərin iqtisadi trayektoriyalarına təsiri barədə fikirlər əldə edə bilərik.

Müqayisəli təhlil

Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən təklif olunan saysız-hesabsız maliyyə yardımı proqramlarını qiymətləndirərkən, hərtərəfli meyarlar toplusu onların effektivliyini və böhrandan əziyyət çəkən ölkələrə təsirini işıqlandırır. Aşağıdakı meyarlar bu proqramları sistematik olaraq qiymətləndirə biləcəyimiz obyektiv rolunu oynayır:

1. Vəsaitlərin əlçatanlığı: Ölkələrin maliyyə yardımı əldə edə bilmə sürəti və asanlığı böhran dövründə mühüm amillərdir. Vəsaitlərin vaxtında ödənilməsini təklif edən proqramlar ölkələrə təcili iqtisadi problemlərin operativ şəkildə həllinə imkan verir.

2. Şərtlər və qaydalar: Maliyyə yardımı proqramlarına əlavə edilən şərtlər və şərtlər onların həyata keçirilməsinin mümkünlüyünə və təsirinə əhəmiyyətli dərəcədə təsir göstərir. Lazımi islahatlar və potensial neqativ sosial nəticələrin yumşaldılması arasında tarazlığın yaradılması proqramın uğurlu

icrası üçün mühüm əhəmiyyət kəsb edir.

3. İqtisadi bərpaya təsir: Maliyyə yardımı proqramlarının əsas məqsədi iqtisadiyyatın bərpasını sürətləndirməkdir. ÜDM-in artımı, işsizlik dərəcələri və fiskal sabitlik kimi göstəricilərə faktiki təsirin qiymətləndirilməsi bu müdaxilələrin effektivliyinə dair təsəvvürlər yaradır.

4. Uzunmüddətli davamlılıq: Davamlı inkişaf təkcə böhranın dərhal həllinə deyil, həm də xalqların uzunmüddətli iqtisadi sabitliyinə və davamlılığına töhfə vermək üçün maliyyə yardımı proqramlarını tələb edir. Həyata keçirilən tədbirlərin davamlılığının qiymətləndirilməsi bu proqramların davamlı təsirinin ölçülməsi üçün çox vacibdir (OECD, 2009).

Uğur hekayələrini müəyyən etmək, maliyyə yardımı proqramlarının açıq şəkildə müsbət iqtisadi nəticələrə gətirib çıxardığı halların araşdırılmasını nəzərdə tutur. Buraya böhranları uğurla idarə edən, davamlı iqtisadi artıma nail olan və struktur problemlərin həlli üçün yardımdan səmərəli istifadə edən ölkələr daxil ola bilər.

Maliyyə yardımı proqramlarının həyata keçirilməsi zamanı dövlətlərin üzləşdiyi problemlərin etiraf edilməsi real qiymətləndirmə üçün zəruridir. Siyasi müqavimət, sosial iğtişaşlar və ya proqram şərtlərini yerinə yetirməkdə çətinliklər kimi məsələlər bu müdaxilələrin ümumi uğuruna təsir edə bilər.

Müqayisəli təhlil keçmiş böhranlardan öyrənilmiş dərslərə və maliyyə yardımı proqramlarının effektivliyinə əsaslanmalıdır. Dəyişən qlobal dinamikaya cavab olaraq bu proqramların təkamülünü başa düşmək və həm müvəffəqiyyətlərdən, həm də uğursuzluqlardan öyrənmək daha davamlı və uyğunlaşan strategiyaların formalaşdırılması üçün çox vacibdir.

Böhrandan zərər çəkmiş ölkələrin tədqiqatları

● Argentina

İqtisadi təlatümlərlə yadda qalan Argentina Beynəlxalq Valyuta Fondunun (BVF) proqramları ilə mürəkkəb bir tarixə malikdir. Ən son 2018-ci il də daxil olmaqla, BVF ilə dövri danışıqlar çox vaxt struktur düzəliş tədbirləri və siyasət şərtləri ilə müşayiət olunurdu. Bu proqramlar fiskal balanssızlığı aradan qaldırmaq, iqtisadiyyatı sabitləşdirmək və investorların inamını bərpa etmək məqsədi daşıyırdı. Bununla belə, qənaət tədbirlərinin tətbiqi ictimai narazılığa səbəb olub, sosial iğtişaşlara və siyasi çağırışlara səbəb olmuşdur.

BVF proqramlarının Argentinanın iqtisadi sabitliyinə təsiri davam edən müzakirə mövzusudur. Bu proqramlar həyati əhəmiyyətli maliyyə təminatları təmin etsə də, müşayiət olunan qənaət tədbirləri və struktur islahatları bəzən sosial bərabərsizlikləri və iqtisadi problemləri daha da gücləndirmişdir. Argentina iqtisadiyyatının sabitləşdirilməsində BVF müdaxilələrinin effektivliyi, nəticələrə həm proqramlara əlavə olunan şərtlər, həm də ölkənin lazımi islahatları həyata keçirmək qabiliyyəti təsir edən nüanslı bir hekayə olaraq qalır (OECD, 2009).

● Yunanıstan

Yunanıstan 2008-ci ildə qlobal maliyyə tənəzzülündən sonra baş verən ağır borc böhranı ilə üzləşdi. Beynəlxalq Valyuta Fondu (BVF) və Avropa Mərkəzi Bankı Yunanıstanın xilasetmə proqramlarında mərkəzi rol oynasa da, Dünya Bankı da, xüsusilə də kreditlərin təmin edilməsində iştirak etdi. texniki yardım və siyasət məsləhəti. Dünya Bankının töhfələri struktur problemləri həll etmək, fiskal dayanıqlığı təşviq etmək və Yunanıstanın iqtisadi dirçəliş yolunu dəstəkləmək məqsədi daşıyırdı.

Yunanıstanın borc böhranı dünya ictimaiyyəti üçün dəyərli dərslərlə ehtiyatlı təcrübə rolunu oynayır. Böhran maliyyə bazarlarının qarşılıqlı əlaqəsini və Avrozonaya xas olan zəifliklər üzə çıxardı. Dərslər borcun artmasının qarşısını almaq üçün erkən müdaxilənin vacibliyini, əlaqələndirilmiş və hərtərəfli həll yollarına ehtiyacı və sosial rifahı qoruyan tədbirlərlə fiskal konsolidasiyanı balanslaşdırmağın vacibliyini ehtiva edir. Yunanıstanın təcrübəsi iqtisadi siyasət, siyasi mülahizələr və qlobal maliyyənin daha geniş dinamikası arasında mürəkkəb qarşılıqlı əlaqəni vurğulayır.

Argentina və Yunanıstanın nümunə araşdırmaları iqtisadi böhranların idarə olunmasının mürəkkəbliyi ilə bağlı nüanslı fikirlər təklif edir. Beynəlxalq maliyyə institutları ilə təcrübələr sosial təsirləri yumşaldarkən iqtisadi çağırışlara cavab verən effektiv siyasətlərin formalaşdırılmasında tələb olunan incə balansı vurğulayır. Bu hallar böhranların idarə olunmasında və davamlı iqtisadi trayektoriyaların formalaşdırılmasında iştirak edən incəliklərin daha geniş başa düşülməsinə kömək edir (Green və b., 2010).

Maliyyə yardımı proqramlarının təkmilləşdirilməsi üçün tövsiyələr

Maliyyə yardımı proqramlarının təkmilləşdirilməsində mühüm addım keçmiş çatışmazlıqların diqqətlə araşdırılmasıdır. Proqramın icrasının ciddi qiymətləndirilməsi aparılmalı, müdaxilələrin gözləntilərdən aşağı düşdüyü sahələr müəyyən edilməlidir. Buraya sosial bərabərliyə təsirin qiymətləndirilməsi, şərtiliyin effektivliyi və proqramların müxtəlif iqtisadi mənzərələrə uyğunlaşması daxildir. Keçmiş çatışmazlıqları etiraf etməklə və onları aradan qaldırmaqla gələcək maliyyə yardımı böhrandan əziyyət çəkən ölkələrin xüsusi ehtiyaclarına daha məqsədyönlü və cavab verə bilər.

Qlobal iqtisadi mənzərə dinamikdir, yeni çağırışlar və imkanlar daim ortaya çıxır. Maliyyə yardımı proqramları bu dəyişikliklərə uyğunlaşdırılmalı, onların dizaynında və həyata keçirilməsində çevikliyi özündə birləşdirməlidir. Texnoloji irəliləyişlər, iqlimlə bağlı risklər və geosiyasi dəyişikliklər kimi amillər təkcə cari böhranlara cavab verən deyil, həm də inkişaf edən iqtisadi paradiqmalar qarşısında dayanıqlı olan proqramların hazırlanmasında nəzərə alınmalıdır (Claessens & Kose, 2013).

Beynəlxalq iqtisadi təşkilatlar arasında əməkdaşlıq maliyyə yardımı proqramlarının effektivliyi üçün mühüm əhəmiyyət kəsb edir. Təkmilləşdirilmiş koordinasiya böhranın idarə edilməsinə vahid yanaşmanı təmin edir, təkrarlanan səylərin qarşısını alır və resursları rasionallaşdırır. Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı və regional inkişaf bankları kimi qurumlar arasında təkmilləşdirilmiş kommunikasiya mexanizmləri qlobal iqtisadi çağırışlara daha əhatəli və vahid reaksiya verməyə kömək edə bilər.

Hər bir xalqın özünəməxsus problemlərini və kontekstini dərk etmək maliyyə yardımı proqramlarının uğurunun əsasını təşkil edir. Təsirə məruz qalan ölkələrin dizayn mərhələsinə cəlb edilməsi proqramların onların xüsusi ehtiyaclarına uyğunlaşdırılmasını təmin edir, sahiblik və öhdəlik hissini artırır. Bu əməkdaşlıq yanaşması yerli maraqlı tərəflərin təcrübəsini təsdiq edir, mədəni həssaslığı təşviq edir və uğurlu icra ehtimalını artırır. Bundan əlavə, o, yardımın sosial və siyasi legitimliyini artırır, daha davamlı və əhatəli bərpaya töhfə verir (Claessens & Kose, 2013).

Maliyyə yardımı proqramlarının təkmilləşdirilməsi üzrə tövsiyələr davamlı öyrənmə, uyğunlaşma və əməkdaşlığın vacibliyini vurğulayır. Keçmiş təcrübələrdən əldə edilmiş dərsləri daxil etməklə, proqram tərtibatında çevikliyi qəbul etməklə və beynəlxalq təşkilatlar və təsirə məruz qalan dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməklə qlobal birlik daha davamlı iqtisadiyyatlar və böhrana təsirli cavab mexanizmləri yaratmaq üçün səy göstərə bilər.

NƏTİCƏ

Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən təklif olunan maliyyə yardımı proqramlarının mürəkkəb qobelenini açarkən, araşdırmamız nüanslı anlayışları üzə çıxardı. Argentina və Yunanıstan kimi böhrandan əziyyət çəkən dövlətlərin nümunələri iqtisadi siyasətlərin, sosial nəticələrin və qlobal dinamikanın mürəkkəb qarşılıqlı təsirini işıqlandırmışdır. Vəsaitlərin əlçatanlığı və uzunmüddətli davamlılıq kimi meyarları rəhbər tutan müqayisəli təhlillər bu müdaxilələrin çoxşaxəli xarakterini işıqlandırmışdır. Öyrənilən dərslər çatışmazlıqların müəyyən edilməsi, dəyişən qlobal iqtisadi mənzərəyə uyğunlaşma və əməkdaşlıq yanaşmalarını qəbul etməyin vacibliyini vurğulayır.

Maliyyə yardımı proqramlarının təkmilləşdirilməsində irəliyə doğru yol keçmişdən alınan dərsləri gələcək üçün innovativ strategiyalarla birləşdirən vahid yanaşmanı əhatə edir. Bu proqramların effektivliyinin artırılması dizaynda çevikliyə sadiqlik, müxtəlif iqtisadi mənzərələrə cavab vermək və böhran vəziyyətində olan dövlətlərin üzləşdiyi unikal problemlərin tanınmasını tələb edir. Beynəlxalq iqtisadi təşkilatlar arasında koordinasiyanın gücləndirilməsi, təsirə məruz qalmış dövlətlərin proqram tərtibatına cəlb edilməsi və davamlı inkişaf məqsədlərinin təşviqi irəliyə doğru daha effektiv kursun müəyyənləşdirilməsində əsas elementlərdir.

Qlobal iqtisadi mənzərənin dinamik xarakteri davamlı qiymətləndirmə və uyğunlaşma üçün sarsılmaz öhdəliyi tələb edir. Maliyyə yardımı proqramları çevik olmalı, təkcə ani böhranlara deyil, həm də xalqların üzləşdiyi inkişaf edən çağırışlara cavab verə bilməlidir. Ciddi və şəffaf qiymətləndirmələr hər bir müdaxilədən öyrənilən dərslərin gələcək davamlılıq üçün tikinti bloklarına çevrilməsini təmin edir. Bu təkrarlanan qiymətləndirmə və uyğunlaşma prosesi zamanın sınağına tab gətirən və xalqların sabitliyinə və böyüməsinə mənalı töhfə verən proqramların hazırlanması üçün təməl daşıdır.

Biz maliyyə yardımı proqramlarının gələcəyini düşündüyümüz zaman aydın olur ki, əməkdaşlıq, adaptiv və kontekstdən asılı olan yanaşma hər şeydən vacibdir. Təcrübələrdən öyrənmək, innovasiyaları mənimsəmək və qlobal əməkdaşlığı inkişaf etdirməklə beynəlxalq ictimaiyyət davamlı

inkişaf və iqtisadi dayanıqlıq üçün həqiqətən katalizator rolunu oynayan maliyyə yardımı proqramları istiqamətində işləyə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. ECA (2015). Financial assistance provided to countries in difficulties. Luxembourg: Publications Office of the European Union, 117 p.

2. Bruno Gurtner (2010). "The Financial and Economic Crisis and Developing Countries", International Development Policy | Revue internationale de politique de développement, 189-213.

3. OECD (2009). OECD Strategic Response to the Financial and Economic Crisis. CONTRIBUTIONS TO THE GLOBAL EFFORT, 25 p.

4. Duncan Green, Richard King, May Miller-Dawkins (2010). The Global Economic Crisis and Developing Countries, Oxfam Policy and Practice: Agriculture, Food and Land. 10. 55 p.

Claessens, S., & Kose, A. (2013). Financial Crises Explanations, Types, and Implications, IMF Working Papers, 2013(028), A001. Retrieved Nov 20, 2023, 66 p.

S E K S İ Y A – 3

MALİYYƏ VƏ MÜHASİBAT

-B-

ƏNƏNƏVİ VƏ İSLAM MÜHASİBATININ MÜQAYİSƏLİ TƏHLİLİ

i.ü.f.d. Elsevər İbadov
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Maliyyə və mühasibat, Dosent
eibadov@beu.edu.az
Bakı/Azərbaycan

Günay Əhmədli
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/Maliyyə və mühasibat
gahmedli@beu.edu.az
Bakı/Azərbaycan

Gültac Bəkirova
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə/İstehsal sferasında mühasibat uçotu və audit/magistr
gbekirova1@std.beu.edu.az
Bakı/Azərbaycan

XÜLASƏ

Bu məqalədə Ənənəvi mühasibat ilə İslam mühasibatı arasında fərqləri ortaya çıxarmaq üçün müqayisəli təhlil aparılmışdır. Həmçinin İslam mühasibatına keçidin Azərbaycan üçün ola biləcək nəticələrindən bəhs edilmişdir. Təhlil nəticəsində İslam mühasibatının İslam maliyyə mərkəzləri adlanan ölkələrdə əhəmiyyətli irəliləyişlər əldə etdiyi və İslam mühasibatı sahəsində standartlar tənzimləyən AAOIFI, MHBS-dən fərqli yanaşma tətbiq etdiyi ortaya çıxmışdır.

AÇAR SÖZLƏR: Ənənəvi mühasibat, İslam mühasibatı, AAOIFI

ABSTRACT

In this article, a comparative analysis was conducted to reveal the differences between Traditional accounting and Islamic accounting. The possible consequences of the transition to Islamic accounting for Azerbaijan were also discussed. As a result of the analysis, it has been revealed that Islamic accounting has made significant progress in countries called Islamic financial centers and AAOIFI, which regulates standards in the field of Islamic accounting, applies a different approach from IFRS.

KEY WORDS: Traditional accounting, Islamic accounting, AAOIFI

GİRİŞ

Dünyada ümumi ölkə sayı 195-dir, bunlardan 57-si rəsmi olaraq islam dinini qəbul etmişdir. İslam ölkələrinin mühasibatlıq sisteminə nəzər yetirdikdə aydın olur ki, onların böyük əksəriyyəti İslam mühasibatından istifadə edirlər.

Dinin mühasibat uçotuna təsiri isə ənənəvi ədəbiyyatda o qədər də araşdırılmış bir məsələ olmamasına baxmayaraq, ikisinin arasında müəyyən bir bağlılıq mövcuddur. Belə ki, din doğruluq, dürüstlük və ədalət kimi etik davranışların formalaşmasında və həyata keçirilməsində əhəmiyyətli rola sahibdir. Ənənəvi mühasibatda da tətbiq edilən beynəlxalq standartlar mühasibat uçotu əməliyyatlarının doğruluğuna, dəqiqliyinə xüsusi önəm verir.

Ənənəvi mühasibat ilə İslam mühasibatının müqayisəsinin aparıldığı bu məqalədə İslam mühasibatının prinsipləri və nəzəri konsepsiyaları, İslam mühasibatının müasir dövrdə perspektivləri, İslam mühasibatında tətbiq olunan standartlar və İslam mühasibatının güclü və zəif tərəfləri mövzularından bəhs edilmişdir. Daha sonra Ənənəvi və İslam mühasibatının tarixi və nəzəri konsepsiyalarının müqayisəsi, Ənənəvi və İslam mühasibatının müasir dövrdə inkişafının müqayisəsi, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə İslam mühasibatı Standartlarının müqayisəli təhlili, Ənənəvi və İslam mühasibatının oxşar və fərqli cəhətləri və Ənənəvi mühasibatdan İslam muhasibatına keçidin Azərbaycan üçün mümkün ola biləcək nəticələri qeyd olunmuşdur.

TƏDQİQAT METODU

Bu məqalədə beynəlxalq mənbələr araşdırılaraq İslam mühasibatı ilə Ənənəvi mühasibat arasında müqayisəli təhlil aparılmışdır.

İSLAM MÜHASİBATNIN PRİNSİPLƏRİ VƏ NƏZƏRİ KONSEPSİYALARI

İslam iqtisadiyyatının və İslam maliyyə sisteminin ortaya çıxması və inkişafı İslam mühasibatı terminin yaranmasına ehtiyac yaratmışdır. İslam mühasibatı anlayışı yeni bir anlayış deyil, çünki ikinci Xəlifə Ömərin dövründə İslam mühasibatının tətbiqinə dair tarixi sübutlar mövcuddur (Trokic, 2015). Eyni zamanda, Quran mühasibat uçotunun əsası kimi cəmiyyətdə mühasibat təcrübələrinin inkişafı və tətbiqi üçün mühüm ayələr ehtiva edir. Bu ayələr iş dünyasında etik dəyərlərin əhəmiyyətini vurğulamaqla yanaşı, dəqiq və düzgün hesabların aparılmasının əhəmiyyətini də vurğulayır. Xüsusilə maliyyə qalmaqallarının tez-tez yaşandığı bir dövrdə bu məqamlara diqqət etmək çox əhəmiyyətlidir və bizneslərin bu dəyərlərə uyğun hərəkət etməsi lazımdır. Bu ayələr sadəcə müəssisələr üçün deyil, hər bir insanın gündəlik həyatında tətbiq etməli olduğu dəyərlərdir (Parker, 1993).

İslam mühasibatının təməl qaynağı dindir. İslam tək Allahlı bir dindir. İbadət və yaradılış Allahın qeyd-şərtsiz hökmranlığına əsaslanır. İslam dininə görə Allah hər şeyi bilir, hər an görür və buna görə də insanların bütün davranışlarını qeyd edir. İslama görə Allah insanları yer üzünün xəlifəsi etmişdir. Bu baxımdan insan, ona əmanət edilmiş sərvətlərdən istifadə etmək, ətrafa və cəmiyyətə qarşı və bütün digər davranışlarına görə Allah qarşısında məsuldur (Zilzal surəsi, 7-8-ci ayə.). Qiyamət günü insanlar bütün əməllərinə görə Allah yanında hesab verəcəklər. Bu baxımdan insanlar dünyada yaşayarkən cəmiyyətin müxtəlif təbəqələrinə qarşı məsuliyyəti olduğu kimi Allah qarşısında da məsuliyyətini dərk etməlidir. Bir insan olaraq mühasib maliyyə hesabatlarının hazırlanmasında həmişə Allah qarşısında öz məsuliyyətini dərk etməlidir. Bu məsuliyyəti daşımayan və ya pozan şəxslərin mühasibat uçotu vəsiqəsinin ləğv edilməsi düzgün yanaşma olardı.

İslam mühasibatı İslam qaydalarına uyğun olaraq maliyyə əməliyyatlarının uçotu, maliyyə hesabatlarının hazırlanması və auditinin aparılması üçün istifadə olunan uçot metodudur. İslam mühasibatı ənənəvi mühasibatında tətbiq edilən bütün üsul və qaydaları qeyri-qanuni hesab etmir, lakin bütün bu üsullar Quran və Sünnənin "sınağından keçir". İslam mühasibatı şəriətin dəyər və prinsipləri ilə ziddiyyət təşkil etmədikdə ənənəvi metodu qəbul edir, ziddiyyət təşkil etdikdə isə onu rədd edir İslam mühasibatı İslam dini prinsiplərinə uyğun hazırlanmış maliyyə hesabatlarının yaradılmasını və maliyyə əməliyyatlarının İslam qaydalarına uyğun olub-olmamasının yoxlanılmasını təmin edir. Maliyyə əməliyyatlarının ümumiləşdirilməsini tənzimləyən əsas prinsiplər aşağıdakılardır:

(a) Ticarətdə (məhdudiyyətlər nəzərə alınmaqla) faiz qadağandır;
(b) Qanunsuz və ya əsassız əməliyyat qadağandır;
(c) Ticarət müqaviləsində qeyri-müəyyənliyə icazə verilmir;
(d) Bütün əməliyyatlar hər kəsin rifahına xidmət etməlidir.

İslam mühasibat təcrübələrinin bəzi aspektləri aşağıdakı kimi sadalanır:

1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS):

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları mühasibat uçotu orqanları tərəfindən maliyyə hesabatlarını təşkil edən maddələrin işlənməsi və orada açıqlanması ilə bağlı öz üzvlərinə rəhbərlik etmək üçün verilən uçot siyasəti və təcrübələrinin normalarıdır (Hye, 2000). Hal-hazırda tətbiq olunan MHBS qarşılıqlı maraqlara əsaslanan qərb sosial-iqtisadi mədəniyyəti və mühiti əsasında hazırlanmışdır. Amma qanuni məqsədə çatmaq üçün İslam şəriətinə əsaslanaraq qurulan və fəaliyyət göstərən İslam təşkilatları fərqli maliyyə alətlərindən istifadə edərək fərqli mühitdə işləyir və qərb dünyasına məlum olmayan bəzi əməliyyatları həyata keçirirlər.

2. Uçot dövrü:

Mühasibat uçotu prosedurlarının yerinə yetirildiyi ardıcıllıq və ya mühasiblərin müəyyən bir müddət üçün müəssisənin maliyyə hesabatlarını hazırladıqları bir proses uçotu dövrü kimi tanınır. İslam mühasibatında uçot dövrü mühasibat uçotunun məqsədlərinə çatmaq üçün mütəşəkkil bir üsuldur və əsasən beş addımdan ibarətdir - qeydiyyat (jurnal vasitəsilə), təsnifat (mühasibat kitabı vasitəsilə), ümumiləşdirmə (sınaq balansı vasitəsilə), maliyyə hesabatlarının hazırlanması, maliyyə hesabatlarının şərhi və təhlili. İslam mühasibatında bu uçot dövrü tam olaraq yalnız maliyyə əməliyyatları üçün tətbiq oluna bilər, lakin qeyri-maliyyə əməliyyatları üçün tətbiq olunmur. İslam mühasibatı pulla ölçülməsi mümkün olmayan bəzi əməliyyatlar (məsələn, ətraf mühitə dəyən zərər, müəssisə tərəfindən deqradasiya) ilə bağlı qeydləri aparır və hesabatlar hazırlayır və ikili mühasibat uçotu bu növ əməliyyatlar üçün lazımi qaydada tətbiq olunmaya bilər. Müəssisə ümumiyyətlə cəmiyyətə heç nə ödəmir, təsvir və təhlil zamanı mühasiblər işçilərə, işçilərin inkişafına, cəmiyyətə, eləcə də əlavə dəyərlə əlaqədar ətraf mühitə töhfə ilə bağlı yeni əmsalları hesablayaraq təşkilatın fəaliyyətini əsaslandırmalıdırlar (Mirza & Baydoun, 2000).

3. Maliyyə Hesabatlarının Hazırlanması:

Hər bir təşkilat qanunun tələblərinə və həmin hesabatların istifadəçilərinin məlumatlarının tələblərinə uyğun olaraq müxtəlif maliyyə hesabatları hazırlayır. Bu maliyyə hesabatlarına mənfəət və zərər haqqında hesabatlar, sahibinin kapital hesabatları, pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar və balans hesabatları daxildir. Lakin İslam mühasibatı, əlavə olaraq, aşağıdakıların hazırlanmasını tələb edir: (a) Zəkat üçün vəsaitlərin mənbələrini, onun yığılma üsullarını, o cümlədən bu vəsaitlərin qorunmasına nəzarəti və onlardan istifadəni təfərrüatlandıran Zəkat vəsaitləri və onlardan istifadə hesabatları; (b) Qadağan edilmiş əməliyyatlardan əldə edilən gəlirlər və ya şəriət tərəfindən qadağan edilmiş mənbələr və xərclər və bu qazancların necə istifadə edildiyini və həmçinin bu gəlirin səbəblərini açıqlamaq üçün qadağan olunmuş gəlir və xərclər haqqında hesabatlar; (c) Sosial Məsuliyyət Hesabatları və İnsan Resurslarının İnkişafı Hesabatları. Bəzi alimlər əlavə dəyər bəyanatı hazırlamağı tövsiyə edirlər. Əlavə dəyər bəyanatı, İslam təfəkkürünə uyğun sahibkara diqqəti yönəltməkdən fərqli olaraq, müəssisələrin cəmiyyət qarşısında cavabdehlik daşıdığına dair icma nöqteyi-nəzərindən təşkilatın fəaliyyətini vurğulayır (Napier, 2007).

4. Zəkatın hesablanması:

Zəkat sözünün hərfi mənası təmizlənmə deməkdir. İslamın beş şərtindən biri zəkatdır. Zəngin bir müsəlman və ya ödəmə qabiliyyəti olan bir iş adamı, yoxsulluğu azaltmaq və aralarındakı maliyyə uçurumunu minimuma endirmək üçün ildə bir dəfə, əsasən, kasıblara zəkat verməlidir. Zəkat İslam Dövlətində maliyyə strukturunun təməl daşı kimi təsvir edilmişdir. Müsəlman fərdi sahibkarlar və şəriklər həm şəxsi sərvət, həm də ticarət üçün zəkat verməyə borcludurlar. Zəkatın ödənilməsi üçün aktivlər aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

(a) aktivlərə tam sahiblik,
(b) aktivlər böyüyən və ya məhsuldardırsa,
(c) aktivlər tələb olunan miqdardan artıqdırsa,
(d) aktivlər bir illik dövrü əhatə edirsə.

Zəkatın hesablanması üçün aktivlərin qiymətləndirilməsi cari bazar qiymətinə və ya xalis satış dəyərinə uyğun olmalıdır. Ehtiyatların qiymətləndirilməsi maya dəyərinin və ya bazar qiymətinin aşağı məbləği olmamalıdır və ya şübhəli debitor borcları üçün ehtiyat saxlanılmamalıdır (Clarke, Craig & Hamid, 1996).

İSLAM MÜHASİBATININ MÜASİR DÖVRDƏ PERSPEKTİVLƏRİ

Müasir kontekstdə İslam mühasibatı maraqlı tərəflərə lazımi məlumatları təqdim edən və onların təşkilatının sosial-iqtisadi məqsədini yerinə yetirərkən İslam və ya şəriət qanunlarına uyğun olaraq

davamlı fəaliyyət göstərməsini təmin etməyə imkan verən mühasibat prosesi kimi müəyyən edilə bilər (Abdel-Karim, 1999)

İslam mühasibatının adi mühasibat uçotu təcrübələrinə alternativ olduğunu qeyd etməmək olmaz. Hər ikisi məlumat verməklə və bu məlumatın necə ölçüldüyünü, qiymətləndirildiyini, qeydə alındığını və sonda necə ötürüldüyünü müəyyənləşdirməklə məşğuldur. Bununla belə, İslam mühasibatı təkcə pulla bağlı deyil, çünki o, cəmiyyətə heç bir zərər verməmək üçün əməliyyatları həm maliyyə, həm də qeyri-maliyyə baxımından təhlil edərək daha vahid yanaşma təmin edir (Elasrag, 2014).

İslam mühasibatının əsasını tövhid (Allahın təkliyi və birliyi), ədl (hamı üçün ədalətin təmin edilməsi), ehsan (hamıya yaxşılıq/mehribanlıq), Əmanə (bütün aspektlərdə dürüstlüyün qorunması), Təvəkkəl (bütün fəaliyyətlərdə Allaha güvən), İnfaq (sosial öhdəlikləri/məsuliyyətləri yerinə yetirmək), Sabr (Səbrin saxlanması), İstislah (İctimai maraqların qorunması), və Ribadan (Faizdən çəkinmək), İhtikaardan (Yığıncaqdan çəkinmək), Zülmdən (Zülmdən çəkinmək), Hirsdən (Həsislikdən çəkinmək), İsrafdan (İsrafdan çəkinmək) postulatları təşkil edir (Lewis, 2006). İslam mühasibatının bu postulatlarını nəzərə alaraq, ənənəvi mühasibat mövcud konsepsiyalarının İslam mühasibatı baxımından təhlili aşağıda verilmişdir:

1. Müəssisə Konsepsiyası

b) əlillərə, pensiyaçılara və əhalinin digər aztəminatlı təbəqələrinə yardım göstərməklə sosial məqsədlər üçün vəsait təmin etmək;

(c) Şəriət Şurasının funksiyalarını yerinə yetirmək üçün Məsləhət Şurası yaratmaq.

2002-ci ildə Kövsər Bank Azərbaycan Milli Bankından lisenziya almışdı. O, İİB yanında İslam Bankları və Maliyyə Təşkilatları Baş Şurasının, həmçinin İslam Bankları və Maliyyə Təşkilatlarının Audit Assosiasiyasının üzvüdür. Bankın hazırkı fəaliyyəti İslam bankçılığının iki əsas üsulu: mudaraba və müşarakə, həmçinin bank veksellərinin satışı ilə fiziki və hüquqi şəxslərdən vəsait cəlb etmək məqsədi daşıyır. Vəsaitləri investisiya edərkən bank ənənəvi mexanizmlərdən istifadə edir. Hazırda Kövsər Bank murabaha formasında aktiv əməliyyatlar həyata keçirə bilmir, çünki Azərbaycan qanunvericiliyi bankların birbaşa topdan və ya pərakəndə ticarət, istehsal, logistika, kənd təsərrüfatı, mədənçıxarma və ya tikinti ilə məşğul olmasını, həmçinin bu sektorlarda səhmdar iştirakını qadağan edir (Alıyev və Gasımov, 2014).

Azərbaycanın maliyyə sektorunda ən son yeniliklərdən biri "Unileasing" QSC tərəfindən həyata keçirilən layihədir. 2008-ci ilin fevralında başlanmış bu layihənin əsas özəlliyi lizinq əməliyyatlarında müştərilərlə münasibətlərin faizsiz olmasıdır. Bu lizinq sistemi şirkətin bütün məhsullarına tətbiq olunacaq ki, o, tikinti texnikası, nəqliyyat vasitələri, tibbi və sənaye avadanlıqları və kommersiya daşınmaz əmlakını maliyyələşdirmək imkanı əldə etsin. Müsəlmanlar Azərbaycanda əhalinin böyük hissəsini təşkil edir və İslam bankçılığının inkişafının milli iqtisadiyyatın inkişafına yeni təkan verəcəyini və şəriət prinsiplərinə riayət edənlərin əmanətlərinin dövriyyəyə buraxılmasına kömək edəcəyini deməyə bütün əsaslar var.

10 milyonluq Azərbaycan əhalisinin 93%-nin müsəlman olduğu təxmin edilir. Beləliklə, bu, şəriətə əməl edən banklar üçün müsbət bazar siqnalıdır. Azərbaycan hakimiyyəti 2017-ci ildə Azərbaycanda ilk İslam bankının fəaliyyətə başlamasına imkan verən faizsiz qanunvericiliyə kömək edə bilər. Ölkədə bank sektorunun mövcud neqativ vəziyyətini nəzərə alsaq, ölkədə daha sabit və gəlirli hesab edilən İslam banklarının meydana çıxması sektorun vəziyyətinə müsbət təsir göstərə bilər.

Ümumiləşdirmək üçün bir daha deyək ki, İslam iqtisadi modelinin əsas spesifik xüsusiyyəti dəyər oriyentasiyalarına daha çox önəm verilməsidir. İslam maliyyə institutlarının fəaliyyət formaları və metodları insanların artan ehtiyaclarının daim resurs məhdudiyyətləri ilə üzləşməsi faktı nəzərə

alınmaqla hazırlanmışdır. İslam modelində artan gəlir və qiymət endirimləri heç də həmişə istehlakın artmasına səbəb olmur, çünki bu, şəriətin mülayim istehlak və ehtiyatlardan ehtiyatlı istifadə prinsipini pozur. Azərbaycanın maliyyə institutlarının İslam Maliyyə və Xidmətlər Sənayesinin dünya şəbəkəsinə inteqrasiyası xarici sərmayələrin (ilk növbədə iqtisadiyyatın qeyri-neft sektoruna) cəlb edilməsi üçün yeni imkanlar yaradır və sənaye, kənd təsərrüfatı və xidmətlər bazarının sektorları kimi müxtəlif investisiyaların tarazlı inkişafı istiqamətində effektiv addım kimi qiymətləndirilməlidir.

NƏTİCƏ

Tədqiqat işinin nəticəsi deməyə imkan verir ki, İslam mühasibatı ilə Ənənəvi mühasibat arasında bəzi ziddiyyətlər var. Lakin onlar belə həll edilə bilməyəcək dərəcədə deyil. İntuitiv və şəffaf düşüncə ilə onlar uzlaşa bilər. İslam mühasibatı müsəlman sahibkarlar tərəfindən yaradılan və idarə olunan hər bir təşkilat üçün zəruridir. Zəkatın hesablanması, maraqlanan şəxslərə və başqalarına məlumat və xidmətlər təqdim etmək üçün daha obyektiv, şəffaf və ədalətli hesab edilir.

Tədqiqat nəticəsində aşağıdakı nəticələrə gəlinmişdir:

1. Aydındır ki, İslam maliyyə institutlarının riayət etməli olduğu şəriətə əsaslanan sosial-iqtisadi məqsədlərə çatmaq üçün İslam mühasibat sisteminə ehtiyac olduqca böyükdür. Tədqiqat işində qeyd olunduğu kimi, Qurandakı vəhylərdən tutmuş Peyğəmbərin (s) və ikinci xəlifə Ömərin əməllərinə qədər İslam hesabının açıq-aşkar tarixi varlığı mövcuddur. İslam mühasibatının tarixi təsirini, xüsusən də əsrlər boyu arxivlərin itirilməsi səbəbindən konkret olaraq müəyyən etmək çətin olsa da, sübutlar göstərir ki, İslam mühasibatı Qərb mühasibatlığına, o cümlədən bu gün də istifadə olunan ikili mühasibatlıq sisteminə təsir etmişdir. Şəriətə tabe olan İslam maliyyə institutlarının gəlişi ilə İslam mühasibatının dirçəliş və islahatına ehtiyac yarandı. Gözlənildiyi kimi, İslam mühasibatı ilə onun adi mühasibat uçotu arasında fərqlər mövcuddur və əsasən faizin qadağan edilməsi və digər qeyri-şəriət şikayət fəaliyyətləri, eləcə də cəmiyyətin yaxşılaşdırılması (yaxud zərər verməməsi) kimi sosial-iqtisadi məqsədlərlə əlaqədardır.

2. İslam mühasibatı müasir iqtisadi bazarlarda yenidən inkişaf edə və ən böyük inkişafı İslam Maliyyə Təşkilatları üçün Mühasibat Uçotu və Audit Təşkilatının (AAOIFI) yaradılmasıdır. Bu, nəinki İslam maliyyə institutlarını mühasibat uçotu təcrübələrini uyğunlaşdırmağa kömək edən uçot siyasəti ilə təmin etdi, həm də beynəlxalq bazar oyunçularının rəylərində ona daha çox inam qazandırdı. Bununla belə, belə nəticəyə gəlmək olar ki, İslam mühasibatı hələ də irəli getmək üçün aradan qaldırmalı olan bir çox problemlərlə üzləşir.

3. İslam mühitində xidmət və ya gəlir bölgüsü ilə bağlı müəyyən qaydalar mövcuddur. Belə qaydalara görə, milli gəlir, pul qazana bilən və ya bilməyən cəmiyyətin bütün təbəqələri tərəfindən bölüşdürülür. Ənənəvi mühasibat və ya kapitalist sistemində isə cəmiyyətdə sərvət dövriyyəsini tətbiq etmək üçün belə bir xüsusi tənzimləmə yoxdur və kapital müəyyən bir qrupun xeyrinə saxlanılır.

4. Bu gün Azərbaycanda İslam maliyyəsi çərçivəsində fəaliyyət göstərmək istəyən müştəri seqmenti mövcuddur. Bu istehlak seqmentidir, həmçinin şəriət qaydalarına uyğun olaraq əmanət qoymağa və vəsait əldə etməyə hazır olan kiçik və orta sahibkarlardır. İnsanlar istehlak maliyyəsi (istehlak malları, avtomobillər, əmanət hesablarının açılması və icazə verilən maliyyələşmədə vəsaitlərin iştirakı), ipoteka proqramları, təhsil və tədqiqatların maliyyələşdirilməsi ilə maraqlanırlar. Əslində cəmiyyətin bu hissəsi ölkə ərazisindəki bir çox özəl bankların kredit portfelindən qat-qat artıq məbləğlərdən istifadə edə bilir.

5. Azərbaycanın maliyyə institutlarının İslam Maliyyə və Xidmətlər Sənayesinin dünya şəbəkəsinə inteqrasiyası xarici sərmayələrin (ilk növbədə iqtisadiyyatın qeyri-neft sektoruna) cəlb edilməsi üçün yeni imkanlar yaradır və sənaye, kənd təsərrüfatı və xidmətlər bazarının sektorları kimi müxtəlif investisiyaların tarazlı inkişafı istiqamətində effektiv addım kimi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. A.M. Sarea, and M.M Hanefah, 'Adoption of AAOIFI Accounting Standards by Islamic Banks of Bahrain'. Journal of Financial Reporting and Accounting, vol. 11, iss. 2, pp. 131-142, 2013.
2. Ahmad A, Rehman K, Humayoun AA. Islamic Banking and prohibition of Riba/interest, African Journal of Business Management. 2011;5(5): p. 1763-1767.
3. Akkas MA, Bhuyan AR, Hassan MK, Hussain MS, Islam MM, Islam, MS. (2008). Text Book on Islamic Banking, Dhaka, Bangladesh. Islamic Economics Research Bureau
4. Alam N, Rajjaque M. Shariah-compliant equities: Empirical evaluation of performance in the European market during credit crunch. Journal of Financial Services Marketing. 2010;15(3):228-240
5. Albaity M, Ahmad R. Performance of Shariah and composite indices: Evidence from Bursa Malaysia. Asian Academy of Management Journal of Accounting and Finance. 2008;4(1):23-43

6. Alıyev, X, and Gasımov, I. "Bankıng In Azerbaıjan Economy: Conventıonal Or Islamıc Bankıng?." *Journal of Qafqaz University* 2, no. 2 (2014): 126-139.
7. Al-Obji, K. (1996), Measurement and Distribution of Profit in Islamic Banks, Cairo: The International Institute of Islamic Thought, p. 35.
8. Ather SM, Ullah MH. (2010). Islamic Accounting and Traditional Accounting Some Conflicts and Their Resolutions. The Bangladesh Accountant.
9. Clarke, F., Craig, R. & Hamid, S. (1996). Physical asset valuation and Zakat: Insights and implications. Advances in International Accounting, 9, pp. 195-208.
10. FCMA, S.M.A. and Ullah, M.H., 2010. Islamic accounting and traditional accounting some conflicts and their resolutions. The Perspective Plan and the Roadmap to Vision 2021, p.20.
11. H. Elasrag, 'Principals of the Islamic Finance: A focus on project Finance'. (PhD). Munich Personal RePEc Archive, 2014.
12. Hanif, Muhammad. "Differences and similarities in Islamic and conventional banking." *International Journal of Business and Social Sciences* 2, no. 2 (2014).
13. Hoepner AG, Rammal HG, Rezec M. Islamic mutual funds' financial performance and international investment style: Evidence from 20 countries. The European Journal of Finance. 2011;17(9–10):828-850
14. Hye, M. A. (2000), Accounting Theory, Yeasmin Prokashoni, Third Edition, p.15.
15. Islam, M.Z. (2000), Accounting: Philosophy, Ethics and Principles-The Islamic Perspective, Bangladesh Institute of Islamic Thought (BIIT), Dhaka, p. 64.
16. Khan, M.M. (1995), Advanced Accounting, Eighth Edition, Ideal Library, Dhaka, 1995, p.23 and p.31.
17. Lewis, M.K. (2006), Accountability and Islam, Fourth International Conference on Accounting and Finance in Transition, Adelaide, April 10-12, 2006.
18. Mirza, M. and Baydoun, N. (2000), Accounting policy in a Riba Free Environment, Accounting, Commerce, and Finance: The Islamic Perspective Journal, No. 4 (1), pp.30-40.
19. Napier, C. (2007), Other Cultures, other accountings? Islamic Accounting from past to present, 5th Accounting History International Conference, Banff, Canada, August 9-11.
20. Omar MZ. Islamic Equity Market, Shariah Stock Screening and Preference Shares. Malaysia Lecture Series. International Islamic University; 2013
21. R. Abdel-Karim, 'Accounting and Auditing Standards for Islamic Financial Institutions'. In Proceedings of the Second Harvard University Forum on Islamic Finance: Islamic Finance into the 21st Century, Cambridge, Massachusetts: Center for Middle Eastern Studies, Harvard University, pp. 239-241, 1999.
22. R.H. Parker, 'The Scope of Accounting History: A Note'. Abacus, vol. 29, iss. 1, pp. 106-11, 1993.
23. Rahman MM, Rahman BM. (2007). Islamic Financial System and Selected Islamic Economics Issues. Dhaka, Bangladesh: Welfare Publication.
24. Rizal Y, Shahul HM. (2005). Ibn Ibrahim Objectives and Characteristics of Islamic Accounting. Hesabras Quaterly Journal. 2005;31.
25. Trokic A. Islamic accounting; history, development and prospects. European Journal of Islamic Finance. 2015 Dec 26(3).
26. Usmani MT. (1998). An Introduction to Islamic Finance, Karachi, Pakistan.

ANALYSIS OF THE MAIN DIFFERENCES BETWEEN IFRS AND IFRS FOR SMALL AND MEDIUM-SIZED ENTERPRISES

FIRUDIN SULTANOV
Baku Engineering University
Accounting and Audit Department
fsultanov@beu.edu.az
KHIRDALAN/AZERBAIJAN

ELSEVƏR İBADOV
Baku Engineering University
Accounting and Audit Department
eibadov@beu.edu.az
KHIRDALAN/AZERBAIJAN

ABSTRACT

This article delves into a comprehensive examination of the primary distinctions between the International Financial Reporting Standards (IFRS) and the IFRS for Small and Medium-Sized Enterprises (IFRS for SMEs). As global financial reporting standards, IFRS provide a framework for large enterprises, while the IFRS for SMEs tailors its provisions to meet the unique needs and characteristics of smaller businesses. The study employs a comparative analysis approach to elucidate the key differentiators in terms of scope, recognition and measurement principles, and other pertinent aspects.

IFRS for SMEs applies to all organizations without public accountability. The IASB developed IFRS for SMEs in recognition of the difficulty and cost to private companies of preparing fully compliant IFRS information. For this reason, the IFRS standard for SMEs is a simplified form of IFRS. The research employs a comparative analysis approach, evaluating each standard's treatment of investment property, intangible assets, borrowing costs, government grants, and impairment of assets. Notably, the study presents illustrative examples to elucidate the practical application of these differences.

Key findings include the IFRS for SMEs' unique treatment of investment property measurement and the amortization of all intangible assets, including those with indefinite useful lives. Moreover, it highlights discrepancies in handling borrowing costs, government grants, and impairment testing, shedding light on the varied approaches taken by the two standards.

KEY WORDS: IFRS for SME, IFRS, IASB

INTRODUCTION

IFRS for SMEs (International Standards of Financial Reporting for Small and Medium-sized Enterprises) is intended for the preparation of financial statements of small and medium-sized enterprises. According to the standard, small and medium-sized enterprises do not have public accountability and publish general purpose financial statements for external users (IFRS for SMEs, P.1.2).

Since 2003, the IASB has included in its agenda the development of new standards intended to be applied in small and medium-sized enterprises. As a result of discussion and testing of standards, the Board published the first improved version of IFRS for SMEs in July 2009, and an updated version in 2015.

IFRS for SMEs includes five types of simplifications compared to full IFRS:

1) Since some topics in the complete set of IFRS do not apply to small and medium-sized enterprises, they are not included in the IFRS for SMEs;

2) Although some accounting policy options are allowed in the full set of IFRS, alternatives are not provided in the IFRS for SMEs, as more simplified methods are available for SMEs;

3) Many of the recognition and measurement principles contained in the full set of IFRS are simplified in the IFRS for SMEs;

4) significantly less disclosure is required in IFRS for SMEs; and

5) The text of IFRS for SMEs is written in simple language for easier understanding and translation.

IFRS for SMEs is suitable for all commercial entities except financial institutions such as publicly traded entities, banks and insurance companies. It is the first set of international accounting requirements designed specifically for small and medium-sized enterprises. Although based on and similar to IFRS, IFRS for SMEs is a stand-alone product and will be updated according to its own timetable (no sooner than 3 years) (IFRS for SMEs, P16).

There is no quantitative threshold for classification as an SME; instead, the scope of the Standard is determined by the test of public accountability. As with the full set of IFRS, it is up to the legislative and regulatory authorities in individual jurisdictions to decide who is permitted or required to use IFRS for SMEs. IFRS for SMEs is a single standard consisting of 35 sections. The sections are prepared based on the standards in the full set of IFRS.

Based on adoptersand non-adopters of IFRS for SMEs, both developed and developing countries, Bonito A., and Pais C. find evidence that countries without a national set of financial accounting standards for SMEs, with experience of applyingIFRS and a common law legal system are more likely to adopt IFRS for SMEs. These results may be due to low transaction costs, the importance of having some knowledge of IFRS reporting given its complexity and belonging to IFRS based countries facilitating adoption of IFRS for SMEs (Bonito and Pais, 2018).

RESEARCH METHOD

Both standards are analyzed to determine the differences between full IFRS and IFRS for SMEs. In addition, articles related to this issue are reviewed. The differences were analyzed separately and explained with examples.

KEY DIFFERENCES BETWEEN IFRS FOR SME AND FULL IFRS

Provisions and contingent liabilities, Hyperinflation, Events after the reporting date, Income tax, Plant, Property and Equipment covered in IFRS for SMEs are the same as in full IFRS. IFRS for SMEs does not cover the standards of Earnings per Share (IAS 33), Interim Financial Reporting (IAS 34), Operating Segments (IFRS 8), Non-current Assets Held for Sale and Discontinued Operations (IFRS 5) contained in the full set of IFRS.

INVESTTMENT PROPERTY

In IFRS for SMEs, when the subsequent measurement of an investment property can be reliably measured without incurring additional costs, the fair value model should be measured. If this is not possible, the cost model can be used (IFRS for SMEs, P.16.7). However, in full IFRS, subsequent measurement of investment property can be measured using any of the Cost or Fair value models(IAS 40). This is an entity's accounting policy choice (IFRS for SMEs, P.30).

For example, on 01.07.20X1, a company acquired an investment property with a cost of $100,000. The useful life of the property is 10 years, and the final residual value is determined to be zero. As of 31.12.20X1, the fair value of the asset was $102,000 without incurring additional costs and reliably determined.

a) According to IFRS for SMEs, the fair value model should be applied if the fair value is reliably determined without incurring additional costs. That is, on 31.12.20X1, the value of the asset in statetment of financial position will be $102,000, and in statement of profit or loss, $2,000 will be recognized as profit. Thus, depreciation will not be calculated.

b) According to IFRS, the company has an option between the cost or fair value model. If it chooses the cost model, $95,000 will be recognized in the SoFP on 31.12.20X1. In SoPL, $ 5,000 ((100,000 / 10) * 6 / 12) depreciation expense will be recognized. If it chooses the fair value model, on 31.12.20X1 the value of the asset in SoFP will be $102,000, and in SoPL, a gain of $2,000 (102,000 – 100,000) will be recognized. Thus, depreciation will not be calculated.

INTANGIBLE ASSETS

In IFRS for SMEs, all intangible assets are amortized. Intangible assets with an indefinite useful life are amortized using a maximum period of 10 years (IFRS for SMEs, P.18.20). The revaluation model is not permitted in IFRS for SMEs. In addition, all research and development costs are expensed. In IFRS, only intangible assets with a definite useful life are amortized. Intangible assets with an indefinite useful life are not amortized. Instead, an impairment test is performed in accordance

with IAS 36 on an annual basis or when impairment exists (IAS 38, P. 108). Contrary to "IFRS for SMEs", the revaluation model is allowed in IFRS. In addition, development costs that meet the criteria of IAS 38 are capitalized.

For example, a company recognized $36,000 of goodwill on an acquisition on 01.01.20X4. The useful life of goodwill could not be determined.

a) Under IFRS for SMEs, all intangible assets are amortized and goodwill is also an intangible asset. If it is not possible to reliably estimate the useful life, it should be amortized by setting a life of up to 10 years. For example, assuming a life of 9 years, amortization expense of $4,000 (36,000 / 9) would be recognized.

b) Under IFRS, only intangible assets with a definite useful life are amortized. If the useful life of goodwill cannot be determined, goodwill will not be amortized. At the end of each reporting period, impairment test will be taken into account and the value will be adjusted accordingly.

BORROWING COSTS

In IFRS for SMEs, borrowing costs are recognized as an expense in the period in which they are incurred (IFRS for SMEs, P.25.2). In full IFRS, the borrowing costs are capitalized during the production of the qualifying asset that meets the conditions (IAS 23, P.8).

For example, on 01.01.20X1, a company plans to take out a loan of $500,000 to start construction of a building. Construction begins on 03.01.20X1 and ends on 12.31.20X1. Interest expense for the current year is $24,000.

a) Under IFRS for SMEs, all borrowing costs are recognized as an expense in the period in which they are incurred. On 12.31.20X1, $24,000 will be recognized as finance (interest) expense in the statement of profit or loss.

b) Under IFRS, interest expenses are capitalized during the production period of the qualifying asset. The portion of interest expense for January and February ($24,000 * 2/12 = $4,000) will be recognized as finance (interest) expense in the statement of profit or loss. Interest expenses formed during the construction period (24,000 * 10/12 = $20,000) will be included in the cost of the building. Thus, $20,000 will be capitalized.

GOVERNMENT GRANTS

In IFRS for SMEs, in the case of unconditional grant, which do not require the implementation of conditions in the future, the grant is recognized as income. In the case of conditional grant, which are expected to be fulfilled in the future, income is recognized as the conditions are fulfilled. It is not allowed to use the method deducts the grant in calculating the carrying amount of the asset.

There is no difference in the recognition of income-related grants. Two methods of presentation in financial statements of grants or the appropriate portions of grants related to assets are regarded as acceptable alternatives in IAS 20. One method recognises the grant as deferred income that is recognized in profit or loss on a systematic basis over the useful life of the asset. The other method deducts the grant in calculating the carrying amount of the asset. The grant is recognised in profit or loss over the life of a depreciable asset as a reduced depreciation expense (IAS 20, P.25-27).

For example, on 01.01.20X2, the company acquired an asset worth $800,000 through a government grant. The asset was given in return for the obligation to fulfill certain conditions within 8 years. The useful life of the asset is 20 years. The entity depreciates its other similar assets using the straight-line method.

a) According to IFRS for SMEs, grant income is recognized according to the periods in which the conditions are fulfilled. On 31.12.20X2, in statement of profit or loss will recognize grant income of $100,000 (800,000 / 8).

b) According to IFRS, grant income is recognized in parallel with the corresponding costs, that is, according to the useful life. Grants related to assets can be recorded as deferred income, alternatively they can be recorded as a deduction from the cost of the asset. Assume that the entity uses the deferred income method. In this case, it would recognize grant income of $40,000(800,000 / 20) at statement of profit or loss for the year end on 12.31.20X2.

IMPAIRMENT OF ASSETS

Impairment testing (book value and recoverable amount) is required only when there are indications of impairment, except for reserves that are tested annually. The recognition of depreciation in the statements is the same as in full IFRS (IFRS for SMEs, P. 27.30). Non-current assets held for

sale are tested for impairment in the same way as other assets.

In IFRS, annual tests are performed for intangible assets with indefinite lives, intangible assets not yet ready for use and goodwill. Non-current assets held for sale are measured at fair value less costs to sell in accordance with IFRS 5.

For example, the company has a license for hunting from the state for an indefinite period. An entity applying IFRS for SMEs will amortize this asset over no more than 10 years and test it only if there is an indication of impairment. However, an entity applying IFRS will not amortize the same license and will test it at the end of each year or when there is an indication of impairment.

FINANCIAL STATEMENTS

In IFRS for SMEs, investments in subsidiaries and joint ventures may remain at the same value or be accounted for using the equity method. Only partial goodwill is allowed, meaning non-controlling interests cannot be measured at fair value. Goodwill is amortized as an intangible asset. Exchange rate differences on the translation of a foreign transaction are recognized in OCI (IFRS for SMEs, P.30.18) and are not subsequently reclassified in SPL.

In full IFRS investments in subsidiaries and joint ventures are accounted for using the equity method. Full or partial goodwill method can be chosen. That is, non-controlling interests can be measured at fair value or proportionately. Goodwill is tested for impairment annually. Exchange rate differences on the transfer of a foreign transaction are recognized in OCI Reclassified in SPL after derecognition.

CONCLUSION AND SUGGESTIONS

The IFRS for SMEs is designed to make accounting more convenient and cost-effective for companies. It is possible to clearly see this approach in the borroüing cost and the useful life approach of intangible assets with indefinite useful life. In some approaches, it is possible to see the opposite approach of simplification. We believe that the fact that the IFRS standard for SMEs does not allow companies to choose the measurement of investment property is contrary to the essence of this standard. Fundamental changes are underway in IFRS for SMEs, but this issue has not been resolved in the draft version.

LITERATURE

7. Similarities and differences A comparison of ‘full IFRS’ and IFRS for SMEs. (2009) PricewaterhouseCoopers’ IFRS and corporate governance publications and tools, 2009
8. Sultanov, F. Həsənov, E. İbadov, E. (2023). Maliyyə Hesabatlarının Beynəlxalq Standartları,
9. Investment Property. (2001). International Accounting Standard-40, International Accounting Standards Board
10. International Financial Reporting Standard for Small and Medium-sized Entities. (2015).International Accounting Standards Board,
11. Intangible Assets. (1998).International Accounting Standard-38, International Accounting Standards Board, (amended 2014)
12. Impairment of Assets. (2001). International Accounting Standard-36, International Accounting Standards Board
13. Non-current Assets Held for Sale and Discontinued Operations.(2001). International Financial Reporting Standard 5, International Accounting Standards Board
14. Accounting for Government Grants and Disclosure of Government Assistance.(2021). International Financial Reporting Standard 5, International Accounting Standards Board
15. Bonito, A. Pais,C. (2018) The macroeconomic determinants of the adoption of IFRS for SMEs. Revista de Contabilidad – Spanish Accounting Review 21 (2) 116–127
16. Borrowing Cost.(2023). International Accounting Standard-23, International Accounting Standards Board

ABŞ VƏ ÇİN BİRJA İNDEKSLƏRİNDƏ QLOBAL FAKTORLARIN DALĞALANMA TƏSİRLƏRİNİN ARAŞTIRILMASI: DETERMİNİST VƏ STOXASTİK DALĞALANMA MODELLƏRİ MÜQAYİSƏSİ

PH.D. MƏQSUD QUBADLI
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə Fakültəsi/Maliyə və Mühasibat kafedrası
mqubadli@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Dalğalanma (digər adıyla, volatillik) maliyyə sabitliyi üçün həm milli həm də beynəlxalq səviyyədə risk faktorunu meydana gətirməkdədir. Bu faktorun təsir gücü diqqətə alındıqda tədqiqatın məqsədi olaraq seçilmiş qlobal amillər üzrə Bitcoin və xam neft qiymətləri ilə seçilmiş ölkələrə isə Amerika Birləşmiş Ştatları və Çin kimi nəhəng iqtisadiyyata malik ölkələrin aparıcı birja indeksləri arasında dalğalanma təsirlərinin qarşılıqlı əlaqəsini təyin etmək məqsəd olaraq müəyyən edilmişdir. Eyni zamanda müvafiq ədəbiyyat üçün elmi qiymətləndirmə çatışmazlığını aradan qaldırmaq, elmi tədqiqatçılar, iqtisadi sferada qərar qəbul edən idarəçilər üçün isə qərar qəbul etməkdə kömək edə biləcək nəticələri təqdim etməkdir. Tədqiqatın fərqi isə, bir çox keçmiş tədqiqatlarda müvafiq mövzu üzrə əksəriyyətilə deterministik model strukturları ilə dalğalanma modelləri incələnmiş, ancaq stoxastik model strukturları kənarda qalmışdır. Model qiymətləndirilməsinin bu çərçivədə ələ alınması stoxastik modellərin tədqiqi sahəsinin genişləndirilməsində əlavə olaraq elmi ədəbiyyatın zənginləşdirilməsinə kömək edəcəkdir. Tədqiqat çərçivəsində stoxastik model qrupundan isə dinamik korelasiyalı MSV modeli istifadə edilmişdir. Əldə edilən nəticələr arasında bütün ölkələrin volatillik davamlılığının həm Amerika Birləşmiş Ştatları həm də Çin üçün kifayət qədər sıx klasterləri ehtiva etdiyi, Bitcoin cəhətdən sadəcə Çin ilə tək tərəfli volatillik əlaqəsinin olduğu, Brent neft cəhətdən isə həm Amerika Birləşmiş Ştatları həm də Çin ilə sadəcə tək tərəfli volatillik dalğalanmalarının mövcud olduğu görülmüşdür. Zamanla dəyişən dinamik korrelyasiya münasibətlərində hər iki ölkənin müvafiq indeksləri ilə qlobal amillərin gəlirləri arasında dinamik korelyasiya effektinin olduğu və bu əlaqənin müsbət və çox güclü səviyyələrdə olduğu müşahidə edilmişdir.

AÇAR SÖZLƏR: stoxastik modellər, volatillik yayılması, risk

ABSTRACT

Fluctuation (aka volatility) is a risk factor for financial stability at both the national and international levels. Considering the influence of this factor, the purpose of the study is to examine the correlation between the fluctuation effects of Bitcoin and crude oil prices on selected global factors and the leading stock indices of countries with huge economies such as the United States of America and China, and to eliminate the lack of scientific evaluation for the relevant literature, scientific researchers and for decision-making managers in the economic sphere, it is to present the results that can help in decision-making. The difference of the study from others is that in many previous studies, the deterministic model structures and fluctuation models were refined on the relevant topic, but the stochastic model structures were left out. However, addressing the model evaluation in two frameworks will help to enrich the scientific literature in addition to the expansion of the study of stochastic models. The MSV model with dynamic correlation from the stochastic model group were used within the framework of the study. Among the results obtained are that the volatility continuum of all countries contains fairly tight clusters for both the United States and China, Bitcoin has a one-way volatility relationship only with China, and Brent oil only has a one-way volatility relationship with both the United States and China. It was observed that there is a dynamic correlation effect between the respective indices of both countries and the income of global factors in the dynamic correlation relations changing over time, and this relationship is at positive and very strong levels.

KEYWORDS : stochastic volatility, volatility spillover, risk

GIRIŞ

Bazarların bir-biri ilə inteqrasiyası maliyyə dərinliyi üçün müsbət imkanlar yaratsa da, digər tərəfdən bu vəziyyət özü ilə mənfi dalğalanmalar da gətirir. Əslində, bir başqa ölkədəki bazarlara təsir edə biləcək böhran, maliyyə tətatümləri və ya digər xəbərlər bu inteqrasiya nəticəsində digər ölkələrin makroiqtisadi tarazlıqlarının pisləşməsinə və risk iştahlarının artmasına səbəb olmuşdur. Bu məqamda ölkələrin makroiqtisadi siyasətlərinin formalaşmasında bu amillər nəzərə alınmağa başlanmış və bazar iştirakçıları üçün mənfi təsirləri aradan qaldıraraq maksimal gəlirliyinin maksimuma çatdırılmasına ehtiyac artmışdır. Bu sürətlənmə ilə, xüsusilə 1980-ci illərdən sonra qlobal liberallaşma prosesi ilə volatillik anlayışının həm nəzəriyyədə, həm də praktikada əhəmiyyəti artmışdır. Maliyyə nöqteyi-nəzərindən risk anlayışı gözlənilən gəlirin faktiki gəlirdən standart kənarlaşma ehtimalıdır. Digər tərəfdən, dəyişkənlik anlayışı mənaca riskə ekvivalent kimi qəbul edilsə də, risklə eyni kontekstdə nəzərdən keçirilməməlidir. Çünki risk anlayışı arzuolunmaz, mənfi nəticələr təqdim etdiyi halda, dalğalanma anlayışı bizə aktivin maliyyə baxımından müsbət və ya mənfi dəyişkənliyini (hərəkətliliyini) təqdim edir. Dəyişkənlik anlayışı, xüsusən də maliyyə ədəbiyyatında müəyyən gəlir paylanmasının orta dəyərindən kənarlaşma dəyişkənliyinin genişliyini ölçmək üçün bir göstəricidir. Başqa sözlə, dalğalanma, riyazi mənada, əslində riskin daha konkret göstəricisi kimi dəqiq izlənilməli olan mühüm amildir. (Knight, 2002).

Riyazi olaraq volatilliyi ölçmək üçün istifadə olunan bir çox üsul var. Maliyyə bazarlarında ümumi riski təmsil edən dalğalanmaların dəqiq qiymətləndirilməsi investorlar üçün böyük əhəmiyyət kəsb edir. Dalğalanmaların ölçülməsi tarixi məlumatlara əsaslanan və sonra varyansın sabit olmadığını fərz etməklə daha realist yanaşmaya əsaslanan zaman sıralarının dalğalanma modelləri ilə ölçülür. Dalğalanmaların modelləşdirilməsinə dair ilk araşdırma Engle (1982) tədqiqatı ilə dalğalanmaların modelləşdirilməsinə fərqli bir perspektiv gətirdi. Müvafiq araşdırmaya görə, Engle ənənəvi modellərdən fərqli olaraq variyasiyanın zamanla dəyişdiyini və gözlənilməz şokların təsiri ilə variyasiyanın sabitliyinin empirik olaraq qeyri-real olduğunu müəyyən etmişdir. Bu araşdırma ilə bazarlarda dəyişkən davranışın müəyyən edilməsində effektivlik artmış və zamanla dəyişən variyasiyanın modelləşdirilməsi ehtiyacı qarşılanmışdır. Beləliklə Engle (1982) tədqiqatı ilə ARCH modeli adı verilən volatillik üzrə deterministik modelləmənin təməlini formalaşdırmışdır. (Engle, 1982).

Daha sonra ARCH modeli Tim Bollerslev tərəfindən 1986-cı ildəki tədqiqatında daha da inkişaf etdirilmiş və onun təbii ümumiləşdirilmiş versiyası olan GARCH modeli təqdim edilmişdir. Bu modeldə GARCH modeli ARCH modelindən fərqli olaraq bütövlükdə ARMA(p,q) prosesi izləməkdədir. Müvafiq olaraq, ARCH modelindən fərqli olaraq, GARCH modeli təkcə keçmiş xəta paylarını əhatə etmir, həm də keçmiş dövrün şərti varyasiya nəticələrini də bərabərində daşımaqdadır. Bu da volatilliyin qiymətləndirilməsində ARCH modelləri ilə müqayisədə GARCH modeli adı verilən bu modelin daha çevik formadası olduğunu göstərməkdədir. (Bollerslev, 1986).

Deterministik modellər hər nə qədər variyasının dəyişdiyini diqqətə alaraq hesablanan modelləri əhatə etsə də digər tərəfdən müəyyən çatışmazlıqları da özündə ehtiva etməkdədir. Belə ki, deterministik modellərdə variyasiya keçmiş hərəkətliliyə görə müəyyən edilməkdə yəni bu hərəkətlilik müşahidə edilə bilmə xüsusiyyəti daşımaqdadır. Halbuki, birjaların hərəkətliliyi öncədən təxminediləbilmə xüsusiyyəti ilə tərslik təşkil etməkdədir. Bu səbəbiylə Taylorun (1986) tədqiqatının bu modellərə alternativ olaraq təqdim edilməsi ilə, yəni stoxastik dəyişkənlik modellərinin tətbiqi ilə aktivlərin volatillik strukturunun müşahidə edilə bilməyən xarakterdə olması yanaşması diqqətə alınmağa başlamışdır. Bu modeldə volatillik gizli bir dəyişkən vasitəsilə modelə daxil edilməkdədir. Stoxastik dəyişkənlik modelləri deterministik modellərlə müqayisədə bəzi üstünlüklər təklif edir. Məsələn, stoxastik dəyişkənlik modellərinin statistik strukturlarını qəbul etmək və çoxvariantlı strukturlarda nəzərə almaq olduqca asandır. Bayes üsullarına əsaslanan stoxastik dəyişkənlik modelləri əvvəlki paylanmaları təyin etməklə mövcud müşahidələrin ehtimal funksiyaları vasitəsilə sonuncu (posterior) paylanmaları əldə etməyi hədəfləyir. Stoxastik volatillik modellərində sonrakı model əlavələri ilə, çoxlu aktivlər arasında volatilliyin ötürülməsi əlaqələri nəzərə alınmaqla, qarşılıqlı volatillik strukturları müxtəlif yanaşmalarla genişləndirilmişdir (Pellegrini, 2023).

Amerika Birləşmiş Ştatları (ABŞ) və Çin iqtisadiyyatları üçün birja volatilliyinin ölçülməsi qlobal iqtisadiyyatların istiqamətinin müəyyən edilməsində mühüm indikator olaraq düşünülməkdədir. Digər tərəfdən qlobal faktorların da milli iqtisadiyyatlara təsirləri öz aktuallığını qorumaqdadır. Belə

ki, investorlar üçün yeni maliyyə investisiyalarından birisi də kripto valyuta bazarlarıdır. Buna görə də kripto valyuta bazarlarının ABŞ və Çin kimi aparıcı ölkələrin birjaları ilə volatillik inteqrasiyası digər ölkələrin investisiya strategiyalarının reaksiyasında, makro-iqtisadi təsirlərinin həcminin ölçülməsində diqqətə alınmaqdadır. Digər bir qlobal faktor isə dünya ticarətində əhəmiyyətli paya sahib olan xam neft ticarətidir. Xam neft qiymətlərində formalaşan dalğalanmalar Çin və ABŞ kimi enerji bazarlarında əhəmiyyətli rol oynayan ölkələrin birjalarında əhəmiyyətli təsirlərə səbəb ola bilməkdədir. Bugünə qədərki aparılan tədqiqatlar ümumilikdə qeyd edilən bu qlobal faktorlarda meydana gələn volatillik prosesinin ABŞ və Çin iqtisadiyyatındaki yansıma dərəcələrini müxtəlif formada əks etdirməkdədir. Choi və Hammoudeh (2010), S&P 500 indeksini baza götürdüyü tədqiqatında Markov rejim modeli ilə neft qiymətləri və adıkeçən birja indeksi arasında mənfi korelasiya aşkarlamışdır. Vo (2011), tədqiqatında əldə etdiyi nəticələrə əsasən, S&P 500 və neft fyuçers qiymətlərinin bir-biri ilə əlaqəli olduğunu və onlar arasındakı korelyasiyanın zamanla dəyişən dinamik bir prosesi izlədiyini müəyyən etmişdir. Masood və digərləri (2019), G7 ölkələri üzrə apardığı regresiya modelli tədqiqat nəticələrinə əsasən neft qiymətlərindəki dəyişmənin G7 ölkələrin birja indekslərinə təsir göstərmədiyi qənaətinə gəlmişdir. Sarwar və digərləri (2020), Çin üçün BEKK-GARCH modeli ilə əldə etdiyi nəticələrə görə Çin fond bazarında birtərəfli yayılmanın meydana gəldiyini göstərmişdir. Conrad və digərləri (2018), tədqiqatına görə GARCH-MIDAS modeli nəticələrinə əsasən S&P 500-ün dəyişkənliyi təktərəfli olaraq Bitcoin'in uzunmüddətli dalğalanmalarında mənfi və əhəmiyyətli təsir göstərir. Dahir və digərləri (2020), tədqiqat nəticələrinə əsasən Çin üçün Bitcoin'ə yönəlik sadəcə tək tərəfli volatillik təsirlərinin olduğu qənaətinə gəlmişdir. Lopez-Cabarcos və digərləri (2021), GARCH-EGARCH modelləri ilə əldə etdiyi nəticələrə əsasən Bitcoin dəyişkənliyinin spekulyativ dövrlərdə daha qeyri-sabit olduğu, həmçinin sabit dövrlərdə S&P 500 gəlirliyindəki dalğalanmaların Bitcoin dalğalanmalarına təsir etdiyini müəyyən etmişdir.

Araşdırmada neft bazarı üçün Brent neftinin qiyməti, kriptovalyuta bazarı üçün isə Bitcoin qiyməti əsas götürülmüşdür. ABŞ üçün S&P500 birja indeksi, Çin üçün isə SSEC birja indeksi götürülmüşdür. Qiymətlər ABŞ dolları ilə təqdim olunub və müvafiq indekslər üzrə indeks balları nəzərə alınmışdır. Tədqiqatımızın predmeti olan məlumatlar 1 yanvar 2018-ci il - 30 oktyabr 2023-cü il tarixləri arasındakı dövrü əhatə edir və tezlik diapazonu gündəlik bağlanış qiymətlərinə əsasən nəzərə alınmışdır.

Tədqiqatın sonraki fəsillərində sırası ilə istifadə edilən tədqiqat metodlarının metodologiyası açıqlanmış, daha sonra model nəticələri içərisində qeyd edilən birjaların və qlobal faktorların təsviri statistikaları göstərilmiş və ən sonda model nəticələri birbirləri ilə qarşılaşdırılaraq volatillik reaksiyaları birbirləri ilə müqayisə edilmişdir.

TƏDQIQAT METODU

Stoxastik volatillik modelləri Bayes üsullarına əsaslanan təhlillə gizli volatilliyin aşkarlanmasında əvvəlcədən paylanma bölgüsü və mövcud müşahidələrin ehtimal funksiyasından istifadə edilir. Bayes yanaşmasında ümumi fikir ondan ibarətdir ki, nümunə ölçüsü artdıqca əvvəlki paylanmanın posterior paylanmaya təsiri azalır. Naməlum parametrin ω olduğunu fərz etsək, məlumdur ki, müşahidələrin və gizli dəyişkənin birgə ehtimal paylanmasında düstur aşağıdakı formanı alacaqdır (Raftery,1995). :

$$P(\omega|y) \propto P(\omega_1)P(\omega_2|\omega_1)P(\omega_3|\omega_2)...P(y|\omega_1,\omega_2,...,\omega_N)$$

Bu paylamalara əsasən, ümumiyyətlə, çoxlu proqnozlaşdırma metodları mövcuddur. Bu üsullardan ən çox yayılmışı oxşarlığa əsaslanan üsullardır. Bu üsullara Monte Carlo Markov Chain (MCMC) kimi populyar üsullar daxildir.

Yu və Meyer (2006) tərəfindən formalaşdırılan dinamik korelasiyalı modeldə dinamik korelasiya strukturu aşağıdaki formada müəyyən edilmişdir :

$$\Gamma_t = Q_t^{*-1} Q_t Q_t^{*-1}$$
$$Q_{t+1} = \omega + \psi Q_t + \xi_t$$
$$\xi_t \sim W_N(v, \Lambda)$$
$$Q_t^* - diag(Q_t^{1/2})$$

Yuxarıdaki paylanma Wishard paylanmasını göstərir və matrislərin diaqonaldan kənar elementlərinin sıfır olmasını təyin edərək diaqonal matris yaradır. Modelin parametrlərini qiymətləndirmək üçün MCMC metodundan istifadə edilmişdir və Tsay (2002) tərəfindən müəyyən edilmiş əvvəlki paylanma təsviri aşağıdakı kimidir:

$$\mu_A \sim N(0, 0.04)$$
$$\mu_B \sim N(0, 0.04)$$
$$\phi_{AA} \sim 2\phi_{AA}^* - 1 \qquad \phi_{AA}^* \sim \text{Beta}(20, 1.5)$$
$$\phi_{BB} \sim 2\phi_{BB}^* - 1 \qquad \phi_{BB}^* \sim \text{Beta}(20, 1.5)$$
$$\phi_{AB} \sim N(0, 0.1)$$
$$\phi_{BA} \sim N(0, 0.1)$$
$$\psi_0 \sim N(0.7, 0.1)$$
$$\psi_1 = 2\psi_1^* - 1 \qquad 2\psi_1^* \sim \text{Beta}(20, 1.5)$$
$$\sigma_{\eta_A}^2 \sim \text{Ters} - \text{Gamma}(2.5, 0.025)$$
$$\sigma_{\eta_B}^2 \sim \text{Ters} - \text{Gamma}(2.5, 0.025)$$
$$\sigma_q^2 \sim \text{Ters} - \text{Gamma}(2.5, 0.025)$$

Model əvvəlki paylanmaları birləşdirərək, müşahidələrin ehtimal funksiyaları Monte Karlo zəncirlərinin köməyi ilə posterior paylanmaları əldə etmək üçün birləşdirilir. Hər bir model daxilində 100000 iterasiya edilərək nümunə testi aparılmış və əldə ediləcək parametr əmsallarının ilkin dəyər meyllərindən kənara çıxması üçün qiymətləndirmənin ilk 10000 iterasiyası silinmişdir. Burada çox sayda təkrarlama daha dəqiq posterior parametrik nəticələr əldə etmək məqsədi daşımaqdadır. Digər tərəfdən modelə daxil edilən dəyişkənlərin təsviri statistikaları aşağıda Cədvəl 1 daxilində təqdim edilmişdir :

Cədvəl 1. İstifadə edilən dəyişkənlərə aid təsviri statistikalar

Qlobal faktorlar	**Ortalama**	**Medyan**	**Maks.**	**Min.**	**Std.kən.**	**Skivnes**	**Kurtoz**	**Jarque-Bera**	**Ehtimal**
Bitcoin (BTC)	0.16679	0.16432	20.5783	-49.5108	4.237841	-0.69092	13.17847	11097.8	0.0000
Neft (Brent)	0.03091	0.167941	20.0744	-26.8759	2.67985	-1.3289	23.67239	27896.54	0.0000
Ölkələr									
ABŞ	0.045390	0.056977	8.89745	-13.6531	1.362876	-0.85302	17.40976	15489.79	0.0000
Çin	0.012799	0.139599	5.57639	-9.19683	1.12897	-0.78651	9.57809	2101.198	0.0000

Cədvəl 1'də görülən xüsusilə kurtoz əmsalının 3 əmsalından olduqca böyük olması və Jarque-Bera statistikasının normal qəbul edilən 0 əmsalından olduqca yüksək əmsal dəyərləri alması bu dəyişkənlərin normal paylanmaya malik olmadığını göstərməkdədir. Bu nəticə volatillik dalğalanmalarının maliyyə aktivlərindəki xarakteristikasını yansıtmaqdadır.

Cədvəl 2. ABŞ və Çin - Bitcoin model nəticələri

	Parametr	Ortalama	Std.kənar.	MC xətası	Güvən İntervalı (%95)	
ABŞ	μ_{BTC}	3.365*	0.1034	0.0030189	2.31	4.98
	$\mu_{ABŞ}$	-0.357*	0.5696	0.003092	-1.201	-0.10323
	ϕ_{BTC}	0.8269*	0.0492	0.003436	0.6539	0.9131
	$\phi_{BTC-ABŞ}$	-0.03928	0.02032	3.54E-04	-0.05590	0.01802
	$\phi_{ABŞ}$	0.9876*	0.01874	2.02E-04	0.9925	0.9982
	$\phi_{ABŞ-BTC}$	-0.0134	0.032439	2.41E-04	-0.01448	0.01029
	ψ_1	0.979*	0.002329	2.26E-04	0.9098	0.991
	ψ_0	0.3293	0.2659	0.01740	-0.2864	0.7297
	σ_ρ	0.08297*	0.01356	7.03E-04	0.05343	0.1276
	$\sigma_{\eta BTC}$	0.7456*	0.07355	0.01954	0.5954	0.8953
	$\sigma_{\eta ABŞ}$	0.2958*	0.03146	0.004275	0.2847	0.3193
ÇİN	μ_{BTC}	2.496*	0.1208	0.004345	1.491	3.59
	$\mu_Ç$	-0.596	0.2496	0.018945	-0.7538	-0.03971
	ϕ_{BTC}	0.7905*	0.0568	0.002353	0.5694	0.8135
	$\phi_{BTC-Ç}$	-0.1054*	0.04596	0.001493	-0.1912	-0.01173
	$\phi_Ç$	0.9672*	0.02953	4.32E-04	0.9836	0.9542
	$\phi_{Ç-BTC}$	-0.02349	0.03295	3.11E-04	-0.04353	0.009483
	ψ_1	0.9602*	0.02041	0.029405	0.8105	0.99485
	ψ_0	0.1105	0.07455	0.002394	-0.0433	03504
	σ_ρ	0.1194*	0.01749	0.002229	0.04687	0.14594
	$\sigma_{\eta BTC}$	0.7958*	0.07584	0.003954	0.5865	0.9964
	$\sigma_{\eta Ç}$	0.3726*	0.03649	0.008437	0.356	0.5932

Mənbə : Müəllif tərəfindən hazırlanmışdır.
* 5% səviyyəsində statistik anlamlılıq daşımasını ifadə edir.

Cədvəl 2'də ABŞ üçün $\phi_{ABŞ}$, Çin üçün $\phi_Ç$ parametrləri birja indekslərinin öz volatilliklərini əks etdirməkdədir. Bu əmsalın 1'ə olduqca yaxın olması volatillik klasterlərinin olduqca yüksək olduğunu göstərir. Digər tərəfdən Bitcoində yaranan volatillik artışının S&P500 indeksi üzərində statistik olaraq təsir gücünə malik olmadığı, o cümlədən S&P500 indeksində yaranan volatillik artışının da Bitcoin üzərində statistik olaraq təsir gücünə malik olmadığı görülməkdədir. Çin birjası cəhətdən isə SSEC indeksində yaranan 1%'lik volatillik dalğalanmasının Bitcoin üzərində -0.1054% volatillik azalışına səbəb olduğu görülməkdədir. Bununla birlikdə, ABŞ və Çin birjası ilə Bitcoin qazancları arasındaki ψ_1 zamana bağlı dəyişən dinamik korelasiya əlaqəsi parametri bütün modeller üçün statistiki olaraq anlamlıdır. Hər iki ölkə üçün indekslərin qazanclılıqları ilə Bitcoin qazanclılığı arasında müsbət və çox güclü səviyyədə qəbul edilən əlaqə mövcuddur.

Cədvəl 3. ABŞ və Çin - Brent model nəticələri

	Parametr	Ortalama	Std.kənar.	MC xətası	Güvən İntervalı (%95)	
ABŞ	μ_{BRENT}	1.149*	0.2341	0.003738	0.6567	1.571
	$\mu_{ABŞ}$	-0.6349*	0.296	0.005362	-1.43	-0.07385
	ϕ_{BRENT}	0.8067*	0.05829	0.00176	0.7832	0.8905
	$\phi_{BRENT-ABŞ}$	0.0812*	0.02194	0.001298	0.03419	0.1375
	$\phi_{ABŞ}$	0.9701*	0.01822	7.014E-04	0.9346	0.9911
	$\phi_{ABŞ-BRENT}$	0.03691	0.02049	7.64E-04	-0.00398	0.0779
	ψ_1	0.9438*	0.03327	0.008459	0.6999	0.9941
	ψ_0	0.599*	0.07958	0.002393	0.4001	0.7421
	σ_ρ	0.1291*	0.03583	0.002294	0.07865	0.2359
	$\sigma_{\eta BRENT}$	0.3019*	0.0971	0.002915	0.2092	0.4266
	$\sigma_{\eta ABŞ}$	0.2996*	0.0335	0.001813	0.2375	0.389
ÇİN	μ_{BRENT}	1.4404*	0.2019	0.00102	0.9911	1.659
	$\mu_Ç$	-0.3339	0.2059	0.009121	-0.1093	0.0209
	ϕ_{BRENT}	0.9472*	0.01202	6.11E-04	0.8893	0.9684
	$\phi_{BRENT-Ç}$	0.0221*	0.01306	3.82E-04	0.002958	0.08
	$\phi_Ç$	0.9711*	0.01193	5.02E-04	0.9093	0.9941
	$\phi_{Ç-BRENT}$	-0.0193	0.00932	3.11E-04	-0.0349	0.0304
	ψ_1	0.9113*	0.09402	0.00301	0.7921	0.9539
	ψ_0	0.347*	0.081	0.003102	0.183	0.5311
	σ_ρ	0.1831*	0.05831	0.00427	0.08001	0.2992
	$\sigma_{\eta BRENT}$	0.2637*	0.03831	0.00692	0.1844	0.4027
	$\sigma_{\eta Ç}$	0.3215*	0.0387	0.002645	0.1211	0.3753

Mənbə : Müəllif tərəfindən hazırlanmışdır.
* 5% səviyyəsində statistik anlamlılıq daşımasını ifadə edir.

Cədvəl 3 göstəricilərinə əsasən Brent'də yaranan volatillik artışının S&P500 indeksi üzərində statistik olaraq təsir gücünə malik olmadığı, tam tərsinə S&P500 indeksində 1%'lik volatillik artışının Brent nefti volatilliyi üzərində 0.0812% qədər artışa səbəb olduğu görülməkdədir. Çin birjası cəhətdən isə SSEC indeksində yaranan 1%'lik volatillik dalğalanmasının Brent nefti üzərində 0.0221% qədər volatillik artışına səbəb olduğu görülməkdədir. Bununla birlikdə, ABŞ və Çin birjası ilə Brent qazancları arasındaki ψ_1 zamana bağlı dəyişən dinamik korelasiya əlaqəsi parametri bütün modeller üçün statistiki olaraq anlamlıdır. Hər iki ölkə üçün indekslərin qazanclılıqları ilə Brent qazanclılığı arasında müsbət və çox güclü səviyyədə qəbul edilən əlaqə mövcuddur.

NƏTICƏ

Tədqiqatda nəzərdən keçirilən hər iki ölkə üçün onların volatillik davamlılığının kifayət qədər sıx klasterlərə malik olduğu müşahidə edilmişdir. Qlobal faktorlardan isə Bitcoin üçün volatillik klasterlərinin aşağı olduğu, neft üçün isə volatillik klasterlərinin mövcudluğunun yüksək olduğu müəyyən edilmişdir. Buna görə də, neftin volatilliyinin ümumiyyətlə proqnozlaşdırıla bilən olduğu, Bitcoin'in dəyişkənliyinin proqnozlaşdırılma səviyyəsinin aşağı olduğu əldə edilən nəticələr arasındadır.

Bu ölkələrin Bitcoin ilə model nəticələrinə baxdığımızda, Bitcoin dəyişkənliyini artıran bir şokun bu indekslərin volatilliyinə doğru volatillik transfer təsirinin olmadığı görülür.

Çin fond bazarı indeksi dəyişkənliyindən isə Bitcoin dalğalanmaları üzərində volatillik transferinin olduğu və volatillik səviyyəsinə azaldıcı təsir göstərdiyi müəyyən edilmişdir. Buna görə də, dalğalanmaların əlaqəsinin birtərəfli olduğu və yalnız Çin üçün mənfi yönlü olduğu aşkar edilmişdir.

Müəyyən edilmişdir ki, ölkələrin fond bazarı indekslərinin volatilliyindən neft volatilliyinə keçid hər iki ölkə üçün bir istiqamətlidir və müsbət yönümlüdür. Bütün bu parametrlərdən başqa, əldə edilən bütün modellərin MC xəta qiymətlərinin hədd dəyəri kimi qəbul edilən 0,05-dən az olması model proqnozlarının real parametrik nəticələrə çatdığını sübut edir.

ƏDƏBIYYAT SIYAHISI

1. Knight, J. L., Satchell, S. E., & Yu, J. (2002). Theory & methods: Estimation of the stochastic volatility model by the empirical characteristic function method. Australian & New Zealand Journal of Statistics, 44(3), 319-335.
2. Engle, R. F. (1982). Autoregressive conditional heteroscedasticity with estimates of the variance of United Kingdom inflation. Econometrica: Journal of the econometric society, 987-1007.
3. Bollerslev, T. (1986). Generalized autoregressive conditional heteroskedasticity. Journal of econometrics, 31(3), 307-327.
4. Taylor. S. J. (1986). Modelling Financial Time Series, U.K. John Wiley.
5. Pellegrini, S., Rodrigez. A., (2023). "Financial Econometrics and SV models." https://citeseerx.ist.psu.edu/document?repid=rep1&type=pdf&doi=a31d3cbb6f241f7d2c54c94f622e17dfaf6a25c2
6. Choi, K., & Hammoudeh, S. (2010). Volatility behavior of oil, industrial commodity and stock markets in a regime-switching environment. Energy policy, 38(8), 4388-4399.
7. Vo, M. (2011). Oil and stock market volatility: A multivariate stochastic volatility perspective. Energy Economics, 33(5), 956-965.
8. Masood, O., Tvaronavičienė, M., & Javaria, K. (2019). Impact of oil prices on stock return: evidence from G7 countries. Insights into Regional Development, 1(2), 129-137.
- Cooper, W. W., Seiford, L. M., & Tone, K. (2007). *Data envelopment analysis: a comprehensive text with models, applications, references, and DEA-solver software* (Vol. 2). New York: Springer.
- Eraković, E. (2017). Concentration Effect on the Efficiency of the Banking Sector in the Republic of Serbia. *FACTA UNIVERSITATIS-Economics and Organization*, *14*(3), 281-289.
- Ersoy, N. (2018). Banka Etkinliklerinin Veri Zarflama Analizi İle Değerlendirilmesi. *Finans Ekonomi ve Sosyal Araştırmalar Dergisi*, *3*(2), 478-487.
- FORSUND, F. F., & SARAFOGLU, N. (2000). On the Origins Data Envelopment Analysis. Memorandum, No 24, Department of Economics, University of Oslo. 18-21.
- Grmanová, E., & Ivanová, E. (2018). The efficiency of banks in Slovakia: Measuring by DEA models,“. *Journal of International Studies Vol*, *11*(1), 257-272.
- Hsu, C. S., & Lin, J. R. (2007). Mutual fund performance and persistence in Taiwan: A non-parametric approach. *The Service Industries Journal*, *27*(5), 509-523.
- Kamarudin, F., Sufian, F., Nassir, A. M., Anwar, N. A. M., & Hussain, H. I. (2019). Bank efficiency in Malaysia a DEA approach. *Journal of Central Banking Theory and Practice*, *8*(1), 133-162.
- Khokhar, I., ul Hassan, M., Khan, M. N., Amin, M. F. B., & Center, I. B. (2020). Investigating the Efficiency of GCC Banking Sector: An Empirical Comparison of Islamic and Conventional Banks. *International Journal of Financial Research*, *11*(1), 220-235.

- Makhdut, U. Y. (2021). The Efficiency Of Banking Sector: The Evidence From Azerbaijan. *InterConf*, 63-71.
- Mamadi, S. Y., & Makhdut, U. Y. (2020). The Efficiency Of Azerbaijani Banks: An Empiric Analysis. *Economic and Social Development: Book of Proceedings*, *3*, 581-587.
- Novickytė, L., & Droždz, J. (2018). Measuring the efficiency in the Lithuanian banking sector: The DEA application. *International journal of financial studies*, *6*(2), 37.
- Sakouvogui, K., Shaik, S., & Addey, K. A. (2020). Cluster-adjusted DEA efficiency in the presence of heterogeneity: an application to the banking sector. *Open Economics*, *3*(1), 50-69.
- Yagubov, U. (2023). Measuring the efficiency of the banking sector by the method of Data Envelopement Analysis. *Scientific Collection «InterConf+»*, (30 (143)), 70-79.
- Yagubov, U., & Mamadi, S. Y. (2022). Efficiency of the Azerbaijani banking sector after COVID-19. *Journal of Sustainable Business, Economics and Finance*, *1*(1), 84-93.
- Yüksel, S., Mukhtarov, S., & Mammadov, E. (2016). Comparing the efficiency of Turkish and Azerbaijani banks: An application with data envelopment analysis. *International Journal of Economics and Financial Issues*, *6*(3), 1059-1067.

"KİÇİK BİZNESLƏR ÜÇÜN MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARA UYĞUNLAŞDIRILMASI"

VÜSAL MÜRSƏLOV
Bakı Biznes Universiteti
İqtisadiyyat və idarəetmə/Mühasibat uçotu və audit
vusalmursalovbbu@gmail.com
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Kiçik və orta sahibkarlıq subyektləri maliyyə məlumatlarını daha şəffaf, daha rəqabətqabiliyyətli və səriştəli tərtib etmək üçün bu hesabatları maliyyə hesabatlarının beynəlxalq standartlarına mütləq uyğunlaşdırmalıdırlar. Belə ki, bu standartların tətbiqi, beynəlxalq investorlar, ölkə xaricindəki potensial biznes tərəfdaşları üçün hesabatların təhlili zamanı daha çox güvən və etimad verir. Müstəqil sahibkarlıq subyektləri üçün bu standartlara əməl etmək, onların bazar paylarını artırmağa və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməyə kömək edir. Bu məqalə, kiçik biznes sahiblərinin bu standartları praktiki şəkildə necə tətbiq edə biləcəyini və potensial nailiyyətlərini artırmağın yollarını müzakirə edir. Beynəlxalq audit təşkilatları (Pricewaterhouse Coopers, Deloitte, Ernst & Young, və KPMG) MHBS çərçivəsində tərtib olunan maliyyə hesabatlarına daha çox etimad edir və rəy verirlər. Bu da öz növbəsində KOS-ların qlobal biznes mühitinə inteqrasiyasına öz töhfəsini verəcəkdir. KOS-ların xarici banklarda kredit əlçatanlığı, investisiya cəlb olunması və xarici ticarət dövriyyəsi imkanlarını genişləndirəcək və müəssisəyə yeni inkişaf fürsətləri yaradacaqdır. ACCA (Association of Chartered Certified Accountants) standartları çərçivəsindəki dəyişikliklər və tələblər ətrafında hansı addımların atılmalı olduğu təhlil edilib, bu təşkilatların sahibkarlıq subyektlərinə maliyyə hesabatlarının tərtibatı və təhlili üçün tətbiq etdikləri texnologiyalardan, avtomatlaşdırma proseslərindən, risk idarəsi metodologiyalarından, və digər yeniliklərdən necə faydalandığını ətraflı şəkildə tədqiq olunacaqdır. Həmçinin, ACCA standartlarının dəyişiklikləri və bu standartlara uyğunluq prosesləri üçün tətbiq edilən əməliyyatları ətraflı şəkildə müzakirə ediləcəkdir.

AÇAR SÖZLƏR: MALIYYƏ HESABATLARI, MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI, KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİ, İNTEQRASİYA, ŞƏFFAFLIQ

KEY WORDS: FINANCIAL REPORTING, INTERNATIONAL STANDARDS OF FINANCIAL REPORTING, SMALL AND MEDIUM-SIZED ENTITIES, INTEGRATION, TRANSPARENCY

GIRIŞ

Günümüzdə, kiçik və orta sahibkarlıq subyektləri üçün beynəlxalq ticarət və maliyyə standartlarına əməl etmək daha da vacib olur. Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması, şirkətlərin beynəlxalq bazarlarda rahatlıqla fəaliyyət göstərmələri, investisiya cəlb etmələri və kredit əldə etmələri üçün əhəmiyyətli bir addımdır. Kiçik və orta sahibkarlıq subyektləri üçün beynəlxalq ticarət və maliyyə standartlarına uyğunlaşmağın əhəmiyyəti gün keçdikcə artmaqdadır. Bu standartlar, şirkətlərin yerli bazarlardan çıxaraq dünya bazarlarına inteqrasiya olmalarına kömək edir. Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması, şirkətlər üçün bir sıra üstünlüklər və fürsətlər yaratmağa imkan verir. Bu məqalədə, kiçik və orta sahibkarlıq subyektlərində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması yolu ilə investisiya cəlbediciliyini artırmaq və kredit əlçatanlığını gücləndirmək üçün gərəkli addımların təhlilini edəcəyik.

Qlobal bazarlarda fəaliyyət göstərən şirkətlər üçün beynəlxalq standartlara uyğun maliyyə hesabatlarının təmin edilməsi, özünü müştəri və investorlar qarşısında şəffaflaşdırmaq və müstəqil təhlil edilmək imkanı yaratmaq deməkdir. Bu, şirkətlərin beynəlxalq müqavilələr bağlamaq və yeni bazarlarda müstəqil

təşkilatlara qarşı rahatlıqla fəaliyyət göstərmək imkanı yaradır. [Beynəlxalq Maliyyə Hesabatları Standartları (IFRS)](örn: www.ifrs.org)

Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması, şirkətlərin qlobal bazarlarda maraqli investisiyalar cəlb etmələrini asanlaşdırır. Investisiya cəlbediciliyini artırmaq üçün, şirkətlər öz maliyyə performanslarını dəqiq şəkildə təhlil edərək potensial investorlara etibarlı məlumatlar təqdim etməlidirlər. Bu, şirkətlərin etibarlı, şəffaf və cazibədar hala gəlməsinə kömək edir.

Beynəlxalq standartlara uyğun maliyyə hesabatları eyni zamanda kredit əldə etmə prosesində də təsir göstərir. Banklar və digər kredit təmin edənlər, dəqiq və şəffaf maliyyə göstəricilərinə əsaslanaraq şirkətin kredit əlçatanlığını qiymətləndirir. Bu, şirkətlərin daha əlverişli kredit şərtləri əldə etməsinə və büdcələrini effektiv şəkildə idarə etməsinə kömək edir. [Kiçik və Orta Sahibkarlıq üçün Maliyyə İdarəetməsi](örn: www.sba.gov)

Məqaləmizin əsas məqsədi, kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq ticarət mühitində rahatlıqla fəaliyyət göstərə bilmələri üçün əhəmiyyətli olan bu addımları aydın şəkildə təsvir etməkdir. Bu məqsədə nail olmaq üçün, əlavə tədqiqatlar və aktual məlumatlar əldə etmək üçün məqalənin davamında müxtəlif mənbələrə üstünlük verilmişdir.

TƏDQIQAT METODU

Kiçik və orta sahibkarlıq subyektlərində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması məsələsini tətbiq etmək üçün, tədqiqat metodlarının effektiv şəkildə istifadə edilməsi əhəmiyyətli bir addımdır. Bu metodlar, şirkətin maliyyə strukturlarını, keyfiyyətini və fəaliyyətini ətraflı şəkildə anlamağa kömək edir. Aşağıda tədqiqat metodlarının daha geniş təhlilini təqdim edirik:

Maliyyə Analizi:

Maliyyə analizi, şirkətin maliyyə performansını qiymətləndirmək üçün ən əsas tədqiqat metodlarından biridir. Bu analiz, əsasən şirkətin gəlir və xərclərinin, aktiv və pasivlərinin təhlilini, maliyyə mövqeyini və performansını qiymətləndirir. Horizantal və vertikal analizlər vasitəsilə müxtəlif illər və müqayisəli dövrlərdəki dəyişiklikləri müşahidə edərək, şirkətin nailiyyətləri və riskləri barədə dərin bir anlayış əldə etməyə kömək edir.

Sektoral Təhlil:

Sektoral təhlil, şirkətin fəaliyyət göstərdiyi sahəyə dair geniş təhlil və nəticədə həll mexanizmləri imkanlarını təmin edir. Müstəqil tədqiqatçılar və müxtəlif maliyyə təşkilatları tərəfindən aparılan bu təhlil metodu, müstəqil bir şirkətin necə fəaliyyət göstərəcəyini və sektorlar arası mübarizənin və koordinasiyanın necə olduğunu anlamağa kömək edir. Bu, şirkətin müstəqil bölmələrinə mövcud olan riskləri və fürsətləri qiymətləndirməyə kömək edir.

İdarəetmə Hesabatlarının Təhlili:

Şirkətin idarəetmə hesabatlarının təhlili, şirkətin inkişaf etməsi və effektivliyi üçün əhəmiyyətli olan bir başqa tədqiqat sahəsidir. Bu, bütün idarəetmə proseslərinin və strukturlarının təhlil edilməsini və təkmilləşdirilməsini təmin edir. Effektiv idarəetmə, maliyyə performansını artırmaq və beynəlxalq standartlara uyğunlaşmağa daha sürətli nail olmağa kömək edir.

Tədqiqat metodlarının bu geniş spektri, şirkətin müstəqil bir şəkildə beynəlxalq ticarət mühitində fəaliyyət göstərməsi üçün effektiv strategiyanın formalaşdırılmasında əhəmiyyətli bir rolu oynayır. Bu metodlar, şirkətin güclü və zəif tərəflərini anlamağa, strategik hədəflər qoymağa və beynəlxalq bazarlarda uğurla fəaliyyət göstərməyə nail olmağa kömək edir. [Investopedia - Investisiya Cəlbediciliyi](örn: www.investopedia.com)

Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması, şirkətin maliyyə indikatorlarını dünya əhəmiyyətli bazarlarda daha da rahatlıqla müqayisə etməsinə imkan verir. Bu standartlar, şirkətlərin fəaliyyətləri barədə daha şəffaflıq yaratmağa kömək edir və potensial investorlara və kredit təmin edənlərə dəyərli məlumatlar təqdim edir.

Investisiya Cəlbediciliyini Artırmaq:

Beynəlxalq standartlara uyğun hesabatlar, şirkətin investisiya cəlbediciliyini artırmağa kömək edir. İnvestorlar üçün şəffaf və dəqiq maliyyə hesabatları, şirkətin potensialini qiymətləndirmələrini asanlaşdırır. Bu, yeni investisiyaların cəlb edilməsi üçün əhəmiyyətli bir addımdır.

Kredit Əlçatanlığını Artırmaq:

Beynəlxalq standartlara uyğun maliyyə hesabatları, banklar və digər kredit təmin edənlər üçün də əhəmiyyətlidir. Dəqiq və şəffaf maliyyə hesabatları, şirkətin kredit əlçatanlığını artırmağa və daha əlverişli kredit şərtlərinin təmin edilərək əldə olunmasına ciddi ölçüdə kömək edir. (www.worldbank.org/en/country/azerbaijan)

Şəffaflıq və Biznes Tərəfdaşlığının Artırılması:

Beynəlxalq standartlara uyğun hesabatlar, şirkətin şəffaflığını artırmağa və biznes tərəfdaşları ilə daha güclü əlaqələr qurmağa kömək edir. Şirkətin daha güclü və dürüst bir şəkildə fəaliyyət göstərdiyini göstərmək, uzunmüddətli biznes tərəfdaşlığını dəstəkləyir.

Maliyyə hesabatlarının beynəlxalq standartları (IFRS), dünya əsasında işləyən bir çox şirkət və müəssisə üçün ümumi tətbiqi olan standartlardır. Bu standartlar, şirkətlərin maliyyə vəziyyətlərini bilmək, müqavilələri müəyyənləşdirmək, investisiya qərarları vermək və investorlarla əlaqələrini idarə etmək üçün əhəmiyyətli bir rolu oynayır. Bu məqalədə, maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqinin müəssisənin daxili və xarici inkişafına təsiri ilə bağlı müzakirə ediləcək. Kiçik biznes üçün maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması qlobal bazarda şəffaflığın, müqayisəliliyin və etibarlılığın artırılması istiqamətində mühüm addımdır. Beynəlxalq maliyyə hesabatı standartları (BMHS) ölçüsündən asılı olmayaraq müəssisələrə öz maliyyə məlumatlarını standartlaşdırılmış və ardıcıl şəkildə təqdim etməyə imkan verən hərtərəfli çərçivə təqdim edir.

Kiçik bizneslər resurs məhdudiyyətləri və müxtəlif tənzimləyici mühitlər səbəbindən maliyyə hesabatları təcrübələrini beynəlxalq standartlara uyğunlaşdırmaqda tez-tez çətinliklərlə üzləşirlər. Bununla belə, bu standartların qəbulu çoxsaylı faydalar verə bilər. Bu, yalnız şirkətin maliyyə sağlamlığının daha aydın başa düşülməsinə kömək etmir, həm də investorların inamını artırır və beynəlxalq investisiya imkanlarına qapılar açır.

BMHS-ə riayət etməklə, kiçik müəssisələr maliyyə hesabatları proseslərini sadələşdirə bilər ki, bu da maraqlı tərəflərin qlobal miqyasda onların fəaliyyətini qiymətləndirməsini və müqayisə etməsini asanlaşdırır. Bu standartlaşdırma maliyyə hesabatlarının etibarlılığını artırır, yanlış təfsir riskini azaldır və şirkətin maliyyə vəziyyətinin daha dəqiq təqdim olunmasını təmin edir.

Transsərhəd əməliyyatların adi hal aldığı getdikcə bir-birinə bağlı olan qlobal iqtisadiyyatda maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması təkcə uyğunluq məsələsi deyil; beynəlxalq arenada inkişaf etmək istəyən kiçik bizneslər üçün davamlı inkişafa və rəqabətə davamlılığa doğru strateji addımdır.

IFRS standartlarının tətbiqi, şirkətlər üçün standart və şəffaf maliyyə hesabatlarını təmin etmək məqsədilə dizayn edilmişdir. Bu, investorların və kredit təşkilatlarının şirkətlərin maliyyə vəziyyəti haqqında daha doğru və müqavimətli məlumat əldə etmələrinə imkan verir. Şəffaf və dəqiq maliyyə hesabatları, investisiya cəlb etmək və kredit şərtlərini yaxşılaşdırmaq üçün şirkətin güvənirliliyini artırır.

Beynəlxalq standartların tətbiqi, şirkətlər arasında müqavilələrin müqavimətliliyini artırmağa kömək edir. Çünki bu standartlar tərəfindən təyin edilmiş maliyyə hesabat prinsipləri və tənzimləmələr, şirkətlər arasında müqavilələrin qarşılaşdığı mübahisələrin vəziyyətləşməsini

asanlaşdırır və qarşılıqlı etibarın qorunmasına kömək edir. Bu da, beynəlxalq ticarət və sair əməliyyatlar üçün əhəmiyyətli bir avantaj təşkil edir.

IFRS standartlarının tətbiqi, şirkətlərin fəaliyyət göstərməsi üçün daha böyük bir beynəlxalq bazarın ən yaxşı praktikalarına uyğunlaşdırılmasına kömək edir. Bu, şirkətlərin müxtəlif ölkələrdə fəaliyyət göstərməsi və beynəlxalq bazarlara çıxmağa nail olmağa kömək edir. Standartların tətbiqi sayəsində şirkətlər, beynəlxalq müştərilər və investorlar arasında daha asan anlaşılır və müqavimətli olur.

IFRS standartlarının tətbiqi, şirkətlərin inkişafına təsir edən mövcud və potensial risklərin daha yaxşı idarə olunmasına kömək edir. Standartlar, maliyyə hesabatlarının təhlilinə və şirkətin idarəetmə strategiyasının formasına dair daha yaxşı məlumat əldə etməyə nail olmağa kömək edir.

Maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqi, bir şirkətin daxili effektivliyini artırmağa, müxtəlif ölkələrdə fəaliyyət göstərməyə və beynəlxalq bazarlarda müvafiq keyfiyyət standartlarına uyğunlaşdırılmasına nail olmağa kömək edir.

NƏTICƏ

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr tədqiqatlar və müstəqil təhlillər əsasında şirkətlər, inkişaf etmək üçün təhlükəsiz bir mənbə təmin edəcəklər və maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün strategiyalarını daha da yaxşı tənzimləyəcəklərdir. Bu, şirkətlərin sürətli, dəqiq və effektiv bir şəkildə beynəlxalq bazarlarda yer almağa nail olmalarını təmin edəcək və ümumilikdə, müstəqil sahibkarlıq subyektləri üçün global əməkdaşlıq və inkişafın önünü açacaqdır. Maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqi, bir müəssisənin daxili və xarici inkişafında müstəqil və əhəmiyyətli bir rolu ifa edir. Bu standartlar, şirkətlərin maliyyə bölgüsündə təşkilatlanma və hesabatlaşma prinsiplərini müəyyən edir və beynəlxalq ticarət, investor əlaqələri, və mövcud və potensial investorların marağını qazanmaq üçün ən müvafiq, şəffaf və təhlükəsiz maliyyə məlumatlarını təmin etməyə nail olur. Bu məqalədə, maliyyə hesabatlarının beynəlxalq standartlarının müəssisənin daxili və xarici inkişafına təsirini geniş və elmi tutumlu şəkildə müzakirə edirik.

Beynəlxalq standartların tətbiqi, maliyyə hesabatlarının standart və şəffaf bir formada təqdim edilməsini təmin edir. Bu, investorlar və kredit təşkilatları üçün mühüm bir əhəmiyyət kəsb edir, çünki onlar bu məlumatları əsas götürərək şirkətlərin maliyyə vəziyyəti haqqında məqbul qərarlar verirlər. Şirkətin güvənirliliyini artırmağa kömək edən bu proses, investisiya cəlb etmə və kredit şərtlərini yaxşılaşdırmağa nail olmağa imkan yaradır.

İkinci əhəmiyyətli nöqtədə, beynəlxalq standartlar şirkətlər arasında müqavilələrin müqavimətliliyini artırmağa və hər hansı bir mübahisənin sürətlə həllini təmin etməyə kömək edir. Standartların təyin etdiyi prinsiplər və tənzimləmələr, müxtəlif ölkələrdə fəaliyyət göstərən şirkətlər üçün universal vəzifələr təmin edir və bu da beynəlxalq ticarət və əməliyyatlar üçün çatışan bir çerçivə yaradır.

Həmçinin, beynəlxalq standartların tətbiqi, şirkətlər üçün daha böyük bir beynəlxalq bazarın ən yaxşı praktikalarına uyğunlaşdırılmasına imkan verir. Bu, şirkətlər üçün dünya səviyyəsində müqavilələr bağlamaq, yeni bazarlara daxil olmaq və müxtəlif ölkələrdə fəaliyyət göstərmək üçün tələb olunan standartlara nail olmağı asanlaşdırır. Bu da şirkətlərin beynəlxalq bazarlarda daha müvafiq və konkurent mövqeyi əldə etməsinə imkan verir.

Əsas məqam budur ki, IFRS standartlarının tətbiqi ilə şirkətlər, mövcud və potensial riskləri daha effektiv şəkildə idarə etmək imkanına nail olurlar. Standartlar, maliyyə hesabatlarının ətraflı təhlilinə və şirkətin idarəetmə strategiyasının formasına dair daha dəqiq məlumat əldə etməyə kömək edir. Bu, şirkətin sürətli inkişafına və müstəqil inkişafına səbəb olaraq, təcrübə vəziyyətinin əvvəlcədən təxmin edilməsini təmin edir.

Nəhayət, beynəlxalq standartların tətbiqi, bir şirkətin daxili effektivliyini artıraraq, müxtəlif ölkələrdə fəaliyyət göstərməyə nail olmağa və beynəlxalq bazarlarda müvafiq keyfiyyət standartlarına uyğunlaşdırılmağa kömək edir. Bu proses, şirkətin sürətli və sürətli inkişafını təmin edir və müəssisənin beynəlxalq arenada daha da müstəqil və bacarıqlı olmasına imkan verir. Həll Yolları

Təhsil və Təlim: Kiçik və orta sahibkarlıq subyektlərinin mütəxəssisləri və işçiləri üçün beynəlxalq maliyyə hesabatlarına dair təhsil və təlim proqramları təşkil etmək vacibdir. İşçilərin beynəlxalq standartları anlamaq və tətbiq etmək üçün lazım olan bacarıqları əldə etməsi təmin edilməlidir.

Texnologiya Tətbiqi: Şirkətlər, beynəlxalq maliyyə hesabatlarını effektiv şəkildə yerinə yetirmək

üçün müasir texnologiyalardan istifadə etməlidirlər. Maliyyə proqramları və təhlil alətləri, maliyyə əməliyyatlarını daha dəqiq və effektiv şəkildə həyata keçirmək üçün əhəmiyyətli bir rol oynayır.

Məlumat Mübadiləsi və Əməkdaşlıq: Kiçik və orta sahibkarlıq subyektləri, beynəlxalq əməliyyat göstərən şirkətlərlə məlumat mübadiləsi və əməkdaşlıq edərək, məlumatlarını və təcrübələrini artıra bilərlər. Bu, beynəlxalq maliyyə standartlarına cavab vermək üçün yaxşı təcrübələrin və praktikalardan istifadə etmələrini təmin edir.

Dövlət Dəstəyi: Dövlət tərəfindən kiçik və orta sahibkarlıq subyektlərinin beynəlxalq maliyyə hesabatlarına uyğunlaşmağa kömək etmək məqsədi ilə təşkil olunan təlimlər, tədqiqatlar və dəstəklər, bu şirkətlər üçün məqsədli və əhəmiyyətli ola bilər.

Əgər kiçik və orta sahibkarlıq subyektləri beynəlxalq maliyyə hesabatlarını düzgün şəkildə tətbiq edə bilərlərsə, bu, onlara daha çox müstəqil auditor və investor marağı cəlb etmək, beynəlxalq bazarlarda daha aktiv fəaliyyətlərə cəlb olmağa kömək edəcək və uzun müddətli uğur əldə etmələrinə imkan yaradacaqdır.

Ədəbiyyat siyahısı

1. Beynəlxalq Maliyyə Hesabatları Standartları (IFRS)](örn: www.ifrs.org)
2. Kiçik və Orta Sahibkarlıq üçün Maliyyə İdarəetməsi](örn: www.sba.gov)
3. Investopedia - Investisiya Cəlbediciliyi](örn: www.investopedia.com)
4. https://www.worldbank.org/ [Dünya Bankı - Kredit Əlçatanlığı]
5. "ACCA Qualification"
6. "ACCA Exam Resources"
7. "ACCA Learning Community"
8. "International Journal of Accounting, Auditing and Performance Evaluation"
9. "ACCA Professional Insights"
10. "Wiley CPA Exam Review"
11. "Accounting, Organizations and Society"

OLIMPUS QALMAQALI

ZIYA İSGƏNDƏROV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə
Zisgenderov1@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Olimpus qalmaqalı , Olimpus idarə heyətinin 1.7 milyard dollarlıq zərəri 1980-ci illərin ortalarından gizlətmək üçün qurduqları planla başlayır . 80-ci illərin ortalarında yapon yeninin dollar qarşısında yüksəlməsi , yapon şirkətləri üçün problemlər yaradırdı . Belə ki bu şirkətlər bu hadisədən sonra “zaitech” adı verilən maliyyə bazarlarına intensiv yatırımlara başladılar. Olimpus ilk fəaliyyətləri 1987- ci ildə mənfəətli olsa da, 1991-ci ildə 2.1 milyard yen zərər etmişdi. 90-ci illərin sonuna qədər isə bu zərərlər daha da artmış və şirkət rəhbərliyi zərərləri açıqlamaq və yatırımları dayandırmaq əvəzinə daha da riskli yatırımlar edərək bu qumara davam edirdilər. Və bunu gizlətmək üçün, “tobashi sxemi” adı verilən bir plan qurdular. Bu plana əsasən Kayman adalarında yerləşən kağız üzərində ki şirkətləri idarəetmə və satınalma haqqları hesabına satın alıb, Olimpus şirkətinin balansından kənarda uçota alacaqdılar. Bu vəziyyət 2011- ci ilə kimi davam etdi. 2011-ci ildə Maykl Vodford ilk dəfə Olimpusda Yaponiya vətandaşı olmayan bir CEO seçildi və işinin icrası zamanı şübhəli məqamları görüb, idarə heyətinə bildirdi və cəmi 2 həftə sonra öz yeni postundan qovuldu. Vodford bundan sonra problemləri ictimailəşdirdi və bu, idarə heyətinin yalanlarının böyük bir

qalmaqalla üzə çıxmasına səbəb oldu. Olimpus qalmaqalı adı ilə dünya gündəmində yer alan bu hadisə nəticəsində, şirkətin səhmlərinin qiyməti 80% azaldı, Tokyo birjasından çıxma təhlükəsi ilə üzləşdi və bu qalmaqal, nəticəsində Yapon idarəçiliyinə yeni bir baxış tərzinin formalaşmasına gətirib çıxardı.

Açar sözlər: qalmaqal, səhm, Olimpus, idarəetmə heyəti, şayiə

GİRİŞ

2011-ci ildə Yaponiya da yüksək profilli şirkətlərin bir çoxunun adının çəkildiyi qalmaqal qeydə alındı və Olimpus qalmaqalı da bunlar arasındaydı. Yaponiyanın birjada 3-cü böyük şirkəti olan Olimpus 1919- cu ildə qurulub və 2011-ci ildə təqribən 40 min insanın işlədiyi və dünyada tibbi endoskopik cihazların 70 faizdən artıq hissəsinin istehsalçısı idi. İlk yarandığı zamanlar kamera istehsalçısı olan şirkət, endoskopik cihazların istehsalından sonra, bu bazarda bir xeyli zəifləmiş və tarixi mövqeyini itirmişdir. 2011-ci ildə şirkətdə 20 ildən çoxdur zərərlərini gizlətmək üçün muhasbiatlıq fırıldaqçılığı ilə bağlı şayiələr yayıldı. Belə ki, bir çox mənbəyə əsasən, şirkət rəhbərliyi, Olimpus qrupa aid olmayan bir çox şirkətə investisiya edərək zərərlərini gizlətməyə çalışırdı. Qalmaqalın əsas mənbəyi isə o dövrdə yenicə CEO seçilən Maykl Vodford idi.Vodford öz postuna keçdikdən sadəcə 2 həftə sonra qovulmuşdu. Vodfordun qovulması kütləvi informasiya mənbələrinin diqqətini çəkmiş və bu mövzunun təkcə Yaponiyada deyil, bütün dünya da yayılmasına gətirib çıxarmışdır . Vodford qovulmasının ardından qalmaqal, "The Financial Times"-da bir məqalə ilə dünya mediyasının gündəmində yer aldı və ardından Vodford "Birləmiş Krallıqda ciddi fırıldaqçılıq ofisindən" (UK Serious Fraud Office) Olimpusu məhkəməyə verdi. 2012–ci ildə isə qalmaqal Yaponiya tarixinin ən böyük və ən uzunömürlü fırıldaqçılıq hadisəsi olaraq tarixə keçdi. Məhkəmənin ardından, Vodford Olimpus tərəfindən 10 milyon funt sterlinqdən çox təzminat aldı və öz kitabını (Exposure: Inside the the Olympus scandal) yazdı. Bu hadisəyə maraq o qədər böyük idi ki kitab 2012-ci ildə Amazonda ən çox satılan kitab oldu. Bundan əlavə idarə heyəti də məhkəməyə verildi və milyardlarca yen dəyərində olan Kayman adalrında ki, səhmlər dəyərsiz hesab olundu .

Bu tədqiqatın əsas məqsədi, qalmaqalın səbəblərini dərindən araşdırmaq, qalmaqalın əsas iştirakçıları: idarə heyəti, Maykl Vodford və bu qalmaqalı işıqlandırılmasına qarşı olan şəxslər və qurumlar haqqındadır.

1. Maykl Vodford kim idi?

Maykl Vodford 1960-cı ildə Liverpul şəhərində dünyaya gələn Britaniyalı iş adamı idi. 1981-ci ildən Olimpusda işləməyə başlayan Vodford, 2004-cü ildə tibbi birliyin sədri və 2008-ci ildə isə Olimpusun Avropada ki sədri oldu. 2011-ci ildə Olimpus şirkətinin CEO– su seçilən Vodford bir neçə həftədən sonra, bu vəzifədən qovulur və bu qalmaqalın əsas iştirakçısı kimi bütün dünyada məşhur olur. Onun sayəsində Olimpus idarə heyətinin uzun illərdir davam edən saxtakarlığının üstü açılır və 2012-ci ildə iştirakçısı olduğu məhkəməni qazanır. Onun bu qalmaqalı ifşa etməklə atdığı cəsarətli atdım, bir çox kütləvi informasiya vasitələri tərəfindən təqdirəlayiq hərəkət olaraq qarşılanır . Bunun qarşılığında o, bir çox qərbi kütləvi informasiya mənbələri tərəfinfən (The Sunday Times, The İndependent, The Sun) 2011-ci ilcə "ilin biznesmeni seçilir". 2015-ci ildə isə Yaponiya xarici müxabirlər birliyi (The Foreign Correspondent's club of Japan) tərəfindən "azad mediyanın dostu" mükafatını qazanır. Bu qədər uğur qazanmasına baxmayaraq, Vodford özünün mərkəzində olduğu bu hadisələr nəticəsində yaranan reformlara, Yaponiya hökümətinin dırnaqarası baxdığını düşünürdü və 2014-cü ildə Yaponiyada, İngilis Ticarət palatsına (The British Chamber of Commerce in Japan) bir müsahibəsində demişdir ki, "bu reformlar Yaponiya da çalışan və belə hallarla qarşılaşan kiçik vəzifələrdə ki, işçiləri cəsarətləndirmədi" və əsl məqsədinin əslində bu illər ərzində təkcə Olimpusda deyil digər korporasiyalarda da belə fırıldaqçılığın ifşalanması olduğunu qeyd edirdi. Bu müsahibənin sonunda, bu qazanılan qələbəni "Pirin qələbəsi" adlandıraraq əslində qazandıqlarının heç bir şeyi dəyişmədiyini bildirmək istəyirdi.

2. Qalmaqalın xronologiyası

1980-ci ildə Yoşiro Şimoyama Olimpus korporasiyanın CEO-su və prezidenti idi. 80-ci illərin ortalarında şirkətin gəlirləri birdən birə azaldı . Bunun əsas səbəbi yapon yeninin dollara qarşı qiymətinin artması idi. Belə ki, 1985-ci ildə Yaponiya, Almaniya və Britaniya hökümətlər arası razılığa gələrək, öz valyutalarını Abş dollarına qarşı gücləndirmək qərarına gəldilər. Onlar düşünürdülər ki, bunun nəticəsində xarici yatırımları artıra və birdən birə digər valyutaların dəyərinin artması nəticəsində ixrac məhsullarına daha az pul verəcəkdilər. Buna qarşılıq olaraq Abş iqtisadçıları

öz valyutalarını dəyərini gözləniləndən çox aşağı salmağı təklif etdi . Hökümət tərəfindən qəbul edilən bu qərar nəticəsində, Abş dolları, Yaponiya, Almaniya və İngiltərə valyutalarına nəzərən çox ucuzlaşdı və bu vəziyyət digər 3 ölkə üçün iqtisadi problemlər yaratdı. Ucuzlaşan dollar bazarda alıcılar üçün daha cəlbedici gəlməyə başladı və Abş bazarına yatırımlar artdı. Eyni zamanda digər 3 ölkədə xarici səhmdarlar getdikcə bazardan uzaqlaşmağa başladılar. Eyni zamanda sabit bazarda birdən birə dolların aşağı düşməsi, Yaponiyanın, eləcə də digər 2 ölkənin Abşda ki korporasiyalarından gələn qazancı azaltdı. Belə bir böhran vəziyyətində, Yaponiyada bir çox şirkət kimi Olimpusda çıxış yolları axtarmağa başladı. Şimoyama şirkətin maliyyə direktoru olan Hideo Yamada ilə razılığa gələrək aqresiv yatırımlar etməyə qərar verdi. Bu yatırım nözü "zaitech" adlanır və bu yatırımlar əslində gerçəkliyi əks elətdirmirdi. Zaitech yerli şirkətlərin biri-birinə yatırım etməsi mənasına gəlirdi. Belə ki, Yaponiya da olan bir çox böyük qruplar biri-birinin səhmlərinə yatırım edir və mənfəətlərini şişirdirdilər və sözdə çox böyük qazanclar əldə edirdilər. 1987-ci ildə Yamada aqressiv yatırımlardan məsuliyyətli şəxs oldu və özünə kğməkçi kimi Hişaşi Mori təyin edildi. Zaman keçdikcə Yamada və Mori arasında sövdələşmələr onları şirkətdə daha da yuxarı vəzifələrə daşıdı. 1987-ci ildə ki mənfəətin ardından Mori icraçı vitse-prezident və idarə heyətinin direktoru, Yamada isə daimi korporativ auditor oldu. Ancaq bu yatırımlar böyük zərərələrə səbəb olurdu, iş birliyinin üzərindən 10 il keçdikdən sonra bu zərərləri bağlamaq üçün Yamada və Mori 2 qat və 3 qat faiz artımı təklif edən riskli maliyyə alətləri , eləcə də mürəkkəb struklaşdırılmış istiqrazlara investisiya etməyə başladılar.(McKenna 2012).

90-ci illərin sonunda Olimpusun zərəri 100 milyard yeni keçmişdir. Amma Yamada və Mori hələ də riskli investisiyalar etməyə davam edirdilər. Əslində onlara bunu etməyə yardımçı olan şey, o dövrdə Yaponoiya hökümətinin qərarı idi. Belə ki 1997-ci ilə kimi Yaponiya da mühasibatlıq standartına əsasən şirkətlər ədalətli dəyərləri ilə yox, tarixi dəyərləri ilə uçota alınırdı. Yalnız 1997-ci ildə Beynəlxlq Maliyyə hesabatlarınn standartlarına (İFRS) əsasən ədalətli dəyər metodu hökümət tərəfindən qəbul edildi (Mintz,2012). Mühasib olaraq Yamada və Mori bilirdilər ki, tezliklə əllərində olan dəyərsizləşmiş aktivlərin ədalətli dəyərini açıqlamağa məcbur olacaqlar.

1998- ci ildə isə prezident Şimoyamanın razılığı və təsdiqi əsasında Yamada və Mori yeni bir model hazırladılar. Bazardan bazara mühasibatlığın yaratdığı boşluq sayəsində onlar zərərin ayrılması mexanizmasını yaratdılar. Bu mexanizmin işləmə prinsipinə əsasən , onlar yeni xasta şirkətlərə investisiyalar edəcək və o şirkətləri konsolidasiyada Olimpus qrupun bir parçası olaraq qeydə almayacaqdılar. Belə balansdan kənar şirkətlərə mühasibatlıqda qabıq şirkətlər deyilir. Bu şirkətlərin dəyərsiz aktivlərinin Olimpusun balansında göstərilməməsi üçün əvvəlcə sənəddə qurumlar lazım idi. Onlar bunun üçün apan Securities və Axes America-nın prezidentindən bu qurumları qurmağı xahiş etdi. 1998- ci ildə ilk dəfə "qənuledici fond" yaradıldı və bu fond "Mərkəzi Meşə"(Central Forest) adlanırdı. Kayman adalarında yerləşən bu şirkət zərərələri gizlətmək üçün idi . Yamada və Mori öz zərərlərini gizlətmək və Central Forest-ə yatırım üçün Lixteynşteyndə ki bir bankdan kredit götürməyi qərara aldılar. 30 milyard yen olan bu kreditin əvəzində onlar, Olimpusa məxsus Yaponiya dövlət istiqrazlarını zamin qoydular. Yamada və Mori Lixteynşteyndə ki bankdan əlavə, Sinqapurda ki bankdan da istifadə edərək saxta təşkilata 45 milyard yen əlavə yatırım etdilər. entral Forest qurulduqdan sonra Yamada və Mori Easterside Investments adlı ikinci saxta qurum yaratdılar. Yamada və Mori yenidən istiqrazlardan istifadə edərək bu şirkətə də 60 yen yatırım etdilər. (Bacani,2011).

1998-ci ilə qədər Yamada və Mori Mərkəzi Meşədə ümumi balans dəyəri 64 milyard yen olan bu aktivləri gizlətməyə müvəffəq oldular. Yamada və Mori son bir saxta varlıq əlavə edərək, 32 milyard yen balans dəyərinə malik Quick Progress-i qurdular. Yamada və Mori itkiləri aradan qaldırmaq üçün bir yol tapmalı olduqlarını bilirdilər, buna görə də zərərin aradan qaldırılması sxemi qurmağa başladılar. Bu plana əsasən onlar şişirdilmiş qiymətlərlə start-up və sahibkarlıq müəssisələrinin satın alınmasını və birləşmə və satınalmalar (M&A) sövdələşmələri üçün böyük məsləhət haqlarının ödənilməsini həayata keçirdilər.

Onlar yeni yatırımlar üçün ayrılan pulun bir hissəsini, saxta şirkətlər üçün aldıqları kreditləri ödəmək üçün istifadə etdilər. Onlar elə banklardan kredit almışdılar ki , həmin banklar saxta müəssisələri maliyyələşdirir, sonra isə investisiya fondlarına daxil olan pulu geri qaytarırdılar. Bu qara pulları yuma əməliyyatı üçün istifadə edilən kreditlər geri qaytarıldıqdan sonra, Yamada və Mori bu alışları və onlara xərclənən pulları balansda qudvil kimi qeydə almaq qərarına gəldilər. Yamada və

Mori bu ideyalarının baş tutacaqlarından əmin idilər və düşünürdülər ki, qudvil zamanla sıfıra enəcək və onların törətdiyi çirkli pulların yuyulması əməliyyatından heç kimin xəbəri olmayacaq (McKenna, 2012).

İllər sonra Olympus-un xarici auditoru olan KPMG, satınalmalara aid edilən həddən artıq qiymətləndirilmiş qudvillə razılaşmadı. Bunun nəticəsi olaraq Olimpus əvvəlcə 2009-cu ilin martında 55.7 milyard yen, ardından 2010-cu ilin martında 1.3 milyard yen səhmlərdə dəyər düşüklüyü ilə üzləşdi. Bu Olimpus üçün artıq böhran vəziyyəti idi, amma Yamada və Mori üçün bu saxta şirkətlərdə ki gizlətdikləri yatırımları əldən çıxarmaq üçün bir fürsət idi və onlar Gyrus adında yeni saxta təşkilat yartdılar. Gyrus məqsədi KPMG tərəfindəm qudvil kimi tanınmayan hissəni investisiya xərci ilə bağlamaq idi və onlar Gyrus-a 62 milyard yen yatırım etdilər.

Bu hadisələrdən sonra 2011- ci ildə Vodford CEO təyin olundu və gəldiyi gündən etibarən qudvili və əsasəndə startup və satınalmalara xərclənən pulları sorğulamağa başladı. Vodford bu araşdırmalardan sonra idarə heyətinə yeni kitab yazmaq istədiyini və kitabda bu saxtakarlığı qeyd edəcəyini bildirdi və CEO kimi 2- ci həftəsinin sonunda işindən qovuldu.

2011- ci ildə Olimpus aparılan araşdırmalardan sonra müstəqil komitə quraraq ümumi araşdırma etməyə məcbur oldu. Bu komitə keçmiş ali məhkəmə hakiminin rəhbərlik etdiyi 6 nəfərdən ibarət idi və 12 həftəlik araşdırmadan sonra, nəticələri 6 dekabr 2011-ci ictimaiyyətə açıqladı. Olimpus bu açıqlamaradan sonra dünyanın 2-ci ən böyük birjası olan Tokio fond birjasından (TSE) uzaqlaşdırılma təhlükəsi ilə üzləşdi amma komitenin qərarı ilə birjada qalması üçün son 5 ildə ki hesabatlarında düzəlişlər edib, şəffaf hesabatlar təqdim etməsi üçün son tarix qoyuldu və yalnız bu hesabatlardan sonra birjada qala biləcəyi bildirildi.

Şimoyama 2011-ci ilin noyabrında istefa verdikdən sonra, Şuiçi Takayama Olimpus-un prezidenti və baş direktoru vəzifəsini icra etməyə başladı Ümumilikdə, Takayama panelin nəticələrini araşdırmaq üçün üç komitə yaratdı: idarəetmə islahatı komitəsi, hüquqşünaslardan ibarət komitə və onların məsuliyyətini araşdıracaq idarə heyətinin direktorları və qeyri-direktorların və korporativ auditorların məsuliyyətini öyrənəcək kənar hüquqşünaslardan ibarət başqa bir komitə.Takayamanın rəhbərliyində Olimpus, direktorlara qarşı məhkəməyə 8 yanvar 2012-ci il, audit firmaları da daxil olmaqla digər şəxslərə qarşı məhkəmə hesabatı üçün 17 yanvar 2012- ci ilə qədər hazır olmalı idi. Bundan sonra isə Olimpus keçmiş prezidentini və 18 işçisini məhkəməyə verir və mühasibat dələduzluğuna görə 3.6 milyard yen tələb edir . Sonda isə çox cuzi məbləğ olan 10 milyon yen (130 min Abş dolları) müqabilində yenidən Tokyo birjasında aktiv üzvlərdən birinə çevrildi.(Japan Times,2012).

2012-ci ilin fevralında Yaponiya prokurorları Olimpus-un keçmiş sədri Tsuyoshi Kikukawa, digər iki keçmiş icraçı, Hisaşi Mori və Hideo Yamada və qalmaqalda əməkdaşlıq etdiyi iddia edilən konsaltinq şirkətlərindən üç nəfəri həbs edərək rəsmi ittiham irəli sürdülər. Bu altı nəfəri 10 ilə qədər həbs və 125.000 ABŞ dolları məbləğində cərimə gözləyirdi. “Nikkei” qəzeti, Olympus-un saxta mühasibatlığa görə 1,2 milyon dollar cərimə olunduğunu da bildirdi. (Gallagher, 2012). Bu qalmaqal nəticəsində 22 iyul 2011-ci ildə 2769 yen olan Olimpusun bir səhmi 11 noyabr 2011- ci ildə 460 yenə kimi düşdü.(Tokyo Fond Birjası,2012). Qalmaqalın üzərindən 12 il keçməsinə baxmayaraq, Yaponiya, Abş və Britaniya rəsmiləri hələ də araşdırmaları davam etdirir.

Tədqiqat metodu

Bu məqalədə, Olimpus qalmaqalı haqqında yazılan elmi işlərdən, Maykl Vodfordun yazdığı “Exposure: İnside of the Olympus scandal” kitabdan və tanınmış jurnallardan götürülmüş məlumatlar təqdim olunmuşdur

NƏTICƏ

Olimpus skandalı, təkcə korporativ dünyanı deyil, həmçinin Yaponiyanın idarəetmə modelinə və prinsiplərinə ciddi dəyişiklər etməyə vadar etdi. Bu skandal Yaponiya da eləcə də dünyada bir çox şirkətin, mühasibatlıq və peşə etikasına olan baxış bucaöını dəyişərək, daha sosial məsuliyyətli korporativ şirkətlərin qurulmasına təkan verdi.

Maliyyə bazarlarına təsiri

Olimpus'un maliyyə manipulyasiyaları, maliyyə bazarlarına olan güvənin azalmasına səbəb oldu . Bu da, investorların şirkətlərə olan etimadını və investisiya strategiyalarını dəyişdirmələrinə səbəb oldu. Bundan sonra, investorlar daha çox şirkət etikasına önəm verməyə başladı.

Korporativ İctimaiyyət və Şəffaf İş Praktikaları

Bu skandal, korporativ sosial məsuliyyət (CSR) və şəffaf iş praktikaları mövzusunda yeni bir kəşf

etdi . Şirkətlər, təhlükəsiz və şəffaf bir iş mühitinə nail olmaq üçün daha da böyük addımlar atmağa məcbur oldu. İş dünyasında sosial və ictimai dəyərlərə hörmət və bu şəraitlərin yaradılması üçün, eyni zamanda tətbiqi üçün yeni planlar irəli sürüldü.

Ədəbiyyat siyahısı

1.WOODFORD, M. (2012). EXPOSURE: INSIDE THE OLYMPUS SCANDAL: HOW I WENT FROM CEO TO WHISTLEBLOWER. NEW YORK, NY: PENGUIN GROUP.

2. THOMAS, C. (2002). THE RISE AND FALL OF ENRON. JOURNAL OF ACCOUNTANCY,194(4), 41-48.

3. BACANI, CESAR, THE OLYMPUS SCANDAL: WHEN A FOREIGN CEO REBELS,QUESTEX, 24 OCTOBER 2011.

4. CHOUDHURY, AMBEREENAND VAUGHAN, LIAM, DIAMOND QUITS AS PRESSURE MOUNTS ON BARCLAYS, JULY 3, 2012

5. GALLAGHER CHRIS, NEGISHI, MAYUMI, JAPAN PROSECUTORS CHARGE KEY FIGURES IN OLYMPUS SCANDAL, REUTERS, MARCH 7, 2012

SAXTAKARLIĞIN AŞKARLANMASI VƏ MALİYYƏ TƏHLÜKƏSİZLİYİ

Zülayə Mahmudova
Bakı Mühəndislik Universiteti
zmahmudova1@std.beu.edu.az
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Cəmiyyət məlumatlandıqca insanlar informasiyadan daha artıq dərəcədə asılı vəziyyətə düşürlər. İnformasiya təhlükəsizliyinin təmin olunmaması isə cəmiyyət üçün böyük fəsadlar törədə bilər. Respublikamızın milli təhlükəsizliyinin təmin olunmasında mühüm rola malik informasiya resurslarının qorunması, kiberhücumların qarşısının alınması, dövlət idarələrinin elektron xidmətlər və informasiya sistemlərinin təhlükəsizliyinin mühafizəsi vacib məsələdir. Dövlət və qeyri-dövlət qurumlarının internet təhlükəsizliyinin qorunması, kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasına, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatların toplanması, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və onlara metodiki köməyin göstərilməsi də az əhəmiyyətli deyildir. İnformasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi dövlətin, cəmiyyətin və insanların fəaliyyətinin vacib şərtlərindən biridir. Qloballaşan dünyada informasiya texnologiyalarının yaratdığı imkanlardan sui- istifadə etməklə cinayətin yeni növləri yaranır, dövlətin ərazi bütövlüyü ilə bağlı məlumatlar təhrif edilir, terrorizm ideologiyasının təbliğ edilməsi və terror aktlarının planlaşdırılması üçün internet şəbəkəsindən fəal şəkildə istifadə olunur. Bu gün informasiya təhlükəsizliyinə təhdidlər çox ciddi mərhələyə keçmişdir. Bu təhlükəli amilə qarşı mübarizə aparmaq üçün bütün dünya birliyinin fəal səylərinin birləşdirilməsi, habelə müasir təhdidlərin aradan qaldırılması və qarşısının alınması probleminə əsaslı yeni strateji yanaşmanın formalaşması zəruridir. İnformasiyanın artmaqda olan əhəmiyyəti qarşılıqlı informasiya təsiri proseslərinin tənzimlənməsinin təmin olunması üçün dövlətin fəal müdaxiləsini tələb edir.

AÇAR SÖZLƏR:İnformasiya-1 texnologiyaları-2 ,kiberhücümlar-3, maliyyə-4, saxtakarlıq-5

GİRİŞ

Tədqiqat mövzusunun aktuallığı. 1970-ci illərin sonundan etibarən pul-kredit sferası sahəsində aparılan araşdırmalarda maliyyə təhlükəsizliyinin monetar sabitliklə əlaqələndirən yanaşma üstünlük

təşkil etməyə başladı. Bütövlükdə maliyyə sistemininin təhlükəsizliyinin təminatı sistemində monetar siyasətin rolunun zərurəti 2007-2009-cu illərin qlobal maliyyə böhranından və şokların yeni yayılma kanallarının qiymətləndirilməsindən sonra özünü daha əyani şəkildə nümayiş etdirməyə başladı. BVF-nun məlumatına görə qlobal maliyyə böhranından sonra dünyada təhlükəsiz aktivlərin azalması prosesi davam edir və 2016-cı ilin sonuna əlavə $9 trln. aktivin təhlükəli aktiv sırasına daxil olacağı gözlənilir. Bank sektorunda təhlükəsiz aktivlərin azalması tədbirləri monetar siyasətin tətbiqində əsas prinsiplərdən biridir.

Dünya iqtisadiyyatında baş verən hadisələr də sübut edir ki, maliyyə təhlükəsizliyini təmin etmədən bir çox iqtisadi problemlərin həllinə nail olmaq mümkün deyildir. Milli maliyyə bazarlarının inteqrasiyasının gücləndiyi bir şəraitdə monetar siyasətin tətbiqində innovativ tədbirlərə ehtiyac var. Böhrandan sonrakı dəyişikliklərin ən mühüm istiqamətlərindən biri milli Mərkəzi Bankların fəaliyyətinin məqsədləri, səlahiyyətləri və alətlərinə yenidən baxılması oldu. Prioritet məqsəd kimi qarşıda milli maliyyə sistemində sabitliyinin dəstəklənməsi qoyuldu ki, bu da monetar siyasətinin ənənəvi məqsədləri ilə makroprudensial məqsədləri bir araya gətirmək kimi mürəkkəb bir problemi gündəmə gətirdi. Onların xüsusən də böhranlı şəraitdə bir-biri ilə ziddiyyət təşkil edə bilməsi ehtimalının yüksək olması Mərkəzi Bankların və ya maliyyə stabilliyinin dəstəklənməsinə görə məsuliyyət daşıyan orqanların fəaliyyətində yeni təsisat formalarının axtarılmasına səbəb olurdu. Bəzi inkişaf etmiş ölkələrdə makromaliyyə təhlükəsizliyinə qorunmasına görə məsul olan orqanlar artıq işlənib hazırlanmış, təsdiq olunmuş və yaradılmışdırsa, digər ölkələrdə bu işə hələ indi-indi başlanılır.

Tədqiqat metodu

Ölkənin maliyyə sisteminin kibertəhlükəsizlik vəziyyəti

Müasir dövrün çağırışları hesab olunan innovativ həllərə əsaslanan rəqəmsal maliyyə xidmətləri fəaliyyətin effektivliyini və səmərəliliyini artırmaqla yanaşı maliyyə ekosistemini kiberhücumlara qarşı daha həssas etməkdədir. Bununla qlobal maliyyə sistemləri kibercinayətkarların başlıca hədəflərinə çevrilmiş, nəticədə kiberhücumların tezliyi artmış və hücum ssenariləri mürəkkəbləşmişdir. Bu istiqamətdə baş verən kiber trendlər öz növbəsində, kiber risklərin düzgün idarə edilməsini və adekvat tənzimləmə çərçivəsinin tətbiq edilməsini zəruri edir. Bu səbəbdən, maliyyə bazarlarına nəzarət orqanları maliyyə sistemində kiberdayanıqlığı davamlı olaraq təkmilləşdirir və onunla bağlı tədbirləri hər bir təşəbbüsün tərkib hissəsinə çevirir. 2023-2026-cı illər üçün "Maliyyə bazarları üzrə kibertəhlükəsizlik Strategiyası"nın (Strategiya) başlıca məqsədi Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) və ölkədə fəaliyyət göstərən maliyyə institutlarında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin gücləndirilməsi, o cümlədən müasir dövrün kibertəhlükəsizlik təhdidlərinin və kiberhücumların qarşısının daha effektiv alınması üzrə əsas fəaliyyət istiqamətlərinin müəyyən edilməsidir. Strategiyaya daxil edilmiş təşəbbüslər və icrası nəzərdə tutulmuş tədbirlər AMB-nin və ümumilikdə maliyyə bazarlarının mümkün kibertəhlükəsizlik insidentlərinə və fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsinə, həmçinin maraqlı tərəfləri vaxtında məlumatlandıraraq kibertəhlükəsizlik təşəbbüsləri ilə bağlı qərarların qəbul edilməsi proseslərinin daha effektiv təşkil edilməsinə yönəlmişdir. Strategiyanın vizyonu "maliyyə sabitliyinin təmin edilməsi üçün artan kibertəhdidlər fonunda ölkənin maliyyə bazarlarında kiber dayanıqlığın gücləndirilməsidir". Bu strategiya ölkədə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin tərkib hissəsi olaraq, bu sahədə fəaliyyətin əsas məqsədlərini, prinsiplərini, istiqamətlərini və prioritet vəzifələrini müəyyən edir. Strategiyanın əsas missiyası kibertəhlükəsizlik sahəsində etibarlı təhlükəsizlik infrastrukturu, təkmil bilik və bacarıqlara malik olan insan kapitalı, kibertəhdidlər barədə məlumatların qarşılıqlı kommunikasiyası həyata keçirilən effektiv əməkdaşlıq münasibətləri, habelə adekvat tənzimləmə çərçivəsi ilə əhatə olunmuş maliyyə sisteminin formalaşdırılması və onun kiber dayanıqlığının təmin edilməsidir. Son zamanlar ölkənin milli kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və beynəlxalq trendlər nəzərə alınmaqla inkişaf etdirilməsi istiqamətində aidiyyəti dövlət qurumları və assosiasiyaları tərəfindən həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizin kibertəhlükəsizlik üzrə beynəlxalq reytinqlərdə mövqeyi yüksəlməkdədir. Belə ki, 2023-cü il üzrə Milli Kibertəhlükəsizlik İndeksinə əsasən Azərbaycan reytinqdə 33 pillə irəliləyərək Qazaxıstan, Belarus, Özbəkistan, Ermənistan kimi ölkələri qabaqlamış və reytinqdə 53-cü yerdə qərarlaşmışdır1 . Bu inkişaf tempinin qorunub saxlanması, o cümlədən ölkəmizin milli kibertəhlükəsizilik ekosisteminin tərkib hissəsi olan maliyyə sisteminin kiber dayanıqlığının qorunub saxlanması mühüm prioritetlərdən birinə çevrilmişdir. Bu prioritetin icrası

ölkənin maliyyə sisteminin kibertəhlükəsizlik vəziyyətinin qiymətləndirilməsini zəruri edir. Strategiyanın bu bölməsində tətbiq edilən özünüqiymətləndirmə metodologiyası, daha sonra isə müxtəlif maliyyə institutları arasında aparılan kibertəhlükəsizlik sorğusunun nəticələri şərh edilir. (Azərbaycan Respublikasının Mərkəzi Bankı-"Maliyyə bazarları və kibertəhlükəsizlik strategiyası"2023-2026)

1.Maliyyə institutları üzrə qiymətləndirmə çərçivəsi: Maliyyə bazarlarında kibertəhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi məqsədilə maliyyə institutları üzrə sorğular keçirilmişdir. Aparılmış sorğularda 51 respondent olan maliyyə institutları, o cümlədən banklar, sığorta şirkətləri və maliyyə bazarlarının digər iştirakçıları iştirak etmişlər: Bankların sayı: 22, BOKT-ların sayı: 15 ,Sığorta şirkətlərinin sayı: 10 , Kart prosessinq mərkəzləri: 2 ,Digər (Milli Depozit Mərkəzi, İcbari Sığorta Bürosu): 2.

Keçirilmiş sorğular NIST standartının kiberəthlükəsizlik çərçivəsinə əsasən hazırlanmış, 6 kateqoriyaya və 52 suala bölünmüşdür. Sorğular zamanı maliyyə institutlarında informasiya aktivlərinin müəyyən edilməsi və mühafizəsi, təhlükəsizlik hadisələrinin aşkar edilməsi, onlara adekvat cavab reaksiyasının verilməsi və aradan qaldırılması, həmçinin məlumatların məxfiliyi üzrə məsələlər təhlil edilmişdir.

Maliyyə institutlarının kibertəhlükəsizlik səviyyəsi

Maliyyə institutları üzrə keçirilmiş sorğular nəticəsində müəyyən edilmişdir ki, "təhlükəsizlik hadisələrinə reaksiya verilməsi" və "fəaliyyətin bərpa edilməsi" üzrə göstəricilər ölkənin maliyyə sektorunun kibertəhlükəsizlik üzrə orta göstəricisindən aşağıdır

Şəkil 1: Ölkənin maliyyə bazarlarında kibertəhlükəsizlik vəziyyəti



Mənbə: Kibertəhlükəsizlik üzrə sorğunun nəticələri

Cədvəl 1-də göründüyü kimi, bank sektoru və ödəniş bazarı iştirakçılarının kibertəhlükəsizlik üzrə vəziyyəti sorğuda iştirak edən sığorta şirkətləri ilə müqayisədə daha qənaətbəxşdir. "Təhlükəsizlik hadisələrinin aşkar edilməsi" indikatoruna əsasən bank sektoru və ödəniş bazarı iştirakçılarının kibertəhlükəsizlik üzrə yetkinlik səviyyəsi 2.4-dən yüksəkdir. Maliyyə sektorunun kibertəhlükəsizlik üzrə orta göstəricisi hər üç seqment üzrə 2.28 təşkil etdiyi halda, bank sektoru üzrə göstərici 2.14, sığorta təşkilatları üzrə 1.85, ödəniş bazarları üzrə isə 2.85 təşkil etmişdir. Odur ki, maliyə bazarlarının hər üç seqmenti üzrə iştirakçıları kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində tədbirləri intensivləşdirməli və bu sahəni xüsusi diqqət mərkəzində saxlamalıdır.

Maliyyə sistemi üzrə dünyada kibertəhlükəsizlik trendləri və başlıca çağırışlar

Son zamanlar qlobal maliyyə sistemləri kibercinayətkarların başlıca hədəflərinə çevrilmiş, nəticədə kiberhücumların tezliyi artmış, tətbiq ssenariləri mürəkkəbləşmiş, xüsusilə də hücuma məruz qalan tərəflər üçün daha "bahalı" olmuşdur. Aparılmış araşdırmalara əsasən Amerika Birləşmiş Ştatlarında (ABŞ) 2022-ci ildə kiberhücumlar nəticəsində məlumat sızıntısı üzrə zərərin orta dəyəri 9.44 mln. ABŞ dolları həcmində olmuşdur4 . Bu təhdidlərlə mübarizə aparmaq üçün maliyyə institutları real vaxt rejimində kibertəhdidləri aşkar etməyə və onlara cavab verməyə imkan verən yeni

nəsil təhlükəsizlik həlləri tətbiq etməkdədirlər. Maliyyə sistemində ən çox təsadüf olunan kiberhücum trendləri aşağıda göstərilmişdir: Maliyyə sektoruna təsir edən ən çox yayılmış kiberhücum növlərindən biri "fişinq"dir.Fişinq hücumları adətən istifadəçilərin giriş məlumatlarının və ya fərdi məlumat kimi həssas məlumatların əldə edilməsi yolu ilə saxta e-poçt və ya internet səhifələrdən istifadəni əhatə edir. 2022-ci ilin 2-ci rübündə qeydiyyata alınmış fişinq hücumlarının ən böyük payı (27.6%) məhz maliyyə institutlarının üzərinə düşür. Kibercinayətkarlar sosial mühəndislik metodlarından istifadə edərək insanları fərdi və maliyyə məlumatlarını təqdim etməyə inandıra bilirlər.

Cədvəl 1: Maliyyə institutları üzrə kibertəhlükəsizlik vəziyyəti

İndikatorlar	Bank sektoru	Sığorta sektoru	Ödəniş bazarı	Orta göstərici
İnformasiya aktivlərinin müəyyən edilməsi	2.15	1.9	2.85	2.3
İnformasiya aktivlərinin mühafizə edilməsi	2.2	2.1	3.25	2.51
Təhlükəsizlik hadisələrinin aşkar edilməsi	2.4	2.2	3.35	2.65
Təhlükəsizlik hadisələrinə reaksiya verilməsi	1.8	1.2	3.15	2.05
Fəaliyyətin bərpa edilməsi	1.9	1.5	2.1	1.83
Məlumatın məxfiliyi	2.4	2.2	2.4	2.33
Orta göstərici	**2.14**	**1.85**	**2.85**	2.28

Mənbə:Kibertəhlükəsizlik üzrə sorğu nəticələri

Maliyyə sektoru üçün daha bir artan təhlükə "ransomware" (ransom) zərərverici proqram təminatlarıdır. PwC tərəfindən aparılan təhlillərə əsasən ransom zərərverici proqram təminatından istifadə edilməklə həyata keçirilən kiberhücumlar 2021-ci ildə əksər təşkilatların üzləşdiyi ən əhəmiyyətli kiber təhlükə olmuşdur . Belə ki, həmin ildə maliyyə sistemi iştirakçılarının 55%-i hədəfə alınmış və maliyyə xidmətlərinə edilmiş ransom kiberhücumları nəticəsində məlumat sızması iki dəfə artmışdır . Ransom hücumlarından qorunmaq üçün təşkilatlar bir sıra təhlükəsizlik tədbirlərini həyata keçirməlidirlər. Buraya əsasən sosial mühəndislik kiberhücumları barədə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, çoxfaktorlu autentifikasiya həllərinin tətbiqi və məlumatların müntəzəm əsasda ehtiyat nüsxələrinin yaradılması prosedurları daxildir.(https://www.netguru.com/blog/fraud-detection-with-machine-learning-banking)

İnformasiya və kommunikasiya texnologiyalarının mürəkkəbləşməsi, təhlükəsizlik risklərinin davamlı olaraq artması, həmçinin informasiya təhlükəsizliyi ilə bağlı insidentlərin (kiber insidentlər daxil olmaqla) intensivləşməsi maliyyə institutlarının əməliyyat fəaliyyətinə əhəmiyyətli şəkildə təsir göstərməkdədir. Eyni zamanda, müasir dövrdə maliyyə institutları bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərdiklərindən informasiya təhlükəsizliyi və / və ya kibertəhlükəsizlik sahəsində baş verə bilən kritik insidentlər potensial olaraq bütün maliyyə sisteminə təsir edə bilər. Bu baxımdan maliyyə bazarlarına nəzarət orqanları tərəfindən aidiyyəti üzrə risk əsaslı nəzarət və tənzimləmə çərçivələri formalaşdırılır və tətbiqinin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu kontekstdə AMB maliyyə institutlarının effektiv kibertəhlükəsizlik təcrübələrinin yaradılmasında və müvafiq qaydalara və standartlara əməl etməsində mühüm rol oynayır. AMB maliyyə bazarlarında kibertəhlükəsizlik tədbirlərinin sürətləndirilməsi və güclü informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması istiqamətində maliyyə institutları ilə birgə fəaliyyət göstərəcəkdir. Bu istiqamətdə

aparılan işlər çərçivəsində maliyyə institutları və aidiyyəti qurumlarla sıx kommunikasiyada güclü kibergigiyena təcrübələrinin yaradılması, kibertəhlükəsizlik üzrə maarifləndirmə proqramlarının həyata keçirilməsi, kibertəhlükəsizlik üzrə təlim keçmiş və sertifikatlaşdırılmış ekspertlərin hazırlanması və digər təhlükəsizlik tədbirlərinin realizasiyası nəzərdə tutulmuşdur. Nəticədə, bu gözləntiləri qarşılamaqla, maliyyə institutları maliyyə sisteminə etibarı artıra və inamı təşviq edən təhlükəsiz mühiti yarada biləcəkdir. (Saleh Məmmədov- "Rəqəmsal maliyyə"(2022) səh 170-192)

Maliyyə saxtakarlığını aradan qaldırmaq üçün aşağıdakı əməlləri yerinə yetirmək lazımdır:

1. Maliyyə proseslərini sərbəst etmək: Maliyyə sisteminə açıq və şəffaflıq mərhələlər qoymaq və bu mərhələləri nizamlamak lazımdır. Bunu etmək üçün maliyyə sahəsində lazımi qanunvericiliklər və qaydalar qoyulmalıdır.

2. Yüksək texnologiyalı maliyyə sistemi yaratmaq: Maliyyə sahəsində yeni ictimaiyyətləşmə ərazi və hərəkətli mədəniyət kimi inkişaf edən texnologiyaları tətbiq etmək lazımdır. Bu, elektron maliyyə xidmətlərinin istifadə, blokçeyn texnologiyasının maliyyə sistemlərinə daxil edilməsi və sosial mediyanın dəstəklənməsi ilə mümkün olacaq.

3. İmtinaçı maliyyə sektorunu gücləndirmək: Maliyyənin saxtakarlıqla mübarizədə aktiv rolları olan təşkilatlar və nazirlər də daxil olmaqla, imtinaçlı maliyyəyə qarşı effektiv mübarizə üçün qurumların və təsərrüfatların potensialını gücləndirmək məqsədəuyğundur.

4. Müvəffəqiyyətli müşahidə sisteminin yaradılması: Maliyyə raportlaşdırma və müşahidə proseslərini gücləndirəcək müvəffəqiyyətli bir müşahidə sistemi yaratmaq, təşkilatların maliyyə informasiyasına asanlıqla daxil olmasına və mövcud olan saxtakarlıqları daha asan aşkar etmələrinə kömək edəcəkdir.

5. Qlobal əməliyyatlar üzrə tərəfdaşlıqların gücləndirilməsi: Saxtakarlığı qarşısını almaq üçün dövlətlər, maliyyə təşkilatları və aktivist təşkilatlar arasında güclü tərəfdaşlıqlar qurmaq lazımdır. Bu tərəfdaşlıqlar, informasiya və məlumat mübadiləsi ilə saxtakarlığın aradan qaldırılması üçün səmərəli bir yolla əməkdaşlıq edəcəkdir.(https://seon.io/resources/financial-fraud-detection/)

6. Sağlam etik və dəyərlər sistemi tətbiq etmək: Maliyyə sahəsində dəyərlər sistemi və etik prinsiplər qoyaraq maliyyə iqtisadiyyatında ümumi inancların qorunmasına dəstək verilməlidir. Bu, mərhələli bir tədbir olaraq təlimlər və təhsillərlə təşviq edilə bilər.

Bu addımlar saxtakarlığın aradan qaldırılması üçün başlanğıc nöqtələridir və müvəffəqiyyətli uzunmüddətli bir tədbir planı tələb edir. Bu əməllər maliyyə sahəsində daha etik və şəffaflıq mənbərini yaratmaq üçün bir neçə digər tədbirlərlə birlikdə əhəmiyyətli bir rol oynaya bilər.(Serdar Kuzu - Financial and risk management" səh(38-60) 2020)

Nəticə

Beləliklə, böhranın yayılmasını qabaqlamaqdan ötrü ölkənin maliyyə sisteminin vəziyyətinin, həmçinin onun stabilliyini müntəzəm əsaslarla analiz etməyə imkan verən bəzi indikator yığımı üzrə monitorinq sistemi yaratmaq lazımdır. Ölkənin təhlükəsizliyinə qarşı təhdidlər, ilkin olaraq qonşu ölkələrdə və yaxud digər kontinentlərdə yaranaraq, məsələn, maliyyə böhranı kimi, bir çox hallarda istər xaricdən, istərsə də daxildən baş qaldırırlar. Bunun üçün də əgər böhranlı ölkələrlə qarşılıqlı xarici iqtisadi və xarici ticarət əlaqələri vardırsa maliyyə təhlükəsizlik göstərici-indikatorlarını müntəzəm olaraq izləmək və kompleks analiz aparmaqla ölkənin maliyyə bazarlarında maliyyə böhranını yaranması mümkünlüyünü müəyyən etmək lazımdır, Bank sistemində maliyyə təhlükəzliyinin təmin edilməsində pul siyasətinin xüsusi rolunu şərtləndirir. 2008-ci ildə başlanmış dünya maliyyə böhranı, bütün ölkələrin, həmçinin də Azərbaycan hökümətini böhrandan çıxmağın yeni mexanizmlərini axtarmağa vadar edir. Azərbaycan iqtisadiyyatının müasir inkişaf cizgiləri, bir tərəfdən, dünya bazarında yaranmış təbii ehtiyatların konyukturası şəraitində milli iqtisadiyyatın yeni keyfiyyət xüsusiyyətlərinin əldə etməsinə, bununla belə, qlobal böhran və onun fəsadları müasir iqtisadi arxitekturada mütləq depressiv ssenarilərə qarşı qoruyucu mexanizmlərin yaradılmasını və gücləndirilməsini gündəmə gətirir. Ənənəvi xilas təyinatlı maliyyə fondları ilə yanaşı, bu sırada iqtisadiyyatın dövlət tənzimləməsində istifadə olunacaq antiböhran xarakterli xüsusi tədbirlər, həmçinin milli iqtisadiyyatın strukturunun şaxələndirilmiş olması və yeni şəraitə çevik uyğunlaşmaq qabiliyyəti xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBIYYAT SIYAHISI

1.Saleh Məmmədov- “Rəqəmsal maliyyə” -2022
2.Serdar Kuzu -Financial and risk management”-2020
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı-”Maliyyə bazarları və kibertəhlükəsizlik strategiyası”2023-2026
4. https://seon.io/resources/financial-fraud-detection/
5. https://www.netguru.com/blog/fraud-detection-with-machine-learning-banking

S E K S İ Y A – 4

BEYNƏLXALQ MÜNASİBƏTLƏR

YENI GEOSIYASI REALLIQLAR KONTEKSTINDƏ TÜRKIYƏNIN QAFQAZ STRATEGIYASI

SAMİR QULİYEV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idarəetmə / Dövlət və bələdiyyə idarəetməsi
squliyev@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Tükiyə Cümhuriyyətinin Qafqaz regionu ilə əlaqəli strategiyası, regiondakı geosiyasi dəyişikliklərə müvafiq olaraq dövrdən-dövrə dəyişiklik göstərərək inkişaf etmiş, Türkiyənin daxili parametrləri və regionla əlaqəli qlobal geosiyasi yanaşmalara reaksiya kontekstində formalaşdırılmışdır. Beynəlxalq münasibətlər tarixinin inkişaf proseslərində həm coğrafi baxımdan, həm də iqtisadi və siyasi baxımdan əhəmiyyətli regionlardan biri olan Qafqaz regionu, Azərbaycanın Qarabağ zəfərindən sonra regional əməkdaşlıq və reinteqrasiya çərçivəsində geosiyasi baxımdan mühüm əhəmiyyətli bir mərkəzə çevrilmiş, Qafqaz geosiyasətində yeni dövr başlamışdır. Qafqaz regionunu təhlükəli bir region kimi göstərən amillərdən ən mühümü aradan qaldırılmış və regional əməkdaşlıq üçün münbit şərait yaranmışdır. Regiondakı qanlı müharibələrin yerini regionla əlaqəli təklif edilən qlobal layihələr üzərində mübarizə almış və regionda yeni geosiyasi reallıqlar meydana gəlmişdir. Türkiyə-İran rəqabəti, Rusiya-Türkiyə əməkdaşlığı, Ermənistan üzərində Qərb-Rusiya qarşıdurması, Azərbaycan-Gürcüstan-Ermənistan ilə Rusiya-İran-Türkiyə bloklaşmaları kimi faktorlar regionda gedən mübarizələrin miqyasını daha da genişləndirmişdir. Yeni geosiyasi reallıqlar kontekstində, Qafqaz regionundakı statuskvonun dəyişməsinə böyük töhvə verən Türkiyə proseslərdə əsas açar ölkə rolunu oynayır. Regional aktor kimi Türkiyənin Qafqazla əlaqəli geosiyasi yanaşmaları və müvafiq strategiyası yeni mərhələdə formalaşacaq regional əməkdaşlıq perspektivlərini artıracaq və Qafqaz regionunun qlobal mərkəzlərdən birinə çevrilməsinə şərait yaradacaqdır. Bu baxımdan, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra meydana gələn Qafqaz regionundakı yeni geosiyasi reallıqların müəyyənləşdirilməsi və Türkiyənin regiondakı yeni geosiyasi dəyişikliklər çərçivəsindəki rolunun və strategiyasının tədqiq edilməsi həm beynəlxalq münasibətlər elmi, həm də praktik siyasət baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə Qafqaz regionunun geosiyasi mövqeyinə təsir göstərən yeni reallıqlar müəyyənləşdirilmiş və Türkiyənin Qafqaz strategiyasının əsas parametrləri müqayisəli tədqiq olunmuşdur.

Açar sözlər: Türkiyə, Qafqaz, Geosiyasət

ABSTRACT

The strategy of the Republic of Turkey related to the Caucasus region has changed from time to time according to geopolitical changes in the region, and was formed in the context of Turkey's internal parameters and response to global geopolitical approaches related to the region. The Caucasus region, which is one of the geographically, economically and politically important regions in the development processes of the history of international relations, became a geopolitically important center within the framework of regional cooperation and reintegration after the Karabakh victory of

Azerbaijan, and a new era in the geopolitics of the Caucasus has begun. The most important factors that make the Caucasus region a dangerous region have been eliminated and fertile conditions for regional cooperation have been created. Bloody wars in the region have been replaced by struggles over proposed global projects related to the region, and new geopolitical realities have emerged in the region. Factors such as Turkey-Iran rivalry, Russia-Turkey cooperation, West-Russia conflict over Armenia, Azerbaijan-Georgia-Armenia and Russia-Iran-Turkey blockades have further expanded the scale of the ongoing struggles in the region. In the context of new geopolitical realities, Turkey plays a key role in the process, contributing greatly to the change of the status quo in the Caucasus region. As a regional actor, Turkey's geopolitical approaches and corresponding strategy related to the Caucasus will increase the prospects of regional cooperation that will be formed in the new stage and will create conditions for the Caucasus region to become one of the global centers. From this point of view, the identification of the new geopolitical realities in the Caucasus region, especially after the Second Karabakh war, and the study of the role and strategy of Turkey within the framework of the new geopolitical changes in the region are of great importance both from the point of view of international relations science and practical politics. In this article, the new realities affecting the geopolitical position of the Caucasus region are identified and the main parameters of Turkey's Caucasus strategy are comparatively researched.

Key words: Turkey, Caucasus, Geopolitics

GİRİŞ

SSRİ-nin süqutundan sonra beynəlxalq münasibətlər sistemində meydana gələn dəyişikliklər və davam edən proseslər, digər bir ifadə ilə iki qütblü sistemə əsaslanan Soyuq Müharibə parametrlərinin ortadan qalxması nəticəsində şərq-qərb istiqamətindəki "Rimland" adlanan sahə ilə birlikdə şimal-cənub keçid və kommunikasiya yolları üzərində yayılan geniş geosiyasi və geoiqtisadi regionların ortaya çıxmasına səbəb olmuşdur. Beynəlxalq münasibətlər sistemində sürətlə dəyişkənlik göstərən xarici siyasət doktrinaları ilə yanaşı texnologiyanın da inkişaf etməsi ilə nəqliyyat və kommunikasiyanın coğrafiya amilini kiçiltməsi nəticəsində, daha çox "regional güc" olma istiqamətində mübarizəni hədəf seçən "geosiyasət" anlayışı, əhəmiyyətini daha da artırmışdır.

Ümumi mənada nəzəri baxımdan geosiyasətə, "coğrafiyanın siyasətə istiqamət verməsi" kimi tərif verə bilərik. Tarixi proseslərdəki inkişaflara paralel olaraq müxtəlif alimlər tərəfindən fərqli kateqoriyalarda geosiyasi mövzular müzakirə edilərək nəzəriyyələr irəli sürülmüş və bununla da hegemon dövlətlər geosiyasi nəzəriyyələrə söykənərək dünyaya hakim olmağa cəhd göstərmişlər. Nəzəriyyələrin kəsişdikləri ortaq məqamlara diqqət elədiyimizdə, ümumiyyətlə əsas aktyor kimi dövlətin göstərilməsi, sahə olaraq coğrafiyanın əhəmiyyətinin vurğulanması və iki element arasındakı bağların siyasətə tətbiq edilməsi prosesi qarşımıza çıxır (Cohen, 2014).

Geosiyasətə əsaslanan strategiyalarda, ölkənin coğrafi əhəmiyyətini hədəf seçmək ilk mərhələ, insan faktoruna əsaslanan ictimai, iqtisadi, siyasi və hərbi gücünü müəyyənləşdirməyi məqsədə qoymaq isə ikinci mərhələ hesab olunur. Son mərhələ isə, hər iki mərhələni və bunlarla birlikdə zaman faktorunu də nəzərə alan ümumi bir analizdir. Bu proseslərin hər birində qlobal səviyyədəki dəyərləndirmələr baza götürülərək regionla əlaqəli təhlillər aparılır (Dussouy, 2006).

"Dövlətlərə bu mübarizə prosesində nisbi üstünlük təmin edəcək regionlar hansıdır?", "bu regionlarda hakimiyyət ən optimal bir şəkildə necə qurula bilər?" və son olaraq "təmin edilən bir hakimiyyətin davamlı olması üçün nə etmək lazımdır?" kimi sualların cavabı klassik geosiyasi nəzəriyyələr olaraq qəbul edilən quru, dəniz və hava hakimiyyət nəzəriyyələrini də əhatəsinə alaraq genişlənmiş, müasir dövrümüzdə də dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətlərinə təsir göstərən əsas amillərdən olmuşdur (Cohen, 2014).

İkinci Qarabağ müharibəsindən sonra Qafqaz regionundakı geosiyasi parametrlər dəyişmişdir. Əvvəllər qlobal xarakter daşıyan geosiyasi nəzəriyyələr, artıq dövrümüzdə daha lokal xarakter almış, hardasa beynəlxalq hüququn hər bir subyektinin geosiyasi yanaşması meydana gəlmişdir. Bu kontekstdə qlobal və regional aktorların Qafqaz regionunun dəyişən geosiyasəti ilə əlaqəli strategiyaları da yenilənmişdir. Əsas regional güclərdən biri kimi Türkiyə Cümhuriyyətinin Qafqaz regionu ilə əlaqəli strategiyasının yeni formalaşmış geosiyasi reallıqlar çərçivəsində tədqiq edilməsi həm beynəlxalq münasibətlər elmi, həm də praktik siyasət baxımından aktuallıq kəsb edir.

TƏDQİQAT METODU

Mövzunun tədqiqi zamanı müasir tarixi proseslər çərçivəsində xronoloji, müqayisəli siyasi təhlil, müqayisəli-tarixi prioritet təşkil edən mənbələrin və hadisələrin təsviri metodlarından və beynəlxalq münasibətlər nəzəriyyələrindən istifadə edilmişdir. Məqalədə əsas etibarilə nəzəriyyələrə əsaslanan deskriptiv metodlardan istifadə edilərək proqnozlar verilmiş, obyektivliyin təmin olunması istiqamətində kompleks olaraq müxtəlif dillərdəki mənbələrdən araşdırmanın məqsədinə müvafiq olaraq istifadə edilmişdir. Konseptual problemlərdə nəzəri əsaslar təmin edilərək şərh, təhlil və ümumiləşdirmələr aparılmışdır.

QAFQAZIN GEOSİYASİ MÖVQEYİ VƏ YENİ REALLIQLAR

Tarixdən bəri Qafqaz regionu həm coğrafi baxımdan, həm də iqtisadi və siyasi baxımdan əhəmiyyətli regionlardan olmuşdur. Soyuq Müharibədən sonra beynəlxalq arenada meydana gələn dəyişikliklər, digər bir ifadə ilə iki qütblü sistemə əsaslanan Soyuq Müharibə vəziyyətinin ortadan qalxması, şərq-qərb istiqamətindəki "Rimland" adlanan sahə ilə birlikdə şimal-cənub keçid və əlaqə yolları üzərində yayılan geniş geosiyasi və geoiqtisadi regionların ortaya çıxmasına səbəb olmuşdur (Shaffer, 2009).

Azərbaycanın məşhur tarixçilərindən Ziya Bünyadov, SSRİ-nın dağılması ərəfəsində Qafqaz regionunun geosiyasəti ilə əlaqədar "Türkiyənin geosiyasi əhəmiyyətini izah etməyə ehtiyac yoxdur, bunu Napaleon belə bildirmişdir. Amma bu gün ən vacib geostrateji region Qafqazdır. Kiçik bir torpaq parçasında (450 000 $km^{2)}$ çox böyük bir mübarizə aparılır. Tarixdə ən çox qan tökülən region bu coğrafiyadır. Qafqazlılar dünyanın ən çox acı çəkən xalqıdır." deyirdi.

SSRİ dövründə daha çox rusların hakimiyyətində olan bu region, SSRİ-dən sonrakı dövrdə müstəqilliyini əldə edən region ölkələri Azərbaycan, Gürcüstan və Ermənistanla birlikdə böyük qüvvələrin hədəfində olan və regionla bağlı müxtəlif xarakterli strategiyaların ortaya qoyulduğu, sanki "yeni böyük oyunun" səhnələndiyi bir məkana çevrilmişdir. Məşhur politoloq Zbiqnev Bjezinski özünün "Böyük Şahmat Taxtası" adlı əsərində "böyük oyun" içərisində göstərdiyi Qafqaz regionunu, qlobal güc siyasətlərinin hədəfində olan əsas coğrafiya kimi qələmə almışdır. Bunun əsas səbəbinin də, "Avrasiyanın Balkanları" olaraq təsvir etdiyi regiondakı enerji resursları üzərində gedən mübarizə və regiondakı ictimai-siyasi ixtişaşların oynadığı rol göstərilir (Çelikpala, 2007). Digər geosiyasətçi H. Makinderin "Quru Hakimiyyəti Nəzəriyyəsinə" görə isə, Qafqaz regionu dünya coğrafiyasında hökmranlıq üçün əsas dayaq nöqtəsi kimi dəyərləndirilmişdir (Neset, 2023).

Coğrafi mövqe baxımından Qafqaz regionu, Avropa-Afrika-Asiya qovşağında yerləşən və 5.000 km uzunluğunda olan Aralıq dənizi-Egey dənizi-Boğazlar ilə Mərmərə dənizi-Qara dəniz-Azov dənizi kimi bir-birinə bağlı daxili dənizlərin meydana gətirdikləri bir su dəhlizinin şərq tərəfində olmaqla birlikdə Xəzər dənizi ilə də şərq istiqamətinə meyl etmiş və bağlanmış bir mövqeyə malikdir (Shaffer, 2009).

Ümumi olaraq Avrasiya geosiyasətində Qafqaz regionu, həm bir tranzit xətti həm də bir sığınacaq kimi əsrlər boyunca əhəmiyyətini qoruyan bir regiondur. Sığınacaq olma xüsusiyyəti regiondakı dağlarla birbaşa əlaqəlidir. Böyük Qafqaz və Kiçik Qafqaz dağları ilə birlikdə Qafqazın başqa bir hissəsi də şimalda yerləşən çöl ərazisidir. Qafqaz dağlarının şimalında yerləşən bu çöl ərazilər Don steplərinin bir davamı olub məhsuldar bir əkinçilik potensialına da malikdir. Şimaldan cənuba keçişi Dərbənd xəttində Xəzər sahil yoluna nəzarət edə bilən Demirqapı keçidindən təmin edən; şərqdən qərbə keçişi Araz vadisi ilə tənzimləyərək Təbrizi-Ərzuruma yəni İranı Anadoluya birləşdirir . Əlavə olaraq Qafqaz regionunun giriş qapısı xüsusiyyətini daşıyan Şimali Qafqaz, regionun idarəsini və nəzarətini təmin edə biləcək əsl strateji əhəmiyyətə malik ərazi seqmentidir. Qafqazın, şimal-cənub və şərq-qərb paralelində kəsişmə nöqtəsində olması, regionu siyasi baxımdan da ixtişaş və mübarizə mərkəzinə çevirmişdir (Çelikpala, 2007).

Coğrafi baxımdan çox əhəmiyyətli mövqedə yerləşməklə yanaşı, Asiya və Avropa arasında keçid marşrutu funksiyasına da sahib olan Qafqaz, dağlıq və kələ-kötür quruluşundan ötrü bir çox etnik ünsürün dil və mədəniyyət birliyini qoruyub saxladığı, xarici güclər tərəfindən zənginlik olaraq göstərilməsinə baxmayaraq region daxilində müxtəlif problemlərə səbəb olan kompleks bir regiondur. Bununla birlikdə, yeni bir mübarizə sahəsi kimi ortaya çıxan Qara dəniz hövzəsinə də açılan bir qapı xüsusiyyətini daşıması, Qafqazın geosiyasi əhəmiyyətini daha da artırmışdır.

Tarix boyunca müxtəlif mədəniyyətlər arasında mərkəzi region vəzifəsini yerinə yetirən Qafqaz regionu, bu coğrafi dəyərləri ilə birlikdə zəngin yeraltı və yerüstü resurslara malik olması, Xəzər enerji

resurslarının Qərbə nəqlində əhəmiyyətli bir yol olması səbəbilə müasir dövrümüzdə də həm geosiyasi, həm də geostrateji baxımdan beynəlxalq arenada rəqabət sahəsinə çevrilmişdir. Bu mübarizə nəticəsində də Qafqaz coğrafiyası dünyanın ən qeyri-sabit və təhlükəli regionu kimi dəyərləndirilmişdir (Shaffer, 2009).

Azərbaycanın Qarabağ müharibəsində şanlı zəfər qazanması ilə torpaq bötövlüyünü təmin etməsi ilə birlikdə, Qafqaz regionu qlobal və regional güclərin geosiyasi üstünlük naminə mübarizə məkanına çevrilmiş, bununla da Qafqaz geosiyasətində yeni dövr başlamışdır. Qafqaz regionunu təhlükəli bir region kimi göstərən amillərən ən mühümü aradan qaldırılmış və regional əməkdaşlıq üçün münbit şərait yaranmışdır. Regiondakı qanlı müharibələrin yerini regionla əlaqəli təklif edilən qlobal layihələr üzərində mübarizə almış və regionda yeni geosiyasi reallıqlar meydana gəlmişdir. Türkiyə-İran rəqabəti, Rusiya-Türkiyə əməkdaşlığı, Ermənistan üzərində Qərb-Rusiya qarşıdurması, Azərbaycan-Gürcüstan-Ermənistan ilə Rusiya-İran-Türkiyə bloklaşması kimi faktorlar regionda gedən mübarizələrin miqyasını daha da genişləndirmişdir.

TÜRKİYƏNİN QAFQAZ STRATEGİYASINA TƏSİR GÖSƏRƏN AMİLLƏR

Qafqaz regionu tarixdə olduğu kimi, bugün də bir çox səbəbdən Türkiyə üçün mühüm önəmə malikdir. Qafqaz regionunun Şərq-Qərb, Şimal-Cənub arasındakı strateji mövqeyi, bütün Avrasiya materikində sabitliyin və rifahın təsis edilməsi baxımından əhəmiyyət kəsb edir. Buna görə də, Qafqazdakı rifah və sabitlik Türkiyənin də öz təhlükəsizliyi baxımından çox önəmlidir. Təbii olaraq bu regionu, Türkiyənin Orta Asiyaya açılan qapısı kimi qəbul edə bilərik (Celikpala, 2007). Digər tərəfdən, Türkiyə də Qafqaz ölkələri üçün Qərb dünyasına açılan bir qapı mövqeyindədir. Halhazırda Türkiyədə hakim olan hökümətin strategiyalarında Qafqaz regionu əsas geosiyasi üstünlük mərkəzi hədəfi olaraq seçilmiş və regional strategiya bu yanaşmaya görə şəkillənməkdədir.

Qafqaz, Anadolu coğrafiyasının sanki davamı və tamamlayıcısıdır. Türkiyənin geostrateji hədəfləri ilə strateji maraq sahəsi Qafqaza qədər uzanır. Turk kimliyinin, daha doğrusu Türk mədəniyyətinin gələcəyə istiqamətlənmiş qlobal dəyəri və təsiredici gücə malik olması, Qafqazda gedən proseslərlə birbaşa əlaqəlidir (Neset, 2023). Bununla yanaşı, region Türkiyə üçün təhlükəsizlik baxımından da təhlükə mənbəyi kimi də qəbul edilə bilər.

Qafqaz regionunda ciddi etnik fərqliliklərin olması, tarix boyunca yeni problemlərin meydana gəlməsinə şərait yaratmışdır. Regiondakı problemlər, qarşıdurmalar və xüsusilə Ermənistan ilə olan problemlər, Türkiyə üçün regionu təhlükəsizlik baxımından əlverişli mövqeyə daşımışdır. Bu region, SSRİ-nin dağılması ilə ortaya çıxan guc boşluğunun olduğu və bu səbəblə guc mübarizələrinin səhnələndiyi, qeyri-sabit şəraitin mövcud olduğu, Türkiyənin sərhəddində yerləşərək onun milli maraqlarına və milli təhlükəsizliyinə təsir edən strateji baxımından çox əhəmiyyətli bir regiondur.

Rusiyanın Qafqazdakı hərbi varlığı da Turkiyənin təhlükəsizliyi baxımından olduqca əhəmiyyət kəsb edir. Bununla birlikdə, Qafqaz tarix, dil, din və mədəniyyət bağları ilə Türkiyəyə mənəvi cəhətdən bağlı olan bir çox türk qruplarının da yaşadığı bir regiondur. Xüsusilə Orta Asiyada olan Turk dövlətləri ilə əlaqələr Qafqaz və Xəzər dənizi vasitəsilə həyata keçir. Bu nöqteyi-nəzərdən Qafqaz körpü rolunu oynayır. Regiondakı nüfuz mübarizələrindən qazanclı çıxmaq üçün Türkiyə Türk dünyasına olduqca əhəmiyyət verir. Türkiyənin milli təhlükəsizliyi baxımından da bu amil çox mühümdür.

Geosiyasi və strateji əhəmiyyəti ilə yanaşı, regiondakı zəngin enerji resursları da Türkiyənin regiona marağını daha da artırmışdır. Bu kontekstdə, Türkiyə regionla əlaqəli neft və qaz lahiyələrinə dəstək vermiş və enerji müzakirələrində fəal iştirak etmişdir. Regionun enerji ehtiyatlarının işlədilməsi və daşınması ilə bağlı məsələlərlə birlikdə regiondakı ticarət potensialı da Türkiyə üçün əhəmiyyətlidir. Ümumiyyətlə, Türkiyənin Qafqazla əlaqəli strategiyaları, boru xəttləri və enerji ehtiyacı çərçivəsində həyata keçirilir. Buna görə də, Türkiyənin regionla əlaqəli siyasətinin digər vacib amilləri həmişə ikinci planda qalmışdır.

Ümumi olaraq, Qafqaz və Orta Asiya regionunun zəngin yeraltı və yerüstü sərvətləri ilə kənd təsərrüfatı məhsullarının, Turkiye vasitəsilə dünya bazarlarına açılması Turkiyə'nin iqtisadi cəhətdən sürətlə inkişafına da təsir göstərəcəkdir. Bundan başqa başda enerji olmaqla bu resursların bəzilərinə Turkiyə'nin öz ehtiyacı da var (Celikpala, 2007). SSRİ-nin dağılmasından sonra 1991-ci ildə Türkiyə Qafqaz ölkələrinin müstəqilliklərini heç bir ayrı-seçkilik güdmədən tanımış və region ölkələri olan Azərbaycan, Gürcüstan və Ermənistan ilə əməkdaşlıq arzusunu bildirmişdir. Bu istiqamətdə, Türkiyə həmin ölkələrə müstəqilliklərinin gücləndirilməsi, ərazi bütövlüklərinin qorunması və iqtisadi

potensiallarının həyata keçirilməsi çərçivəsində dəstək olmağa çalışır. Türkiyə həmçinin region ölkələrinin NATO, ATƏT, QDİƏT və AŞ kimi beynəlxalq təşkilatlarla əməkdaşlığına müsbət yanaşır. Bu dəstəyin əsas səbəbi; SSRİ-dən müstəqilliyini əldə edən dövlətlərin dünya ilə inteqrasiyalarının, bu dövlətlərin güclənmələrinə gətirib çıxaracağı və bununla da Rusiyanın regiondakı təsirinin azalacağı tezisinin Türkiyə tərəfindən mənimsənilməsidir.

Xüsusilə 2015-ci ildə etibarən Türkiyə xarici siyasətindəki prioritet məsələlərdən biri Türk dövlətləri ilə münasibətlərin strateji tərəfdaşlıq çərçivəsində ələ alınması olmuş və ikitərəfli münasibətlər də bu konteksdə formalaşdırılmışdır. Türkiyənin Orta Asiya siyasəti və Türk Dünyası strategiyasını, Qafqaz regionu ilə əlaqəli praktik siyasət müəyyənləşdirmişdir. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi ilə, Türkiyənin Qafqaz regionundakı missiyası daha aydın şəkildə özünü biruzə vermişdir. Azərbaycan-Türkiyə münasibətlərinin hərtərəfli inkişafı Türkiyənin Qafqaz strategiyasına müsbət mənada təsir göstərən ən mühüm amil olmuşdur.

Türkiyənin Cənubi Qafqaz ölkələri ilə əlaqəli strategiyası

Azərbaycan Türkiyə ilə ortaq tarixə, etnik, dil, mədəni və dini xüsusiyyətlərə malik olması səbəbilə, Türkiyənin Qafqaz siyasətinin mərkəzində yer almışdır. Müstəqilliyin ilk illərində, idealizm çərçivəsində qurulan Türkiyə və Azərbaycan münasibətləri, hər iki tərəfin də bir-birlərindən həddindən artıq təəssübkeşlik içərisində olmasından ötrü istənilən səviyyədə inkişaf etməmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövründə regionda balanslaşdırılmış siyasətin icra edilməsi ilə birlikdə iki ölkə münasibətləri də rasional müstəviyə çıxarılmışdır. Regionda təhlükəsizliyin təmin edilməsində Azərbaycan-Türkiyə münasibətlərinin hər tərəfli inkişaf etdirilməsi əhəmiyyət kəsb edir.

Türkiyənin Gürcüstan siyasəti; hər iki ölkə bir-birinin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət ilə sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsiplərinə söykənərək aralarındakı münasibətlərin daha da gücləndirilməsinə əsaslanır. Türkiyə Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini hər fürsətdə ifadə etmiş, Gürcüstanın qarşılaşdığı separatçı problemlərin sülh yolu ilə həll olunması istiqamətində də addımlar atmışdır. Xüsusilə də, Rusiya mərkəzli meydana gəldiyini qəbul etdiyi Abxaziya münaqişəsinin Gürcüstanın sərhədlərinə hörmət prinsibi çərçivəsində həllinə köməklik göstərməyə çalışmışdır. Bu çərçivədə, Gürcü-Abxaz qarşıdurması prosesində həm gürcü, həm də abxazlara humanitar yardım edərək hər iki tərəfin etimadını qazanmışdır. Türkiyə və Gürcüstan, Xəzər hövzəsindəki enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması istiqamətində də əməkdaşlıq etmişdir. Türkiyə ilə birlikdə Gürcüstan da əsas neft ixrac boru xətti kimi Bakı-Tbilisi-Ceyhan xəttini dəstəkləmişdir.

Qafqaz regionundakı müstəqil dövlətlərdən digəri də Türkiyə ilə münasibətləri çox gərgin olan Ermənistandır. Tarixi səhvlərin və rus təzyiqinin həddindən artıq olması ilə birlikdə Dağlıq Qarabağ hadisələrinin də təsiri ilə Ermənistan-Türkiyə münasibətləri lazımi şəkildə inkişaf etməmişdir. Ermənistan, regionda torpaq tələbi və "Böyük Ermənistan" xəyalına əsaslanan “irredentist” siyasət həyata keçirir. Buna paralel olaraq Rusiya da regionu tamamilə ələ keçirmək və köhnə Sovet lahiyəsini həyata keçirmək arzusundadır. Bundan ötrü Ermənistanda mövcud olan Rus hərbi bazası Türkiyənin təhlükəsizliyi üçün təhdid təşkil edir.

Uzun müddət ərzində "Böyük Ermənistan" xəyalı, sözdə Erməni soyqırımı və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilmiş olması, Türkiyənin bu ölkə ilə əlaqələrinin təxirə salınmasına səbəb olmuşdur. Türkiyə, Azərbaycanın Ermənistana tətbiq etdiyi embarqoya qoşularaq və Ermənistan ilə diplomatik münasibətlərini təxirə salaraq Qarabağ problemi ilə əlaqədar mövqeyini göstərmişdir . Türkiyə, Qarabağ problemi vasitəsilə regiondakı münaqişələrlə əlaqəli siyasətinin əsas istiqamətlərini də müəyyənləşdirmişdir. Türkiyə qarşıdurmalara və münaqişələrə birbaşa müdaxilə etməmiş və münaqişənin həlli üçün beynəlxalq aləmin marağını regiona çəkməyə çalışmışdır (Neset, 2023).

Türkiyənin əvvəllər türk dünyası ideologiyası əsasında tənzimlənən regionla əlaqəli siyasəti, sonrakı illərdə enerji maraqlarına müvafiq olaraq istiqamət dəyişdirmişdir. Türkiyə əsas olaraq Türkmənistan, Qazaxıstan və Azərbaycanda olan neft və qaz ehtiyatlarının inkişaf etdirilməsini dəstəkləməklə birlikdə dünya bazarlarına nəqlində fəal iştirak etmək istəyir.

Türkiyənin Qafqaz regionu ilə bağlı hədəfləri

Türkiyənin Qafqaz regionu ilə əlaqəli konkret hədəfləri onun xarici siyasət konsepsiyalarında öz əksini tapmışdır. Ümumiləşdirmələr apararaq Türkiyənin Qafqaz regionu ilə bağlı hədəflərini

aşağıdakı kimi sıralaya bilərik:

1. Qafqazın bir sülh regionu və hər sahədə əməkdaşlıq regionuna çevrilməsi üçün bütün səylər göstərilməlidir. Bu məqsədlə, Qafqazda regional əməkdaşlığa liderliyin davam etdirilməsinə və şərtlər uyğun olduğunda Türkiyə Respublikasının öndərliyində regional bir təşkilatlanmanın meydana gəlməsinə səy göstərilməlidir.
2. Qafqaz dövlətlərinin tam müstəqil və suveren dövlətlər olaraq demokratikləşmə, azad bazar iqtisadiyyatına keçmələri ilə birlikdə iqtisadi müstəqilliklərini qazanmalarına da köməklik göstərməli və həmin ölkələrlə hər sahədə münasibətlər inkişaf etdirilməlidir. Bu çərçivədə, Türkiyənin regiondakı maraqları baxımından həyati əhəmiyyətə malik olan Azərbaycan və Gürcüstan ilə münasibətlərin inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilməlidir.
3. Rusiya Federasiyası ilə münasibətlər rəqabət və münaqişə əsasına bağlı deyil, ərazi bütövlüyünə hörmət və daxili işlərinə qarışmama prinsipi çərçivəsində qurulmalı, bütün sahələrdə regional əməkdaşlıq anlayışı təsis edilməli, ikitərəfli münasibətlərin qarşılıqlı mənfəət və etimada əsaslanan ən üst tərəfdaşlıq səviyyəsinə çıxarılması təmin edilməlidir.
4. Azərbaycanın Dağlıq Qarabağ da daxil bütün problemlərini həll etməsinə, Rusiyanın nüfuz və təsirindən xilas olmasına, milli birliyini təsis etmiş bir dövlətə çevrilməsinə və inkişaf etməsinə dəstək verilməlidir.
5. İkinci Qarabağ müharibəsindən sonra regiondakı platformalarda fəal yer almalı və regional inteqrasiya istiqamətli siyasət aparılmalıdır.
6. Qafqaz vasitəsilə Orta Asiyaya açılan strateji dəhlizin gücləndirilməsi və mühafizəsi təmin edilməlidir. Bu istiqamətdəki bütün layihələr (Zəngəzur dəhlizi, alternativ boru kəmərləri, tək yol proyektləri və s.) dəstəklənməlidir.
7. 16 Mart 1921-ci ildə imzalanan “Moskva müqaviləsi” və 13 oktyabr 1921-ci ildə imzalanan "Qars müqaviləsinə" əsaslanan hüquqi müddəalar çərçivəsində Naxçıvanın, Azərbaycanın tabeliyində “Muxtar Respublika” statusu qorunmalı və Turkiyə Respublikasının Naxçıvana olan dəstəyi davam etdirilməlidir.
8. 15 iyun 2021 tarixində Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanan “Şuşa Bəyannaməsinin” müddəaları regional təhlükəsizlik və regional əməkdaşlıq çərçivəsində inkişaf etdirilməlidir.
9. Turkiyənin Ermənistan ilə münasibətlərinin normal səviyyəyə çatdırılması, Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamasına və soyqırım iddiaları ilə birlikdə digər tələblərindən də əl çəkməsindən asılıdır. Bununla birlikdə, Ermənistana qarşı Turkiyə Respublikası əleyhindəki siyasətlərə əngəl ola biləcək və Azərbaycan ilə münasibətlərə mənfi təsir göstərməyəcək şəkildə, “nəzarətli yaxınlaşma” siyasəti aparılmalıdır.

Bütün bunlarla birlikdə, Türkiyənin əsas milli hədəfi isə, Rusiya Federasiyasının siyasi və hərbi nüfuzunun Qafqaz regionundan uzaqlaşdırılmasıdır. Rusiyanın Qafqazdakı nüfuzunu artırmasının qarşısını almaq məqsədilə Türkiyə tərəfindən Gurcistan və Azərbaycana təhlükəsizlik qayğıları kontekstində köməklik göstərilməsi, bu istiqamətdə hərbi sahədə davam etdirilən səylərin artırılması və iqtisadi siyasətlərlə də dəstəklənməsi, Türkiyənin qısa və uzun müddətli milli mənafelərinə xidmət edəcəkdir.

NƏTİCƏ

Klassik və yeni geosiyasi nəzəriyyələrin kəsişdiyi coğrafiya olan Avrasiya geosiyasətində Qafqaz regionu, həm bir tranzit xətti həm də Böyük Qafqaz və Kiçik Qafqaz dağları ilə çevrələnən əsrlər boyunca əhəmiyyətini qoruyan bir regiondur. Qafqaz regionunun giriş qapısı xüsusiyyətini daşıyan Şimali Qafqaz, regionun idarəsini və nəzarətini təmin edə biləcək əsl strateji əhəmiyyətə malik ərazi seqmentidir. Qafqazın, şimal-cənub və şərq-qərb paralelində kəsişmə nöqtəsində olması, etnik müxtəlifliyə və zəngin yeraltı və yerüstü sərvətlərə malik olması regionu siyasi baxımdan da ixtişaş və mübarizə mərkəzinə çevirmişdir. Regionda marağı olan güclərin strategiyalarında əhəmiyyət verilən region olan Qafqaz regionu, genişləndirilmiş Qara dəniz hövzəsinin də bir hissəsi xüsusiyyəti daşıması ilə geosiyasi əhəmiyyətini daha da artırmışdır. Azərbaycanın Qarabağ müharibəsində zəfər qazanması ilə birlikdə Qafqaz regionunda yeni geosiyasi reallıqlar meydana gəlmişdir.

Yuxarıda da qeyd edildiyi kimi, Qafqaz regionu tarixdə olduğu kimi, bugün də bir çox səbəbdən Türkiyə üçün mühüm önəmə malikdir. Müasir dövrümüzdə Türkiyədə hakim olan hökümətin strategiyalarında Qafqaz regionu əsas geosiyasi üstünlük mərkəzi kimi seçilmiş və regional strategiya

bu yanaşmaya görə şəkillənməkdədir. Türkiyənin Orta Asiyaya və Türk Dünyasına açılan qapısı olan Qafqaz regionu, Türkiyə üçün "milli təhlükəsizlik", "regional əməkdaşlıq və inteqrasiya", "qlobal güc olma yolunda bufer zona", "enerji təhlükəsizliyi" baxımından önəmlidir. Bu kontekstdə Türkiyə Qafqaz ölkələri ilə münasibətlərini qarşılıqlı asılılıq konsepsiyasına müvafiq həyata keçirir.

Türkiyə xarici siyasətindəki prioritet məsələlərdən biri Türk dövlətləri ilə münasibətlərin strateji tərəfdaşlıq çərçivəsində ələ alınması olmuş və ikitərəfli münasibətlər də bu konteksdə formalaşdırılmışdır. Türkiyənin Orta Asiya siyasəti və Türk Dünyası strategiyasını, Qafqaz regionu ilə əlaqəli praktik siyasət müəyyənləşdirmişdir. Azərbaycan-Türkiyə münasibətlərinin kağız üzərində deyil, real mənada strateji müttəfiqlik çərçivəsində hərtərəfli inkişafı Qafqaz strategiyasını da tətbiq etmə imkanı yaratmışdır. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi ilə, Türkiyənin Qafqaz regionundakı missiyası daha aydın şəkildə özünü biruzə vermiş və Türkiyə üçün də tarixi fürsət yaranmışdır.

Ermənistanın müstəqilliyini qazandıqdan etibarən izlədiyi irredantizmə əsaslan siyasətləri regional təhlükəsizliyi təhdit etmiş, regional balansı pozmuş və əməkdaşlığı əngəlləmişdir. Bu siyasətin bir davamı olaraq İkinci Qarabağ müharibəsinə də səbəb olmuş və nəticədə Qafqaz regionundakı güc balansı sistemi və statuskvo dəyişmişdir. Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər qazanaraq torpaq bötövlüyünü təmin etməsi nəticəsində Türkiyənin Qafqazla əlaqəli strategiyası da dəyişmiş, çərçivəsi daha da genişləndirilmişdir.

Azərbaycanın Türkiyə ilə əməkdaşlığı regional inteqrasiya şəraiti formalaşdırmış və region ölkələri arasındakı ölkələri daha rasional siyasətlər aparmağa məcbur etmişdir. Regionda sabitliyi, dayanıqlı inkişafı və əməkdaşlığı hədəfləyən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti R.T.Erdoğan tərəfindən dilə gətirilən "altılı platforma" təklifi Qafqaz regionunda təhlükəsizlik məsələlərinin həlli naminə və regional əməkdaşlıq baxımından mühüm addımdır.

Türkiyə, regiondakı etnik və dövlətlər arasındakı münaqişələrdə birbaşa vasitəçilik rolu almalı, bununla da Qafqaz regionunda açar ölkə statusuna malik olmalı və bu vəziyyətin beynəlxalq səviyyədə tanıtılmasına nail olmalıdır. Türkiyə-Azərbaycan münasibətləri Şuşa Bəyannaməsinin və ikitərəfli strateji partnyorluq müqavilələrinə müvafiq olaraq hərtəfli inkişaf etdirilməli, regional təhlükəsizlik və əməkdaşlıq istiqamətində ortaq siyasətlər həyata keçirilməli, dayanıqlı və davamlı sülhün təmini naminə birgə addımlar atılmalıdır. Bu həm region ölkələri arasındakı əməkdaşlıq, inteqrasiya və təhlükəsizlik məsələləri baxımından, həm də Türkiyənin qlobal milli hədəfləri baxımından əhəmiyyət kəsb edir.

ƏDƏBIYYAT SIYAHISI

1. Çelikpala, M. (2007). Turkey as a Regional Power and the Caucasus, Insight Turkey, Vol. 9, No. 2, 25-30.

2. Cohen, S.B. (2014). Geopolitics: The Geography of International Relations. Rowman & Littlefield Publishers; Third edition, 504 pp.

3. Dussouy, G. (2006). Les théories géopolitiques, **Tome I. Les théories géopolitiques.** Paris: Éditions L'Harmattan, 2006, 368 pp.

4. Neset, S., Aydin, M., Ergun, A., Giragosian, R., Kakachia, K., & Strand, A. (2023). Changing Geopolitics of the South Caucasus after the Second Karabakh War. Prospect for Regional Cooperation and/or Rivalry. Chr. Michelsen Institute, CMI Report:4), https://www.cmi.no/publications/8911-changing-geopolitics-of-the-south-caucasus-after-the-second-karabakh-war, 72 pp.

5. Shaffer, B. (2009), The Geopolitics of the Caucasus. The Brown Journal of World Affairs, Vol. 15, No. 2, Spring/Summer, 131-142.

44 GÜNLÜK MÜHARİBƏDƏN SONRA AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİNDƏ "ZƏNGƏZUR KORİDORU" MƏSƏLƏSİ

YASƏR ƏHMƏDOV, EMİLYA AYDINOVA
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və idaeəetmə \ Dövlət və Bələdiyyə idarəetməsi
yehmedov@beu.edu.az, eaydinova@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Məqalədə "44 günlük müharibə"dən sonra Azərbaycan-İran münasibətlərinin gedişatına mühüm təsir göstərən "Zəngəzur koridoru" məsələsindən bəhs olunur. Burada Zəngəzur dəhlizinin tarixi və geo-strateji əhəmiyyəti qeyd olunmaqla, Azərbaycan-İran münasibətlərinin keçmiş və indiki vəziyyəti, habelə ikili münasibətlərdə gələcək perspektivlər "Zəngəzur koridoru" kontekstində təhlil olunur.

Bildiyimiz kimi, 44 günlük müharibədən sonra Azərbaycan və İran arasında "Zəngəzur Koridoru" məsələsi gündəmə gəlmişdir. Belə ki, bu müharibə nəticəsində Azərbaycan Dağlıq Qarabağ və ətraf əraziləri üzərində öz suveren hüquqlarını bərpa etmiş və nəzarəti ələ almışdır. Bu müharibədən sonra həmin ərazilər xüsusi əhəmiyyət qazanmış və İran-Azərbaycan münasibətlərində yeni perspektivlər açılmışdır. Müharibənin bitməsindən sonra, iki ölkə arasında "Zəngəzur Koridoru" məsələsi ətrafında müzakirələr artmışdır. Qeyd etmək lazımdır ki, Zəngəzur Koridoru, iki ölkə arasında ticarət və nəqliyyat əlaqələrini gücləndirəcək və əməkdaşlığın sahələrini genişləndirəcək strateji bir imkan təşkil etməkdə, bu ərazi, regionun iqtisadi inkişafına və ümumi təhlükəsizliyinə təsir göstərmə imkanlarına sahibdir. İran və Azərbaycan arasındakı tarixi, etnik və mədəni bağların mövcudluğu isə gözlənilən əməkdaşlığın inkişafını dəstəkləməkdədir. Beləliklə, "Zəngəzur Koridoru" məsələsi, Azərbaycan və İran arasındakı dostluq və əməkdaşlıq baxımından yeni bir dövrün əsasını qoya bilər. Həmçinin, bu mənada, ikitərəfli praqmatik addımların başlanğıcını təşkil edə bilər. Ümumilikdə, "44 günlük müharibə"nin ardından Azərbaycan və İran arasında "Zəngəzur Koridoru" məsələsi, regionun iqtisadi və siyasi inkişafını tənzimləyən bir addım fürsəti olaraq qarşımıza çıxmaqdadır. Bu isə, öz növbəsində, iki ölkə arasında strateji əməkdaşlığın daha da güclənməsinə və regionun ümumi təhlükəsizliyinə daha geniş bir töhfə verə bilər.

AÇAR SÖZLƏR: Zəngəzur koridoru, 44 günlük müharibə, Azərbaycan, İran

ABSTRACT

The article deals with the issue of the "Zangezur Corridor", which had a significant impact on the course of Azerbaijan-Iran relations after the "44-day war". Here, the historical and geo-strategic importance of the Zangezur Corridor is noted, and the past and present state of Azerbaijan-Iranian relations, as well as the future prospects of bilateral relations, are analyzed in the context of the "Zangezur Corridor".

As we know, after the 44-day war, the "Zangezur Corridor" issue came up between Azerbaijan and Iran. Thus, as a result of this war, Azerbaijan restored its sovereign rights and took control over Nagorno-Karabakh and its surrounding territories. After this war, those areas have gained special importance, and new perspectives have opened in Iran-Azerbaijan relations. After the end of the war, discussions between the two countries about the "Zangezur Corridor" issue have increased. It should be noted that the Zangezur Corridor is a strategic opportunity that will strengthen trade and transport relations between the two countries and expand the areas of cooperation. This area has the potential to influence the economic development and overall security of the region. The existence of historical, ethnic, and cultural ties between Iran and Azerbaijan supports the expected development of cooperation. Thus, the "Zangezur Corridor" issue can lay the foundation for a new era in terms of friendship and cooperation between Azerbaijan and Iran. Also, in this sense, it can constitute the beginning of bilateral pragmatic steps. In general, following the "44-day war", the "Zangezur Corridor" issue between Azerbaijan and Iran appears to be an opportunity to take a step toward regulating the economic and political development of the region. This, in turn, can make a wider contribution to the strengthening of strategic cooperation between the two countries and the general security of the region.

KEY WORDS: Zangezur Corridor, 44-Day War, Azerbaijan, Iran

GİRİŞ

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra, təbii olaraq, xarici siyasətində müxtəlif formada dəyişiklər etmişdir. Bildiyimiz kimi, xarici siyasətin ən vacib hissələrindən biri də qonşu dövlətlərlə olan münasibətlərdir. Bu kontekstdə, yeni qurulmuş Azərbaycanın İranla münasibətləri böyük əhəmiyyət daşımaqdadır. Qeyd etmək lazımdır ki, iki ölkə arasındakı münasibətlər sadəcə siyasi münasibətlərlə məhdudlaşmır. Belə ki, iki ölkə arasındakı münasibətlərin dərin tarixi kökləri vardır. Bu xalqlar əsrlər boyu birgə yaşayıblar. İki xalq arasında hər zaman dərin tarixi-mədəni bağlar mövcud olmuşdur. Məlum oduğu kimi, İran və Azərbaycan xalqları islam aləminə mənsub xalqlardır. Beləliklə, elmi, mənəvi, mədəni əlaqələr bu xalqları tarix boyu hər zaman birləşdirib. Azərbaycan-İran münasibətlərinə, bu günə kimi üç yanaşma mövcud olmuşdur. Birincisi, müstəqillikdən Ə.Elçibəy hökuməti hakimiyyətə gələnə qədərki dövr (1991-1992) və ya A.Mütəllibov hakimiyyəti dövrü kimi xarakterizə oluna bilər. Hansı ki, bu dövrdə İran Azərbaycana yönəlik hər hansı bir siyasi addım atmaqda tərəddüd edirdi. Azərbaycanın, müstəqillik əldə etdikdən sonrakı prezidenti Ayaz Mütəllibov da, həmçinin İranla münasibətlərdə onun maraqlarına zidd addım atmamağa çalışırdı. İkincisi, Ə.Elçibəy hakimiyyəti dövrü (1992-1993) kimi xarakterizə oluna bilər. Bu dövrdə İran Ermənistanla yaxınlaşmaq və bütün məsələlərdə razılığa gəlmək siyasətinə diqqət yetirib. Bəhs olunan dövrdə Ə.Elçibəyin ifrat millətçilik ideologoyası yürütməsi də öz növbəsində Azərbaycan-İran münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdur. Üçüncüsü, H.Əliyevin prezident seçilməsindən sonrakı dövr kimi qeyd oluna bilər. Bu dövrdə İran, Ermənistanın təcavüzkar siyasətini pisləsə də, İrəvanla iqtisadi və ticari əlaqələrini yaxşılaşdırıb. Ancaq buna baxmayaraq, H.Əliyevin yürütmüş olduğu balanslaşdırma siyasəti İranla münasibətlərin normallaşmasına səbəb olmuşdur.

Ümumilikdə, Azərbaycan-İran münasibətləri iki dövlət üçün də mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, Azərbaycanın digər dövlətlərlə qurduğu münasibətlər və əməkdaşlıqlar sərhəd qonşumuza da bilavasitə təsir etməkdədir. Bu da öz növbəsində, İranın Azərbaycanla bağlı tutduğu mövqeyini formalaşdırmaqdadır. Həmçinin, İranın Dağlıq Qarabağ məsələsində Ermənistan və Azərbaycana yönəlik siyasətlərindəki ikili standartlar Azərbaycan-İran münasibətlərini mütəmadi olaraq dinamik səviyyədə saxlamaqdadır. Bu kontekstdə, Zəngəzur koridorunun əhəmiyyəttini qeyd etmək yerinə düşərdi. Bəhs olunan məsələnin iki ölkə arasındakı münasibətlərə təsirini daha yaxşı anlamaq üçün ikili münasibətlərin tarixi, Zəngəzur koridorunun bu tarixdəki yeri və əhəmiyyətini izah etmək daha məqsədə uyğun olar.

Azərbaycan –İran münasibətlərinin tarixi

Azərbaycan-İran münasibətlərinin tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) qədər uzanmaqdadır. Belə ki, 1918-1920-ci illərdə mövcud olmuş, Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir sıra mürəkkəb problemlərə və ciddi maneələrə baxmayaraq, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına nail olunmuşdu. [Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017. s. 226] Sovet dövründə münasibətlər fərqli müstəviyə qədəm qoysa da, 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra iki ölkə arasındakı münasibətlərdə yeni bir pəncərə açılmışdır. Azərbaycan müstəqilliyinin ilk illərindən etibarən qonşu dövlətlərlə güclü və qalıcı, möhkəm əsaslara söykənən münasibətlər formalaşdırmağa çalışmışdır. Bu ölkələrdən biri də Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyan İran olmuşdur. Baxmayaraq ki, ilkin münasibətlər enişli-yoxuşlu yollardan keçmiş, ikili münasibətlərdə zaman-zaman axsamalar meydana gəlmiş, amma Azərbaycanın xarici siyasətində praqmatik yanaşmanın izlənməyə başlanması, münasibətləri tədricən normallaşdırmağı mümkün qılmışdır. Onu da qeyd etmək lazımdır ki, iki ölkə arasındakı əlaqələrin tarixi kökləri çox qədim dövrlərə qədər uzanmaqdadır. Azərbaycan və İran xalqlarının əsrlər boyu birgə yaşaması iki xalq arasındakı tarixi-mədəni bağları möhkəmləndirmişdir. Hər iki ölkənin, eyni dini mənsubiyyətin daşıyıcısı olması, həmçinin iki xalq arasındakı çoxəsrlik elmi, mənəvi, mədəni əlaqələrin dərinliyi bu xalqları tarix boyu hər zaman bir-birinə yaxınlaşdırmışdır. İki ölkə arasındakı siyasi münasibətlər AXC dövründə (1918-1920) başlamış, Sovet dövründə özünə xas formada transformasiya etmiş (1968-ci ildə Bakıda İranın Baş konsulluğunun fəaliyyətə başlaması buna misal ola bilər), SSRİ-nin dağılmasından sonra isə fərqli amplualarla inkişaf xətti üzrə davam etmişdir. [Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017. s. 227]

Qısa bir təhlil aparsaq görə bilərik ki, 1991-ci ildən sonrakı Azərbaycan-İran siyasi münasibətlərində Azərbaycan tərəfdən bu günə kimi üç istiqamət izlənilmişdir. İlk istiqamət

A.Mütəllibov dövründə (1991-1992) izlənən istiqamət olmuşdur. Bu dövrdə Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibov İranla münasibətlərdə ehtiyala davranmağa çalışmış, amma eyni zamanda münasibətlərin normallaşması istiqamətində də ciddi bir fəaliyyət göstərməmişdir. İkinci istiqamət, Əbülfəz Elçibəy hakimiyyəti dövründə (1992-1993) izlənən istiqamət olmuşdur. Onun hakimiyyəti dövründə izlənilən ifrat millətçilik ideologiyası İranı Ermənistanla yaxınlaşdırmış, habelə Azərbaycan-İran münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdur. Belə ki, Ayaz Mütəllibov dövründə İranla əlaqələr daha stabil davam edirdi. Əbülfəz Elçibəyin dövründə isə bu münasibətlər daha da gərginləşdi. Münasibətlərin gərginləşməsindəki əsas səbəblərdən biri Ə.Elçibəyin ifrat millətçilik siyasəti ilə yanaşı, "Böyük Azərbaycan" ideyası olmuşdur. Bu isə açıq şəkildə İrana qarşı mövqe sərgiləmək hesab olunurdu və praqmatik düşüncədən uzaq, emosiyalara söykənən siyasət olduğu üçün təhlükəli idi. Üçüncü istiqamət isə, H.Əliyevin prezident seçilməsindən sonrakı dövrdə izlənən istiqamət olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır.

1997-ci il dekabrın 8-11-də Prezident Heydər Əliyev Tehranda keçirilən İKT-nin VIII Zirvə görüşündə iştirak etmiş, bu zaman İranın Prezidenti S.M.Xatəmi, Ali Rəhbər Ayətullah Xamnei, Məsləhət Şurasının sədri Haşimi-Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimlərilə keçirdiyi görüşlər nəticəsində ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qaldırılmışdır. Coğrafi yaxınlığına görə bir çox sahədə sıx əməkdaşlıq edən iki ölkə, fərqli maraqları bir araya gətirmək üçün səylərini davam etdirmişdir. H.Əliyevin 2002-ci ildə Tehrana rəsmi səfəri zamanı Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq prinsipləri üzrə yeni saziş prosesinə daxil olmuşdur. Dağlıq Qarabağ münaqişəsinin ilk illərindən etibarən İran, Ermənistanın təcavüzkar siyasətini pisləməklə yanaşı, rəsmi İrəvanla iqtisadi və ticari əlaqələrini genişləndirmiş, ancaq buna baxmayaraq, H.Əliyevin yürütmüş olduğu balanslaşdırma siyasəti İranla münasibətlərin normallaşmasına səbəb olmuşdur.[Guliyev, 2020. s. 4-9]

44 günlük müharibə və Zəngəzur koridoru

Bildiyimiz kimi, XX əsrin 80-ci illərinin sonları və 90-cı illərin əvvələrində Ermənistan açıq formada Azərbaycanın tarixi torpaqlarına qarşı ərazi iddiaları edərək hərbi təcavüzlərə başlamışdır. Həmin dövrdə, Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan, torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.[13, 2021] Bu təcavüzün sonlanması üçün BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edilmiş, lakin heç bir nəticə verməyərək torpaqlarımız 30 il işğal altında qalmışdır. Bu müddət ərzində Azərbaycan Ermənistanla danışıqlar apararaq Ermənistan- Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışmışdır. 1994-cü ildə Bişkekdə iki tərəf arasında atəşkəs müqaviləsinin imzalanmasından sonra dəfələrlə atəşkəsin Ermənistan tərəfindən pozulması halları olmuş, Ermənistanın, işğal etdiyi ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, *"yeni ərazilər uğrunda yeni müharibə"* çağırışı, 2016-cı ildə baş vermiş Aprel döyüşləri, 2020-ci il iyun ayında baş verən Tovuz döyüşləri və s. bir daha müharibənin qaçılmaz olduğunu göstərmişdir. Nəticədə, 2020-ci il sentyabrın 27-də başlayan və 2020-ci ilin noyabrın 10-da imzalanan bəyanatla bitən 44 günlük müharibə nəticəsində Azərbaycan öz suveren ərazi bütövlüyünü yenidən bərpa etmişdir. Bəyanatın 9-cu maddəsi də məhz bu məqsədin həyata keçirilməsinə xidmət edir. Maddədə əsas məqam isə Azərbaycanla Naxçıvan Muxtar Respublikası (MR) arasında birbaşa quru bağlantısını təmin edəcək koridorun, yəni Zəngəzur koridorunun açılmasıdır. Zəngəzurun adı bəyənatda çəkilməsə də nəzərdə tutulan koridor tarixi Azərbaycan torpaqları olan Zəngəzurdan keçdiyi üçün belə adlandırılır. Bu koridorun uzunluğu çox olmasa da və dünya xəritəsi üçün kiçik bir ərazini əhatə etsə də onun geo-siyasi əhəmiyyəti böyükdür və on illiklər boyu regionda formalaşmış nəqliyyat-kommunikasiya arxitekturasına əsaslı şəkildə təsir təsir etmək imkanına malikdir.

Zəngəzurun ərazisi münbit torpaqlara və zəngin su ehtiyatlarına malik olsa da onu daha çox əhəmiyyətli qılan nəqliyyat koridoru kimi oynadığı roldur. Daha geniş tərəfdən baxsaq Zəngəzur Kiçik Qafqaz dağları, Anadolu yüksəksliklərinin və Zaqros dağlarının birləşdiyi ərazidə yerləşir. Bu ərazi üç böyük dağlıq ərazinin arasından keçdiyindən nəqliyyat yollarının salınması baxımından tarixən böyük

əhəmiyyətə malik olmuşdur. İstər tarixi baxımdan, istərsə də dəyişən geosiyasi proseslər baxımından Zəngəzur koridorunun əhəmiyyəti yüksək qiymətləndirilir. Tarixən ticari, iqtisadi, mədəni və mənəvi ünsiyyəti birləşdirən əsas yol olan qədim Azərbaycan torpağı Zəngəzur, keçən əsrin 20-ci illərindən 2020-ci ilə qədər türk dünyasını ayıran, bölgədəki xalqların əlaqələrini kəsən, dünya ticarətinin bu coğrafiyadakı yoluna ciddi əngəl olan bir məkan olmuşdur. Bu reallıqlara görə, 44 günlük Vətən müharibəsinin Zəngəzur məsələsində açdığı imkanlar tək Azərbaycan üçün yox, bütün türk dünyası, hətta bütün dünya üçün əhəmiyyət kəsb edir.

Zəngəzur nəqliyyat dəhlizinin əhəmiyyəti

Zəngəzur dəhlizi sadəcə Azərbaycan üçün deyil, ümumilikdə region dövlətləri üçün də mühüm əhəmiyyət kəsb etməkdədir. Xüsusilə, Rusiya və Çin üçün strateji əhəmiyyətə malik olan, Avropa və Asiyanı birləşdirən nəqliyyat əlaqələrinin intensivləşməsinə imkan verir, dəhlizlərdən daha səmərəli istifadəni təmin etməklə regionun bütün ölkələri üçün potensial iqtisadi səmərə vəd edir. Bütün bunlar isə, region dövlətləri üçün uzunmüddətli və irihəcmli iqtisadi divident və qarşılıqlı əlaqə deməkdir.[Nəsirov, 2022. s. 63-65]

Konkret olaraq, Azərbaycana gəldikdə isə qeyd edilənlər Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırma potensialına sahibdir. Həmçinin, tarixi ipək yolunun üzərində yerləşən Azərbaycan Respublikasının, Avropa ilə Asiya arasında mühüm nəqliyyat-tranzit və logistika qovşağına çevrilməsini sürətləndirə biləcək potensialdadır.

Bildiyimiz kimi, müasir dünyada əsas yük axınları Çindən Avropaya və Hindistana yönəlmişdir. Dünyanın yük mərkəzi kimi ilk üçlüyə Çin, Avropa və Hindistan daxildir. Zəngəzur nəqliyyat dəhlizinin də daxil olduğu Böyük İpək Yolu Çin və Avropa İttifaqı üçün xüsusilə böyük əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, Çin-Avropa arasında illik ümumi ticarət dövriyyəsi 550 milyard avrodan çoxdur, o zaman bəhs etdiyimiz nəqliyyat dəhlizinin əhəmiyyəti daha aydın olar. O cümlədən, son illər Çin və Avropa arasında yeni investisiya sazişlərinin imzalanması onu göstərir ki, gələcəkdə Böyük İpək Yolunun – Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyəti daha da artacaqdır.[Nəsirov, 2022, s. 64]

Azərbaycan-İran münasibətlərində "Zəngəzur koridoru"amili

Zəngəzur dəhlizinin əhəmiyyəti haqqında yuxarıdakı abzasda bəhs olunmuşdur. Ancaq bütün bu sadalananlara baxmayaraq, Zəngəzur koridorundan istifadə imkanlarını azaldan əsas maneə sözsüz ki, Ermənistanın işğalçılıq siyasəti olmuşdur və "44 Günlük Müharibə" nəticəsində bu siyasətə son qoyulmuşdur. Ona görə də Zəngəzur koridorunun açılması məsələsi Azərbaycan tərəfindən gündəmə gətirilmiş və Üçtərəfli Bəyanata daxil edilmişdir. Ekspertlər hesab edirlər ki, koridorun açılması regionda yerləşən bütün ölkələrə, onların nəqliyyat siyasətinə və ümumilikdə regionun nəqliyyat arxitekturasına əsaslı şəkildə təsir edə bilər. Lakin İranın, koridorun açılmasından geo-siyasi baxımdan zərər görəcəyi düşünülməkdədir. İlk növbədə onu qeyd etmək lazımdır ki, koridorun açılması İranın Azərbaycan üzərində təsirlərinin azalmasına imkan yaradacaq. Belə ki, Ermənistanın işğal siyasətindən sonra Naxçıvan MR blokadaya düşdüyündən Azərbaycanla quru yolu ilə birbaşa əlaqə əsasən İran vasitəsilə həyata keçirilirdi. Eyni zamanda Naxçıvana elektrik enerjisinin ötürülməsində də İran vasitəçi kimi çıxış edirdi. Belə görünür ki, Zəngəzur koridoru açıldıqdan sonra Azərbaycanın İrandan asılılığı azalacaqdır.

Bundan əlavə Zəngəzur koridorunun açılması ilə Türkiyə və Rusiyanın da lojistik baxımdan İrandan olan asılılığı azala bilər və bu hal onların alternativ yola çıxış əldə etməsinə səbəb ola bilər. Bu faktorlar isə İranın tranzit ölkə kimi regionda mövqeyinin zəifləməsinə imkan yarada bilər. Bunun nəticəsidir ki, bir sıra İran rəsmiləri, Zəngəzur koridorunun yalnız Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında yerli yükdaşımaların həyata keçirilməsi məqsədilə istifadə olunacağına ümidlərini bildirmişdir. Aydındır ki, Azərbaycan tərəfi, beynəlxalq hüquqa uyğun olaraq, Gorus-Qafan avtomobil yolunun üzərində öz postları yaradıb. Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının imzaladığı sənədlərdə Ermənistan avtomobillərinin sərbəst keçid hüququ nəzərdə tutulsa da, digər ölkələr haqqında heç nə qeyd edilməyib. Nəticədə Azərbaycan tərəfi post qurduğunu və rüsumların yığıldığını təsdiqləyib ki, bundan da ən çox zərər çəkən İran yükdaşıyıcıları olub. Onlar bu koridorun beynəlxalq yükdaşımalarında iştirak etməsinə qarşı çıxmışdırlar. [Nəsirov, 2022, s. 66-68].

Təəssüflər olsun ki, İran 44 günlük müharibənin nəticələrini qəbul etmək istəmir. Belə ki, 44 günlük müharibədən sonra, İranın Ermənistanla olan 140 kilometrlik de-fakto sərhədi bağlandı, hansı ki, İran bu nəzarətsiz zonadan öz maraqları üçün yararlanırdı. Azərbaycanın öz sərhədlərində nəzarəti

bərpa etməsi ilə bu zonadan narkotik vasitələrin keçirilməsinin qarşısı alındı. 44 günlük müharibədən bir il sonra, 2021-ci ilin dekabrında İran Qərbi Zəngəzurun Qafan şəhərində baş konsulluq açmağa qərar verdi və 2022-ci ilin avqustunda isə Abedin Vərami baş konsul təyin edildi. İranın Qafanda tələsik konsulluq açma səbəbi Azərbaycanın Göyçə, Zəngəzur, İrəvanla bağlı tarixi sənədləri masaya qoyması, faktları açıqlaması, ən yüksək səviyyədə həqiqətlərin dilə gətirilməsi fonunda baş verdi. İran rəsmi şəkildə dəhlizin açılmasına etiraz göstərməsə də bu Zəngəzur dəhlizin açılmasına mane olmağa çalışır.

İranı daha çox narahat edən suveren Azərbaycan Respublikasının hərbi-iqtisadi cəhətdən güclənməsi, Avropa, xüsusilə də Türk birliyi dövlətləri ilə inkişafda olan bərabərhüquqlu əməkdaşlığı, dünyanın ən qlobal problemlərinin həllində nüfuz sahibi olan dövlətlərlə bir sırada dayanması, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərində çox mühüm geosiyasi mövqeyə malik olmaqla regionun çox mühüm problemlərinin həllində söz sahibinə çevrilməsi kimi məsələlərdir. Çoxillik Azərbaycan-Ermənistan münaqişəsində və hətta Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük II Qarabağ savaşından sonra İranın strateji müstəviyə yüksələn ermənipərəst mövqeyi də iki ölkənin münasibətlərini mürəkkəbləşdirən önəmli təsirlərdən biridir.

Ümumiyyətlə, bölgədə geosiyasətin, o cümlədən sərhədlərin dəyişməsinə dözüm göstərilməyəcəyi yönündə ardıcıl və qətiyyətli bəyanatlar İranın rəsmi ritorikasına məhz 44 günlük müharibənin sonlarından eitbarən daxil olmuşdur. Əvvəlcə hərbi komandanlığın dilindən səslənən bu bəyanatlar siyasi rəhbərlik tərəfindən də ifadə edilməyə başlanmışdır. Belə ki, Ruhani hökumətinin Xarici İşlər naziri Cavad Zərif 2021-ci ilin yanvar ayında Ermənistanın Xarici İşlər naziri ilə görüşündə bu ölkənin ərazi bötövlüyünün qorunmasını İranın qırmızı xətti adlandırmışdır. Rusiyanın vasitəçiliyi və iştirakı ilə imzalanan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat İranın narahatlığını aradan qaldırmamışdır. Çünki həmin sənəddə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın materik hissəsi arasında Ermənistandan keçəcək nəqliyyat əlaqəsinin yaradılması barədə razılaşma əksini tapıb. Məhz buna istinadən Azərbaycanın post-müharibə dövründə Zəngəzur dəhlizindən israrla və davamlı bəhs etməyə başlaması, hətta Prezident Əliyevin Ermənistan razı olmasa, bu dəhlizi zor tətbiq etməklə gerçəkləşdirəcəklərini söyləməsi İranda ölkə maraqlarına təhdid kimi qəbul olunmuşdur. İran Zəngəzur dəhlizinə və ya yoluna Azərbaycanın da istifadə edəcəyi, Ermənistana məxsus nəqliyyat kommunikasiyası kimi deyil, böyük geosiyasi layihə kimi baxmaqda və onun eksterritorial (yerləşdiyi ölkənin qanunlarının şamil olunmadığı ərazi) olacağını düşünməkdədir. Eksterritorial dəhliz İran-Ermənistan quru əlaqəsinin kəsilməsi deməkdir ki, bunun da öz növbəsində çoxşaxəli geosiyasi, geoiqtisadi nəticələri ola bilər.

İranın Ermənistana qurudan çıxışı itirməsi Cənubi Qafqazdan da faktiki təcrid olunmasıdır, çünki bu coğrafiya ilə əlaqə etimad etmədiyi Azərbaycandan tam asılı hala gəlir. Bu halda İranın Türkiyə və Azərbaycandan yan keçməklə Avropaya çıxış marşrutu kimi düşündüyü Fars körfəzi – Qara dəniz beynəlxalq nəqliyyat dəhlizi layihəsi (Qafqaz dəhlizi) təhlükə altına düşür. Bu ideya İran tərəfindən 2016-cı ildə irəli sürülüb, layihədə İran və Ermənistanla yanaşı, Gürcüstan, Bolqarıstan və Yunanıstan da iştirak edir. Ötən 5 ildə layihə üzrə işçi qrupların 5 görüşü keçirilib. Dəhliz multimodal tipli olub, İran limanlarını Gürcüstan limanları ilə əlaqələndirməlidir. Hindistan və Çin hələ layihəyə qoşulmasa da, nəzərdə tutulur ki, yüklər bu ölkələrdən İranın Bəndər-Abbas limanına daxil olacaq, oradan avtomobil yolu ilə Ermənistana aparılacaq, sonra dəmir yolu ilə Gürcüstanın Poti limanına, oradan isə Qara dəniz vasitəsilə Yunanıstan və Bolqarıstan limanlarına daşınacaq. Ermənistanın nəqliyyat infrastrukturu yetərsiz olduğu üçün ölkə ərazisində İran sərhədindən Gürcüstan sərhədinə qədər 490 km uzunluğunda Şimal-Cənub avtomagistralının tikintisinə qərar verilib. Ötən 7 ildə işlər çox zəif irəliləyib və Ermənistanın maliyyə imkanları layihəni qısa müddətdə tamamlamağa imkan vermir. Amma İran son hadisələrdən sonra bu layihədə bilavasitə iştiraka maraq göstərməyə başlayıb. Gorus-Qafan yoluna alternativ olan Tatev yolunun tikintisinin isə çox tezliklə yekunlaşdırılması nəzərə tutulur. 2021-ci ilin Oktyabr ayının əvvəlində Ermənistana səfər edən İranın Yol və Şəhər İnkişafı nazirinin müavini Xeyrulla Xademi ölkəsi üçün strateji əhəmiyyət daşıyan bu yolun inşasında Ermənistana kömək etməyə hazır olduqlarını açıqlamışdı.[Cəfərli, 2021]

NƏTİCƏ

Tədqiqat nəticəsində Azərbaycan-İran münasibətləri "Zəngəzur koridoru" müstəvisində təhlil edilmişdir. Tədqiqata əsasən Azərbaycan-İran münasibətlərinin tarixi kökləri analiz edilməklə, Azərbaycan-İran münasibətlərinə təsir edən mühüm amillərdən olan və 44 günlük müharibədən sonra

daha da aktuallaşan " Zəngəzur koridoru" məsələsi araşdırılmışdır. Tədqiqat nəticəsində bu qənaətə gəlinmişdir ki, Azərbaycanın, müstəqil olduqdan müasir günümüzə qədər İranla olan münasibətlərindəki dəyişimlər hakimiyyətdə olan şəxslərlə bilavasitə əlaqədar olmuşdur. Həmçinin, o da aydınlaşdırılmışdır ki, Azərbaycan – İran münasibətlərinin zaman-zaman gərginləşməsinə səbəb olan digər məsələrdən biri də maraqların üst- üstə düşməməsidir. Belə ki, 44 günlük müharibə zamanı İranın ermənipərəst mövqe sərgiləməsi və müharibədən sonra daha da aktual məsələlərə çevrilən "Zəngəzur koridoru" və "Cənubi Azərbaycan" məsələlərində də Azərbaycan və İranın maraqları üst-üstə düşməmiş, bütün bunlar da öz növbəsində qarşılıqlı münasibətlərə mənfi mənada təsir etmişdir.

Ümumi olaraq münasibətlərin davam etməsinə baxdıqda İranın münasibətləri qorumaq üçün çox da maraqlı olmaması və ermənipərəst mövqe sərgiləməsi artıq zəifləmiş olan Azərbaycan-İran münasibətlərinin gələcəkdə daha da kəskinləşə biləcəyin göstərməkdədir. Ona görə də hesab etmək olar ki, Azərbaycan "Zəngəzur koridoru"nun açılması və gətirəcəyi yeniliklər, həmçinin İranın bu mövzuda təşəbbüskar olmaması münasibətlərdəki tarazlığa mənfi təsir göstərə bilər. Halbuki, "Zəngəzur Koridoru" məsələsi, sadəcə iki ölkənin deyil, bütövlükdə regionun iqtisadi və siyasi dinamikasına yeni bir perspektiv açmağa qadirdir. Bundan başqa, iki ölkə arasındakı münasibətlərin strateji və əməkdaşlıq sahələrində genişlənməsi üçün də böyük bir potensiala sahibdir. Nəticə olaraq, "Zəngəzur Koridoru" məsələsi, Azərbaycan və İran arasında yeni bir strateji mərhələnin əsasını qoya bilər. Həmçinin, iki ölkə arasında əməkdaşlıq sahələrindəki perspektiv, regionun bir çox sahələrində daha böyük əməkdaşlıqlara zəmin hazırlaya bilər. Bu da, öz növbəsində, region üçün daha stabil, təhlükəsiz və dinc bir gələcəyin müjdəsi ola bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Adıgözəlov, K. (7 İyul 2021). Zəngəzur dəhlizi: regional və qlobal geosiyasətdə yeri və rolu. Səs qəzeti, № 118, 8-9.
2. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. (2017). Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu, "Poliart" MMC, Bakı, 900 s.
3. Cəfərli, Ş., (2021). İran-Azərbaycan münasibətlərində böhran. https://bakuresearchinstitute.org/crisis-in-azerbaijani-iranian-relations-2/
4. Chalikyan, N., Tashjian, Y. (July 9, 2021). Geopolitics of the North-South Transport Corridor. https://southasianvoices.org/geopolitics-of-the-north-south-transport-corridor/
5. (Ed.) Khaki, G. N. (2014). Geopolitics of Transport: China's Strategy for Resource Access in Central Asia. The Journal of Central Asian Studies, Vol. XXI, 81-102
6. Егоров, Е.Г. (2021). Геополитика транспортных коридоров. М.: Геоэкономика энергетики, № 2(14), стр.6-31.
7. Guliyev, E. (2020). Azerbaycan-İran İlişkilerinde Türkiye Faktörü. İran Araştırmaları Merkezi (İRAM), Ankara, 24 s.
8. Li, S. (2015). The Economic Belt of the Great Silk Road–Together To Build a Bright Future. In Transport Corridor of Eurasia: New Ways of Cooperation. Materials of International Conference, April, Vol. 20, 5-12.
9. Nəsirov, Ə. (2022). Zəngəzur nəqliyyat dəhliziinin regional və qlobal əhəmiyyəti. İPƏK YOLU, No.1, 62-69.
10. Yaqubova, N. (16.01.2023). Zəngəzur dəhlizi tarixi reallıqdır. https://nuhcixan.az/news/siyaset/76313-zengezur-dehlizi-tarixi-realliqdir
11. (12.01.2021). Prezident: "Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir". https://report.az/daxili-siyaset/prezident-zengezur-dehlizi-butun-zengezur-bolgesini-ehate-etmelidir/
12. https://imzainfo.az/anadolu-agentliyi-z%C9%99ng%C9%99zur-n%C9%99qliyyat-d%C9%99hlizi-bar%C9%99d%C9%99-infoqrafika-yayib/
13. 44 Günlük Qarabağ Müharibəsi: Mülahizə və Nəticələr. (2021). Bakı, 36 s. https://aircenter.az/uploads/files/44-Gunluk%20QM_az.pdf

GÜRCÜSTANIN XARİCİ SİYASƏTİNİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN ÖLKƏDAXİLİ AMİLLƏR

AQİL ƏHMƏDOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat və İdarəetmə fakültəsi/Dövlət və bələdiyyə idarəetməsi kafedrası
aahmadov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Müasir dövrdə hər bir dövlətin xarici siyasəti dövlət və qeyri-dövlət institutlarını, prosedurları, daxili və xarici siyasət məqsədlərinə nail olmağı təmin edən texnologiyaları özündə birləşdirən kifayət qədər mürəkkəb sistem kimi görünür. Onların nailiyyəti həyati əhəmiyyət kəsb edən milli dəyərlərin qorunub saxlanmasına və möhkəmləndirilməsinə şərait yaradan daxili və xarici şəraitin yaradılmasına yönəlmiş ideoloji-nəzəri təlimatların işlənib hazırlanması və həyata keçirilməsində mürəkkəb siyasi qarşılıqlı fəaliyyət prosesi olan xarici siyasət qərarlarının qəbul edilməsinə əsaslanır. Öz növbəsində xarici siyasət qərarlarının qəbulu prosesi beynəlxalq münasibətlər nəzəriyyəsinin əsas subyektlərindən biridir.

Gürcüstan Respublikasında xarici siyasət qərarlarının qəbul edilməsi bu baxımdan həm xarici, həm də daxili determinantlardan çox asılıdır. Əgər xarici determinantlar olaraq böyük güclərin siyasi maraq və davranışları əsas təşkil edirsə, daxili determinantlar olaraq isə ölkədaxilində xarici siyasətin formalaşması prosesi və bu prosesə təsir göstərən daxili amilləri əsas alınır. Daxili amillər dövlətin xarakteristikası, onun xarici siyasət seçimləri və onun tətbiqi ilə əlaqədardır. Xarici siyasətin siyasi strukturlar kontekstində formalaşdığını nəzərə alsaq, ölkədaxili amillər əsasında xarici siyasətin formalaşma prosesini daha detallı şəkildə təhlil edə bilərik. Bu zaman ölkədaxili faktorlar kimi ölkənin siyasi strukturu, dövlətdaxili siyasi qüvvələr və sub-milli aktoraların xarici siyasət seçimlərinə təsiri önəmli rola malik olur.

SUMMARY

In modern times, the foreign policy of each state seems to be a rather complex system that includes state and non-state institutions, procedures, and technologies that ensure the achievement of domestic and foreign policy goals. Their achievement is based on the adoption of foreign policy decisions, which is a complex process of political interaction in the development and implementation of ideological and theoretical guidelines aimed at creating internal and external conditions conducive to the preservation and strengthening of vital national values. In turn, the process of making foreign policy decisions is one of the main subjects of the theory of international relations.

In this regard, the adoption of foreign policy decisions in the Republic of Georgia is highly dependent on both external and internal determinants. If the political interests and behavior of the great powers are the main determinants, then the process of foreign policy formation within the country and the internal factors influencing this process are taken as the internal determinants. Internal factors relate to the characteristics of the state, its foreign policy choices and its implementation. Considering that foreign policy is formed in the context of political structures, we can analyze the process of foreign policy formation in more detail based on domestic factors. At this time, the country's political structure, domestic political forces, and the influence of sub-national actors on foreign policy choices play an important role as domestic factors.

AÇAR SÖZLƏR: xarici siyasət, ictimai fikir, etnik münaqişələr, xarici siyasətin təşkilati strukturu, sub-milli aktorlar

KEY WORDS: foreign policy, public opinion, ethnic conflicts, organizational structure of foreign policy, sub-national actors

Giriş

Təhlükəsizliyin təmin olunmadığı bir coğrafiyada dövlətçiliyin güvən altında olmaması səbəbilə Gürcüstanın kənar təhlükəyə qarşı formalaşmış həssas vəziyyəti xarici siyasət seçimlərində özünü biruzə verir. Bu mənada ölkə rəhbərliyi xarici siyasətin formlaşmasında önəmli amillərdən biridir.

Gürcüstanın xarici siyasət seçimi demək olar ki, tamamilə prezidentin nəzarəti altındadır. Və bir çox hallarda populizm siyasi alətə çevrilərək xarici siyasətin müəssisələşməsinə və təşkilatlanmasına mane olur [Jones, s. 14].

Gürcüstanın xarici siyasəti və əlaqələrinə təsir göstərmiş amillər və həmin amillərin ölkənin xarici siyasətinə necə təsir göstərməsi daxili determinantların təhlili baxımından çox əhəmiyyətlidir. Gürcüstanın xarici siyasətinə təsir edən daxili amillər arasında ölkənin iqtisadiyyatı, ictimai fikri, təşkilati strukturu, etnik münaqişələr və "Avropalı kimliyi"ni tədqiq etmək xüsusilə vacibdir. Gürcüstanın iqtisadiyyatı və təşkilati strukturu xarici siyasəti ölkədaxilində formalaşdıran amillər arasında arxa planda gəldikləri üçün, daha doğrusu bu amillər xarici siyasətə birbaşa təsir göstərə bilmədikləri və xarici siyasətin formalaşmasında zəmin qatı rolunu oynadıqları üçün bu iki amilin xarici siyasət seçimlərinə necə təsir etdiyi qısa müzakirə olunacaqdır. Digər amillər isə ayrı-ayrılıqda tədqiq olunacaq.

İlk öncə qeyd etmək lazımdır ki, ölkənin iqtisadiyyatı onun daxili problemləri ilə necə mücadilə etdiyini göstərən önəmli faktordur.Xüsusilə dövlətin əhalisinə iqtisadi təhlükəsizlik, sosial xidmətlər və digər xidmətlər (nəqliyyat, infrastuktur, təhsil, məşğuliyyyət) təmin edə bilməsi üçün iqtisadiyyat əhəmiyyətli rol oynayır. Müstəqilliyini bərpa etdikdən sonra Gürcüstanın üzləşdiyi daxili sosial və siyasi böhranlar uğursuz iqtisadi islahatların təsirilə ortaya çıxmış və bu böhranlar ölkənin xarici siyasət hədəflərinə çatmasında əngəllər yaratmışdır. Çox zaman ölkədaxili iqtisadi böhranlar dövlətin xarici siyasət seçimlərini izah etməyə yetərli olmur, lakin Gürcüstanın xarici siyasət davranışlarını onun kasıb iqtisadi resurslarını nəzərə almadan şərh etmək yetərsiz qalır.

1990-cı illərdə Rusiya Gürcüstanın taxıl, enerji və məşğuliyyət üçün (Rusiyadakı gürcü migrantlar) özündən asılı vəziyyətdə olmasından istifadə edərək Gürcüstanın daxili sənayesi üzərində nəzarəti ələ almağa çalışırdı. XX əsrin sonlarında Rusiyada işləyən gürcü migrantlarının Gürcüstana göndərdiyi pul köçürmələri(remittance) ölkə ÜDM-sinin 5-10%-i təşkil edirdi [Hüseynov, s. 122].Bu da istənilən hakimiyyətin xarici siyasət davranışlarında Rusiyanı nəzərə alaraq qərar verməyə vadar edirdi. İqtisadi asılılıq Gürcüstanın xarici siyasətdə manevr etmək imkanlarını azaldırdı. İqtisadi gücünə və resurslarına görə Rusiya ilə müqayisə olunmayacağına görə1990-cı illərdə Gürcüstanın Rusiya tərəfindən razılaşdılıran atəşkəsi qəbul etməyə və Rusiyanın sülhməramlı qoşunlarını öz ərazisində yerləşdirməsinə icazə verməkdən başqa seçimi yox idi.

2003-cü il Qızılgül inqilabından sonra Gürcüstanın siyasi sferasında gücün mərkəzləşməsi ilə yanaşı iqtisadi sahədə köklü islahatlar aparılmağa başlandı. İqtisadiyyatliberallaşdırıldı və bəzi iqtisadi sahələrdə dövlət nəzarəti tamamilə aradan qaldırıldı. Yeni hakimiyyət sərt liberal iqtisadi siyasət xətti yürüdərək xarici sərmaye üçün cazib iqtisadi mühit yaratmağa başladı [Matusiak, s. 13]. 2003-cü ildən sonrakı islahatlar ölkə iqtisadiyyatının sürətli inkişafına nail ola bildi.2010-cu ildə Saakaşvili Gürcüstanı Singapur cəhətlərini ehtiva edən İsveçrəyə dönüşdürməyin vacibliyini vurğulayırdı. Bu isə aşağı vergilər və minimal dövlət fəaliyyətinin bərqərar olduğu bir iqtisadi sistem demək idi.

Saakaşvili hakimiyyəti bazar iqtisadiyyatını Gürcüstanın Qərb dəyərlərinə bağlılığın simgəsi olaraq görürdü. Gürcüstan nə qədər fundamentalist bazar iqtisadiyyatını tətbiq etsə o qədər Qərb dünyasına yaxın görüləcəkdi. Saakaşvili hökuməti üçün Qərb iqtisadi modeli milli təhlükəsizliyə bərabər tutulurdu [Jones, s. 19]. Qərb tərzində liberal və azad iqtisadiyyatın qurulması sadəcə Gürcüstanın Avropa İttifaqı üzvlüyünə yolunu açmaqla kifayətlənməyəcək, həmçinin Rusiyanın iqtisadi təzyiqlərinin, xüsusilə iqtisadi embargo və gürcü migrantlarının deportasiyasının təsirini azaldacaqdır. Bu dövrdə aparılan vergi islahatları və rüşvət əleyhinə kampaniyalar iqtisadi resursların artmasına səbəb oldu. 2004-2008-ci illərdə Gürcüstanın ÜDM-si 5 milyard dollardan 12.8 milyard dollara qalxdı. Gürcüstanın dövlət büdcəsinin 2.5 dəfə artmasıAvropa ilə daha iddialı əlaqələr qurmağa və özünün Rusiyadan asılılıq bağlarını qopartmağa imkan verirdi.

Gürcüstanın bu yeni "özgüvəni" həmçinin kütləvi hərbi xərcləmələrdə də özünü göstərirdi. Ölkənin hərbi xərcləmələri 2004-cü ildə 105 milyon dollardan 2008-ci ildə 895 milyon dollara qədər artmışdı. Burda qeyd etməyim gərəkən xüsusi məqam 2007-ci ildə Gürcüstanın hərbi xərcləmələrinin rekord həddə çatmasıdır- 943 milyon dollar. Ənənəvi silahlanma (militarizasiya) nəzəriyyəsinəgörə hərbi qüvvələrin hökümətə təsirinin güclənməsi və hərbi büdcənin böyüməsi dövlətin agressiv xarici siyasət xətti yürütmə ehtimalını artırır [Feierabend, s.258]. Şofild "Silahlanma və müharibə" kitabında qeyd edir ki, silahlanma artdıqca ölkənin müharibə qərarı qəbul etmə ehtimalı da artır. Və əksər hallarda bu qərar zəif hərbi strategiya və gözlənilməyən nəticələrlə müşayiət olunur. 2008-ci il avqust

müharibəsindən öncə Gürcüstanın hərbi büdcəsinin rekord göstəricisini və müharibənin nəticələrini Şofildin təqdim etdiyi modelə əsasən şərh etsək, Şofildin nəzəriyyəsi özünü doğrultmuş olur [Schofield,s. 11-33].

2008-ci il müharibəsi sonrasında iqtisadi reform ilə Gürcüstanın Qərblə ittifaqı arasında bağlılıq daha qabarıq ifadə olunmağa başlandı. Müharibənın ağır nəticələrindən sonra Gürcüstanın Qərb iqtisadi modelinin çökməsinə imkan verməmək üçün Qərb dövlətləri Gürcüstana 4.5 milyard dollar kredit ayırdılar [Papava, s. 207]. Lakin Gürcüstanın tətbiq etdiyi Qərb iqtisadi modeli əhalinin böyük qisminin iqtisadi rifahının yaxşılaşdırılmasına nail ola bilmədi. Baxmayaraq ki, dünya miqqyasında dövlətin iqtisadiyyatda tənzimləyici rolu minimuma endirilmişdir, Gürcüstan nümunəsində bu model özünü doğrultmadı və bir sıra mənfi siyasi-iqtisadi göstəricilərlə nəticələndi.

Ölkənin xarici siyasət qərarlarının necə qəbul edildiyini öyrənmədən həmin ölkənin xarici siyasətini analiz etmək natamam olardı. Xarici siyasət qərarları hansı təşkilat və müəssisələr tərəfindən qəbul edilir? Xarici siyasət qərarlarında kimin fikirləri həlledici rol oynayır? Gürcüstanın xarici siyasət organlarının təşkilatı çərçivəsi zəif olaraq qalır, hər hansı bir müəssisənin siyasi ağırlığı hansı şəxsin həmin vəzifədə olmasından asılı olaraq dəyişir. Yəni ki, təşkilatı şəxslərdən ayıran cizginin sərhədləri itmiş durumdadır [Jones, s. 30].

Müstəqilliyin ilkin illərində xarici siyasət qərar-qəbuletmə mexanizması xaotik işləyirdi; dövlət organları çox zəif, personel təcrübəsiz və normal informasiya kanalları yox dərəcəsində idi. Qərarlar çox hallarda nümayişlərin təzyiqi ilə reaktiv olaraq qeyri-iradi qəbul edilirdi. 1995-ci il konstitusiyasının qəbul edilməsi ilə Gürcüstan daha stabil xarici siyasət xətti yürütməyə başladı. 1995-ci ildən sonra Gürcüstan Parlamentinə ölkənin xarici siyasətində iştirak etmək üçün konstitusiya ilə müəyyən olunmuş səlahiyyət verildi. Konstitusiyanın 48-ci maddəsi Parlamentə daxili və xarici siyasətin əsas istiqamətlərini təyin etmək səlahiyyəti verir.

Lakin 2005-ci ildə nüfuzlu baş nazir Zurab Jvanianın ölümü prezidentin xarici siyasətdəki imtiyazlarına qarşı parlamentin müqavimətini azaltdı [Jones, s. 32].Öncədən Şevernadzenin səlahiyyətləri çərçivəsində prezident ofisi ətrafında mərkəzləşmiş qərar qəbuletmə mexanizması Saakaşvili hakimiyyəti zamanı da olduğu kimi qalırdı.

Lakin bu nazirlərin xarici siyasətə təsir və nəzarət etmək imkanlarından kasad olduğunu deməyə əsas vermir. Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi xarici siyasət strategiyasının hazırlanmasında əsas mərkəzi təşkilatlardır.Xarici İşlər Nazirliyi xarici siyasət strategiyasına dair təkliflər verdiyi halda Milli Təhlükəsizlik Şurasının Analitik şöbəsi xarici siyasət strategiyasını işləyib hazırlayır. Bu şöbə beynəlxalq iqtisadi təşkilatlar, Avropa inteqrasiya siyasəti, ABŞ və RF ilə münasibətlər və digər məlumatları analitik süzgəcdən keçirərək prezidentə təqdim edir.

Qeyd etmək lazımdır ki, 2003-2013-cü illərdə Gürcüstanın xarici siyasət qərarlarının təşkilati müstəvidə proqnozlaşdırılması çətindir. Xarici siyasət demək olar ki, prezidentin nazirlərlə şəxsi münasibətlərindən asılı olaraq onun fikir və görüşlərinə bağlı olaraq formalaşdırılırdı. Parlament və onun Xarici Siyasət Komitəsinin funksiyası isə beynəlxalq müqavilələrin təhlili və təsdiq edilməsi ilə kifayətlənirdi. İqtisadiyyat və İnkişaf Nazirliyi, hökümət daxilində Gürcüstanın Reinteqrasiya Komissiyası və Gürcüstanın Avropa və Avro-Atlantik İntegrasiya Komissiyası xarici siyasət qərarlarına təsir etmə imkanları olmasına baxmayaraq onlar da əsasən icraçı olaraq fəaliyyət göstərirdilər[Jones, s. 33].

2010-cu ildə Gürcüstan konstitusiyasına dəyişikliklər edilərək, prezident ofisinin bir sıra səlahiyyətləri baş nazirə həvalə edilmişdir. Bu dəyişikliklər 2013-cu ildə keçirilən prezident seçkilərindən sonra qüvvəyə mindi. 2010-cu il düzəlişlərinə qədər isə“Prezident Gürcüstanın xarici əlaqələrinin ən ali təmsilçisi” hesab edilirdi.

(69-cu maddə). Rəsmi olaraq prezident beynəlxalq müqavilələri imzalayır və xarici ölkələr ilə danışıqlar aparır. Prezident həmçinin parlamentin razılığı ilə səfir və digər diplomatik nümayəndələri təyin və vəzifəsindən azad edə bilərdi. Bundan əlavə, prezident baş naziri təyin edə və nazirlər kabinetini təsdiqləmək səlahiyyətinə sahib idi (73-cü maddə). Bütün bu səlahiyyətlər prezidentə xarici siyasətə də nüfuz etmək imkanları tanıyırdı. 2013-cü ilə qədər mövcud olmuş Gürcüstanın super-prezident sistemi institusional strukturun xarici siyasətə təsirini minimuma endirirdi. Belə nəticəyə gələ bilərik ki, bütün ziddiyətlərə baxmayaraq Gürcüstanın 2008-ci ilin avqustunda müharibə etməsinin səbəblərindən biri də budur.

İctimai Fikir

İctimai fikir çox zaman, Gürcüstan nümunəsində olduğu kimi insanların harda yaşamasından, yaş qrupundan, təhsil səviyyəsindən, cinsiyyətindən və etnik kimliyindən asılı olaraq dəyişkən və müxtəlif ola bilən bir fenomendir. Tomas Ris-Kappen ictimai fikrin təsnifatlandırılmasını 3 qrup üzrə aparır: kütləvi ictimai fikir, diqqətcil ictimai fikir və problem ətrafında formalaşan ictimai fikir [Risse-Kappen, s. 482]. Diqqətcil ictimai fikir öz maraq dairəsi ətrafında siyasəti izləyən kütlə tərəfindən formalaşdırılır. Misal üçün Gürcüstanın məcburi köçkün əhalisi daha çox Abxaziya və Cənubi Osetiya ilə bağlı hadisələri təqib edəcəkdir. Problem ətrafında formalaşan ictimai fikir isə adından da bəlli olduğu kimi, cari anda aktual olan məsələ ətrafında yaranan ictimai fikirdir.

İctimai fikir amilinin xarici siyasətə necə təsir etdiyini araşdırarkən biz əslində sadə insanların elit qərarlarına necə təsir etdiyini tədqiq etmiş oluruq. Hər şeydən öncə qeyd etmək lazımdır ki, xarici siyasət məsələləri gürcü vətəndaşlar üçün prioritet mövzu deyil. Aparılan sorğular zamanı ictimaiyyət iqtisadi problemləri siyasi məsələlərdən daha prioritet sahə olaraq ifadə etmişdir [De Wall, s. 16].

2003-2013-cü illərdə Gürcüstan əhalisinin həyatına köklü təsir edən əsas hadisə Saakaşvilinin anti-Rusiya xarici siyasəti və bu siyasətin nəticəsi olaraq doğan 2008-ci il avqust müharibəsi olmuşdur. Rusiya kimi güclü qonşu dövlət ilə gərilmiş xarici siyasət böhranında ictimaiyyətin münaqişənin eskalasiyasına necə münasibət göstərdiyini araşdırmaq üçün 2008-ci ilin yazında və payızında Qafqaz Araşdırmaları Resurs Mərkəzi(Caucasus Research Resource Center) tərəfindən əhali arasında sorğu aparılır. Müharibə başlamazdan öncə aparılan sorğulara görə Gürcüstan əhalisinin əksəriyyəti Saakaşvilinin ərazi bütövlüyünü bərpa etmək üçün gücdən istifadə həmlələrini müdafiə edirdi. Lakin sorğuda iştirak edənlərin əksəriyyəti konfliktin sonunda uğur qazanılacağı təqdirdə müharibəyə getməyi dəstəkləyirdilər. Həmən müharibənin ardından aparılan ikinci sorğunun nəticələrində isə insanların eyni məsələyə müharibə öncəsi və sonrası müxtəlif münasibət göstərdiyi ortaya çıxdı. Həmçinin müharibə zonasında yaşayan və hərbi əməliyyatlardan uzaq daha təhlükəsizlikdə olan əhalinin də müharibəyə müxtəlif münasibət göstərdiyi bəlli oldu [Driscoll, s. 277]. Lakin 2008-ci il avqust müharibəsi Gürcüstan əhalisini bir bayraq ətrafında birləşdirməyi bacarmışdı. 2008-ci ildə Saakaşvilinin gücdən istifadə edərək Abxaziya və Cənubi Osetiyanı geri qaytarmaqla Gürcüstanın ərazi bütövlüyünü bərpa etmək addımı əhali tərəfindən dəstəklənirdi. Həmçinin araşdırma zamanı əhalinin böyük əksəriyyətinin münaqişə ilə bağlı məlumatları kütləvi informasiya vasitələrindən əldə etdiyi məlum olmuşdur. Bu da müəyyən məqamlarda ictmai fikrin hökümət tərəfindən nəzarət edilən KİV-lər vasitəsilə formalaşdırıldığını göstərir [Driscoll, s. 277].

2013-cü ildə ABŞ-ın Milli Demokratik İnstitutu tərəfindən aparılan sorğulara əsasən,hakim dairələrdən fərqli olaraq ictimaiyyət Rusiyaya qarşıagressiv münasibət bəsləmirdi. Həmin ilin sentyabrnda aparılmış sorğuda əhalinin 65%-i Rusiyanın şişirdilmiş təhlükə və ya qətiyyən təhlükə olmadığına inanırdı. Lakin Saakaşvili və onun partiyasının militant anti-rus ritorikası seçicilərin cüzi müqaviməti ilə üzləşirdi. Bunun səbəbi isə Gürcüstanda ictimai fikrin yuxarı dairələrdə ifadə olunması üçün təşkilatı kanalların zəif inkişaf etməsidir. Sivil cəmiyyət və maraq qruplarının zəif olması ilə yanaşı, siyasi güc icraedici organların səlahiyyəti ətrafında cəmləşmişdir [Jones, s. 28]. Bütün bu institusional zəifliklər Gürcüstan siyasi elitasına ictimai fikri formalaşdırmaq və ona nəzarət etmək imkanı yaradır. Onu da qeyd etmək lazımdır ki, bütün əngəllərə və çətinliklərə baxmayaraq Gürcüstan ictimaiyyəti küçələrə çıxaraq kütləvi nümayişlər etməklə öz mövqelərini ifadə edə bilirlər. Bu yolla Gürcüstan ictimaiyyətinin Saakaşvilidən öncəki iki hakimiyyəti devirməsinə baxmayaraq, xarici siyasət məsələləri nadir hallarda nümayiş və mitinglərin mərkəzində olur. Xarici siyasətdə ictimai fikrin tazyiqini xüsusilə seçkilər zamanı müşahidə etmək mümkündür.

Beləliklə Gürcüstanın məhdud siyasi infrastrukturunu və sivil cəmiyyət təşkilatlarının aşağı səviyyədə olduğunu nəzərə alaraq deyə bilərik ki, 2003-2013-cü illərdə ictimai fikrin Gürcüstan xarici siyasətinə təsiri zəif olmuşdur.

Etnik münaqişələr

Müasir dünyada etnik tərkibinə görə homogen dövlət tapmaq çətindir. Milli dövlətlərin sərhədləri çərçivəsində yaşayan müxtəlif etnik qruplar arasındakı münasibətlər də nadirən harmonik olur. Gürcüstan da multi-etnik Qafqaz regionunda yerləşən və kiçik sərhədləri daxilində bir sıra etnik qrupları barındıran dövlətdir. Abxazlar, osetinlər, azərbaycanlılar, ermənilər, ruslar, yəhudilər, yunanlar əsrlər boyu bu coğrafiyada yaşamışlar [Nalbandov, s. 49]. Lakin bu etnik qruplardan yalnız üçü- abxazlar, osetinlər və acarlar Gürcüstan hakimiyyəti altında muxtariyyət statusuna malik

olmuşdur. Sovet hakimiyyəti illərində Abxaziya və Acariya muxtar respublika olduqları halda Cənubi Osetiya muxtar bölgə statusuna malik idi. Gürcüstanın etnik azlıqları haqqında maraqlı fakt ondan ibarətdir ki, demək olar ki, bütün etnik azlıqların Gürcüstanın sərhədləri xaricində dövlətləri var idi [Cheterian, s. 157].

Abxaziya və Cənubi Osetiyanın separatism iddiaları 1980-ci illərin sonlarında dilə gətirilsə də, 90-cı illərin əvvəlində gürcü milliyətçiliyinin ön plana çıxması ilə separatism tələbləri daha sərt ifadə olunmağa başlandı. Gürcüstanda artan milliyətçilik dalğası ilə müstəqillik tələbləri və gürcü dilini ölkənin yeganə dövlət dili qəbul edilməsi iddialarına cavab olaraq Abxaziya və Cənubi Osetiya öz muxtariyyətlərini qorumaq və SSRİ tərkibində qalmağı seçdilər. 90-cı illərin əvvəlində Gürcüstanın ilk prezidenti Qamsaxurdiyaşovinist və milliyətçi ritorikası ilə ölkə ərazisində yaşayan bütün etnik azlıqları "əcnəbi" və "özgələr" adlandıraraq hədəfinə alırdı [Nalbandov, s. 50]. Və bu artan etnik ziddiyətlərin ardınca müharibə qaçınılmaz idi.Hər iki etnik münaqişə zamanı Rusiya Abxaziya və Cənubi Osetiyaya hərbi dəstək verərəkGürcüstan mərkəzi hakimiyyətinin bu bölgələrdəki təsirini zəiflətmişdir. 1992-ci ildə Cənubi Osetiya ilə, bir il sonra isə Abxaziya ilə atəşkəs imzalanaraq Gürcüstan bu bölgələrdə Rusiya sülh-məramlı qoşunlarının saxlanmasını qəbul etmişdir.

2003-cü il Qızılgül inqilabından sonra hakimiyyətə gələn Saakaşvili hökuməti ölkəsinin təhlükəsizliyini təmin etmək üçün bir sıra daxili və xarici təhdidlərə qarşı mübarizə aparmağa başladı. Ölkənin iqtisadiyyatı dağılmış, ərazi bütövlüyü isə pozulmuşdur. Bu təhlükələr sırasında birbaşa Gürcüstanın ərazi bütövlüyünü təhdid altına alan Cənubi Osetiya, Abxaziya və Acariyadakı siyasi vəziyyət idi, bu bölgələr defakto müstəqil olaraq mərkəzi hakimiyyətdən heç bir asılılıqları yox idi. Beləliklə Saakaşvili hökümətinin qarşıya qoyduğu xarici siyasət strategiyasının bir nomrəli prioriteti ərazi bütövlüyünün bərpa edilməsi oldu. Acariyada mərkəzi hakimiyyətin nəzarətini bərpa etməklə eyni uğura Cənubi Osetiyada da nail olacağına inanan Saakaşvili hökuməti 2004-cü ilin yayında bir sıra hərbi əməliyyatlar keçirməyə başladı [Cornell, s. 5].Və 2004-cü ildə yenidən başlanan hərbi çatışmalar 2008-ci il avqust müharibəsinə münbit şərait yaratmış oldu.

Rusiyanın bu münaqişələrdə Abxaziya və Cənubi Osetiyanı dəstəkləməsi Saakaşvili hökümətinin anti-rus ritorikasının səbəbi olaraq qəbul edilə bilər. 2004-cü ildə Cənubi Osetiya ilə yenidən çatışmaların başlanmasından sonra Saakaşvili hadisələri Gürcüstan-Cənubi Osetiya münaqişəsi olaraq yox, Gürcüstan-Rusiya problemi olaraq şərh edirdi.

2008-ci il avqust müharibəsinin təməl səbəblərini donmuş konflikt problemindən daha geniş mənada başa düşmək lazımdır. Konfliktin səbəblərini Abxaziya və Cənubi Osetiyanın həll olunmamış statusu problemindən daha çox Gürcüstan və Rusiya arasında anlaşmazlıqlar kontekstindən analiz etmək gərəkir. Saakaşvili hökuməti Rusiyanın Gürcüstana təzyiq etmək üçün ayrılıqçı bölgələrə dəstək verdiyinə inanırdı. Bu baxımdan Rusiyanın Gürcüstana "arxa bağça" yanaşmasından qurtulmaq və Gürcüstan üzərində Rusiyanın təzyiqini azaltmaq üçün donmuş konflikt probleminin çözümü qaçınılmaz hesab edilirdi [Nodia, s. 722].

Rusiyanın Cənubi Qafqaz regionunda imperialist siyasəti və bu siyasəti həyata keçirmək üçün etnik münaqişələrdən istifadə etməsi Gürcüstanın 2003-2013-cü illər xarici siyasətinin anti-Rusiya mövqeyinin təməlini oluşdurur. Gürcüstanın ərazi bütövlüyünü təhdid altına alan separatist rejimləri dəstəkləməklə Rusiya Saakaşvili hökümətinin kəskin Qərbyönlü siyasətinin istiqamətini dəyişdirməyə, Gürcüstanı NATO-ya qoşulmaqdan çəkindirməyə, eyni zamanda Ukrayna hökümətinə də mesaj göndərməyə, Cənubi Qafqaz regionunda təsir dairəsini bərpa etməyə və stratejik enerji yollarına nəzarət etməyə çalışırdı. Beləliklə deyə bilərik ki, Gürcüstanın Avro-Atlantik institutlarına inteqrasiyasına qarşı Rusiyanın tətbiq edə biləcəyi ən effektiv silah etnik münaqişələr olmuşdur. Bu baxımdan 2003-2013-cü illərdə Gürcüstan xarici siyasətinə təsir göstərən mühüm amillər sırasında ölkədaxili etnik münaqişələri göstərə bilərik.

Moskva Gürcüstanın NATO üzvlüyünə qarşı dəfələrlə xəbərdarlıq edərək bu prosesi əngəlləmək üçün hər şey etməyə hazır olduğunu bildirsə də, Saakaşvili Rusiya ilə hərbi toqquşma zamanı Amerika Birləşmiş Ştatları və Avropa İttifaqının Gürcüstanı dəstəkləyəcəyinə arxalanırdı [Hüseynov, s. 125]. Qərbin Saakaşviliyə Rusiya ilə birbaşa münaqişədən qaçması və Rusiyaya qarşı Gürcüstanın dura bilməyəcəyi xəbərdarlığını etməsinə baxmayaraq, Saakaşvili Moskvanın separatist bölgələrdə militarizasiyasına qəfil hərbi hücumla cavab verməyi qərara aldı.

Qeyd etmək gərəki ki, Rusiya Gürcüstanın Qərbyönlü siyasətinə təzyiq olaraq etnik konfliltlər kartından istifadə etsə də, Gürcüstanın xarici siyasət orientasiyası dəyişməz olaraq qaldı. Müharibədən

sonra dəyişən isə Gürcüstan siyasi gündəmində münaqişənin mövqeyi oldu. Artıq qeyd etdiyim kimi müharibədən öncə Abxaziya və Cənubi Osetiyanın geri qaytarılması Gürcüstan xarici siyasətinin ən öndə prioriteti hesab edilirdi. Saakaşvili hər iki konflikti həll etmək üçün Abxaziya və Cənubi Osetiyaya bir sıra təklif və layihələrilə müraciət etmişdir; Abxaziya və Cənubi Osetiyaya Gürcüstanın ərazi bütövlüyü çərçivəsində geniş muxtariyyət vermək, Dmitri Sanakoyevin (bir zamanlar Cənubi Osetiyanın müstəqillik uğrunda mübarizəsinin iştirakçısı) rəhbərliyi ilə Cənubi Osetiya üçün Müvəqqəti İdarəetmə sistemi, beynəlxalq ictimaiyyətin konfliktin həllinə dair cəhdlərin artırılması və s.[Nodia, s. 728].Lakin 2008-ci il müharibəsindən sonra mövcud münaqişələrin qısa-müddətli həlli yollarının effektivliyi sual altına alındı. Münaqişələrin həlli hələ də Gürcüstan xarici siyasətinin prioriteti olaraq qalsa da bu hədəfin qeyri-müəyyən müddətə təxirə salındığı qəbul olunmuşdur.

Başqa bir məsələ isə 2008-ci il müharibəsi sonrasında Gürcüstan tərəfindən etnik münaqişə zonalarının "işğal olunmuş ərazilər" olaraq şərh edilməsidir. Beləliklə Abxaziya və Cənubi Osetiyada Gürcüstan hakimiyyətini bərpa etmək hədəfi öncə bu əraziləri işğaldan azad etmək öhdəliyi ilə əvəzləndi. Rusiyanın hərbi və siyasi gücünü nəzərə alaraq əraziləri işğaldan azad etmək öhdəliyi də qısa dönəmdə həyata keçiriləcək bir hədəf olaraq görülmür. Ona görə Gürcüstanın bu məsələ ilə bağlı diplomatik mövqeyi digər dövlətlərin bu siyasi qurumları de jure tanımaqdan çəkindirmək və böyük güclərə Rusiyanın Abxaziya və Cənubi Osetiyada varlığını işğal olaraq qəbul etdirməyə inandırmaqdır [Nodia, s. 728].

Gürcüstanın xarici siyasətində "Avropalı kimliyi" faktoru

Uğurlu xarici siyasətin təməl dayağının ortaq milli kimlik olduğunu qəbul edərək deyə bilərik ki, kiçik dövlətlərin xarici siyasətləri realist və idealist amillərin təsirilə formalaşır. Bu baxımdan Gürcüstanın 2003-2013-cü illər xarici siyasətini analiz edərkən idealist amil olaraq dəyərləndirdiyimiz "Avropalı kimliyi" faktoru önəmli rol oynayan konseptlərdən biridir.

Gürcüstanın özünü Avropa dəyərlərinə aid etməsi əslində heç də yeni bir fenomen deyildir. 19-cu əsrdən başlayaraq qonşu müsəlman dövlətlərin "özgələr" olaraq algılanması Gürcüstanın Avropa köklərini açıq ifadə etməsi ilə nəticələnmişdi [Kakachia, s. 173]. Tarixən kiçik dövlət olan Gürcüstanın güclü və bir-birləri ilə rəqabət aparan imperiyaların sərhədində yerləşməsi ondan xarici siyasətində praqmatik və çevik olmağı tələb edib. Və bu qanunauyğunluq hələ də Gürcüstan üçün keçərli sayılar. Tarixən Gürcüstan təhlükəsizliyini təmin etmək üçün potensial düşmənə qarşı güclü müttəfiqin müdafiəsinə arxalanmağı üstün tutmuşdur: Osmanlılara qarşı Səfəvilərin müdafiəsi, Səfəvilərə qarşı Rusiya Çarizminin müdafiəsi, Rusiyaya qarşı Qərbi Avropanın müdafiəsi. Həmçinin qeyd etmək lazımdır ki, patronun seçilməsində çox zaman dini və mədəni bağlar həlledici faktor rolunu oynamışdır. 1870-ci illərdə Gürcü kralı Qacarlara qarşı Rusiyanın müdafiəsinə arxalanarkən, 1918-ci ildə müstəqil Gürcüstan türklərə qarşı almanların müdafiəsinə ümid edirdi [Jones, s. 100]. 1991-ci ildə müstəqillik qazandıqdan sonra Kilsənin cəmiyyətdə rolunun artmasına, insanların açıq şəkildə inanclarını ifadə etməsi və milli təhlükəsizlik sənədlərində Kilsənin gürcü cəmiyyətindəki rolunun vurğulanmasına baxmayaraq, hazırda din və kilsəninGürcüstan xarici siyasətində təsiri çox cüzidir [Jones, s. 22].

Graham Fullerin "xarici siyasət sadəcə dövlətin nə istədiyini yox, həmçinin o dövlətin kimliyini göstərir" müşahidəsindən yola çıxaraq bəzi müəlliflər Gürcüstan xarici siyasətinin milli maraqlar əvəzinə kimlik amili üzərində qurulduğunu iddia edirlər [Kakachia, s. 5].Bu baxımdan 2003-2013-cü illər Gürcüstanın Avro-Atlantika institutlarına inteqrasiyanın onurğa sütunu hesab edilən Avropalı kimliyinin Gürcüstanın xarici siyasətinə təsiri araşdırılacaqdır.

Saakaşvilinin iki dönəm Gürcüstan prezidenti olduğu müddətdə Avro-Atlantika institutlarına inteqrasiya xarici siyasətin ən üst prioritetlərindən hesab edilirdi. "Xarici Siyasət Strategiyası"(2006-2009) Gürcüstanın coğrafi, siyasi və mədəni dəyərlər sistemi baxımından Avropa məkanına aid olduğunu vurğulayır. Gürcüstan gələcəyinin hədəfi olan demokratik prinsiplər də məhz Gürcüstanın aid olduğu Qərbin bir parçası idi. Yuxarıda qeyd etdiyim kimi, Gürcüstanın Qərbə bağlılığı daha öncədən mövcud olsa da, yalnız Qızılgül inqilabından sonra bu orientasiya xarici siyasətdə iddialı şəkildə ifadə olunmağa başlandı [Minesashvili, s. 5]. Saakaşvilinin prezident seçilməsinin ardınca 2004-cü ildə andiçmə mərasimində Gürcüstanı qədim Avropa ölkəsi olaraq Avropa sivilizasiyasında önəmli yer tutduğunu qeyd etməsi də təsadüfi deyildir.

Beləliklə milli kimlik və xarici siyasət orientasiyası arasında əlaqədan yola çıxaraq, bəzi müəlliflər Gürcüstanın həmişədən sahib olduğu, lakin son zamanlar daha çox vurğulanan Avropalı

kimliyinin Avro-Atlantika yönlü siyasətinin əsas qaynağı olduğunu iddia edir. Həqiqətdə isə Gürcüstanı nə qədər Avropalı saymaq olar? Gürcüstanın Avropa dəyərlərinə bağlılığını hansı ölçüdə başa düşmək olar?

Akademik ədəbiyyatda identiklik qədər mübahisələrə səbəb olan, Avropa identikliyi qədər isə geniş və mürəkkəb ikinci bir konsept tapmaq çətindir. Avropa identikliyi konsepti əsasən "dar" və "geniş" mənada başa düşülür. Dar mənada Avropa identikliyi beynəlxalq əxlaqi dəyərlərlə- demokratiya, tolerantlıq və indiviualizm prinsiplər ilə asossiasiya edilir. Geniş mənada Avropa identikliyini nəzərdə tutduqda isə bu konseptin mədəni irsinə, xüsusilə Yunan, Roma və Xristian dəyərlərinə istinad edilir[Kap, s. 38]. Geniş mənada Avropa identikliyinin Gürcüstana tətbiqinin çətin olduğunu qəbul edərək, dar mənada Avropa identikliyinin Gürcüstan misalında ölçülməsi daha məqsədəuyğun hesab etmək olar. Dar mənada Avropalı kimliyinin Gürcüstan cəmiyyətinə nə qədər siraət etdiyini ölçmək üçün Dünya Dəyərlər Sorğusunun (World Value Syrvey) məlumat bazasına müraciət edə bilərik. Bu qurum tərəfindən aparılan sorğularda Gürcüstan cəmiyyətidemokratiya, tolerantlıq və individualizmin prinsiplərinə çox zəif bağlılıq nümayiş etmişdir [Minesashvili, s. 26-44]. Hər beş gürcü vətəndaşından dördünün Avropa İttifaqına üzvlüyünü və əhalinin üçdə ikisinin NATO üzvlüyünü dəstəklədiyini, lakingürcü cəmiyyətinin bu institutların təbliğ etdiyi dəyərlər sistemini paylaşmadığını nəzərə alaraq deyə bilərik ki, Gürcüstanın xarici siyasətində Avro-Atlantik institutlarına orientasiyanın səbəbi özünün Avropa ilə tarixi bağlarından daha çox bu əməkdaşlıqdan qazanacağı üstünlüklərə dayanır.

Beləliklə belə nəticəyə gələ bilərik ki, Gürcüstan Qərbi onun təhlükəsizliyini təmin edə biləcək və ona iqtisadi xeyirlər qazandıracaq hami olaraq görür. Gürcüstanın özünü Avropa sivilizasiyasının bir parçası olaraq təbliğ etməsi isə bu hədəfi Gürcüstan üçün legitimləşdirən bir vasitədir.

Nəticə

Today, Azerbaijan's chairmanship in the UN Special Program for the Economies of Central Asia - SPECA is another indicator of intensive cooperation. Comprehensive ties between the countries have successfully developed over 25 years. For the first time in November 2023, a summit of member countries was held in Baku and supported Azerbaijan's initiative to host the Summit and invite the Prime Ministers of Georgia and Hungary and the Secretary General of the Cooperation Council for the Arab States of the Gulf to it as honored guests. Thus, holding the Summit with such a composition demonstrates the aspiration to broaden the geography of cooperation.

CONCLUSION

Azerbaijan today manages to fully use its spatial parameters for its own benefit. The location of Azerbaijan and its natural resources serve the realization of its national interests. Understanding geopolitics as a political strategy oriented by geographic location allows us to speak of natural and inevitable, entirely objective determinism in this area, as well as aggression driven by geopolitical interests. It is noteworthy that the geopolitical strategy of Azerbaijan is not aimed at aggression, but at coexistence in conditions of peace and security with other peoples and for this purpose the implementation of cooperation. For Central Asian countries, this cooperation also means development.

BIBLIOGRAPHY

15. Azerbajdzhan znachitel'no narastil tovarooborot s odnoj iz stran EAJeS. (2023, September 18). *SPUTNIK Azerbaijan*. https://az.sputniknews.ru/20230918/azerbaydzhan-znachitelno-narastil-tovarooborot-s-odnoy-iz-stran-eaes-458719923.html

16. Glava Goskomiteta: Torgovlja mezhdu Tadzhikistanom i Azerbajdzhanom nabiraet oboroty. (2023, April 5). *APA.* https://apa.az/ru/strani-snq/glava-goskomiteta-torgovlya-mezdu-tadzikistanom-i-azerbaidzanom-nabiraet-oboroty-516918

17. Ionova, E. (2021). Itogi prezidentskih vyborov v Uzbekistane: jekonomicheskij i politicheskij kurs Sh. Mirzijoeva. Rossija i novye gosudarstva Evrazii, 53 (4), 97-114

18. Kazahstan i Azerbajdzhan planirujut dovesti tovarooborot do $1 mlrd. (2023, June 23) *TRT. https://www.trtrussian.com/novosti/kazahstan-i-azerbajdzhan-planiruyut-dovesti-tovarooborot-do-dollar1-mlrd-13744662*

19. Kazahstan planiruet postavljat' v Azerbajdzhan nesyr'evye tovary na summu svyshe $304 ml. (2023, April 7). *Official Information Source of the Prime Minister of the Republic of Kazakhstan.* https://primeminister.kz/ru/news/kazakhstan-planiruet-postavlyat-v-azerbaydzhan-nesyrevye-tovary-na-summu-svyshe-304-mln-23639

20. Panfilova, V. (2023, April 3). Azerbajdzhan vstraivaet Tadzhikistan v Organizaciju tjurkskih gosudarstv. *Nezavisimaja*. https://www.ng.ru/cis/2023-04-03/5_8696_projects.html

21. Po itogam 2022 goda torgovlja mezhdu RK i Azerbajdzhanom sostavila 461,9 mln.doll. SshA. (2023, April 10). *Ministry of National Economy of the Republic of Kazakhstan.* https://www.gov.kz/memleket/entities/economy/press/news/details/534852?lang=en

22. Posol Uzbekistana: Peregovory liderov dvuh gosudarstv pridali moshhnyj impul's narashhivaniju uzbeksko-azerbajdzhanskih svjazej. (2023, April 19). *Azertag.* https://azertag.az/ru/xeber/Posol_Uzbekistana_Peregovory_liderov_dvuh_gosudarstv_pridali_moshchnyi_impuls_narashchivaniyu_uzbeksko_azerbaidzhanskih_svyazei-2580095#:~:text=

23. Tokaev nazval planiruemyj k 2030 godu gruzopotok po Transkaspijskomu marshrutu. Sputnik Azerbajdzhan. (2023, July 20). *Sputnik Azerbaijan.* https://az.sputniknews.ru/20230720/tokaev-nazval-planiruemyy-k-2030-godu-gruzopotok-po-transkaspiyskomu-marshrutu-456964106.html

24. Tovarooborot mezhdu Kyrgyzstanom i Azerbajdzhanom prevysil dopandemijnyj period. (2023, July 26). *КирТАГ Кыргыз телеграф агенттиги*. https://kyrtag.kg/ru/news/tovarooborot-mezhdu-kyrgyzstanom-i-azerbaydzhanom-prevysil-dopandemiynyy-period#:~:text=

25. Turkmenistan vhodit v chislo stran s naibol'shej dolej tovarooborota s Azerbajdzhanom. (2023, June 20). *TREND.* https://www.trend.az/azerbaijan/business/3763698.html

26. Vysshij gossovet i novye proekty: itogi vizita Mirzijoeva v Azerbajdzhan. (2023, August 24). *Sputnik Uzbekistan.* https://uz.sputniknews.ru/20230824/mirziyoev-vizit-azerbaydjan-itogi-38142121.html

27. Vystuplenie Prezidenta Respubliki Uzbekistan Shavkata Mirzijoeva na Konsul'tativnoj vstreche glav gosudarstv Central'noj Azii. (2023, September 14). *Ozbekiston Milliy axborot agentligi*. https://uza.uz/ru/posts/vystuplenie-prezidenta-respubliki-uzbekistan-shavkata-mirziyoeva-na-konsultativnoy-vstreche-glav-gosudarstv-centralnoy-azii_520184

28. Zamministra: Sotrudnichestvo Azerbajdzhana i Kazahstana razvivaetsja ochen' dinamichno. (2023, September 4). *Report*. https://report.az/ru/vneshnyaya-politika/zamministra-sotrudnichestvo-kazahstana-i-azerbajdzhana-razvivaetsya-ochen-dinamichno

29. Za pjat' let ob"em tovarooborota mezhdu Uzbekistanom i Azerbajdzhanom uvelichilsja v 6,2 raza. (2023, August 2023). *Ozbekiston Milliy axborot agentligi*. https://uza.uz/ru/posts/za-pyat-let-obem-tovarooborota-mezhdu-uzbekistanom-i-azerbaydzhanom-uvelichilsya-v-62-raza_513677

E.Ə. III- I MİNİLLİKLƏR MESOPOTAMİYA VƏ ARATTA, KUTİ, LULLUBİ, DÖVLƏTLƏRİ ARASINDA BEYNƏLXALQ ƏLAQƏLƏR

SELCAN HƏŞİMOVA
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
"Qədim dövr tarixi" şöbəsinin kiçik elmi işçisi
s.hashimova@history.science.az
AZƏRBAYCAN, BAKI

XÜLASƏ

E.ə. III minilliyin gil lövhələrindən məlum olur ki, hərtərəfli əlaqələrin genişlənməsi Mesopotamiya xalqlarının yaşadıqları ərazinin hüdudlarından kənarda, həmçinin qədim Azərbaycanın tarixi cənub torpaqları ilə, xüsusən də Urmiya ətrafı ərazilər ilə əlaqələr qurmasını şərtləndirmişdir. Urmiya gölü hövzəsi strateji əhəmiyyət kəsb etdiyindən İkiçayarası xalqlarının daim maraq dairəsində olmuşdur. Etnik kimliyimizin formalaşmasınada iştirak etmiş toplumlar haqqında məlumatları mixi yazılı qaynaqlar vasitəsi ilə əldə edirik. Bu qaynaqların təhlilindən belə nəticəyə gəlirik ki, qədim zamanlardan Urmiya gölü ətrafında məskunlaşmış tayfalar Mesopotamiyada yaranmış dövlətlərə təhlükə yaratdıqları üçün yəni birbaşa hərbi münaqişələrlə əlaqədar olaraq xatırlanırlar. E.ə. II minilliyin birinci yarısında Azərbaycanın qədim tayfalarının Aşşur dövləti ilə münasibətlərinə dair məlumatları keçən əsrin 30-50-ci illərində aşkaralanan Mari arxivlərindəki sənədlər əsasında tədqiq etmək mümkündür. Azərbaycanda İslam dininin yaranması ərəblərin bu torpaqlara gəlməsi ilə bağlıdır. VII əsrə kimi Cənubi və Şimali Azərbaycanın sakinlərinin həyatında müxtəlif dinlərə aid inanclar mövcud idi. Təqdim olunan məqalə ən qədim dövlətçilik ənənələrimizin yarandığı dövrdə sakinlərin dini ayinlərinə həsr olunur. Mixi yazıların oxunması baxımından e.ə.III-II minilliklər Azərbaycanın qədim əhalisinin dini inancları əhatəli tədqiq oluna bilməmişdir. Arxeoloji qazıntılar nəticəsində tapılmışdır ki, qədim dövrlərin ibtidai dini təsəvvürləri, ayin, mərasimləri o dövrün ictimai münasibətləri və təsərüffat həyatı ilə bağlı olmuşdur. Dini ayinlərin geniş yayılmış növlərindən biri də qurbanvermə idi. Bu ayin tanrılara bağlılığın və konkret emosional fəaliyyətin ifadə formasının göstəricisi idi. Sivilizasiyanın vətəni olan Mesopotamiyanın (Dəclə və Fərat çayları ətrafı) mədəniyyəti Azərbaycanın ilk şəhər-dövlətləri Kuti, Lullubi tayfa ittifaqlarına təsir göstərdi.

AÇAR SÖZLƏR: Mesopotamiya, sivilizasiya, Aratta, arxeologiya, Urmiya gölü.
KEYWORDS: Mesopotamia, civilization, Aratta, archaeology, Urmia Lake

GİRİŞ

Azərbaycan ərazisi ən qədim sivilizasiyaların diyarı olmuşdur. Bu ərazilərdə yaşamış aborigen xalqlar ən qədim zamanlardan regionun tarixinin formalaşmasında yaxından iştirak etmiş və dərin izlər qoymuşlar. Anadolu yaylası, İran, Suriya, Şimali Qafqazda arxeoloji izlərinə rast gəlinən Kür-Araz mədəniyyətinin e.ə. III minilliyin son rübündə süqutu ilə əlaqədar regionun tarixində yeni dövr başlanmışdır. Əhalinin sayının və əmək məhsuldarlığının artması nəticəsində bu geniş coğrafiyada tayfa birliklərinin yaranmasına səbəb olmuşdur. Azərbaycan ərazisində ilk böyük tayfa birlikləri İlk Tunc dövrünün sonlarında yaranmağa başlamışdır. Dəmir dövrünün əvvəllərində (e.ə. XIV-XIII əsr) qədim ictimai-iqtisadi, dini və müəyyən mənada etno-mədəni ənənələr tədricən köhnəlməyə başlasa da, bölgənin aborigen əhalisi müəyyən müddət sabit qalmışdır. Bunu antropoloji materiallar və arxeoloji tapıntılar, həmçinin yazılı mənbələr sübut edir. Bu dövrdə Azərbaycan ərazilərinə Ön Asiyadan və başqa bölgələrdən müəyyən əhali qruplarının daxil olması müşahidə edilir. E.ə. III minilliyin ikinci yarısında (erkən və orta tunc dövrü Azərbaycan ərazisində məskunlaşan əkinçi-maldar tayfaların həyat tərzində artıq sivilizasiya tarixinin başlanğıcı kimi bir sıra dəyişikliklər oldu. Mədəni həyatda yaranan dəyişikliklər Mesopotamiya sakinləri ilə iqtisadi əlaqələrin inkişaf etməsində rol oynadı.Bu zaman tarixi cənub torpaqlarımız Aratta adlı şəhər-dövlətinin tərkib hissəsi idi. Aratta adına mixi yazılı kitabələrdə LAM.KUR.RU. (“sərvətli dağlar”) kimi də rast gəlinib. olunurdu. Elmi tədiqat əsərlərində Arattanın coğrafiyası haqqında müxtəlif fikirlər vardır. Şərqşünas alim Yusif Yusifov qeyd edirdi ki, bu dövlət Sənəndənclə Zəncan arasında olan torpaqlar idi.

Qədim şərqin beynəlxalq münasibətlər sistemini təşkil edən Mesopotamiya və Azərbaycan şəhər-dövlətləri Kuti, Lullubi tayfaları arasında diplomatik münasibətlər şərqşünas alimlərin tədqiqat obyekti olmuşdur. Kutilərə qarşı baş verən üsyan zamanı, Kuti hökmdarı Trikan münaqişənin danışıqlar yolu ilə həll olunmasına cəhd göstərmişdir. Kuti tayfalarının Mesopotomiyaya müdaxiləsi Sarqonun nəvəsi Naram-Suenin (e.ə.2236-2200) dövründə başlamışdır. Şumer dövlətindən şimala, Zaqros dağları və Urmiya gölü ətrafı ərazilərdə yaşayırdılar. Qədim Şərq dövlətlərini araşdıran zaman arxeoloji qazıntılar əsas rol oynamışdır. Akkad dövlətinin zəifləməsində Zaqros dağları ərazilərdə məskunlaşmış Kutilərin və Lullubilərin rolu olmuşdur. (Mario Liverani, 2014). İraqın Raniyə şəhərindən 8 km cənub-şərqdə Tel-Şamşara (qədim Şuşarra) ərazisində qazıntılar zamanı Aşşur dövrünə aid (e.ə.XIX-XVIII əsrlər) çox sayda gil tabletlərdə Urmiya gölü hövzəsində baş verən hərbi-siyasi hadisələrdə Qədim Şərqin ilk dövlətləri və bölgədə məskunlaşan tayfaların- kuti, lullubilərin qarşılıqlı əlaqələri əks olunmuşdur. Lullubi şəhər-dövlətinin əhalisi akkad mənbələrində "umman-manda" toplumu kimi də xatırlanır. "Kuta əfsanəsi" adı ilə tanınan ədəbi əsərin Qədim Babil nüsxəsində Naram-Suenə qarşı fəaliyyət göstərən jərbi koalisiyanın tərkibində "umman manda" birliyinin hökmdarı Anubanin, onun zövcəsi Melili və yeddi oğlu xatırlanır. Naram-Suenin hakimiyyəti dövründə ona qarşı böyük üsyan olur. Gil lövhələrdə həkk olunan hökmdar yazılarında üsyancılar arasında Gutium ölkəsinin sakininin də adı çəkilir. "Gula-an və on yeddi hökmdar Naram-Suenə qarşı" adlı bu yazılarda üsyan edən hökmdar adları qeyd edilir. Bu sətirlərin bir çoxu fraqmentlər şəkilində qaldığı üçün tam oxuna bilmir. İlk münaqişə Naram-Suen və onun Menqi və Naqu adlı iki düşməni və Kuti hökmdarı Qula-An arasında yaşanır. İlk rəqibləri Naram-Suen tərəfindən Akkad dövlətinə aparılır. Qula-Anın Naram-Suen qüvvələri üzərində qələbə yürüşündən qayıdışını bildirən sətirlərə rast gəlinir bu yazılarda. Bu hadisələr Puzur-Ulmas və Riş-Zababa adlı Akkad hökmdarlarını da narahat edir (Legends of the Kings of Akkade, 1997). E.ə.2130-2109-cu illəri qutilərin Cənubi Mesopotamiyada ağalığının "qızıl çağı" adlandırmaq olar. Məhz həmin dövrdən innovativ nailiyyətlərin tətbiqi nəticəsində Şumer şəhərlərinin təsərrüfat həyatında canlanma müşahidə olunur. Təsərrüfat hesabatlarının dəqiqliyini və operativliyini təmin etmək məqsədilə sənədlərdə uçot əməliyyatlarının ilini, ayını və gününü göstərməyə başlayırlar. İlkin hesablamalara görə 175 belə sənəd məlumdur. Lakin müxtəlif nəşrlərə səpələnmiş bu sənədlərin toplanması və tədqiqi tam mümkün olmayıb.

Elam hökmdarı Kutik-İnşuşinak (e.ə.2240-2220) kuti hücumlarına qarşı Akkad ilə müttəfiq idi. Kuti hökmdarları İmta (e.ə.2204-2197) və İnqeşauş (e.ə.2198-2192) İkiçayarasına daha müntəzəm yürüşlər edirdilər. Urmiya gölü hövzəsinə yürüş edən Kutik-İnşuşinakın "Qələbə kitabəsi"ndə xatırlanan La-lu-uh toponimi lullubilərin yaşadığı arealın hurri adı kimi qəbul oluna bilər. Nuzi şəhərində (indiki İraqda Yorğan-təpə) məskunlaşan hurrilər lullubiləri, əsasən nulu (və ya nullu) formasında ifadə edirdilər. Qədim Akkad dövlətinin Mesopotamia sərhədləri Dəclə çayının şərq

əraziləri Suzdan Nuzi (Qasur) şəhərinə kimi idi (A.Leo Oppenheim, 1964). Dəclə və Fərat çaylarından yuxarıda "Su adamları" adlanan toplum yaşayırdı. Qərb alimləri Şumer-Akkad sözlərindəki abreviatur yazılışlara verilən izahlardan çıxış edərək SU mixi işarəsi ilə ifadə olunan loqosu Dəclə və Fərat çaylarının yuxarı axarındakı məkanı və onun qeyri-sami mənşəli sakinlərini bildirən etno coğrafi loqoqramları ilə ifadə olunan bu termin Aşşur-Babil kitabələrində "Subartu" və ya "Şubaru" adlanırdı. E.ə. II minilliyin I yarısından mixi yazılı mənbələrdə Subartu adlanan məkanın sakinlərinə "hurri" etnonimi şamil olunmağa başlayır. Het mətnlərində lullubilərin vətəni "Lulahhu" kimi xatırlanır. Burada -hh- suffiksi hurri mənşəlidir və güman olunur ki, hetlərin lullubilərlə tanışlığı onların arasındakı ərazilərdə məskunlaşan hurrilər vasitəsi ilə olmuşdur. Azərbaycan haqqında daha ətraflı məlumat verilən şərq mənbələri Aşşur və Urartu yazılarından ibarətdir ki, bu da Şumer yazılarından sonrakı dövrlərə (e.ə.IX-VIII əsrlər) aid mənbələrdir. Təqdim olunan tezisin tədqiqat obyekti ilk mənbələr olduğu üçün Şumer mətnlərinin Azərbaycanla bağlı məlumatlarına üstünlük verilmişdir. Mövzunun aktuallığı ondan ibarətdir ki, Azərbaycanın dövlətçilik tarixinin qədim köklərə malik olmasını qədim şərq yazıları sübut edir. Bu torpaqlar dünyada ilk dövlətlərin beynəlxalq əlaqələr sistemində təmsil olunmuşdur. Mixi yazıların oxunmasına kimi olan dövrdə ilk məlumatlar yalnız antik müəlliflərin əsərlərinə əsaslanırdı. XIX yüzilliyin sonlarında Şumer mətnləri ilk dəfə A. Amyo və E. Şrader tərəfindən oxundu. 1905-ci ildə F. Türo-Danjen də qədim şərq mətnlərini tərcümə edir. Şumer dili haqqında ilk elmi əsər 1873-cü ildə F.Lenorman tərəfindən yazıldı. Şumer şəhər dövlətlərinin işğalında və Akkad dövlətinin zəifləməsində lullubi və quti tayfalarının yaxınlaşmasının da rolu var idi. Bu hərbi-siyasi birlik arasında ayrılıq e.ə.XXII əsrin ortalarına təsadüf edir. Kuti hökmdarı Erridupizirin hökmdar yazılarına əsasən öyrənilir ki lullubi mənşəli İnima-Nişba adlı Simurru şahlığının hökmdarı kutilərə qarşı üsyan qaldırmışdır. Bu zaman ona Lullubum və Urbilum (müasir İraqda Ərbil şəhəri) hakimləri də kömək etmişdir (Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr, 2014). E.ə. XXII əsrin əvəllərində kuti və lullubilər Mesopotamiyanın cənubuna müdaxilə edərək zəngin Şumer şəhərlərini ələ keçirmək üçün bu ərazilərə hərbi müdaxilə edirlər. Kutilərə qarşı Şarkalışarri adlı Akkad hökmdarı qələbələr qazansa da kutilərin bu ərazilərdə möhkəmlənməsinin qarşısını ala bilmədi. Akkad sülaləsinin hakimiyyətinə son qoyuldu və e.ə. 2159-cu ildə Şumerin şimal torpaqları kuti tayfalarının əlinə keçdi.

Sonuncu Kuti çarı Tirikana qarşı e.ə. 2009-cu ildə Uruk və Ur şəhərinin sakinləri üsyan qaldırdı. Uruk hökmdarı Utuhegala (e.ə.2119-2112) həsr olunmuş kitabədə bu hadisəyə dair məlumat tapılmışdır. Kitabədə kutilər ilahi qanunları pozmaqda ittiham olunurlar. Kitabə kuti hökmdarı Tirikanın qüvvələrini Dəclə çayının sahillərinə yerləşdirməsini, suvarma kanallarını necə bağladığını və yolların keçilməsini çətinləşdirdiyini təsvir edir. Həmçinin Utuhegal ordusunun Urukdan yürüşə başlamasını, müxtəlif Şumer şəhərlərində düşərgə qurduğundan bəhs olunur (46-76 sətirlər). Bundan xəbər tutan Tirikan öz nümayəndələrini Utuhegalın yanına göndərir. Müqavimət göstərə bilməyən Tirikan döyüş Dabrum şəhərinə gələrək döyüş meydanını tərk edir. Şəhər sakinləri Tirikanı qanuni hökmdar qəbul etməyərək onu ailəsi ilə birlikdə Utuhegalın göndərdiyi elçiyə verirlər.

Çox güman ki məğlubiyyətdən sonra kutilər Şumer şəhərlərində qaldılar, buna baxmayaraq öz etnik xüsusiyyətlərini qoruya bildilər.

Akkad Hökmdarı Şamsi-Adad (e.ə. 1808–1776) öz hakimiyyətini ətraf ərazilərdə möhkəmləndirən zaman Zaqros dağlarının sakinləri ilə, xüsusi ilə turrukkularla mübarizə aparmalı oldu. Bu baxımdan Şuşarra şəhəri (Tell-Şamşara) Akkada təhlükə yaradan turrukilərə qarşı hərbi istehkam məntəqəsi rolunu oynayırdı. Eyni zamanda bu şəhər turkukkular və akkadlılar arasında iqtisadi mübadilə mərkəzi idi. (Mario Liverani, 2014). (Raniyə və Uşnu-Sulduz düzənliklərində məskunlaşan turukkular haqqında məlumatlar müasir Tell-Həriri və indiki Təll-Şemşara şəhərlərinin arxeoloji qazıntılar zamanı tapılan daş kitabələrdə qalıb. Akkad hökmdarları Turukkuların məskunlaşdığı bölgələrə maraq göstərirdi. E.ə. XVIII əsrdə tərtib olunmuş coğrafi yer adlarının siyahısında I Sarqon zamanında Akkad dövlətinin sərhədləri verilərkən Turukku ölkəsi də xatırlanır. Raniyə düzündə aparılan arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki bu ərazilər III Ur sülaləsi dövründə şumerlilərin nəzarətində idi. Bunu tapılan artefaktlar göstərir. III Ur-Şumer dövlətinin sonuncu nümayəndəsi İbbi-Suenin möhürü turukkuların məskunlaşdığı ərazidən tapılmışdır.

TƏDQİQAT METODU

Əsas tədqiqat metodu mövzu haqqında yazılmış əsərlərin müqayisəli təhlilidir.

NƏTİCƏ

Azərbaycanın tarixi ərazilərində məskunlaşmış etnik tayfalar hələ yazıya qədərki dövrlərdə sivilizasiyanın başlanğıcı sayılan İkiçayarasının sakinləri ilə sıx əlaqələr yarada bilmişlər. İkiçayarasının Xələf, Xassuna, Ubeyd, Uruk kimi Eneolit mədəniyyətlərinə məxsus xüsusiyyətlər Urmiya gölü hövzəsinə, oradan da Naxçıvan və Qarabağa yayılmışdır. Bölgənin əlverişli coğrafiyaya sahib olması Mesopotamiya sakinlərinin Urmiya ətrafı ərazilərə olan marağına səbəb idi. Cənubi Mesopotamiyada yazının meydana gəlməsi ilk dövrlərdə təsərrüfat mətnlərinin qeydə alınmasına imkan yaratdı. Mesopotamiya ilə Aratta arasında aparılan mübadilə əməliyyatları da qeydə alınırdı. Qeyd edək ki e.ə. IV minilliyin sonuna aid Uruk şəhərində tərtib olunmuş gil tabletdə Aratta şəhərinin kahini xatırlanır. Uruk sülaləsinin tarixdə güclü hökmdar kimi xatırlanan ilk nümayəndəsi hökmdar Meskiageşdir. Onu izləyən hökmdar Enmerkar həm Uruk şəhərinin yaradıcısı həm də Xəzər dənizi yaxınlığında yerləşməsi güman edilən Arattaya ilk səfər edən hökmdar kimi xatırlanır. (Köroğlu, 2006). Çox güman ki Aratta-Mesopotamiya əlaqələri Azərbaycanın tarixi cənub torpaqlarını da əhatə edirdi. Şumer dövrü mixi yazı kitabələrindən deyə bilərik ki xammal ticarəti ilə bağlı olaraq Mesopotamiya və Aratta arasında iqtisadi, mədəni əlaqələr yaradılmışdır. Şumerli tacirlər Arattaya gəlmək üçün Mesopotamiya sakinləri lullubi tayfalarının məskunlaşdığı Zamua ölkəsindən keçirdilər. Mesopotamiya xalqları ilə hərtərəfli əlaqələrin davam etdirilməsində başqa ərazilərdən köç edən tayfaların da rolu olmuşdur. Azərbaycan ərazisi müxtəlif xalqların miqrasiyasının təşkil etdiyi əsas coğrafi arealda yerləşirdi. Arxeoloji və yazılı qaynaqlara əsasən çox güman ki ilk miqrasiya Kür-Araz mədəniyyətinin daşıyıcılarına aiddir. Kür-Araz mədəniyyəti daşıyıcılarının ("umman manda", yəni "kimliyi bilinməyən toplum") Urmiya hövzəsinin cənubuna köç etmişlər. Bu mədəniyyətin daşıyıcılarının bölgədə güclənməsi Aratta şəhər-dövlərinin süqutuna zəmin yaratmışdır. E.ə. XXIII əsrdə Akkad hökmdarı I Sarqon Şumer şəhərləri arasında liderliyi ələ alaraq Mesopotamiyada ilk imperiya yaradılır. Bu dövrdən başlayaraq Azərbaycanın qədim sakinlərinin Akkad tayfaları ilə beynəlxalq əlaqələrinə dair məlumatlar vardır. Bu əlaqələr bəzən iqtisadi, bəzən də hərbi qarşıdurmalar şəklində baş vermişdir. Şumer-Akkad mixi yazılı kitabələri bizə Urmiya gölü hövzəsində yaşayan yerli tayfalar haqqında qısa da olsa məlumat verir. Azərbaycanda mövcud olmuş dövlətlərin beynəlxalq münasibətlərinə dair haqqında daha ətraflı məlumat verilən şərq mənbələri Aşşur və Urartu yazılarından ibarətdir ki, bu da Şumer yazılarından sonrakı dövrlərə (e.ə.IX-VIII əsrlər) aid mənbələrdir. Mövzunun aktuallığı ondan ibarətdir ki, Azərbaycanın dövlətçilik tarixinin qədim köklərə malik olmasını qədim şərq yazıları sübut edir. Bu torpaqlar dünyada ilk dövlətlərin beynəlxalq əlaqələr sistemində təmsil olunmuşdur. Mixi yazıların sirri aşkar edilməyənə kimi olan ən qədim mənbələr antik müəlliflərin əsərləri hesab olunurdu. XIX əsrin sonlarında Şumer mətnləri ilk dəfə A. Amyo və E. Şrader tərəfindən oxundu. 1905-ci ildə F. Türo-Danjen də qədim şərq mətnlərini tərcümə etdi. Şumer dili haqqında ilk elmi əsər 1873-cü ildə F.Lenorman tərəfindən yazıldı.

ƏDƏBİYYAT

1. Əlimirzəyev A. (2011). Azərbaycan diplomatiyasının miladdan öncəki tarixindən. AMEA Tarix İnstitutu, Elmi əsərlər 36-37-ci cildlər, 12-19.

2. Əlimirzəyev A. (2020). Azərbaycanın ilk hərbiçi qadınları mixi yazılarda Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, 2020, № 1, 28-33.

3. Əlimirzəyev A. (2017). Lullubilərin və Qutilərin etnik adlarına dair. Tarix, İnsan və Cəmiyyət, 4 (19), 86-93.

4. Əlimirzəyev A. (2017). "Su adamları" və Simaşki dövlətinin Azərbaycan tarixində yeri. Bakı Dövlət Universiteti. İlahiyyat fakültəsinin elmi məcmuəsi, 75-87.

5. Mirzəyev M. (2003). Qədim Azərbaycan-Mesopotamiya əlaqələrinə dair (Mesopotamiyada kuti hakimiyyətinin başlanğıcından III Ur sülaləsinin süqutuna qədər), 5-13.

ERMƏNİSTAN DÖVLƏTİNİN İSRAİL-FƏLƏSTİN MÜHARİBƏSİNƏ(2023) MÜNASİBƏTİ

ZEYNƏB ALLAHVERDİYEVA
AMEA.Qafqazşünaslıq institutu
kiçik elmi işçi
zeyneb-allahverdiyeva-00@mail.ru
BAKI,AZƏRBAYCAN

XÜLASƏ

Tədqiqat işində Ermənistan dövlətinin hal-hazırda Yaxın Şərq regionunda davam etməkdə olan İsrail-Fələstin müharibəsi ilə bağlı mövqeyi və münasibəti öz əksini tapmışdır. Dünyanın ən önəmli və qaynar iki regionu məhz ölkəmizində yerləşdiyi Cənubi Qafqaz regionu və Yaxın Şərq regionu hesab edilir. Hal-hazırda davam edən İsrail-Fələstin müharibəsi və bu münaqişənin uzun illər əvvələ dayanan tarixi,eləcədə tarix boyu Cənubi Qafqazda böyük güclərin maraqlarının toqquşması, həmçinin bu coğrafiyada baş verən etnik ziddiyyətlər və bu ziddiyyətlər nəticəsində yaranan münaqişə və müharibələr hər iki regionun dünya geosiyasətində önəmini artıran əsas amillərdəndir. Məhz bu amillər də Cənubi Qafqaz regionu ölkələrindən olan Ermənistanın Yaxın Şərq regionunun iki əsas ölkəsi olan İsrail və Fələstin ilə münasibətlərinin araşdırılmasını zəruri edir. Xüsusən son zamanlarda dünya siyasi səhnəsində baş verən hadisələr kontekstində Ermənistan dövlətinin İsrail-Fələstin münaqişəsinə münasibətinin araşdırılması tədqiqat işinin aktuallığını təşkil edir. Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardır:

- Ermənistan-İsrail və Ermənistan-Fələstin münasibətlərinin tədqiqi.
- Ermənistan dövlətinin İsrail-Fələstin münaqişəsi ilə bağlı rəsmi mövqeyinin araşdırılması.
- Ermənistan ictimaiyyətinin İsrail-Fələstin münaqişəsinə münasibətinin tədqiq olunması.

Tədqiqat işinin əsas məqsədini dünya siyasətində baş verən proseslər fonunda Ermənistan dövlətinin İsrail və Fələstin dövlətləri ilə tarixdən günümüzə qədər olan münasibətlərinin qısa təhlili və hal-hazırda davam etməkdə olan İsrail-Fələstin müharibəsinə Ermənistan dövlətinin münasibətinin tədqiq olunması təşkil edir. Tədqiqat işindən əldə olunan nəticəyə görə Ermənistan dövlətini davam etməkdə olan İsrail-Fələstin münaqişəsi ilə bağlı narahat edən əsas məqam bu müharibənin Cənubi Qafqaza sıçramasıdır.

AÇAR SÖZLƏR: ERMƏNİSTAN, İSRAİL, FƏLƏSTİN
KEYWORDS: ARMENIA, ISRAEL, PALESTİNE

GİRİŞ

Tədqiqat işində Ermənistan dövlətinin hal-hazırda Yaxın Şərq regionunda davam etməkdə olan İsrail-Fələstin müharibəsi ilə bağlı mövqeyi və münasibəti öz əksini tapmışdır.Dünyanın ən önəmli və qaynar iki regionu məhz ölkəmizin də yerləşdiyi Cənubi Qafqaz regionu və Yaxın Şərq regionu hesab edilir. Uzun illərdi ki hər iki regionda münaqişələr və müharibələr səngimir. Hal-hazırda davam edən İsrail-Fələstin müharibəsi və bu münaqişənin uzun illər əvvələ dayanan tarixi, eləcədə tarix boyu Cənubi Qafqazda böyük güclərin maraqlarının toqquşması, həmçinin bu coğrafiyada baş verən etnik ziddiyyətlər və bu ziddiyyətlər nəticəsində yaranan münaqişə və müharibələr hər iki regionun dünya geosiyasətində önəmini artıran əsas amillərdəndir. Məhz bu amillər də Cənubi Qafqaz regionu ölkələrindən olan Ermənistanın Yaxın Şərq regionunun iki əsas ölkəsi olan İsrail və Fələstin ilə münasibətlərinin araşdırılmasını zəruri edir. Xüsusən son zamanlarda dünya siyasi səhnəsində baş verən hadisələr kontekstində Ermənistan dövlətinin İsrail-Fələstin müharibəsinə münasibətinin araşdırılması tədqiqat işinin aktuallığını təşkil edir.Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardır:

- Ermənistan-İsrail və Ermənistan-Fələstin münasibətlərinin tədqiqi.
- Ermənistan dövlətinin İsrail-Fələstin münaqişəsi ilə bağlı rəsmi mövqeyinin araşdırılması.
- Ermənistan ictimaiyyətinin İsrail-Fələstin münaqişəsinə münasibətinin tədqiq olunması.

Tədqiqat işinin əsas məqsədini dünya siyasətində baş verən proseslər fonunda Ermənistan dövlətinin İsrail və Fələstin dövlətləri ilə tarixdən günümüzə qədər olan münasibətlərinin qısa təhlili və hal-hazırda davam etməkdə olan İsrail-Fələstin müharibəsinə Ermənistan dövlətinin münasibətinin

tədqiq olunması təşkil edir. Tədqiqat işindən əldə olunan nəticəyə görə Ermənistan dövlətini davam etməkdə olan İsrail-Fələstin münaqişəsi ilə bağlı narahat edən əsas məqam bu müharibənin Cənubi Qafqaza sıçramasıdır. Həmçinin bu müharibə ilə əlaqədar Ermənistan Hökumətinin sərgilədiyi bitərəf mövqeyinin əsas səbəbi olaraq son zamanlarda Ermənistan Hökumətinin ABŞ və Qərb blokuna daxil olan dövlətlər ilə həyata keçirdiyi aktiv xarici siyasət olması tədqiqat işində gəldiyimiz əsas nəticələrdir.

Tədqiqat işində azərbaycan, ingilis və erməni dilli mənbələrdən istifadə olunub.

Tədqiqat işi üç fəsil,bir yarım fəsildən ibarətdir.

I FƏSİL. ERMƏNİSTAN-İSRAİL MÜNASİBƏTLƏRİ

İlk öncə İsrail dövləti ilə Ermənistan Respublikası arasındakı münasibətləri şərtləndirən amilləri qeyd etmək olar. Bunlar içərisində geosiyasi, geoiqtisadi və coğrafi amilləri vurğulamaq lazımdır. İsrailin Cənubi Qafqaz ölkələri arasında ən az münasibət qurduğu ölkə Ermənistandır və bu iki ölkə arasındakı münasibətlərin elə bir xüsusi cəhəti yoxdur. Belə ki, 1992-ci ilin aprelində İsrail ilə Gürcüstan arasında diplomatik münasibətlər qurulur. Bundan sonra mənzil-qərargahı Tbilisidə olan İsrail dövlətinin Gürcüstandakı səfirliyi Ermənistan üzrədə səlahiyyətli hesab edilir. Belə diplomatik təmsilcilik 2007-ci ilə qədər davam edir. 1995-ci ilin fevralında Ermənistan prezidenti Levon Ter-Petrosyan İsrailə səfər etmişdi. Bu hadisədən sonra Ermənistan müəyyən addımlar atmaqla İsrail ilə əlaqələri gücləndirməyə çalışmış, 1996-cı ildə Çolak Momjyan Ermənistanın Qüdsdəki fəxri konsulu təyin edilmişdi. Levon Ter-Petrosyandan sonra Ermənistanda hakimiyyətə gələn Robert Köçəryan isə 2000-ci ilin yanvarında İsrailə səfəri zamanı İsrailin Baş naziri Ehud Barak, Prezident Ezer Veyzman, Knesset sədri Avraham Burq, Daxili İşlər naziri Natan Şaranski və Qüds şəhərinin bələdiyyə başçısı Ehud Olmert ilə görüşlər keçirmişdi. Yanvarın 19-da iki ölkə arasında İsrail kapitalının Ermənistanın daxili bazarına nüfuz etməsi və ikitərəfli iqtisadi əlaqələrin qurulması üçün təşviqini nəzərdə tutan "İnvestisiyaların qarşılıqlı stimullaşdırılması və qorunması haqqında" dövlətlərarası müqavilə imzalanmışdı (Oskanyan, 2012). 2017-ci ilin iyul ayında İsrailin Regional əməkdaşlıq naziri Tsaxi Anegbi İrəvanda Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri Eduard Nalbandyan ilə görüşmüş, tərəflər İsrail-Ermənistan münasibətlərinin vəziyyətini, beynəlxalq təşkilatlardakı əməkdaşlığı, ticarət-iqtisadi əlaqələrin gücləndirilməsi tədbirlərini və turizm potensialının reallaşdırılmasını müzakirə etmişdilər. Anegbi Ermənistanın mədəniyyət naziri Armen Amiryanla birlikdə 2017-2020-ci illər üçün elm, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq planını imzalamışdı (Aharon,2021). 2018-ci ildə "məxməri çevriliş" nəticəsində Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra Ermənistan İsrail ilə münasibətlərində daha real addımlar atmağa başladı. 2018-ci ildən sonra Ermənistanın İsrail ilə münasibətləri normallaşdırmaq cəhdlərinin əsas səbəblərindən biri rəsmi Vaşinqton ilə olan siyasi əlaqələr idi. Belə ki,erməni rəsmiləri İsrailin Vaşinqtonda siyasi qərarların qəbuluna ciddi təsir göstərdiyini nəzərə alaraq, Ermənistanın İsrail ilə münasibətlərinin Vaşinqtonla münasibətlərinə təsir göstərə biləcəyi qənaətində idilər. "Məxməri çevriliş" dən sonra 2019-cu ildə İsrail dövləti Eliav Belotserkovskini Ermənistana yeni fövqəladə və səlahiyyətli səfir təyin etdi. O, keçmiş SSRİ siyasi məkanını ən yaxşı bilən yəhudi diplomatlardan biri idi (Qasımlı,Kəlbizadə,Baxşıyeva, 2022). Belə ki,2019-cu ildə İsrailin "The Jerusalem Post" jurnalına müsahibə verən Ermənistanın o dövrki Xarici İşlər naziri Z.Mnatsakayan hər iki ölkə arasında diplomatik əlaqələrin qurulmasını və səfirliklərin açılmasının mümkünlüyünü vurğulamışdı. Hətta Z.Mnatsakayan hökumətin iclasında çıxış edərək bildirmişdi ki, Ermənistan Respublikası Xarici İşlər Nazirliyi uzun müddətdirki səfirliyin açılmasına hazırlaşır. Bu çıxışdan sonra 2020-ci ilin fevralın 25-də Ermənistanın o dövrki prezidenti Armen Sarkisyanın imzaladığı sərəncama əsasən,Ermənistanın diplomatik nümayəndəliyinin yeri İrəvandan Təl-Əvivə köçürülmüşdür (Simavoryan,Hovyan,Veranyan,2019). 2018-ci ildə Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra Ermənistanın İsrail ilə münasibətləri nizamlamaq üçün atdığı bu addımlar İran İslam Respublikasının narahatlıqlarını artırmış və bir çox addımların atılmasına səbəb olmuşdu. Beləki, bir qrup tələbənin 2020-ci il iyununda Ermənistanın Tehrandakı səfirliyi yaxınlığında etiraz aksiyası keçirməsi də bununla bağlı olmuşdu. Aksiya iştirakçıları Ermənistanın İsraildə səfirlik açmaq qərarına etirazlarını bildirmiş, bu qərara yenidən baxılması üçün çağırışlar etmişdilər. İran İslami Şura Məclisi sədrinin beynəlxalq məsələlər üzrə xüsusi köməkçisi Hüseyn Əmir-Abdollahian Ermənistanın İsraildə səfirlik açma qərarını qınamış və bunun Fələstin xalqının maraqlarına zidd olduğunu bildirmişdi (Kəlbizadə,2021).

Lakin 2020-ci ildə baş verən II Qarabağ müharibəsi və bu müharibədə İsrailin özünə tərəfdaş

hesab etdiyi Azərbaycanı dəstəkləməsi yenidən Ermənistanın İsrail ilə qurmaq isdədiyi diplomatik əlaqələri nisbətən gərginləşdirdi. Hətta həmin il oktyabrın 1-də Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinin sözçüsü Anna Naqdalyan çıxışında "Bütün beynəlxalq ictimaiyyət Azərbaycanı hərbi əməliyyatları dayandırmağa çağıranda İsrail tərəfi Azərbaycana silah tədarükünü davam etdirir" deyə qeyd etmişdi. 2020-ci ildə gərginləşən Ermənistan-İsrail münasibətlərindən sonra 2021-ci ilin dekabrında Arman Hakopyan Ermənistan Respublikasının İsraildəki səfiri təyin edilmişdir və hal hazırda da səfir səlahiyyətlərini icra edir. 2022-ci ilin iyun ayında isə İsrailin Ermənistana təyin olunmuş yeni səfiri Yoel Lyon öz etimadnaməsini Ermənistan prezidentinə təqdim etmişdir.

Ümumiləşdirərək qeyd edə bilərik ki, bu gün Ermənistan-İsrail münasibətlərində əsas geosiyasi məqam Ermənistanın İran ilə və Azərbaycanın İsrail ilə olan siyasi və iqtisadi yaxınlığıdır. Həmçinin iqtisadi baxımdan da zəif olan Ermənistanın İsrailə heç nə vəd edə bilməməsidə bu münasibətlərin artan xətt üzrə inkişafına təsir göstərir.

1.1 ERMƏNİSTANDA ANTİSEMİTİZM

Həmçinin Ermənistanda mövcud olan antisemitizm də Ermənistan-İsrail münasibətlərinə öz təsirini göstərir. Belə ki, tarixən Ermənistanda antisemitizm mövcud olmuşdur. Xüsusən Ermənistan müstəqillik əldə etdikdən sonra ölkədə yəhudilərin təcrid siyasəti açıq-aydın şəkildə özünü göstərməyə başlamışdı. Ermənistan müstəqilliyini elan etdikdən sonrakı illərdə bir sıra səbəblərdən 1989-cu ildə 1246 yəhudi, 1992-1994-cü illərdə 6000-dən çox yəhudi Ermənistandan köçmüş və İsrailə geri dönmüşdür.

Yəhudilərə qarşı aparılan bu siyasət "antisemitizm" adlandırılır.Antisemitizm-millətçilik, irqçilik ideologiyasının bir növüdür.Digər millətçilik formalarından fərqi onun yalnız bir xalqa-yəhudi millətinə və mədəniyyətinə qarşı nifrət bəsləməsi və onları təqib etməsidir. Belə ki, Ermənistanda antisemitizm dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Ermənistanda antisemitizm 3 səviyyədə mövcuddur:

- Erməni cəmiyyəti arasında mövcud olan antisemitizm;
- Hakimiyyət və siyasətçilər tərəfindən dəstəklənən antisemitizm;
- KİV vasitəsilə təbliğ olunan antisemitizm (Əzimzadə,2020).

Belə bir sual meydana çıxır: erməni cəmiyyətindəki yəhudi azlığa qarşı bu nifrətin səbəbi nə ilə əlaqədardır? əslində, bu, ermənilərin etnopsixoloji xüsusiyyətləri ilə əlaqədardır.Lakin bu problemin ikinci bir səbəbi isə bəzi tarixçilər tərəfindən iddia edilən avantürist fikirlərdir.Tarixi sübutlarla dəstəklənməyən bu nəzəriyyənin iddialarına görə, uydurma "erməni soyqırımı"nda Osmanlı yəhudiləri iştirak etmiş və Osmanlı əsgərlərinə dəstək olmuşlar. Nəticədə isə bu saxta iddialar bütün erməni xalqı,siyasətçiləri tərəfindən mənimsənilmişdir. Lakin bu iddialar reallığı əks etdirmir.

Ermənistanda antisemitizm yalnız xalq tərəfindən deyil, hakimiyyət və siyasətçilər tərəfindən də dəstəklənir. Erməni millətçiləri ötən bir neçə il ərzində mətbuatda antiyəhudi şərhlər yaymaqla daha da aktivləşmişlər. Ermənistan Ari Birliyi Partiyasının keçmiş lideri, millətçi Armen Avetissiyan İsrailin "erməni soyqırımı"nı qəbul etməməsini bəhanə edərək, Ermənistandakı İsrail səfiri Rivka Cohenin ölkə üzrə arzuolunmaz şəxs elan edilməsi çağırışını etmişdi. Bununla kifayətlənməyən Avetissiyan "Yerevanq" qəzetində antisemit məqaləsini dərc etdirmişdi. Məqalədə yazılırdı: "Yəhudi azlığına malik olan hər bir ölkənin sabitliyində böyük təhlükə yaranır" (Əzimzadə,2020). Baş verən bütün hadisələrə rəğmən Ermənistan Hökuməti hələ də ölkədə antisemitizmin olmadığını iddia edir. Ermənistandakı Yəhudi İcmasının sədri Rima Varjapetyan öz çıxışında "Ermənistanda antisemitizm yoxdur.Yəhudiliklə əlaqədar heç bir problem yoxdur" açıqlamasını versə də,antisemitizm Ermənistanda reallıqdır. 2018-ci ilin martın 28-də "PEW" Araşdırma Mərkəzi tərəfindən açıqlanan məlumatda Şərqi Avropanın 18 ölkəsi arasında Ermənistan yəhudilərə qarşı ən az tolerant olan ölkə seçilmişdi.Digər ölkələrə nisbətən burda antisemitizm 32%-dir ki, bu, çox böyük bir göstəricidir (Əzimzadə, 2020).

Beləliklə, qeyd edə bilər ki, əgər Ermənistan dövləti İsrail ilə münasibətləri normallaşdırmaq isdəyirsə, ilk öncə ölkə daxilində mövcud olan antisemitizmə qarşı mübarizə aparmalıdır.

II FƏSİL.ERMƏNİSTAN-FƏLƏSTİN MÜNASİBƏTLƏRİ

Dövlətlərin bir-birlərinə qarşı münasibətləri rəsmi açıqlamalar və aktlarla müəyyən olunur. Fələstin xalqının beynəlxalq səviyyədə rəsmi təmsilçisi Fələstin Hökumətidir. Ermənistan Respublikası və Fələstin Hökuməti arasındakı münasibətlərə gəldikdə isə çoxlarının düşündüyünün əksinə olaraq hal-hazırda bu iki dövlət arasında rəsmi diplomatik əlaqələr yoxdur. Çünki nə Ermənistan Respublikası, nə də Fələstin Hökuməti bir-birinin müstəqilliyini tanımayıb və diplomatik əlaqələr qurmayıb. Azərbaycandan fərqli olaraq Ermənistanın Fələstin ilə rəsmi münasibətləri yoxdur, hər iki tərəf bir birini suveren dövlət olaraq tanımır. Lakin Fələstinin Azərbaycanda səfirliyi mövcuddur, Azərbaycanın isə Fələstində diplomatik nümayəndəliyi fəaliyyət göstərir. Fələstinin Azərbaycana qarşı Ermənistanı dəstəkləməsi ilə bağlıda hər hansı rəsmi mövqe yoxdur. Əksinə Fələstin Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. Bu barədə Fələstin Hökumətinin rəsmi mövqeyidə var. Belə ki, 2009-cu ildə Fələstinin Xarici İşlər naziri Riyad əl-Maliki Ermənistanın işğalı altında olan torpaqların Azərbaycana aid olduğunu bildirmişdi. 2011-ci ildə prezident İlham Əliyev ilə görüşündə Fələstin prezidenti Mahmud Abbas "hər iki dövlətin ortaq problemlərinin olduğunu, Azərbaycanın da işğaldan əziyyət çəkdiyini və işğal faktı ilə bağlı müvafiq BMT qətnamələrinin yerinə yetirilmədiyini" deyib. 2023-cü ildə prezident İlham Əliyev ilə görüşündə isə Riyad əl-Maliki Azərbaycanı torpaqlarını işğaldan azad etməsi münasibəti ilə təbrik etmişdi (Harşberqer, 2023). Bundan əlavə, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstin və Azərbaycan bir birlərinin mövqeyini dəstəkləyir.Fələstinin Azərbaycandakı səfirliyidə açıqlamasında bildirib ki, "Fələstin bütün beynəlxalq təşkilatlarda və forumlarda Azərbaycanla koordinasiyadadır və onunla əməkdaşlıq edir."

Ermənistan-Fələstin münasibətlərində ermənilərin ən çox istinad etdiyi şəxs Fələstin Azadlıq Təşkilatının mərhum lideri Yasir Ərəfatdır. Belə ki, 2000-ci ildə Yasir Ərəfat bir fikir səsləndirib. O, çıxışlarının birində deyib: "Biz və ermənilər bir xalqıq". O, bu fikirləri 2000-ci ildə İsrail ilə Kemp-Devid danışıqlarından sonra Fələstinin Yerusəlimdəki erməni kvartalının İsrailin idarəçiliyinə verilməsinə razılaşması haqda iddialara cavab olaraq deyib. Belə ki, hazırda İsrail işğalı altında olan Şərqi Yerusəlimin Qədim Şəhər adlanan hissəsində Yəhudi, Xristian, Erməni və Müsəlman kvartalları mövcuddur və bu ərazidə 2000 nəfərlik erməni icması yaşayır. 2000-ci ildə keçirilən Kemp Devid Sammitində ABŞ prezidenti Bill Klinton yəhudi və erməni kvartallarının İsrailin nəzarətinə verilməsini, fələstinlilərə isə xristian və müsəlman kvartalları üzərində "müəyyən dərəcədə suverenlik" haqqının tanınmasını təklif etmişdi. Ərəfat "Əl-Əyyam" və "Əl-Həyat" qəzetlərinə açıqlamasında erməni kvartalının İsrailin idarəçiliyinə keçməsi ilə razılaşmayacaqlarını nəzərdə tutaraq qeyd etmişdi: "Erməni məhəlləsi bizə məxsusdur, biz və ermənilər bir xalqıq" (Melkonyan, 2016). Əlavə olaraq onuda qeyd edək ki, Ərəfatın ən çox istifadə olunan ləqəbi "Fələstin tülküsü" olub. O, bu ləqəbi öz mövqelərini möhkəmləndirmək üçün müxtəlif qrupların və güc mərkəzlərinin maraqları arasında manevr etmək bacarığına görə alıb. Sadə dillə desək, Yasir Ərəfat ehtiyacı olanda ermənilərə "qardaş" da deyirdi.

Ermənistan-Fələstin münasibətlərinə gəldikdə isə, əvvəldə qeyd etdiyimiz kimi bu iki ölkə arasında rəsmi diplomatik əlaqələr yoxdur. Lakin hər iki ölkənin mənbələrində və hətta bəzi diplomatlarının çıxışlarında diqqət çəkən məqamlar mövcuddur. Məsələn 2012-ci ildə BMT-də keçirilən səsvermə zamanı Azərbaycanla yanaşı, Ermənistan da Fələstinə müşahidəçi statusunun verilməsinə dair qətnamənin lehinə səs verib. Bu mövqeyinə görə Mahmud Abbas 2013-cü ildə Fələstində yaşayan ermənilərin yeni il tədbiri zamanı Ermənistana təşəkkürünü bildirib. Həmçinin 2021-ci ilin dekabrında Fələstinin Kilsə İşləri üzrə Ali Prezident Komitəsinin sədri Muin Ellias Yusif Xurinin rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistana işgüzar səfər etmiş və İrəvanda yüksək səviyyəli görüşlər keçirmişdir. Muin Ellias Yusif Xurinin Ermənistanın o dövrki prezidenti Armen Sarkisyan və Ermənistanın Xarici İşlər naziri Ararat Mirzoyan ilədə görüşü baş tutmuşdu. Həmçinin Yusif Xurin erməni soyqırımı memorialını ziyarət etmiş və qonaqlar üçün olan xatirə kitabına ürək sözlərini yazmışdı (Yerqanyan, 2021).

Ermənilərin Fələstində özlərinə dəstəkçilər tapa bilmələrinin və hətta bəzi Fələstin rəsmilərinin ermənilər dəstəkləməsinin bir sıra səbəbləri var. Birinci səbəb odur ki, dünyanın hər yerinə yayılan ermənilər Fələstində də məskunlaşıblar. Fələstində böyük erməni məhəllələri var ki, siyasətçilər əsasən seçkilər zamanı onların dəstəyini almağa çalışırlar. Bunun üçündə bəzən onları məmnun edən açıqlamalarla çıxış etməli olurlar. İkincisi, Fələstin diplomatları arasında erməni əsilli şəxslərə rast gəlmək mümkündür. Məsələn, "Sputnik Armenia"-da bu mövzuya həsr olunan məqalədə bir çox

məqamlara toxunulur ki, bunlardan biri də Fələstinin erməni əsilli diplomatları ilə bağlıdır. Məsələn həmin məqalədə Manuel Xassasyanın adı qeyd olunur. O, 2005-2018-ci illərdə Fələstinin İngiltərədəki səfiri kimi fəaliyyət göstərib və erməni əsillidir. Bundan başqa Fələstinin Niderlanddakı keçmiş səfiri olmuş Avo Kaplanyan da erməni əsilli fələstinli diplomatdır. Bu nümunələrdən də göründüyü kimi ermənilərin Fələstin diplomatiyasında xüsusi yeri və rolu var. Və əlbətdəki Fələstin diplomatiyasında müəyyən rolu olan ermənilər Fələstin dövlətinin rəsmi mövqeyini əks etdirməsələrdə, lakin Fələstin ictimaiyyətində və siyasi həyatında onların aktiv iştirakınıda göz ardı etmək olmaz.

III FƏSİL. ERMƏNİSTAN DÖVLƏTİNİN İSRAİL-FƏLƏSTİN MÜHARİBƏSİNƏ(2023) MÜNASİBƏTİ

Müasir dövrün ən uzun müddətdi aktiv olan və hal-hazırda da davam edən münaqişəsi məhz İsrail-Fələstin münaqişəsidir. Bu münaqişənin tarixi isə 1947-ci ilə gedib çıxır. Beləki, BMT 1947-ci ilin noyabr ayında 181 saylı qətnamə qəbul edir. Həmin qətnaməyə əsasən Fələstin iki müstəqil dövlətə: Ərəb və Yəhudi dövlətlərinə bölünür və Qüds beynəlxalq status qazanır. Ərəb dövlətinə 11 min kv.m, Yəhudi dövlətinə isə 14 min kv.m ərazi ayrılmışdı. Rəqəmlərdəndə aydın şəkildə görmək olarki bu bölünmə ədalətsiz aparılmışdı. Daha sonra Ərəb dövlətləri BMT-nin qərarını rədd etdilər və əməl etməkdən boyun qaçırdılar. 1948-ci ildə isə İsrail dövlətinin qurucusu Ben Qurion İsrail dövlətinin yarandığını elan etdi. Bundan sonra beş ərəb dövləti Yəhudi dövlətini məhv etmək üçün Fələstinə öz qoşunlarını göndərdi. Bununlada ərəb dövlətlərinin məğlubiyyəti ilə nəticələnən birinci Ərəb-İsrail müharibəsi baş verdi. Bu ilk müharibə nəticəsində İsrail Fələstin torpaqlarının böyük bir hissəsini ələ keçirdi. Ümumiyyətlə bu münaqişəni tarixi baxımdan bir neçə mərhələyə bölmək olar. 1948-ci il Ərəb-İsrail müharibəsi (birinci müharibə), 1956-cı il Süveyş böhranı (ikinci müharibə), 1967 (7 günlük müharibə) və 1973-cü il Ərəb-İsrail müharibəsi,1982-ci il Livanda müharibə (beşinci müharibə), 90-cı illərdən artıq münaqişənin sülh yolu ilə nizama salınması mərhələsi başlıyır, lakin 2000-ci illərdən buyana davam edən toqquşmalar bəzən altıncı müharibə olaraq dəyərləndirilir (Abbasbəyli,2007).

İsrail-Fələstin münaqişəsində daimi münaqişəyaradan amillər var. Bu amillərə aşağıdakılar aiddir: 1.Qüdsün statusu, 2. Fələstin qaçqınları, 3. İsrail kəndləri, 4. Sərhəd məsələsi (Abbasbəyli, 2007). Bu dörd məsələnin tam şəkildə həll olunmaması müəyyən vaxtlarda silahlı toqquşmaların baş verməsinə səbəb olur.

Uzun illərdən sonra isə məhz bu ilin oktyabrında münaqişə yenidən alovlandı və şiddətli bir müharibəyə çevrildi. Beləki,oktyabrın 7-də Fələstinin Həmas silahlı qruplaşmasının yüzlərlə silahlısının Qəzza zolağı yaxınlığındakı ərazilərə sızması ilə İsrailə qarşı görünməmiş hücuma başlamışdı. Bu hücumdan sonra Təl-Əviv HƏMAS-a müharibə elan etmişdi. Oktyabrın 8-də İsrail rəsmən müharibənin başlandığını elan edib. Təl-Əviv bu antiterror savaşını "Dəmir qılınclar" adlandırıb. İsrail tərəfindən Qəzza zolağının blokadası oktyabrın 9-da başlayıb. Bu qərarı ölkənin Müdafiə Nazirliyi verib. "Mən Qəzza zolağının tam mühasirəyə alınmasını əmr etdim. Burada nə elektrik, nə yemək, nə yanacaq - heç bir şey olmayacaq" deyə İsrailin müdafiə naziri Yoav Qalant mətbuata açıqlamasında bildirib. Müdafiə Nazirliyi Qəzza zolağı ilə sərhəddə İsrailə aid bütün yaşayış məntəqələrinin tam nəzarət altına alındığını elan edib. Hazırda tərəflər arasında quru döyüşləri davam edir. Eyni zamanda hər iki tərəf bir-birinə qarşı raket və dronlar ilə hücumlar təşkil edir. Oktyabrın 27-də isə İsrail ordusu Qəzzada quru əməliyyatlarına başlayıb. Oktyabrın 7-də başlanan müharibəni digərlərindən fərqləndirən əsas cəhət odur ki, HƏMAS tərəfindən başladılan bu hücum daha geniş miqyaslı,daha ciddi və İsrailə ən çox zərər vuran hücum oldu.

Ümumiləşdirərək qeyd edə bilərik ki, hal-hazırda davam edən İsrail-Fələstin müharibəsinin nə zaman və hansı siyasi və hərbi nəticələr ilə bitəcəyini proqnozlaşdırmaq çətindir. Beynəlxalq münasibətlər sisteminin xüsusiyyəti elədirki dünyanın hər hansı bir coğrafiyasında baş verən proseslər geosiyasətə də təsir göstərir. Və siyasi ekspertlərin fikrincə,bu müharibənin ümumən dünya siyasəti üçün uzun müddətli nəticələri olacaq.

Yaxın Şərq regionunda baş verən bu müharibəyə Cənubi Qafqaz regionu ölkələrindən biri olan Ermənistanın mövqeyinin necə olmasıda siyasi ekspertlər tərəfindən maraqla izlənən mövzulardan biridir. Ermənistan Respublikası hələki baş nazir səviyyəsində bu müharibəyə münasibət bildirməyib. Müharibə başlayan gün yəni oktyabrın 7-də Ermənistan Xarici İşlər Nazirliyinin Mətbuat katibliyi məlumat yaydı. Məlumatda deyilirdi: "Həlak olanların yaxınlarına baş sağlığı verir və yaralananların

tezliklə sağalmasını arzulayırıq. Biz zorakılığı dayandırmaq üçün olan bütün beynəlxalq çağırışlara qoşuluruq". Ermənistanın İsrail-Fələstin müharibəsi ilə bağlı rəsmi mövqeyini bu ölkənin Xarici İşlər naziri çatdırıb. Beləki, bu ilin noyabrında Ermənistanın Xarici İşlər naziri Ararat Mirzoyanın Almaniyaya rəsmi səfəri baş tutmuşdu. Bu səfər çərçivəsində Almaniyanın Xarici İşlər naziri Annalena Berbok ilə birgə mətbuat konfransı zamanı jurnalistlərin suallarını cavablandıran nazir İsrail-Fələstin müharibəsinə də münasibət bildirmiş və tərəfləri dinc əhalini hədəf almamağa çağırmışdı. Beləki, Ararat Mirzoyan çıxışında: "Təəssüf ki, dünyanın müxtəlif yerlərində köhnə münaqişələr, müharibələr yenidən alovlanır. Bu, bizim üçün çox həssas məsələdir. Cəmi bir neçə həftə əvvəl biz də eyni hadisələrin şahidi olduq. Bütün hallarda biz mülki əhalini hədəf almamağa və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməyə, həmçinin tərəfləri hərbi əməliyyatları mümkün qədər tez dayandırmağa çağırırıq" deyə bildirib.

Davam edən müharibə ilə bağlı Erməni ictimaiyyətinin mövqeyi isə fərqlidir. Bəziləri Ermənistan dövlətinin dünyada baş verən siyasi proseslərə görə bitərəf mövqe tutmalı olduğunu, bəziləri isə tam şəkildə Fələstin dövlətini dəstəkləməli olduğunu müdafiə edir. Beləki, bəzi ermənilər hesab edirlər ki, İsrail müharibədə Azərbaycana dəstək verdiyi və birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdığı üçün bu müharibədə istisnasız olaraq Fələstinə dəstək göstərməlidirlər. Erməni mediasıda daha çox fələstinlilərin mövqeyini əks etdirən materiallar yayımlayır və bununlada İsrailə qarşı mənfi rəy yaratmağa çalışılır. Burda əlbətdəki Fələstindəki erməni icması, İsrailin Azərbaycanın strateji müttəfiqi olması, Fələstin Azadlıq Təşkilatının erməni terorçulara qucaq açmasıda rol oynayır. Lakin bəzi ermənilərin fikrincə burda HƏMAS istisnadır. Məhz bu məqam da ermənilərdə tərəddüd yaradıb. Mövzuya münasibət bildirən erməni tarixçisi,alim Sergey Melkonyan isə İsrail-Azərbaycan münasibətləri ilə Ermənistan-HƏMAS arasında olan münasibətləri müqayisə edib. Sergey Melkonyanın fikrincə Ermənistan dövləti İsrail-Fələstin müharibəsində heç bir tərəfi dəstəkləməməlidir. "Biz bu müharibədə heç kimi dəstəkləməli deyilik. İsrail Azərbaycanın əsas silah tədarükçüsüdür, yəni İsrail-Azərbaycan münasibətləri stratejidir" deyə Melkonyan qeyd edib. Həmçinin Melkonyan bu müharibənin tərəflərindən birinin HƏMAS olduğunu və Ermənistan d

dövlətinin HƏMAS-ı dəstəkləməməli olduğunuda vurğulayıb. "HƏMAS isə 10 noyabr 2020-ci ildə Azərbaycanı qələbə və torpaqlarının geri qaytarılması münasibəti ilə təbrik edib" deyə Melkonyan qeyd edib.Melkonyan xüsusi ilə bu müharibənin İsrail ilə Fələstin arasında deyil, İsrail ilə HƏMAS arasında getdiyinə diqqət çəkib. Sergey Melkonyan bu müharibə kontekstində Ermənistanın üç məsələyə diqqət yetirməli olduğunu vurğulayıb.

1. Müharibə zonasında olan ermənilərin Ermənistana təhlükəsiz şəkildə qayıtması.
2. Qüdsün erməni məhəlləsində təhlükəsizlik məsələsi və bunun müzakirəsi.
3. Baş vermiş müharibənin Cənubi Qafqaza təsiri və yaranmış vəziyyətdən istifadə etməyə çalışan Azərbaycanın sərhəddə təxribatlar törətmə riski (Melkonyan, 2023).

1. https://e-qanun.az/framework/41978 Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə. 15.04.2019

2. https://dost.gov.az/statistics Statistik məlumatlar. 30.09.2023

3. https://dost.gov.az/page/surdotercume-xidmeti Surdotərcümə xidməti. 2023

4. https://dost.gov.az/page/dost-job-center "DOST" İş Mərkəzi. 2023

5. https://dost.gov.az/page/dost-inkluziv-inkisaf-ve-yaradiciliq-merkezi DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi. 2023

AZƏRBAYCANDA YENİ DÖVLƏT İDARƏÇİLİYİ YANAŞMASININ DÖVLƏT QULLUĞU SİSTEMİNƏ TƏSİRLƏRİ

Xanlar Heydərov
Bakı Mühəndislik Universiteti
xheyderov@beu.edu.az

XÜLASƏ

XX əsrin sonlarında başlayan dövlət idarəçiliyində islahat fəaliyyətləri dövlət idarəçiliyinin əsas elementlərindən biri olan dövlət qulluğu sisteminə də təsir etmişdir. Yeni idarəetmə yanaşması çərçivəsində dövlət qulluğu sisteminin normativ, iyerarxik, mexaniki və ənənəvi strukturu dəyişməyə başlamışdır. Son dövrlərdə effektivlik, səmərəlilik və qənaətcilliyi əsas götürən, əmək haqqı bərabərsizliyini aradan qaldırmağa yönəlmiş, performansa əsaslan qiymətləndirmənin ön plana çıxdığı dövlət qulluğu sisteminə diqqət yetirilir. Bu məqalədə yeni dövlət idarəçiliyi yanaşmasının dövlət qulluğu sisteminə təsirləri araşdırılmışdır.

Açar sözlər: Yeni dövlət idarəçiliyi, dövlət qulluğu, ictimai xidmət

ABSTRACT

The reform activities in the public administration that started at the end of the 20th century also affected the civil service system, which is one of the basic elements of public administration. Within the framework of the new public administration approach, the normative, administrative, mechanical and spiritual structure of the civil service system began to change. In recent years, the principles of efficiency, productivity and conscientiousness have been oriented towards eliminating the inequality in labor rights, and performance-based appraisal has come to the fore. In this article, the effects of the new public administration approach to the civil service system have been investigated.

Key words: New public administration, civil service system, public services

GİRİŞ

Sənaye inqilabı, iqtisadi böhranlar, dünya müharibələri, informasiya texnologiyalarının yaranması və qloballaşma kimi hadisələr bütün dünyada həm özəl, həm də dövlət sektorunda dəyişikliklər və transformasiyalara səbəb olmuşdur. Son otuz ildə dünyada baş verən sosial-iqtisadi və siyasi dəyişikliklər və transformasiyalar ümumilikdə dövlət idarəçiliyinə, xüsusən də dövlət qulluğu sistemlərinə öz təsirini göstərmişdir. Klassik dövlət idarəçiliyinin bürokratik, iyerarxik, qapalı və mərkəzçi strukturunun yerini daha çevik, açıq və iştirakçı idarəetmə yanaşmasının əvəzləməsinə paralel olaraq dövlət qulluğu sistemində də sərt, iyerarxik və klassik model yerinə üfüqi təşkilatlanmaya və performansa əsaslanan çevik modelin zəruriliyi müzakirə edilməyə başlanmışdır.

Müasir dövrdə şirkətlər çoxmillətli hala gəlmiş, dövlətin strukturu və funksiyaları ilə bağlı baxışlar dəyişilmiş, effektivlik, səmərəlilik, qənaətcillik, hesabatlılıq, açıqlıq, şəffaqlıq, çeviklik, performans yönümlülük, rəqabətqabiliyyətlilik və nəticə yönümlülük kimi yeni anlayışlar müasir dünyanın yeni dəyərləri kimi qəbul edilmişdir. Bu prosesdə vətəndaşların daha yaxşı və keyfiyyətli ictimai xidmət tələbləri dövlət strukturlarını vətəndaş məmnunluğunu ön planda tutan, şəffaf, qənaətli, səmərəli və effektiv fəaliyyət göstərən təşkilati strukturlar yaratmağa sövq etmişdir. Dövlət idarəçiliyinin əsas elementlərindən olan dövlət qulluğu sistemində islahatların aparılması da bu çərçivədə əhəmiyyətli yer tutur.

Dövlət idarəçiliyində baş verən dəyişikliklər dövlət qulluğu sistemindən də yan keçmir. Bu qarşılıqlı əlaqə dövlət idarəçiliyindəki struktur dəyişikliklərində də müşahidə olunur. Yeni dövlət idarəçiliyi yanaşmasının effektivlik, operativlik, sadəlik və şəffaflığa əsaslanan iştirakçı idarəetmə yanaşması dövlət qulluğunda tez-tez rast gəlinən birtərəfli qaydalar, əmək haqqı qeyri bərabərliyi, kadrların seçimi kimi bir sıra problemlərin həlli üçün dəyişikliyi zəruri etmişdir.

Bu məqalədə dövlət qulluğu sistemində ortaya çıxan islahat ehtiyacı bir çox amillər nəzərə alınmaqla təhlil edilmişdir. Təhlil Azərbaycanın idarəetmə strukturunu formalaşdıran əsas prinsiplər və fundamental dəyərlər əsasında aparılmışdır. Bu kontekstdə yeni dövlət idarəçiliyi yanaşmasının tələbləri əsasında mövcud dövlət qulluğu sistemi təhlil edilmişdir.

DÖVLƏT QULLUĞU SİSTEMİ ANLAYIŞI

Dövlət qulluğu dövlətin yerinə yetirməli olduğu ictimai xidmətləri həyata keçirən qulluqçularının tabe olduqları qaydalar toplusudur. Dövlət qulluğu ictimai sektorda fəaliyyət göstərən kadrların idarə edilməsi sisteminin əsasını təşkil edir. Kadrların idarə edilməsi siyasi struktur, idarəetmə və iqtisadi sistemlə qarşılıqlı əlaqədədir. Bu qarşılıqlı əlaqə kadrların idarə edilməsi sisteminin qiymətləndirilməsində və mümkün neqativ halların aşkar edilməsində və aradan qaldırılmasında həlledici rol oynayır. Bununla birlikdə bu qarşılıqlı əlaqə, dövlət qulluqçularının statusu və dövlət qulluqçuları ilə bağlı tənzimləmələrdə dövlət qulluğu sisteminin əhəmiyyətini artırır. Xüsusilə, dövlət xidmətlərinin effektiv icrasını təmin edən dövlət qulluğu sistemin olması, lazımi sayda və keyfiyyətdə işçilərin təmin edilməsi, məşğulluq şəraitinin müəyyən edilməsi, əmək haqqının müəyyən edilməsi, dövlət qulluğuna uyğun bilik və bacarıqlara malik kadrların yetişdirilməsi, dövlət qulluqçularının pensiya və sosial təminat sistemi kimi məsələlər nəzərə alındıqda dövlət qulluğu sisteminin əhəmiyyəti günü gündən artmaqdadır. (Güler, 2005).

Bu kontekstdə dövlət qulluğu orqanik və funksional elementləri özündə birləşdirən bir sistem kimi qiymətləndirilə bilər. Dövlət orqanlarının və vəzifələrin təsnifatı, əmək haqqı sistemi, dövlət qulluqçularının statusu sistemin orqanik yönünü, işçi qüvvəsinin planlaşdırılması, dövlət qulluqçularının işə qəbulu, təlim və qiymətləndirilməsi, motivasiya və həvəsləndirmə məsələləri isə sistemin funksional yönünü təşkil edir. Orqanik və funksional elementlər bir biri ilə qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərir. Bu qarşılıqlı əlaqə sosial-iqtisadi, siyasi və texnoloji şərtlərin dəyişməsi ilə birlikə özünü daha qabarıq biruzə verməyə başlamışdır. Son dövrlərdə qeyd olunan elementlərin yeni yanaşma əsasında dəyişikliyə məruz qaldığı, dövlət kadrlarının idarə edilməsi sahəsində ənənəvi yanaşmadan insan resurslarının idarə edilməsi yanaşmasına keçidin baş verdiyi müşahidə edilməyə başlanmışdır.

Dövlət qulluğu sistemində baş verən dəyişiklikləri uzun təcrübələr nəticəsində işlənib hazırlanmış bəzi prinsiplər vasitəsilə qiymətləndirmək mümkündür. Peşəkarlıq (səriştə), karyera, bitərəflik, bərabərlik, təminat, ədalətli və yetərli əmək haqqı kimi sadalanan bu prinsiplər effektiv dövlət qulluğu sisteminin əsas elementləri hesab olunur. Digər tərəfdən, bu prinsiplər dövlət qulluğu sistemindəki problemlərin aşkar edilməsində, çatışmazlıqların aradan qaldırılmasında da mühüm rol oynayır.

Peşəkarlıq və sərişta prinsiplərindən uzaqlaşdıqca obyektiv qiymətləndirmələrin aparılması mümkünsüz hala gəlir. Əmək haqqı sisteminin tənzimlənməsi və bazara uyğunlaşdırılması həlli tələb olunan problemlərdən biridir. Həll edilməli olan digər mühüm problem isə kadrlarla bağlı qərarların iştirakçı yanaşma əsasında qəbul edilməməsi və birtərəfli qaydada tənzimlənməsidir. İxtisasartırma təlimlərinin formal təşkili digər mühüm problem hesab oluna bilər. Bütün bunlara əlavə olaraq, həyata keçirilən tənzimləmələrdə problemlərin vahid bir yanaşma əsasında deyil, tək-tək həll edilməsi bu problemlərin həllində arzu edilən nəticənin əldə edilməsinə mühüm maneədir (Eren və Eken, 2007).

Yeni dövlət idarəçiliyi yanaşması həm bu problemlərin həllinə, həm də dövlət idarəçiliyindəki dəyişikliklə paralel olaraq dövlət qulluğu sisteminin dəyişdirilməsinə əhəmiyyətli təsir göstərir.

YENİ DÖVLƏT İDARƏÇİLİYİ ANLAYIŞI VƏ ƏSAS PRİNSİPLƏRİ

1980-1990-cı illər dünyada dövlət idarəçiliyi sahəsində əhəmiyyətli dəyişikliklərin baş verdiyi illər olmuşdur. Sərt, iyerarxik və bürokratik dövlət idarəçiliyi anlayışı çevik, bazar əsaslı dövlət idarəçiliyi anlayışı ilə əvəz olunmuşdur. Bu hal ənənəvi dövlət idarəçiliyində paradiqma dəyişikliyi kimi qəbul edilmiş və yeni dövlət idarəçiliyi ənənəvi dövlət idarəçiliyinə qarşı yeni bir paradiqma kimi meydana çıxmışdır. (Tortop, 2007).

Yeni dövlət idarəçiliyi yanaşması 1980-ci illərdə İngiltərədə Tetçer və ABŞ-da Reyqan dövründə həyata keçirilən siyasət və proqamlar nəticəsində ortaya çıxan bir yanaşmadır. Bu kontekstdə yeni dövlət idarəçiliyi yanaşması dövlət idarəçiliyini biznesin idarə edilməsi texnikalarına uyğun təşkil etməyi qarşısına məqsəd qoyan yeni idarəetmə modelidir. Daha iştirakçı, şəffaf, çevik və performans yönümlü idarəetməni nəzərdə tutan yeni dövlət idarəçiliyi yanaşmasının ümumi çərçivəsini formalaşdıran elementləri aşağıdakı kimi sadalamaq olar:

- Effektiv, məqsədyönlü və səmərəli idarəetmə
- Nəticə əsaslı idarəetmə
- Çevik iyerarxiya/təşkilati struktur
- Xidmətlərin səmərəli təşkili
- Minimal dövlət anlayışı ilə sahibkarlıq ruhu
- İştirakçı idarəetmə
- Bazar mexanizmi
- Performans əsaslı qiymətləndirmə
- Bürokratiyanın azalması
- İnformasiya və kommunikasiya texnologiyalarının geniş istifadəsi
- Strateji planlaşdırma, performansın idarə edilməsi, keyfiyyətin idarə edilməsi kimi özəl sektorun idarəetmə üsulları
- İxtisasartırma təlimi
- Peşəkarlıq və sərişta
- İnsan resurslarının planlaşdırılması

Yeni dövlət idarəçiliyi şəffaf, hesabatlı, açıq, performans yönümlü, vətəndaş yönümlü, bazar mərkəzli, effektiv, səmərəli, informasiya və kommunikasiya texnologiyaları ilə dəstəklənən iştirakçı idarəetmə yanaşmasıdır. Bu kontekstdə yeni dövlət idarəçiliyinin kadr, təşkilat, maliyyə və idarəetmə baxımından əsas istiqamətləri ənənəvi dövlət idarəçiliyindən fərqlənir. Dövlət qulluğu baxımından bu yeniliklər qulluğa uyğun ödəniş sistemi, komanda işi, keyfiyyətin idarə edilməsi, sərişta prinsipinin tətbiqi, peşəkar kadrlar yetişdirmə, insan resurslarının planlaşdırılması, dövlət qulluqçusu statusunun azaldılması, peşəkar kadr idarəçiliyi və iştirakçı idarəetmə kimi göstərilə bilər. (Eren, 2001).

AZƏRBAYCANDA DÖVLƏT QULLUĞU SİSTEMİNƏ YENİ DÖVLƏT İDARƏÇİLİYİ YANAŞMASININ TƏSİRLƏRİ

Dövlət tərəfindən işə götürülən kadrların məşğulluq rejimi olaraq ifadə olunan dövlət qulluğu sistemi (Aslan, 2005). dövlət idarəçiliyinin əsas elementləri sırasındadır. Dövlət idarəçilik sisteminin mərkəzi nöqtəsini təşkil edən dövlət qulluğu sistemi bütün sosial, iqtisadi, mədəni, siyasi və inzibati dəyişikliklərdən birbaşa təsirlənir. Bu baxımdan ölkəmizin dövlət qulluğu sistemi müstəqillikdən bu yana davamlı dəyişmə və transformasiyaya məruz qalmışdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu Azərbaycanda müasir dövlət qulluğu sisteminin yaradılması üçün islahatların başlanmasına start vermiş oldu. 1996-cı ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Hüquqi islahat komissiyası" yaradıldı və müstəqil dövlətin öz qanunvericilik bazasının yaradılması prosesi başlandı. Müstəqillik əldə etdikdən

sonra yeni dövlət idarəetməsinin formalaşmasında “Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında” Azərbaycan Prezidentinin 29 dekabr 1998-ci il tarixli fərmanı xüsusi rol oynayır. Bu fərmanda idarəetmə sistemində dövlət qulluğu üzrə islahatların aparılması təxirəsalınmaz məsələ kimi qeyd edilmişdir. Müstəqilliyin ilk illərindən başlayaraq dövlət qulluğu sahəsində müxtəlif lahiyələr həyata keçirilməyə başlandı və bu tendensiya günümüzdə də davam etdirilir.

Azərbaycanda müstəqillikdən bu günə kimi ümumən dövlət idarəçiliyi, xüsusən də dövlət qulluğu ilə bağlı davamlı dəyişiklik və islahatlar aparılmışdır. Bu məqsədlə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu işlənib hazırlanaraq 21 iyul 2000-ci il tarixdə qəbul olunmuş və 2001-ci ilin sentyabr ayından qüvvəyə minmişdir. Qəbul edildiyi ildən başlayaraq dövlət qulluğu haqqında qanun daim təkmilləşdirilmiş və dövrün tələblərinə uyğun olaraq müvafiq dəyişikliklər edilmişdir.

Dövlət qulluğu sahəsində islahatların tərkib hissəsi kimi 2005-ci il 19 yanvar tarixli Fərmanla Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Komissiya dövlət qulluğu sisteminin formalaşması sahəsində ciddi islahatlar həyata keçirmişdir. Dövlət idarəçiliyinin optimallaşdırılması sahəsində aparılan islahatlar nəticəsində 2016-cı ildə Komissiya ləğv olunaraq dövlət qulluğu sahəsində dövlət siyasətinin həyata keçirilməsi funksiyaları Dövlət İmtahan Mərkəzinə tapşırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" təsdiqlənmişdir. Sərəncama əsasən, Dövlət İmtahan Mərkəzi Strategiyanın həyata keçirilməsi və icrasının monitorinqi üzrə əlaqələndirici orqan kimi müəyyənləşdirilmişdir.

Müstəqilliyin ilk illərindən qurulmağa çalışılan dövlət qulluğu sistemi bu sahənin qanunla tənzimlənməsi ənənəsini yaratmış, sistemin ümumi idarəetməsinə cavabdeh olan kadrlar idarəsi olmadığından məsuliyyət müxtəlif orqanların üzərinə qoyulmuşdur. Yeni formalaşdırılan dövlət qulluğu sisteminin qanunla bərqərar edilməyə çalışıldığı bu dövrdə dövlət qulluğu hüquqi cəhətdən təminatlı, iqtisadi cəhətdən cəlbedici, iş qaydaları baxımından intizamlı, ictimai münasibətlər baxımından avtoritar, qulluğa qəbul edilmə baxımından təhsili əsas götürən, vəzifə yüksəliş baxımından təcrübə əsaslı görünüşə malik olmuşdur.

Ölkəmizdə dövlətin vəzifə və məsuliyyətlərinin artmasına paralel olaraq böyüyən bürokrat strukturlarda həddindən artıq mərkəzçilik, təşkilati böyümə, idarəetmədə qapalılıq və gizlilik, məsuliyyətdən yayınma, korrupsiya və rüşvətxorluq vasitəsilə işlərin həyata keçirilməsi kimi bir çox problemin həlli üçün uzun müddətdir ki çalışmalar davam edir. Dövlət idarəçiliyi və dövlət qulluğu sistemindəki problemlərin həlli istiqamətində atılan addımlarda daxili faktorlarla yanaşı xarici faktorlar da əhəmiyyətli rol oynayır. Hətta qeyd etmək olar ki, əldə edilmiş razılaşmalar və götürülmüş öhdəliklərə görə xarici amillərin rolu daha yüksəkdir. Azərbaycanda uzun müddətdir ki, yeni dövlət idarəçiliyi yanaşmasının, bir sıra beynəlxalq təşkilatların təsiri altında dövlət qulluğu sistemində dəyişmə və transformasiya prosesi gedir.

Özəl sektorun xidmət göstərmə üsullarının və təcrübələrinin daha səmərəli və effektiv vasitə kimi qəbul edildiyi yeni dövlət idarəçiliyi yanaşması səmərəlilik, qənaətcillik, effektivlik, hesabatlılıq, şəffaflıq, çeviklik, müştəri yönümlülük kimi fundamental dəyərlərə əsaslanır. Bu anlayış son zamanlar ölkəmizin dövlət idarəçiliyinə öz təsirini göstərmiş və bir çox hüquqi tənzimləmələr həyata keçirilmişdir.

Günümüzdə dövlət idarəçiliyindəki dəyişikliklə paralel olaraq dövlət qulluğu sistemində də dəyişikliklər baş verir. Yeni yanaşma ənənəvi dövlət qulluğu yanaşmasından dövlət qulluqçularının işə qəbulundan tutmuş onların əmək haqqının ödənilməsinə qədər bir çox məsələlərdə fərqlənir. Azərbaycanda dövlət qulluğu sahəsində islahatların davamı kimi Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya” təsdiq edilmişdir. Strategiya dövlət idarəetməsinin ən mühüm institutlarından biri olan dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri müəyyən edən konseptual sənəd rolunu oynayır. Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları heyətini formalaşdırmaqla dövlət orqanlarının

fəaliyyətində effektivliyin artırılmasıdır. Strategiya dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə modelinin tətbiqi sahəsində əsaslı islahatların həyata keçirilməsini nəzərdə tutur. (https://e-qanun.az/framework/40748)

Stragegiya çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan ən vacib istiqamətlərdən biri dövlət qulluğunda səriştə modelinin tətbiqidir. Artıq dünyanın bir çox qabaqcıl ölkələrində dövlət qulluğuna qəbulda səriştə modeli çox geniş tətbiq edilir. Azərbaycanda da bu modelin tətbiqi, vəzifələr üzrə yalnız formal tələbləri deyil, həmin vəzifələrin tutulması üçün zəruri bacarıqları, onların ölçülməsi və qiymətləndirilməsi mexanizmləri və bunun üçün qiymətləndirmə alətləri kompleksinin (test, praktiki tapşırıq, müsahibə və s.) yaradılması, habelə səriştə modelinin dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində tətbiqi ilə bağlı təkliflər hazırlanması nəzərdə tutulur. Artıq səriştə modelinin tətbiqi üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən Tvinninq layihəsi çərçivəsində ilkin təkliflər hazırlanıb.

Azərbaycanda dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi mövcud olsa da, bu sistem formal xarakter daşıyır və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilmir. Buna görə də xidməti fəaliyyətin qiymətləndirilməsinin əhəmiyyətinin artırılması, qiymətləndirmə nəticələrinin əməkhaqqı, qulluqda yüksəliş, rotasiya, əlavə təhsil və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilməsi istiqamətlərində, o cümlədən, bu istiqamətlər üzrə müasir metodlardan (özünüqiymətləndirmə, müsahibə, daxili komissiya, 360 dərəcə metodu) geniş istifadə edilməsi strategiya çərçivəsində konkret işlərin görülməsi planlaşdırılır.

NƏTİCƏ

Dövlət idarəçiliyinin effektivliyinin və funksionallığının artırılmasında dövlət qulluğunun da eyni dərəcədə effektiv və məqsədyönlü olması gözlənilir. Bu gözləntiləri qarşılamaq üçün son illərdə dövlət idarəçiliyində aparılan islahatlarla paralel olaraq dövlət qulluğu sahəsində də dəyişikliklər müşahidə olunur.

Yeni dövlət idarəçiliyi yanaşmasının şəffaflıq, fəaliyyətin qiymətləndirilməsi, kreativlik və hesabatlılıq kimi elementlərini dövlət qulluğunun çevik strukturunun göstəriciləri hesab etmək mümkündür. Son qəbul edilmiş strategiya dövlət qulluğunda dəyişikliyi, yeniliyi və effektivliyi vurğulayır. Strategiya dövlət qulluqçularının səriştə modeli əsasında işə qəbulu, fəaliyyətlərinin qiymətləndirilməsi, mütərəqqi təlim və motivasiya sisteminin qurulması kimi bir çox məsələləri əhatə edir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında qanun, https://e-qanun.az/framework/40748
2. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında qanun https://e-qanun.az/framework/53091
3. Aslan, Onur Ender Kamu Personel Rejimi: Statü Hukukundan Esnekliğe, TODAİE Yayın No:326, Ankara, 2005.
4. Eren, Veysel ve Musa Eken), "Kamu Personel Rejiminde Reform Arayışları", Kamu Yönetimi Yöntem ve Sorunlar, (Ed. Şinasi Aksoy, Yılmaz Üstüner), Nobel Yayın, Ankara, 2007.
5. Güler, Birgül Ayman, Kamu Personeli Sistem ve Yönetim, İmge Kitabevi, Ankara, 2005
6. Tortop, Nuri, Eyüp G. İsbir, Burhan Aykaç, Hüseyin Yayman, M. Akif Özer, Yönetim Bilimi, Nobel Yayınları, Ankara, 2007

AZƏRBAYCANDA E-TİCARƏTİN İNKİŞAFINDA DÖVLƏT SİYASƏTLƏRİNİN ROLU

XƏYALƏ İBRAHIMOVA
Bakı Mühəndislik Universiteti
Mühəndislik/Kompüter və İnformasiya texnologiyaları
xhasimova@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

FƏRHAD RƏHMANOV
Azərbaycan Dövlət İqtisad Universiteti
Rus İqtisad Məktəbi
farhad53@live.ru
BAKI, AZƏRBAYCAN

ELÇİN SÜLEYMANOV
Bakı Mühəndislik Universiteti
İqtisadiyyat/Maliyyə və mühasibatlıq
elsuleymanov@beu.edu.az
XIRDALAN, AZƏRBAYCAN

XÜLASƏ

Elektron ticarət, müəssisələrin öz məhsul və xidmətlərini rəqəmsal platformalarda satış üçün təqdim etmə prosesidir. Bu proses onlayn alış- veriş, elektron ödəniş sistemləri, onlayn bazarlar və digər rəqəmsal ticarət platformaları kimi müxtəlif üsullarla həyata keçirilə bilər. Elektron ticarətin üstünlüklərinə aşağı əməliyyat xərcləri, qlobal bazarlara çıxış və daha sürətli əməliyyat müddətləri kimi amillər daxildir. Azərbaycan hökuməti də son illər elektron ticarətin inkişafı üçün bir sıra addımlar atılıb. Bu addımlara elektron ticarət müəssisələrinin qeydiyyatı, vergi öhdəliklərinin müəyyən edilməsi və istehlakçıların müdafiəsi kimi məsələlər daxildir. Bundan əlavə, hökumət infrastruktur sərmayələri etməklə internet infrastrukturunun inkişafı, mobil cihazlardan istifadənin artırılması və elektron ödəniş sistemlərinin inkişafı kimi mühüm addımlar atıb. Bununla belə, bu sahədə yarana biləcək problemlərin qarşısının alınması üçün daha təsirli tənzimləmələrin və istehlakçıların hüquqlarının müdafiəsi mexanizmlərinin yaradılmasına ehtiyac olduğu da vurğulanır. Bu araşdırmada Azərbaycanın son illərdə e-ticarət sahəsində əldə etdiyi inkişaflar və bu inkişafların dövlət siyasəti sayəsində necə həyata keçirildiyi təhlil edilir. Nəticə etibarı ilə belə qənaətə gəlmək olar ki, Azərbaycan hökumətinin elektron ticarətin inkişafına təkan vermək istiqamətində həyata keçirdiyi siyasət uğurludur və ölkə elektron ticarət sahəsində mühüm potensiala malikdir. Bununla belə, bu sahədə yarana biləcək problemlərin qarşısının alınması üçün daha təsirli tənzimləmələrin və istehlakçıların hüquqlarının müdafiəsi mexanizmlərinin yaradılmasına ehtiyac olduğu da vurğulanır.

AÇAR SÖZLƏR: Elektron ticarət, İnnovasiya, Azərbaycan.

THE ROLE OF GOVERNMENT POLICIES IN THE DEVELOPMENT OF E-COMMERCE IN AZERBAIJAN

ABSTRACT

Electronic commerce is the way businesses trade electronically by offering their products and services on digital platforms. This can be done in a variety of ways, such as online shopping, electronic payment systems, online marketplaces and other digital trading platforms. Advantages of e-commerce include lower operating costs, access to global markets, easier customer access and fast transaction times. He states that the Azerbaijani government has developed many policies and regulations for the development of e-commerce in recent years. Among these policies, there are issues such as registration of electronic commerce businesses, determination of tax liabilities and protection of consumers. In addition, the government has taken important steps such as improving the internet infrastructure, increasing the use of mobile devices and developing electronic payment systems by making infrastructure investments. In conclusion, he states that the policies implemented by the

Azerbaijani government to promote the development of e-commerce have been successful and the country has a significant potential in the field of e-commerce. However, it is also emphasized that more effective regulations and consumer protection mechanisms should be established in order to prevent problems that may arise in this area. In this study, it analyzes the developments that Azerbaijan has made in the field of e-commerce in recent years and how these developments have been realized thanks to government policies. In conclusion, he states that the policies implemented by the Azerbaijani government to promote the development of e-commerce have been successful and the country has a significant potential in the field of e-commerce. However, it is also emphasized that more effective regulations and consumer protection mechanisms should be established in order to prevent problems that may arise in this area.

KEYWORDS : Electronic commerce, Innovation, Azerbaijan.

GIRIŞ

Texnologiyanın sürətli inkişafı və internetin yayılması ilə elektron ticarət (e-ticarət) son illərdə bütün dünyada böyük sürət qazanmışdır. Ənənəvi ticarət üsullarından fərqli olaraq, e-ticarət müəssisələrin öz məhsul və xidmətlərini rəqəmsal platformalar vasitəsilə müştərilərə təklif etməsi və elektron vasitələrlə həyata keçirməsi deməkdir. Rəqəmsal transformasiya həm biznes, həm də istehlakçılar üçün əhəmiyyətli üstünlüklər təqdim edir. Elektron ticarətin sürətli yüksəlişi internetin qlobal əhatəsini artırmış və dünya üzrə müştəri bazasına asan çıxışı təmin etmişdir. Müəssisələr fiziki mağazaların məhdudiyyətlərindən azad edilmiş və məhsullarını onlayn platformalarda 24/7 açıq olan virtual mağazalarda nümayiş etdirməklə daha geniş alıcı kütləsinə çatmaq imkanı əldə etmişlər. Eyni şəkildə, istehlakçılar indi coğrafi yerlərindən asılı olmayaraq istədikləri məhsul və xidmətlərə asanlıqla daxil ola bilirlər. Aşağı əməliyyat xərcləri e-ticarətin ən cəlbedici tərəflərindən biridir. Ənənəvi mağazalardan fərqli olaraq, onlayn mağazalar qurmaq və fəaliyyət göstərmək üçün dah az kapital tələb olunur. Bundan əlavə, e-ticarət müəssisələri fiziki mağazalardan fərqli olaraq aşağı əməliyyat xərclərinə malikdir. Belə olduöu təqdirdə onlayn maöazalar məhsullarını daha sərfəli qiymətlərlə müştərilərə təqdim etmək imkanı qazanır.

Bütün dünyada, xüsusilə Covid-19 pandemiyası dövründə (Bensghir, T., & Aslanova, B. 2022.) sürətlə artan elektron ticarətin həcmi Azərbaycanda da özünü büruzə verib. Pandemiya dövründə ümumi ticarət həcmində əvvəlki illərlə müqayisədə təxminən 20-30% artım olub ki, bu da illik 4-5 milyard dollarlıq ticarət həcmi deməkdir. Hər il bu həcm ən azı 20% artır (Ibrahimova, 2022) . Azərbaycanda geyim, elektron cihazlar, kosmetika, məişət əşyaları, kitab kimi məhsulların onlayn satışı xüsusilə geniş yayılıb. Bundan əlavə, son illərdə e-ticarət sektorunu dəstəkləmək üçün hökumət tərəfindən həyata keçirilən siyasətlər arasında e-ticarət müəssisələrinin qeydiyyata alınması, vergi öhdəliklərinin müəyyən edilməsi, internet infrastrukturunun inkişafı, mobil cihazlardan istifadənin artırılması, elektron ödəniş sistemlərinin inkişaf etdirilməsi, texniki dəstək və marketinq/satış təhsili kimi siyaəstlər də mövcuddur. Bununla belə, Azərbaycanda elektron ticarətin inkişafına mane olan bəzi çətinliklər də var. Bunlara onlayn ödəniş sistemlərinin qeyri-adekvatlığı, kredit kartlarından aşağı istifadə, logistika infrastrukturunun zəifliyi, istehlakçıların müdafiəsi mexanizmlərinin olmaması və adekvat qaydaların olmaması kimi problemlər daxildir. Bu problemlər Azərbaycanın elektron ticarət sektorunun daha da inkişaf etməsi üçün həll edilməli olan məsələlərdir.

Bu tədqiqat Azərbaycanda elektron ticarətin inkişafında dövlət siyasətinin rolunu araşdırmaq məqsədilə qarışıq metodlardan istifadə etməklə həyata keçirilib. Bu bölmədə tədqiqat iştirakçıları, məlumat toplama vasitələri və təhlil üsulları haqqında ətraflı məlumat təqdim olunur. Keyfiyyət və kəmiyyət məlumatlarının toplanması üsullarının birgə istifadəsi Azərbaycanda e-ticarətin inkişafı ilə bağlı həm dərindən anlayış, həm də hərtərəfli məlumat əldə etmək məqsədi daşıyır. Elektron ticarətin artım templəri, sektorlar üzrə təhlillər və digər rəqəmsal məlumatlar üzrə verilənlər bazası və hesabatlardan istifadə etməklə kəmiyyət məlumatları toplanmışdır. Keyfiyyətli məlumatlar Azərbaycanın dövlət rəsmiləri, elektron ticarət operatorları və sənaye ekspertləri ilə yarım-strukturlaşdırılmış müsahibələr və fokus qruplar vasitəsilə əldə edilmişdir. Kəmiyyət məlumatları statistik təhlil və qrafiklərdən istifadə etməklə müxtəlif üsullarla təhlil edilmişdir. Artım templərinin, sektor paylarının və digər ədədi məlumatların təhlili e-ticarətin ümumi vəziyyəti haqqında vahid mənzərəni təmin etmək məqsədi daşıyır.

Azərbaycanda dövlət idarəçiliyində elektron xidmətlər sisteminin inkişafı

XXI əsr vahid qloballaşan informasiya cəmiyyətinin yaradılması prosesinə start vermiş informasiya-kommunikasiya texnologiyaları əsridir. Bu gün bu proseslər eyni sürətlə olmasa da, hər yerdə və eyni zamanda baş verir və dövlətlərin, sosial təbəqələrin və qarşılıqlı sivil münasibətlərin bütün aspektlərinə toxunur. Kibercinayətlər, elektron imza, nanotexnologiyalar, robototexnika, süni intellekt

Bu gün yuxu kimi görünən bu kimi anlayışlar günümüzün reallığına çevrilir. Çox vaxt təkcə elm adamları deyil, həm də siyasətçilər və dövlət xadimləri tərəfindən danışılır və "elektron hökumət" və "elektron dövlət" terminlərinə daha çox rast gəlinir. “Elektron hökumət” bir layihə kimi, ilk növbədə, dövlət idarəçiliyində uğurlar əldə etmək üçün elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi prosesidir. Lakin “elektron hökumət” konsepsiyasının həyata keçirilməsi dövlət strukturlarında informasiya texnologiyalarının qeyri-ixtiyari yayılmasını tələb edir. Bu, dövlət idarəetmə sisteminin yeni nizamı, dövlət aparatı ilə vətəndaş cəmiyyəti münasibətlərinin texnoloji mühitidir. 21-ci əsrin dövlət qulluqçusu sadəcə kompüter biliklərinə malik dövlət qulluqçusu deyil. O, müasir reallıqları adekvat dərk edən, inkişaf edən informasiya infrastrukturunda sərbəst ünsiyyət qura bilən, yaranan problemləri praktiki və hərtərəfli həll edə bilən yeni üslub lideridir. İnformasiya texnologiyaları indi bütün prosesin ayrılmaz hissəsinə çevrilir. Bununla belə, “informasiya resursları”nı “informasiya texnologiyaları”ndan fərqləndirmək lazımdır. Texnologiya, ilk növbədə, mənanın instrumental, texnoloji konsepsiyasını yaradır və informasiya resursları bunun bir hissəsidir. Bu anlayışları qarışdırmaq olmaz. Təqdirəlayiq haldır ki, bu məsələlər ölkə Prezidenti cənab İlham Əliyevin siyasəti ilə dövlət idarəçiliyinin ən yüksək pillələrində - Prezidentin İcra Aparatında, Milli Məclisdə həyata keçirilən struktur islahatlarında aydın şəkildə öz əksini tapmışdır. Belə ki, son zamanlar texniki aspektin informasiya texnologiyalarına uyğun strukturlarla gücləndirildiyi bir dövrdə əsas vəzifəsi informasiya siyasəti və informasiya ehtiyatları ilə işləmək olan informasiya təminatı şöbəsi və göstərilən informasiya problemləri xidməti yaradılmışdır. Elektron hökumət anlayışı milli səviyyədə dövlət strukturlarında yerləşən informasiya sahələrini birləşdirən oxşar sistemin yaradılmasını nəzərdə tutur və bu halda onun yaradılması üçün texniki proses strukturlarının institusional səviyyədə tətbiqi böyük əhəmiyyət kəsb edir. Elektron hökumət layihəsinin texniki icrası qurumun müvafiq layihəsinin eyni səviyyəli başqa bir təşkilat çərçivəsində həyata keçirilməsini təmin edir. Bununla belə, digər orqanların fəaliyyətinin elektronlaşdırılması ilə bağlı tənzimləmə prosesinə müdaxilə səlahiyyətlər bölgüsü sərhədlərinin pozulması kimi qiymətləndirilə bilər. Belə olan halda elektron hökumət konsepsiyasını həyata keçirən alt və ya institutlararası fəaliyyət orqanının yaradılması məqsədəuyğun görünür. Bu zaman prosesi ləngidən amillərin mənfi təəssüratları minimuma enəcək.

Qeyd etdiyimiz kimi, e-hökumət informasiya texnologiyaları vasitəsilə dövlətlə vətəndaşlar arasında qarşılıqlı əlaqəni özündə ehtiva edən yeni dövlət idarəetmə modelidir. Elektron hökumət konsepsiyası Qərbdə 1990-cı illərin əvvəllərində yaranıb, lakin praktiki olaraq yalnız 90-cı illərin sonlarında tətbiq olunmağa başlayıb. Elektron hökumət həftənin 7 günü 24 saat fəaliyyət göstərir. Yəni hər an vətəndaşlara xidmət göstərir. Məqsəd vətəndaşlara maksimum sadəlik və şəffaflıq şəraitində xidmətlərin göstərilməsi, vahid texniki standartların, qarşılıqlı uyğunluğun və məxfiliyin təmin edilməsi, informasiya təhlükəsizliyi qaydalarının tətbiqi zamanı danışıqlar aparılmadan vətəndaşların fikirlərinin yönləndirilməsi və s. İlk baxışda bütün bunlar bürokratik əngəllərin azaldılması və ya kağız sənədlərin dövriyyəyə buraxılması kimi görünsə də, əslində heç də belə deyil. Bu, həm də vətəndaşların dövlət qurumları ilə əlaqə saxlamağa və hüquqi məlumat əldə etməyə sərf etdiyi xərc və vaxta, vətəndaşların hüquqlarının həyata keçirilməsi üçün dövlətin xərclərinə qənaət etməyə imkan verir.

Azərbaycanda əksər dövlət strukturlarının rəsmi internet saytları var və bu saytlarda müraciət və sorğu bölmələri var. Ümumilikdə cari ilin statistik göstəricilərinə nəzər salsaq görərik ki, bir çox dövlətlər və hökumət idarələri bu sahədə ciddi irəliləyişlər əldə ediblər. Dövlət orqanlarının internet saytlarının layihələrini həyata keçirərkən “üç klik konsepsiyası” prinsiplərinə riayət etmək daha vacibdir. Belə ki, bu zaman istifadəçi üç düyməni basmaqla istənilən məlumatı əldə edə bilər. Şəbəkədə informasiya resurslarının nadir xarakterini nəzərə alaraq, bu konsepsiya saytı maksimum funksionallıq həddinə çatdıracaq və kompüter savadından asılı olmayaraq onu ən sadə istifadəçi üçün belə əlçatan edə biləcək. Bu, əhalinin müxtəlif təbəqələri arasında rəqəmsal bərabərsizlik faktorlarını

bir növ aradan qaldıracaq. Azərbaycanda "Elektron hökumət" institutu yaradılıb, bu istiqamətdə məqsədyönlü işlər aparılır və MŞ-də qanunvericilik infrastrukturu təkmilləşdirilir.

Texnologiyanın vahid formada inteqrasiyası zərurəti baxımından, hadisənin xarakterindən asılı olaraq "elektron hökumət" ifadəsinin düzgün olmadığı ilə razılaşmaq lazımdır. "Elektron hökumət" termini öz mənşəyini ingiliscə "e-government" (hərfi mənada - elektron hökumət, elektron idarəetmə) terminindən götürür və təkcə hökumətin "elektronlaşdırılması"nı deyil, həm də bütün dövlət idarəçiliyi və yerli özünüidarəetmə sistemini ifadə edir. "elektron hökumət" ideyasının reallaşması, bunun mümkünsüz olduğunu göstərir. Hal-hazırda bütün normativ sənədlərdə "elektron hökumət" terminindən istifadə olunsa da, "elektron hökumət" anlayışının daha doğru olacağı ehtimal edilir. İstənilən elektron hökumət layihəsinin mahiyyəti istənilən ölkədə həyata keçirilə bilər. Bu, həmişə milli səviyyədə korporativ informasiya sistemində həyata keçirilir. Bunun böyük hüquqi əhəmiyyəti var və hüquqi nöqteyi-nəzərdən elmi araşdırmalarda və normativ prosedurlarda "elektron hökumət" terminindən istifadə etmək daha düzgün olardı.

Dövlət qurumları tərəfindən aparılan monitorinqlərə nəzər salsaq görərik ki, dövlət hakimiyyəti ilə məşğul olan idarələrin rəsmi internet saytlarının hazırlanması müxtəlif səviyyələrdə gedir və onların bəziləri bu prosesə yeni qoşulub. Belə hallarda elektron hökumətin yaradılması prosesi avtomatik olaraq təxirə salınır. İnkişafın rəvan getməsi vacib amildir. Bu sahədə aparıcı saytlar www.prezident.az, www.meclis.gov.az, www.mincom.gov.az, www.taxes.gov.az və s. saytlardır. Digər təşkilatlar da öz rəsmi internet saytlarını təkmilləşdirməyə çalışmalıdırlar. Bəzi saytlar tam hazırlanıb, bəziləri isə yox, amma nəzərə almaq lazımdır ki, "elektron hökumət" bütün ölkəni əhatə edən mürəkkəb sistemdir və ona görə də fərqli yanaşmaq lazımdır.

İnkişaf etmiş "elektron hökumət" ölkələrinin təcrübəsi göstərir ki, keyfiyyətli informasiya və biliyə çıxışı olan bir qrup insan öz sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır və daha sürətlə inkişaf edir. Bu həm dövlətlərarası, həm də dövlətdaxili olur. Elektron hökumətin qurulması istiqamətində biz çalışmalıyıq ki, dövlətlə vətəndaş, dövlətlə dövlət və vətəndaş arasında əks əlaqə təşkil edilsin ki, ilk mərhələdə cəmiyyətimizin ən azı 15-20 faizi bu sahədə bilikli olsun.

Azərbaycanda elektron dövlət sisteminin inkişaf mexanizmi

Gəlin "elektron hökumət"in qurulmasında uğur qazanan ölkələrə nəzər salaq: Kanada, ABŞ, Sinqapur, Finlandiya və s. Postsovet ölkələrində Baltikyanı ölkələr "elektron dövlət" quruculuğu məsələlərində daha da irəliləmişlər. Məsələn, Estoniyada 2000-ci ildən qəbul edilmiş "İctimai informasiya haqqında" qanuna əsasən, vətəndaşlar dövlət sirri olmayan bütün rəsmi ictimai məlumatlardan, əsasən internet vasitəsilə istifadə edirlər. Təkcə ona görə deyil ki, bu, dövrün tələbidir, həm də qanunun mütləq tələbidir. Mövcud normaya görə, "informasiya sahibi bu məlumatı ehtiyacı olan bütün şəxslərə çatdırılma sürətini maksimum təmin edəcək şəkildə dərc etməyə borcludur". Rəqəmsal müxtəliflik və bərabərsizlik kimi tanınan problem insanların məlumat əldə etmək, onlarla işləmək və istifadə etmək imkanlarının müxtəlifliyidir. İnformasiya resurslarına və yüksək texnologiyalara çıxışda bu bərabərsizlik informasiya cəmiyyətində bu günün və gələcəyin problemi kimi bütün dünyanın müzakirə etdiyi əsas məsələdir. Ölkələr arasında ümumi inkişaf fərqindən asılı olaraq bir qrup insanın informasiya resurslarından istifadə imkanları daha geniş olur, digər qrup insanlar isə bu imkanlardan ya müəyyən məhdudiyyətlərlə istifadə edir, ya da onlardan tamamilə məhrumdurlar. Bu problem bizim cəmiyyətdə də var və biz onu həll etməyə çalışmalıyıq(İbrahimova və b.,2020). Yeni minilliyin astanasında ölkəmizin üzləşdiyi siyasi və sosial-iqtisadi problemlər geniş müzakirə edilməli və üzərimizə düşən vəzifələrə uyğun olaraq müvafiq proqramlar həyata keçirməliyik. Sosial-iqtisadi, ictimai-siyasi sahədə hansı hadisələrin baş verəcəyini və bu hadisələrə və mümkün problemlərə qarşı necə mübarizə aparacağımızı gözləməməliyik. Bu hadisələri əvvəlcədən öyrənib idarə etməliyik. Bu baxımdan onu da qeyd etməliyəm ki, Qloballaşma əsrində Azərbaycanda "elektron hökumət" institutu ilə bağlı qanunvericilik bazasında bir çox yeniliklər mövcuddur. Dünya təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişafında informasiya-kommunikasiya texnologiyalarının rolu xüsusilə mühümdür. Azərbaycanda İKT sektorunun, enerji sektorunun inkişaf sürəti geridə qalsa da, qeyri-neft sektorunda liderdir desək yanılmarıq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında deyib ki, "Azərbaycanın hərtərəfli inkişafı və müasirləşməsi bizdən informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın ən qabaqcıl təcrübəsini Azərbaycana gətirməyi, burada tətbiq etməyi və yaymağı tələb edir". Hazırda ölkəmizdə İKT neftdən sonra ikinci prioritet sahədir və bu sahənin sürətli inkişafı "elektron hökumət"in yaradılmasında böyük əhəmiyyət kəsb edir. "Elektron

hökumət”lə bağlı qanunvericilik çərçivəsində bəzi qanunlar qəbul edilib və bu sahədə qəbul edilən qanunlar da bizə göstərir ki, biz elektron hökumət quruculuğuna hazırlaşırıq.

“Azərbaycan Respublikasında 2005-2008-ci illərdə rabitə və informasiya texnologiyalarının inkişafına dair Dövlət Proqramı” (“Elektron Azərbaycan”), “Elektron imza və elektron sənəd haqqında”, “ Ölkəmizdə və ümumilikdə dövlətimizin inkişafına xidmət edən Elektron Ticarət haqqında” “Telekommunikasiya haqqında” qanunlar qəbul edilib və bu istiqamətdə bir sıra layihələr həyata keçirilir(İbrahimova və b.2019). İnkişafda belə qanunların mövcudluğu böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, informasiya-kommunikasiya texnologiyaları ətraflı elmi-hüquqi araşdırmalar tələb edir. Hüquqi tənzimləmə yalnız ayrı-ayrı qanunların qəbulunu tələb edir. Məsələn, iqtisadi hüquq münasibətləri hüquqların qorunmasına və kibercinayətkarlığın qarşısının alınmasına yönəlmiş qabaqlayıcı normalarla ziddiyyət təşkil etməməlidir. Bu sahənin inkişafı üçün ilk növbədə informasiya və rabitə hüququ formalaşmalıdır. Ölkəmizdə bu sahədə hüquqşünasların çatışmazlığı nəzərə çarpır və elmi seminarlar demək olar ki, çox nadir hallarda keçirilir.

Hazırda dövlət və hökumət orqanları vətəndaşların internet üzərindən verdiyi müraciətlərə baxılmasını aktivləşdirib və öz internet saytlarında vətəndaşların müraciətləri üçün yer ayırıblar. Artıq həmin orqanlar vətəndaşların təklif, tövsiyə və ya pozulmuş hüquqlarının bərpası ilə bağlı şikayət və müraciətlərinə, habelə dövlət orqanlarının hərəkət və hərəkətsizliyi ilə bağlı internet vasitəsilə daxil olan elektron müraciətlərinə operativ şəkildə baxır və cavablandırır. Vətəndaş müraciətləri ilə işləyən modul müraciəti qəbul edilmiş vətəndaşa istənilən məktubun taleyini elektron şəkildə izləmək imkanı verir. E-poçt qarşılıqlı əlaqə zamanı lazımi məlumatları əldə etmək üçün istifadə olunan kağızın miqdarını əhəmiyyətli dərəcədə azaldır. Bu imkan dövlətlə vətəndaş arasında intensiv informasiya mübadiləsində dövlət-dövlət və dövlət-vətəndaş münasibətlərini tənzimləyir, dövlətin fəaliyyətini təmin edən, onun səmərəliliyini artıran əsas mexanizmlərdən biridir. Hazırda “elektron hökumət”in əsasını təşkil edəcək layihələr həyata keçirilir: telekommunikasiya infrastrukturu təkmilləşdirilir, gömrük, maliyyə və vergi sahələrində institusional sistemlər genişləndirilir, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və digər kadastr və reyestr orqanları yaradılır. yaradılır.

Təcrübəyə əsaslanaraq, dövlət orqanları arasında qarşılıqlı əlaqənin yaradılması üçün “vahid pəncərə” sxemindən istifadə olunur ki, bu da “dövlət-vətəndaş”, “dövlət-hökumət” və “dövlət-biznes” münasibətlərinin yaradılmasına şərait yaradır. Azərbaycanda bu yanaşma həm də “elektron hökumət”in formalaşmasının mərhələli şəkildə, pilot layihələr və tipik həllər yolu ilə həyata keçirildiyini və cəmiyyəti buna hazırlamaq, o cümlədən hüquqi tənzimləyici layihələrin qəbulu üçün müvafiq yanaşmaların həyata keçirildiyini göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sabit siyasəti nəticəsində yaranmış sabit iqtisadi vəziyyət, informasiya-kommunikasiya texnologiyalarının inkişafı prosesində yaranmış əlaqələr, ölkəmizdə informasiya-kommunikasiya sahəsində əldə olunan nailiyyətlər ölkəmiz, həyata keçirilən proqramlar və milli layihələr əminliklə deməyə əsas verir: Azərbaycan yaxın gələcəkdə qlobal liderə çevriləcək, informasiya cəmiyyətində dəyərli yer tutacaqdır.



Qrafik1.Azərbaycanda internet istifadəçilərinin sayının əhaliyə nisbəti(2011-2020).
Mənbə: *Azerbaijan Internet Users: Individuals: CEIC. The data is categorized under Global Database's Azerbaijan 2023.*

NƏTICƏ

Aparılan tədqiqat nəticəsində əldə edilmiş nəticələr müzakirə edilir. Əldə edilmiş nailiyyətlər, üstünlüklər və işin səmərəliliyi qeyd edilir. Son illərdə sürətlə inkişaf edən internet özü ilə bir çox imkanlar da gətirib. İnternetin verdiyi imkanlardan biri olan e-ticarət həyatımıza daxil olduğu andan müştərilərinə rahatlıq və yeniliklər gətirmişdir. Təbii ki, yeni inkişaf edən bu sahənin bir çox üstünlükləri ilə yanaşı, çatışmazlıqları da çoxdur. Qiymət və rahatlıq istehlakçıları elektron ticarətə sövq edən və onun çatışmazlıqlarını geridə qoyan əsas səbəblərdir. Elektron ticarət müştəriləri ilk növbədə məhsulu münasib qiymətə almaq və mümkün qədər tez çatdırılmasını istəyirlər. Bəzi kiçik e-ticarət müştəriləri böyük e-ticarət şirkətlərində tapa bilmədikləri fərqli məhsulları fərqli saytlarda kəşf etmək istəyirlər. İstehlakçıların virtual aləmdə onlayn reklam edilən məhsullara sahib olmaq istəyi pərakəndə satış ilə məşğul olan fərdlərə əhəmiyyətli dərəcədə təsir edir.

Sorğunun nəticələrinə əsasən demək olar ki, Azərbaycanda elektron ticarətin inkişafı sürətlə gedir. Bu, əsasən müştəri marağından irəli gəlir. Müştərilər e-ticarətin təqdim etdiyi imkanlarla yaxından maraqlanır, onun üstünlüklərindən yararlanır və mənfi cəhətlərini müəyyənləşdirirlər. Ən çox istifadə olunan onlayn mağazalar arasında vasitəçilərin üstünlük təşkil etməsi onların daha populyar və tələbatlı olmasının göstəricisidir. Buna səbəb ticarət etmək istəyənlərin üzləşdiyi problemlərdir. Bu problemlər internetin yüksək qiyməti, yüksək vergilər, təhlükəsizlik problemləri və s. aid edilir. Bu sahəyə marağın artırılması üçün dövlət səviyyəsində tədbirlərin görülməsi vacibdir. İnkişafın və uğurun internetlə müəyyənləşdiyi çağımızda e-ticarətin inkişafı zərurətə çevrilib. İnkişaf üçün görülə biləcək tədbirləri qeyd etmək olar:

Rəqabətin ən kəskin olduğu bu dövrdə müştəriləri əldə saxlamağın ən yaxşı yolu müştəri ehtiyaclarını tam şəkildə qarşılamaq və məmnuniyyətini qazanmaqdır. Ticarətdə müştəriyə xas xidmətin göstərilməsi müştəridə müsbət rəylər yaradacaq. Müştərilərə birbaşa adları ilə xitab etmək, onlarla rəsmi dil əvəzinə səmimi gündəlik dildə danışmaq, fərdlərin vərdişlərini araşdırmaq və onlara uyğun şirkətlər və promosyonlar təklif etmək gələcəyin e-ticarətinin daha da yaxşı nöqtəyə çatması üçün mühüm addımlardır.

Elektron ticarət şirkətləri üçün ən çox diqqət çəkən məsələlərdən biri mal və ya xidmətlərin çatdırılma müddətinin minimuma endirilməsidir. İnternetdə çox vaxt keçirən auditoriyanın əsas xüsusiyyəti, aldıqları məhsul və ya xidməti tez və anında tapmalarıdır. Onlayn ticarətlə məşğul olan bir çox şirkət bu problemi ən sürətli çatdırılma üsulu ilə həll etməyə çalışır. Sifariş verərkən məsafə nəzərə alınmalıdır.

Yeni onlayn biznesi olan kiçik elektron mağazalar məhsulları regionlara çatdırarkən poçt xidmətindən istifadə edirlər. Poçt xidmətlərinin yüksək səviyyədə olması onların fəaliyyətinə mənfi təsir göstərən amillərdəndir. Bundan əlavə, onlayn ticarət məqsədi ilə məhsul göndərənlərə xidmət haqqı ilə bağlı müəyyən güzəştlərin verilməsi daha yaxşı olardı. Onlayn ticarət həcmini artırmaq üçün bu sahədə fəaliyyət göstərmək istəyənlərə stimul olaraq kompüter satışında, internet ödənişlərində və bank hesabı açarkən vergi endirimləri edilə bilər. Beləliklə, istənilən şəxs minimal xərclərlə virtual bazarda ticarətə başlaya bilər. İstifadəçilərin həyatını asanlaşdıracaq innovativ ödəniş variantları gəlir. Onlayn ödənişlər zamanı bəzi saxtakarlıq halları istehlakçılarda şübhə yaradır. Bu səbəbdən bir çox e-ticarət şirkətləri elektron pul kisələri, POS terminallar və mobil ödənişlər kimi yenilikləri tətbiq ediblər.

Bu tezis araşdırması nəticəsində demək olar ki, bu sektor hər gün yeniliklər edərək irəliləyişini sürətlə davam etdirir. Elektron ticarətlə bağlı mövcud fikirləri ümumiləşdirsək, qeyd etmək lazımdır ki, elektron ticarətin iqtisadiyyata təsiri daha az maneə ilə iqtisadi fəaliyyət sahəsi yaratmaqdır. Bu təsir əsasən sürətlə inkişaf edən informasiya-kommunikasiya texnologiyaları ilə bağlı ola bilər. Yuxarıda qeyd olunan məqamları nəzərə alaraq, aşağıdakı amillərin vacib olduğunu söyləmək olar:

Dövlət qurumları tərəfindən bu istiqamətdə aparılan işlər əlaqələndirilməli və bu sahədə özəl sektorla güclü əməkdaşlıq qurulmalıdır. Elektron ticarət qlobal informasiya cəmiyyətinin tərkib hissəsi olduğu üçün tətbiq olunan siyasətlər, texniki standartlar və tədqiqat alətləri beynəlxalq normalara uyğun müəyyən edilməli və bu baxımdan tələskənliyə yol verilməməlidir. Dövlət sektoru elektron ticarətdən istifadəyə öyrəşməlidir.

Elektron ticarət zamanı şirkətlər və müxtəlif qurumlar bir proqram çərçivəsində kağız işindən elektron əməliyyatlara keçməlidir. İstifadəçilərin təhlükəsizliyi normativ sənədlərlə təmin edilməli, tərəflərin və vasitəçilərin məsuliyyəti dəqiqləşdirilməlidir.

ƏDƏBIYYAT SIYAHISI

1. Varian, Hal R., "The Information Economy: How Much Will Two Bits Be Worth in the Digital Marketplace?"; (http://sims.berkeley.edu/~hal/pages/sciam.htm). Giriş tarixi 12 mart, 2011.
2. Application of Information and Communication Technologies, 2009. AICT 2009. International Conference 14-16 Oct.2009.
3. İbrahimova, K., Suleymanov, E., & Rahmanov, F. (2019). Influence of innovations on economic development in Azerbaijan. Academic journal of economic studies, 5(3), 58-63.
4. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı http://www.e-qanun.az/framework/40164
Ulu Öndər ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçidlə islahatlar həyata keçirməsinin olduqca çətin və mürəkkəb olduğunun bildirirdi: "Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin

ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur".

Liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı (Əliyev, 2009, 5, 1998).

İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatların təməli qoyuldu. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı. Həmin illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. Həmin dövrdə qəbul olunan "Sahibkarlıq haqqında" Qanun da sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün əlverişli hüquqi zəmin demək idi.

NƏTİCƏ

Ümumiyyətlə, yeni şəraitdə ölkənin iqtisadi inkişafının ardıcıllığını təmin etmək məqsədilə həyata keşirilən islahatların dairəsi kifayyət qədər genişdir. Islahatlara bütün səviyyələrdə güclü dəstək nümayiş etdirilməsi, əldə olunan ilkin nəticələr onu demeyə əsas verir ki, başlanan yeni iqtisadi kurs postneft dövründə ölkəmizin uğurlu inkişafınıtəmin edəcək. Prezident cənab İlham Əliyevin bildirdiyi kimi, iqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcəkdir.

Bazar iqtisadiyyatının əsas tələblərindən biri də, ilk növbədə, torpaq islahatlarının həyata keçirilməsi ilə bağlıdır. Torpaq sahibi olmadan mülkiyyətçinin azad və sərbəst istehsal fəaliyyəti ilə məşğul olması qeyri-mümkündür. Buna görə də, Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi və torpaqların vətəndaşların istifadəsinə verilməsi üçün bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında müvafiq fərmanlar imzalaması islahatlarla bağlı prosesləri xeyli sürətləndirdi.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərabaycan 2030: soail-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası.
2. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 29.12.2012-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir).
3. Hacıyev Ş. Azərbaycanın iqtisadi inkişafının model identifikasiyası . "Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası". Bakı: Azərnəşr 2011. 708 s.
4. Əliyev İ. İnsan kapitalının formalaşması dövlətin əsas siyasətidir. Azərbaycan. 13 noyabr 2009. S. 5.
5. Azərbaycan qəzeti, 21 may 1998.
6. Budaqov B. "Heydər Əliyev fenomeni". Bakı, 2002.
7. Mirzəyev R. "Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası". Bakı, 1999.

AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ DÖVLƏT DƏSTƏYİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Həşimova Günay Qnyaz
Bakı Biznes Universiteti, doktorant
gunay.hesimova07@gmail.com
Bakı,Azərbaycan

XÜLASƏ

Tədqiqatın aktuallığı: Regional və bələdiyyə səviyyəsində kiçik müəssisələrə dəstək infrastrukturunu yaradan təş-kilatın formalaşdırılması və davamlı fəaliyyətinin təmin edilməsi kiçik və orta müəssisələrə dəstək dövlət siyasətinin əsas məqsədi hesab olunur. Kiçik biznesə dövlət yardımı ilə bağlı respublika və regional təşəbbüslər kiçik biznesə dəstək infrastrukturunun yaradılmasına prioritet verir. Beynəlxalq təşəbbüslərin həyata keçirilməsi ilə yanaşı, kiçik və orta sahibkarlığı dəstəkləyən infrastrukturun müəyyən komponentləri də inkişaf etdirilir.

Tədqiqatın məqsədi: Tədqiqatın başlıca məqsədi kiçik və orta sahibkarlıq fəaliyyətinin təkmilləşməsinə dövlət dəstəyi və onun iqtisadi nəticələrinin təhlil edilməsindən ibarətdir.

Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi bu sahədə dövlət dəstəyinin artırılması ilə bağlı müasir metod və vasitələrin istifadəsidir. Praktiki araşdırmalar əsasında qeyd etməliyik ki, kiçik və orta sahibkarlıq fəaliyyətinin təkmilləşməsinə dövlət dəstəyi və onun iqtisadi nəticələrinin təhlili ilə bağlı əldə edilən nəticələri statistik göstəricilərdən görmək mümükündür.

Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələrindən, KOS-ların inkişaf etdirilməsinə dair strategiyaların hazırlanmasında istifadə edilə bilər.

Açar sözlər: KOS, dövlət dəstəyi, subsidiya, kredit, investisiya.

SUMMARY

Relevance of the study: The main objective of the state policy of supporting small and medium-sized enterprises is the formation and ensuring the continuous operation of the organization that creates the infrastructure of support for small enterprises at the regional and municipal level. Republican and regional initiatives on state aid to small businesses give priority to the creation of support infrastructure for small businesses. Along with the implementation of international initiatives, certain components of the infrastructure supporting small and medium-sized enterprises are also being developed.

The purpose of the study was to: The main objective of the study is to analyze the state support for the improvement of small and medium-sized business activities and its economic consequences.

Scientific innovation and practical outcomes of the study: The scientific innovation of the study is the use of modern methods and tools related to increasing state support in this area. On the basis of practical studies, we should note that it is possible to see the results obtained from the statistical indicators regarding the state support for the improvement of small and medium-sized business activities and the analysis of its economic results.

Areas where the results can be used: The results of the study can be used in the development of strategies for the development of KOS.

Key words: SMEs, public support, subsidy, loan, investment.

РЕЗЮМЕ

Актуальность исследования: Основной целью государственной политики поддержки малых и средних предприятий является формирование и обеспечение устойчивой деятельности организации, создающей инфраструктуру поддержки малых предприятий на региональном и муниципальном уровнях. Республиканские и региональные инициативы по государственной поддержке малого бизнеса придают приоритет созданию инфраструктуры поддержки малого бизнеса. Наряду с реализацией международных инициатив, развиваются определенные компоненты инфраструктуры, поддерживающие малое и среднее предпринимательство.

Цель исследования: Основная цель исследования заключается в анализе государственной поддержки совершенствования деятельности малого и среднего предпринимательства и ее экономических последствий.

Научная новизна и практические результаты исследования: Научная новизна исследования заключается в использовании современных методов и средств, связанных с увеличением государственной поддержки в этой области. На основе практических исследований следует отметить, что результаты, полученные в связи с государственной поддержкой совершенствования деятельности малого и среднего предпринимательства и анализом ее экономических результатов, можно увидеть в статистических показателях.

Области, в которых могут быть использованы результаты: Результаты иссле-дования могут быть использованы для разработки стратегий развития КОС.

Ключевые слова: МСП, государственная поддержка, субсидии, кредит, инвестиции.

GİRİŞ

Mövzunun aktuallığı: KOS termini kiçik və orta sahibkarlıq subyektinin qısaldılmış formasıdır. Bu müəssisələr iqtisadi inkişaf baxımından əhəmiyyət kəsb edən quruluşlardır. Kiçik və orta sahibkarlıq subyektlərinin hər biri dünyada olan bütün inkişaf etmiş dövlətlərdə iqtisadiyyatın əsas fenomenidir.

Kiçik və orta sahibkarlıq subyektinə dəstək göstərilməsi iqtisadi qaydanın tələbidir. Bu məqsədlə ölkəmizdə kiçik, habelə orta sahibkarlıq subyektlərinin təkmilləşdirilməsi üçün xüsusi təşkilat təsis edilmişdir. Bu inzibati vahid qanunla ona verilən vəzifələri yerinə yetirdiyi halda, bəzi xüsusiyyətlərə malikdir. Tədqiqat işində dövlət tərəfindən dəstəklənən qurumun quruluşu, habelə KOS-ların inkişaf etməsi üçün ümumi dövlət dəstəyi inzibati hüquq prinsipləri baxımından

Kiçik və orta sahibkarlıq subyekti (KOS) iqtisadiyyatın inkişafına böyük töhfələr verir. Bu çərçivədə KOS-ların iqtisadiyyata təsiri və bu təsirlər daxilində gündəlik, ictimai həyat, iş həyatı və s. bir çox məsələyə dair mülahizələr mövcuddur. Bu səbəbdən KOS-ları təkmilləşdirmək və dəstəkləmək üçün qurulan bir dövlət qurumu - Kiçik və Orta Sahibkarlıq Subyektinin İnkişaf Təşkilatı bu araşdırmanın əsas məğzidir.

Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi: Kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafıü üçün dövlət dəstəyi və onun iqtisadi nəticələrinin təhlili müxtəlif yerli və xarici yazıçıların elmi əsərlərində öz əksin tapmışdır.

Tədqiqatın məqsəd və vəzifələri: Tədqiqatın obyekti KOS-ların və subyektlərin kiçik və orta biznesinin inkişafını və iqtisadi nəticələrinin dövlət dəstəyini təhlil etməkdir, predmenti isə Azərbaycanda KOS - un inkişaf perspektivlərinin müəyyənləşdirilməsi.

Tədqiqat məqsədləri və vəzifələri: Tədqiqatın əsas məqsədləri:

1. KOS -ların inkişafı və tənzimlənməsinin nəzəri və metodoloji tədqiqi;
2. Azərbaycanda KOS - un iqtisadi nəticələrinin təhlili;
3. Azərbaycanda KOS - un inkişaf perspektivlərinin müəyyənləşdirilməsi.

Tədqiqatın əsas vəzifələri:

1. Ölkənin iqtisadi inkişafının davamlılığının təmin edilməsində kiçik və orta sahibkarlıq fəaliyyətinin rolunu öyrənmək;
2. Bazar münasibətləri kontekstində kiçik və orta sahibkarlıq fəaliyyətinin dövlət dəstəyinə ehtiyacın və onun əsas modellərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
3. Azərbaycanda KOS - a dövlət dəstəyinin əsas istiqamətlərini öyrənmək;

Tədqiqat metodları: Tədqiqat işi bir neçə metoddan istifadə edilərək araşdırılır ki, bunlardan birincisi analitik metoddur. Bu metod tədqiqatda geniş istifadə olunur. Tədqiqatdakı analiz metodları Azərbaycanda KOS iqtisadi nəticələrinin real vaxt rejimində öyrənilməsinə yönəlib.

İkinci metod sintez metodudur. Əvvəlki metoddan fərqli olaraq, sintez daha ətraflı bir araşdırma üçün fərdi elementləri (xassələri) bütöv hala gətirmək üçün istifadə olunur.

Dövlət Statistika Komitəsindən verilən statistik və analitik-proqnoz məlumatları, müvafiq normativ sənədlər, KOS-ların sosial-iqtisadi inkişafları dövlət proqramları və onların icrasının nəticələrinə dair materiallar, iqtisadi rayonlardakı KOS-lar və İnternet işin nəticələrinə dair müvafiq məlumatlar resurslar üzrə regional inkişaf göstəriciləri toplanmışdır.

Tədqiqatın informasiya bazası: Kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət dəstəyi və iqtisadi nəticələrinin təhlili üzrə mütəşəkkil iş təşkil edir. Tədqiqat üçün türk, ingilis, həmçinin azərbaycan dillərində yazılmış xarici məqalələrin kitab və materiallarından geniş istifadə edilmişdir. Verilənlər bazasına elmi konfranslar, veb saytlar və statistika üçün materiallar da daxil edilmişdir.

Tədqiqatın məhdudiyyətləri. Bir sıra qurumların statistik göstəricilərinin məhdudluğu.

Tədqiqatın elmi yeniliyi: Tədqiqatın əsas elmi yeniliyi belə ümumiləşdirilə bilər:

1. Mövzunun konseptual və nəzəri-metodoloji əsasları, mövcud vəziyyəti müəyyən edilmişdir:

2. Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dövlət dəstəyinin mövcud metod və modellərinin sintezi və iqtisadi nəticələrinin təhlili əsasında mövzunun öyrənilməsinə metodoloji yanaşma hazırlanmışdır.

Nəticələrin praktiki əhəmiyyəti və tətbiqi sahələri: Tədqiqat zamanı əldə edilən nəticələr və təkliflər dövlət tərəfindən KOS-ların inkişafı üçün dəstək olmaq və iqtisadi nəticələrinin təhlili üçün müasir innovativ potensial yaratmaq üçün istifadə oluna bilər.

Tədqiqat işinin əsas müddəaları kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı üçün dövlət dəstəyinin və onun iqtisadi nəticələrinin təhlilinə yönəlmiş uzunmüddətli strategiyaların hazırlanması və həyata keçirilməsində istifadə edilə bilər.

Beləliklə, KOS-ların rəhbərləri, müəllimlər, tələbələr və bu sahə ilə maraqlanan digər şəxslər mövzudan istifadə edə bilərlər.

Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi: Kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafıü üçün dövlət dəstəyi və onun iqtisadi nəticələrinin təhlili müxtəlif yerli və xarici yazıçıların elmi əsərlərində öz əksin tapmışdır. Bunlara Baxışov D.A., Əhmədli K.L., Əlirzayev Ə.Q., Quliyev R.A., Hüseynli İ.Q., Xəlilov

Dövlət bir sıra ictimai sahibkarlıq strukturları ilə yanaşı, kiçik biznesin normativ hüquqi təməlini və onun inkişafı üçün maliyyə-kredit və investisiya dəstəyini gücləndirmək üçün çalışıb. O, həmçinin kiçik biznes sahəsində regionlararası və beynəlxalq əlaqələr quraraq dövlətlərarası və bey-nəlxalq müqavilələr bağlamışdır. Kiçik müəssisələr sahəsində sosial, iqtisadi, maliyyə və əmək pro-seslərinə diqqət yetirən çoxsaylı elmi mərkəzlər yaradılmışdır.

Kiçik və orta sahibkarlıq üçün yardımın əsas mənbələrinə aiddir:

1. məlumat;
2. kredit və maliyyə;
3. istehsal və texniki;
4. tədris.

Kiçik və orta biznesin inkişafı böyük ölçüdə maliyyə və kredit dəstəyindən asılıdır. Vergi təşviqləri, kredit sisteminin genişləndirilməsi, maliyyə qurumlarının və digər təşkilatların iştirakı ilə dəstəkləyici mühitin yaradılmasının optimallaşdırılması ilə birlikdə getməlidir. Artıq mövcud olan kiçik müəssisələrin inkişafı, vergi qaçırmalarında zərərli nümunələrin aradan qaldırılması və yeni qurulan kiçik müəssisələr üçün tələb olunan kapitalın yaradılması, birbaşa və dolayı yardım tədbir-lərinin uyğunlaşdırlmasının nəticəsi olmalıdır. Son illərdə kiçik və orta şirkətlərə güzəştli kreditlər vermək, sahibkarların fəaliyyətinə müdaxiləni minimuma endirmək və özəl sektorun inkişafına mane olan süni çətinlikləri aradan qaldırmaq üçün əhəmiyyətli təşəbbüslər həyata keçirilib. Nəticədə proqnoz 104% yerinə yetirilir. Kiçik və orta sahibkarlıq müəssisələri ümumilikdə 104,2 milyon manat kredit alıblar. Sahibkarlığın İnkişafı Fondu tərəfindən dərc olunan illik hesabatlarda kredit portfelinin kənd təsərrüfatı, sənaye və xidmət iqtisadi sektorlarıının təhlilini ümumiləşdiril-miş formada aşağıdakı qrafikdə görə bilərik [3. https://edf.gov.az/]:

Qrafik 1. Kredit portfelinin iqtisadi sektorlar üzrə təhlili.



	2019	2020	2021
Kənd təsərrüfatı	678.96 ₼	659.38 ₼	640.33 ₼
Sənaye	204.02 ₼	219.77 ₼	220.06 ₼
Xidmət	135.26 ₼	123.00 ₼	111.66 ₼

Kiçik müəssisələr dövlətdən subsidiyalar, qrantlar və kredit zəmanətləri şəklində birbaşa maliyyə dəstəyi ala bilərlər. İnvestisiya üçün əlverişli mühitin yaradılması və ya kiçik biznes qurumları tərəfindən kapitalın toplanması kimi dolayı dəstək ümumiyyətlə kiçik bizneslərə, eləcə də innovasiya fəaliyyəti ilə məşğul olan quruma əvvəlcədən verilir.

Kontsessiya şərtləri ilə binaların, rabitə qurğularının və təşkilati avadanlıqların təmin edil-məsi, sərgilərdə, yarmakalarda və seminarlarda iştirakın təşkili, elmi məhsulların tərəfdaşları və is-tehlakçılarını axtarmaq, texnologiyaların ötürülməsi, məsləhət xidmətlərinin təmin edilməsi, innovasiya və texnoloji mərkəzlərin, texnoparkların və biznes inkubatorlarının yaradılması və s. kiçik və orta müəssisələrə istehsal və texnoloji dəstək nümunələridir.

Dövlət büdcəsi, bələdiyyə büdcəsi və digər mənbələr hər il KOS-ların böyüməsi üçün dövlət yardım proqramını maliyyələşdirmək üçün istifadə olunur. Dövlət əmlakının satışından əldə edilən gəlirləri dövlət büdcəsinə yenidən bölüşdürmək və KOS-lara təməlinə uyğun olaraq kömək etmək məqsədilə dövlət nəzdində yerli və ixtisaslaşmış fondlar yaradılır.

Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət dəstəyi aşağıdakı formalarda həyata keçirilir:

1. Kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi sisteminin tətbiq edilməsi;
2. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarların torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilməsi;
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan güzəştli kreditlər;
4. "Aqrolizinq" ASC xətti vasitəsilə fermerlərə texniki alətlərin və mineral gübrələrin ucuz qiymətə satışı.

Məlum olduğu kimi, ölkə iqtisadiyyatında KOS-ların payının genişləndirilməsi istiqamətin-də zəruri addımların atılması "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda da nəzərdə tutulub. Sahibkarlığa dəstək mexanizmləri haqqında məlumatlılığı artırmaq və onların əlçatanlığını təmin etmək, maliyyə dəstəyinin həcmini artırmaq, kiçik və orta sahibkarlıq müəssisələrinin iri biznes şəbəkələrinə çıxışını genişləndirmək üçün dəstək me-xanizmlərini tətbiq etmək, onların satış imkanlarını genişləndirmək üçün yerli və beynəlxalq sərgilərdə iştirakını dəstəkləmək və bu tədbirlər çərçivəsində sahibkarlar üçün infrastruktur dəstəkləmə fəa-liyyətini genişləndirmək üçün vahid informasiya mənbəyinin yaradılması planlaşdırılır.

Ölkəmizdə sahibkarlara, xüsusən də KOS-lara əhəmiyyətli dövlət dəstək tədbirləri mövcud-dur. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOS sektorunu tənzimləyir, müəssisələrə dövlət xidmətlərinin göstərilməsini yaxşılaşdırır, KOS-ların maraqlarını qoruyur, bilik və innovasiyalara, bazarlara və maliyyəyə çıxışlarını yaxşılaşdırır və on-lara müxtəlif dəstək və xidmətlər təklif edir. "Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmış və bu sahədə əhə-miyyətli rola malik

olan qurumlardan biridir. KOBİA-nın KOS inkişaf mərkəzləri, təxminən 40,000 sahibkarlıq subyektlərinin faydalarını və biznes biliklərini artırmaq üçün 3,000-dən çox pulsuz təlim təmin etdi. 5500-ə qədər sahibkar məsləhət xidmətlərindən yararlandı və təxminən 800 kiçik və orta sahibkarlıq üçün pulsuz biznes planları hazırlandı. Bir işə başlamağın və mövcud əməliyyatların genişlən-dirilməsinin əhəmiyyətini nəzərə alaraq, sahibkarların tələbi ilə 21 daxili bazar araşdırması, Agentliyin təşəbbüsü ilə isə 26 daxili bazar araşdırması aparıldı.

KOBIA, KOS-ların rəqəmsallaşmasına və yaradıcı ideyalarına kömək etmək üçün təxminən 100 "Startup" sertifikatı verdi, üç il müddətində innovasiya fəaliyyətlərindən əldə edilən gəlirlərə görə mənfəət və gəlir vergisindən azad etdi.

Təhsil, elm, tədqiqat və yardım sahələrində təşəbbüslərin maliyyələşdirilməsi mexanizminin bir hissəsi olaraq maliyyə bacarıqlarının artırılmasına kömək etmək üçün 39 KOS-a 750.000 manatdan çox qrant verilib.

Azərbaycanda və digər ölkələrdə təşkil olunan 50 sərgi və yarmarkada təxminən 1300 KOS-un iştirakı müxtəlif sahibkarlıq subyektlərinin bazarlara çıxmasına kömək etmək üçün pulsuz olaraq təşkil edilmişdir. Agentliyin KOS-ların ticarət şəbəkələrinə girişinə yardım mexanizmi müxtəlif ticarət şəbəkələrində 25 sahibkar məhsulunun satışını asanlaşdırdı.

Sahibkarların dövlət-biznes və biznes-biznes xidmətlərini bir yerdə əldə edə biləcəyi KOS-ların sayı üçə çatıb və bu mərkəzlərdə biznes subyektlərinə təklif olunan xidmətlərin sayı 300 mindən çoxdur. Ölkənin digər böyük şəhərlərində və bölgələrində, eləcə də azad edilmiş torpaqları-mızda KOS evlərinin tikintisi üçün müvafiq işlər həyata keçirilir.

Hazırda ölkənin 41 şəhər və rayonunda fəaliyyət göstərən Agentliyin kiçik və orta sahibkar-lıq dostları yeni kiçik və orta sahibkarlıq subyektlərinin yaradılmasına və mövcud işlərin inkişafına, eləcə də onların investisiya təşəbbüslərinə və dövlət dəstək tədbirləri çərçivəsində sahibkarlıq maraqlarının qorunmasına xidmət göstərirlər. KOS-lara dəstək mexanizmi çərçivəsində bu günə qədər təxminən 370 sahə görüşü və təlim-tərbiyə tədbirləri təşkil edilib, təxminən 17000 KOS iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair" Strateji Yol Xəritəsində Azərbaycanın 2025-ci ilə qədərki dövr üçün uzunmüddətli məqsədi KOB subyektlərinin rəqabət qabiliyyətini gücləndirmək, gündəlik istehlak məhsullarının əsasən KOB subyektləri tərəfindən tədarük edilməsini təmin etmək və KOB subyektlərinin ÜDM və məşğulluq payını xeyli artırmaq əsas prioritet məsələ kimi qeyd olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərmanına əsasən ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inki-şafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi məsələləri ilə yanaşı sahibkarlığın inkişaf etdirilməsi və illər üzrə olan göstəricilərində öz əksini tapmışdır [2. https://e-qanun.az/]. Dövlət proqramları həyata keçirilib və bu prosesdə qanunvericilik bazası gücləndirilib, inzibati proseslər təkmilləşdirilib, vergi yükü azaldılıb və sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilib. Bütün bu inkişaflar sahibkarlığın inkişafı sahəsində həyata keçirilib. Ölkənin sahibkarlıq sektorunun inkişafı statistikası həyata keçirilən iqtisadi islahatların effektivliyini açıq şəkildə nümayiş etdirir. Sahibkarlığın inkişafı nöqteyi-nəzərindən, özəl sektorun "Azərbaycan İnvestisiya Şirkəti" (ASC), Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, "Aqrolizing" (ASC), AZPROMO və digər institusional mexanizimlər tərəfindən dəstəklənməsi əhəmiyyətlidir. Bundan əlavə, ölkənin maliyyə resurslarına çıxışını, yeni iqtisadi təməllər üzərində kreditlərin təminatı mexanizmlərini daha da yaxşılaşdırmaq, bu sahədə göstərilən xidmətlərin səviyyəsini artırmaq və rifahın yaxşılaşdırılması, sosial müdafiə və əhalinin layiqli həyat səviyyə-sini təmin etmək üçün görülən tədbirlərin səmərəliliyi və sistemliliyini daha da artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2017-ci il tarixli Sərəncamı ilə Azərbaycan Res-publikasının İpoteka və Kredit Zəmanət Fondunun qeyri-kommersiya hüququ özəlləşdirildi. Bundan əlavə, "Kiçik və orta sahibkarlıq sa-həsində idarəetmənin təkmilləşdirilməsinin davam etdirilməsi", su sahəsində investisiya və iş mü-hitinin daim təkmilləşdirilməsi, biznes fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və iqtisadiyyatın səmərəli əlaqələndirilməsi, mikro, kiçik və orta

sahibkarlığın iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması əsasında ölkə iqtisadiyyatında, bu sahədə idarəetmə sisteminin müasir tələblərə uyğunlaşdırılması, KOS-ların maliyyə resurslarına çıxışının genişləndirilməsi və institusional dəstək mexanizmlərinin yaradılması, sahibkarlıq üçün təhlükəsizlik qanuniyyətinin gücləndirilməsi və bölgədə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması. Mövcud qanunvericilikdə müəyyən edilmiş prosesə uyğun olaraq yaradılan dövlət dəstəyi proqramında əhalinin məşğulluq səviyyəsinin artırılması, miqrasiya siyasətinin həyata keçirilməsi və fövqəladə vəziyyətin nəticələrinin aradan qaldırılması ilə bağlı iqtisadi problemlərin həlli nəzərə alınmalıdır.

Vergi orqanları üçün vacib vəzifələrə sahibkarlığın və özəl sektorun inkişafını təşviq etmək daxildir. Bu hədəflərə müəssisələrə vergi yükünü azaltmaq, vergi təşviqləri təmin etmək və vergi ödəyiciləri üçün idarəetmənin asanlaşdırılması səyləri xidmət edir. Sabit bir iş mühiti yaratmaq üçün atılan addımlar sahibkarlığın inkişafı üçün yeni perspektivlər təqdim etdi. 2023-cü ildən etibarən qüvvədə olan vergi qaydalarında dəyişikliklər müəssisələr üçün fəaliyyətlərini genişləndirmək üçün əhəmiyyətli təşviqlər yaratdı. Məlum olduğu kimi, qlobal iqtisadi proseslər fonunda son illərdə müxtəlif idxal olunan kənd təsərrüfatı məhsullarının qiymətində artım müşahidə olunur. Bu amilləri nəzərə alaraq, Vergi Məcəlləsinə edilən dəyişikliklər vasitəsilə kənd təsərrüfatı emalı əməliyyatla-rında iştirak edən vergi ödəyicilərinə vergi güzəştləri verilib. Nazirlər Kabineti tərəfindən təsdiqlə-nən və idxal mallarını yerli istehsal malları ilə əvəz edəcək qida məhsullarının istehsalını həyata keçirən şəxslər, müvafiq siyahının təsdiqləndiyi ildən etibarən 7 il müddətində əldə etdikləri gəlirin (əldə etdikləri mənfəətin) 50% -i məbləğində gəlir vergisi, həmçinin istehsalda istifadə etdikləri əmlak və torpaq üçün əmlak və torpaq vergilərindən azad edilir.

NƏTİCƏ

Tədqiqatın yekununda qeyd edə bilərik ki, dövlət tərəfindən Sahibkarlığın İnkişafı Fonduna ayrılmış vəsaitin sahələr üzrə bölgüsünə və illər üzrə tendensiyasına baxdıqda sənaye sahələrinə maliyyə dəstəyi intensiv formadadır. Eyni zamanda, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə edilən vergi güzəştləri nəticəsində də sahibkarlığın bir çox sahəsində canlanma və motivasiya müşahidə olunur. İşğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərən rezidentlər də 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib və bu ərazidə aparılan yenidənqurma tədbirlərinin intensiv gedişinə zəmin yaradacaqdır. Dayanıqlı və güclü iqtisadi artım 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasına əsasən ölkənin iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracatının artması ilə təmin ediləcəkdir. Yüksək keyfiyyətli malların və xidmətlərin ixracı ilə ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə bağlanacaqdır. Bu məqsədlə daha sağlam və rəqabətli bir iş mühiti inkişaf etdiriləcək və hökumət sahibkarlığın inkişafı üçün əhəmiyyətli yardım göstərəcəkdir. Dövlətə məxsus hüquqi təşkilatların səmərəliliyi və hesabatlılığı artırılacaq. Nəticədə, ölkənin iqtisadiyyatı illik 3-4% artım sürəti ilə, qeyri-neft/qaz ÜDM-i illik 5% artım sürəti ilə artacaq. İqtisadiyyatda özəl sektorun payı 88%-ə qədər artırılacaq.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. A.B.Abbasov, S.A.Abbasov. Kiçik və orta sahibkarlığın idarə edilməsi. Dərslik – Monoqrafiya, Bakı Biznes Universiteti nəşriyyatı, Bakı, 2021, 384 s.
2. https://e-qanun.az/framework/41320
3. https://edf.gov.az/
4. https://www.stat.gov.az/source/entrepreneurship/
5. https://ereforms.gov.az/files/monitoring/pdf/az/cf190243de2a0ad004760f01cea2ea25.pdf

GƏNCLƏRİN YAŞ QRUPLARINA GÖRƏ BÖLGƏLƏR ÜZRƏ MƏŞĞULLUQ GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ

Ləman Şərifova
Bakı Mühəndislik Universiteti
Magistratura İqtisadiyyatının Tənzimlənməsi ixtisasının tələbəsi
lsherifova1@std.beu.edu.az

Xülasə

Müasir dövrdə hər bir dövlətin iqtisadi və sosial siyasətinin ən mühüm məqsədlərindən biri tam məşğulluğun təmin olunmasıdır. Çünki insan resurslarından səmərəli istifadə ölkənin iqtisadi inkişafında başlıca rol oynayır. Eyni zamanda məşğulluq ölkə əhalisinin həyat fəaliyyətinin və maddi rifahının əsasını təşkil edir. Buna görə də hər bir dövlət tam məşğulluğun təmin olunmasına ciddi önəm verir. Azərbaycan müstəqillik əldə etdikdən sonrakı illər ərzində yaradılan bu hüquqi-normativ baza əmək bazarının formalaşması, əmək münasibətlərinin təkmilləşdirilməsi, əməyin mühafizəsinə yönələn tədbirlərin həyata keçirilməsi, sosial təminatın yaxşılaşdırılması, əhalinin sağlamlığının qorunması və digər sahələri əhatə edir. Bizim tədqiqat işimizdə məşğulluğun əsas aspektləri verilmiş, ümumi olaraq Azərbaycanda və ayrı-ayrı bölgələrdə məşğulluğun dinamik göstəriciləri təhlil olunmuşdur.

Açar sözlər: Məşğulluq, regionlarda məşğulluq, əmək bazarı, əmək bölgüsü.

ANALYSIS OF YOUTH EMPLOYMENT INDICATORS BY REGIONS BY AGE GROUPS

Abstract

In modern times, one of the most important goals of the economic and social policy of every state is to ensure full employment. Because efficient use of human resources plays a major role in the country's economic development. At the same time, employment is the basis of life activity and financial well-being of the country's population. Therefore, every state attaches great importance to ensuring full employment. This legal-normative framework created during the years after Azerbaijan gained independence covers the formation of the labor market, the improvement of labor relations, the implementation of measures aimed at labor protection, the improvement of social security, the protection of the health of the population and other areas. In our research work, the main aspects of employment were given, dynamic indicators of employment in Azerbaijan and individual regions were analyzed in general.

Keywords: Employment, employment in regions, labor market, division of labor.

Giriş

Məşğulluqla bağlı məsələlərə diqqət edərkən özünü göstərən əsas məqamlar içərisində əmək bölgüsünün də mühüm rolu vardır. Məşğulluqla əmək bölgüsünün arasındakı bağlılığın və tamamlamanın açıq-aşkar göründüyü yuxarıdakı tarixi fakt sonrakı mərhələdə birinci ictimai əmək bölgüsünün (maldar tayfaların əkinçilikdən ayrılması), ikinci ictimai əmək bölgüsünün (sənətkarlar sinfinin yaranması) və üçüncü ictimai əmək bölgüsünün (tacirlərin meydana gəlməsi) baş verməsinə gətirib çıxarmışdır. Təbii ki, bütün bunlar da öz növbəsində həm cəmiyyətin inkişafına geniş imkanlar açırdı, həm iqtisadi münasibətlərin təkmilləşməsində yeni mərhələni təmin edirdi, həm də şüurlu iqtisadi fəaliyyəti özündə cəmləşdirirdi. İqtisadiyyat elmində müxtəlif iqtisadçılar tərəfindən məşğulluq anlayışına müxtəlif yanaşmalar irəli sürülmüşdür. Fikrimizcə, iqtisadi fəaliyyətin elə birinci mərhələsi məşğulluqla bağlıdır. Əgər, insanlar məşğul deyilsə, onda heç bir istehsal prosesi baş tuta bilməz, heç bir iqtisadi proses uğurlu nəticə gətirməz. Tarixi hadisələrə nəzər salarkən görünür ki, insanların hələ ibtidai istehsal üsulu dövründə əkinçiliklə məşğul olmaları, onların bu sahədə təcrübə toplamalarına səbəb olmaqla, həm də özlərinin əkinçilik məhsullarına olan tələbatlarını qarşılamalarına şərait yaradırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonrakı illər ərzində yaradılan bu hüquqi-normativ baza əmək bazarının formalaşması, əmək münasibətlərinin təkmilləşdirilməsi, əməyin mühafizəsinə yönələn tədbirlərin həyata keçirilməsi, sosial təminatın yaxşılaşdırılması, əhalinin sağlamlığının

qorunması və digər sahələri əhatə edir. Bu proqramların həyata keçrilməsi nəticəsində əhalinin məşğulluğu, işsizliyin aradın qaldırılması, əhalinin sağlamlığınının qoruması, zəruri "qida zənbilinə" uyğun olan minumum əmək haqqı ilə təmin olunması, sahibkar - işçi arasında əmək münasibətlərini tənzimləməsi və sair sahələrdə xeyli irəliliyişlər vardır. Bu proqramların həyata keçirilməsi sahəsində məşğul əhalini sayı artmışdır. Belə ki, statistik məlumatların təhlili göstərr ki, iqtisadsi fəal əhalinin ölkəinin əmək ehtyatlarına nisbəti 2013-cü ildəki 70%-dən 2017-ci ildə 76%-ə yüksəlməsi təmin edilmişdir. Bazar iqtisadiyyatı şəraitində əhalinin həyat səviyyəsi ilə bağlı bütün sosialiqtisadi problemlərin həllinə iqtisadi artım bilavasitə təsir göstərir [2].

Əmək bazarının formalaşmasında məşğulluğun rolu və tənzimləyici xüsusiyyətləri

Bazar iqtisadiyyatına keçidin başlanması və işsizliyin sürətlə artması ilə əlaqədar, məşğulluq problemi birinci dərəcəli problemə çevrilmişdir və tədqiqatçılar, praktiklər və siyasətçilər bu problemə get-gedə daha çox diqqət yetirməli olurlar. Məşğul əhali əsasən 3 qrupda təsnifləşdirilir Bunlardan birincisi və ən genişi muzdlu işçilərdir ki, inkişaf etmiş ölkələrdən onların xüsusi çəkisi 80%-dən artıq olur. İkincisi, iş adamları, sahibkarlıq fəaliyyəti ilə məşğul olub, muzdlu iş qüvvəsindən istifadə edənlərdir. Üçüncüsü isə özünüməşğulluqla məşğul olanlardır. Hansı ki, onlar əmtəə istehsalı və xidmətlər göstərilməsi ilə bağlı sərbəst əmək fəaliyyəti ilə məşğul olurlar. Eyni zamanda muzdlu işçi qüvvəsindən istifadə etmirlər. İqtisadi ədəbiyyatlarda məhğulluğun bir neçə növünə rast gəlinir.Bunlardan birincisi tam məşğulluqdur [3].

Qeyd edək ki, ümumi mənada və nəzəri olaraq məşğulluq probleminin həllində yaranan çətinliklərin əsas səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Diaqram 1. Məşğulluq probleminin həllində yaranan çətinliklər

Diaqramdan da gördüyümüz kimi, məşğulluq probleminin qarşısında duran əsas məsələlər ümumi iqtisadi siyasətin zəifliyi, ölkə əhalisinin artım problemi, əmək bazarında olan qanunauyğunluq problemləri, iqtisadi böhranlar və iqtisadi uğursuzluqlar, sosial-iqtisadi inkişafd olan çatışmazlıqlar və sairdir [4].

Əmək bazarının mövcud vəziyyətini təhlil etmək üçün aşağıdakı cədvəl məlumatlarını nəzərdən keçirə bilərik.

Cədvəl 1. Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri

	2010	2015	2018	2019	2020	2021	2022
Əhalinin orta illik sayı – min nəfər	9054,3	9649,3	9939,8	9931,2	10000,1	10044,7	10095,2
İşçi qüvvəsinin sayı- min nəfər	4587,4	4915,3	5133,1	5037,7	5089,9	5141,6	5194,4
Məşğul əhalinin sayı- min nəfər	4329,1	4671,6	4879,3	4785,6	4721,2	4831,1	4901,1
dövlət	1142,7	1176,1	1154,9	1146,1	1116,4	1089,2	1075,7
qeyri-dövlət	3186,4	3495,5	3724,4	3639,5	3604,8	3741,9	3825,4
İşsiz əhalinin sayı,min nəfər	258,3	243,7	253,8	252,1	368,7	310,5	293,3
Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz statusu verilmiş şəxslər, nəfər	38966	28877	20088	81272	...	...	...
onlardan işsizliyə görə müavinət alanlar	87	1543	1117	540	727	...	...
Məşğul qadınların sayı - min nəfər	2101,7	2263,4	2349,9	2274,5	2244,5	2304,3	2344,6
Muzdlu işçilərin sayı– min nəfər	1382,9	1502,5	1551,7	1646,6	1698,7	1709,1	1738,7
Orta aylıq nominal əməkhaqqı - manat	331,5	466,9	544,6	635,1	707,7	732,1	840,0
Kadrların peşə hazırlığı, nəfər	4792	7453	5629	5130	3478	3713	5372
İxtisaslarını artırmış rəhbər işçi və mütəxəssislərin sayı - nəfər	22326	13045	17676	26037	14122	14604	10628
İşçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, onların yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması üzrə çəkilən xərclər, milyon manat	5,8	11,0	11,6	11,6	5,8	9,2	11,9
İşçilərin peşə hazırlığının artırılmasına çəkilən xərclərin ümumi əmək xərclərində xüsusi çəkisi, faizlə	0,09	0,11	0,10	0,08	0,04	0,05	0,06

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

Cədvəli nəzərdən keçirdikdə görürük ki, 2010-2022 – ci illər üzrə statistik məlumatlarda illər üzrə artım müşahidə olunmuşdur. Belə ki, 2010 – cu ildə 4587,4 min nəfər olan işçi qüvvəsinin sayı 2022 – ci ildə 5194,4 min nəfər olmuşdur. Həmçinin məşğul əhalinin sayına nzər salsaq görərik ki, 2010 – cu ildə 4329,1 nəfər olan göstərici 2022 – ci ildə 4901,1 min nəfər olmuşdur. Statistik göstəricilərin bu cür yüksəlməsi, məşğulluqla bağlı atılan addımların öz səmərəsini verdiyini göstərir.

Cədvəl 2. Yaş qruplarına görə məşğulluq göstəriciləri (2023-cü il)

	Məşğul əhali, cəmi	o cümlədən təhsil üzrə						
		ali təhsil	orta ixtisas təhsili	peşə təhsili	tam orta təhsil	ümumi orta təhsil	ibtidai təhsil	təhsili yoxdur
Cəmi	**4901,1**	**824,1**	**548,8**	**278,4**	**2915,5**	**292,9**	**39,2**	**2,2**
15-19	90,8	-	5,5	2,4	67,8	14,9	0,1	0,1
20-24	434,8	77,9	51,7	20,4	239,0	45,3	0,3	0,2
25-29	667,4	168,9	78,9	24,7	353,9	39,9	0,8	0,3
30-34	743,5	97,0	58,8	35,9	519,8	29,5	2,2	0,3
35-39	659,9	93,4	42,1	40,7	461,3	19,1	2,9	0,4
40-44	615,1	73,9	61,1	38,0	407,8	30,3	3,8	0,2
45-49	564,9	94,9	69,5	36,4	337,2	22,8	3,9	0,2
50-54	555,3	78,3	81,8	29,4	337,2	24,5	3,9	0,2
55-59	371,2	108,2	73,7	26,3	125,3	31,6	6,0	0,1
60-64	152,9	26,6	19,6	17,5	61,2	20,2	7,6	0,2
65+	45,3	5,0	6,1	6,7	5,0	14,8	7,7	0,0

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

Tədqiqatımız bu hissəsində ayrı-ayrı yaş qruplarına əsasən mə.ğulluq göstəricilərini təhlil edəcəyik. Cədvəldən də göründüyü kimi 2023- ildə 30-34 yaş arasında orta gənc insanların məşğulluq dərəcəsi digərlərinə nisbətən yüksəkdir. Yüksək məşğulluq nəticələrinə görə həmin yaş aralığını 25-29 yaşlı gənclər izləyir. Cədvəldə həmçinin, təhsil səviyyəsi üzrə də məşğulluq dərəcələri əks olunmuşdur. Belə ki, ali təhsilli məşğul əhalinin böyük bir hissəsini 25-29 yaş arasındakı gənclər təşkil edir. Təhsil səviyyəsi üzrə məşğul əhalinin böyük bir qismini tam orta təhsilli şəxslər təşkil edir. Belə ki, müxtəlif yaş dövrləri üzün ən yüksək məşğulluq göstəricisi məhz tam orta təhsilli şəxslərə aiddir [1].

Regionlarda yaşayan gənclərin böyük əksəriyyətinin ali təhsildən uzaqlaşdığını nəzərə alsaq əslində problemin həlli özlüyündən meydana çıxır. Belə ki, kənd yerlərində yaşayan gəncləri ilk öncə təhsilə davam etmək üçün cəsarətləndirib, onların qarşısında duran problemləri həll etmək lazımdır. Bundan başqa gəncləri həmçinin peşə məktəblərinə də yönəldərək daha yararlı və bacarıqlı kadr kimi yetişməsinə dəstək olmaq lazımdır.

Cədvəl 3. İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə işçi qüvvəsinin sayı (ilin sonuna)

	2015	2019	2020	2021	2022
Azərbaycan Respublikası	4915300	5037659	5089850	5141564	5194362
Bakı şəhəri - cəmi	1188791	1224099	1237553	1245238	1253362
Naxçıvan Muxtar Respublikası - cəmi	231015	249018	251588	253678	256202
Abşeron-Xızı iqtisadi rayonu - cəmi	287218	402961	407797	409577	411842
Dağlıq Şirvan iqtisadi rayonu - cəmi	152887	153307	154223	157272	159920
Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi	316186	291141	293834	297839	301154
Qarabağ iqtisadi rayonu - cəmi	399092	351863	355965	359603	364332
Qazax-Tovuz iqtisadi rayonu - cəmi	335205	347912	349302	353216	357806
Quba-Xaçmaz iqtisadi rayonu - cəmi	259116	257572	261218	264100	267740
Lənkəran-Astara iqtisadi rayonu - cəmi	436895	453272	458241	462221	466476
Mərkəzi Aran iqtisadi rayonu- cəmi	354287	342430	346051	349482	353022
Mil-Muğan iqtisadi rayonu - cəmi	238596	258713	262596	265612	268562
Şəki-Zaqatala iqtisadi rayonu - cəmi	314901	338868	341040	347824	353212
Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi	164216	135735	136949	139415	140832
Şirvan-Salyan iqtisadi rayonu - cəmi	236895	230768	233493	236487	239900

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

Qeyd etdiyimiz kimi, tədqiqatımız əsas məqsədi Bakı və regionlar üzrə gənclərin mə.ğulluq göstəricilərini təhlil etməkdən ibarətdir. Yuxarıdakı cədvəldən də gördüyümüz kimi, ən yüksək məşğulluq göstəriciləri 2015 – 2022 – ci illər arasında Bakıda olmuşdur. Bu nəticə gözlənilməndir. Təbii ki, regionlarda məşğulluq səviyyəsinin aşağı olmasında əsas səbəblərdən biri, kifayət qədər iş yerlərinin olmaması və gənclərin kənd təsərrüfatına marağının azalmasıdır. CƏdvəl nəticələrinə baxdıqda onu da deyə bilərik ki, Bakıdan sonra yüksək nəticəl Lənkəran və Qarabağ iqtisadi zonasında olmuşdur. Həmçinin onu da qeyd etməliyik ki, işğaldan azad olunmuş torpaqların bərpası nəzdində regionlarda məşğulluq məsələləri bir qədər intensivləşmiş, bir çox yeni iş imkanları yaranmışdır.

Nəticə

Birmənalı şəkildə qeyd etmək lazımdır ki, cəmiyyətdə, dünyada bütün mənfi, pis proseslərin əsasında işsizlik, bütün müsbət, xoşməramlı proseslərin əsasında isə məşğulluq durur. Ümumiyyətlə, işsizlik iqtisadi proseslərin bir-birini izləməməsi və bir-birinə nisbəti şəklində baş verir. Qeyd etdik ki, işsizlik həm də cəmiyyətin üzvlərinin istək, mövqe və maddi gücündən asılı olmayaraq yaranır, özünə yer tapır. Beləliklə tədqiqatda qarşımıza qoyuduğumuz problemin nəticəsi olaraq deyə bilərik ki, regionlarda gənclərin məşğulluqdan uzaqlaşmasına əsas səbəb iş yeri çatışmazlığı, aşağı əmək haqqı və motivasiya əksikliyidir. Fikrimizcə, regionlarda müxtəlif sahələrdə iş yerlərinin açılması, gənclərin stimullaşdırılması, yeni peşə növlərinə yiyələnmələrini dəstəkləməklə onların məşğulluqdakə payını artırmaq mümkündür.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/labour/

2. Batt, R., & Appelbaum, E. (2013). *The impact of financialization on management and employment outcomes* (Upjohn Institute Working Paper No. 13-191). Retrieved July 26, 2017, from https://doi.org/10.2139/ssrn.2235748

3. Behling, F., & Harvey, M. (2015). The evolution of false self-employment in the British construction industry: A neo-Polanyian account of labour market formation. *Work, Employment and Society*, *29*(6), 969–988.10.1177/0950017014559960

4. Əliyev A. Ə., Quliyev A. S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.

5. Hüseynova L.N. Əmək bazarında işsizliyin səviyyəsinin izahedici faktorlardan asılılığının ekonometrik modelləşdirilməsi / Riyaziyyatın tətbiqi məsələləri və yeni informasiya texnologiyaları. III Respublika elmi konfransının materialları. Sumqayıt 2016, s.62-63

Hüseynova L.N. Əmək bazarının proqnozlaşdırılmasında kütləvi xidmət nəzəriyyəsi metodunun tətbiqinin bəzi məsələləri "Kooperasiya" elmi-praktiki jurnal. №1, 2017, s.53-59.